Azərbaycan Respublikasında milli təhsilin quruculuğu və davamlı inkişafının əsas müddəaları – həyata keçirilən islahatların milli-mənəvi dəyərlər kontekstində dərindən öyrənilməsi, təhsil sistemində milli dəyərlərdən, adət-ənənələrdən və XX əsrdə qazanılmış təcrübədən bəhrələnmənin zəruriliyi, hər bir zamanda mövcud vəziyyət və problemlərin hərtərəfli təhlil edilməsi və əsas vəzifələrin müəyyənləşdirilməsi, yeniliklərin inqilab yolu ilə deyil, təkamül yolu ilə həyata keçirilməsi, Azərbaycan təhsil sisteminin ümumbəşəri dəyərlərdən bəhrələnməsinə rəğmən milli dəyərlərə əsaslanması sonra formalaşan milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi çıxış edir [2].

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında iki istiqamətdə həyata keçirilməsi nəzərdə tutulan milli təhsil quruculuğu prosesi – konseptual əsaslarının formalaşdırılması ilə təhsil sahələrinin ahəngdar inkişafı vəhdətdə həyata keçirilir və məzmunu aşağıdakı prioritetləri özündə əks etdirir:

1. Böyüyən nəsil Azərbaycan qanunlarının aliliyini təmin etmək, insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq səyini yerinə yetirə bilmək üçün hazırlaşdırmalı və onun daşıyıcısı olmağı bacarmalıdır;

2. Azərbaycanın ərazi bütövlüyünü təmin etməli və qoruyub saxlamalıdır;

3. Təhsilin məzmunu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında yaradılmalıdır;

4. Böyüyən nəsil yüksək mənəviyyat ruhunda tərbiyələndirilməlidir;

5. Azərbaycan xalqının milli-mənəvi dəyərləri və ümumbəşəri dəyərlər hər bir gənc tərəfindən mənimsənilməlidir;

6. Böyüyən nəsil milli ruhda tərbiyə olunmalıdır;

7. Azərbaycan tarixi, dili, mədəniyyəti və dini dəyərləri təhsilin mənəvi əsasları olmalıdır.

8. Davamlı inkişaf tarixi-ədəbi-mədəni əsasın üzərində olmaqla milli təhlükəsizliyin qorunması istiqamətində həyata keçirilməlidir [2].

Yeri gəlmişkən, Azərbaycan Respublikasının dövlətçilik ideologiyası azərbaycançılıq olmaqla öz tərkibində dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər anlayışlarının üzvi vəhdətini əks etdirir[5]. Tarix boyu qazandığımız milli və mənəvi keyfiyyətlər bütövlükdə azərbaycançılıq ideologiyasında əks olunmaqla milli psixologiyamızı əks etdirir və milli təhsil sistemimizin bünövrəsini təşkil edir.

Dövlətçilik ideologiyasının formalaşmasında mühüm rol oynayan bu formalar özünün əxlaqi və etnik keyfiyyətlərinə görə bəşər mədəniyyətinin bir hissəsini təşkil edir.

Azərbaycan təhsilinin inkişaf istiqamətlərinin əksəriyyəti Heydər Əliyevin milli təhlükəsizlik konsepsiyasının cövhərini təşkil edən azərbaycançılıq ideologiyasının təməl prinsiplərini özündə ehtiva edən təhsil irsidir.

Milli təhsilimizin başlıca prioriteti olan azərbaycançılığın məqsədi yaşadığı məkandan asılı olmayaraq, hər bir azərbaycanlıya, soydaşımıza vətənpərvərlik hissini, tarixi torpaqlarımıza, dilimizə, mədəni irsimizə, dövlət rəmzlərimizə məhəbbət aşılatmaqdır. Bu ideologiya dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlını vahid amal, ideya və Vətən ətrafında birləşdirir. Dövlətimizin milli təhsil strategiyasının ideoloji mənbəsinin bitkin, dolğun, mükəmməl obrazını ifadə edən azərbaycançılıq ideologiyası daim öyrənilməsi vacib olan mükəmməl nəzəri-praktik ideoloji baza, Azərbaycan insanının dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusudur.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında xalqımızın fundamental dəyər və məqsədləri, milli maraqları, habelə milli-mənəvi hədəfləri cəmiyyətimizin və dövlətimizin tərəqqisini təmin edən sosial və digər tələbatların məcmusu kimi göstərilir və azərbaycançılıq ideyasının təşviqinə mühüm əhəmiyyət verilir[1].

Milli təhsil strategiyamızda təhsilin dünya standartlarına uyğunlaşdırılması ilə əlaqədar, təhsil sahəsində ümumbəşəriliyə xidmət edən dövlət siyasətinin əsas prinsiplərindən olan demokratikliyin də yolunun milli mənəviyyatdan keçdiyi irəli sürülür: Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir [3, s. 339].

Azərbaycan Respublikasının həyata keçirdiyi siyasi kursun, əsaslandığı ideologiyanın, tutduğu inkişaf yolunun məntiqi nəticələrindəndir ki, bu gün o, Şərq dünyasında, o cümlədən İslam dünyasında ilkin mövqelərdən birini tutur. Bununla bərabər Qərb mədəniyyəti ilə sıx təmasdadır. Qərb dünyasının bir sıra qlobal layihələri bu gün Azərbaycan Respublikasında gerçəkləşdirilir. Azərbaycanda milli və dini kontekstdə tolerantlıq bütün dünya ölkələri üçün nümunə sayıla bilər. Lakin bununla belə, ölkəmizdə milli özünəməxsusluğumuz da unudulmur və milli mədəniyyətimizin inkişafı istiqamətində də böyük addımlar atılır. Azərbaycanın Şərqlə Qərb arasında vəhdət modeli kimi nümunəsi məhz Heydər Əliyevin memarı olduğu milli ideologiya konsepsiyasının, başlıca komponentlərinin, əsas istiqamətlərinin, gerçəkləşməyinin nəticəsidir.

Nəticə etibarilə demək olar ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda qazanılan uğurlar milli təhsil tendensiyalarına üstünlüyün verilməsi və strateji əhəmiyyətli bir sahə kimi, milli təhlükəsizliyin təmin olunması sisteminin təşkili kimi ona xüsusi diqqət yetirilməsinin nəticəsində mümkün olmuşdur.

Problemin aktuallığı. Ümummilli Lider Heydər Əliyevin milli təhsil quruculuğundakı geniş və hərtərəfli fəaliyyəti, təhsil irsi milli təhlükəsizliyimizin tərkib hissəsi kimi bir fundamental konsepsiya təşkil edir. Dövlətimizin davamlı inkişafında, onun milli təhlükəsizliyinə təhdid yarada bilən amillər kontekstində bu irsin milli təhlükəsizliyin ən etibarlı meyarı və başlıca prioriteti kimi öyrənilməsi öz aktuallığı ilə seçilir.

Problemin yeniliyi. Heydər Əliyevin milli təhsil konsepsiyası dövlətimizin milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi tədqiq edilir.

Problemin praktik əhəmiyyəti. Məqalədə diqqət yetirilən məsələlər təhsilşünas dövlət xadimi Heydər Əliyevin irsini araşdıranlar, öyrənənlər üçün əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. https://e-qanun.az/framework/13373
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı https://e-qanun.az/framework/5363
3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr,– 1997. – c. 2. – 601 s.
4. Əliyev H., Təhsil millətin gələcəyidir /H. Əliyev. – Bakı: Təhsil, – 2002. – 510 s.
5. Xəlilov, S. Heydər Əliyev və müasir mərhələdə milli ideyanın təməl prinsipləri // Xalq qəzeti. – 2011, 13 dekabr. –№275. –s. 3-4
6. Xəlilov, S. S. Lider, Dövlət, Cəmiyyət / S. Xəlilov. – Bakı: Azərbaycan Universiteti, – 2001. – 358 s.

Redaksiyaya daxil olub: 29.09.2025

UOT 37.01

Adilə Həsən qızı Nəzərova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-4340-6882
E-mail: adile1970@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).17-20

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞI MİLLİ TƏRBİYƏ KONTEKSTİNDƏ

Adila Hasan Nazarova
leading researcher
at the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in philology

BAKHTIYAR VAHABZADE'S CREATIVITY IN THE CONTEXT OF NATIONAL EDUCATION

Адила Гасан гызы Назарова
ведущий научный сотрудник
Института Образования Азербайджанской Республики
доктор философии по филологии

ТВОРЧЕСТВО БАХТИЯРА ВАГАБЗАДЕ В КОНТЕКСТЕ НАЦИОНАЛЬНОГО ВОСПИТАНИЯ

Xülasə. Məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı milli tərbiyə aspektindən təhlil olunur. Şairin əsərlərinin vətənpərvərlik, ana dili sevgisi, milli kimliyin qorunması və mənəvi-əxlaqi dəyərlərin təbliği baxımından pedaqoji əhəmiyyəti araşdırılır. "Gülüstan", "Ana", "Ana dili", "Qarabağ atı", "Özüm olmalıyam", "Torpaqdan pay olmaz" kimi şeirlərindən gətirilən nümunələrlə müəllifin həm şair, həm də pedaqoq kimi fəaliyyəti işıqlandırılır, onun yaradıcılığının təhsil prosesində milli-mənəvi tərbiyənin mühüm resursu olduğu əsaslandırılır.
Açar sözlər: *Bəxtiyar Vahabzadə, milli tərbiyə, pedaqoji əhəmiyyət, vətənpərvərlik, ana dili, mənəvi-əxlaqi dəyərlər*

Abstract. The article analyzes the work of the prominent Azerbaijani poet Bakhtiyar Vahabzade from the aspect of national education. The pedagogical significance of the poet's works in terms of patriotism, love of the native language, protection of national identity and promotion of moral and spiritual values is examined. With examples from his poems such as "Gulustan", "Mother", "Mother language", "Karabakh horse", "I must be myself", "There is no share of the land", the author's activity as both a poet and a teacher is highlighted, and it is substantiated that his work is an important resource of national and spiritual education in the educational process.
Keywords: *Bakhtiyar Vahabzade, national upbringing, pedagogical significance, patriotism, mother tongue, moral-ethical values*

Аннотация. В статье анализируется творчество выдающегося азербайджанского поэта Бахтияра Вагабзаде с точки зрения национального воспитания. Рассматривается педагогическое зна-

чение произведений поэта в воспитании патриотизма, любви к родному языку, защите национальной идентичности и пропаганде морально-нравственных ценностей. На примерах из его стихотворений «Гюлистан», «Мать», «Родной язык», «Карабахский конь», «Я должен быть собой», «Нет доли от земли» освещается деятельность автора как поэта и педагога, обосновывается, что его творчество является важным ресурсом национально-духовного воспитания в образовательном процессе.

Ключевые слова: *Бахтияр Вахабзаде, национальное воспитание, педагогическое значение, патриотизм, родной язык, нравственно-этические ценности*

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə yalnız ədəbiyyatın deyil, həm də milli tərbiyə sisteminin əsas simalarından biridir. Onun şeirləri və digər bədii əsərləri, xüsusilə sovet dövründə, milli şüurun formalaşmasına və inkişafına, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə əhəmiyyətli təsir göstərmişdir. Şairin şeirlərində vətən sevgisi və milli kimlik mövzusu mərkəzi yer tutur. "Gülüstan" poemasında xalqımızın qarşılaşdığı ən böyük faciə – vətənin ikiyə bölünməsi poetik şəkildə təsvir edilir.

Arazın suları qəzəbli, daşqın,
Şirin nəğmələri ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.

Göründüyü kimi, bu şeir həm milli şüura, həm də insani dəyərlərə hörmət oyadır. Vətənin yalnız coğrafi məkan olmadığını, onun həm də tarixi mədəni dəyərlərlə bağlı olduğunu göstərir. (1)

İki yüz ildən artıq davam edən ayrılıq ağrısı, həsrət bu misralarda canlı şəkildə təqdim olunur.

Dayanıb Arazın bu tayında mən
"Can qardaş" deyirəm, o da "can" deyir.
Ey zaman, sorğuma cavab ver, nədən
Səsim yetən yerə, əlim yetməyir? (4, s.76)

Poemanın sovet dövründə uzun müddət nəşrinə qadağa qoyulması da təsadüfi deyil. Çünki "Gülüstan" təkcə poetik əsər deyil, milli yaddaşı oyadan, azadlıq arzusunu gücləndirən, milli birliyə çağıran ideoloji sənəd olaraq dəyərləndirilir. Bədii-poetik şəkildə, gizli alt mənalarla ötürülən bu mesajlar xalqın yaddaşında milli mübarizə ruhunun qorunmasına xidmət edib və etməkdədir.

Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

Pedaqoji baxımdan "Gülüstan"ın əhəmiyyəti bir neçə yöndən dəyərləndirilə bilər:

− Poema gənclərdə milli kimlik sevgisi oyadır, oxucunun qəlbində torpağa, yurda bağlılıq hissini gücləndirir. Bu, vətənpərvərlik tərbiyəsinin ən güclü vasitələrindən biridir.

− Əsər gənclərə öyrədir ki, xalqın gücü birliyindədir. Parçalanmış vətən obrazı milli birliyin zəruriliyini göstərir, birlik və ailə bağlarının qopmasının ağrılı təzahürü gənc nəsili bu kimi dəyərləri qorumağa təşviq edir.

− "Gülüstan" yalnız siyasi və tarixi mövzu deyil, həm də insani və mənəvi dəyərləri ehtiva edir.

Beləliklə, "Gülüstan" poemasında qoyulan problem bu gün də hər birimizi düşündürür. Eyni zamanda əsərin orta və ali məktəblərdə tədrisi qoyulan problem baxımından önəmlidir.

Azərbaycan ədəbiyyatının, xüsusilə də XX əsr poeziyasının zirvələrindən biri olan B. Vahabzadənin əsərlərində müdrik həyat müşahidələri, xalqın tarixi yaddaşı və gəncliyi oyadan mənəvi dəyərlər zəngin şəkildə öz əksini tapır.

Şairin yaradıcılığında əsas ideya xətti vətən sevgisidir. Onun misralarında torpağın qoxusu, Xəzərin nəfəsi, Arazın səsi duyulur. Şair dəfələrlə vurğulamışdır ki, vətənsiz və millətsiz şair ola bilməz. Bu, pedaqoji baxımdan böyük əhəmiyyət daşıyır. Çünki gənclər şairin əsərlərini oxuduqca torpağa bağlılıq, milli kimliyini qorumaq və vətənə sədaqət kimi dəyərləri öyrənirlər.

B. Vahabzadə yalnız şair deyil, həm də dramaturq və alim kimi fəaliyyət göstərmiş, 70-dən artıq kitab, monoqrafiya və yüzlərlə məqalə yazmışdır. Bu zəngin irs həm sənət, həm də milli şüurun gücləndirilməsi baxımından böyük rol oynayır. Beləliklə, B. Vahabzadənin yaradıcılığı həm bədii-estetik, həm də pedaqoji mənbə kimi dəyərlidir.

Azərbaycan poeziyasının inkişafında olduğu qədər vətəndaşlıq ruhunun formalaşmasında da B. Vahabzadənin xüsusi xidmətləri vardır. Şair dilimizin poetik imkanlarından ustalıqla istifadə edərək fəlsəfi məzmunlu lirikanın unikal nümunələrini yaratmışdır. Onun yaradıcılığı mənəvi ucalıq, insanın və zamanın mənası, təbiət və həyat haqqında dərin düşüncələrlə zəngindir. Bu xüsusiyyətləri ilə B. Vahabzadənin əsərləri yalnız ədəbi-estetik dəyər kəsb etmir, həm də gənclərin mənəvi və vətənpərvər tərbiyəsində

effektiv pedaqoji vasitədir. Onun poeziyası ədəbi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmış və tədris prosesində milli-mənəvi dəyərlərin aşılanması üçün əvəzsiz resurs olmuşdur.

Şairin yaradıcılığında Qarabağ mövzusu da mühüm yer tutur. "Qarabağ atı" şeirində milli ruhu, igidliyi və mübarizəni simvolizə edən obrazlar gənclərin düşüncə tərzinə, dünyagörüşünə təsir edən pedaqoji mənbə rolunu oynayır.

Qarabağın cins atları –
hünərimin kişnərtisi,
Toppuzların gurultusu,
Qılıncların parıltısı,
Neştər səsi!
Qarabağın kürən atı –
Döyüşlərdə arxasıdır
Koroğlunun,
Bayandurun.
Cilovunu gəmirdimi,
hünəriniz varsa əgər o qızmamış,
Qamçıların hədəsinə dayandırın!

Nümunədən də göründüyü kimi bu misralarda sözlərin enerjisi və poetik gücü olduqca yüksəkdir. Məsələn: "Hünərimin kişnərtisi", "Toppuzların gurultusu", "Qılıncların parıltısı", "Neştər səsi" kimi ifadələrdəki səslər bir-birinə ritmik və təsirli şəkildə qoşulur. "K", "q", "t" kimi sərt səslər döyüşün və qəhrəmanlığın gücünü çatdırır. Bu da oxucuya sanki döyüş səsini və atların hərəkətini duymaq imkanı verir. Burada atar Qarabağın igidliyi, mübarizəsi və qəhrəmanlığı ilə simvolizə olunur. Misraların həyəcanlı dili fəth ruhu yaradır.

Atların hərəkəti və döyüş səhnəsi, sözlərin ritmi və təsviri oxucuda adrenalini artırır, oxu enerjisini yüksəldir. Şeir bütövlükdə yüksək poetik enerji ilə doludur.

Şairin 1966-cı ildə yazdığı "Torpaqdan pay olmaz" şeirində ifadə olunan torpağın yalnız qan və mübarizə ilə qorunacağı fikri 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə birbaşa əlaqələndirilə bilər. Şeirdəki misralar:

Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı ancaq
Qanla möhürləyib, zorla alarlar.

Bu misralar gəncləri doğma torpaq uğrunda mübarizəyə çağırır. Zəfərlə nəticələnən Vətən müharibəsi zamanı Azərbaycan ordusunun qəhrəmanlığı və xalqın birliyi şairin bu sözlərini reallığa çevirdi. Qarabağın azad olunması, torpağın qan və igidliklə qorunması, B. Vahabzadənin əsərindəki ideyanı təsdiqlədi.

Bu şeir və onun müasir hadisələrlə uyğunluğu gənclərə göstərir ki, vətənə bağlılıq təkcə sözlə deyil, həm də hərəkət və fədakarlıqla təsdiqlənməlidir. Müharibə və zəfər nümunəsi vasitəsilə gənclərə milli şüur, torpağa sahiblik və vətənpərvərlik hissləri aşılanır. Bu baxımdan şeir həm ədəbi, həm də pedaqoji resurs kimi qiymətlidir.

Azərbaycan poeziyasında ana obrazı həmişə müqəddəs və bəşəri bir rəmz kimi təqdim olunub. Bu obraz B. Vahabzadənin "Ana" şeirində yalnız ədəbi sənət nümunəsi deyil, həm də gənclərin mənəvi və psixoloji tərbiyəsi üçün dərin məna daşıyır. Şair ana obrazını sadəcə bioloji varlıq kimi deyil, insanın mənəvi bütövlüyünü, vətənə və xalqa bağlılığını, şəfqət və mərhəməti təcəssüm etdirən rəmz kimi təqdim edir. Bu yanaşma gənclərin həm ailəyə, həm də milli-mənəvi dəyərlərə hörmət və sevgi hissinin formalaşmasında mühüm pedaqoji vasitədir.

B. Vahabzadə yaradıcılığında ana dilinə xüsusi önəm vermişdir. Hələ sovet dövründə "Ana dili" (1959), "Dilimiz" (1971), "Ana dili – ana südü kimidir" (1968) və "Sənin dilin sənin varlığındır" (1976) kimi şeirlərilə dilin xalqın milli varlığının, tarixi yaddaşının və mənəviyyatının əsas dayağı olduğu həqiqətini unudulmağa qoymamışdır.

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək!

Nümunələrdən göründüyü kimi, dil mövzusu şairin yaradıcılığında milli kimliyin qorunmasının əsas dayaqlarından biri kimi təqdim olunur.

"*Şairin yaradıcılığı bütün təşəkkül mərhələlərində öz fərdi-poetik ruhu və xüsusiyyətlərini qoruyub saxlamış, məxsusi olmuşdur. Bunların sırasında milli-mənlik mövzusu həmişə seçilən olmuşdur. Bu mənada "Biz kimik" şeiri seçilənlər sırasındadır."* (2, s.7)

Uzun illər düşünmüşəm:
Millətlərin cərgəsində biz də varıq,
Yurdumuza qəsd edənin
Gözlərini oyanlarıq.
Biz o qədər nəcibik ki,
Bir balaca işarədən söz anlarıq,
Haqla zoru ayırd edib,
Öz yerinə qoyanlarıq.

Bu əsərlər, pedaqoji baxımdan, şagirdlərə ana dilinin müqəddəsliyini və qorunmasının vacibliyini göstərən əsas vasitələrdir. Dil vasitəsilə milli kimliyin qorunması və inkişafı məsələsi, şairin yaradıcılığında əsas mövzulardan biridir.

B. Vahabzadənin şeirlərində yalnız estetik zövq deyil, həm də əxlaqi prinsiplər ön plana çıxır. Dürüstlük, ədalət, humanizm kimi dəyərlər onun yaradıcılığında əsas yer tutur və gənc oxuculara mənəvi tərbiyə vasitəsi kimi çatdırılır. Şeirlər təhsil, məktəb quruculuğu, gənclərin milli mənəvi və əxlaqi tərbiyəsi və təlimi, müəllim haqqında fikirlərini və s. məsələləri açmağa imkan verir.

Məsələn, "Qiymət" şeirində: *"Yarıya bölünür günüm, saatım, / Vaxt mənim sərvətim, mənim varımdır. / Müəllimlik mənim günüm, həyatım, / Şairlik – ən uca duyğularımdır. (5, s.365)*

"Özüm olmalıyam" şeirində şair özünü dərk etməyin və öz kimliyini tapmağın vacibliyini vurğulayır. Mənə görə bu şeir bütövlükdə gənclərin şəxsiyyət kimi formalaşmasına və mənəvi inkişafına xidmət edən bir poetik nümunədir.

Bildiyimiz kimi, B. Vahabzadə həm də müəllim kimi fəaliyyət göstərmiş, gənclərə ədəbi və mənəvi dəyərləri çatdırmışdır. Onun pedaqoji yanaşması şagirdlərlə ünsiyyətdə hörmət və inam prinsipinə əsaslanırdı. Bu, onun yaradıcılığı ilə birləşərək təlim-tərbiyə prosesinə birbaşa təsir göstərirdi.

S.Y. Kərimova "B. Vahabzadənin pedaqoji görüşləri" adlı dissertasiyasında qeyd edir ki, *"Şair – mütəfəkkir Bəxtiyar Vahabzadənin təhsilə, pedaqoji problemlərə münasibəti heç də onun nəzəri müddəalarından irəli gəlmir. ...Müntəzəm olaraq müəllimlərlə, tələbələrlə qarşılıqlı əlaqəli münasibət, tədris planları və proqramları, dərsliklərlə işləmək ona imkan vermişdir ki, təhsilin, pedaqoji problemlərin keçilmiş yoluna baxsın, bu günü ilə yaşamaqla bərabər sabahını görsün."* (1, s.5)

B. Vahabzadənin yaradıcılığı milli tərbiyə baxımından zəngin və çoxşaxəlidir. Onun "Azərbaycan", "Dağlar", "Qarabağ", "Vətən", "Şəhidlər", "Müharibə" "Bayrağım", "Vətənim mənim", "Torpaq", "Yurdum" və s. şeirləri yalnız ədəbi sənət nümunəsi deyil, həm də gənclərin mənəvi, əxlaqi və intellektual inkişafına xidmət edən mənbədir.

Bu il şairin 100 illiyini qeyd edərkən, biz yalnız böyük şairi deyil, həm də böyük bir pedaqoqu xatırlayırıq. B. Vahabzadənin əsərləri gələcək nəsillər üçün də həm estetik, həm də milli-tərbiyəvi rol oynayacaqdır.

Problemin aktuallığı. B. Vahabzadənin əsərləri bu gün də təhsil və tərbiyə prosesində gənclərin milli kimliyini və vətənə bağlılıq hissini gücləndirməkdə davam edir və milli tərbiyə gənclərin mənəvi-əxlaqi inkişafı baxımından müasir dövrdə də aktualdır.

Problemin yeniliyi. Yaradıcılığının pedaqoji aspektlərinin araşdırılması göstərir ki, şairin əsərləri sadəcə bədii sənət nümunəsi kimi deyil, həm də təlim-tərbiyə prosesi üçün zəngin resurs kimi dəyərləndirilə bilər.

Praktik əhəmiyyəti. Tədqiqatın nəticələri təhsil və tərbiyə sahəsində çalışan müəllimlər, ədəbiyyat müəllimləri və pedaqoji tədqiqatçılar üçün faydalı ola bilər. Həmçinin, şagirdlərin koqnitiv və kritik düşüncə, estetik zövq və milli şüur inkişafına töhfə verən pedaqoji resurs kimi dəyərləndirilə bilər.

Ədəbiyyat

1. Kərimova, S.Y. Bəxtiyar Vahabzadə yaradıcılığında tərbiyə məsələləri / S.Y. Kərimova. –Bakı: Nurlan, –2009. –156 s.
2. Nəbibəyli, Z. Bəxtiyar Vahabzadənin milli-mənəvi Portreti / Z. Nəbibəyli – Bakı: Ecoprint, 2022. –164 s.
3. Rzabəyli J. Poeziyanın vətənpərvərlik hisslərinin tərbiyəsinə təsiri böyükdür. 01.08.2013 https://www.olimpnews.az/post/1519/poeziyanin-vetenperverlik-hisslerinin-terbiyesine-tesiri-boyukdur-1519?utm_source=chatgpt.com
4. Vahabzadə, B. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). – Bakı: Öndər, – 2004. – 320 s.
5. Vahabzadə, B. Seçilmiş əsərləri, 2 cilddə, II c. – Bakı: Yazıçı, – 1984. – 458 s.

Redaksiyaya daxil olub: 30.09.2025.

UOT 37.01

Sevda Hidayət qızı Axundova
Azərbaycan Dövlət Pedaqoji Universitetin
nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin
direktor müavini
https://orcid.org/0000-0001-9192-2307
E-mail. sevda.appp@icloud.com
*https://doi.org/*10.69682/arti.2025.92(6).21-26

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA MİLLİ AZADLIQ İDEYALARININ BƏDİİ TƏCƏSSÜMÜ

Sevda Hidayat Akhundova
deputy director of the Azerbaijan State Pedagogical College
under the Azerbaijan State Pedagogical

THE ARTISTIC REFLECTION OF NATIONAL FREEDOM IDEAS IN BAKHTIYAR VAHABZADA'S POETRY

Севда Хидайят гызы Ахундова
заместитель директора Азербайджанского Государственного Педагогического Колледжа
при Азербайджанском Государственном Педагогическом Университете

ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ИДЕЙ НАЦИОНАЛЬНОЙ СВОБОДЫ В ПОЭЗИИ БАХТИЯРА ВАГАБЗАДЕ

Xülasə. Bu elmi məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin poeziyasında milli azadlıq ideyalarının bədii ifadəsi tədqiq olunur. Əsərlərindən seçilmiş nümunələrin məzmun və forma analizi əsasında göstərilir ki, şairin yaradıcılığında milli ruh, vətən sevgisi, azadlıq uğrunda mübarizə və milli-mənəvi dəyərlərin qorunması əsas motivlər kimi çıxış edir. Vahabzadənin "Gülüstan", "Azərbaycan", "Vətənə qayıdış" və digər şeirləri vasitəsilə o, sovet senzurası şəraitində belə xalqının azadlıq arzusunu incə metaforalar, simvollar və lirik obrazlar vasitəsilə ifadə etmişdir. Məqalədə həmçinin şairin azadlıq ideyasını tarixi hadisələrə münasibətdə necə təqdim etdiyi, poeziyasının ideoloji və estetik funksiyası da təhlil olunur. Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, Bəxtiyar Vahabzadənin poeziyası təkcə bədii-estetik baxımdan deyil, eyni zamanda ictimai-siyasi və mədəni kimliyin qorunması baxımından da mühüm əhəmiyyətə malikdir.
Açar sözlər: *Bəxtiyar Vahabzadə, milli azadlıq, poeziya, vətənpərvərlik, ideoloji mübarizə*

Abstract. This article examines the artistic expression of national freedom ideas in the poetry of prominent Azerbaijani poet Bakhtiyar Vahabzada. Based on the content and stylistic analysis of selected works, it is demonstrated that national spirit, love for the homeland, struggle for freedom, and the protection of national and moral values stand out as key motifs in his creative output. Through poems such as "Gülüstan", "Azerbaijan", and "Return to the Homeland", the poet articulates the aspirations of his people for independence – even under Soviet censorship – by employing subtle metaphors, symbolic language, and lyrical imagery. The article also analyzes how Vahabzade presents the idea of freedom in relation to historical events, and explores the ideological and aesthetic functions of his poetry. The study concludes that Vahabzade's poetic legacy holds not only literary-aesthetic value but also plays a significant role in preserving the national identity and socio-political consciousness.
Keywords: *Bakhtiyar Vahabzade, national freedom, poetry, patriotism, ideological struggle*

Аннотация. В данной научной статье исследуется художественное воплощение идей национального освобождения в поэзии выдающегося азербайджанского поэта Бахтияра Вагабзаде. На основе анализа содержания и формы отдельных образцов из его произведений показано, что национальный дух, любовь к Родине, борьба за свободу и защита национально-духовных ценностей выступают

основными мотивами в творчестве поэта. В стихотворениях «Гюлистан», «Азербайджан», «Возвращение на Родину» и других, Вагабзаде выразил стремление своего народа к свободе посредством тонких метафор, символов и лирических образов даже в условиях советской цензуры. В статье также анализируется, как поэт представляет идею свободы в связи с историческими событиями, и идейно-эстетическая функция его поэзии. В результате исследования делается вывод о том, что поэзия Бахтияра Вагабзаде имеет большое значение не только с художественно-эстетической точки зрения, но и с точки зрения сохранения социально-политической и культурной идентичности.

Ключевые слова: *Бахтияр Вагабзаде, национальное освобождение, поэзия, патриотизм, идеологическая борьба*

Giriş

Azərbaycan ədəbiyyatı tarixən milli ruhun, azadlıq ideyalarının və ictimai şüurun daşıyıcısı olmuşdur. Xüsusilə sovet dövründə sərt senzura şəraitində milli kimliyin və mənəvi dirənişin qorunmasında poeziya mühüm vasitəyə çevrilmişdir. Bu baxımdan Bəxtiyar Vahabzadənin yaradıcılığı milli təfəkkürün və azadlıq idealının bədii ifadəsində xüsusi əhəmiyyət kəsb edir [4, s. 96]. Vahabzadə "Gülüstan", "Azərbaycan", "Latın dili", "Ana dili" kimi əsərlərində azadlıq ideyasını həm siyasi, həm də mənəvi kontekstdə təqdim etmişdir. Şair senzura şəraitində belə milli şüuru oyatmağı, tarixi məsuliyyət hissini formalaşdırmağı qarşısına məqsəd qoymuşdur [2, s. 78; 5, s. 60].

Müstəqil dövlətçilik, milli şüur və mənəvi kimlik məsələləri bu gün də Azərbaycan cəmiyyətinin qarşısında duran əsas strateji prioritetlərdəndir. Qloballaşma, mədəni assimilyasiya, dil və dəyər dəyişiklikləri fonunda milli kimliyin qorunması aktuallığını daha da artırmışdır. Bu baxımdan, Bəxtiyar Vahabzadə kimi sənətkarların yaradıcılığında ifadə olunan azadlıq ideyalarının, milli birliyə çağırışların və tarixi yaddaşın poetik şəkildə qorunub yaşadılması xüsusi elmi və ictimai əhəmiyyət daşıyır. Onun poeziyası çağdaş dövrdə gənc nəslin milli-mənəvi dəyərlərlə tərbiyəsində mühüm mənbə rolunu oynayır.

Tədqiqatın məqsədi Bəxtiyar Vahabzadə poeziyasında milli azadlıq ideyasının poetik sistemini və ictimai funksiyalarını təhlil etməkdir. Mövzu bu gün də milli kimliyin qorunması baxımından aktuallığını qoruyur [7, s. 101].

Əsas hissə

1. Milli azadlıq ideyasının formalaşmasında tarixi kontekst

Azərbaycan xalqının milli azadlıq ideyası əsrlərlə formalaşmış tarixi təfəkkürün, mədəni yaddaşın və mənəvi dəyərlərin təbii nəticəsidir. Xalqımız müstəqillik uğrunda mübarizəsini yalnız silahla deyil, həm də ədəbiyyat və fikir vasitəsilə həyata keçirmişdir. Xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərində maarifçilik hərəkatı, milli mətbuat və klassik poeziyada azadlıq ideyasının ifadəsi bu istiqamətin bədii əsaslarını yaratmışdır [7, s. 101].Sovet ideoloji sistemində milli azadlıq anlayışının açıq ifadəsi qadağan olunsa da, poeziya milli kimlik və düşüncənin yaşadılmasında mühüm rol oynamışdır. Bu baxımdan Bəxtiyar Vahabzadənin yaradıcılığı milli azadlıq ideyasının poetik-fəlsəfi səviyyədə ifadəsinin əsas mərhələsi kimi çıxış edir [4, s. 96]. Xüsusilə "Gülüstan" poemasında Araz çayı parçalanmış xalqın simvoluna çevrilir. Burada milli ayrılıq fiziki deyil, mənəvi travma kimi təqdim olunur və bütövləşmə arzusunu ifadə edir [1, s. 102].Şairin "Azərbaycan", "Ana dili", "Vətənə qayıdış" kimi şeirlərində milli ideya, dil və tarixi yaddaş çağırışı poetik şəkildə simvollaşdırılır [5, s. 60]. Vahabzadə milli ağrı, qürur və dirənişi lirizm və metaforlarla birləşdirərək milli şüurun poeziyada yaşamasını təmin etmişdir [8, s. 118].Beləliklə, onun yaradıcılığı azadlıq düşüncəsinin ədəbi-fəlsəfi sistemini formalaşdıraraq, milli kimliyin qorunmasında mənəvi dayağa çevrilmişdir [2, s. 92].

2. Sovet senzurası və poetik müqavimət formaları

Sovet dövründə senzura ədəbi düşüncənin sərhədlərini ciddi şəkildə müəyyənləşdirən ideoloji mexanizm idi. Bu dövrdə azad fikir və milli ideyalar birbaşa ifadə oluna bilmədiyi üçün, şairlər dolayısı ilə – simvollar, alleqoriyalar, metaforalar və lirizm vasitəsilə – xalqın duyğularını poetik şəkildə əks etdirməyə çalışırdılar [4, s. 96]. Bəxtiyar Vahabzadə bu kontekstdə azad düşüncəni "poetik müqavimət" səviyyəsinə qaldıran sənətkarlardandır. Onun yaradıcılığı senzura ilə qarşıdurmanın bədii təzahür formalarının parlaq nümunəsidir. Aşağıdakı cədvəldə Vahabzadə poeziyasının senzura şəraitində milli ruhu qorumaq üçün istifadə etdiyi bədii strategiyalar və poetik vasitələr təhlil olunur:

Cədvəl 1. Vahabzadə poeziyasında bədii strategiyalar və poetik vasitələr təhlil

Poetik strategiya	Təsvir və tətbiq sahəsi
Simvolik dillə ideoloji ötürmə	Şair azadlıq ideyasını birbaşa ifadə edə bilmədiyi üçün onu simvolik obrazlar vasitəsilə təqdim edirdi. "Zəncir", "Araz", "səssiz hayqırtı" kimi ifadələr azadlıq məfhumunun poetik kodlarına çevrilmişdir. Bu vasitə senzura nəzarətindən yayınaraq milli təfəkkürü oxucuya çatdırmağa xidmət edirdi.
Tarixi allüziyalar və milli yaddaşa istinad	Vahabzadə tarixə müraciət etməklə azadlıq ideyasını dolayı yolla səsləndirirdi. "Gülüstan" poemasında tarixi müqavilə faktı əsasında müasir milli bölünmənin acı nəticələrinə işarə edilir. Bu, həm tarixi dərs, həm də milli özünüdərk aktı kimi çıxış edir.
Dil və kimlik məsələlərinə poetik münasibət	"Latın dili" şeirində dilin dəyişdirilməsi ilə milli kimliyin itməsini eyniləşdirərək, o, assimilyasiya siyasətinə qarşı mənəvi üsyan səsləndirir. Şeir formal olaraq mədəni tənqid kimi görünür, lakin əslində milli müqavimət aktıdır.
Emosional lirizm və fərdi azadlıq anlayışı	Vahabzadə lirikasında azadlığı yalnız milli deyil, həm də fərdi mənəvi dəyər kimi təqdim edir. "Mən azad olmasam, xalqım da azad deyil" fikri onun yaradıcılığının fəlsəfi əsasını təşkil edir. Bu yanaşma sovet ideologiyasının kollektivlik prinsiplərinə zidd idi.
Poetik ironiyanın istifadəsi	Şair bəzən açıq şəkildə yox, ironik tonla sovet sisteminin ziddiyyətlərini göstərirdi. Bu, həm senzuranın nəzərindən yayınmaq, həm də oxucuda tənqidi düşüncəni oyatmaq məqsədi daşıyırdı.

Mənbə: [2, s. 92]

Sovet senzurası şəraitində ədəbiyyat həm ictimai fikir meydanı, həm də mənəvi müqavimət forması rolunu oynayırdı. Bu mənada Vahabzadə poeziyası "daxili azadlıq" konsepsiyasına əsaslanırdı. O, xarici məhdudiyyətlərə baxmayaraq, insanın daxili müstəqilliyini, vicdan azadlığını qorumağı poetik ideal kimi təqdim edirdi [7, s. 101]. Senzura qarşısında şairin əsas silahı bədii dil idi. O, sözün birbaşa deyil, məcazi mənalarını ön plana çıxararaq, oxucunun düşüncə sərhədlərini genişləndirirdi. Məsələn, "Ana dili" şeirində dil məsələsi sadəcə dilə məhəbbət deyil, eyni zamanda milli varlığın qorunması ideyasının ifadəsidir. Bu şeir "dil" anlayışını milli kimliyin simvolu kimi təqdim etməklə sovet ideoloji çərçivələrini sarsıdır [6, s. 66]. Vahabzadənin poetik üslubu həm də milli ruhun estetik qorunması missiyasını daşıyırdı. O, sovet sisteminin yaratdığı süni "beynəlmiləlçilik" ideyasına qarşı Azərbaycan xalqının milli-mənəvi dəyərlərini önə çəkərək, bədii söz vasitəsilə ideoloji sərhədləri aşmağa nail olmuşdur. Şairin lirikasında "azadlıq" bəzən bir duyğu, bəzən bir xəyal, bəzən də xalqın gələcəyinə inam formasında təqdim olunur [2, s. 78].Beləliklə, Bəxtiyar Vahabzadə poeziyası sovet senzurası şəraitində ədəbi müqavimətin ən yetkin formalarından biri kimi səciyyələndirilə bilər. O, qadağalar arasında xalqın milli yaddaşını, dilini və azadlıq idealını qorumağı bacarmış, poetik sözü ictimai mübarizə vasitəsinə çevirmişdir.

Azadlıq ideyasının bədii-metaforik ifadə formaları

Bəxtiyar Vahabzadənin poeziyasında milli azadlıq ideyası yalnız məzmun baxımından deyil, həm də bədii-formal səviyyədə dərin şəkildə ifadə olunur. O, azadlıq düşüncəsini şeirin strukturuna, dilinə və obrazlar sisteminə hopdurараq, onu sadəcə bir ideya deyil, həm də poetik hiss və düşüncə tərzi səviyyəsinə qaldırmışdır. Bu mənada, azadlıq anlayışı Vahabzadənin poetik dilində çoxşaxəli bədii-metaforik sistemin əsas komponentinə çevrilir [5, s. 60].Azadlıq ideyasının ifadəsində şairin istifadə etdiyi metaforalar, simvollar, alleqoriyalar onun poetik ustalığını və estetik mövqeyini əks etdirir. Bu vasitələr vasitəsilə şair senzura məhdudiyyətlərini aşaraq oxucuda həm milli emosionallıq, həm də ideoloji düşüncə formalaşdırmağa nail olur. Aşağıdakı cədvəldə Bəxtiyar Vahabzadənin poeziyasında azadlıq ideyasının metaforik təcəssüm formaları və onların bədii funksiyaları təhlil olunur:

Cədvəl 2. Bəxtiyar Vahabzadənin poeziyasında azadlıq ideyasının metaforik təcəssüm formaları və onların bədii funksiyaları

Metafor / Simvol	Poetik mənbə	Bədii funksiyası və mənası
Zəncir / Qandallar	"Azadlıq"	Fərdi və milli əsarətin, məhdudiyyətin simvolu; qopmaq azadlığın qazanılması aktı kimi verilir.
Araz çayı	"Gülüstan"	Parçalanmış xalqın rəmzi; fiziki sərhəd olmaqla yanaşı, milli bölünmənin poetik təzahürüdür.
Səssiz hayqırtı	Müxtəlif lirika nümunələri	Senzura altında ifadə edilə bilməyən milli ağrının daxili poetik fəryadı.
Sönən ocaq	"Ana dili"	Kimlik itkisinin, assimilyasiyanın simvolu; dilin zəifləməsi milli varlığın da sönməsi deməkdir.
Göz yaşı / Qan	"Şəhidlər", "Vətənə qayıdış"	Milli fədakarlıq, şəhidlik və azadlıq uğrunda qurban vermə məqamlarının emosional ifadəsi.
Divar / Qapalı məkan	"Latın dili", "Məzar"	Azadlıqdan məhrum edilən ruhun təsviri; dar çərçivələrdə sıxışdırılan milli şüurun metaforası.

Mənbə: [4, s. 96]

Vahabzadənin poetik sistemində azadlıq hissi tez-tez qapalı məkandan çıxış, səssizliyin hayqırtıya çevrilməsi, fiziki sərhədlərin ruhi bütövlük arzusuna qarşı qoyulması ilə təqdim olunur. Bu yanaşma şairin poeziyasına universal humanist dəyər ölçüsü də qazandırır. Beləliklə, azadlıq ideyası təkcə milli-siyasi deyil, həm də bəşəri-mənəvi fəlsəfi kontekstdə təqdim olunur [7, s. 101]. Metaforik sistem eyni zamanda Vahabzadənin oxucu ilə gizli ünsiyyət formasıdır. O, simvollar vasitəsilə senzura qarşısında susmalı olduğu yerlərdə oxucuya mətni "şifrələnmiş" şəkildə təqdim edir. Bu isə milli düşüncəni qoruyub yaşatmağın incə, lakin güclü formasıdır [2, s. 78]. Bəxtiyar Vahabzadənin bədii dili emosionallığı ilə yanaşı konseptual gücə də malikdir. Onun metaforları sadəcə poetik təsvir deyil, həm də xalqın yaşadığı tarixi proseslərin, psixoloji travmaların və gələcəyə olan inamın ifadəsidir. "Qandallar" açılır, "səssiz hayqırtı" səslənir və Arazın ayırdığı qardaşlar bir gün birləşəcəklər – bu, onun poetik dünyasının azadlıq manifestidir [3, s. 110].

Bəxtiyar Vahabzadənin poeziyasında ideoloji və vətəndaş mövqeyi

Bəxtiyar Vahabzadənin yaradıcılığı yalnız bədii-estetik məzmunla deyil, eyni zamanda dərin ideoloji mövqe və vətəndaş məsuliyyəti ilə səciyyələnir. O, Azərbaycan ədəbiyyatında XX əsrin ikinci yarısından etibarən "vətəndaş şair" obrazının formalaşmasında aparıcı simalardan biri kimi çıxış edir. Sovet dövründə hakim ideoloji çərçivələr daxilində milli ideyaları müdafiə etmək böyük cəsarət tələb edirdi və Vahabzadə bu riski öz üzərinə götürmüş nadir sənətkarlardandır [4, s. 96].Onun poeziyasında vətəndaş mövqeyi, ilk növbədə, xalqın dərdini öz dərdi kimi hiss etmək, tarixi haqsızlıqlara qarşı çıxmaq, milli kimliyi və dili qorumaq, azadlıq idealını tərənnüm etmək kimi dəyərlər üzərində qurulmuşdur. Vahabzadənin qəhrəmanı real mənada bir insan yox, xalqın vicdanı və ruhudur [5, s. 60]. Onun "Azərbaycan", "Ana dili", "Şəhidlər", "Vətənə qayıdış" və digər əsərləri ideoloji-ictimai mövzularda yazılmış, milli ruhun canlı və düşüncəli ifadəsi kimi dəyərləndirilmişdir. Bu şeirlər təkcə poetik mətn deyil, həm də vətəndaşlıq manifestidir [6, s. 66]. Aşağıdakı cədvəldə şairin poeziyada göstərdiyi ideoloji və vətəndaş mövqeyinin əsas istiqamətləri və onların poetik təzahür formaları verilmişdir:

Cədvəl 3. Şairin poeziyada göstərdiyi ideoloji və vətəndaş mövqeyinin əsas istiqamətləri və onların poetik təzahür formaları

Vətəndaşlıq istiqaməti	Əsər nümunəsi	Poetik ifadə və ideoloji məna
Milli birlik və bütövlük	"Gülüstan", "Azərbaycan"	Azərbaycan xalqının bölünmüş vəziyyətinə qarşı poetik etiraz, milli birliyin bədii müdafiəsi.

Dil və kimlik uğrunda mübarizə	“Ana dili”, “Latın dili”	Milli dilin qorunması uğrunda poetik və ideoloji çağırış; assimilyasiyaya qarşı mübarizə simvoludur.
Tarixi yaddaş və şəhidlik kultu	“Şəhidlər”	Vətən uğrunda həlak olanların poetik obrazı; azadlıq ideyası ilə vətəndaş fədakarlığının qovuşması.
Milli-mənəvi dirçəlişə çağırış	“Vətənə qayıdış”, “İnsan və zaman”	Mənəvi oyanışın, milli özünüdərk prosesinin təşviqi; xalqın öz kökünə dönməsi arzusu.
Sistem daxilində etiraz forması	“Latın dili”, “Məzar”	Açıq müxalifətə yer olmayan bir zamanda simvolik və fəlsəfi etiraz vasitələrinin seçilməsi.

Bəxtiyar Vahabzadənin ideoloji cəsarəti təkcə mətnin içində deyil, həm də onun poetik missiyasında ifadə olunur. O, zaman-zaman hakimiyyət dairələrində qınaq obyektinə çevrilsə də, xalq arasında nüfuzu və şairlik gücü daha dərin və təsirli olmuşdur. Onun vətəndaşlığı qışqırmaqla deyil, sözün gücünə inanmaqla özünü göstərmişdir. Məsələn, “Ana dili” şeirində ana dili sadəcə kommunikasiya vasitəsi deyil, milli varlıq və mənəvi kimlik kimi təqdim olunur. Bu, şairin vətəndaşlıq düşüncəsinin əsas sütunlarından biridir: xalqını qorumaq üçün onun dilini yaşatmaq lazımdır [6, s. 66]. Şairin ideoloji mövqeyi həm də tarixi haqsızlıqların bədii yaddaşda saxlanması, ideoloji təzyiqlərə qarşı mənəvi müqavimət, müstəqillik ruhunun dirçəldilməsi kimi yanaşmalarda özünü göstərir. O, heç zaman sırf emosional pafosa qapılmır, əksinə, faktlara, tarixə və düşüncəyə əsaslanan poeziya yaradır [7, s. 101].

Beləliklə, Bəxtiyar Vahabzadə poeziyası təkcə bədii yaradıcılıq nümunəsi deyil, həm də ideoloji dirənişin və vətəndaş məsuliyyətinin poeziyada təcəssüm etmiş formasıdır. Onun poeziyasında söz – silaha, şeir – mübarizəyə, poetik fikir – vətəndaşlıq mövqeyinə çevrilmişdir [2, s. 92].

Nəticə və elmi yenilik

Bəxtiyar Vahabzadə yaradıcılığı Azərbaycan ədəbiyyatında milli azadlıq ideyasının poetik və ideoloji baxımdan ən güclü və təsirli ifadə formalarından birini təşkil edir. Tədqiqatın nəticələri göstərdi ki, onun poeziyası yalnız bədii-estetik dəyərə malik deyil, eyni zamanda xalqın tarixi yaddaşının, mənəvi dirənişinin və ictimai mübarizə ənənəsinin qorunub saxlanmasında strateji rol oynamışdır.

İlk növbədə, qeyd edilməlidir ki, şairin əsərlərində milli azadlıq ideyası sadəcə siyasi anlam daşımır. Bu ideya onun poeziyasında dil, milli kimlik, mənəvi bütövlük, mədəni suverenlik və tarixi ədalət axtarışı ilə sıx bağlıdır. Vahabzadə azadlığı yalnız coğrafi və dövlət sərhədlərinin yox, xalqın daxilində yaşatdığı ruhani dəyərlərin və mənəvi sərbəstliyin bərpası kimi şərh edir [7, s. 101].

İkinci mühüm nəticə ondan ibarətdir ki, Vahabzadə sovet senzurası şəraitində milli fikri poetik simvol və metaforalarla ifadə etməklə estetik müqavimət forması yaratmışdır. Bu baxımdan onun “Gülüstan”, “Latın dili”, “Ana dili”, “Vətənə qayıdış”, “Azadlıq” kimi şeirləri və poemaları təkcə bədii əsər deyil, milli özünüdərk və vətəndaşlıq çağırışıdır [5, s. 60; 1, s. 102].

Üçüncü nəticə ondan ibarətdir ki, Vahabzadənin poeziyasında vətəndaşlıq və ideoloji mövqe qətiyyətlə və balanslı şəkildə təqdim olunmuşdur. O, şeirlərində xalqın adından danışmaq məsuliyyətini üzərinə götürmüş, senzuranın imkan verdiyi çərçivədə ictimai müzakirənin əsaslarını formalaşdırmağa çalışmışdır. Bu isə şairin ədəbiyyatı sadəcə sənət yox, həm də ictimai funksiyaya malik vasitə kimi dəyərləndirdiyini göstərir [6, s. 66].

Dördüncü nəticə ondan ibarətdir ki, Vahabzadənin poetik sistemində azadlıq ideyası mücərrəd anlayış deyil, konkret tarixi kontekstdə – xalqın bölünməsi, mədəni assimilasiya, ideoloji təzyiqlər və şəhidlik motivləri fonunda təqdim olunur. Bu, onun poeziyasına həm konkretlik, həm də universal bəşəri dəyər ölçüsü qazandırmışdır [2, s. 78].

Beləliklə, Bəxtiyar Vahabzadə yaradıcılığı Azərbaycan poeziyasında milli azadlıq ideyasının formalaşması və inkişafında mühüm mərhələ hesab olunur. Onun poetik irsi azadlıq idealının yalnız siyasi deyil, həm də mənəvi və mədəni təfəkkür səviyyəsində ifadəsinə xidmət etmişdir.

Problemin elmi yeniliyi. Bu tədqiqatda ilk dəfə olaraq Bəxtiyar Vahabzadənin yaradıcılığı milli azadlıq ideyasının poetik-metaforik sistem əsasında təhlil edilmiş, onun senzura şəraitində poetik müqavimət strategiyaları bədii-tarixi kontekstdə müəyyən edilmişdir.

Vahabzadənin fərqli əsərlərində azadlıq ideyasının konseptual və simvolik daşıyıcıları müəyyənləşdirilərək, bu elementlərin oxucu ilə şifahi-ideoloji ünsiyyət vasitəsi kimi funksiyası əsaslandırılmışdır.

Tədqiqat şairin ideoloji və vətəndaş mövqeyini bədii strukturla əlaqələndirməklə, onun poeziyasının sosial funksiyası və milli yaddaşın qorunmasında rolunu sistemləşdirilmiş şəkildə ortaya qoymuşdur.

Məqalədə Vahabzadənin yaradıcılığı Azərbaycan ədəbi düşüncəsində “poetik azadlıq diskur-

su”nun əsas sütunu kimi təqdim olunur və bu diskursun dil, forma, obraz və mövzu aspektlərində necə qurulduğu elmi əsaslarla araşdırılmışdır.

Beləliklə, bu tədqiqat Bəxtiyar Vahabzadənin milli azadlıq ideyalarının ədəbi poetik sistemdə necə təcəssüm etdiyini geniş kontekstdə və yeni yanaşmalarla ortaya qoyur. Əldə olunan nəticələr Azərbaycan ədəbiyyatında milli poeziyanın ideoloji-fəlsəfi tutumunun dəyərləndirilməsi üçün etibarlı elmi baza yaradır.

Ədəbiyyat

1. Abdullayeva R. Bəxtiyar Vahabzadənin yaradıcılığında ideya və obrazlar sistemi // Azərbaycan Milli Elmlər Akademiyası Elmi Əsərlər, № 2, 2011, – s. 78-83.
2. Əliyev R. Sovet senzurası və Vahabzadənin "Gülüstan" poeması // Ədəbiyyat və cəmiyyət, № 2, 2021, – s. 91-97.
3. Əliyeva A. Vətənpərvərlik və azadlıq ideyalarının bədii ifadəsi: Vahabzadə poetikasında tədqiqlər // Azərbaycan dili və ədəbiyyatı tədrisi, № 4, 2022, – s. 51-56.
4. Hacıyev M. Bəxtiyar Vahabzadənin azadlıq mövzulu poeziyası // AMEA Xəbərləri. Ədəbiyyat seriyası, № 4, 2015, –s. 96-101.
5. Məhərrəmli R. Vətən və azadlıq obrazı Vahabzadə lirikasında // Filologiya məsələləri, № 1, 2019, – s. 55-60.
6. Müstəqimov Z. Azadlıq ideyasının poetik kodları: Bəxtiyar Vahabzadə nümunəsində // Dədə Qorqud, № 1, 2013, – s. 120-124.
7. Qasımzadə B. XX əsr Azərbaycan poeziyası. / B. Qasımzadə. – Bakı: Elm, – 2000. – 416 s.
8. Quliyev E. Bəxtiyar Vahabzadə poeziyasında milli ruhun bədii təcəssümü // Azərbaycan filologiyası məsələləri, № 3, 2017, – s. 112-118.
9. Sadıqova S. Vahabzadə poeziyasında tarixi yaddaş və milli kimlik // Humanitar elmlər xəbərləri, № 3, 2010, – s. 66-72.
10. Vahabzadə, B. Azadlıq və Vətən. / B. Vahabzadə. – Bakı: Elm və Təhsil, – 2008. – 248 s.

Redaksiyaya daxil olub: 14.10.2025

UOT 37.01

Динара Самидали гызы Асадова
старший специалист
Института Образования Азербайджанской Республики
https://orcid.org/0009-0002-5352-7730
E-mail: sulamif44@rambler.ru
https://doi.org/10.69682/arti.2025.92(6).27-31

ПОЭТИЧЕСКИЙ МИР БАХТИЯРА ВАГАБЗАДЕ -ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ПРЕДАННОГО СЛУЖЕНИЯ РОДИНЕ И НАРОДУ

Dinarə Səmidəli qızı Əsədova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
baş mütəxəssisi

BƏXTİYAR VAHABZADƏNİN POEZİYA ALƏMİ VƏTƏNƏ VƏ XALQA SƏDAQƏTLİ XİDMƏTİN BƏDİİ TƏCƏSSÜMÜDÜR

Dinara Samidali Asadova
senior specialist at the
Institute of Education of the Republic of Azerbaijan

THE POETIC WORLD OF BAKHTIYAR VAHABZADE IS THE ARTISTIC EMBODIMENT OF DEVOTED SERVICE TO THE MOTHERLAND AND THE PEOPLE

Аннотация. В статье рассматривается многогранное творческое наследие народного поэта Азербайджана Бахтияра Вагабзаде, внесшего значительный вклад в развитие национальной литературы. Подчеркивается роль поэта как мыслителя, педагога и общественного деятеля, посвятившего свою жизнь служению народу и утверждению национально-духовных ценностей. Анализируется художественное и философское своеобразие его произведений, отражающих идеи патриотизма, свободы, национальной идентичности и общечеловеческих ценностей.
Ключевые слова: *поэзия, патриотизм, национальные ценности, любовь к родине, слово и искусство, свобода*

Xülasə. Məqalədə milli ədəbiyyatın inkişafına mühüm töhfələr vermiş Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin çoxşaxəli yaradıcılıq irsi araşdırılır. Burada şairin ömrünü xalqa xidmətə, milli-mənəvi dəyərlərin təsdiqinə həsr etmiş bir mütəfəkkir, maarifçi, ictimai xadim kimi rolu vurğulanır. Məqalədə onun vətənpərvərlik, azadlıq, milli kimlik, ümumbəşəri dəyərlər ideyalarını əks etdirən əsərlərinin bədii-fəlsəfi unikallığı təhlil edilir.
Açar sözlər: *poeziya, vətənpərvərlik, milli dəyərlər, vətən sevgisi, söz və sənət, azadlıq*

Abstract. This article examines the multifaceted creative legacy of Azerbaijani People's Poet Bakhtiyar Vahabzade, who made a significant contribution to the development of national literature. It highlights the poet's role as a thinker, educator, and public figure who dedicated his life to serving the people and affirming national and spiritual values. The article analyzes the artistic and philosophical uniqueness of his works, which reflect ideas of patriotism, freedom, national identity, and universal human values.
Keywords: *poetry, patriotism, national values, love of country, word and art, freedom*

Народный поэт Бахтияр Вагабзаде – один из деятелей искусства, внесших своим многогранным творчеством значительный вклад в развитие азербайджанской литературы и добившихся в этом направлении исключительных успехов. Видные исследователи литературы по праву называют Бахтияра Вагабзаде классиком современной поэзии. Полувековой исторический путь развития азербайджанской литературы не-

возможно представить без творчества Бахтияра Вагабзаде.

Бахтияр Вагабзаде был не только поэтом, драматургом, переводчиком, литературоведом, но и мыслителем, посвятившим свою жизнь служению народу и призывающим его к осознанию и усвоению национально-духовных ценностей. Произведения личности, обладавшей столь мощным общественно-политическим анализом, глубоким философским мышлением, преданностью родине и национально-духовным идеалам, как Бахтияр Вагабзаде, и на сегодняшний день сохраняют свою актуальность. Тематика произведений Бахтияра Вагабзаде всегда была направлена на служение обществу и национально-духовным ценностям.

Поколение, воспитанное на его творчестве, сыграло важную роль в укреплении новой Азербайджанской государственности, в сохранении национально-духовных ценностей, в воспитании патриотизма и становлении выдающихся личностей, готовых пожертвовать своей жизнью ради Родины и народа.

Среди многочисленных тем, затронутых в творчестве Бахтияра Вагабзаде, одного из видных деятелей азербайджанской литературы, основанном как на национальных, так и на общечеловеческих ценностях, привлекает внимание и тема отношения к вопросам литературы и искусства. Интеллектуал и общественный деятель Б. Вагабзаде – прежде всего поэт. Интерес представляют размышления поэта о поэзии, вдохновлённые и укоренённые в школе Самеда Вургуна. По мнению поэта, поэзия – это настолько высокая ступень, что она не только служит созданию красоты, но и заставляет людей думать и, так сказать, воспитывает настоящего гражданина.

Поэт, объясняя сложность творческих путей своим товарищам, начинающим поэтическое творчество, считает важным также то, что слово – это наследие прошлого, и что этим наследием они должны владеть всегда. Решая проблемы, возникающие со сменой поколений и переменой вкусов, поэт, извлекая пользу из позитива новаторства, опирается на наше тысячелетнее прошлое. В вопросе о традиции и современности поэт, как всегда, прежде всего проявляет свою гражданскую позицию.

Б. Вагабзаде считает, что мастер слова, оторванный от национальных традиций и корней, не может творить искусство. По убеждению поэта, истинное искусство должно быть свободно от всякой вычурности, искусственности, чуждости и подражания и создаваться из слияния вдохновения и таланта.

Стихи Бахтияра Вагабзаде были переведены на русский и ряд иностранных языков. Несколько его книг издано в Москве. В разные годы он переводил произведения русской классики: А.С. Пушкина, М.Ю. Лермонтова, Н.А. Некрасова и других поэтов. Таким образом, Бахтияр Вагабзаде всегда с гордостью считал себя национальным поэтом единого и великого Азербайджана, что проявлялось во всех областях его творчества.

Зоркий наблюдатель, вдохновенный и мудрый собеседник, талантливый ученый – литературовед, он олицетворяет собой подвижнический образ поэта – землепроходца, взору которого открыты и настоящее, и прошедшее, и будущее.

Окно в грядущий день – моё Вчера,
Оно распахнуто для света и добра.
Я – сын земли, я врос в неё корнями,
Я – сын Отчизны, ей воздам плодами [3, 84].

Остро переживая как поэт национальную историю, Б. Вагабзаде с неизбывной болью пишет о судьбе разделенного Азербайджана: «…Я горю у себя на родине, тоскуя по Родине».

Родина для поэта не только географическое понятие. Родина – это прежде всего героический азербайджанский народ, который украшает свою землю, борется за её свободу и независимость, за родной язык и литературу.

Историю народа веками создавали
Народа щит и сабля, народа саз и стих.

Ты с Хатаи делила трон державный,
и слушали твой голос полноправный и друг,
и тайный враг, и недруг явный шла о тебе молва, родная речь [4].

Бахтияр Вагабзаде был поэтом народа. Он взял на себя миссию не одного гражданина, а целого народа. Для него мир начинался с Азербайджана и заканчивался Азербайджа-

Problemin aktuallığı. Təlimdə tədqiqat fəaliyyəti şagirdləri elmi biliklərin dərk edilməsi yolları, onların elmi dünyagörüşünün, düşüncə və idrak fəallığının formalaşdırılması və inkişaf etdirilməsində mühüm vasitə olduğu üçün aktualdır. Tədqiqat fəaliyyəti yaradıcı təfəkkürün formalaşdırılmasına, şagirdlərin düşünmə bacarıqlarının və çevikliyinin təkmilləşməsinə, qavrama bacarıqlarının inkişaf etməsinə imkan verir.

Problemin yeniliyi. Məqalədə təlim prosesinin təkmilləşdirilməsinə yaradıcı istiqamət vermək, şagirdlərin yaradıcı təfəkkürünün inkişafı üçün pedaqoji texnologiyalar yaratmaq və onların səmərəliliyini eksperimental sınaqdan keçirilməsi açıqlanır.

Problemin praktik əhəmiyyəti. Təlim prosesində şagirdlərin tədqiqat fəaliyyətinin təşkilinin səmərəliliyini artırmaq üçün məqalə müəllimlər tərəfindən istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya fənni üzrə təhsil proqramı (kurikulum)" (VII-XI siniflər). –Bakı: –2023. –57s. 46
2. Əsgərova T. Ədəbiyyat dərslərində şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsi metodları //Azərbaycan məktəbi № 2, –Bakı, 2022. –s. 117-123.
3. Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası // Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. –Bakı: ADPU-nun nəşriyyati, –2014. –212 s.
4. İbrahimova, X.Q. Biologiyanın tədrisi metodikası(Ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramının-kurikulumun tətbiqi) dərs vəsaiti / İbrahimova X.Q. –Bakı: –ADPU-nun nəşriyyati, –2023. –319 s.
5. Məmmədova G. Biologiya dərslərində yaradıcı təfəkkürün İKT vasitəsilə formalaşdırılması // Təhsil, № 2, –Bakı, 2017. –s. 72-77.

Redaksiyaya daxil olub: 02.10.2025

UOT 37.01

Məhəbbət Novruz qızı Paşayeva
Azərbaycan Respublikası Təhsil İnstitutunun
baş mütəxəssisi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1982-9276
E-mail: pmahabbat@mail.ru

ALİ MƏKTƏBDƏ TƏHSİLİN TƏŞKİLİ VƏ MÜASİR TENDENSİYALAR

Makhabbat Novruz Pashayeva
chief specialist of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy

ORGANIZATION OF TRAINING IN HIGHER EDUCATION AND MODERN TRENDS IN EDUCATION

Махаббат Новруз гызы Пашаева
старший специалист Института Образования
Азербайджанской Республики
доктор философии по педагогике

ОРГАНИЗАЦИЯ ОБУЧЕНИЯ В ВЫСШЕЙ ШКОЛЕ И СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ В ОБРАЗОВАНИИ

Xülasə. Məqalədə universitetin işinin Boloniya prosesinin tələblərinə uyğunluğu problemi, mühazirə və seminar dərslərinin keyfiyyətinin artırılması zərurəti qaldırılır. Kurikulumların və fənn proqramlarının düzgün tərtib edilməsinin vacibliyi vurğulanır. Tələbələrdə təfəkkür fəallığının inkişafına, onların təlim prosesinə cəlb edilməsinə və öyrənilən fənnə maraqlarının artmasına kömək edən metodların istifadə yollarından bəhs edilir. Bloom taksonomiyasından istifadə edərək, tələbələrin yaradıcılıq fəaliyyətini inkişaf etdirən qrup işi üçün tapşırıq nümunələri verilir. Pedaqogika və Antropologiya fənlərinin tədrisi nümunəsində universitetdə interaktiv təlim metodlarının tətbiqi yolları açıqlanır.

Açar sözlər: *Bolonya prosesi, seminar və mühazirə məşğələləri, pedaqogika, Antropologiya, Blum taksonomiyası, universitet proqramları, fənn proqramı*

Abstract. The article raises the problem of the university's compliance with the requirements of the Bologna process, the need to increase the effectiveness of lectures and seminars at the university. The importance of the correct compilation of curricula and subject syllabuses. The use of methods that promote the development of students' thinking activity, their involvement in the educational process and increase their interest in the subject being studied. Examples of tasks for group work are given, using Bloom's taxonomy, developing students' creative activity. The ways of interactive learning in a university are revealed using the example of teaching the subjects Pedagogy and Anthropology.

Key words: *Bologna process, seminar and lecture classes, pedagogy, Anthropology, Bloom's taxonomy, university programs, subject syllabus*

Аннотация. В статье поднимается проблема соответствия работы ВУЗ-а требованиям Болонского процесса, необходимости повышения эффективности лекционных и семинарских занятий в ВУЗ-е. Важность правильного составления учебных программ и предметных силабусов. Использование методов, способствующих развитию мыслительной активности студентов, вовлечению их в учебный процесс и повышающих их интерес к изучаемому предмету. Даются образцы заданий для работы в группах, используя таксономию Блума, развивающих творческую активность студентов. На примере преподавания предметов Педагогика, Антропология раскрываются пути интерактивного обучения в ВУЗ-е.

***Ключевые слова*:** *Болонский процесс, семинарские и лекционные занятия, педагогика, Антропология, таксономия Блума, программы ВУЗ-ов, предметный силабус*

Müasir dövrdə Azərbaycan özünün təhsil sistemini dünyanın mütərəqqi ölkələrinin təhsil nailiyyətlərindən istifadə etməklə təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır, yeni təlim metodlarının mahiyyətini, təlimə təsirini, tətbiqi yollarının araşdırılması istiqamətində fəaliyyətini qurur.

Artıq kurikulum islahatı təhsilin bütün pillələrini demək olar ki əhatə edir. Ali təhsil müəssisələri hər bir ölkənin inkişafında və tərəqqisində mühüm rol oynayır. Yüksək ixtisaslı mütəxəssis hazırlamaq Ali məktəbin üzərinə düşür. Ona görə bu pillə təhsil sahəsində xüsusi yer tutur və xüsusi diqqət tələb edir.

Ali məktəblərdə kurikulum islahatının tətbiqi tədris planlarının yeni forma və məzmununda, yeni fənn silabuslarının hazırlanmasında öz əksini tapır. Tədris planı üzrə öyrənilən fənnin proqramı yazıldıqda, ona bütün didaktik prinsiplər şamil olunmalıdır. Fakültədən, ixtisasdan asılı olaraq bir fənnin proqramı fərqli, variativ tərtib edilməlidir. İxtisasın bütün aspektlərinə toxunulmalıdır, müasir problemlər orada öz əksini tapmalıdır.

Vacib məqamlardan biri fənn silabusunun müvafiq proqrama uyğun olmasıdır. Bəzən ali məktəb müəllimləri bu məqama fikir vermir və bunun nəticəsi kimi tədrisdə problemlər meydana çıxır, silabuslar çox vaxt formal yazılır. Razılaşmaq lazımdır ki, ali məktəb silabusunun yazılışı asan məsələ deyil, lakin buna ciddi yanaşmaq, fənn silabuslarını dərs bölgüsündən sonra, dərslər başlamazdan qabaq yazıb, üzərində işləmək lazımdır.

Fənn proqramında xırdalıqlar, demək olar ki hər bir problem öz əksini tapır, lakin həmin fənnin silabusunda bu məsələlər çox vaxt öz əksini tapmır, mövzular ümumiləşdirilir, açılışında əhatəsi vacib olan məsələlər açıqlanmır. Bu fənn üzrə imtahan suallarının, biletlərinin yazılışında problem yaradır, müəllimin işində çətinlik yaradır və haqlı olaraq tələbələrin narazılığına səbəb olur.

Beləliklə hər fənn üzrə fənn proqramı, fənn silabusu, imtahan sualları və imtahan biletləri arasında bir vəhdət yaradılmalıdır. Buna Fakültə üzrə Metodik Şura çox ciddi yanaşmalı və bu işin icrasına nəzarət etməlidir, müəllimlərə yardım etmək üçün seminarlar təşkil oluna bilər.

Belə olduqda ali məktəbdə təlim prosesi düzgün təşkil edilər və bir çox didaktik tələblərin tətbiqi asanlaşar.

Ali məktəblərdə kurikulum islahatının tətbiqi istifadə olunacaq tədris metodlarında da öz əksini tapmalıdır. Mühazirə, seminar dərsləri, müstəqil işlərin hazırlanması metodikası Bolonya sisteminin qoyduğu tələblərə, yeni kurikulum islahatına cavab verməlidir.

Bolonya prosesi – milli ali təhsil sistemini müasirləşdirmək imkanı deməkdir. Müasir dövrdə təhsil sistemində islahata böyük ehtiyaclar vardır.

Beynəlxalq təcrübədə belə islahatlar aşağıdakı istiqamətlərdə müasirləşdirilməsini nəzərdə tutur: təhsilin məzmununda, təhsilin strukturunda, təhsil texnologiyalarında, resurs təminatında.

Hazırda dünya təcrübəsində təhsil proqramlarının həyata keçirilməsində ümumi əmək intensivliyinin və təhsilin keyfiyyətinin ölçüsü kimi çıxış edən kredit sistemləri adlanan sistemlərdən istifadə olunur.

Bu sistemlərdən ən çox yayılmışı Birləşmiş Ştatlar Kredit Sistemidir (USCS), Britaniya Kredit Toplama və Köçürmə Sistemi (CATS), Avropa Kredit Köçürmə Sistemi (ECTS) və Universitetlərin Asiya- Sakit Okean Kredit Köçürmə Sistemidir (UCTS).

Bolonya təhsil prosesinin əsası olan Avropa Kredit Köçürmə Sistemi (ECTS) tələbənin akademik mobilliyi üçün zəruri olan ümumi təhsil ölçüsünü seçməyə imkan verən bir vasitə kimi yaradılmışdır.

Apardığımız tədqiqat təhsil texnologiyaları sahəsinə və təhsilin məzmunu sahəsinə aid edilir, pedaqogika fənninin tədrisində seminar və mühazirə məşğələlərinin maraqlı və müasir qurulmasına, tələbənin dərs prosesinə cəlb edilməsi, aktivləşdirilməsi və iştirakını təmin edən üsul, metod və yollarına həsr edilmişdir.

Ənənəvi seminar dərsləri tələbənin əsasən evə verilən suallar və ədəbiyyat əsasında konspekt hazırlayıb növbəti dərsdə çıxış etməyini nəzərdə tutur.

Müasir seminar dərslərini interaktiv təşkil etmək vacib məsələlərdən biridir. Bu tələbənin fənnə, dərsə, mövzuya marağını artırır. Lakin bunu ənənəvi seminar dərslərinin parallel aparılması ilə etmək məqsədəuyğundur.

Məsələn dərsdə qrup işinin təşkili aşağıdakı kimi aparıla bilər.

Qrup (sinif) yarımqruplara bölünür. Hər bir yarımqrupa tapşırıq verilir və bu yarımqruplarda tədqiqat işi gedir (15-20 dəqiqə), sonra

qrup işlərinin təqdimatı keçirilir, tələbələr qiymətləndirilir.

Qrup işi zamanı istifadə ediləcək tapşırıqlar aşağıdakı kimi verilə bilər.

Tapşırıqlar nümunəsi:

I tapşırıq: Pedaqogika fənninə aid bütün auditoriyaya (böyük qrupa) tapşırıq: keçilən mövzuları əhatə edən 10 termin yazmaq və onların mənasını açıqlamaq.

II tapşırıq: bütün auditoriyaya (böyük qrupa). Benjamin Blumun taksonomiyasına əsaslanaraq Pedaqogika fənninə aid keçilən mövzulara 3 sual tərtib etmək: hafizə sualı, təhlil sualı və qiymətləndirmə sualı.

III tapşırıq: Pedaqogika fənninə aid bir açar söz müəyyənləşdirmək və onu Klaster üsulu ilə şaxələndirmək (cütlərdə iş).

IV tapşırıq: Aşağıdakı pedaqoji proses və anlayışlara aid Venn diaqramı tərtib edin və müqayisəli doldurun: təlim-tərbiyə, pedaqogika-psixologiya, kiçik məktəb yaşı dövrünün xüsusiyyətləri – böyük məktəb yaşı dövrünün xüsusiyyətləri, məktəb psixoloqu – məktəb direktoru, uşaq evində məktəbli – tam ailədən olan uşaq məktəbdə.

V tapşırıq: Ənənəvi seminar dərsi keçildikdə qrup tələbələrini aktivləşdirmək məqsədi ilə, fikirlərini dərsə cəlb etmək məqsədi ilə tələbə seminar sualına cavab verərkən müəllim auditoriyaya tapşırıq verir: "Danışılan mövzuya aid bir sual hazırlayın". Çıxışdan sonra tələbələr tərəfindən hazırlanan suallar dinlənilir. Bu tələbələrin çıxışı nə dərəcədə diqqətli dinlədiyini göstərir.

VI tapşırıq. "Sinifdənxaric işlərin məktəbdə təşkili və sinif rəhbərinin işi" mövzusu keçildikdə auditoriya qruplara bölünür və hər qrupa tapşırıq verilir. Bir tədbir planı yazın və tədbirin qısa ssenarisini tərtib edin. Məsələn I qrup – Vətənpərvərlik mövzusuna aid tədbir, II qrup – Estetik tərbiyə, III qrup – Ekoloji tərbiyə, IV qrup – Əmək tərbiyəsi mövzusuna aid tədbir üzrə işləyə bilər.

VII tapşırıq. Blum taksonomiyası üzrə Pedaqogika fənnindən keçilən mövzulara aid üç düşündürücü sual tərtib etmək və bu suallara aid 3 test tərtib etmək. Hər bir testin 5 cavabı və onlardan biri düz olmalıdır. Düz cavabı qeyd edin.

Qiymətləndirmə bal sistemi ilə aşağıdakı meyarlar əsasında aparıla bilər:

- Prezentasiya qabiliyyəti;
- Elmilik
- Verilən tədqiqat sualının tam əhatə edilməsi;
- Orijinallıq
- Yaradıcılıq

Hər meyara maksimum 5 bal verilir

Magistratura pilləsində Pedaqogika fənninə aid olan "Təhsil sistemində marketinq və reklam" fənninin tədrisində seminar məşğələlərinin aparılması zamanı tələbələrə aşağıdakı tapşırıqlar vermək məqsədəuyğundur.

"Təhsildə reklamın tərtibatına verilən tələblər" mövzusu keçildikdən sonra tələbələrə belə bir ev tapşırığı vermək olar: Təhsil sahəsində bir müəssisə seçmək, onun fəaliyyət məqsədini müəyyənləşdirmək və məqsədlərindən birinə aid bir reklam tərtib etmək. Reklamın məzmununa, istifadə edilən şəkillərə, video şəklindədirsə – musiqili müşahidə formatına fikir vermək. Bunu seminar dərsində təqdimat şəklində təqdim etmək. Növbəti seminar məşğələdə tələbələrin prezentasiyaları dinlənilir və meyarlar əsasında qiymətləndirilir.

Müasir tələbə İKT bacarıqlarına kifayət qədər yiyələnmiş olduğundan bu işi çox maraqlı yerinə yetirir və müəllim həm məqsədinə çatır, həm də fənlərarası inteqrasiyadan istifadə edərək tələbələrdə keçilən fənnə yaradıcı yanaşmanı təmin edir, fənnə marağının artmasına səbəb olur.

Tələbələrin işi çox maraqlı alınır və təqdimat zamanı qiymətləndirilir.

Beləliklə ənənəvi seminar dərslərindən fərqli olaraq interaktiv dərs zamanı qrupun bütün tələbələri dərsə cəlb edilir, dərs zamanı aktiv olur, müstəqil düşünür, qərarlar qəbul edir, fikirlərini təqdim edir, yaradıcı, tənqidi düşünür və bir çox digər qabiliyyətlər inkişaf etdirilir. Bunlara təqdimat bacarığı, fikrini lakonik formalaşdırmaq, liderlik bacarığı, yaradıcı, tənqidi və məntiqi düşüncə tərzini və s. aid etmək olar.

Qrup təlimi ilə yanaşı ənənəvi seminar dərsləri də aparmaq vacibdir. Bu mövzu üzrə konspekt tutmaq, suallar üzrə çıxışlar hazırlamaq kimi qabiliyyətlərin inkişafına səbəb olur.

Müasir tələbə beş-on il bundan öncəki həmyaşıdlarından fərqlidir. O daha çevik düşüncəyə malikdir, daha mobil və texnogendir. Ona görə təlimdə ənənəvi yanaşmalar, metodlarla yanaşı müasir metod və texnologiyalardan istifadə etmək zamanın tələbidir, tələbələrin fənnə, gələcək peşələrinə olan marağını artırır, həvəs oyadaraq stimul yaradır.

Ali məktəb üçün nəzərdə tutulan fənn proqramları ixtisasın spesifikasını, müasir problemləri, gələcək peşə sahibinə lazım olan vacib məsələləri əhatə etməlidir.

Məsələn Bakalavr pilləsi üçün Antropologiya (ümumi antropologiya, İPES-B 06) fənninin 75 saatlıq proqramın (45 saat mühazirə və 30 saat seminar dərslərinin) mövzularını aşağıdakı kimi tərtib etmək olar. Proqram sosial elmlər və psixologiya fakültəsinin "psixologiya" 050209 ixtisası üzrə keçilməsini nəzərdə tutur.

1. Antropologiyanın predmeti, vəzifələri, tədqiqat metodları.
2. Antropogenez nəzəriyyələri.
3. İnsanın morfoloji xüsusiyyətləri, morfoloji əlamətlərin təsnifatı.
4. İnsanın əmələ gəlməsi. İlk insanların mümkün olan sistematikası.
5. İnsanın əmələ gəlməsinin paleontoloji dəlilləri.
6. İnsanın əmələ gəlməsinin mono, di və polisentrizm nəzəriyyələri.
7. İnsanın əmələ gəlməsinin sosial aspektləri.
8. İrqlər haqqında əsas anlayışlar.
9. İrqi əlamətlərin öyrənilməsi.
10. İrqşünaslığın əsas konsepsiyaları.
11. Müasir irqlərin təsnifatı.
12. Etnik antropologiya. Azərbaycanın qədim etnosları.
13. Antropoloji tədqiqatların mənbə müxtəlifliyi.
14. İnsan orqanizminin əsas qanunauyğunluqları.
15. Dövrlərlə insanın inkişafının mərhələləri.
16. Bioloji yaş.
17. İnsanın inkişaf tempinin əsas tendensiyaları.
18. Konstitusional antropologiya.
19. Funksional-fizioloji psixoloji antropologiya.
20. Linqvistik antropologiya.
21. Ekoloji antropologiya.
22. Sosial antropologiya.
23. İrqçilik. İrqçiliyə qarşı mübarizə yolları.

"Antropologiya" (ümumi antropologiyanın əsasları) kursunun başlıca məqsədi – tələbələrdə İnsan və onun ümumi antropologiyası, genezisi və irqi-etnik müxtəlifliyi haqqında elmi-nəzəri biliklərin formalaşdırılması, insanı daha dərindən anlama qabiliyyətinin inkişaf etdirilməsidir. İnsanlığın yaranışından müasir dövrə kimi olan inkişaf yolları haqqında aydın təsəvvür yaratmaq, bu sahədə düzgün mövqe formalaşdırmaq kursun əsas məqsədlərini təşkil edir.

Bu baxımdan tələbələrin bilməsi vacib olan məsələlər proqramda öz əksini tapmışdır. Fənlərarası əlaqəyə, yəni inteqrasiyaya geniş yer verilmişdir. Bu kursun digər: "Antropologiya kursu", İnsan Anatomiyası və fiziologiyası, Tarix, Arxeologiya, Coğrafiya, İrqşünaslıq kimi fənnlərlə əlaqəsi yaradılmışdır

Bu proqram üzrə tədris zamanı uğurlu nəticələr əldə edilmişdir. Tələbələrin fənnə olan marağı artmışdır, müstəqil işləmə bacarıqları yüksəlmişdir. Buna tələbələrin müstəqil işlərinin keyfiyyəti, elmiliyi, ciddi yanaşması, məzmunu dəlil ola bilər. Fənnə marağın artması bəzi tələbələrdə ikinci ixtisas kimi "Antropoloq" ixtisasına yiyələnmək həvəsini yaratmışdır.

Ali məktəb müəllimi mövzu üzrə mühaziräni hazırladıqda da ona məsuliyyətli yanaşmalı, mövzunu tam açmalıdır. Mühazirənin məzmunu çox önəmlidir, o müəyyən plan üzrə, ardıcıl, elmi, müxtəlif müəlliflərdən, mənbələrdən, əyanilikdən istifadə edilərək yazılmalıdır, didaktik prinsiplərə cavab verməlidir. Öyrənilən problemə bir neçə aspektdən baxmaq onun məzmununu daha maraqlı edir, tələbələrin marağına səbəb olur.

Ali məktəb müəlliminin işə ciddi yanaşması, öz üzərində işləməsi, işə yaradıcı yanaşması, müasir yeni təlim metodlarından, texnologiyalardan istifadəsi vacib kompetensiyalara aiddir və ali məktəb müəssisələrində tədrisin keyfiyyətinə birbaşa təsir göstərən amillərdəndir.

Problemin aktuallığı. Məqalədə açıqlanan problemlər Ali Təhsilin aktual problemlərinə toxunur. Müəllif qeyd edir ki, Ali məktəblərdə kurikulum islahatının tətbiqi istifadə olunacaq tədris metodlarında da öz əksini tapmalıdır. Mühazirə, seminar dərsləri, müstəqil işlərin hazırlanması metodikası Bolonya sisteminin qoyduğu tələblərə, yeni kurikulum islahatına cavab verməlidir.

Problemin elmi yeniliyi.

Bolonya prosesi – milli ali təhsil sistemini müasirləşdirmək imkanı deməkdir. Müasir dövrdə təhsil sistemində islahata böyük ehtiyaclar var. Ali təhsil pilləsində yeni təlim texnologiyalarının tətbiqi yollarının araşdırılması və tətbiqi yollarının müəyyənləşdirilməsi problemin elmi yeniliyini təşkil edir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Müəllif məqalədə interaktiv təlim metodlarının nümunələr üzrə tətbiqi yollarını göstərir. Fənn proqramlarının və silabusların yazılışında öyrənilən fənnin tam əhatə edilməsinin vacibliyini vurğulayır. Ali məktəbdə tədris prosesində yeni təlim texnologiyalarından istifadə, seminar və mühazirə dərslərinin müasir qurulması tələbələrdə oxumağa marağı artırır, motivasiya oyadır və dərsin səmərəsinin yüksəldilməsinə səbəb olur.

Ədəbiyyat

1. Ali təhsil: Beynəlxalq təcrübə və müasir trendlər. Metodik vəsait. / –Bakı: CN Poligrafiya, –2024. –320 s.
2. Mehrabov, A., Abbasov A., Mahmudov M. Təhsilin modernləşdirilməsinin aktual problemləri / –Bakı: Mütərcim, –2013. –412 s.
3. Şagird nailiyyətlərinin qiymətləndirilnəsinin pedaqoji əsasları. Metodik vəsait / – Bakı: CN Poliqrafiya, –2023. –100 s.
4. Paşayeva M.N., Biologiyanın tədrisində interaktiv təlim metodlarından istifadənin imkanları və yolları. Metodik vəsait / –Bakı: Mütərcim, –2023. –160 s.

Redaksiyaya daxil olub: 02.10.2025

UOT 37.01

Ramiz Cəlal oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-2707-1018
E-mail: ramizeliyev905@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).48-53

TƏLİMDƏ ƏKS-ƏLAQƏNİN YARADILMASININ PEDAQOJİ- PSİXOLOJİ ƏSASLARI

Ramiz Jalal Aliyev
teacher at Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

PEDAGOGICAL-PSYCHOLOGICAL BASES OF CREATING FEEDBACK IN TRAINING

Рамиз Джалал оглы Алиев
преподаватель Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ПЕДАГОГИКО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ СОЗДАНИЯ ОБРАТНОЙ СВЯЗИ В ОБУЧЕНИИ

Xülasə. Məqalədə təlim prosesində əks əlaqənin yaradılmasının əsas cəhətlərindən, problemin pedaqoji-psixoloji həll yollarından danışılır, təhsilalanların fənnə marağını artırmaq üçün konkret təkliflər verilir. Müəllim-şagird əməkdaşlığının, onlar arasında qarşılıqlı təsir imkanlarının genişləndirilməsində əhəmiyyətli rol oynayan bu amillərdən istifadəyə dair nümunələr göstərilir. Eyni zamanda yeni mərhələdə kurikulum təhsil proqramına yönələn pedaqoji-psixoloji yanaşmalar fonunda emosional effektlərin təsiri altında yaradılan müəllim-şagird münasibətləri zamanı tələbyönlü əks əlaqə mexanizmi yaranır. Müasir məktəb sistemində gücəuyğunluq bir prinsip olaraq populyar deyil, sanki münasibətlər tələblərə uyğun qurulduqda şagirdlərin özünə nəzarəti artır; motivasiya və cavabdehlik hissi yüksəlir, bu zaman özlərini və qarşı tərəfi qiymətləndirmək qabiliyyəti kimi fikirlər məqalədə açıqlanır. Həmçinin nəzərə alsaq ki, müasir dərsdə təlimin keyfiyyəti şagirdlərin təlim nəticələrindən, onların bilik, bacarıq və vərdişlərə hansı səviyyədə yiyələnmələrindən asılıdır, bu zaman şagird kollektivinə verilən qiymət müəllimin özünə verilən qiymət kimi dəyərləndirilir, bu da əqli inkişaf mərhələsində müəllimin əks əlaqə yaratmaq qabiliyyətinin səviyyəsi ilə müəyyən olunur. Məqalədə bu məqamlar üzərində dayanılmış, səmərəli əks əlaqə üsul və formaları şərh olunmuşdur.

Açar sözlər: *təhsil, təlim, əks əlaqə, emosional effektlər, müəllim-şagird əməkdaşlığı, motivasiya, mənimsəmə, rəqabət*

Abstract. The article talks about the main aspects of creating feedback in the training process, pedagogical and psychological solutions to the problem, gives specific suggestions to increase the interest of students in the subject. Examples of the use of these factors, which play an important role in expanding the opportunities for interaction between teachers and students, are shown. At the same time, new In the background of pedagogical-psychological approaches aimed at the curriculum education program at the stage, a demand-oriented feedback mechanism is created during the teacher-student relationship created under the influence of emotional effects. In the modern school system, force compatibility is not popular as a principle, as if the students' self-control increases when the relationship is established according to the requirements; motivation and sense of responsibility rises, at this time ideas such as the ability to evaluate themselves and the other party are disclosed in the article. Also, if we take into account that the quality of education in modern classes depends on the learning results of students, the level of their acquisition of knowledge, skills and habits, then the grade given to the student body is the same as the grade given to the teacher himself. is evaluated, which is determined by the level of the teacher's ability to create feedback at the stage of mental development. The article focused on these points and explained the methods and forms of effective feedback.

Keywords: *education, training, feedback, emotional effects, teacher-student cooperation, motivation, mastery, competition*

Аннотация. В статье рассматриваются основные аспекты создания обратной связи в учебном процессе, обсуждаются педагогико-психологические пути решения данной проблемы и приводятся конкретные предложения, направленные на повышение интереса обучающихся к предмету. Показаны примеры использования факторов, играющих важную роль в расширении сотрудничества между учителем и учеником, а также возможностей их взаимного влияния. Одновременно отмечается, что на новом этапе, на фоне педагогико-психологических подходов, ориентированных на образовательные программы куррикулума, под воздействием эмоциональных эффектов формируется механизм обратной связи, ориентированный на потребности учащегося. В современной школьной системе принцип соответствия возможностей требованиям не является распространённым, однако, когда отношения строятся в соответствии с требованиями, повышается самоконтроль учащихся, усиливаются мотивация и чувство ответственности. В статье также раскрываются такие понятия, как способность оценивать себя и других. Кроме того, учитывается, что качество обучения на современном уроке зависит от учебных результатов учащихся, от уровня усвоения ими знаний, умений и навыков. В этом контексте оценка, данная ученическому коллективу, воспринимается как оценка самого учителя, что определяется уровнем его способности создавать обратную связь на этапе интеллектуального развития. В статье подробно рассматриваются эти аспекты, анализируются эффективные методы и формы организации обратной связи.

Ключевые слова: *образование, обучение, обратная связь, эмоциональные эффекты, сотрудничество учителя и ученика, мотивация, усвоение, конкуренция*

Müasir dövrdə təlimdə əks əlaqənin yaradılmasının pedaqoji-psixoloji mexanizmlərinin tədqiqata cəlb edilməsi ilə bərabər əks əlaqə zamanı müxtəlif parametrlərin dəyişmə dinamikası nəzərə alınmalıdır. Araşdırmalar göstərdi ki, neqativ təsirlər zamanı təhsilalanlarda motivasiya, özünüqiymətləndirmə, təlim nailiyyətlərinin dəyişməsi pozitiv təsirlərə nisbətən daha yüksəkdir. Bu amil onu təsdiq edir ki, müsbət və mənfi emosional əlavələr zamanı əks əlaqə müxtəlif məzmunlu olmaqla ciddi dəyişikliyə uğrayır, bu əlaqələr nə qədər sistemli və ardıcıl xarakter alırsa, şəxsiyyətin inkişafı üçün ciddi stimullaşdırıcı sfera bərqərar ola bilər. Nəzərə alaq ki, emosional effektlərin təsiri altında şəxsiyyət və vətəndaş hazırlığı həyata keçirilir. Anlaşılan dillə desək, pozitiv əlavələr təlimdə öyrənənlərdə qavrama, anlama, möhkəmlətmə, tətbiqetmə imkanlarını artırır, motivasiyanı və qrupdaxili qiymətləndirmənin, o cümlədən özünüqiymətləndirmənin adekvatlığını bir qədər intensivləşdirir, şəxsiyyətin maraq, tələbat, istək və qabiliyyətlərinə uyğun öyrədici mühitin yaradılmasına psixoloji zəmin yaradır. Əksinə, neqativ əlavələr təlimdə mənimsəməni, motivasiyanı aşağı salır və şəxsiyyətin hərtərəfli inkişafı üçün ciddi maneələr yaradır [1, 6].

Alimlər şəxsiyyət hazırlığında əks əlaqənin rolundan bəhs edərək onu başqalarının dəqiq qavranılmasını yüksəldən, obrazın düzəlişlər etməsinə kömək edən və kommunikasiya üzrə partnyorun davranışının dəqiq proqnozlaşdırılmasına (ehtimallar üzrə) imkan verən əsas ideya kimi irəli sürürlər. Nəzərə alsaq ki, əks əlaqə fəaliyyətin keyfiyyəti və kommunikasiyanın effektivliyi ilə bağlıdır. Şəxsiyyətin fərdi və yaş xüsusiyyətləri baxımından informasiya mübadiləsinə uyğun əks əlaqə o zaman mümkündür ki, onda respientin davranışının gözlənilən istiqamətdə dəyişməsinə gətirib çıxarsın.

Şəxsiyyətin quruluşu, təhsili, inkişafı və sosiallaşması səmərəli əks əlaqə zamanı mümkündür. Belə ki, həm dərkolunmayan, şüuraltı instinktlərə, hisslərə əsaslanan şəxsiyyətin, sosial mənə malik şəxsiyyətin, həm də mükəmməl şəxsiyyətin inkişafında effektiv əks əlaqənin rolu inkar edilməzdir, çünki şəxsiyyət qarşılıqlı münasibətlər fonunda, qarşılıqlı təsir imkanlarına malik tərəflər arasında formalaşır. Tədqiqatçılar genetik başlanğıc kimi əks əlaqə formasını insan üçün təsəvvür etdikdə belə qərara gəlirlər ki, başlanğıcda uşağın şüuru anadangəlmə əks əlaqə kimi formalaşır. Mövcud əks əlaqə sosial möhkəmləndirmə üçün nümunə rolunda çıxış edir və növbəti möhkəmləndirmənin əsasını təşkil edir. Əks əlaqənin xüsusi strategiyası və başqa adamlarla əks əlaqənin yaradılması mükəmməl şəxsiyyət hazırlığı istiqamətində belə formalaşır. [3, 2]

Əks əlaqənin əsas məqsədlərindən biri də şagirdlərin həyati bilik, bacarıq və vərdişlərə vaxtında sahib olmasına, sosiallaşmasına (mək-

təb həyatından) və cəmiyyət həyatına hazırlanmasından ibarətdir. Psixoloqlar effektiv əks əlaqə fonunda yaradılan təhsil-tərbiyənin fərdlərin (bioloji varlıq olaraq) şəxsiyyətə çevrilməsində, bu sahədə stimullaşdırmanın, motivasiyanın və özünüqiymətləndirmənin əhəmiyyətli təsirini qeyd edirlər.

Müasir şəraitdə kurikulum təhsil proqramına yönələn pedaqoji-psixoloji yanaşmalar ondan xəbər verir ki, emosional effektlərin təsiri altında yaradılan müəllim-şagird münasibətləri zamanı tələbyönümlü əks əlaqə mexanizmi yaranır. Bu zaman müəllimlər və şagirdlər arasındakı münasibət vahid pedaqoji tələblərə uyğun bütöv sistem yaradır. Axı müasir şəraitdə hörmətə söykənən tələbkarlıq fonunda şəxsiyyətlərarası qarşılıqlı münasibətlər yaranır ki, bu amil psixoloji nöqteyi-nəzərdən normal pedaqoji-psixoloji əməkdaşlıq mühitinin yaranmasına əlverişli şərait yarada bilər. Müasir məktəb sistemində pozitiv əks əlaqə şəraitində yaradılan gücəuyğunluluq bir prinsip olaraq populyar deyil. Çünki münasibətlər tələblərə uyğun qurulduqda şagirdlərin özünə nəzarəti artır, motivasiya və cavabdehlik hissi yüksəlir, bu zaman özlərini və qarşı tərəfi qiymətləndirmək qabiliyyəti formalaşır.[5, 8]

Mütəxəssislər əks əlaqə mexanizminin təsiri ilə yaranan təlimdə inkişafyönlülük faktoru haqqında əsaslı fikirlər irəli sürürlər. Onlar haqlı olaraq emosional effektlərin təsiri ilə yaranan psixoloji funksiyaların inkişafından bəhs edir, bu sırada təfəkkürün, hafizənin, diqqətin, nitqin yaranmasında əhəmiyyətli rol oynayan əks əlaqənin güclü müsbət və mənfi təsirləri haqqında əsaslandırılmış fikirlər söyləyirlər. Əgər baş verən hadisə və proseslər vahid pedaqoji və psixoloji tələblərə cavab verirsə, bu amil informasiya bolluğu şəraitində inkişafa uyğun mühitin mövcudluğundan xəbər verir. Nəzərə alsaq ki, müasir dərsdə təlimin keyfiyyəti şagirdlər tərəfindən qiymətləndirilir, onların fikirləri əsas götürülür, bu da əqli inkişaf məsələlərində müəllimin əks əlaqə yaratmaq qabiliyyətinin səviyyəsi ilə müəyyən olunur.

Tədqiqatçılar effektiv əks əlaqə şəraitində yaranan inkişafyönlü mühitdə əks əlaqənin 2 funksiyasını qeyd edirlər: nəzarətedici və korreksiyaedici funksiyalar. Eyni zamanda inkişafyönlü mühit şəraitində əsas məzmun öyrədici funksiyanın qabardılmasına, standartdırılmamış nəzarət formasına diqqətin yönəldilməsinə, müsbət və mənfi qiymətləndirmə effektinin xarici prosedurlarının öyrənilməsinə və bu prosesə valideynlərin cəlb edilməsinə istiqamətlənir. [9, 3]

Səmərəli əks əlaqə şəraitində yaranan inkişafyönlü mühitdə, əvvəlcə, şagirdlərin fəaliyyətində idrak fəallığı müşahidə edilir, bu fəallıq sonrakı mərhələdə əməli fəallığın yaranmasına real zəmin yaradır. Hazırda dünyada hər şeydən əvvəl, informasiyanı qavranmağın və növbəti mərhələdə onları bilik, bacarıq və vərdişlərə çevirməyin psixoloji məsələləri öyrənilir. Müəllim-şagird münasibətlərində yaranan əks əlaqə şəraitində inkişafa aparan amilləri öyrənmək üçün bu fikirlər nəzərə alına bilər: məlumatı qavrama, anlamaq, möhkəmlətmək və tətbiq etmək üçün psixoloji cəhətdən səfərbər olunmaq; məlumatların sistemləşdirilməsi, ümumiləşdirilməsi və biliklərə çevrilməsi; biliklərin möhkəmləndirilməsi və bacarıq şəklində tətbiq edilməsi və s.

Araşdırmalar göstərir ki, qarşılıqlı əks əlaqə nəticəsində bərqərar olan inkişafa istiqamətlənmiş təlimdə dialoji xarakterli tədbirlərin önə çəkilməsi əks əlaqənin dinamik xarakterini səciyyələndirir. Bu zaman bir-birini dinləməsi və inandırması təlim prosesində səmərəli nəticələrin əldə edilməsinə keyfiyyətin yüksəldilməsinə psixoloji təsir göstərə bilər.

Tədqiqatçılar emosional effektlərin təsiri altında yaranan əks əlaqə zəminində inkişafyönümlü təlimdən bəhs etmiş və motivləri idrakın hərəkətverici qüvvəsi kimi təqdim etmişlər. Zənnimizcə, bu doğru yanaşmadır. Motivasiya isə şəxsiyyətin ona uyğun münasibətlərin dəyişməsidir kimi qeyd edirlər. [2, 6].

Təlim sistemində mövcud olan motivlər-istər idraki motivlər, kommunikativ motivlər, peşə motivləri və s. şəxsiyyətin və onun münasibətlərinin mövcud şəraitə uyğun dəyişməsi və inkişaf etdirilməsi prosesidir. Psixoloqlar inkişafyönlü təlim prosesində aparıcı rol oynayan motivləri iki hissəyə bölürlər. Xarici motivlər cəmiyyətdən, o cümlədən fənn müəllimindən, sinif rəhbərindən, valideynlərdən gəlir. Daxili motivlər isə uşağın özündən, onun psixoloji funksiyalarından asılı olan motivlərdir. Təlim fəaliyyətində şagirdin özünün təşəbbüskar, istəkli olması vacib amillərdəndir. Effektiv əks əlaqə şəraitində şagirdin maraq, istək, arzu və qabiliyyəti ilə bağlı faktlar aşkar edilir, sonrakı mərhələdə həm şagirdin, həm

də pedaqoji prosesin inkişafı üçün əlverişli psixoloji vəziyyət yaranır.

Zənnimizcə, təlim prosesində pozitiv əks əlaqə şəraitində yaradılan inkişafyönümlülüyü təmin etmək üçün motivlərin öyrənilməsi və formalaşdırılması vacibdir. Belə ki, inkişafyönümlü təlim prosesini idarə etmək üçün səmərəli əks əlaqənin imkanlarından istifadə edərək təlim məqsədləri psixoloji baxımdan dəqiqləşdirmək, yaş imkanlarını üzə çıxarmaq, motivasiyanın başlanğıc səviyyəsini öyrənmək, zəruri motivlərin formalaşdırılması kimi prosedur psixoloji yanaşmaları həyata keçirmək, fikrimizcə, doğru olar. [9, 3]

Tədqiqi araşdırmalar göstərir ki, effektiv əks əlaqə fonunda yaradılan motivlərin ən təsirli və nəticəyönlüsü daxili motivlərdir. Əgər şagird mövcud əks əlaqədən yaranan davranış və fəaliyyətindən məmnunluq duyursa, həmin motivi daxili motiv hesab etmək olar.

Psixoloqlar hesab edir ki, inkişafyönlü təlim prosesində səriştəli müəllimlər motivasiyanın aşağıdakı yanaşmalarını (priyomlar) şagirdlərə təklif edə bilərlər: pozitiv əlavələr təlim nailiyyətlərini, motivasiyanı və özünüqiymətləndirmənin adekvatlığını müəyyən səviyyəyə qədər artırdığına görə işinizi uzunmüddətli perspektivə planlaşdırın; qrupdaxili təlimdə neqativ əlavələr müəyyən həddə qədər mənimsəmənin təmin edilməsinə, səmərəliliyin artmasına və qrupdaxili qiymətləndirmənin reallaşmasına maneə yaradırsa, özünüzə elə yoldaş seçin ki, onunla ünsiyyətdən bir şey öyrənə biləsiniz, həm də ona bir şey öyrədə biləsiniz; pozitiv və neqativ emosional əlavələr zamanı əks əlaqə ciddi dəyişikliyə məruz qaldığına görə bu əlaqələr bir qədər ciddi davamlı səciyyə daşıdığına görə təlim məşğələləri üçün daimi vaxt müəyyən edin; təlimdə pozitiv fonda əks əlaqənin yaradılması idrak fəallığını artırıb, təlimə münasibəti yaxşılaşdırdığına görə ümumi şəkildə öz təliminizin məqsəd və vəzifələrini müəyyən edin; təlimin nəzarət və tənzim etmə funksiyalarında əsasən motivasiyaedici və nəzarətedici komponentlər daha çox araşdırıldığına görə dərsin məzmununu asan mənimsənilə bilən hissələrə ayırın və əvvəlcə asan, sonra, orta və nəhayət çətin səviyyədə olan hissəni öyrənin; pozitiv əlavələr təlimin adekvatlığını müəyyən səviyyəyə qədər artırdığına görə tapşırığı yerinə yetirib qurtarandan sonra özünüzə xoş sözlər deyin və s.

Təcrübə göstərir ki, emosional effektlərin təsiri altında yaradılan əks əlaqə şəraitində motivasiyanın təlim müvəffəqiyyətinə təsiri intensivləşir. Belə ki, şagird şəxsiyyətinin davranış, hərəkət və nitqinin idarə edilməsində psixoloq, pedaqoq və valideynlərin maraq və istəyini ifadə edən aparıcı faktor motivasiyadır. Zənnimizcə, motivasiya nəzərə alınmadan şagirdlərlə hər hansı effektiv əks əlaqə mümkün olmaz. Psixoloqlar forma dəyişsə də məzmunca motivasiya anlayışını oxuculara belə təqdim edirlər, yəni müəyyən tələbatın reallaşması ilə bağlı şagirdlərin aktivliyə meyilli olmasıdır. İnkişafyönlü təlim sistemində motivasiya məhz bu funksiyanı yerinə yetirir. Motiv deyəndə tələbatlar, maraqlar, inam, sosial təsisetmə və dəyərlər başa düşülür. Bu amillər analoq effektiv əks əlaqə şəraitində yaranır və ya aşkar edilir. [5, 9]

Bəs effektiv əks əlaqə fonunda bərqərar olunan motivasiya təlim fəaliyyətinin gedişinə necə təsir göstərir? Psixoloqlar sübut edir ki, motivasiya gücü və quruluşu ilə yalnız keyfiyyətinə görə (məsələn: güclü-zəif) deyil, həm də kəmiyyətinə görə xarakterizə olunur. Nəzərə alsaq ki, motiv dərketmənin hərəkətvericisidir bu inkişafyönlü təlim prosesində daxili motivasiyadan xəbər verir. Yox əgər sosial, nüfuz, əmək haqqı və s. tələbatlardan danışılırsa bu xarici motivlərdir. Pozitiv əks əlaqəyə uyğun yaradılan motivlər (xarici motivlər) çox vaxt şəxsiyyətin daxili istək və meylləri ilə vəhdət təşkil edir. Motivasiyanın əsl özəyi insanın özündədir. Əgər emosional effektlərin təsiri altında yaranan əks əlaqə pozitiv deyil, neqativ xarakterlidirsə motiv xarici təsirlərin hesabına deyil təhrikedici qüvvə hesabına reallaşsa da, nəticələr ürəkaçan olmayacaq. Deməli, motivlər özü də pozitiv və neqativ xassəli olurlar. Göründüyü kimi xarici pozitiv motivlər, hətta öz təsir imkanlarına görə bərabər olsa da xarici neqativ motivlərdən daha məqsədəuyğun və səmərəli olur. Təlim prosesində müəllim-şagird əks əlaqəsində müvəffəqiyyətə təsir göstərən amillər kimi həm xarici (sosial) faktorlar, həm də daxili (psixoloji) faktorlar qarşılıqlı münasibətlərin formalaşmasında təsirli rola malikdir. Hazırda tədrisdə motivasiya problemi ilə məşğul olan psixoloqlar və pedaqoqlar motivasiyanın şagirdlərin formalaşmasında və inkişafında böyük əhəmiyyətli olduğunu

qeyd edirlər və isbat edirlər ki, motivasiya dərketmənin reallaşması üçün zəmanətdir. Çünki bunsuz nə təfəkkür inkişaf edir, nə də yeni biliklər və bacarıqlar yaranır.

Səmərəli əks əlaqədə məlum olur ki, tədris sistemində motivasiyanın formalaşması və inkişafı şagirdlərin dərketmə fəallığı, fərdiliyi və yaş xüsusiyyətləri nəzərə alınmaqla reallaşır. Motivasiyanın təlim uğurlarına təsirini öyrənən əks əlaqənin məğzinə aid olan tədqiqatları iki cəhətdən qruplaşdırmaq olar: birinci təhsildə əks əlaqənin öyrənilməsində şagirdlərin öyrənməsi tədqiq edilir, öyrənmənin, həm də öyrənməyi öyrətmənin daha optimal yolları təhlilə cəlb edilir. Fərqli variantda isə şagirdlərin müəllimə verdikləri cavablar diqqəti cəlb edir. Təbii ki, birinci istiqamətdə təlimdə mənimsəmə prosesi nəzərdə tutulur. Lakin mənimsəmə özünün struktur komponentinə görə əks əlaqədən fərqlənir. Məhz bu amil, fikrimizcə, effektiv əks əlaqə prosesində nəzərə alınmalıdır [4, s. 7].

Tədqiqatçı alimlər motivləri real və qeyri-real olmaqla iki yerə ayırırlar və isbat edirlər ki, təlim prosesi real motivlərə əsaslanır, eyni zamanda daha yüksək, təsiredici təsir imkanlarına malik olur.

İrəlidə qeyd edilən fikirlər effektiv əks əlaqə şəraitində inkişafyönlü təlimin reallaşdırılmasının ən optimal cəhətlərini müəyyən etməyə imkan verə bilər.

Hazırda danışan, dinləyən və işləyən şagirdlərin psixoloji imkanlarını və tərəflərin pozitiv əks əlaqələrinin təsiri altında sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdıran psixoloji şəraiti yaratmaq mümkündür. Bildiyimiz kimi əks əlaqə zəminində yaranan rəqabət təlim prosesində yarışın, bəhsin, sivil qayda da təşkil olunan mübarizənin bir yoludur. Psixoloqlar sübut edir ki, müəllim-şagird arasında yaradılan əks əlaqə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırır, bir şərtlə ki, bu əks əlaqə pozitiv faktorları özündə cəm edə bilsin. Hazırda təhsil sistemində təşkil olunan fərqli layihələr sağlam psixoloji ruhun, yenilik xarakterli şagirdlər ordusunun inkişafına və formalaşmasına real zəmin yaradır. Mürəkkəb dinamikaya malik təlim prosesi daha çox sağlam rəqabətə əsaslanan prinsiplər üzərində qurulmalıdır. Əlverişli təhsil mühiti müxtəlif anlamlarda başa düşülə bilər. Hesab edirik ki, əlverişli təhsil mühitinin baza komponentlərindən biri də sağlam rəqabət üçün yaradılmış şəraitdir. Sağlam rəqabətin və innovativ fəaliyyətin stimullaşdırılması, bu proseslərin idarə edilməsi emosional effektlərin təsiri altında yaradılan əks əlaqənin hansı istiqamətli olmasından çox şey asılıdır. [2,10].

Bəs təlimdə sağlam rəqabət prinsipinin mahiyyətinə uyğun proses necə tənzimlənir? Zənnimizcə, müasir dövrdə təlim prosesində diferensial yanaşma, humanitarlaşdırma, şagirdlərin fərdi xüsusiyyətlərə uyğun təlim prosesinə cəlb edilməsini nəzərdə tutur. Eyni zamanda təlim prosesində şagirdlərin yaş xüsusiyyətlərinin, o cümlədən akselarasiya (sürətləndirmə) amilinin nəzərə alınmasını, senzitiv yaş dövrünün əsas götürülməsini tədqiqatçı alimlər nəzərə almağı vacib hesab edirlər. Çünki səmərəli əks əlaqə şəraitində uyğun parametrlərə rəğmən şagirdləri rəqabətə qoşmaq və nəticəyönlülüyü təmin etmək mümkündür. Mütləq maraqlar, tələbatlar, istəklər, imkanlar, qabiliyyətlər, temperamentlər nəzərə alınmadan sağlam rəqabət mühiti, fikrimizcə, yaratmaq mümkün deyildir.[12,5]

Tədqiqatçı alimlər qeyd edirlər ki, emosional effektlərin təsiri altında təlim prosesində innovativ fəaliyyəti stimullaşdırmaq olar. Bildiyimiz kimi təlim prosesində yeniliklər tətbiq olunanda, isbatı veriləndə, nəticələr məlum olanda innovasiyaya çevrilə bilər. Təlim prosesində yeniliklər 2(iki) yolla həyata keçirilir; a) daxili qüvvələr hesabına, yəni şagirdin təfəkkürünün, təxəyyülünün iradəsinin və nitqinin hesabına; xarici qüvvələr, yəni şəxslərin, təhsil vəsaitlərinin və texnologiyaların hesabına. Təlim prosesində yaradılan əks əlaqə şəraitində şagirdlər az vaxt, az qüvvə və vəsait sərf etməklə daha böyük nəticələr əldə edə bilirlər.

Tədqiqi araşdırmalar göstərir ki, müasir dövrdə təlimdə əks əlaqənin yaradılmasının irəlidə qeyd olunan cəhətlərindən başqa digər cəhətləri də qeyd edilə bilər: əks əlaqəyə interaksiya kontekstində baxılır; əks əlaqə subyektin nitq fəaliyyətinin refleksiyası ilə bağlıdır; əks əlaqə kommunikasiyası subyektinin verbal davranışının sonrakı inkişafına təsir edir və s.

Ümumilikdə, müasir təhsilin humanistləşdirilməsi istiqamətində yeni şəxsiyyət və vətəndaş hazırlığı mərhələsində məhz təqdim etdiyimiz cəhətlərə və müddəalara rəğmən həmin şəxsiyyətin tələbyönlü, inkişafyönlü, rəqabətyönlü və nəticəyönlü fəaliyyəti emosional effektlərin təsiri altında yaradılan əks əlaqə şəraitində

mümkün olur, qənaətinə gəlməyimiz, zənnimizcə, doğru yanaşmadır.

Problemin aktuallığı. Hal-hazırda Azərbaycan Respublikasında təhsilin modernləşdirilməsi pedaqoji heyətin qarşısında təhsilalanlarla səmərəli əks-əlaqənin yaradılması tələbini qoyur, bunun üçün şagird-müəllim münasibətlərində bu prosesi pedaqoji-psixoloji cəhətdən əsaslandırmaq və təkmilləşdirilmiş metodologiya hazırlamaq vacibdir.

Problemin elmi yeniliyi. Məqalə ümumtəhsil pilləsində pedaqoji prosesdə müəllim-şagird əməkdaşlığının pedaqoji-psixoloji məsələlərinə həsr edilmişdir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Məqalədə orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər

Ədəbiyyat

1. Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Psixologiya / − Bakı: −2003. – 625 s.
2. Cabbarov, R.V. Təlimdə əks əlaqənin təmin edilməsində emosional effektlərin rolu / R.V. Cabbarov. − Bakı: − 2020. – 248 s.
3. Çələbiyev, N.Z. Təhsil sistemində psixoloji xidmətin elmi nəzəri əsasları / N.Z. Çələbiyev Bakı: −2009. – 312 s.
4. Əliyev, B.H. Təhsildə şəxsiyyət problemi / B.H. Əliyev, R.V. Cabbarov, − Bakı: −2008. – 132 s.
5. Əliyev, B.H. Pedaqoji psixologiya / B.H. Əliyev, K.R. Əliyeva. R.V. Cabbarov. –Bakı: −2011. – 262 s.
6. Əliyev, B.H. Şəxsiyyətə yeni baxış nəzəriyyəsi / B.H. Əliyev. − Bakı: − 1997. −274 s.
7. Həmzəyev, M. Pedaqoji psixologiya / M. Həmzəyev. − Bakı: −1991. – 479 s.
8. Hüseynova, G.Q. Emosiya və motivasiya psixologiyası / G.Q. Hüseynova, Y.Ə. Vəliyeva. − Bakı: − 2004. −358 s.
9. "Okulda çolu zeka kuramı" / Ankara: Pegem yayınçılık, − 2005. – 195 s.
10. "Örgütsel davranış". Ankara: Ankara universitesi, Eğitim fakültəsi, − 2008, −117 s.
11. Лукьяненко, О.Д. "Обеспечение эффективной обратной связи в дидактическом информайионном взаимодействии педагога и ребенка 6-7 лет"/ Лукьяненко О.Д. // Вестник Адыгейского государственного университета. Серия 3. Педагогика и психология. 2007, № 3, −75 с.
12. Стремоусова, Е.Н. Эффективность обратной связи и ее специфика в организации // Прикладная юридическая психология. − 2008. № 2, −86 с.

Redaksiyaya daxil olub: 15.10.202

UOT 37.0

Xatirə Zakir qızı Qocayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-7849-7393
E-mail: qocayeva_xatire@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).54-57

MÜƏLLİM MOTİVASİYASININ KEYFİYYƏTLİ TƏHSİLƏ TƏSİRİ

Khatira Zakir Gojayeva
senior lecturer at Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedaqogy

I

THE IMPACT OF TEACHER MOTIVATON ON QUALITY EDUCATION

Хатира Закир гызы Годжаева
преподаватель Азербайджанского Государственного Педагогического Университета
доктор философии по педагогике

ВЛИЯНИЕ МОТИВАЦИИ УЧИТЕЛЕЙ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

Xülasə. Müasir dövrdə müəllim motivasiyası təhsilin keyfiyyətinə təsir edən əsas amillərdən biri kimi ön plana çıxır. Xüsusilə sosial-iqtisadi cəhətdən geridə qalmış bölgələrdə müəllimin istəyi, həvəsi və peşəsinə bağlılığı təhsil prosesinin uğurlu aparılmasında həlledici rol oynayır. Bu cür ərazilərdə digər təhsil dəstəkləri məhdud olduğundan, müəllim bir növ sistemin əsas dayağına çevrilir. Eyni zamanda, qlobal təhsil sistemləri pandemiya sonrası dövrdə, texnologiyaların sürətli inkişafı və müəllim çatışmazlığı kimi problemlərlə üz-üzədir. Bu dəyişikliklər fonunda müəllim motivasiyasının artırılması yalnız təhsil sahəsində uğur qazanmaq üçün deyil, eyni zamanda sosial ədalət və bərabər imkanların təmin edilməsi baxımından da vacib məsələdir.
Açar sözlər: *müəllim, şagird, təhsil, keyfiyyət, motivasiya, təsir*

Abstract. In modern times, teacher motivation comes to the fore as one of the main factors affecting the quality of education. Especially in socio-economically backward regions, the desire, enthusiasm and commitment of the teacher to his profession play a decisive role in the successful implementation of the educational process. Since other educational supports are limited in such areas, the teacher becomes a kind of mainstay of the system. At the same time, global education systems are facing problems such as the rapid development of technologies and teacher shortage in the post-pandemic period. Against the background of these changes, increasing teacher motivation is an important issue not only for achieving success in the field of education, but also in terms of ensuring social justice and equal opportunities.
Keywords: *teacher, student, education, quality, motivation, influence*

Аннотация. В современном мире мотивация учителей выходит на передний план как один из основных факторов, влияющих на качество образования. Особенно в отсталых в социально-экономическом отношении регионах желание, энтузиазм и преданность учителя своей профессии играют решающую роль в успешной реализации образовательного процесса. Поскольку другие образовательные средства поддержки в таких регионах ограничены, учитель становится своего рода опорой системы. В то же время мировые системы образования сталкиваются с такими проблемами, как стремительное развитие технологий и нехватка учителей в постпандемический период. На фоне этих изменений повышение мотивации учителей становится важным вопросом не только для достижения успеха в сфере образования, но и с точки зрения обеспечения социальной справедливости и равных возможностей.
Ключевые слова: *учитель, ученик, образование, качество, мотивация, влияние*

Təhsilin keyfiyyətinə təsir edən amillərin saysız-hesabsız olduğu məlumdur. Bunlardan başlıca olaraq bunlar misal ola bilər: universitetin və ya məktəbin idarəetmə sistemi, təhsil alanların hazırlıq səviyyəsi və onların seçiminin təşkili, təhsil proqramlarının məzmunu, peşəkar professor-müəllim heyətinin ixtisas və motivasiyası, təhsil prosesinin təşkili, tədris texnologiyaları, təhsil prosesinin maddi-texniki təminatı, təhsil işi, məzun olan mütəxəssislərə əmək bazarının tələbatının nəzərə alınması, təhsil prosesinin təşkili və onun işəgötürənləri ilə əlaqələrinin təşkili və onun nəticələrinə nəzarət və s.

Təhsil sisteminin əsas sütunlarından biri olan müəllim amili, təkcə bilik ötürən deyil, həm də şəxsiyyət formalaşdıran bir vasitə kimi qiymətləndirilir. Müəllimlərin pedaqoji bilik və bacarıqları qədər, onların işə olan münasibəti və motivasiya səviyyəsi də təhsilin keyfiyyətinə birbaşa təsir edir. Bu məqalədə müəllim motivasiyasının mahiyyəti, ona təsir edən amillər və təhsil keyfiyyətinə olan təsiri araşdırılır.

Müəllimlərin motivasiyası təhsildə keyfiyyətin qurulmasında və daha da inkişafında əsas amildir. Müəllimlərin motivasiyası müəllimləri öz peşəkar işlərində daha yaxşı performans göstərmək üçün stimullaşdırmağın bir yoludur. Müəllimlər yüksək motivasiyalı olduqda və onlara eyni dərəcədə diqqət yetirildikdə, bu, tədris-təlim prosesinin keyfiyyətini yüksəltməklə təhsilin keyfiyyətinə dəyər qatır. Motivasiya prosesi müəllimlərin müxtəlif ehtiyaclarını ödəmək üçün münasib mühit təmin etmək məqsədi ilə rəhbərlik tərəfindən istifadə olunan strategiya və fəaliyyətləri əhatə edir ki, onlar məmnun, fədakar və tapşırıqlarını yerinə yetirməkdə effektiv ola bilsinlər. Bu, təhsilin keyfiyyətini daim artırmaqda davam edir.

Motivasiya insanın müəyyən məqsədlərə çatmaq üçün daxilən və ya xaricdən yönələn istək və maraqlar sistemidir. Müəllim motivasiyası isə müəllimin dərs prosesinə, şagirdlərin inkişafına və tədris fəaliyyətinə olan marağını və bağlılığını əks etdirir. Motivasiya iki əsas formaya bölünür:

Daxili motivasiya: Peşəyə olan sevgi, şəxsi inkişaf arzusu, şagird uğurlarından məmnunluq.

Xarici motivasiya: Əməkhaqqı, sosial status, iş şəraiti, rəhbərlik və ictimai tanınma.

Müəllimlərin motivasiyası və keyfiyyətli təhsil məsələsi təhsil sistemləri və standartlarında müzakirə və narahatlıq mövzusuna çevrilmişdir. Məlumdur ki, öz təhsil sistemində yüksək keyfiyyət standartlarını qoruyub saxlamaq istəyən hər bir ölkə, müəllimləri və onların motivasiya ehtiyaclarını ən yüksək səviyyədə ciddi qəbul etməlidir . Dünya Bankı 1994- cü ildə qeyd etmişdir ki, yüksək keyfiyyətli və yaxşı motivasiyalı müəllim heyəti hər bir müəssisənin mükəmməlliyini artırmaq üçün vacibdir. Müəllimlərin motivasiyasının yüksəldilməsi ümumilikdə tədrisi yaxşılaşdırır və beləliklə, müəllimlərin motivasiyasını artırmaq, eləcə də yüksək keyfiyyətli müəllimləri saxlamaq keyfiyyətli təhsilin yaxşılaşdırılması üçün çox vacibdir.

Motivasiya müxtəlif insanlar üçün fərqli şeylər ifadə edə bilər, çünki insanlar müxtəlif yollarla motivasiya edilə bilər. Velez motivasiyanı insanın əlindən gələni etmək üçün bir ilham və ya həvəsləndirmə kimi konseptuallaşdırır. Təhsil kontekstində, motivasiyanı davranışın oyanmasına, seçilməsinə, istiqamətləndirilməsinə və davam etdirilməsinə səbəb olan qüvvələr kimi müəyyən edir. Digər bir qrup alimlər müəllimlərin işə motivasiyasını müəllimlərin işlərini yerinə yetirmələri üçün zehni təkan kimi şərh etdilər. Oxşar şəkildə, Kleysə görə, müəllimlərin motivasiyası "şəxsi və peşəkar inkişaf" və təhsil şəraitində işləmək üçün daxili istəklərdir.

Müəllimlərin motivasiyası ümumiyyətlə onların tədris fəaliyyətində iştirak səviyyəsini müəyyən edir. Aydındır ki, motivasiyalı müəllim daha çox çalışacaq, yeni texnika və fəaliyyətləri sınaqdan keçirəcək və ümumilikdə öyrənənlər üçün daha çox iş görəcək. Bir müəllim olaraq, karyerası boyu öyrətmək motivasiyasını saxlamaq üçün həm daxili, həm də xarici motivasiyalı və məmnun olmaq təkcə vacib deyil, həm də məcburidir.

Humanist nəzəriyyələr baxımından motivasiya sahəsində ən nüfuzlu tədqiqatçılardan biri Abraham Masloudur. Maslouya görə, insanın ehtiyacları ən əsas psixoloji ehtiyaclardan özünü aktuallaşdırma ehtiyaclarına qədər bir iyerarxiyaya düşür . O ehtiyaclar iyerarxiyası nəzəriyyəsində təklif edir ki, fərdlər daha yüksək səviyyəli özünü həyata keçirmə ehtiyacını yerinə yetirmək üçün motivasiya edilməzdən əvvəl aşağı səviyyəli ehtiyaclarını (qida və mənzil, təhlükəsiz olmaq və hörmət kimi əsas ehtiyacları) ödəməlidir. Maslounun ehtiyaclar iyerarxiyasının ən mühüm məqamı ondan ibarətdir

ki, ödənilməmiş yüksək səviyyəli ehtiyacın motivasiya gücü aşağı səviyyəli ehtiyacın ödənilməsindən asılıdır. Yəni tələbatlar bir-birilə ilə sıx bağlıdır. Tədris kontekstində özünü həyata keçirmə şəxsi nailiyyət, müəllim motivasiyasının əsas komponenti kimi başa düşülə bilər.

Bildiyimiz kimi müəllimlərin ümumiyyətlə həm daxili, həm də xarici ehtiyacları var. Daxili motivasiyaya malik olan müəllimin bir tapşırığı öz naminə, onun təmin etdiyi məmnuniyyət və ya yerinə yetirmə və özünü təsdiq etmə hissi üçün öhdəsinə götürdüyü müşahidə edilə bilər. Digər tərəfdən, xarici motivasiyalı müəllim əmək haqqı kimi bəzi mükafatlar əldə etmək üçün öhdəsinə düşən tapşırıqları layiqincə yerinə yetirə bilər. Ümumilikdə tədris müəssisəsinin məqsədi müəllimlərin effektiv və eyni zamanda fənnini uğurlu tədris etmək üçün daxili motivasiyasını gücləndirmək təhsil ocağının təkmilləşdirilməsi yolunda bəzi xarici motivasiya təmin etmək olmalıdır.

Motivasiyası yüksək olan müəllimlər:

- Dərslərini yaradıcı və şagird, tələbə mərkəzli formada təqdim edirlər;
- Şagirdlərin və tələbələrin (ümumilikdə öyrənənlərin) ehtiyaclarına həssas yanaşırlar;
- Tədris məqsədlərinə daha aşağı stressi və çox həvəslə nail olurlar.

Bu cür yanaşma təhsil prosesində mənfi halların azalmasına, öyrənənin məmnunluğunun artmasına və məktəbdə məhsuldarlıq mühitinin yaranmasına təkan verir.

Motivasiyanı formalaşdıran faktorlar

Müəllim motivasiyasını şəkilləndirən əsas amillər bunlardır:

- Əməkhaqqı və maddi imkanlar: Kifayət qədər əməkhaqqı müəllimi maddi qayğılardan uzaq saxlayaraq peşəsinə daha rahat fokuslanmasını təmin edir.
- Fiziki iş şəraiti: Yaxşı təchiz olunmuş sinif otaqları, resurslar və dəstək alətləri müəllimin motivasiyasını artırır.
- Peşəkar inkişaf imkanları: Yeni bilik və bacarıqları öyrənmə imtiyazı motivasiyanı canlı saxlayır.
- Sosial və psixoloji mühit: Rəhbərlik əlaqələri, komanda ruhu və ictimai dəyərləndirmə motivasiyanı üst səviyyəyə qaldıra bilir.

Ucqar və aztəminatlı bölgələrdəki vəziyyət və çatışmazlıqlar;

Ucqar məntəqələrdə çalışan müəllimlər tez-tez sosial təcrid, resurs qıtlığı, peşəkar inkişaf imkanlarının əskikliyi kimi problemlərlə üzləşir. Bu cür şəraitdə motivasiyanı qorumaq çətin olduğu üçün həssas siyasətlər tətbiq olunmalıdır:

- Regionlara xas təlim proqramları;
- Uzaq bölgələr üçün əlavə maaş əlavələri;
- Onlayn resurslara giriş və peşəkar mentorluq proqramları.

Müəllim motivasiyası təhsilin keyfiyyətinə dərin təsir göstərən strateji faktor kimi baxılmalıdır. Onun qorunması və gücləndirilməsi ünvanlı siyasətlər, dəstək proqramları və cəmiyyət münasibəti vasitəsilə mümkün ola bilər. Peşəyə sadiq, yaradıcı və motivasiyalı müəllim şagirdin və ya tələbənin inkişafı, təhsil müəssisəsinin keyfiyyəti və təhsilin davamlılığı üçün əvəzolunmazdır.

Müəllimlərin motivasiyasına kompensasiya, sinifdə uğur, peşəyə bağlılıqları, aldıqları təlim və yüksəliş və karyera yüksəlişi perspektivləri daxil olmaqla çoxsaylı amillər təsir edir. Motivasiya amillərinin müəllimlərə təsirinin araşdırılması, buna görə də vacibdir, çünki motivasiya müəllimlərin iş yerində gördüyü bütün hərəkətlərin hərəkətverici qüvvəsidir. Müəllimlərin motivasiyası ilə bağlı tədqiqatların əksəriyyəti universitet mühitində cəmlənsə də, belə görünür ki, müəllim motivasiyası ilə bağlı araşdırmaların aparılması vacibdir.

Problemin aktuallığı. Müəllim motivasiyası təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əsas amillərdəndir bu səbəbdən bu mövzu hər dövr üçün aktual problemlərdən biridir. Məqalədə müəllim, müəllim motivasiyası, ona təsir göstərən amillər araşdırılaraq müəyyən nəticələr əldə edilir.

Problemin elmi yeniliyi. Müəllim motivasiyası təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əsas amillər biridir. Motivasiya yüksək olan müəllimlər:- daha yaradıcı və interaktiv tədris metodlarından istifadə edir; şagirdlərlə güclü əlaqə quraraq onların maraq və iştirakını artırır; dərsdən yayınma və məktəbdən uzaqlaşma hallarını azaldır; təhsil mühitini daha pozitiv və təhlükəsiz edir. Məqalədə müəllimin motivasiyası probleminə bir neçə aspektdən yanaşılmış, onun yüksəldilməsinin vacibliyi bir sıra parametrlərlə əsaslandırılmışdır

Problemin praktik əhəmiyyəti onunla müəyyən olunur ki, məqalədə yer alan fikirlər, elmi ideyalar və nəticələrdən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. −Bakı: Çap Evi, −2012. −64 s.
2. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji sərişẗəliliyin müasir problemləri / M.İ. İlyasov. −Bakı: “Elm və Təhsil”, −2018. – 208 s.
3. Acquah, A., 2017. Implications of achievement motivation theory for school management in Ghana: A literature review. Studies in the Humanities and Social Sciences. 7: 10-15.
4. Orupabo, F. T. and Nwankwoala, H. N., 2018. Teachers’ work motivation and delivery of quality education in Mission Secondary Schools. International Journal of Research in Education. 11(3b): 577-612. Available at: http://www.ijsre.com/assets/vol.%2C-11(3b)-orupabo---nwankwoala.pdf
5. А.В. Калашникова "Мотивация педагога как фактор повышения качества высшего образования // Современные наукоемкие технологии. -2010. №7 . -С. 304-307; https://top-technologies.ru/ru/article/view?id=25144

Redaksiyaya daxil olub: 03.10.2025

UOT 37.01

Turanə Fazil qızı İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı,
https://orcid.org//0000-0001-6462-7759
E- mail:turanta283@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).58-61

ALİ MƏKTƏBLƏRDƏ TƏLƏBƏLƏRDƏ TƏNQİDİ TƏHLİL VƏ MƏNBƏLƏRLƏ İŞLƏMƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

Turana Fazil Ismayilova
lecturer at the Azerbaijan State Pedagogical University
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan

FORMATION OF CRITICAL ANALYSIS AND SOURCE WORKING SKILLS IN STUDENTS IN HIGHER SCHOOLS

Турана Фазиль гызы Исмаилова
преподаватель Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ФОРМИРОВАНИЕ У СТУДЕНТОВ ВУЗОВ НАВЫКОВ КРИТИЧЕСКОГО АНАЛИЗА И РАБОТЫ С ИСТОЧНИКАМИ

Xülasə. Məqalədə ali məktəblərdə tarix fənninin tədrisi zamanı tələbələrdə kritik düşünmə, mənbələrlə işləmə və tənqidi analiz bacarıqlarının inkişafı məsələləri araşdırılır. Müasir pedaqoji yanaşmalar və metodik vasitələr əsasında bu bacarıqların necə formalaşdırıldığı və tədrisin keyfiyyətinə təsiri təhlil olunur. Məqalədə həm nəzəri əsaslar, həm də praktik tədris nümunələri təqdim olunur. Məqsəd – tələbələrin tarixi hadisələrə obyektiv və çoxşaxəli yanaşmasını, mənbə analizində müstəqil qərarvermə qabiliyyətlərini gücləndirməkdir. Məqalədə bu metodların Azərbaycan tarixi dərslərində tətbiq olunmasının tələbələrin həm akademik uğurlarına, həm də milli-mədəni kimliklərinin formalaşmasına töhfə verdiyi göstərilir.
Açar sözlər: *tarixin tədrisi, kritik düşünmə, tənqidi analiz, ali təhsil, metodika, mənbələrlə iş*

Abstract. The article examines the development of critical thinking, working with sources and critical analysis skills in students during the teaching of history in higher education institutions. It analyzes how these skills are formed on the basis of modern pedagogical approaches and methodological tools and their impact on the quality of teaching. The article presents both theoretical foundations and practical teaching examples. The goal is to strengthen students' objective and multidisciplinary approach to historical events and their independent decision-making abilities in source analysis. The article shows that the application of these methods in Azerbaijani history lessons contributes to both students' academic success and the formation of their national and cultural identity.
Keywords: *teaching history, critical thinking, critical analysis, higher education, methodology, work with sources*

Аннотация. В статье рассматривается развитие критического мышления, навыков работы с источниками и критического анализа у студентов в процессе преподавания истории в высших учебных заведениях. Анализируется формирование этих навыков на основе современных педагогических подходов и методических средств, а также их влияние на качество преподавания. В статье представлены как теоретические основы, так и практические примеры. Целью является развитие у

студентов объективного и междисциплинарного подхода к историческим событиям и навыков самостоятельного принятия решений при анализе источников. В статье показано, что применение этих методов на уроках истории Азербайджана способствует как академической успеваемости студентов, так и формированию их национально-культурной идентичности.

Ключевые слова: *преподавание истории, критическое мышление, критический анализ, высшее образование, методика, работа с источниками*

1. Giriş

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas məqsədlərdən biri – tənqidi düşünən, analitik qərar verə bilən, obyektiv nəticəyə gələn tələbə yetişdirməkdir. Xüsusilə tarix fənni bu bacarıqların inkişafı üçün mühüm platformadır. Ənənəvi tədris metodlarında əsas diqqət faktların əzbərlənməsinə yönəldiyi halda, müasir yanaşmalar tələbənin mənbələrlə işləməsi, müqayisə aparması və hadisələri fərqli perspektivlərdən qiymətləndirməsini əsas tutur. Bu məqalədə ali məktəblərdə tarix dərslərində tələbələrdə kritik düşünmə bacarıqlarının inkişaf etdirilməsi yolları, istifadə olunan metod və yanaşmalar təhlil olunur. Ali təhsilin inkişafının müasir tendensiyası onun müəllimdən tələbəyə yönəldilməsini nəzərdə tutur [1, s.145].

2**. Kritik düşünmənin tələbələrin idrak fəallığına təsiri:**

1. Aktiv öyrənməni stimullaşdırır

✓ Tələbələr artıq müəllimin dediyini olduğu kimi qəbul etmirlər.

✓ Məlumatı sorğulayır, müxtəlif mənbələri müqayisə edir, fərqli fikirləri təhlil edirlər.

✓ Bu da idrak fəallığını artırır və dərs prosesində aktiv iştiraklarını təmin edir.

2. Yaradıcı və analitik yanaşmanı inkişaf etdirir.

✓ Kritik düşünən tələbə problemləri fərqli aspektlərdən analiz edir.

✓ Yeni həll yolları axtarır və yaradıcı qərarlar verir.

✓ Bu isə zehni çevikliyi və düşünmə dərinliyini artırır.

3. Əldə edilən biliklər daha davamlı olur

✓ Passiv əzbərləmə ilə müqayisədə, təhlil və müzakirə nəticəsində öyrənilən biliklər yaddaşda daha uzunmüddətli qalır.

✓ Tələbə anlayaraq öyrəndiyi üçün biliklər arasında əlaqə qurur və müxtəlif sahələrə tətbiq edə bilir.

4. Özünüqiymətləndirmə və tənqidi yanaşma bacarığını inkişaf etdirir

✓ Tələbə yalnız başqalarının fikirlərini deyil, öz fikirlərini də sorğulamağa başlayır.

✓ Bu isə reflektiv düşünməni gücləndirir.

5. Qarşılıqlı əməkdaşlıq və diskussiya mühitini formalaşdırır

✓ Kritik düşünmə əsasən dərslərdə tələbələr arasında debat, müzakirə və komanda işini artırır.

✓ Bu isə həm tələbədə sosial bacarıqların, həm də idrak fəallığının gücləndirilməsinə təsir edir.

Tarixi biliklər yalnız informativ xarakter daşımamalı, həm də düşünmə qabiliyyətinin formalaşmasına xidmət etməlidir.

Kritik düşünmə – faktları təhlil etmək, mənbələri qiymətləndirmək, fərqli mövqeləri müqayisə etmək və nəticə çıxarmaq bacarığıdır. Bu bacarığın inkişafı üçün tələbə:

1. Sadəcə "nə baş verdi?" sualına yox,

2. "Niyə baş verdi?", "Kim üçün, necə nəticələndi?" kimi suallara cavab axtarmalıdır.

Y. Kərimov tədqiqatçılıq bacarığının əhəmiyyətini və eləcə də ilkin mərhələdə şagird şəxsiyyətinin formalaşmasına təsirini təhlil edərkən yazır: Tədqiqatçılıq metodu təlimin başlıca yaradıcı metodudur. Bu metod varlığa emosional qiymətləndirici münasibəti inkişaf etdirir [2, s. 235] .

Tarixi hadisələrə çoxşaxəli yanaşma tələbənin tənqidi təfəkkürünü inkişaf etdirir.

3. Ali təhsil müəssisələrində mövcud vəziyyət:

✓ Azərbaycan universitetlərində aparılmış müşahidələr və təhlillər göstərir ki:

✓ Bir çox müəllim hələ də ənənəvi "mühazirə-diktə" metodundan istifadə edir.

✓ Tələbələr tarixi faktları əzbərləyir, lakin səbəb-nəticə əlaqələrini qurmaqda çətinlik çəkirlər.

✓ Tarixi mənbələrlə sistemli iş aparılmır və tənqidi sualvermə mədəniyyəti zəif inkişaf edib.

Bu səbəbdən tədris metodikasında yeniliklərə ehtiyac var.

Pedaqoji prosesdə müstəqil işin mahiyyəti ümumi şəkildə hamı tərəfindən qavranılır, sərbəst müstəqil fəaliyyətə istər idrak , istərsə də əmək fəaliyyətinə hazırlaşmaq , yaxud müstəqil

icraçılıq bacarıqları nümayiş etdirmək kimi başa düşülür [3, s. 76].

4. Effektiv metodik yanaşmalar

4.1. Sorğu əsaslı öyrənmə (Inquiry-Based Learning)

Tələbəyə sual vermək və onu öz cavabını tapmağa təşviq etmək kritik düşünmə bacarığını inkişaf etdirir. Məsələn:

Şah İsmayılın liderlik keyfiyyətləri dövləti qurmaq və qorumaq baxımından nə dərəcədə effektiv idi? Onun hansı qərarlarını siz düzgün, hansını isə riskli hesab edirsiniz?

Təlim məqsədi:

✓ Liderlik və qərarvermə proseslərini qiymətləndirmək

✓ Tarixi şəxsiyyətlərin fəaliyyətini tənqidi qiymətləndirmək

Səfəvilər dövləti ilə Osmanlı imperiyası arasındakı münaqişələrin əsas səbəbləri nələr idi və bu münaqişələr regionun inkişafına necə təsir göstərdi?

Təlim məqsədi:

✓ Beynəlxalq münasibətlərin təhlili

✓ Münaqişələrin iqtisadi, siyasi və mədəni nəticələrini anlama

Səfəvilər dövründə milli birlik və mədəniyyət necə formalaşmışdı? Sizcə, bu prosesin bugünkü Azərbaycan kimliyinə təsiri varmı?

Təlim məqsədi:

✓ Tarixi proseslərin müasir dövrlə əlaqəsini qurmaq.

✓ Milli kimlik və mədəniyyət anlayışlarını analiz etmək.

4.2. Problemləşdirilmiş təlim

Tələbələrə suallar verilir və onların cavab axtarması üçün yön göstərilir. Bu zaman hadisənin sosial, siyasi və iqtisadi aspektləri araşdırılır.

A.V. Petrovski və M.Q. Yaraşevskinin qeyd etdikləri kimi, "qabiliyyətlərin təzahürü insanların tarixən ictimai tələbatlara cavab vermək məqsədi ilə əldə etdikləri müvafiq bilik, bacarıq və vərdişlərin formalaşmasının konkret iş pryomlarından (metodikadan)" bilavasitə asılıdır [4, s.433].

4.3. Mənbə əsaslı öyrənmə

Tarixi sənədlər, xatirələr, şəkillər və rəsmi sənədlər əsasında tədris tələbəyə real informasiya üzərində düşünmək imkanı verir. Məsələn, bir sənədin kim tərəfindən, nə zaman və hansı məqsədlə yazıldığını təhlil etmək – kritik düşünmənin əsas elementlərindəndir.

Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Sumqayıt Dövlət Universitetində aparılan müşahidələrə əsasən:

1. Tələbələr interaktiv tapşırıqlara daha aktiv qoşulur.

2. Tədqiqat və layihə əsaslı təlim zamanı tənqidi düşüncə göstəriciləri yüksəlir.

3. Mənbələrlə işləyən tələbələr daha obyektiv və əsaslandırılmış cavablar təqdim edirlər.

Tarixin tədrisində tənqidi analiz və kritik düşünmə bacarığı tələbələrin yalnız akademik deyil, vətəndaş mövqeyinin də formalaşmasına kömək edir.

Aktiv öyrənmə strategiyalarının tətbiqi: Ali məktəblərdə aktiv öyrənmə strategiyalarının tətbiqi aşağıdakı şəkildə həyata keçirilə bilər:

Problem əsaslı öyrənmə (PBL): Tələbələrə real dünya problemləri təqdim edilərək, onların həlli üçün tədqiqat və əməkdaşlıq etmələri təşviq edilir. Kooperativ öyrənmə: Tələbələr kiçik qruplarda işləyərək, bir-birlərinin fikirlərini dinləyir və müzakirə edirlər, bu da onların tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir . Yaradıcılıq və innovasiya fəaliyyətləri: Tələbələrə yeni ideyalar inkişaf etdirmələri və mövcud problemlərə yaradıcı həllər tapmaları üçün imkanlar təqdim edilir. Ali məktəblərdə tələbələrin idrak fəallığının artırılması və onların tənqidi təfəkkür bacarıqlarının inkişaf etdirilməsi üçün aktiv öyrənmə metodlarının tətbiqi əhəmiyyətlidir. Bu yanaşmalar tələbələrin dərindən öyrənmə qabiliyyətlərini artırır və onların akademik performansını yaxşılaşdırır.

Problemin elmi yeniliyi. Səmərəli fikirlər irəli sürülmüş, aparılan araşdırmalar və tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin aktuallığı. Ali məktəblərdə yeni təlim texnologiyalarından istifadə ilə tələbələrin tənqidi analiz bacarıqlarının inkişafı imkanlarının araşdırılması mühüm əhəmiyyət kəsb edir. Problem baxımından aktuallıq təşkil edir.

Problemin praktik əhəmiyyəti. Pedaqoqlar bu mövzu ilə bağlı tədqiqatlarında materialdan istifadə edə bilər.

Ədəbiyyat

1. İsmayılova T. Tələbələrin idrak fəallığının yüksəldilməsində Azərbaycan tarixinin tədrisinin mövcud proqram və ədəbiyyatlarda təhlili vəziyyəti // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri, 2024. №2, –s.144-147
2. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M. Kazımov. –Bakı: Çaşıoğlu, –2002.
3. Mahmudova, R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Metodik vəsait. –Bakı: Çaşıoğlu, –2005. –136 s.
4. Seyidov, S.İ. Psixologiya (Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik) / S.İ. Seyidov, M.Ə. Həmzəyev. –Bakı: Nurlan, –2007.

Redaksiyaya daxil olub: 29.09.2025

UOT 37.01

İlahə Sulduz qızı Nəbiyeva
Bakı Dövlət Universitetinin
Psixologiya kafedrasının
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0000-6545-4116
E-mail: psixoloq.ilaha.nabiyeva@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).62-66

GƏNCLƏRİN SOSİAL MEDİADAN İSTİFADƏSİNİN ONLARIN "GÖZƏLLİK" STANDARTLARININ FORMALAŞMASINA TƏSİRİ

Ilaha Sulduz Nabiyeva
doctorial student in the program of philosophy of the department of Psychology of Baku State University

THE IMPACT OF YOUNG PEOPLE'S USE OF SOCIAL MEDIA ON THE FORMATION OF THEIR "BEAUTY" STANDARDS

Илаха Сулдуз гызы Набиева
докторант по программе доктора философии
кафедры Психологии
Бакинского Государственного Университета

ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ МОЛОДЕЖЬЮ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ФОРМИРОВАНИЕ ИХ СТАНДАРТОВ «КРАСОТЫ»

Xülasə. Sosial media günümüz dünyasında həyatımızın ayrılmaz bir hissəsinə çevrilmişdir. Qlobal səviyyədə 2025-ci ilin yanvar ayının statistikasına görə təxminən 5 milyarddan çox insan sosial mediadan istifadə edir ki, bu da təxminən dünya əhalisinin 63 faizini təşkil edir. İstifadəçilər isə orta hesabla gündəlik 2 saat 21 dəqiqə sosial mediadan istifadə edirlər. [1] Bu göstəricilər xüsusilə gənc nəslin sosial mediaya bağlılığının və orada təqdim olunan informasiya və mədəniyyətlərə marağının yüksək olmasını sübut edir. Bütün bunlar hamısı gənclərin özünüqiymətləndirməsinə, özünü ifadə prosesinə, öz xarici görünüşləri və imicləri ilə bağlı çox düşünməyinə səbəb olur. Araşdırmalar göstərir ki, sosial media gənclərin bədən narazılığına və özünə inamsızlığına səbəb olan əsas amillərdən biridir. Bütün bunlar hamısı yemə pozuntuları, dismorfofobiya, özgüvənin aşağı düşməsi, depressiya və digər bu kimi narahatlıqların artmasına səbəb olur. Yetişməkdə olan gənc nəsil bu baxımdan böyük risk altındadır. Bu məqalənin məqsədi gənclərin sosial mediadan istifadəsinin onların "gözəllik" standartlarının formalaşmasına təsirini psixoloji kontekstdə araşdırmaq və onun mənfi təsirlərini azaltmağa yönəlik valideynlər və mütəxəssislər üçün praktiki tövsiyələr hazırlamaqdır.
Açar sözlər: *Virtual məkan, Sosial media, şəxsiyyət, gözəllik standartları, estetik tələbat*

Abstract. Social media has become an integral part of our lives in today's world. According to statistics from January 2025, more than 5 billion people globally use social media, which is approximately 63 percent of the world's population. Users spend an average of 2 hours and 21 minutes a day on social media. [1] These figures prove that the young generation is particularly addicted to social media and is interested in the information and culture presented there. All this causes young people to think a lot about their self-esteem, self-expression, and their external appearance and image. Studies show that social media is one of the main factors that cause body dissatisfaction and self-confidence in young people. All this leads to an increase in eating disorders, dysmorphophobia, low self-esteem, depression and other such concerns. The young generation is at great risk in this regard. The purpose of this article is to examine the impact of young people's use of social media on the formation of their "beauty" standards in a psychological context and to develop practical recommendations for parents and professionals aimed at reducing its negative effects.
Keywords: Virtual space, Social media, personality, beauty standards, aesthetic demand

Аннотация. Социальные сети стали неотъемлемой частью нашей жизни в современном мире. Согласно статистике на январь 2025 года, более 5 миллиардов человек во всем мире пользуются социальными сетями, что составляет примерно 63 процента населения мира. Пользователи проводят в среднем 2 часа и 21 минуту в день в социальных сетях. [1] Эти цифры доказывают, что молодое поколение особенно зависимо от социальных сетей и интересуется представленной там информацией и культурой. Все это заставляет молодежь много думать о своей самооценке, самовыражении, а также о своем внешнем виде и имидже. Исследования показывают, что социальные сети являются одним из основных факторов, вызывающих недовольство телом и уверенность в себе у молодежи. Все это приводит к росту расстройств пищеворения, дисморфофобии, низкой самооценке, депрессии и другим подобным проблемам. Молодое поколение подвергается большому риску в этом отношении. Целью данной статьи является рассмотрение влияния использования молодёжью социальных сетей на формирование у неё эталонов «красоты» в психологическом контексте и разработка практических рекомендаций для родителей и специалистов, направленных на снижение его негативного влияния.

Ключевые слова: *виртуальное пространство, социальные сети, идентичность, стандарты красоты, эстетический спрос*

Texnologiyanın günü-gündən inkişaf etdiyi dünyada sosial medianın gənclər arasında rolu getdikcə artmaqdadır. Sosial media gənclər arasında ünsiyyəti təmin edən ən vacib əlaqə vasitələrindən birinə çevrilmişdir. İnsanlar sosial media vasitəsilə özlərini virtual məkanda təqdim edir, yeni əlaqələr qurur və öz maraqlarını formalaşdırırlar. İlk yarandığı zamanlarda sosial media insanların öz yaxınlarını tapmaq üçün bir vasitə olsa belə, hazırki dövrdə bu çox dəyişmişdir. İlk sosial medianın yaranmasını 1997-ci ildə www.SixDegrees.com saytının fəaliyyətə başlaması ilə götürürlər. Six Degrees özünü insanların dostlarını tapmasını asanlaşdıran bir vasitə kimi tanıtmışdı. [2] İndi sosial media iş, mağaza, elektron kitabxana, məlumat vermək, online görüşlər keçirmək, təhsil, xəbər ötürülməsi, sosial dəstək, moda, əyləncə bir sözlə ağlımıza gələcək bir çox sahədə çox vacib funksiyalara malikdir. Bütün bunlar hamısı sosial medianın günümüzdə hər yaş qrupundan olan insanların sosial həyatında önəmli rola sahib olmasına gətirib çıxarır.

Sosial media çağımızın ən vacib texnoloji yeniliklərindəndir. İnternetdən istifadə getdikcə artır və bu artış içərisində sosial mediadan istifadə artışı öz növbəsində daha da artır. Morgan Stanley tərəfindən 2004-cü ildə aparılan bir araşdırmaya görə, digər rabitə vasitələri ilə müqayisədə 50 milyon istifadəçiyə çatmaq üçün radio 38 il, televiziyaya 13 il, internetə isə 5 il lazım olduğu müəyyən edilmişdir. [3] Bütün bunlar göstərir ki, sosial medianın bu qədər sürətli inkişafı, insanların bir çox işlərini asanlaşdırması və tez-tez yenilənə bilir olmasından qaynaqlanır. Ən sadə izahla biz sosial medianı fərdlərə heç bir zaman və məkan məhdudiyyəti olmadan öz fikirlərini internet üzərindən ifadə etməyə imkan verən, internetin təqdim etdiyi multimedia xüsusiyyətlərindən qeyri-məhdud istifadəni təmin edən, həmçinin digər şəxslərlə qarşılıqlı fikir mübadiləsinə və bu mübadiləyə əsaslanan interaktiv mühitin mövcudluğunu təmin edən geniş əsaslı platforma kimi müəyyənləşdirə bilərik. [4] ABŞ-ın rəqəmsal analitik və yazıçılarından biri olan Brian Solis qeyd edirdi ki, sosial mediadan istifadə daha da genişlənəcək və hər cür işin uğurlu və ya uğursuz olmasında ən başlıca elementlərdən biri olacaqdır. (The Social Media Manifesto) Onun bu sözlərində çox ciddi mənada həqiqət var. Doğrudur, virtual dünya və sosial media həyatımıza dövrümüz üçün çox vacib yeniliklər gətirmişdir ki, bunlar da öz növbəsində həyatımızı asanlaşdırmış və sürətləndirmişdir. Lakin bununla belə onun gətirdiyi bu imkanlar bəzi neqativ vəziyyətləri də öz bərabərində gətirmişdir. Bu vəziyyətlərdən daha çox təsirlənənlər isə iradəsi və şəxsiyyəti formalaşmaqda olan gənc nəsildir. Gənclər dövrün tələbinə görə sosial mediadan və onun gətirdiyi yeni mədəniyyətlərdən daha çox təsirlənirlər. Sosial mediada isə təqdim edilən mükəmməl bir həyat və qüsursuzluq mövcuddur. Bütün bunlar gənclərin daha çox diqqətini çəkir. Gənclərə təqdim edilən bu qüsursuzluq isə onların mənlik şüurunun inkişafına, gözəlliklə bağlı ideallarına təsir göstərir.

Mövzu haqqında danışmazdan öncə ilk olaraq gözəllik anlayışını tarixi, mədəni və sosial dəyərlər kontekstində analiz etmək lazımdır. Ümumiyyətlə gözəllik anlayışını izah edərkən onu su ilə metafor etmək daha doğru olar. Necə ki su hansı qaba tökülərsə onun formasına uyğunlaşdığı kimi, gözəllik də tarixin müxtəlif

dövrlərində və müxtəlif mədəniyyətlərdə fərqli fikirlər və ideyalarla xarakterizə olunurdu. Yəni gözəlliyi formalaşdıran ünsürlər ayrı-ayrı mədəniyyətlərdə və tarixin müxtəlif dövrlərində müxtəlif cür formalaşırdı.

İlk olaraq tarixi prizmadan baxdığımız zaman onun şahidi olarıq ki, gözəllik ta qədimdən insanlar üçün çox vacib bir məsələ olmuşdur. Arxeoloji qazıntılar nəticəsində əldə olunan əşyalara nəzər salsaq görərik ki, əcdadlarımız tunc dövründən etibarən zinyət əşyalarından və digər bu kimi bəzək vasitələrindən istifadə ediblər. [5] Bundan başqa qədim Yunanıstanda Plato gözəlliyi "həqiqətin duyular vasitəsilə görünən forması" kimi izah edirdi. [6] Orta əsrlərdə gözəllik təvazökarlıq, təmizlik, ilahi nizam kimi dini dəyərlərlə bağlı olmuşdur. [7] İntibah dövründə isə insan bədənin ideal nisbətləri ön plana çəkildi. Leonardo da Vinçinin yatdığı "Vitruvius Adamı" əsəri gözəlliyi riyazi və bədii ölçülərlə birləşdirən bir simvola çevirdi. Bundan sonrakı dövrlər də gözəllikdə simmetriya və dəqiqlik vacib bir kateqoriya olmaqda davam edirdi.

Bütün bunlar onu göstərir ki, tarixin bütün dövrlərində gözəllik insanlar üçün vacib olub və o müəyyən kateqoriyalarla səciyyələnirdi. Məsələni mədəni kontekstdə analiz etsək onu görərik ki, mədəniyyətlər arasında müxtəlif gözəllik standartları mövcuddur. Məsələn Afrika və Asiyada dolğun bədən quruluşu sağlamlıq simvolu hesab edilirsə, Qərb mədəniyyətində atletik bədən quruluşu daha ideal hesab edilir. Buraya saç rəngi və forması, üz quruluşu, burun və dodaq forması və digər bu kimi bir çox parametrlər aiddir. Qloballaşan dünyamızda gözəllik anlayışı müxtəlif mədəniyyətlər arasında qarışır və ümumi "qlobal standart" formalaşır, lakin eyni zamanda buna qarşı olaraq "bədən pozitivliyi" kimi hərəkatlar da bu homogenləşməyə qarşı çıxır. Bütün bu proseslər hamısı medianın güclü təsirləri altında baş verir. Bütün bu sadalanan proseslər sosial dəyərlər kontekstini də formalaşdırır. Müasir dünyada, sosial medianın bu qədər həyatımızı idarə etdiyi bir dövrdə gözəllik artıq fərdi seçimlərdən çox, kütləvi təsirin, izləyici rəylərinin və virtual dünyada olan bəyənmələrin məhsuluna çevrilmişdir. Virtual dünya insanlar üçün ideal gözəllik anlayışlarını demək olar ki, vahid bir formaya salmışdır. Bütün bu estetik cərrahiyyəyə, kosmetik prosedurlara, trenajor idman fəaliyyətlərinə, diyet proqramlarına, fotoşop proqramlarına və sosial media filterlərinə tələbatların artması burdan qaynaqlanır.

Həyatın texnologiya fonunda irəlilədiyi bir dövrdə bu təsirlərdən kənarda qalmaq mümkün deyildir. Bundan ən çox təsirlənənlər isə yeniyetmə və gənclərdir. Sosial mediada fenomenlər, bloggerlər və influenserlər tərəfindən idealizə olunmuş şəkildə əks olunan bir həyat var. Bu isə gənclərin daha çox diqqətini çəkir. Bu maraq əslində gənclərdə fərqində olmadan təzyiq formalaşdırır. İlk olaraq gənclər bu vizual informasiya axınına məruz qaldıqda müqayisəyə başlayır. Bu halı biz psixoloji kontekstdə L. Festingerin "Sosial müqayisə nəzəriyyəsi" ilə izah edə bilərik. Bu müqayisə onlarda qeyri-real bədən və üz gözləntiləri formalaşdırmağa başlayır ki, bu da onlarda öz imicindən narazı olmaq və bunun fonunda özünəinamın zəifləməsi halı baş verir. [8] Bununla yanaşı ideal görüntünün "arıqlıq" kimi təbliği gənc qızlarda dietə maraq formalaşdırır. Bu da öz fonunda anoreksiya, nevrotik bulimiya kimi yemə pozuntularının yaranmasına səbəb olur. [9] Bu proses oğlanlarda isə əzələ qurma davranışının yaranmasına gətirib çıxarır. Bütün bunlara qarşı olaraq sosial mediada "bədən pozitivliyi", "bədən neytrallığı" başlığı altında bir tendensiya da formalaşmaqdadır. Bu ideyanı dəstəkləyənlər müxtəlif bədən quruluşlarını gözəlliyin müxtəlif formaları olduqlarını düşünürlər. Bir sözlə "Fərqlərimiz gözəlliyimizdir." deyir və hər kəsin özünü olduğu kimi qəbul etməsinə təşviq edirlər.

Hazırkı dövrdə sosial media istifadəsi nəinki gözəllik anlayışının istiqamətini dəyişib, o həmdə bütün istiqamətlərdə estetik görüntünü ön plana çıxarır. Bunu daha geniş izah edəcək olsaq, buraya xarici görünüş, geyimlərdən tutmuş məkan estetikasını, işıqlandırma, əşyaların yerləşməsi və digər bu kimi nüansları da qeyd edə bilərik. Bunu sadə dillə belə izah edə bilərik ki, əvvəl bir restorana getdiyimiz zaman bizim üçün önəmli olan restoranın ilkin olaraq bizim qida tələbatlarımızı ödəməsi idisə, indi oranın interyeri, qidaların estetik təqdim olunması da ən az qidanın keyfiyyəti qədər vacibdir. Bütün bunlar hamısı sosial medianın həyatımıza gətirdiyi yeni estetik tələbatların ödənilməsi üçün vacibdir. Bu kimi məsələlər ən çox da vloglarda öz əksini tapır. Vlog video blog deməkdir və şəxsin öz gündəlik həyat təcrübəsi və ictimai mövzularda olan çıxışlarını əks etdirir. Kənar-

dan baxdıqda gündəlik həyat görüntüsü versə belə çox vaxt bu videoların arxa planında uzunmüddətli hazırlıqlar, montajlar, filterlər və sponsorlaşdırılmış məzmun və mühit olur. Yəni əslində hər zaman heç də hər şey göründüyü kimi olmur. Bunu isə ədəbiyyatlarda yeni-yeni formalaşmağa başlayan "ördək sindromu" deyə bir anlayışla ifadə edə bilərik.

Bütün bunları bir daha nəzərdən keçirdikdə deyə bilərik ki, hazırki dövrdə sosial media vasitələrinin insanların həyatındakı rolu artıq çox güclüdür. Bu bir tərəfdən çox yaxşıdır. Digər tərəfdən isə insanlarda virtual və real həyatda eyni zamanda öz kimliklərini əks elətdirmək tələbi formalaşdırır. Bu isə əlavə məsuliyyəti, özlərini ifadə çabasını və sosial müqayisəni də öz bərabərində gətirir. Bəli günümüz dünyasında sosial mediadan istifadə artıq zamanın bir tələbinə çevrilib. Lakin bu tələbdən necə, nə cür, hansı məqsədlərlə istifadə etmək istifadəçilərin özlərinin müəyyənləşdirməsi gərəkən bir məsələdir. Burda məsələ ilə bağlı maarifləndirici tədbirlərin təşkili çox vacib məsələdir. Unutmamalıyıq ki, dərmanı zəhərdən ayıran şey onun miqdarıdır. Sosial media da düzgün və doğru məqsədlərlə qədərində istifadə edildikdə çox güclü və faydalı bir resursdur. Bunları isə balacalıqdan etibarən uşaqlara, daha sonra isə yeniyetmə və gənclərə aşılamaq lazımdır. Bu xüsusdan ailələr və mütəxəssislər üçün aşağıdakı tövsiyələr çox vacibdir:

1. Məktəblərdə və ailələrdə maarifləndirici söhbətlər aparmaq;
2. Valideynlər və böyüklər olaraq yetişməkdə olan gənc nəsil üçün düzgün rol model olmağı bacarmaq;
3. Gənclərdə sosial media və oradakı məzmunlarla bağlı sağlam tənqidi fikir formalaşdırmaq;
4. Sosial mediada pozitiv kontent seçiminə diqqət yetirmək;
5. Ailədə və məktəblərdə gənclərin özünüqiymətləndirməsi və özünü müşahidəsi ilə bağlı fərqindəlik yaratmaq və onların sosial müqayisədən daha çox özünü inkişafa zaman ayırması üçün dəstəkləyici mühit formalaşdırmaq;
6. "Rəqəmsal detoks"-un vacibliyi haqqında məlumat vermək;
7. Asudə vaxtı düzgün dəyərləndirmək və daha çox real sosial münasibətlərə və görüşlərə yönəlmək;
8. Media savadlılığını artırmaq üçün gənclərlə vaxtaşırı toplantılar təşkil etmək;
9. Gənclərlə "pozitiv bədən imici" ilə bağlı dəstək qrupları formalaşdırmaq;
10. Sonuncusu və ən önəmlisi sosial medianı gənclərin özünü inkişafı üçün istifadəsini dəstəkləmək, medianın onları istifadəsinə icazə verməmək.

Problemin aktuallığı. Müasir dövrdə sosial medianın gənclər arasındakı rolu getdikcə artmaqdadır. Həyatın texnologiya fonunda irəlilədiyi dünyamızda media gənclərin şəxsiyyətinin inkişafına, onların özünüdərk prosesinə və gözəllik standartlarına təsir göstərir. Araşdırmalar göstərir ki, sosial media istifadəsi ilə gənclərin bədən imici və gözəllik anlayışları ilə bağlı narahatlıqları arasında müsbət korellyasiya mövcuddur. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, mövzu gənclərin psixoloji rifahı və sağlam və real gözəllik anlayışlarının formalaşdırılması baxımından aktuallığını qorumaqdadır.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, problemin mövzusu və orda yer alan fikirlər psixologiya elminin müasir problemlərini yeni ideyalarla zənginləşdirməsi və tarixi gözəllik anlayışı ilə yeni dövrdə yaranan gözəllik standartlarını müqayisə etmişdir.

Problemin praktik əhəmiyyəti isə ondan ibarətdir ki, problemin mövzusu mütəxəssislər nəzəri məlumatlardan istifadə edə, mütəxəssislər, valideynlər və gənclər tövsiyələrdən yararlana bilərlər.

Ədəbiyyat

1. https://mindjumpers.com/global-social-media-adoption/?utm_source
2. Huang Y. Supporting Meningful Social Networks: / Thesis submitted for the degree of Doctor of Philosophy) / University of Southampton. UK, Hampshire, 2009. –156 p.
3. Kara, T. ve Özgen, E. Sosyal Medya Akademisi / –İstanbul: Beta Yayıncılık, –2012. –364 s.
4. Bulunmaz, B. Otomotiv Sektöründe Sosyal Medyanın Kullanımı ve FIAT Örneği // Global Media Journal Turkish Edition, Cilt 2 - Sayı 3. 2011. –32 s.
5. Abdurrahmanov, E. Şəkinin qədim dövr qadın zinət əşyaları / Abdurrahmanov E., Xəlilova A. //Akademik tarih ve düşünce dergisi. Cilt8, sayı3, 2021. –1002-1017 s.
6. Plato / The Symposium. / Penguin Classics. 2003. –144 p.

7. Eco, U. / On Beauty: A History of a Western Idea. –London : Secker & Warburg, – 2004. –438 p.
8. Perloff, R. M. / Social Media Effects on Young Women's Body Image Concerns: Theoretical Perspectives and an Agenda for Research // Sex Roles . 71 (11–12), –2014. –363–377 p.
9. Tiggemann, M. NetGirls: The Internet, Facebook, and Body Image Concern in Adolescent Girls. / Tiggemann, M., Slater, A. // International Journal of Eating Disorders, 46(6), –2013 –630–633 p.
10. Demir E. The mediating role of the cognitive emotion regulation strategies in the relationship between the use social media and body appreciation / Yeditepe üniversitesi yüksek lisans tezi) –İstanbul, 2023. –108 p.
11. Kaytanoğlu H. Genç yetişkinlerde sosyal onay ihtiyacı, beden memnuniyeti ve sosyal medya kullanım amaçlarının sosyal medya bağımlılığı ile ilişkisi / İstanbul gelişim üniversitesi yüksek lisans tezi. – İstanbul, 2021. –108 s.
12. Mehmet B. Ergenlerde Sosyal Medya Bağımlılığı ve Psikolojik Bozukluklar Arasındaki İlişki. // The Journal of International Scientific Researches, –2018, –p.237-247.
13. PhD Suler J. İmage, word, action: İnterpersonal dynamics in a photo-sharing communities // CyberPsychology & Behavior, Volume 11, Number 5, – 2008. – p.555-560.

Redaksiyaya daxil olub: 30.09.2025

37.015.3:159.953

Sevil İsmət qızı Ağayeva
Azərbaycan Dillər Universitetinin
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0009-0006-8196-9180
E-mail: siaghayeva@ada.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).67-72

MÜƏLLİMLƏRİN DÜŞÜNCƏ TƏRZİNİN ŞAGİRDLƏRİN ÖYRƏNMƏ PROSESİNƏ TƏSİRİ

Sevil Ismet Aghayeva
doctorial student in the program of doctor of philosophy of
Azerbaijan University of Languages

THE INFLUENCE OF TEACHER'S THINKING ON STUDENTS LEARNING

Севиль Исмет гызы Агаева
диссертант по программе доктора философии
Азербайджанского Университета Языков

ВЛИЯНИЕ МЫШЛЕНИЯ УЧИТЕЛЯ НА ПРОЦЕСС ОБУЧЕНИЯ УЧАЩИХСЯ

Xülasə. Bu məqalədə təfəkküründün şagirdlərin öyrənməyə motivasiyasına, dərs zamanı fəallığına və akademik nəticələrinə təsiri empirik və nəzəri aspektlərdən təhlil olunur. Müasir təhsil fəlsəfəsinə görə, müəllim yalnız bilik ötürücüsü deyil, həm də öyrənmə mühitinin təşkilatçısı və şagirdin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayan bir fiqurdur. Bu baxımdan, müəllimin pedaqoji inancları, reflektiv düşünmə səviyyəsi və tədris fəlsəfəsi onun dərsə yanaşmasına və şagirdlə münasibətlərinə həlledici təsir göstərir. Tədqiqatın məqsədi müəllim təfəkküründün tədris prosesinə təsirini elmi əsaslarla qiymətləndirməkdir. Bu məqsədlə qarışıq tədqiqat modeli seçilmiş və həm kəmiyyət (sorğu və statistik təhlil), həm də keyfiyyət (müsahibə və reflektiv yazıların məzmun təhlili) məlumatları toplanaraq təhlil olunmuşdur. 4 müəllim və 100 şagirdin iştirakı ilə aparılmış sorğular nəticəsində müəllimlərin inkişafyönlü və reflektiv düşünmə göstəriciləri ilə şagirdlərin motivasiya səviyyələri və dərsdə iştirakçılığı arasında statistik cəhətdən əhəmiyyətli müsbət əlaqə müəyyən edilmişdir. Keyfiyyət təhlilləri də göstərmişdir ki, reflektiv düşüncəyə sahib müəllimlər öyrənmə mühitini daha dəstəkləyici və şagirdyönlü şəkildə təşkil edirlər. Müəllimin tədrisə yanaşması yalnız şagirdlərin nəticələrinə deyil, eyni zamanda onların özünüdərki, öyrənmə fəallığı və sosial münasibətlərinə də birbaşa təsir göstərir. Nəticələr göstərir ki, müəllim təfəkkürü dinamik və dəyişkən psixopedaqoji bir strukturdur. Onun inkişafı təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır.
Açar sözlər: *müəllim təfəkkürü, reflektiv pedaqogika, şagird motivasiyası, öyrənmə mühiti, tədris fəlsəfəsi*

Abstract. This article analyzes the impact of teachers' thinking on students' motivation to learn, their activity in class, and their academic results from empirical and theoretical aspects. According to modern educational philosophy, a teacher is not only a transmitter of knowledge, but also an organizer of the learning environment and a shaper of the student's personality. In this regard, the teacher's pedagogical beliefs, level of reflective thinking, and teaching philosophy play a decisive role in his approach to the lesson and his relationship with the student. The aim of the study is to evaluate the impact of teacher thinking on the learning process on a scientific basis. For this purpose, a mixed research model was chosen and both quantitative (questionnaire and statistical analysis) and qualitative (interview and content analysis of reflective writings) data were collected and analyzed. As a result of surveys conducted with the participation of 4 teachers and 100 students, a statistically significant positive relationship was found between the teacher's development-oriented and reflective thinking indicators and students' motivation levels and involvement in the lesson. Qualitative analyses also showed that teachers with reflective thinking organize the learning environment in a more supportive and student-oriented way. The teacher's approach to teaching directly affects not only student outcomes, but also their self-awareness, learning engagement, and social relationships. The results show that

teacher thinking is a dynamic and changeable psychopedagogical structure. Its development is of strategic importance in terms of improving the quality of education.

Keywords: *teacher thinking, reflective pedagogy, student motivation, learning environment, teaching philosophy*

Аннотация. В данной статье анализируется влияние мышления учителя на мотивацию к обучению, активность на уроке и академические результаты с эмпирических и теоретических позиций. Согласно современной философии образования, учитель является не только носителем знаний, но и организатором образовательной среды и формирующим фактором личности ученика. В связи с этим педагогические убеждения учителя, уровень рефлексивного мышления и философия преподавания играют решающую роль в его подходе к уроку и его отношениях с учеником. Целью исследования является научная оценка влияния мышления учителя на процесс обучения. Для этого была выбрана смешанная модель исследования, и были собраны и проанализированы как количественные (анкетирование и статистический анализ), так и качественные (интервью и контент-анализ рефлексивных текстов) данные. В результате опросов, проведенных с участием 4 учителей и 100 учеников, была обнаружена статистически значимая положительная связь между показателями мышления, ориентированного на развитие и рефлексивного мышления учителя, и уровнем мотивации и вовлеченности учеников в урок. Качественный анализ также показал, что учителя, владеющие рефлексивным мышлением, организуют образовательную среду более благоприятно и ориентированно на учащихся. Подход учителя к преподаванию напрямую влияет не только на результаты учащихся, но и на их самосознание, вовлеченность в учебный процесс и социальные отношения. Результаты показывают, что мышление учителя представляет собой динамичную и изменчивую психо-педагогическую структуру. Его развитие имеет стратегическое значение для повышения качества образования.

Ключевые слова: *мышление учителя, рефлексивная педагогика, мотивация учащихся, образовательная среда, философия преподавания*

INTRODUCTION

In modern education systems, the teacher factor is perceived not only as an organizer of teaching, but also as a key link that directly affects the psychological, social and intellectual development of students. Not only the teacher's subject knowledge and methodological preparation, but also his or her way of thinking, worldview and pedagogical beliefs are important factors shaping the quality of teaching and student achievement (Hattie, 2009; Dweck, 2017). In this context, the concept of "teacher's way of thinking" is determined by his or her teaching philosophy, reflective thinking and attitude towards students and determines the nature of the classroom environment, the activity of the learning process and the sustainability of the results (Farrell, 2019; Abbasova, 2023).

The teacher's mindset in the teaching process determines his/her approach to the student, the criteria for choosing teaching methods, and the response to situations that arise during the lesson (Pajares, 1992). The teacher's position on the abilities of students – whether they perceive their learning potential as changeable, developable, or genetically fixed – can lead to serious differences in educational outcomes (Dweck, 2017). Thus, teachers with a "growth mindset" present students' mistakes during learning as opportunities for development, which increases their motivation and confidence in learning (Mammadov, 2018; Hasanli, 2021).

Notable trends in this area are also being observed in the Azerbaijani education system. Developing teachers' reflective thinking skills and strengthening their ability to critically approach the teaching process have become one of the priority areas in teacher training and certification programs conducted in recent years (Aliyeva, 2019; Gasimov, 2020). The level of development of a teacher's thinking affects not only lesson planning, but also classroom relationships, students' self-expression opportunities, and emotional well-being (Khalilova, 2022; Hajiyeva, 2019).

Research shows that teachers' reflective thinking and pedagogical beliefs shape their classroom decision-making, differentiated approaches, and adaptive learning strategies (Schön, 2016; Larrivee, 2020). For example, if a teacher observes that a student is not learning, systematically analyzes the reasons for this and changes their methods, this is a sign that reflective thinking is active. This also creates a positive dynamic in students' learning outcomes (Ismayilova, 2022; Korthagen, 2017).

At the same time, the teacher's way of thinking is the embodiment of the philosophy of education. It makes the teaching process more meaningful and value-oriented by seeking answers not only to the questions of "what to teach", but also "why" and "how to teach" (Fives & Gill, 2015). In this regard, studying the teaching philosophy of teachers is necessary in order to understand their attitude towards learning, how they see students, and the psychological climate they create in the classroom (Hasanov, 2021; Aliyev, 2020).

As can be seen, there is a strong relationship between teachers' mindsets and students' learning outcomes, and this relationship is manifested not only in academic, but also in social and emotional aspects. Therefore, this issue should be studied as one of the current directions of pedagogical research and taken into account in practical educational policies and teacher training programs.

Table 1. Key components of teacher thinking

Component	**Description**	**Impact on teaching**
Pedagogical beliefs	Teacher's subjective judgments about learning, student skills, and the teaching process	It shapes the student's attitude, setting lesson goals and strategies.
Reflective thinking	Tendencies to critically approach and analyze one's own teaching experience	Improving teaching, adapting to changing situations
Decision-making skills	Teacher decisions regarding the choice of method, form, resource and approach in the teaching process	Building an effective and personalized learning environment

Source: Abbasova (2023); Aliyeva (2019); Mammadov (2018); Fives & Gill (2015)

Pedagogical beliefsIt forms the basis of a teacher's approach to teaching and learning. For example, if a teacher believes that students' skills can be developed, then they use more motivating and student-centered teaching methods (Dweck, 2017; Mammadov, 2018). This leads to increased motivation and inner confidence in teaching (Hasanli, 2021).

Reflective thinkingReflects a teacher's critical approach to their teaching activities. Reflective teachers continuously analyze the learning process, conduct post-lesson evaluations, and seek methodological improvements (Aliyeva, 2019; Abbasova, 2023). Local studies also prove that teachers with a high level of reflectiveness are more responsive to student needs (Ismayilova, 2022; Khalilova, 2022).

Decision-making skillsand involves the teacher's ability to make operational and conscious decisions during the lesson. The learning environment is rich in numerous variables, and the teacher must choose flexible methods and strategies appropriate to these variables (Fives & Gill, 2015; Hajiyeva, 2019). Successful management of this process is a crucial factor in creating an effective learning atmosphere in the classroom.

For a clearer explanation of this effect, the mechanisms of influence of teacher thinking on the learning process are summarized in the following table:

Table 2. Mechanisms of influence of teacher thinking on learning

Area of influence	**The role of teacher thinking**
Student motivation	High expectations and a positive approach increase the student's self-confidence and goal-orientedness.
Socio-emotional environment	Reflective and empathetic teachers create an open, safe, and supportive classroom environment.
Choice of lesson strategies	Growth mindset guides the teacher towards interactive, personalized, and student-centered methods
Student self-assessment	The teacher influences the student's attitude towards learning and their perception of themselves as learners.

Reflective thinking allows teachers to dynamically evaluate and change their teaching process (Aliyeva, 2019; Schön, 2016). Such teachers observe student reactions in class, identify learning difficulties in a timely manner, and adapt the form of instruction to them (Farrell, 2019). This makes learning active, student-centered, and continuous.

The model of relationships that a teacher creates in the classroom is also an important psychological factor that affects student learning. Studies show that a teacher's critical thinking, respect for alternative ideas, and valuing students' opinions increase learning activity (Abbasova, 2023; Hajiyeva, 2019). On the contrary, an authoritarian approach and a behavior model that determines everything by itself creates passivity and indifference to learning in the classroom (Khalilova, 2022).

We can present a comparative view of how these relationships affect the student in the table below:

Table 3. The impact of teacher thought models on student learning

Teacher thinking model	**Student behavior and outcome form**
Developmentally oriented and reflective	High motivation, proactivity, critical thinking, self-confidence and independent decision-making skills
Formalist and results-oriented	Passivity, focus only on price, fear of making mistakes, low initiative
Empathetic and student-oriented	Ability to express oneself, communicate openly, participate in class activities, and collaborate
Control-oriented and authoritarian	Stereotype learning, fear-based motivation, apathy towards learning

The above framework clearly demonstrates how a teacher's mindset plays a role in each stage of teaching – planning, implementation, evaluation and reflection. Although this influence is often indirect, its consequences are directly reflected in the quality of learning. Therefore, teacher training and professional development programs should prioritize the development of teachers not only at the methodological level, but also at the level of thinking (Korthagen, 2017; Larrivee, 2020; Fives & Gill, 2015).

Ways to change and develop teacher thinking

In modern educational philosophy, the teacher is not only considered a person who applies existing teaching knowledge, but also a subject who is open to innovations and reflectively oriented towards development, adapting to constantly changing pedagogical realities. This approach shows that the teacher's way of thinking is not a fixed, but a changing and formable structure. Changing the teacher's way of thinking leads to fundamental transformations in his pedagogical activity and creates conditions for increasing the quality of teaching (Aliyeva, 2019; Abbasova, 2023; Korthagen, 2017). The process of changing the way of thinking should be supported through targeted interventions, practice, self-analysis and professional learning models.

A comparative analysis of effective methods for developing teacher thinking is presented in the table below:

Table 4. Key mechanisms for changing and developing teacher thinking

Development method	**Content and application**	**Expected result**
Reflective journaling and observations	The teacher's written analysis of their teaching experiences and post-teaching evaluation	Strengthening critical thinking and decision-making skills
Professional development trainings	Training programs on modern methodology, student-centered approach, and critical pedagogy	Expanding pedagogical perspective and increasing methodological flexibility
Peer learning and teacher networks	Exchange of experiences, lesson observations and joint planning between teachers	An environment of collaborative learning and collective reflection
Change based on evaluation	Teaching improvement based on student feedback, self-assessment, and lesson outcomes	Redesigning instruction to meet changing classroom needs

Source: Aliyeva (2019); Gasimov (2020); Abbasova (2023); Farrell (2019); Korthagen (2017)

Analysis and discussion of results

The results of the study showed that teachers' mindsets - especially their pedagogical beliefs and level of reflection – significantly affect students' learning motivation and participation. The analyses were conducted based on both statistical processing of quantitative (questionnaire) data and thematic content analysis of qualitative data.

The results of the survey conducted among a total of 4 teachers and 100 students were analyzed in SPSS software. The aim of the study was to determine the statistical relationship between teachers' thinking styles and students' motivation and engagement levels.

Pearson correlation analysis showed that there were positive and statistically significant relationships between teachers' growth mindset, level of reflective thinking, and student motivation indicators.

Table 5. Pearson correlation analysis results

Variables	**Student motivation**	**Level of engagement in the lesson**
Growth mindset (GMB)	**r = 0.62**	r = 0.48
Reflective thinking level (RDS)	r = 0.57	**r = 0.66**

Source: *Compiled by the author, based on SPSS analysis results.*
Note: *Significant at p < 0.01 level*

The analysis shows that there is a strong positive correlation of r = 0.62 between growth mindset and student motivation ($p < 0.01$). This supports hypothesis H_1 and is consistent with the approaches put forward by Dweck (2017), Mammadov (2018). On the other hand, a correlation of r = 0.66 was observed between the level of reflective thinking and lesson engagement. This result confirms the ideas highlighted by Abbasova (2023) and Aliyeva (2019): teacher reflection increases student engagement in learning.

A multifactorial regression model assessed the impact of teachers on students' academic outcomes and engagement through two key variables – growth mindset and reflective thinking.

Table 6. Results of multifactorial regression analysis

Dependent variable	**Explanatory variables**	**Standard β (Beta)**	**t-statistic**	**p-value**
Student motivation	IYD	**0.48**	3.74	**0.001**
	RDS	0.29	2.11	0.038
Academic results	IYD	0.34	2.69	0.010
	RDS	**0.41**	3.02	**0.004**

Source: *Compiled by the author, based on SPSS analysis results.*

Model's $R^2 = 0.52$, $F(2, 97) = 18.1$, $p < 0.001$

The results show that the teacher's growth mindset explains 48% of the student motivation ($\beta = 0.48$, $p = 0.001$), which statistically fully supports the hypothesis H_1. At the same time, the effect of reflective thinking on student academic outcomes was higher at $\beta = 0.41$ ($p = 0.004$). This provides empirical support for hypotheses H_2 and H_3 and is consistent with the theoretical foundations highlighted by Korthagen (2017), Abbasova (2023), and Fives & Gill (2015).

The overall explanatory power of the model ($R^2 = 0.52$) indicates that teacher mindset variables have the power to explain approximately 52% of student outcomes, which is a significantly high indicator.

Table 7. Overall assessment of hypotheses

Hypothesis	**Content**	**Conclusion**
H_1	A growth mindset increases student motivation	Approved
H_2	Student engagement is higher in classrooms with reflective teachers	Approved
H_3	Pedagogical beliefs influence lesson organization and method selection, and this is reflected in the results.	Approved

Source:*Compiled by the author.*

Conclusion

The results of the study showed that teachers' mindsets – especially their approach to teaching, level of reflective thinking and pedagogical beliefs – play a crucial role in the learning process of students. The teacher's high expectations of the student's potential, development-oriented and empathetic approach leads to increased motivation to learn, active participation in the learning process and higher results. Reflective thinking skills ensure that the teacher has a critical approach to his/her own activities, analyzes the teaching process and is open to continuous improvement.

The general conclusion is that a teacher's mindset is a dynamic process that can change and develop. Proper management of this process plays an important role in improving the quality of teaching, shaping a student-centered learning model, and ensuring emotional safety in education.

References

1. Aliyeva, SR (2019). The role of reflective thinking in the formation of teacher professionalism. Azerbaijan Teacher Journal, (4), 45–51.
2. Hasanov, EA (2021). The importance of teachers' pedagogical worldview in the modern educational process. Innovations in Education, (2), 18–26.
3. Ismayilova, GB (2022). Teacher's thinking style and its impact on student success. Azerbaijan Pedagogical University News, (3), 29–35.
4. Gasimov, NM (2020). Ways to form a reflective teacher model. Educational Problems, (1), 64–71.
5. Mammadov, R. A. (2018). The impact of teacher beliefs on student motivation in the teaching process. Pedagogy and Psychology, 3(36), 77–84.
6. Abbasova, ST (2023). Teacher's critical thinking and its application in the teaching process. Higher Education and Society, (2), 59–66.
7. Khalilova, ZS (2022). Transformation of teacher thinking in the educational process. Science and Education, (1), 12–21.
8. Hajiyeva, LQ (2019). Student-centered learning and teachers' thinking system. Modern Educational Research, 2(8), 33–41.
9. Hasanli, TF (2021). The impact of teaching philosophy on teacher activity. Strategy and Management in Education, (3), 48–55.
10. Aliyev, AM (2020). Teachers' reflective thinking in educational leadership. Azerbaijan Journal of Education, (2), 25–32.
11. Dweck, CS (2017). Mindset: Changing the way you think to fulfill your potential. Little, Brown Book Group.
12. Hattie, J. (2009). Visible learning: A synthesis of over 800 meta-analyses relating to achievement. Routledge. https://doi.org/10.4324/9780203887332
13. Schön, DA (2016). The reflective practitioner: How professionals think in action. Routledge. https://doi.org/10.4324/9781315237473
14. Farrell, TSC (2019). Reflective practice in ELT. Equinox Publishing. https://doi.org/10.21832/9781788923385
15. Larrivee, B. (2020). Cultivating teacher reflection: Establishing the connections. Routledge. https://doi.org/10.4324/9780429504981
16. Fives, H., & Gill, MG (Eds.). (2015). International handbook of research on teachers' beliefs. Routledge. https://doi.org/10.4324/9780203108437
17. Korthagen, FAJ (2017). Inconvenient truths about teacher learning: Towards professional development 3.0. Teachers and Teaching, 23(4), 387–405. https://doi.org/10.1080/13540602.2016.1211523

Redaksiyaya daxil olub: 02.10.2025

UOT 37.01

Səbinə Ceyhun qızı Hacızadə
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0003-0476-2328
E-mail: sabinanasif@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).73-76

VİRTUAL DÜNYADAN REAL DƏYƏRLƏRƏ: UŞAQLARDA SAĞLAM İNANCIN FORMALAŞDIRILMASINDA RƏQƏMSAL İMKANLAR

Sabina Jeyhun Hajizadeh
doctorial student in the program of doctor of philosophy at the
Institute of Education of the Republic of Azerbaijan

FROM VIRTUAL REALITY TO REAL VALUES: DIGITAL OPPORTUNITIES FOR NURTURING HEALTHY FAITH IN CHILDREN

Сабина Джейхун гызы Гаджизаде
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ОТ ВИРТУАЛЬНОГО ПРОСТРАНСТВА К ИСТИННЫМ ЦЕННОСТЯМ: ЦИФРОВЫЕ ВОЗМОЖНОСТИ В ФОРМИРОВАНИИ ЗДОРОВЫХ ВЕРОВАНИЙ У ДЕТЕЙ

Xülasə. Məqalədə rəqəmsal texnologiyaların uşaqların psixoloji, sosial və mənəvi inkişafına təsiri araşdırılır. Sosial media, oyunlar və interaktiv tətbiqlərin uşaqların mənəvi dəyərlərinə təsiri təhlil edilir. Əsas diqqət uşaqlarda sağlam inancın formalaşdırılmasında rəqəmsal imkanların düzgün istiqamətləndirilməsinə yönəldilir. Milli təhsil sistemi üçün yeni elektron resursların hazırlanması vacib təklif kimi irəli sürülür.
Açar sözlər: *rəqəmsal mühit, uşaqlar, inanc, milli dəyərlər, təhsil*

Abstract. The article examines the impact of digital technologies on the psychological, social, and spiritual development of children. It analyzes the influence of social media, games, and interactive applications on children's moral values. The main focus is on properly guiding digital opportunities to help form a healthy sense of faith in children. The development of new electronic resources for the national education system is proposed as an important recommendation.
Keywords: *digital environment, children, faith, national values, education*

Аннотация. В статье исследуется влияние цифровых технологий на психологическое, социальное и духовное развитие детей. Анализируется воздействие социальных сетей, игр и интерактивных приложений на духовные ценности детей. Основное внимание уделяется правильному направлению цифровых возможностей в формировании здоровой веры у детей. В качестве важного предложения выдвигается разработка новых электронных ресурсов для национальной системы образования.
Ключевые слова: *цифровая среда, дети, вера, национальные ценности, образование*

Müasir dövr rəqəmsal texnologiyaların həyatımıza sürətlə nüfuz etdiyi bir çağdır. İnformasiya saniyələr içində dünyanın bir ucundan digərinə çatır, bilik əldə etməyin yolları sadələşir, ünsiyyət yeni ölçü qazanır və məsafələr getdikcə önəmsizləşir. Bu çağın ən həssas iştirakçıları uşaqlardır – texnologiya onlar üçün həm yeni biliklərə, həm də əyləncəyə açılan bir pəncərə rolunu oynayır. Lakin hər yenilik kimi, rəqəmsal aləm də ikili təsir göstərir. Bir tərəfdən yaradıcılıq və bilik imkanlarını genişləndirir, digər tərəfdən isə nəzarətsiz və məqsədsiz istifadə uşaqların mənəvi dəyərlərini kölgələyir, aqressiv oyunlar onların davranışına mənfi təsir gös-

tərir və psixoloji asılılıqların yaranmasına yol açа bilir. Bugünkü təhsil prosesinin ən böyük sualı da məhz buradadır: texnologiyadan qaçmaq mümkün deyil, bəs ondan necə istifadə etməli ki, uşaqlar həm müasir dünyanın imkanlarından yararlansın, həm də sağlam mənəvi dəyərlərlə böyüsünlər? İnanc amili burada mühüm açar rolunu oynaya bilər. İnanc dedikdə yalnız dini təsəvvürlər yox, həm də uşağın şəxsiyyətini bütövləşdirən dürüstlük, mərhəmət, ədalət, tolerantlıq kimi ümumbəşəri dəyərlər nəzərdə tutulur.

Bu məqalə məhz həmin istiqamətə – virtual dünyadan real dəyərlərə doğru atılan addımlara həsr olunur. Burada rəqəmsal imkanların riskləri və üstünlükləri müqayisə ediləcək, uşaqlarda sağlam inancın formalaşdırılmasında interaktiv resursların psixoloji əsasları araşdırılacaq.

Rəqəmsal mühitin psixoloji riskləri

Aparılan tədqiqatlar göstərir ki, oyunların və interaktiv proqramların seçimi uşaqların psixoloji və mənəvi inkişafına birbaşa təsir göstərir. Sosial psixoloq Craig A. Anderson və media psixologiyası üzrə mütəxəssis Karen E. Dill qeyd edirlər ki, aqressiv məzmunlu oyunlar və interaktiv mühitlər uşaqların emosional tənzimləmə bacarıqlarını zəiflədir, qəzəb və aqressiyanın idarə olunmasında çətinliklər yaradır [1, s. 776]. Həmçinin, bu vəziyyət uşaqların başqalarının hisslərinə həssaslıq göstərmə qabiliyyətini də azaldır və empatiya bacarıqlarının inkişafına zərər yetirir. [2, s. 121].

Uşaq və yeniyetmələr üzrə psixiatr Carol Vidal bildirir ki, sosial media istifadəsi ilə depressiya arasında mürəkkəb və çoxşaxəli əlaqə mövcuddur; aparılan təcrübəyə əsasən həm çox uzun müddət, həm də tam kənarda qalmaq kimi sosial mediadan istifadə formaları uşaqlarda psixoloji gərginliyi artıra bilər. [3, s. 235]. Bu o deməkdir ki, texnologiyalardan tam uzaq durmaq problemdən çıxış yolu deyil. Həmçinin, yalnız zərərli məzmundan uzaq durmaq da kifayət deyil – yəni, rəqəmsal məzmunun məqsədli və balanslı istifadəsi uşaqların psixoloji sağlamlığı üçün həlledici rol oynaya bilər. Bununla əlaqədar, uşaqların mənəvi və sosial bacarıqlarını inkişaf etdirən müvafiq interaktiv oyunlar və tədris proqramları hazırlanmalı, məqsədli şəkildə təlim-tərbiyə prosesinə inteqrasiya edilməlidir.

Faydalar və imkanlar

Mövcud təcrübələr göstərir ki, interaktiv və hədəfli məzmun uşaqların diqqətini cəlb edir, öyrənməni daha effektiv edir və davranışların mənəvi tərəflərini gücləndirir [6, s. 258]. Bir neçə mövcud tətbiq nümunəsinə nəzər salaq: Məsələn, "*The Circle of Giving"* adlı tətbiq uşaqlara paylaşma və başqalarına kömək etmə kimi ümumbəşəri dəyərləri öyrədir, "*Even Monsters Are Shy"* sosial narahatlıq və utancaqlıq kimi emosiyaları anlamağa kömək edir. "*Avokiddo Emotions"* uşaqlara emosiyaları tanımaq və başqalarının hisslərinə həssas olmaq imkanları yaradır, "*One Globe Kids*" isə müxtəlif mədəniyyətləri tanımaq və fərqliliklərə hörmət etməyi öyrədir. Bu tətbiqlər uşaqların mənəvi və sosial bacarıqlarının inkişafına töhfə verir və təlim-tərbiyə prosesinə inteqrasiya edilə bilər.

Bununla yanaşı, dünya təcrübəsində sağlam dini inanc formalaşdıran interaktiv tətbiqlər və proqramlar da mövcuddur. Məsələn, İslam təlimlərini uşaqlara əlçatan dildə çatdıran "*Muslim Kids Series"* tətbiqi, qısa animasiyalar və oyunlar vasitəsilə ibadətləri, dua vərdişlərini və ümumbəşəri dəyərləri öyrədir. Eyni zamanda, "*The Bible App for Kids"* adlı tətbiq uşaqlara əyləncəli və interaktiv hekayələr vasitəsilə xristian dəyərlərini öyrədir, empatiya, mərhəmət və dürüstlük kimi keyfiyyətlərin inkişafına töhfə verir. Bu cür tətbiqlər, dini inancı mənəvi dəyərlərlə birləşdirərək uşaqlarda sağlam şəxsiyyət formalaşdırılmasına dəstək olur.

Təkliflər

Milli təlim-tərbiyə modelini nəzərə alaraq, Azərbaycan dilində də belə rəqəmsal resursların hazırlanması aktuallıq kəsb edir. Hazırda belə resurslar olduqca məhduddur. Bu boşluğu doldurmaq məqsədilə bir neçə konkret yanaşma təklif olunur.

Birincisi, *milli interaktiv oyun platforması* yaradılır, burada milli irs və folklor nümunələri, dini-mənəvi dəyərlər, tarixi simalar və hadisələr, milli ənənələr və bayramlar, eləcə də gündəlik həyatdakı əxlaqi seçimlər interaktiv hekayələr vasitəsilə uşaqlara təqdim edilir. Hekayənin müəyyən nöqtələrində uşaqlara bir neçə seçim variantı verilir; məsələn, "Oğuz igidləri bir yolçunun çətinliyinə şahid olurlar. Uşağa seçim verilir – igidlər ona kömək etməli, yoxsa biganə qalmalıdırlar. Burada "igidlik təkcə güclü olmaq deyil, həm də mərhəmətli olmaqdır" mesajı vurğulanır. Hər seçim vizual olaraq nəticələndirilir – dürüstlük və mərhəmət göstərildikdə müsbət nəticə, əks halda neqativ nəticə nümayiş olunur.

Eyni zamanda, *süni intellekt* uşağın əvvəlki seçimlərini izləyir və gələcək hekayələrdə fərdiləşdirilmiş, uşağın inkişaf etdirilməli bacarıqlarına uyğun yeni situasiyalar təqdim edir; məsələn, empatiya bacarığı zəifdirsə, növbəti hekayələrdə bu bacarığı inkişaf etdirəcək situasiyalar daha çox vurğulanır. Belə yanaşma uşaqlara praktiki qərar vermə, sosial empatiya və mənəvi dəyərlərlə davranış bacarıqlarını öyrətməyə imkan yarada bilər.

İkincisi, *"Rəqəmsal Dəyər Gündəliyi"* adlı mobil tətbiq yaradılır. Bu mobil tətbiq uşağa hər gün kiçik "yaxşılıq missiyası" təqdim edir: məsələn, "müəlliminə və ya dostuna təşəkkür məktubu yaz", "evdə kiçik bir işi könüllü gör" və s. Uşaq tapşırığı yerinə yetirdikdən sonra gündəliyində bunu qeydə alır – şəkil çəkir və ya qısa yazı yazır. Tətbiqdəki süni intellekt uşağa motivasiyaedici geribildirim verir və hər yaxşılıq üçün xüsusi "dəyər medalları" təqdim edilir: Mərhəmət Ulduzu, Dürüstlük Medalı və s. Oyunlaşdırma mexanizmi uşağın davranış motivasiyasını gücləndirir və təlim prosesini daha cazibədar edir. Aparılan tədqiqatlar göstərir ki, oyun elementləri ilə təqdim olunan tapşırıqlar uşaqların öyrənmə həvəsini artırır və davranış dəyişikliklərinin daha dayanıqlı olmasına kömək edir [5. s.3025].

Tətbiqin digər üstünlüyü isə uşaqların öz nailiyyətlərini bir-biri ilə paylaşa bilməsi ola bilər. Tətbiqin "nailliyyət divarı" bölməsində uşaqlar medallarını nümayiş etdirə, dostlarını təbrik edə və birlikdə yeni məqsədlər müəyyənləşdirə bilərlər. Sosial paylaşımın motivasiyaedici təsiri barədə aparılan araşdırmalar da göstərir ki, uşaqlar gördükləri yaxşılıq və uğurları başqaları ilə bölüşəndə onların dəyərlərə bağlılığı daha da möhkəmlənir [2, s. 153]. Daha inkişaf etmiş mərhələdə tətbiq uşaqlara "komanda xəritəsi" təqdim edə bilər. Məsələn, bir qrup uşaq eyni həftədə mərhəmət tapşırıqlarını yerinə yetirirsə, birlikdə "Mərhəmət Qalası" qura bilirlər. Beləliklə, uşaqlar yalnız fərdi şəkildə deyil, həm də komanda şəklində dəyərləri yaşamağı öyrənirlər.

Nəticə olaraq, rəqəmsal texnologiyalar təkcə əyləncə vasitəsi deyil, həm də uşaqlarda sağlam inanc və dəyərlərin formalaşmasına xidmət edən güclü tərbiyə alətlərinə çevrilə bilər. Əsas məsələ bu imkanlardan məqsədli və balanslı şəkildə istifadə etməkdir. Qeyd edək ki, burada təqdim olunanlar yalnız bir başlanğıcdır – bu istiqamətdə bir çox digər yaradıcı və faydalı təkliflər də hazırlana bilər. Virtual dünyanın doğru yönləndirilməsi ilə real həyatda dürüst, mərhəmətli və düşüncəli nəsillər yetişdirmək mümkündür.

Problemin aktuallığı. Müasir dövrdə rəqəmsal texnologiyaların sürətlə inkişafı və uşaqların gündəlik həyatına inteqrasiyası onların psixoloji, sosial və mənəvi inkişafına birbaşa təsir göstərir. İnformasiya bolluğu, sosial media və interaktiv oyunlar uşaqlar üçün həm yeni imkanlar yaradır, həm də ciddi risklər doğurur. Bu şəraitdə uşaqlarda sağlam inanc və mənəvi dəyərlərin formalaşdırılması təlim-tərbiyə prosesində mühüm məsələ kimi aktuallaşır. Texnologiyadan qaçmaq mümkün olmadığından, onun düzgün istiqamətləndirilməsi təhsilin keyfiyyətinə və şəxsiyyətin formalaşmasına təsir edən əsas amillərdən birinə çevrilir.

Problemin yeniliyi. Problemin yeniliyi ondan ibarətdir ki, məqalədə rəqəmsal texnologiyaların yalnız riskləri deyil, həm də onların mənəvi inkişaf üçün potensial imkanları araşdırılır. Ənənəvi yanaşmalardan fərqli olaraq, bu tədqiqat texnologiyanı uşaqların şəxsiyyətinin formalaşmasında müsbət və yönləndirilə bilən bir vasitə kimi təqdim edir. Sağlam inancın və ümumbəşəri dəyərlərin interaktiv resurslar vasitəsilə təbliği, süni intellekt əsaslı fərdiləşdirilmiş öyrənmə və oyunlaşdırma metodlarının tətbiqi məsələyə yeni yanaşma gətirir.

Problemin praktik əhəmiyyəti. Təklif olunan rəqəmsal resurs və tətbiqlər – "Milli İnteraktiv Oyun Platforması" və "Rəqəmsal Dəyər Gündəliyi" – təhsil sistemində praktik tətbiq imkanlarına malikdir. Bu yanaşmalar uşaqlarda sosial-emosional bacarıqları, mənəvi dəyərləri və qərarvermə qabiliyyətini inkişaf etdirməklə yanaşı, təlim prosesini də daha cəlbedici və interaktiv edir. Oyunlaşdırma və geribildirim mexanizmləri uşaqların davranış motivasiyasını artırır, sosial paylaşım isə dəyərlərin möhkəmlənməsinə xidmət edir. Beləliklə, rəqəmsal alətlər təlim-tərbiyənin effektivliyini yüksəltmək üçün funksional vasitəyə çevrilir.

Ədəbiyyat

1. Anderson, C. A., Dill, K. E. (2000). Video oyunları və aqressiv düşüncə, hisslər və davranışlar: laboratoriya və real həyat nümunələri. *Journal of Personality and Social Psychology*, 78(4), 772–790.
2. Bandura, A. (2002). Kütləvi kommunikasiyada sosial-koqnitiv nəzəriyyə. In J. Bryant & D. Zillmann (red.), *Media Effects: Advances in Theory and Research* (s. 121–153). Mahwah, NJ: Lawrence Erlbaum Associates.

3. Vidal, C., Lhaksampa, T., Miller, L., və Platt, R. (2020). Yeniyetmələrdə sosial media istifadəsi və depressiya: icmal tədqiqat. *International Review of Psychiatry*, 32(3), 235–253.
4. Gentile, D. A., Coyne, S., Walsh, D. A. (2011). Media zorakılığı, fiziki və münasibət aqressiyası: məktəb yaşlı uşaqlarda qısamüddətli uzunlamasına araşdırma. *Aggressive Behavior*, 37(2), 193–206.
5. Hamari, J., Koivisto, J., Sarsa, H. (2014). Gamifikasiya işləyirmi? – Empirik araşdırmalara əsaslanan ədəbiyyat icmalı. *47-ci Havay Beynəlxalq Sistem Elmləri Konfransının materialları*, 3025–3034.
6. Plass, J. L., Homer, B. D., Kinzer, C. K. (2015). Oyun əsaslı öyrənmənin əsasları. *Educational Psychologist*, 50(4), 258–283.
7. Vidal, C. (2019). Rəqəmsal medianın yeniyetmələrin psixi sağlamlığına təsiri: psixiatrın baxışı. *Child and Adolescent Psychiatric Clinics of North America*, 28(2), 303–316.
8. Muslim Kids Series. (n.d.). Osratouna.com. Əldə olunub: https://www.osratouna.com/muslim-kids-series/
9. The Bible App for Kids. (n.d.). Bible.com. Əldə olunub: https://www.bible.com/kids
10. The Circle of Giving mobil tətbiqi. (n.d.). App Store. Əldə olunub: https://apps.apple.com/us/app/the-circle-of-giving/id954909582
11. Even Monsters Are Shy mobil tətbiqi. (n.d.). App Store. Əldə olunub: https://apps.apple.com/us/app/even-monsters-are-shy/id895055791
12. Avokiddo Emotions mobil tətbiqi. (n.d.). Avokiddo.com. Əldə olunub: https://avokiddo.com/emotions/
13. One Globe Kids. (n.d.). Əldə olunub: https://oneglobekids.org

Redaksiyaya daxil olub: 08.10.2025

PROFESSOR İNTİQAM HİLAL OĞLU CƏBRAYILOV – 65
PROFESSOR INTIGAM HILAL JABRAYILOV – 65
ПРОФЕССОР ИНТИГАМ ХИЛАЛ ОГЛЫ ДЖАБРАИЛОВ – 65

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
E-mail:a.abbasov@arti.edu.az
https://orcid.org/ 0000-0002-9210-7141
https://doi.org/10.69682/arti.2024.92(6).77-80

PEDAQOJİ ELMDƏ ÖZ DƏSTİ-XƏTTİ OLAN ALİM

Akif Nuragha Abbasov
doctor of pedagogical sciences, professor, honored teacher
scientific secretary at the Institute of Education of the Republic of Azerbaijan

WORTHY REPRESENTATIVE OF PEDAGOGICAL SCIENCE

Акиф Нурага оглы Аббасов
доктор педагогических наук, профессор, заслуженный учитель, ученый секретарь Института Образования Азербайджанской Республики

ДОСТОЙНЫЙ ПРЕДСТАВИТЕЛЬ ПЕДАГОГИЧЕСКОЙ НАУКИ

Xülasə. Məqalə pedaqogika elmləri doktoru, professor, əməkdar müəllim İntiqam Hilal oğlu Cəbrayılova həsr olunmuşdur. Bu il dekabr ayında onun anadan olmasının 65 illiyi tamam olur. Məqalədə İntiqam müəllimin həyatı, pedaqoji və elmi fəaliyyəti barədə məlumat verilir.
***Açar sözlər**: pedaqoji elm, alim, 65 yaş, elm xadimi, səriştəli tədqiqatçı, professor*

Abstract. This article is dedicated to Intigam Hilal oglu Jabrayilov, Doctor of Pedagogical Sciences, Professor, and Honored Educator. This December marks his 65th birthday. The article provides information about Intigam's life, teaching, and research activities.

Keywords: *pedagogical sciences, scientist, 65 years old, qualified researcher, professor*

Аннотация. Статья посвящена доктору педагогических наук, профессору, заслуженному педагогу Интигаму Хилалу оглу Джабраилову. В этом году, в декабре, отмечается 65-летие со дня его рождения. В статье представлена информация о жизни, педагогической и научной деятельности Интигама.

Ключевые слова*: педагогические науки, ученый, 65 лет, квалифицированный исследователь, профессор*

İnsanı ucaldan, şöhrətləndirən onun xoş əməlləri, təhsildə, iş yerində, cəmiyyətdə üzərinə düşən vəzifələri cani-dildən yerinə yetirməsi, vətənpərvərliyi, xeyirxahlığıdır. Öz həyat-tərzləri və fəaliyyətləri ilə müsbət mənada fəqlənənlər cəmiyyət tərəfindən bəyənilir, ailə tərəfindən sevilir. Əxlaqı gözəl olanla, adətən r diqqət mərkəzinə gətirdiyimiz məziyyətlərə sahiblənirlər.

Həzrəti Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir ki, əxlaqı gözəl olanları fərqləndirin.

Əxlaqı gözəl olanlardan biri də İntiqam Hilal oğlu Cəbrayılovdur.

İntiqam müəllim kimdir? Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri, pedaqogika elmləri doktoru, professor, respublikanın Əməkdar müəllimi, Turan Elmlər Akademiyasının həqiqi üzvü, akademik.

İ.H. Cəbrayılov Neftçala rayonunun Qırmızıkənd kəndində dünyaya gəlmiş, orta təhsil aldıqdan sonra, sənədlərini Azərbaycan Dövlət Pedaqoji Universitetinə vermiş, tarix-hüquq-ictimaiyyat fakültəsinə qəbul edilmişdi. Ali təhsilini başa vurduqdan sonra Xolqaraqaşlı kənd məktəbində pedaqoji fəaliyyətə başlamışdı. Pedaqoji aləmdəki yeniliklərdən bəhrələnən, müəllim-şagird münasibətlərini səmərəli quran, dərslərində nəzəri və metodik hazırlıq nümayiş etdirən, məktəblilərlə Azərbaycan tarixi üzrə sinifdənxaric tədbirləri yüksək səviyyədə təşkil edən İntiqam müəllim təhsilalanlarda həm təlim prosesinə, həm də təlimdən sonrakı məşğələlərə, tədbirlərə maraq oyadır, onların sevimlisinə çevrilirdi. Rayonda qabaqcıl, təcrübəli və novator müəllimlərdən söz düşəndə İntiqam müəllimin də adı birincilər sırasında çəkilirdi.

İntiqam müəllim yaradıcı şəxs idi, daim axtarışdaydı. "Azərbaycan müəllimi" qəzeti, "Azərbaycan məktəbi" jurnalı əlindən düşməzdi. Azərbaycan tarixinə, ümumi tarixə, xarici ölkələr tarixinə dair materiallar toplayır, onları sistemləşdirir, öyrənir, zəruri məlumatları dərslərdə, sinifdənxaric tədbirlərdə şagirdlərə çatdırırdı.

İntiqam müəllimdə tədqiqatçılığa maraq və meyl getdikcə güclənirdi. Bu maraq və meyl onu Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna (hazırda Təhsil İnstitutu) gətirib çıxardı. 13.00.01 – pedaqogika nəzəriyyəsi və tarixi (hazırda 5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi) ixtisası üzrə əyani aspiranturaya qəbul edildi. Yuxusuz gecələri, narahat gündüzləri başladı.

Kənddə müəllim işləyəndə maaşı yaxşı idi, ata evində yaşayırdı. Şəhərin də öz problemləri var. Vaxtilə müxtəlif rayonlardan elmi işlə bağlı Bakıya gələn biz professorların bu çoxu bir sıra çətinliklər qarşılaşmışıq. İşə girmişiksə maaş az olub, aspiranturaya daxil olmuşuqsa – təqaüd az olub. Üstəgəl kirayədə qalmaq. Yeməyi özünün hazırlamağın, pal-paltarını özünün yumağın.

İntiqam müəllim də bu çətinliklərlə üzləşib. Bir ara hətta aspiranturanın qiyabi şöbəsinə keçərək kəndə qayıtmaq barədə fikirləşib. Fəqət dözüb, tablaşıb. Çətin olsa da.

Dissertasiya mövzusu "Tarixi abidələr şagirdlərdə milli mənlik şüuru formalaşdırmağın vasitəsi kimi" müəyyənləşdirildi. Mən də ona elmi rəhbər təyin edildim.

Mən təxminən 40 nəfərə qədər elmlər doktoru və fəlsəfə doktoru yetişdirmişəm. Elmi məsləhətçiliyim və elmi rəhbərliyimlə onlarla şəxs müdafiə edib elmi dərəcə almışdır. Bu qırx nəfərin içərisində pedaqogika üzrə elmlər doktoru, professor, əməkdar müəllim İntiqam Cəbrayılov öz dəsti-xətti, çalışqanlığı, elmi-pedaqoji fəaliyyəti ilə seçilir. Özü də bir neçə fəlsəfə doktoru və bir nəfər elmlər doktoru yetişdirmişdir.

İntiqam Cəbrayılov 1994-cü ildə dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, pedaqoji elmlər namizədi (hazırda pedaqogika üzrə fəlsəfə doktoru) elmi dərəcəsi aldı.

O, yaxşı tarix müəllimi və səriştəli tədqiqatçı kimi özünü təsdiq edib. İnstitutda çalışa-çalışa ali təhsil müəssisələrində (Bakı Qızlar Universitetində, Azərbaycan Dillər Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universite-

tində) ümumi tarixdən, Azərbaycan tarixindən mühazirələr oxuyur, seminar məşğələləri keçirir.

İntiqam müəllim mənim müdir olduğum Ali və orta ixtisas təhsilinin nəzəri problemləri şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmağa başladı (2001-2008-ci illər). Həm də elmlər doktoru proqramı üzrə şöbənin doktorantı oldu. Bu dəfə dissertasiya mövzusu tarixin tədrisi metodikasına aid idi: "Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri".

Doktorluq dissertasiyası yazmaq son dərəcə böyük məsuliyyət tələb edir. Ona görə də ciddi araşdırmalara başladı. Tədqiq etdiyi problemin həm nəzəri, həm də təcrübi məsələlərini əks etdirməyə çalışdı, çoxsaylı elmi ədəbiyyatı, tarix dərsliklərini, nəzərdən keçirib qeydlər götürdü, tədqiq etdiyi problemlə bağlı ali məktəblərdə mühazirə və seminar məşğələlərini müşahidə etdi, eksperiment qoydu, elmi fərziyyəsinin doğruluğunu yoxlamağa başladı.

Nəhayət, 2007-ci ildə doktorluq dissertasiyasını müdafiə etdi. Tarixin tədrisi metodikası ixtisası üzrə elmləri doktoru oldu. Qeyd etmək lazımdır ki, bu ixtisas üzrə respublikamızda cəmi 2 elmlər doktoru var. Biri Mübariz Əmirov, ikincisi İntiqam Cəbrayılov.

İllər ötüb keçdi. İntiqam müəllim xoş xatirələr yaşadaraq, uğurlarının sayını artıraraq!

İntiqam müəllimin tədqiqatları mühüm problemlərin araşdırılmasına həsr olunub. Fikir verək: Heydər Əliyev irsində Azərbaycan tarixinin tədqiqi və tədrisi məsələləri; təhsilimizin inkişafında Heydər Əliyev mərhələsi; Azərbaycanın dövlətçilik tarixinin tədrisi problemləri; Azərbaycan tarixi fənni üzrə təhsil standartlarının hazırlanması; milli mənlik şüurunun formalaşdırılması; tarix ixtisası üzrə müəllim kadrların hazırlığı məsələləri; Azərbaycan tarixinin tədrisi keyfiyyətini yüksəltməyin şərtləri; Azərbaycanın yeni və ən yeni dövr tarixinin tədqiqi və tədrisi məsələləri; Azərbaycan tarixşünaslığı və vətən tarixinin tədrisi məsələləri; ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri; tarixin tədrisində diyarşünaslıq materiallarından faydalanma; tarixin tədrisində islam dəyərlərindən istifadə; tarixi təfəkkürün metodoloji xüsusiyyətləri; tarix fənninin təlim strategiyaları, şəxsiyyətyönlü təhsil və şəxsiyyətin formalaşdırılması və s.

Professor İntiqam Cəbrayılov Azərbaycan Respublikasının Təhsil İnstitutunda Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiridir. Şöbə əməkdaşlarının elmi-tədqiqat yaradıcılığı yalnız institut üçün deyil, həm də təhsil sahəsindən ötrü əhəmiyyətlidir.

öz fəaliyyətini

İntiqam Cəbrayılov elmi-tədqiqatla məşğuldur, doktorant və dissertantlara elmi rəhbərlik edir, dissertasiyaların müdafiəsi zamanı tez-tez rəsmi opponent olmuş.

O vaxtilə respublikada pedaqoji və psixoloji tədqiqatları əlaqələndirən Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri vəzifəsini daşımış (2014-2019); bir müddət ARTPİ-də fəaliyyət göstərən dissertasiya şurasının elmi katibi, sonrakı illərdə dissertasiya şurasının nəzdindəki elmi seminarın elmi katibi, eyni zamanda Təhsil Nazirliyinin elmi-metodik şurasının pedaqogika və psixologiya bölməsinin elmi katibi, "Azərbaycan məktəbi" jurnalının məsul katibi (2000); BDU-nun və ADPU-nun nəzdində müxtəlif vaxtlarda yaradılmış birdəfəlik dissertasiya şuralarının üzvü; Azərbaycan tarixi və ümumi tarix fənləri standartlarını hazırlayarkən milli məsləhətçi və işçi qrupunun sədri olmuşdur.

Bundan başqa, şagirdlər arasında ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Ən yaxşı təqdimat" respublika müsabiqəsində münsiflər heyətinin üzvü; respublika təhsil işçilərinin sentyabr konfranslarında Təhsil Nazirliyinin nümayəndəsi kimi iştirak etmiş, bir neçə il tələbələrin respublika konfransında tarix bölməsi üzrə ekspert komissiyasının; üzvü) olmuşdur. O, tarix fənni üzrə respublika fənn olimpiadasında komissiya üzvü, "İlin müəllimi" müsabiqəsində ekspert olmuşdur.

İ.H. Cəbrayılov respublikanın Əməkdar müəllim, Turan Elmlər Akademiyasının həqiqi üzvüdür, "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

İntiqam müəllimin zəngin elmi yaradıcılığı vardır. 3 dərs vəsaitinin, 10 monoqrafiya və kitabın, 8 metodik vəsaitin, 48 fənn proqramının, 8 metodik tövsiyənin və 119 elmi məqalənin, 80-a yaxın konfrans materialının və topluda məqalənin müəllifidir.

Professor İntiqam Cəbrayılovun son 5 ildə 60-dan çox əsəri (monoqrafiya metodik vəsait, metodik tövsiyə, məqalə, tezis) çap edilib.

"Azərbaycan tarixinin tədrisi metodikası", "Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri", "Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti", "Müasir təhsil: axtarışlar və perspektivlər", "Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri" (həmmüəlliflərlə), "Müasir təhsilə innovativ yanaşmalar" (həmmüəlliflərlə), "Müstəqillik dövründə Azərbaycan təhsili: nəzəri və praktik aspektlər" (həmmüəlliflərlə), " Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar" monoqrafiyalarını; "Azərbaycan tarixi: Ali məktəblər üçün mühazirə mətnləri", "Əqli mülkiyyət mədəniyyətinin nəzəri və pedaqoji əsasları: magistrantlar üçün (K.V. Mikayılova ilə), "Azərbaycan tarixi: Abituriyentlər üçün dərs vəsaiti" (T.M. Məmmədovla) dərs vəsaitlərini nümunə göstərmək mümkündür.

Son kitabları: "Ehtiyat dərsliklərin hazırlanmasının ümumpedaqoji məsələləri" (həmmüəlliflə) (2023), "Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili (həmmüəlliflə) (2023), "Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları" (həmmüəlliflə) (2023), "Şuşada məktəb və pedaqoji fikir ("həmmüəlliflə) (2024).

İntiqam müəllim yaxşı ailə başçısıdır. İki övladı, iki nəvəsi vardır. Qızz nəvəsinə şeir yazmış, mahnı bəstələtdirmişdir.

Biz professor İntiqam Hilal oğlu Cəbrayılovun həyatının və elmi-pedaqoji fəaliyyətinin bəzi məqamlarını diqqət yetirdik.

Mən elm sahəsində yetirməm olan İntiqam müəllimlə fəxr edirəm. O, mənim ümidlərimi doğrultmuş, pedaqoji elmin zirvəsinə qalxmışdır.

Mən öz yetirməmlə fəxr edirəm!

Mən yetirməm pedaqogika elmləri doktoru, professor, əməkdar müəllim Turan Elmlər Akademiyasının həqiqi üzvü İntiqam Hilal oğlu Cəbrayılovun 65 illik yubileyini salamlayır və üzümü ona tutaraq deyirəm: 65 yaşın mübarək, İntiqam müəllim!!!

Redaksiyaya daxil olub: 10.12.2025

UOT 37.0

Aytan Vidadi Suleymanova
English teacher at ADA School at Azerbaijan Diplomatic Academy
doctoral student in the program of doctor of
philosophy of Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0003-9064-6859
E-mail:asuleymanova@ada.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).81-85

FROM PASSIVE TO PARTICIPATORY: HOW INTERACTIVE APPROACHES ARE TRANSFORMING EDUCATION AND PARTICIPATION

Aytən Vidadi qızı Süleymanova
Azərbaycan Diplomatik Akademiyası
Məktəbinin ingilis dili müəllimi,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı

PASSİVDƏN FƏAL İŞTİRAKA: İNTERAKTİV YANAŞMALAR TƏHSİLİ VƏ İŞTİRAKI NECƏ DƏYİŞDİRİR

Айтен Видади гызы Сулейманова
преподаватель английского языка школы
Азербайджанской Дипломатической Академии,
докторант по программе доктора философии
Азербайджанского Государственного Педагогического Университета

ОТ ПАССИВНОГО К АКТИВНОМУ УЧАСТИЮ: КАК ИНТЕРАКТИВНЫЕ ПОДХОДЫ ТРАНСФОРМИРУЮТ ОБРАЗОВАНИЕ И УЧАСТИЕ

Abstract. The transition from passive, lecture-centered instruction to interactive, participatory approaches that promote deeper learning and increased engagement in a variety of educational contexts is examined in this article. The study summarizes the evidence for active learning, peer instruction, project-based learning, flipped classrooms, and technology-mediated interactive platforms, drawing on both contemporary empirical meta-analyses and traditional learning theories. Implications for equity, assessment, and future research are discussed, along with helpful suggestions for educators and legislators.
Key words: *interactive methods, active learning, student-centred classroom*

Xülasə. Bu məqalədə passiv, mühazirə-mərkəzli tədrisdən interaktiv, iştirakçı yanaşmalara keçid, yəni müxtəlif təhsil kontekstlərində daha dərsindən öyrənmə və artan iştirakın təşviqi araşdırılır. Tədqiqat həm müasir empirik meta-analizlərə, həm də ənənəvi öyrənmə nəzəriyyələrinə əsaslanaraq aktiv öyrənmə, həmyaşıd təlimi, layihə əsaslı öyrənmə və texnologiya vasitəsilə həyata keçirilən interaktiv platformalar üzrə sübutları ümumiləşdirir. Ədalətlilik, qiymətləndirmə və gələcək tədqiqatlara dair nəticələr müzakirə edilir, həmçinin müəllimlər və qanunvericilər üçün faydalı tövsiyələr təqdim olunur.
Açar sözlər: *interaktiv metodlar, aktiv öyrənmə, tələbə-mərkəzli sinif*

Аннотация. В данной статье рассматривается переход от пассивного обучения, ориентированного на лекции, к интерактивным подходам, основанным на широком участии, которые способствуют более глубокому обучению и более активному вовлечению в различные образовательные

контексты. В исследовании обобщены данные об активном обучении, обучении со стороны сверстников, проектном обучении, сменных аудиториях и интерактивных платформах с использованием технологий, основанные как на современных эмпирических метаанализах, так и на традиционных теориях обучения. Обсуждаются последствия для справедливости, оценки и будущих исследований, а также полезные предложения для преподавателей и законодателей.

Ключевые слова: *интерактивные методы, активное обучение, класс, ориентированный на учащихся*

Introduction

Formal education has mainly relied on lectures and one-way knowledge transfer for many years. Though it emphasizes information delivery efficiency, this method – often referred to as the "sage on the stage" model – tends to present students as passive recipients rather than engaged participants. Even though lectures are still effective at rapidly presenting vast amounts of information, particularly in settings with high student enrollment in higher education, they frequently restrict opportunities for discussion, introspection, and practical application. As a result, students may be able to retain information in the short term but have trouble understanding it over the long term, solving problems, and applying it to new situations.

Decades of research have consistently shown that students learn better when they actively construct knowledge rather than merely absorbing it (Chickering & Gamson, 1987). Deep learning necessitates processes like retrieval, elaboration, and application, all of which are more likely to happen when students engage with the content, peers, and teachers in meaningful ways, according to insights from the learning sciences and cognitive psychology. On the other hand, passive listening frequently results in superficial memorization that quickly wanes.

Teachers at the K–12 and higher education levels have responded to these findings by embracing interactive teaching strategies that aim to change the classroom dynamic from one that emphasizes teacher-centered instruction to one that emphasizes learner-centered inquiry. For instance, peer instruction turns lectures into cooperative discussions by promoting conceptual inquiry and student-to-student explanation. Project-based learning places academic material in the context of real-world, authentic problems that encourage investigation, innovation, and ongoing participation. By shifting direct content delivery – through readings, videos, or digital modules – outside of class and saving in-person sessions for discussion, problem-solving, and applied learning, flipped classrooms reorganize instructional time.

The potential for interactive approaches has been further increased by the development of educational technologies. Teachers can interact with students in real time, customize learning experiences, and increase participation outside of the traditional classroom with the help of tools like polling platforms, online collaborative workspaces, and adaptive learning systems. These developments offer rich data on student learning that can guide instructional modifications in addition to expanding interaction opportunities.

When taken as a whole, these advancements signify a paradigm change in education. The participatory model places more emphasis on peer collaboration, learner agency, and co-construction of understanding than it does on passively absorbing transmitted knowledge. Thus, this essay examines the theoretical underpinnings of participatory learning, summarizes the empirical data in favor of interactive techniques, and looks at real-world examples that show how these methods are transforming student engagement and academic results in a variety of educational settings.

Theortecial foundations. Why participation matters

Interactive learning is grounded in several well-established learning theories that emphasize the centrality of active participation, social engagement, and authentic experiences in knowledge construction. At its core, constructivist theory argues that learners are not blank slates but active agents who build new knowledge on the foundation of prior experiences and understandings. Rather than passively receiving information, students interpret, question, and reorganize knowledge in ways that make sense within their personal and cultural contexts.

This viewpoint is furthered by Vygotsky's social constructivism theory, which emphasizes how learning is fundamentally social. According to his theory, the zone of proximal development

(ZPD) is the area between what a student can do on their own and what they can do with help from a teacher or more experienced peer (Vygotsky, 1978). By allowing students to co-construct understanding, scaffold each other's progress, and gradually internalize complex concepts through discussion and shared activity, interactive approaches like peer instruction and collaborative projects directly leverage the ZPD.

A complementary framework is offered by Kolb's experiential learning cycle, which positions learning as an iterative process with four interrelated stages: active experimentation, abstract conceptualization, reflective observation, and concrete experience (Kolb, 1984). This cycle is well suited to participatory approaches like simulations, problem-based learning, and experiential projects, which give students the chance to work on real-world projects, evaluate their performance, develop theoretical understandings, and put their theories into practice. Students gain transferable skills and strengthen their knowledge through this cyclical engagement.

These concepts are operationalized into workable tactics in Chickering and Gamson's seminal "Seven Principles for Good Practice in Undergraduate Education" (1987). Student-teacher interaction, student collaboration, active learning, timely feedback, staying on task, having high standards, and respecting different learning styles are all emphasized in the principles. These guidelines emphasize that effective teaching requires quality engagement, not just content coverage, and anticipate many aspects of today's interactive learning environments, such as cooperative group projects and technology-supported formative assessments.

When combined, these theoretical frameworks reveal a common understanding: learning is most effective when it is social, contextualized, and active. Participatory approaches offer circumstances that are consistent with decades of theoretical and empirical research by incorporating real-world tasks, organized teamwork, opportunities for reflection, and prompt feedback. Interactive methods encourage deeper comprehension, critical thinking, and long-term knowledge transfer as opposed to passive listening, which frequently leads to shallow retention.

Empirical evidence: Gains from Interactive methods

Strong empirical support for interactive approaches is provided by experimental and meta-analytic research. When compared to traditional lecturing, active-learning strategies dramatically increase student performance and lower failure rates, according to Freeman et al.'s (2014) seminal meta-analysis of STEM education. Similarly, structured conceptual questioning and peer discussion improve conceptual understanding and problem-solving abilities, according to decades of research on peer instruction, which was led by Eric Mazur (Mazur, 1997; Crouch & Mazur, 2001). While many meta-analyses of flipped classroom implementations show small-to-moderate positive effects on learning outcomes, with heterogeneity by discipline and implementation quality, project-based learning (PBL) has been linked to improved academic achievement and affective outcomes. According to recent systematic reviews, when properly incorporated into instruction, technology-mediated interactive platforms can improve student engagement and support pedagogical strategies.

How interactice methods improve learning

Interactive approaches yield superior results for a number of reasons:

1. Cognitive engagement and retrieval practice: Memory and comprehension are strengthened by activities that ask students to retrieve, apply, or explain knowledge (such as clicker questions and group problem-solving).

2. Instant feedback: Interactive environments give students access to more rapid corrective feedback from peers, teachers, or automated systems, enabling them to clear up misconceptions before they become entrenched.

3. Social learning and accountability: Through accountability mechanisms (e.g., graded group work, peer assessment), structured peer interaction enhances participation and leverages the social construction of knowledge.

4. Authentic contexts and transfer: PBL and experiential activities place learning in practical tasks that encourage motivation and transfer.

5. Metacognitive development: As in Kolb's model, reflection and iterative cycles assist students in keeping track of their own learning and gaining self-control.

Interactive methods in practice

The following are powerful interactive strategies that teachers can use in a variety of settings:

Peer Instruction: Pose conceptual questions in class, allow students to commit to a response, have a discussion with their peers, and then cast another vote. This cycle exposes misunderstandings and makes use of peer justifications (Mazur, 1997; Crouch & Mazur, 2001).

PBL: Create semester-long projects that call for research, teamwork, and public outputs; support them with formative feedback, milestones, and rubrics (Wenderoth,2014).

Flipped Classroom: Use class time for active problem-solving and application while moving content delivery (short films, readings) outside of the classroom. Depending on the quality of the design, the evidence reveals a range of generally positive effects.

Technology-Enhanced Interaction: To improve interaction, customize practice, and gather formative data to guide instruction, use polling tools, collaborative documents, simulation platforms, and intelligent tutoring systems (Brugliera et al., 2024).

Gamification and Serious Games: Although effect sizes vary and careful design is necessary, game elements (levels, feedback, and narrative) can increase motivation and time-on-task when they are in line with learning objectives and assessment.

Design Concepts and Evaluation

Careful design is necessary for successful implementation. Aligning activities with learning objectives, ensuring equitable participation, developing clear assessment rubrics, scaffolding complexity, and promptly providing formative feedback are all important concepts. Assessment should include transferable skills (communication, problem-solving, and teamwork) in addition to content mastery. It is effective to combine frequent, low-stakes formative assessments (quizzes, peer review) with real summative evaluations (project deliverables, oral defenses). To avoid common pitfalls, instructors should also focus on workload balance and provide clear instruction in group processes.

Access, Equity, and Difficulties

Interactive techniques are not a magic bullet. Scale (large lecture halls), instructor preparation time, gaps in technology access, and possible disparities in group work participation are some of the challenges. Numerous hazards can be reduced with careful scaffolding and inclusive practices, such as distinct role assignments, varied group formation techniques, universal design for learning (UDL) accommodations, and low-tech substitutes. Additionally, in order for teachers to create and maintain excellent interactive learning experiences, they need institutional support and professional development.

Policy and Professional Development Implications

Policymakers and institutional leaders should incentivize evidence-based interactive teaching through faculty development, incentive structures (teaching awards, release time), and infrastructure investments (flexible classrooms, digital platforms). Assessment systems and accreditation criteria that value deeper learning and transferable skills will encourage broader adoption. Finally, research-practice partnerships can help scale promising models while preserving responsiveness to local contexts.

Conclusion

A significant reorientation of educational practice is represented by the transition from passive to participatory learning. When used carefully, interactive approaches improve learning, engagement, and equity, according to theoretical foundations and mounting empirical data. Scaling quality implementation, closing access gaps, and coordinating assessment and policy to promote more in-depth, real-world learning are the challenges that lie ahead. Teachers who use participatory methods will develop their students' ability to think, work together, and act in complex real-world situations in addition to imparting knowledge.

Relevance of the problem. The comprehensive development of students, their cognitive activity, and their evolving roles alongside teachers in the interactive learning process make this topic particularly relevant.

Scientific novelty of the problem. The article presents new technologies and methods of their application that influence students' development and the formation of their social competencies.

Practical significance of the problem. The proposed ideas and methods can be effectively utilized by educators in their professional practices.

References

1. Eison, J. A., & Bonwell, C. C. (1991). Creating excitement in the classroom is known as "active learning". *School of Education and Human Development*. ERIC Clearinghouse on Higher Education, 9(5), 121-139
2. Freeman, S., Eddy, S. L., McDonough, M., Smith, M. K., Okoroafor, N., Jordt, H., & Wenderoth, M. P. (2014). Students who participate in active learning perform better in math, science, and engineering. *Proceedings of the National Academy of Sciences*, National Academy of Sciences. 111(23), 55-75.
3. Gamson, Z. F., and A. W. Chickering (1987). Seven guidelines for effective undergraduate teaching practices. *Bulletin of AAHE*. American Association for Higher Education, 7(5), 849-876.
4. Kolb, D. A. (1984). *Experience as the basis for learning and growth is known as experiential learning*. Prentice Hall. 1-550
5. Mazur, E., and Crouch, C. H. (2001). Ten years of experience and outcomes with peer instruction. *American Journal of Physics, Sciences Proceedings*, American Association of Physics Teacher, 111(23), 8410–8415.
6. Vygotsky, L.S. (1978). *Mind in society: The development of higher psychological processes*. Harvard University Press. 1-450.

Redaksiyaya daxil olub: 03.10.2025

UOT 37.01

Zərifə Mahmud qızı Həmidova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi,
Həsən Əliyev adına Coğrafiya İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı
E-mail: zerifehemidova16@mail.ru
https://orcid.org/0000-0002-5041636
https://doi.org/10.69682/arti.2025.92(6).86-90

TƏLİMİN KEYFİYYƏTİNİN ARTIRILMASINDA YENİ ÖYRƏNMƏ MODELLƏRİNİN ROLU

Zarifa Mahmud Hamidova
lecturer of Shamakhi branch of Azerbaijan State Pedagogical University
doctorial student in the program of doctor of philosophy
at the Institute of Geography named after Hasan Aliyev

THE ROLE OF NEW LEARNNG MODELS IN IMPROVING THE QUALITY OF TRAINING

Зарифа Махмуд гызы Гамидова
преподаватель Шамахинского филиала
Азербайджанского Государственного Педагогического Университета
диссертант по программе доктора философии Института географии имени Гасана Алиева

РОЛЬ НОВЫХ МОДЕЛЕЙ ОБУЧЕНИЯ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБУЧЕНИЯ

Xülasə. Bu məqalədə fəal öyrənmə modellərinin təlim prosesində xüsusi yeri olduğundan bəhs olunur. Fəal öyrənmə şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə nəzəriyyələrindən olan konstruktivlik, müasir dövrdə faydalı, böyük təcrübi və həyati əhəmiyyəti olan bir nəzəriyyə kimi qəbul olunmuşdur. Öz mahiyyətinə görə konstruktiv öyrənmə, bilik əldə etmə haqqında elə nəzəriyyələr qrupuna aiddir ki, onun həlledici əsasını biliyin, yeni ideyaların əvvəlki biliklərlə sintezinin əsasında yaradılması təşkil edir, yəni biliklər sistemi passiv şəkildə deyil, insanların fəal həyat təcrübəsi əsasında yaranır.
Açar sözlər: *Təlim prosesi, öyrənmə modelləri, konstruktivizm, nəzəriyyələr*

Abstract. This article discusses the special place of active learning models in the learning process. Active learning is a necessary learning that helps students achieve their goals in their future professions, activities, personal and social lives, and develop as complete people. Constructivism, one of the theories of active learning, has been accepted as a useful, practical and vital theory in modern times. By its nature, constructive learning belongs to a group of theories about knowledge acquisition, the decisive basis of which is the creation of knowledge, new ideas based on the synthesis of previous knowledge, that is, the knowledge system is created not passively, but on the basis of people's active life experience.
Keywords: *Learning process, learning models, constructivism, theory*

Аннотация. В данной статье рассматривается особое место моделей активного обучения в учебном процессе. Активное обучение – это необходимое обучение, помогающее учащимся достигать своих целей в будущей профессии, деятельности, личной и общественной жизни и развиваться как полноценным личностям. Конструктивизм, одна из теорий активного обучения, признан полезной, практичной и жизненно важной теорией в наше время. По своей природе конструктивное обучение относится к группе теорий о приобретении знаний, решающей основой которых является создание знаний, новых идей на основе синтеза предыдущих знаний, то есть система знаний создается не пассивно, а на основе активного жизненного опыта человека.

Ключевые слова: *учебный процесс, модели обучения, конструктивизм, теории*

Təlim və təlim prosesi haqqında hələ orta əsirlərdən başlayaraq bu günümüzə qədər dahi filosoflar və pedaqoqlar qiymətli fikirlər söyləmiş, bu sahədə bir çox tədqiqatlar aparmışlar. Lakin təlimin mövzusu, təlim prosesi problemi həmişə mübahisə və diskussiyalar doğurmuşdur. Bu da təbiidir. Çünki pedaqoji prosesin tərkib hissəsi olan təlim prosesi əvvələn, çox mürəkkəb və müxtəlif fərdi, iradi, xarakter xüsusiyyətlərinə malik olan insanla bağlıdır.(2)

Təlim prosesinin əsasını təşkil edən və bir-biri ilə üzvi əlaqədə olan məqsəd, məzmun, forma və vasitə kimi komponentlərin ümumi vəzifəsi böyüyən gənc nəsli kamil insan kimi formalaşdırmaqdır.

Kamil insan – ən yüksək insani keyfiyyətləri, mənəvi dəyərləri özündə cəmləşdirən və fəaliyyət prosesində ona əməl edən şəxsiyyətdir. O, təbiət, cəmiyyət və insan təfəkküründə gedən proseslərdən baş çıxarır, dünyanın qanunauyğun inkişaf və dəyişmə istiqamətlərini bilir, hadisələrin gedişinə təsir göstərməyi və onlardan qarşılıqlı faydalanmağı, insanlara xeyir verməyi bacarır, hamıya, hər yerdə haqqın, ədalətin, həqiqətin qoruyucusu, insanlıq etalonu kimi çıxış edir.

Bu keyfiyyətlərə malik insanların yetişdirilməsi, böyüyən gənc nəslə nələri, nə üçün və necə öyrətməyi və təlimin məzmunu və metodları tədris prosesinin aparıcı dayaqları kimi funksiyaları yerinə yetirir. Ona görə təlimin məzmunu, təlim-tərbiyə metodları bütün dövrlərdə aktuallığını qoruyub saxlamış və pedaqoji-psixoloji tədqiqatların obyektinə çevrilmişdir Metodiki vəsait UNİCEF və Azərbaycan Respublikası Təhsil Nazirliyini 2000/2004-cü illərdə həyata keçirdiyi fəal təlim və məktəb rəhbərliyi layihəsi çərçivəsində tərəfimizdən 1999-cu ildə hazırlanmış orijinal "fəal təlim konsepsiyası" na əsaslanır. Bu konsepsiya 2000/2006-cı illər ərzində UNİCEF tərəfindən dərc olunmuş və çoxlu sayda məktəb müdiriyyəti, ibtidai və orta məktəb müəllimləri, pedaqoji universitetlərin və müəllimlərin ixtisasartırma institutlarının müəllimləri üçün treninqlərdə tətbiq olunaraq sınaqdan keçirilmişdir və geniş təcrübə qazanmışdır. Dərs vəsaiti. I cild UNİCER, səh.4. Bakı – 2002.

İnsan təfəkkürü daim axtarışda olduğundan təbiətin, cəmiyyətin inkişafının yeni-yeni qanun və qanunauyğunluqlarını açır, elmi-texniki tərəqqi durmadan inkişaf edir. Ona görə də təlimin məzmunu daim yeniləşdirilməli, dərinləşdirilməli, obyektiv gerçəkliyə daha çox yaxınlaşma istiqamətində inkişaf etdirilməlidir. Bu da öz növbəsində, öyrətmə və öyrənmə proseslərinin metod və vasitələrinin müntəzəm təkmilləşdirilməsini irəli sürür.

Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə eyni zamanda koqnitiv (idraki) xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışı, kəşfi xarakterli öyrənməni əhatə edən, çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən, öyrənmədə çox faydalı bir prosesdir.

Bu halda öyrənmənin mərkəzində fəal şagird dayanır, proses müəllim və şagirdin qarşılıqlı münasibətləri, şagird və mənimsənilməli məzmun, şagird və onun əhatəsi kontekstində araşdırılır. Şagird onun mənasını başa düşür, dərk edir, hafizə süzgəcindən keçirir, öyrəndikləri onun üçün böyük məna kəsb edir. Belə öyrənmə mexaniki hafizəyə deyil, nəzəri (tənqidi) təfəkkürə istinad edir və şagirdin idrak fəallığının yüksəlməsinin təminatçısı olur.

Fəal öyrənmə nəzəriyyələrindən olan konstruktivlik, müasir dövrdə faydalı, böyük təcrübi və həyati əhəmiyyəti olan bir nəzəriyyə kimi qəbul olunmuşdur. Öz mahiyyətinə görə konstruktiv öyrənmə, bilik əldə etmə haqqında elə nəzəriyyələr qrupuna aiddir ki, onun həlledici əsasını biliyin, yeni ideyaların əvvəlki biliklərlə sintezinin əsasında yaradılması təşkil edir, yəni biliklər sistemi passiv şəkildə deyil, insanların fəal həyat təcrübəsi əsasında yaranır. Zülfiyyə Veysiova Fəal interaktiv təlim. Müəllim üçün dərs vəsait. Səh.138-127.

Bilik "qurulur, kəşf edilir, yaradılır" anlama üzərində bərqərar olan, biliyin və öyrənmənin təbiəti, mahiyyəti haqqında fəlsəfi fikirlər sistemi epistemologiyanı öz fəlsəfi əsası hesab edən konstruktivliyin əsas prinsipi bilik passiv şəkildə alına bilməz və şagirdlər öyrənmə prosesində fəal olmalıdırlar kimi səciyyələndirilir. Ona görə də azyaşlı uşaqlara müvafiq qaydada, yaşauyğun sərbəstlik verilməli, onlar öyrənmə prosesində fəal iştirak etməlidirlər. Öyrənmə idraki akt kimi mənimsəmə (assimilyasiya), uyğunlaşdırma (akomodasiya) və nizamlama

(ekvilibrasiya) proseslərindən ibarət olub aşağıdakı mərhələlərdən keçir:

– keçmiş biliklər əsasında yeni biliklərin əldə edilməsi və mənimsənilməsi;

– fərdi biliklər sisteminin, yeni və daha faydalı biliklərə uyğunlaşdırılmaqla dəyişdirilməsi;

– biliklər sisteminin müxtəlifliyi və ziddiyyətlərindən əmələ gələn psixi gərginliyin nizamlanması nəticəsində, problemlə bağlı yeni, faydalı dərketmənin əmələ gəlməsi A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 s. 83.

Öyrənmənin hansı formasına (assimilyasiya, akomodasiya və ekvilibrasiya) hazır olmaq uşağın idraki inkişaf mərhələsindən asılıdır. Tədris prosesində müəllimlərin rəhbərliyi altında şagirdlərə yeni ideyaları aşkar etməyə imkan verən yanaşmalar təmin və müdafiə olunmalı, yeni pedaqoji texnika – "kəşf etməklə öyrənmə" təlim prosesində əsas götürülməlidir. İdeyaların, ayrı-ayrı fənlərin, konsepsiyaların şagirdlərin idraki səviyyələrinə uyğun olaraq artan çətinlik mücərrədləşdirmənin məzmunda formalaşdırılması, spiralvari proses kimi qəbul edilməli, bazis tədris planının hazırlanmasında nəzərə alınmalıdır.

Mövcud və yeni biliklər sistemi arasında idraki və sosial münasibətləri tamamlayan konstruktivlik belə bir fundamental mülahizəyə əsaslanır ki, insanlar yeni bilikləri mövcud olan bilik və bacarıqları vasitəsilə, üzləşdikləri yeni ideya və situasiyalar arasındakı qarşılıqlı münasibətlər əsasında qazanırlar.(2)

Ona görə də şagirdlərin mövcud bilikləri ilə yeni ideyaları arasındakı qarşılıqlı münasibətlər gücləndirilməli və tədris prosesi bu prinsiplər əsasında qurulmalıdır. Biliyin əldə edilməsinə belə yanaşma ənənəvi "biliyin ötürülməsi" modelindən tamamilə fərqlənir, ənənəvi öyrənmə modelinə əsasən müəllimlər biliyi şagirdlərə çatdırmalı və onların ağ lövhə hesab edilən beyninə yazmağa çalışmalıdırlar.

Lakin hazırda insan beyninin ağ lövhə olmadığını sübut edən çoxlu nəzəriyyə və məntiqi fikirlər, təcrübi faktlar aşkar edilmişdir. Müəyyənləşdirilmişdir ki, insan beyni zəngin təcrübə, informasiya və biliklərlə əvvəlcədən proqramlaşdırılmışdır. Biliyin aşılanması prosesində mənanı aşkar etməyə cavabdehlik daşıyan biliyin universal idrakı strukturu, yəni ardıcıllıq baxımından məntiqdən əvvəlki təfəkkür konkret təfəkkürdən asılı qalır.

Təhsil işçilərinin məqbul hesab etdikləri konstruktivlik, təlim prosesində müəllimin rolu, biliyin şagirdlər tərəfindən kəşf edilməsi, fərdi və sosial öyrənmənin qarşılıqlı münasibətləri, məktəbdə təlim prosesi ilə bağlı digər vacib məsələlərin aydınlaşdırılması həlledici əhəmiyyətə malik olduğundan, onlar müəllim və şagirdlər arasında formal (test yoxlamaları, fəaliyyətin qiymətləndirilməsi), və qeyri- formal (müzakirələr, sual-cavab debatları, yığıncaqlar) münasibətlər əsasında həyata keçirilməlidir.

Konstruktiv öyrənmə modellərinin əsasını şagirdlərin sinfə müxtəlif məzmunlu və xarakterli ideyalarla gəldiyi prinsipi təşkil etdiyindən, bu təcrübə və ideyalar müəllimlər tərəfindən əhəmiyyətli hesab edilməli və təlim prosesinin təşkilində, şagirdlərin təlim müvəffəqiyyətinin qiymətləndirilməsində nəzərə alınmalıdır.

Konstruktiv öyrənmə modeli əsasında təlim prosesində fəal şagird, sosial şagird və yaradıcı şagird kimi üç fərqli rol müəyyənləşdirilmişdir:

– fəal şagirdlərdə bilik fəal formada mənimsənilir və dərk edilir, şagird mexaniki dinləmək və öyrənmək, şablon xarakterli tapşırıqlar üzərində işləmək əvəzinə, özləri üçün həyati əhəmiyyət kəsb edən problemləri fəal şəkildə müzakirə edir, fərziyyələr irəli sürür, diskussiyaya girir, onları əsaslandırmağa səy göstərir və nəticədə, problemi öz intellektual imkanına uyğun həll edir; Zülfiyyə Veysiova Fəal interaktiv təlim. Müəllim üçün dərs vəsait, s.138-130.

– sosial şagirdlərdə bilik və dərketmə sosial cəhətdən şərtləndirilir, bilik və mənimsəmə yüksək səviyyəli sosial fəaliyyət kimi qiymətləndirilir və biliklər fərdi qaydada deyil, başqaları ilə qarşılıqlı münasibətlər əsasında, obyektiv reallığı şərtləndirən ciddi sosial proseslər nəticəsində qazanılır;

– yaradıcı şagirdlərdə bilik və dərketmə prosesi yaradıcı münasibət əsasında formalaşır və ya yenidən yaradılır. Təlim prosesində elə mühit formalaşdırılır ki, şagirdlər özləri biliyi qazanmaq və ya kəşf etmək ehtiyacı hiss edir, elmi nəzəriyyələrə, tarixi perspektivlərə, sosial və iqtisadi paradiqmalara münasibətdə yaradıcı yanaşmalar əsasında yeni qabiliyyətlər kimi başa düşülməlidir.

Hər kəsdə çoxsaylı müxtəlif əqli qabiliyyətlər olsa da, onların inkişaf səviyyələri fərqlidir.

Ona görə də çoxşaxəli əqli qabiliyyətlərdən istifadə edən müəllimlər təlim prosesində tədris etdiyi fənni şagirdlərə bir neçə əqli qabiliyyətlərdən istifadə edən müəllimlər təlim prosesində tədris etdiyi fənni şagirdlərə bir neçə əqli qabiliyyətlərdən istifadə etməklə, səmərəli öyrənməyə imkan verən üslublarla təqdim etməyə çalışmalıdır. ARTPİ-nin Elmi əsərləri,. 2016, №1, s.256-262

Eyni zamanda tədris müəssisələri və müəllimlər öyrənmə məqsədlərinə və təhsil standartlarının tələblərinə müvafiq təlim prosesini qurduqda, konstruktiv və coxşaxəli əqli qabiliyyətlər üsulunu qarşılıqlı əlaqədə götürməli və onun hər bir kateqoriyasından səmərəli istifadə etməklə öyrənmə prosesini təşkil etməlidir. İnsanların əqli qabiliyyətlərini müxtəlif tədqiqatçılar müxtəlif formada qruplaşdırsalar da, hazırda öyrənmə prosesində onların yeddi kateqoriyada və ya əqli qabiliyyətlərdə qruplaşdırılmasına üstünlük verilir:

– Linqivistik əqli qabiliyyət – sözləri istər şifahi, istərsə də yazılı formada səmərəli işlətmək və təfəkkürün sözlərlə inkişaf etdirilməsi qabiliyyətidir. Bu əqli qabiliyyətə dilin sintaksisi və ya quruluşunu, dilin fonologiyası və ya səslərini, dilin semantikası və ya mənalarını, dilin praqmatik ölçüləri və ya təcrübi istifadələrini manipulyasiya etmək bacarığını ait etmək olar. Sözlərdən belə istifadə növlərinə ritorika (təlim prosesində müvəffəqiyyət qazanmaq üçün şagirdləri müəyyən hərəkətlər etməyə inandırmaq məqsədi ilə dildən istifadə olunması), mnemonika (məlumatı uzun müddət yadda saxlamaq, yeri gəldikcə ondan səmərəli istifadəni təmin etmək məqsədilə dildən istifadə olunması), izahat (şagirdləri mütəmadi məlumatlandırmaq üçün dildən istifadə olunması) və metadil (özü haqqında məlumat vermək üçün dildən istifadə olunması) daxildir. A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 s. 89.

– Məntiqi-riyazi əqli qabiliyyət – ədədlərdən səmərəli istifadə etməklə, yaradıcı mühakimə yürütmək və təfəkkürü ədədlərlə inkişaf etdirmək qabiliyyətidir. Bu əqli qabiliyyət, sisteminə real aləmin müxtəlifliyinə, onun rənglərinə, formasına, torpağa, səmaya və bu ünsürlər arasındakı mövcud əlaqələrə qarşı həssaslığı daxil etmək olar. Ədədlərdən istifadə edərək əqli qabiliyyətlərin inkişafında istifadə olunan hadisələrə təlim prosesində böyük ehtiyac duyulan əqli nəticə, ümumiləşdirmə, hesablama, təsnifatlaşdırma, fərziyyələrin sınağı kimi proseslər daxildir.

– Məkanla bağlı əqli qabiliyyət – görmə, real aləmi dəqiq duymaq, bu duyğular üzərində transformasiyanı həyata keçirmək qabiliyyətidir. Bu əqli qabiliyyətlər sisteminə real aləmin müxtəlifliyinə, onun rənglərinə, formasına, torpağa, səmaya və bu ünsürlər arasındakı mövcud əlaqələrə qarşı həssaslıqları daxil etmək olar. Məkanla bağlı hadisələrə prosesləri vizuallaşdırmaq, proseslər arasındakı qarşılıqlı əlaqələrin qanunauyğunluqlarını qrafik şəkildə göstərmək, real aləmdə məkan daxilində baş verən çoxsaylı hadisələr içərisində öz istiqamətini (oriyentasiyasını) tələb olunan qaydada müəyyən etməyə imkan verən qabiliyyətlər sistemi daxildir. A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 s. 94. (3)

– Kinestetik əqli qabiliyyət – fikirləri və hisləri ifadə etmək, bədən əzələlərindən müxtəlif məqsədlər üçün istifadə etməklə, bədən hərəkətlərini idarə etmək bacarığı, müxtəlif əşyaları hazırlamaq, onlarla davranmaq və onların formasını dəyişdirmək qabiliyyətidir. Bu əqli qabiliyyətlər sisteminə əlaqələndirmə, tarazlığı saxlamaq, gücündən səmərəli istifadə və tələb olunanda onu müəyyən istiqamətə yönəltmək və ya prosesə uyğunlaşdırmaq, taktil (toxunmaqla hiss edilən, bilinən) bacarıqlarla bağlı əqli qabiliyyətlər daxildir.

– Musiqi ilə bağlı əqli qabiliyyət – bəstəkar kimi musiqi formalarını duymaq və bir ifaçı kimi onu ifadə etmək qabiliyyətidir. Bu əqli qabiliyyətlər sisteminə musiqi parçasının ritminə, intensivliyinə, melodiyasına, tembrinə, ton çalarlarına qarşı həssaslığı, qlobal, intuitiv və ya formal musiqi anlamını, musiqi ilə obrazlılığın formalarını başa düşmə qabiliyyətlərini daxil etmək olar.

– Fərdlərarası əqli qabiliyyət – başqalarının psixi halətini, temperamentini, niyyətini, motivasiyasını, istəklərini fərqləndirmək və müvafiq tərzdə cavablandırmaq, hisslərini duymaq qabiliyyətidir.

– Fərddaxili əqli qabiliyyət – özünü tanımaq və bu tanınma əsasında ailədə, ictimaiyyətdə və cəmiyyətdə müvafiq qaydada hərəkət etmək, öz hislər aləmini tənzimləmək, emosiyalarını cilovlamaq, güclü və zəif cəhətlərini bilmək, ondan səmərəli istifadə etmək, özünüanlama, özünə hörmət, özünütəsdiq, özünüreallaşdırma, özünüqiymətləndirmə, emosiya və hislərini formalaşdırmaq qabiliyyətidir. A.O. Meh-

rabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 səh. 105

– Tədris prosesində çoxşaxəli – linqvistik, məntiqi-riyazi, məkanla bağlı, kinestetik, musiqi ilə bağlı, fərdlərarası, fərddaxili əqli qabiliyyətlərdən məktəb rəhbərliyinin və pedaqoji işçilərin təcrübəsindən, mövcud texnika və texnologiyalardan, şagirdlərin özlərinin köməyindən səmərəli istifadə olunması xüsusi hazırlıq tələb edir. Birinci növbədə, sinif mühitini formalaşdıran zaman təlim prosesini müxtəlif əqli qabiliyyətli, müxtəlif fiziki inkişaf səviyyəli, müxtəlif ehtiyacları olan öyrəncilərin tələblərinə uyğunlaşdırmaq lazımdır. Sinif-şagirdlərdən ibarət qrupu formalaşdıran bir mikrocəmiyyət olduğundan, onlardan çoxunun bir-birilə rəqabətdə olan ehtiyacları və maraqları vardır. (6) Qaydalar, onlara əməletmə, rejimlər, müxtəlif münasibətlər, müxtəlif rollar isə sinfin infrastrukturunun əsas hissələri olduğundan, sinifdə şagirdlərin diqqətini toplamaq və onları təlim prosesinin əsas məqsədlərinə istiqamətləndirmək üçün müəllim əqli qabiliyyətlərinin inkişaf strategiyasını ünsiyyət qaydalarını və nizam-intizam metodlarını mükəmməl bilməli və onu fəaliyyətində əsas götürməlidir.(1)

Dərs şagirdlərin mənəvi inkişafına, əxlaqca təkmilləşməsinə, vətənpərvərlik, insanpərvərlik, əməksevərlik ruhunda yetişməsinə xidmət göstərməlidir. Müasir dərs milli təhsilin yaradılmasına yönəlməlidir. müəllimin məqsədyönlü, planlı və mütəşəkkil rəhbərliyi altındakı şagirdlərin öyrəndiyi bilik və bacarıqlar təsadüfi biliklər toplusu deyil, birbaşa cəmiyyətin sonrakı inkişafına yönəlir. [2, s.131].

Problemin elmi yeniliyi. Tədris prosesində çoxşaxəli əməletmə, rejimlər, müxtəlif münasibətlər, müxtəlif rollar isə sinfin infrastrukturunun əsas hissələri olduğundan, sinifdə şagirdlərin diqqətini toplamaq və onları təlim prosesinin əsas məqsədlərinə istiqamətləndirmək üçün müəllim əqli qabiliyyətlərinin inkişaf strategiyasını ünsiyyət qaydalarını və nizam-intizam metodlarını mükəmməl bilməli və onu fəaliyyətində əsas götürməlidir.

Problemin praktik əhəmiyyəti. Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə eyni zamanda koqnitiv (idraki) xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışı, kəşfi xarakterli öyrənməni əhatə edən, çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən, öyrənmədə çox faydalı bir prosesdir.

Problem aktuallığı. Elmi-texniki tərəqqi durmadan inkişaf edir. Ona görə də təlimin məzmunu daim yeniləşdirilməli, dərinləşdirilməli, obyektiv gerçəkliyə daha çox yaxınlaşma istiqamətində inkişaf etdirilməlidir. Bu da öz növbəsində, öyrətmə və öyrənmə proseslərinin metod və vasitələrinin müntəzəm təkmilləşdirilməsini irəli sürür.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Azərbaycan təhsil siyasəti (1998-2004), I kitab. –Bakı, "Çaşıoğlu", –2005. №**1**, –s.256.
2. Kazımov, N. Məktəb pedaqogikası / N. Kazımov –Bakı: 2011. –458 s.
3. Mehrabov A.O. Bəylərov E. B. Şagird intellektinin inkişafı. –Bakı: Adiloğlu, –2007. –448 s.
4. İnsan hüquqları tədrisi. Müəllim üçün metodik vəsait. –Bakı, Norveç Qaçqınlar Şurası, –2003. –s.256.
5. Fəal təlim üzrə numunəvi dərslər toplusu. Dərs vəsaiti. Icild UNİCER, Bakı – 2002. –s.4.
6. Veysova Z. Fəal dərsin aparılması üzrə tövsiyələr. Bakı, Norveç, Qaçqınlar şurası, –2004. –s.153.
7. Veysova Z. Pedaqoji universitetlərin və müəllimlərin təkmilləşdirilməsi institutların müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Metodik vəsait, UNİCEF, –Bakı, 2002. –s.131.
8. Mehrabov A.O. Təhsildə keyfiyyət, ona nəzarət və idarəolunmasının təşkili xüsusiyyətləri // ARTPİ "Elmi əsərləri", –Bakı, TTM, № 1 , –2005. –s.262.

Redaksiyaya daxil olub: 21.11.2025

UOT 37.1

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: lale23@mail.ru
https://orcid.org/ 0000-0003-0686-3627
https://doi.org/10.69682/arti.2025.92(6).91-94

TƏLİM PROSESİNDƏ TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİ FORMALAŞDDIRMAĞIN ÜMUMP EDAQOJİ PROBLEMLƏRİ

Lala Akif Mammadly
doctor of philosophy in pedagogy leading specialist at the
Institute of Education of the Republic of Azerbaijan

GENERAL PEDAGOGICAL PROBLEMS OF FORMING AN ACTIVE LIFE POSITION OF STUDENTS IN THE EDUCATIONAL PROCESS

Лала Акиф гызы Мамедли
доктор философии по педагогике
ведущий специалист Института Образования Азербайджанской Республики

ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ СТУДЕНТОВ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

Xülasə. Müəllimin fəaliyyəti ilə tələbələrin (məktəblilərin) fəaliyyətinin təşkili, təhsilalanları bilik, bacarıq və vərdişlərə yiyələndirmək, onlarda dünyagörüşü, həyata baxışı formalaşdırmaq, onların mənəvi keyfiyyətlərini inkişaf etdirmək məqsədi daşıyır. Müəllim təlim prosesində – mühazirə və seminar məşğələlərində tələbələrin fəaliyyətinə rəhbərliyi həyata keçirir, gəncləri düşündürmək və müstəqil fikir yürütmələri üçün müxtəlif suallar verir, bu və ya digər məsələnin həlli yollarını tapmaları üçün hər birini istiqamətləndirir.
***Açar sözlər**: müəllimin fəaliyyəti, tələbə fəaliyyəti, həyat mövqeyi, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması*

Abstract. Organizing the activities of teachers and students is crucial for students' acquisition of knowledge, skills, and abilities, the development of their worldview, and the development of their moral qualities. The teacher guides students throughout the learning process, asking various questions, encouraging independent thinking and reflection, and guiding each student in finding solutions to a particular problem.
***Keywords:** teacher's activity, student activity, life position, active life position, formation of an active life position*

Аннотация. Организация деятельности учителя и учащихся чрезвычайно важна для усвоения учащимися знаний, умений и навыков, формирования у них мировоззрения, развития их нравственных качеств. Учитель руководит деятельностью учащихся в процессе обучения, задаёт различные вопросы, побуждая молодых людей к самостоятельному мышлению и размышлению, и направляет каждого из них на поиск путей решения той или иной проблемы.
***Ключевые слова**: деятельность учителя, деятельность ученика, жизненная позиция, активная жизненная позиция, формирование активной жизненной позиции*

Ənənəvi təhsil zamanında belə fikir mövcud idi ki, müəllimin fəaliyyəti öyrətmək, təhsilalanın fəaliyyəti öyrənməkdir. Şagird, tələbə pedaqoji prosesin yalnız obyekti kimi nəzərdən keçirilirdi. Hazırda isə, təhsilalana pedaqoji prosesin bərabərhüquqlu üzvü kimi yanaşılır, o, pedaqoji prosesin obyekti ilə bərabər həm də subyekti kimi dəyərləndirilir. Əslində öyrətmə şərti anlayış kimi qəbul olunmalıdır. Müəllim şagirdlərə və tələbələrə təkcə biliklər vermir, eyni zamanda onları inkişaf etdirir, tərbiyələri qayğısına qalır. Tələbə, şagird müəllimdən öyrəndiyi kimi, müəllim də onlardan öyrənə bilər.

Bütün bunlarla yanaşı, öyrənmə də, yalnız təlim prosesində verilən bilikləri qavrama və mənimsəməsi prosesindən ibarət deyildir, həm də dərketmə fəaliyyətinin mürəkkəb prosesi kimi özünü göstərir. Qeyd etmək lazımdır ki, tələbələrin dərketmə prosesi onun müəllimi ilə fəaliyyətində, bilavasitə onun rəhbərliyi ilə reallaşır. Təlimin gedişində tələbələr həmişə müəllimlə ünsiyyətdə olurlar. Bu, dərketmə fəaliyyətinin həm xarakterinə, həm də gedişinə müsbət təsir edir.

Təlim prosesi – sənətdir özü də mürəkkəb, incə, çoxtərəfli, özünəməxsus sənətdir. Həmin prosesdə iki nəfər – müəllim və tələbə iştirak edir. Təlimin nəticələri biliklərin keyfiyyətində, tələbənin inkişafı səviyyəsində öz əksini tapır.

Təlim prosesi müəllim və tələbələrin fəal, məqsədyönlü şəkildə, əlbir fəaliyyəti sayəsində məhsuldar olur. Deyilənlərdən görünür ki, təlim prosesində müəllim – tələbə münasibətləri heç də "ötürücü+qəbuledici" münasibətləri səciyyəsi daşımır. Təlim eyni zamanda müəllimin çatdırdığı bilik və məlumatların tələbələr tərəfindən "qəbulu" deyil. Təlim idrak fəaliyyətinin son dərəcə mürəkkəb prosesdir. Təlimin uğurlu və səmərəli olması tələbələrin fəallığı və müstəqilliyi səviyyəsindən xeyli dərəcədə asılıdır. Təlimin hər bir növü öz məzmunu, səciyyəvi metodları və fəaliyyətin xarakteri ilə seçilir. Didaktika bu xüsusiyyətləri həmişə diqqət mərkəzində saxlayır.

Göstərmək lazımdır ki, idrakın induksiya (xüsusidən ümumiyə sarı) və deduksiya (ümumidən xüsusiyə sarı) kimi yollarının vasitəsiz (birbaşa) və vasitəli (dolayı) keçidlərindən faydalanılır. Tədqiqatlardan görünür ki, induktiv üsul təlimin əsas vəzifələrinin dərk olunan proses və hadisələrin qanunauyğunluqlarını, səbəbnəticə əlaqələrini, asılılıqlarını mənimsəmək vəzifələrinin həyata keçirilməsini təmin etməyə qadir deyildir. Fəqət bu əşya və hadisələrin xassələrinin tələbələr tərəfindən başa düşülməklə öyrənilməsi üçün vacib üsuldur. İdrakda həmin üsulun deduktiv yanaşma ilə əlaqələndirilməsi vacibdir. Deduktiv üsul proseslərin mahiyyətinin yüksək səviyyədə başa düşülməsinin əlverişli üsuludur.

Bəşəriyyət ətraf aləmə bələd olmaq üçün hədsiz yol qət edib. Ətraf mühit obyektiv şəkildə şəxsiyyətin şüurundan asılı olmadan mövcuddur və daim öz qanunlarına əsaslanmaqla dəyişərək, inkişaf edir. Obyektiv aləm insanın hiss orqanlarına təsir göstərərək, şəxsiyyətin şüurunda öz əksini tapır, qazanılmış təsəvvürlər, qanunlar, prinsiplər və qaydalar şəklində ümumiləşdirilir. Bizi əhatə edən aləmin idrak hərəkətvericiləri ictimai təcrübə səciyyəsi daşıyır. Onlar hər bir şəxsin qarşısında yeni – yeni məsələləri qoyur ki, onları öyrənmək, dərk etmək lazım gəlir.

Obyektiv aləmə bələd olan insanlıq dəyişdirməyi öyrənir. Bilikləri verərkən müəllim həmin biliklərin tələbələr tərəfindən dərkolunma imkanların öyrənir, ortaya çıxan çətinlikləri görür, onların aradan qaldırılması yolları barədə düşünür və istədiyinə nail olmağa çalışır. Müəllim təlim məşğələlərinə hazırlaşarkən öz nəzəri və metodik səviyyəsini qaldırmağa cəhd edir. Yaradıcı müəllim həm proqram materialında, həm də onun tədrisi metodlarında yeni məqamlarla rastlaşır. Məhz bu iş prosesində müəllimin fərdi üslubu, yaradıcılığı və ustalığı meydana çıxır.

Beləliklə, təlim həm müəllim, həm də şagird üçün idrak prosesinə çevrilir. Lakin bu proses bir sıra səciyyəvi xüsusiyyətləri özündə birləşdirir. Diqqət yetirək:

Tələbələrin tədris materialını qavraması idrakdan fərqli olaraq müəllimin rəhbərliyi ilə baş verir. Əgər dərketmənin məqsədi insanlara məlum olmayan yeni təzahürlərin kəşfidirsə, bu zaman təlimin məqsədi tələbələri elmi biliklərlə silahlandırmaqdan həmçinin həmin elmi yeniliklərə bələd olmaqdan və onları tətbiq etməkdən ibarət olacaqdır. Təlim prosesinin mərkəzində tələbənin dərketmə fəaliyyəti dayanır.

İdrakın (dərketmənin) predmeti xarici ailənin təzahürlərinin öyrənilməsidir. Tələbə öz səylərini tədris materialının dərk olunmasına və yaddasaxlanmasına yönəldir. O, hər biliyi deyil, elmlərin əsaslarını öyrənməyə meyllidir.

Təlimdə biliklərin və fəaliyyət vasitələrinin daim mürəkkəbləşməsi tələbələrin inkişafını müəyyən edir. Lakin təlim yalnız öz arxasınca inkişafı aparmır, eyni zamanda özü inkişafın səviyyəsindən asılı olur, onun nailiyyətlərinə söykənir. Tələbələr nəyə qadirlərsə, onu da öyrənirlər.

Müəllim təlim prosesində tələbələrin əqli səviyyəsini və inkişafını təmin etmək üçün onların inkişafının bu və ya digər səviyyəsini diqqətdə saxlamalı, bu inkişaf səviyyəsindən digər inkişaf səviyyəsinə keçməsinə kömək göstərməlidir. Bu məqsədlə o, tələbələrin əqli inkişafının zəruri əlamətlərinə sahiblənməlidir.

Əqli inkişafa o zaman nail olunur ki, gənclərdə müstəqil şəkildə biliklərə yiyələnməyə və həmin bilikləri tətbiq etməyə tələbat yaradılsın.

Təlimə yaradıcı yanaşma tələbələrin hazırlığı olmadan qeyri-mümkündür. Onlar düşünməyə, fikri əməliyyatlar aparmağa alışmalıdırlar. Fikri əməliyyatları həyata keçirməklə bacarıqlara yiyələnmə səviyyəsi tələbələrin əqli inkişafının mühüm göstəriciləridir. Hələ bu da azdır. Təfəkkür əməliyyatlarını yerinə yetirmək üçün təkidli olmaq lazımdır. Müxtəlif bacarıqlara sahiblənən tələbə heç də yalnız materialın məzmununa maraq göstərmir, eyni zamanda idrak (dərketmə) prosesinə maraqlı olur. Biliklərə maraq tədris materialına yiyələnmə üsullarını təkmilləşdirir. Biliklərə maraq, onlara tələbat əqli inkişafın mühüm əlamətidir.

Biliklərə tələbatın təsiri ilə tələbələrin dünyaya baxışları, dünyagörüşləri gerçəkliyə münasibətləri formalaşır. Bütün bunlar onların hərəkətlərində, işlərində öz ifadəsini tapır, davranışına müsbət təsir edir. Şəxsi baxışlara malik tələbələr mühakimələrində və hərəkətlərində müstəqillikləri ilə seçilirlər. Onlar özlərinəməxsus həyat mövqeyinə malik olurlar.

Əqli inkişaf tələbələrin əqli fəaliyyətinin nəticəsi kimi meydana gəlir.

Təlim əqli inkişafı sürətləndirə, yaxud zəiflədə bilər. Bu, həmin məsələnin necə təşkil olunmasından çox asılıdır.

Hər bir prosesdə hərəkət (fəaliyyət) var. Təlim prosesi – müəllimin rəhbərliyi ilə biliklərə yiyələnmə və əqli inkişafa nail olma yolları üzrə hərəkət, fəaliyyətdir.

İlk nəzərdə belə görünə bilər ki, bu hərəkət (fəaliyyət) yalnız müəllimin rəhbərliyi altında, onun göstərişi ilə baş verir. Təlim prosesinə dair belə təsəvvür, təbii kmi, birtərəflidir. Əslində təlim prosesi belə şərt əsasında həyata keçir ki, bu, tələbələrin müstəqil idrak fəaliyyəti üzvü şəkildə baş verir.

Təlim prosesində bir sıra ziddiyyətlər özünü göstərir. İlk növbədə müəllim və tələbələr arasındakı ziddiyyətlər qeyd olunmalıdır. Bu ziddiyyətlərin başlıca səbəbi tələbələrin müstəqilliyi və fəallığı məsələsidir.

Ümumtəhsil məktəbində belədir ki, müəllim təlimin ilk illərində əsasən tələbələrin idrak fəaliyyətinə diqqət yetirir, sonralar isə məktəblilərin fəallığının və müstəqilliyinin formalaşdırılması qayğısına qalır.

Təlim prosesində müəyyən şəraitlərdə meydana çıxan ziddiyyətlər təlimin hərəkətverici qüvvələri kimi özünü göstərə bilər. Həmin ziddiyyətlər aşağıdakılardır:

– Müəllim mühazirə yaxud seminar məşğələlərində təlimin cəmiyyət və tələbələrin özləri üçün necə bir əhəmiyyət da.ıdığını onlara başa sala bilər;

– Müəllim tələbələrin idrak imkanlarını yaxşı anlayır və təlimi tələbələrin güclərinə müvafiq tapşırıqlarla əhatə edir, həm də tədricən tələbələrin əqli səviyyəsi daxilində həmin tapşırıqları (vəzifələri) mürəkkəbləşdirir.

– Müəllim tələbələrin diqqətini başlıca vəzifənin həllinə yönəldir, onların diqqətini əsas məsələlərdən yayındıra biləcək problemlərdən xilas edir;

– Müəllim tələbələrin idrak fəaliyyətinin yaxşı (səriştəli) təşkilatçısıdır; diqqətli və qayğıkeş insandır; onların uğurlarında mənəvi səviyyələrinin inkişafına maraqlıdır.

Təlim prosesi insanların, o cümlədən tələbələrin geniş ictimai təcrübəsindən kənarda ola bilməz. Tələbələr təlim prosesində əmin olaraq inanırlar ki, idrakın son məqsədi əşyalar gerçəkliyinə əməli şəkildə yiyələnməkdən ibarətdir. Təlim prosesinin geniş ictimai və şəxsi təcrübəyə istinad etməsi dərketmə marağını və təlimin səmərəliliyini artırır.

Müəllim təlim prosesinin yaradıcısıdır. Lakin bu yaradıcılıq onun öz sənətinə nə qədər vurğun olmasından, yetirmələrini hansı səviyyədə sevməsindən, müəllim-tələbə qarşılıqlı münasibətlərini necə səmərəli qurmasından, öz fənnini necə gözəl bilməsindən və təbii ki, fənnin tədrisi metodikasına dərindən yiyələnməsindən çox asılıdır.

Bildiyimiz kimi, təlim prosesinin 3 başlıca funksiyası var: təhsilləndirici, tərbiyələndirici və

inkişaf etdirici. Pedaqoji universitetdə və onun filiallarında, pedaqoji institutda, həmçinin ali təhsil müəssisələrinin pedaqoji fakültələrində çalışan müəllimlər ədəbiyyat, Azərbaycan dili, Azərbaycan tarixi, pedaqogika, ailə pedaqogikası, milli əxlaq və ailə etikası, psixologiya, pedaqoji psixologiya və s. fənlərinin tədrisində təlim prosesinin (mühazirə və seminar məşğələlərinin) imkanlarından faydalana bilərlər).

Adları çəkilən fənlərin tədrisində müvafiq mövzularla tanışlıq zamanı həmin mövzuları tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə istiqamətləndirmək mumlundur.

Pedaqogika fənni üzrə: "Tərbiyənin mənşəyi, mahiyyəti, məqsəd və vəzifələri" (X fəsil), "Tərbiyənin prinsipləri" (XI fəsil), "Tərbiyənin metodları" (XII fəsil), "Mənəvi tərbiyə" (XIV fəsil), "Hüquq tərbiyəsi" (XVIII fəsil), "Məktəblilərlə sinifdənxaric iş" (XX fəsil), "Məktəbdənkənar iş" (XXI fəsil), "Müəllimin peşə və şəxsi keyfiyyətləri" (XXII fəsil) fəsilləri və s.

Ailə pedaqogikası fənni üzrə: "Mütəfəkkirlər gənc nəslin ailə həyatına hazırlanmasının vacibliyi haqqında (IV fəsil); "Ailənin mühüm əsasları" V fəslinə daxil olan "Ailənin mənəvi əsasları", "Ailənin psixoloji ab-havası" paraqrafları; "Azərbaycan ailəsi" (VI fəsil), n "Ailədə şəxsiyyətlərarası münasibətlər" (VIII fəsil), "Ailə və uşaqlar" (IX fəsil).

Ailə psixologiyası fənni üzrə: "Ailə və nikah" (II fəsil), "Cinsi sosiallaşma və nikaha hazırlıq" (III fəsil), "Ailədə şəxsiyyətlərarası münasibətlərin psixologiyası" (V fəsil) və s.

Haqqında söz açılan mövzuların öyrənilməsi tələbələrdə fəal həyat mövqeyinin formalamasına öz köməyini göstərir.

Problemin aktuallığı. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması problemlərinin tədqiqata cəlb edilməsi xüsusi aktuallıq daşıyır.

Problemin yeniliyi. Təlim prosesində tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması ümumpedaqoji problem kimi nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, -2025. – 360 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, -2025. – 464 s.
3. Abbasov, A.N. Ailə pedaqogikası: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, -2019. – 272 s.
4. Məmmədli, L.A. Pedaqogika (Müntəxəbat): Ali təhsil müəssisələri üçün dərs vəsaiti / L.A. Məmmədli. – Bakı: Mütərcim, -2022. – 232 s.
5. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblər üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, - – 360 s.

Redaksiyaya daxil olub: 24 oktyabr 2025-ci il

UOT 37.01

Rəhiməxanım Rzabala qızı Məmmədzadə
Azərbaycan Dillər Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-2256-3185
E-mail: ragimaxanum.mamedzade@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).95-101

TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏ ETMƏKLƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI ÜZRƏ İŞİN SƏMƏRƏLİLİK GÖSTƏRİCİLƏRİ: Öyrədici eksperimentin təşkili və nəticələri

Rahimakhanim Rzabala Mammadzade
doctor of philosophy in pedagogy,
senior lecturer at the Azerbaijan University of Languages

INDICATORS OF THE EFFECTIVENESS OF WORK ON THE FORMATION OF NATIONAL QUALITIES OF STUDENTS USING EDUCATIONAL TECHNOLOGIES: Organization and results of the teaching experiment

Рагимаханум Рзабала гызы Мамедзаде
доктор философии по педагогике,
старший преподаватель Азербайджанского Университета Языков

ПОКАЗАТЕЛИ ЭФФЕКТИВНОСТИ РАБОТЫ ПО ФОРМИРОВАНИЮ НРАВСТВЕННЫХ КАЧЕСТВ УЧАЩИХСЯ С ИСПОЛЬЗОВАНИЕМ ВОСПИТАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ: Организация и результаты обучающего эксперимента

Xülasə. Müəyyənləşdirici eksperiment nəzərdən keçirdiyimiz problemlə bağlı vəziyyətə aydınlıq gətirdi. Tərbiyə texnologiyalarından istifadə etməklə tələbələrdə mənəvi keyfiyyətlərin formalaşdırılması üzrə işin nəzəri və təcrübi məsələlərini günün tələbləri səviyyəsində qurmaq üçün görüləcək işlər planlaşdırıldı.
***Açar sözlər**: tələbə, mənəvi keyfiyyətlər, tərbiyə texnologiyaları, mənəvi keyfiyyətlərin formalaşdırılması, öyrədici eksperiment*

Abstract. The problem discussed in this article was clarified during a defining experiment. Work was planned to establish the theoretical and practical aspects of developing students' moral qualities using educational technologies that meet modern requirements.
***Keywords:** student, moral qualities, educational technologies, development of moral qualities, educational experiment*

Аннотация. Положение по рассматриваемой в статье проблеме прояснилось в ходе проведения определяющего эксперимента. Была намечена работа по установлению теоретических и практических аспектов работы по формированию нравственных качеств учащихся с использованием воспитательных технологий на уровне современных требований.
***Ключевые слова**: студент, нравственные качества, воспитательные технологии, формирование нравственных качеств, обучающий эксперимент*

Öyrədici eksperimentin qarşısında aşağıdakı vəzifələr dayandı:

1. Tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi məqsədilə təlim prosesinin, başqa sözlə seminar məşğələlərinin və mühazi-

rələrin imkanlarını müəyyənləşdirmək, pedaqogika, ailə pedaqogikası, psixologiya və ədəbiyyat fənlər üzrə mövzuları müəyyənləşdirmək; mövzuların tədrisi zamanı istifadə ediləcək tərbiyə texnologiyalarını seçmək.

2. Auditoriyadankənar vaxtlarda təşkil olunacaq tədbirləri (müzakirə, mühazirə, söhbət, disput, müzakirə, müsabiqə, yarış, görüşlər, tematik axşamlar, dəyirmi masa ətrafında rəy mübadilələri, tələbə konfransları və s.) nəzərdə tutmaq, tədbirlərin həyata keçirilməsi gedişində zamanı istifadə olunacaq tərbiyə texnologiyalarını müəyyənləşdirmək.

3. Müəyyənedici eksperiment zamanı dissertasiyada nəzərdən keçirdiyimiz problemlə bağlı diqqətə çarpan aşağı səviyyəni imkan daxilində – orta səviyyəyə, orta səviyyəni – yüksək səviyyəyə çatdırmaq.

4. Mühazirə və seminar məşğələlərində ali məktəb rəhbərliyinin (tərbiyə işləri üzrə prorektorların, dekanların, dekan müavinlərinin, kafedra müdirlərinin və b.) iştirakına nail olmaq, mühazirə və seminar məşğələlərinin müzakirə və təhlilini həyata keçirmək. Bütün bunlar tərbiyə texnologiyalarından bəhrələnməklə tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi üzrə çox mühüm işlərdə səmərəli və yüksək göstəricilərə nail olmağı təmin etmək baxımından faydalı olacaqdır.

5. Auditoriyadankənar tədbirlərə ali təhsil müəssisələrinin pedaqoji kollektiv üzvlərini cəlb etməklə tələbələrin mənəvi keyfiyyətlərini daha da inkişaf etdirmək.

6. İnstitut və universitet müəllimlərinin tərbiyə texnologiyaları ilə yaxından tanış olmalarına nail olmaq, bu məqsədlər təlimlər keçirmək.

Təlimlər zamanı ilk növbədə tərbiyə texnologiyaları ilə onların tanışlıq səviyyəsini öyrənmək, məlumatlıq səviyyəsini artırmaq, ayrı-ayrı tərbiyə texnologiyaları barədə təsəvvürlərini genişləndirirdik. Təlim iştirakçılarına məlumatlar çatdırılırdı.

Təlim iştirakçıları *V.A. Suxomlinskinin "Kollektiv humanist tərbiyə texnologiyası"* ilə tanış edilirlər. Həmin tərbiyə texnologiyasının məzmunu aşağıdakılardan ibarətdir:

V.A. Suxomlinskinin sistemi 25 il ərzində yaradılıb. Həmin sistemi humanist kimi səciyyələndirmək mümkündür. Böyük pedaqoq bu sistemi böyük ruh və mehriban ürəklə, zəhmətlə, uşaqlara səmimi məhəbbətlə qurmuşdu. Suxomlinski məktəbin ideoloqu və yaradıcısı idi.

V.A. Suxomlinskiyə görə, "insanın insana qayğısı, insanın insan qarşısında məsuliyyəti məktəb ictimaiyyətinin təşkilati-mənəvi birliyinin əsasını təşkil edir". Bu cür qayğı uşaqları insanpərvər hərəkətlərə sövq etməklə (xəstə sinif yoldaşına rəğbət və yardım, qocaman veterana diqqət, ağır fiziki əməklə məşğul olan anaların sevincinə əməli əməllər) həyata keçirilirdi. V.A. Suxomlinskinin münasibətlər. məktəbi uşağa inam, onun mənəvi dünyasını bilmək əsasında qurulmuşdur.

O.S. Qazmanın rəhbərliyi altında hazırlanan *"Pedaqoji dəstək texnologiyası"* ilə bağlı məlumat verilirdi.

"Pedaqoji dəstək texnologiyası" nəzərdə tutur: 1) tərbiyə işi ilə məşğul olan şəxslərin etiraf edilməsi, həssaslıq, görmə və eşitmə qabiliyyəti, mərhəmət, empatiya, tolerantlıq və hövsələ, bağışlamaq istəyi; 2) hər bir şəxslə, o cümlədən uşaqlarla, gənclərlə dialoji ünsiyyət formalarına üstünlük vermək, münasibətləri yoldaşcasına qurmaq (körpə danışmadan və tanışlıq olmadan), dinləmək, eşitmək və eşidilmək bacarığı; 3) ləyaqət və etibar, missiyaya inam. Uşaqların hər biri onun istəklərini, maraqlarını və gözləntilərini anlayaraq; 4) problemin həllində uğur gözləməsi, problemin həllində kömək və birbaşa yardım göstərməyə hazır olmaq, subyektiv qiymətləndirmələrdən və nəticələrdən imtina etmək; 5) uşaqların fəaliyyəti, seçim, özünü ifadə etmək azadlığı hüququnun tanınması; 6) uşağın iradəsinin və öz mövqeyini ifadə etmək hüququnun tanınması ("Mən istəyirəm" və "İstəmirəm" hüququ); 7) sərbəstliyin, müstəqilliyin və güclü tərəflərinə inamın təşviqi və təsdiqi, introspeksiyanın stimullaşdırılması; dialoqda uşaqların bərabərliyinin tanınması və problemlərinin aradan qaldırılması; 8) uşaqlara yoldaş olmaq bacarığı, onların tərəfində olmaq (müdafiəçiləri kimi çıxış etmək), əvəzində heç nə tələb etmək; 9) həmişə, hər zaman özünə nəzarət və mövqeyini, özünə hörmətini dəyişmək bacarığı.

O.S. Qazman pedaqoji dəstək konsepsiyası ideyasını formalaşdırarakən bu mövqedə idi ki, uşağın inkişafı mahiyyətcə fərqli olan iki prosesə – *sosiallaşma* və *fərdiləşmə* arasında ahəngdarlıq olduqda uğur gətirir. *Birinci* proses uşağın cəmiyyət tərəfindən müəyyən edilmiş dəyərləri, normaları, davranış və fəaliyyət üsulları-

nı mənimsəməsini xeyli asanlaşdırır (fərddə sosial tipik şəxsiyyətin formalaşması), *ikincisi* isə, fərdiliyin inkişafına (unikal fərdin inkişafı) imkan verir.

Öyrədici eksperiment zamanı eksperimental qrup müəllimlərinə G.K. Selivkonun *"Özünü təkmilləşdirmə texnologiyası"* barədə də məlumat verilmişdir.

Bu texnologiyaya özünü inkişaf texnologiyalarının hər bir başlıca keyfiyyətini özündə ehtiva edir və onları aşağıdakı xüsusiyyətlərə əsasən tamamlayır. Şəxsiyyətin (bizim tədqiqatda tələbənin) fəaliyyəti yalnız idrak ehtiyaclarını yox, eyni zamanda bir çox başqa fərdi inkişaf tələbatlarını ödəmək üçün təşkil olunur:

* özünütəsdiq (özünütərbiyə, özünütəhsil, öz müqəddəratını təyinetmə, seçim azadlığı);

* özünüifadə (özünü təşkil etmə, ünsiyyət, yaradıcılıq və kəşfiyyat, öz qabiliyyət və güclü tərəflərini müəyyənləşdirmək);

*təhlükəsizlik (özününizamlama, öz müqəddəratını təyinetmə, karyera rəhbərliyi, kollektiv fəaliyyət);

*özünü aktuallaşdırma (şəxsi və sosial məqsədlərə çatmaq, özünü sosial adaptasiyaya hazırlamaq, sosial sınaqdan keçirmək).

"*Pedaqoji münaqişələrin həlli texnologiyası*" ilə bağlı aşağıdakı mövzuda söhbət aparılmışdır:

Pedaqoji münaqişələrin profilaktikası üçün ilk növbədə onun mexanizmlərinə bələd olmaq, onu meydana gətirən ziddiyyətləri və səbəbləri aşkarlamaq lazımdır. Münaqişəli vəziyyəti həll etmək heç də asan məsələ deyildir. Münaqişəli vəziyyət yaranıbsa, tərəflərin hər biri özünü haqlı hesab edir. Onların heç biri geri çəkilmək, güzəştə getmək istəmir. Çətinlik bu səbəbdən meydana gəlir.

Müəllim-valideyn qarşılıqlı münasibətində münaqişələrin əsas hədəfi təhsilalanlar – şagirdlər, tələbələrdir. Müəllimlər, bir qayda olaraq ata-anaları tədris prosesindən geri çəkilməkdə; valideynlər də müəllimləri öz oğluna, öz qızına qarşı qərəzli münasibətdə, yaxud bacarıqsızlıqda günahlandırırlar.

Sosial münaqişələrdə olduğu kimi, pedaqoji münaqişələrdə də münaqişənin təzahürü mövcud pedaqoji vəziyyətdəki ziddiyyətlərlə bağlıdır.

Pedaqoji münaqişələrin səbəblərini təxminən iki kateqoriyaya bölmək mümkündür: tədris-təhsil mühiti daxilindəki münaqişələr və bilavasitə tərbiyə fəaliyyəti ilə əlaqəli münaqişələr.

Pedaqoji kollektiv arasında yaranan münaqişələrin səbəblərini ümumiləşdirməli olsaq, onları iki yerə bölmək mümkündür:

1. Ünsiyyət problemləri. Məsələn, nəzakətsizlik, əsəbi vəziyyət, başqalarının davranış, rəftar və hərəkətlərinə dözümsüzlük, özünə inamın artması, psixoloji uyğunsuzluq və s.

2. "Boss-tabe" prinsipinə əsasən təşəkkül tapmış təhsil müəssisələrini idarə etmək üçün köhnəlmiş inzibati sistem.

Pedaqoji vəziyyət münaqişənin mühüm komponenti kimi qəbul olunur – tələbələr arasında münasibətlərin və qarşılıqlı əlaqənin mürəkkəb sistemi daxilində akademik qrupdakı faktiki vəziyyət, tələbələrə necə təsir etmək barədə qərar qəbul olunarkən nəzərə alınmalıdır.

Pedaqoji münaqişənin həlli çətin bir prosedurdur. Pedaqoji münaqişənin həlli strategiyası və taktikası bilavasitə onun səciyyəvi xüsusiyyətlərindən asılıdır. Münaqişənin həllinə yaradıcı yanaşma və vəziyyətin hərtərəfli təhlili vacibdir.

Ümumi münaqişə nəzəriyyəsi münaqişənin həllinin bir sıra prinsiplərini irəli sürür.

Müəllim münaqişədə olan şəxslər arasında qarşıdurmanı – əməkdaşlığa, dağıdıcı münaqişəni isə konstruktivliyə çevirməlidir. Bu məqsədlə aşağıdakı tədbirlər görülə bilər:

1. Çalışmaq lazımdır ki, rəqiblər bir-birini adekvat şəkildə qəbul etsinlər. Münaqişədə olan insanlar, o cümlədən tələbələr bir sıra hallarda öz rəqibinə qarşı düşmənçilik nümayiş etdirirlər.

Emosional oyanma gənclərə vəziyyəti və rəqibin şəxsən ona həqiqi münasibətini adekvat qiymətləndirməyə maneçilik törədir. Tələbələr, valideynlər və həmkarları ilə münasibətlərdə müəllimlər gərək emosional gərginliyi azaltsınlar. Bu məqsədlə aşağıdakı qaydalardan faydalanmaq mümkündür:

– aqressiyaya aqressiya ilə cavab verməyin;

– qarşı tərəfi acı, təhqiramiz sözlərlə, jestlərlə, baxışlarla təhqir etməyin və alçaltmayın;

– rastlaşdığı çətinliklərlə qarşı tərəfə öz məsləhətinizi verin, öz rəğbətinizi bildirin;

– qarşı tərəfin narahatlığına diqqətlə qulaq asaraq ona öz fikrini bildirmək imkanı verin;

– yaranmış gərgin vəziyyətə aydınlıq gətirmək, onu nəzərdən keçirmək üçün qarşı tərəflə bir stol arxasında əyləşmək lazım gəlir. Bu,

emosional gərginliyi aradan qaldırmağa öz köməyinin göstərəcəkdir.

– tez-tələsik müvafiq nəticəyə gəlməyə tələsməyin və hələ məsləhətinizi verməyin, ona görə ki, bəlkə vəziyyət göründüyündən daha mürəkkəbdir.

Təlim iştirakçılarına eyni zamanda *"Fərdiləşdirilmiş tərbiyə texnologiyası*"na dair məlumat verilir ki, maariflənsinlər. Fərdiləşdirilmiş tərbiyə texnologiyası şəraitində: müəllim yalnız tələbələrdən biri ilə ünsiyyət qurur ("şəxsdənşəxsə" səviyyəsində).

Pedaqoji ədəbiyyatdan görünür ki, alimlər tərbiyə texnologiyalarını əsas etibarilə tərbiyənin istiqamətlərinə görə müəyyənləşdirirlər.

Bu texnologiya şəraitində fərdi yanaşmanın, tərbiyənin fərdiləşdirilməsinin və müəllimlə tələbə (*şagird*) arasında fərdi qarşılıqlı əlaqə modelinin üstünlük təşkil etdiyi tərbiyə prosesinin təşkili lazım bilinir.

Fərdi tərbiyə texnologiyası nəzərdə tutur ki:

1) müəllim ünsiyyətini yalnız bir tələbə ilə ("şəxsiyyət – şəxsiyyət" səviyyəsində) qurur;

2) tələbə ətrafındakı şəxslərdən yalnız birinin təsirini öz üzərində hiss edir;

3) tələbə özünü təhsilə geniş yer verməklə özü üzərində çalışır (dərslik, əlavə ədəbiyyat, sorğu kitabları, ensiklopediyalar, kompüter və s.

İstər-istəməz tərbiyə texnologiyasının həyata keçirilməsi alqoritminə münasibət bildirmək ehtiyacı yaranır. Bu alqoritm özündə nəyi, daha doğrusu nələri birləşdirir? Diqqət yetirək:

• bilik (ideya, paradiqma, tərbiyə konsepsiyası);

• tərbiyənin məzmununun müəyyən edilməsi;

• tərbiyə prosesinin təşkili formalarının müəyyənləşdirilməsi;

• tərbiyə subyektlərinin fəaliyyətinin diqqət mərkəzinə gətirilməsi;

• tərbiyə prosesinin təşkili üsullarının seçilməsi və tətbiqi;

• tərbiyə prosesinin təşkili üçün imkanların və səmərəli yolların aşkarlanması;

• tərbiyə mexanizmlərinin müəyyən edilməsi;

•tərbiyə texnologiyanın tətbiqinin səmərəliyinin öyrənilməsi və s.

Bu alqoritm eyni zamanda mənəvi tərbiyəyə də aid edilir.

Bu və ya digər tərbiyə işinin texnoloji zənciri belə təqdim oluna bilər: 1) *Hazırlıq mərhələsi* (işə münasibətin ilkin formalaşdırılması, ona maraq, lazımi materialların hazırlanması); 2) *Psixoloji münasibət* (salamlaşma, giriş sözü); 3) *Substantiv (mövzu) fəaliyyət*; 4) *Tamamlama* (refleksiya); 5) *Gələcək üçün proqnoz*.

Təlim iştirakçılarının "Tərbiyə texnologiyalarının səmərəli tətbiqi üçün hansı şərtlər mövcuddur? " sualına aşağıdakı cavab verilir:

Birinci. Tərbiyənin texnolojiləşdirilməsi ideyasının təhsil təşkilatının pedaqoji mədəniyyətində konsolidasiyası.

Bu, müəllimlərin kütləvi şüurunda texnolojiləşdirmə ideyasının qəbulu və davamlı olaraq tətbiq edilməsidir.

İkinci. Tərbiyə texnologiyaları ideyasının təhsilin təşkilati mədəniyyətinə strukturuna daxil edilməsi.

Mənəvi tərbiyənin səmərəliliyi tərbiyənin nəticəsi tərbiyə texnologiyalarından hansı səviyyədə istifadə olunmasından asılıdır.

2. Tələbə ətrafındakı insanlardan təkcə birinin təsirini dərk edir.

3. Tələbə öz fəaliyyətini yalnız təhsilə həsr edir (kitab, kompüter və s.).

Öyrədici eksperiment zamanı müəllimlər "*Situasiyalı tərbiyə texnologiyaları"* ilə bağlı zəruri biliklərlə silahlanırlar. Diqqət yetirək: "– müəyyən şəraitlə bağlı hazırlanır və tətbiq edilir. Bir də görürsən ki, auditoriyada tələbələr arasında müntəzəm mübahisələr, ixtilaflar baş qaldırır. Həmin mübahisələrin həlli vacibdir.

Müəyyən tərbiyəvi situasiyalar yaradılmaqla tələbə tapşırıqlar alır, onları yerinə yetirir, özünütərbiyə ilə məşğul olur. Onun mənəvi aləmi zənginləşir. O, əxlaqının saflaşdırılması qayğısına qalır.

Təlim iştirakçılarının sualı: "Mübahisənin təhlili vəziyyəti" texnologiyasını hansı ardıcıllıqla qurulur?

Bu suala belə cavab verilir:

1) mübahisə iştirakçılarına baş verənlərlə bağlı suallar təqdim edərək həqiqəti aşkarlamağa çalışır;

2) ixtilafa səbəb olan tələbə ilə söhbət aparılır, günahı ona başa salınır;

3) tələbə intizama dəvət olunur;

4) "zərərçəkən" və "zərərvuran" barışdırılır və s.

Haqqında danışılan texnologiya yoldaşlarının hərəkətlərini, davranış motivlərini qiymətləndirmək baxımından tələbələrə zəruri təcrübə qazandırır.

Qrup problemlərinin həlli problemli vəziyyətlərdə tələbələrin davranışlarına əsasən tənzimlənir. Məqsəd təşkilati qərarları hazırlamaq, qəbul etmək, aydınlaşdırmaq və müzakirə etməkdən ibarətdir. Onlar şəraitə uyğun olaraq hazırlanaraq tətbiq olunur. Belə ki, qrupda tələbələr arasında bəzən mübahisələr baş qaldırır. Həmin mübahisələrin təhrikçisi öz həmyaşıdlarını və hətta böyükləri belə manipulyasiya edir. Müəllim belə vəziyyətə son qoymağa nail olmalıdır.

Təhsil müəssisəsində təlim-tərbiyə işini təkmilləşdirməyin mümkün yollarından biri praktik müəllimlərin məhsuldar pedaqoji ideyalar inkişaf etdirməsidir. Auditoriyadankənar fəaliyyətlər, adətən daha yaradıcı, oynaq və ən əsası, praktik xarakter malikdir. Tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün ən əlverişli şərait məhz ali məktəbin auditoriyadankənar fəaliyyətində yaradıla bilər. Tərbiyə texnologiyalarından faydalanma tərbiyə prosesini konkret məzmunla zənginləşdirməyə imkan verir, dəyəryönlü pedaqoji ideyalar isə pedaqoqun peşəkar şüurunu zənginləşdirir.

Tərbiyə işinin statusunu yüksəltmək, onun ümumi ideyalarını, yanaşmalarını, prinsiplərini, mahiyyətini dəyişmək zərurəti aydınlaşır.

Müəllimlərin hər biri yaxşı tələbələrə dərs deməyi arzu edir, lakin hər bir qrupda fərqli tələbələr vardır. Təhsil təkcə bilik, bacarıq və bacarıqların öyrədilməsi deyil, ilk növbədə şəxsiyyətin tərbiyəsi, inkişafı, sosiallaşmasıdır.

Öyrədici eksperiment zamanı "*Gündəlik tərbiyə texnologiyaları"* ilə müəllimləri tanış etmək məqsədəuyğun hesab edilmişdir**.** Həmin texnologiyalardan tərbiyə prosesinin tipik problemlərinin həlli məqsədilə faydalanmaq mümkündür. Bu texnologiyalara gündəlik pedaqoji ünsiyyətin kifayət qədər universal təcrübələri daxildir. Məsələn, söhbətlər zamanı həmin texnologiyaların köməyilə tələbələrin diqqətini cəlb etmək texnologiyası, gənclərin ixtilaflarının həlli texnologiyası, pedaqoji tələblər, təqdimat texnologiyası və s. daxildir. Bundan başqa, tərbiyə işinin planlaşdırılması texnologiyası, tərbiyə prosesində pedaqoji diaqnostika texnologiyası da akademik qrup kuratorunun diqqət mərkəzində dayanmalıdır.

Müəllimlər eyni zamanda *"Pedaqoji ixtilafların həlli texnologiyası*" barədə də ətraflı məlumat alırlar. Öyrənirlər ki, tələbələrin qarşılıqlı münasibətlərdə baş qaldıran ziddiyyətləri konstruktiv şəkildə aradan qaldırmaq üçün olan texnologiyadır. İxtilafların həllinin meyarı tələbələrin hər birinin daxili aləminin zənginləşməsidir.

"*Sistemli yanaşmaya əsaslanan tərbiyə texnologiyası"* ilə tanış olan müəllimlər öyrənirlər ki, mənəvi keyfiyyətlərin formalaşdırılması baxımından tərbiyə texnologiyalarından istifadə zamanı hədəf istiqamətləri (məqsədlərin alt sistemi) də diqqət mərkəzində dayanmalıdır. Həmin hədəf istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

a) başlıca məqsəd Vətənə layiqli şəxsiyyət yetişdirməkdir;

b) mühüm məqsəd – şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına nail olmaqdan ibarətdir;

c) şəxsiyyətdə məsuliyyətin, cavabdehliyin, vətəndaş şüurunun formalaşmasını təmin etmək;

ç) təhsilalanların yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması;

d) pedaqoji kollektiv, tələbələr və onların həmyaşıdları arasında qarşılıqlı münasibətlərinin bərqərar olması;

e) tələbələri ümumbəşəri dəyərlərlə (Yer, Vətən, insan, ailə, bilik, əmək, mədəniyyət, sülh) tanış etmək;

ə) dünyanın vahid, elmi əsaslandırılmış mənzərəsinin diqqət mərkəzinə gətirilməsi və s.

Təlim iştirakçılarına həm də "*Perspektivli tərbiyə texnologiyaları"* barədə məlumat çatdırılır. Qeyd olunur ki, Perspektivli tərbiyə texnologiyaları – mənəvi tərbiyə prosesinin kifayət qədər uzunmüddətli təşkili modelini həyata keçirir. Bu texnologiyalar ali məktəb müəlliminin səciyyəvi pedaqoji funksiyaları ilə əlaqələndirilə bilər. Yəni: müəllimin, gənclər təşkilatının ali məktəb üzrə rəhbərinin və idman müəlliminin tərbiyə işinin özünəməxsus texnologiyası mövcuddur. Tərbiyənin perspektivli texnologiyaları tərbiyə formalarının xüsusiyyətləri əsasında qurula bilər.

Perspektivli tərbiyə texnologiyaları tərbiyə formalarının xüsusiyyətləri nəzərə alınaraq reallaşmalıdır.

Pedaqoji vəziyyətdən asılı olaraq auditoriyadankənar tədbirlər. İş formaları çoxdur. Bəzilərini qeyd edək: söhbətlər, müzakirələr, disput-

lar, yarışlar, ekskursiyalar, görüşlər, ictimai faydalı və yaradıcı fəaliyyət növləri, bədii-estetik işlər, tələbə konfransları, dəyirmi masa ətrafında rəy mübadiləsi və s.

Pedaqoji proses olmaq etibarı ilə tərbiyə texnologiyası bir sistem kimi tərbiyənin təşkilinin üç şərti səviyyəsində reallaşır:

İnstitut və universitetlər tələbələrin mənəvi keyfiyyətlərini inkişaf etdirilməsinə nail olmaq üçün yeni tərbiyə texnologiyalardan faydalanmalıdırlar. Bu zaman fəaliyyət formaları pedaqoji vəziyyətə əsasən müəyyənləşdirilir. Bunlara aiddir: söhbət, müzakirə və disputlar, dəyirmi masa ətrafında rəy mübadilələri tələbə konfransları, müsabiqə və yarışlar, ictimai faydalı və yaradıcı iş, ekskursiya və gəzintilər, tematik axşamlar və s. Təlim prosesinin səmərəliliyini şərtləndirən başlıca cəhət hər bir tələbənin auditoriyanın fəal həyatına cəlb olunmasıdır. Bu zaman tələbələr üçün maraqlı olan tərbiyə texnologiyalardan istifadə edilməlidir.

Bu diaqnostikanın məqsədi auditoriyada təşkil olunan mənəvi tərbiyə prosesinin tələbənin şəxsiyyətində müsbət dəyişikliklərə nə qədər səmərə verdiyindən xəbərdar olmaqdır.

S.T. Şatski, L.V. Zankov, E.N. İlin, Q.K. Selevko və b.-nın "Əməkdaşlıq tərbiyə texnologiyası"; V.A. Suxomlinskinin "Kollektiv humanist tərbiyə texnologiyası"; A.N. Abbasovun "Heç kim səni görməyəndə tərbiyə texnologiyası"; Ş.A. Amonaşvilinin "Şəxsiyyətyönlü humanist tərbiyə texnologiyası"; O.S. Qazmanın "*Tərbiyə işində fərdi pedaqoji dəstək texnologiyası"; N.E. Şurkova*nın *"Qrup tərbiyə işinin təşkili və aparılması texnologiyaları*"; *L.İ. Novikova, V. A. Karakovski və N. L. Selivanova*nın "*Sistemli yanaşmaya əsaslanan tərbiyə texnologiyası*"; *I.P. İvanovanın "Kollektiv yaradıcı tərbiyə texnologiyası" və* G.K. Selevkonun *"Tələbə şəxsiyyətinin özünü təkmilləşdirmə texnologiyası*"nın mahiyyəti, məzmunu, məqsəd və vəzifələri ilə bağlı dissertasiyanın I fəslinin 3-cü paraqrafında danışılır. Həmin məlumatları müəllimlərə çatdırılması məqsədəuyğundur. Bu məlumatlar tərbiyə texnologiyalarından faydalanmaqla tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsinə öz köməyini göstərəcəkdir.

Öyrədici eksperiment zamanı eyni zamanda eşitdiyimiz və qələmə aldığımız bir hadisəni tələbələrin diqqətinə çatdırırıq. Bu zaman A.N. Abbasovun "Heç kim səni görməyəndə tərbiyə texnologiyası" üzrə iş aparılır. Fikir verək:

*Ehtiyac içərisində olan bir qadın (adı Bəsti) zibil yeşiyinə yaxın bir yerdə dayanıb. Gəlib-gedənlərə, zibil yeşiyinə lazımsız şeyləri atanlara göz qoyur. O, kimsəsizdir, bəlkə də dünəndən dilinə heç nə dəyməyib. Çox acdır. Budur, bir qadın əlindəki torbanı zibil yeşiyinə tullayır. O uzaqlaşan kimi, Bəsti yaxınlaşır. Bəlkə torbada yeməyə nə isə oldu. Digər əşyalarla yanaşı bir çox hallarda qabaqdan qalan yeməkləri, pirojna, piroq, tort qalıqlarını bir torbaya yığıb gətirirlər.

Torbada yeməli şey yox idi. Təəssüfləndi. Balaca bir qutu vardı. Qutunu açanda gördü ki, içərisi pulla doludur. Çox sevindi. Yemək sarıdan xeyli, neçə gün korluq çəkməyəcəkdi, hətta özünə əyin-baş da ala, kirayə haqqını verə bilərdi.

Sevincindən sifəti işıqlandı. Özünə yemək almaq üçün ərzaq mağazasına gedirdi ki, birdən nə isə fikirləşib ayaq saxladı. Öz-özünə düşündü: "Öz xoşuna heç kim gətirib zibil yeşiyinə pul atmaz. Bu, kiminsə, hansı zavallınınsa qəpik-qəpik yığdığı pullardır. İndi o adam ah-nalə edir! Yox, mən bu pula əl vura bilmərəm!"

Bəsti geriyə, zibil yeşiyinin yanına qayıtdı.

***

*Evdə. Ana (adı Gülər):

– Qızım, nə olub, qanın qaradır? Bayaqdan sənə fikir verirəm. Özündə-sözündə deyilsən.

Qızı (adı Nazpəri) ağlamaq tutur:

– Ana, anacan, tələbə təqaüdlərimi bir qutuya yığırdım ki, özümçün pal-paltar alım. Səhərdən o qutunu axtarıram, elə bil qanad açıb uçub. Tapa bilmirəm ki, bilmirəm. Bəlkə görmüsən?

Gülər xanım cəld ayağa qalxdı:

– Göy rəngli qutu idi?

– Hə, anacan. Görmüsən?

Gülər xanım:

– Nimdaş, köhnə qutu idi, – dedi. –Fikirləşdim ki, əl-ayağa dolaşır, nə biləydim?! İçərisinə baxmayıb zibilə qarışdırıb aparıb atmışam.

Nazpəri əl-ayağa düşdü. Anasına müraciətlə:

– Nə qədər gec deyil, zibil yeşiyinə baxmaq lazımdır. Zibili daşıyıb aparmayıblarsa, ya da kim isə pulu götürməyibsə, bəlkə gec deyil, pulu tapa bildik. Zibil yeşiyinin ətrafında o qədər adam olur ki. Hərə nə isə axtarır, götürür.

Gülər xanım:

– Onda mən qaçım.

Bəsti zibil yeşiyinin yaxınlığındaydı. Gün batmaq üzrə idi. O hələ də bir şey yeməmişdi. Dayanıb gözləyirdi. Pulun yiyəsi gəlməyə bilməzdi. "Gəlib puluna yiyə dursaydı, gedib başqa zibil yeşiyində özümə yemək axtarardım".

Nazpəri bu fikirdə idi ki, Gülər xanım özünü çatdırdı. Başladı zibil yeşiyini töküşdürməyə. O, tulladığı torbanı tapdı, amma qutu onun içərisində yox idi.

Gülər xanım göz yaşı tökdü: "Pulun başına daş salıblar!"

Başladı başına, gözünə döyməyə.

Bəsti yaxınlaşdı:

– Xanım, nə axtarırsınız?

Gülər gözü yaşlı:

– Pulumuzu çırpışdırıblar!"

– Bəlkə çırpışdırmayıblar. Axı nə məsələdir?

Gülər danışdı:

– Qızım Nazpəri universitet tələbəsidir. Aldığı təqaüdü yığıb özünə paltar almaq istəyirmiş. Mən başı batmış da bilməyib pulların qoyulduğu qutunu zibilə qarışdırıb atmışam.

Gülər göz yaşlarını saxlaya bilmirdi.

Bəsti onu sorğu-suala tutdu. Əmin olandan sonra ki, qutu və içərisindəki pullar Gülər xanımla qızına aiddir, çantasından çıxarıb qutunu Gülər xanıma uzatdı.

Belə yerdə deyirlər ki, düzlük və doğruçuluq ən yaxşı mənəvi keyfiyyətdir.

Müəllim tərbiyə texnologiyasına qiymət verirlər.

Tələbə Lütfiyyə: A.N. Abbasovun "Heç kim səni görməyəndə" tərbiyə texnologiyası tələbə oğlan və qızların mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır. Bəsti pulları tapanda onu heç kim görməmişdi. Heç kim gəlib ondan götürdüyü pulları tələb etməyəcəkdi. Lakin vicdanının səsi, aldığı tərbiyə ona həmin pulları mənimsəməyə imkan vermədi. Ac-susuz olmağına baxmayaraq pulun qəpiyinə də dəymədi. Neçə saat pulun yiyəsini gözlədi. Gözləyirdi ki, pulları ona qaytarsın.

Öyrədici eksperimentin yekunları eksperimentin sonuncu, yoxlayıcı mərhələsinə keçməyə imkan verdi.

Problemin aktuallığı. Tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi məqsədilə tərbiyə texnologiyalarından faydalanma aktuallığı ilə seçilir. Məqalədə öyrədici eksperimentin nəticələri öz əksini tapır.

Problemin yeniliyi. Tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi baxımından tərbiyə texnologiyalarından istifadə etmək yeniliyi baxımından maraqlıdır

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. –Bakı: Mütərcim, –2020. – 608 s.
2. Abbasov, A.N. İxtisasa giriş: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. –Bakı: Mütərcim, –2020. – 164 s.
3. Abbasov, A.N. Ailə pedaqogikası: Müntəxəbat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. -Bakı: Mütərcim, – 2020. –272 s.

Redaksiyaya daxil olub: 17.09. 2025

UOT 37.01

Sahib Əmirxan oğlu Məmmədov
Mingəçevir Dövlət Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru,
əməkdar müəllim
https://orcid.org/ 0000-0002-7064-726X
E-mail: sahibmemmedov588@gmail.com
*https://doi.org/*10.69682/arti.2025.92(6).102-105

TƏLƏBƏ ŞƏXSİYYƏTİ VƏ ONUN HƏRTƏRƏFLİ ÖYRƏNİLMƏSİ

Sahib Amirkhan Mamedov
associate professor at Mingachevir State University,
doctor of philosophy in pedagogy, Honored teacher

STUDENT PERSONALITY AND ITS ALL-AROUND LEARNING

Сахиб Амирхан оглу Мамедов
доцент Мингячевирского Государственного Университета,
доктор философии по педагогике, Заслуженный учитель

ЛИЧНОСТЬ СТУДЕНТА И ЕГО ВСЕСТОРОННЕЕ РАЗВИТИЕ

Xülasə. Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq tələbələrə dolğun, sistemli, yararlı, hərtərəfli bilik və bacarıqların aşılanması əsas şərtlərdəndir. Bu zamanın infrastrukturudur, tədris müəssisələri və insan resursları inkişaf etdirilməlidir. Təhsilin müasir şərtlərlə inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, eyni zamanda hər bir fərdin həyatının daha ali səviyyədə qurulması və inkişafı üçün zəmin yaradır. Ali təhsil müəssisələrində tələbələrin bir şəxsiyyət kimi formalaşması üçün onları mütəmadi olaraq mühazirə, seminar məşğələləri və auditoriyadankənar tədbirlərə cəlb edirlər. Tələbələrin təhsili və tərbiyəsi qeyd edilən tədbirlərin səviyyələrindən çox asılıdır. Hər şeydən əvvəl tələbə auditoriyası düzgün idarə olunmalıdır. Tələbələrimizə sevgi, qayğı ilə yanaşılmalıdır.
Açar sözlər: *auditoriya, tələbə auditoriyası, auditoriyanın idarə olunması, müəllimin davranışı, tələbə şəxsiyyəti*

Abstract. According to the Development Concept of the Republic of Azerbaijan, one of the key conditions is the imparting to students of extensive, systematic, useful, and comprehensive knowledge and skills. Currently, it is necessary to develop infrastructure, educational institutions, and human resources. At higher education institutions, students are involved in lectures, seminars, and extracurricular activities to acquire the necessary knowledge and prepare them for their specialization. The level of education and development of young people depends on the degree of organization of these activities. First, the student body must be properly managed. Students must be treated with love and care.
Keywords: *the audience, student audience, audience management, the behavione of teacher, students personality*

Аннотация. В соответствии с Концепцией развития Азербайджанской Республики, одним из главных условий является передача студентам обширных, систематических, полезных, всесторонних знаний и умений. В настоящее время необходимо развивать инфраструктуру, образовательные учреждения и человеческие ресурсы. В высших учебных заведениях студенты для привития им необходимых знаний и подготовки к специальности привлекаются к лекциям, семинарским занятиям и внеаудиторным мероприятиям. Уровень обучения и воспитания молодежи зависит от степени организованности данных занятий. Во-первых, студенческая аудитория должна быть правильно управляема. К студентам следует относиться с любовью и заботой.

Ключевые слова: *аудитория, студенческая аудитория, управление аудиторией, поведение учителя, личность студента*

Bu gün dünya ölkələrində ali təhsilin inkişaf etdirilməsi cəmiyyətin qarşısında duran ən vacib məsələlərdən biri kimi daim diqqət mərkəzindədir. XX yüzilliyin sonu, XXI yüzilliyin əvvəllərindən başlayaraq təkcə ayrı-ayrı dövlətlər deyil, beynəlxalq birliklər, təşkilatlar tərəfindən də ali təhsilin inkişafı ilə bağlı bir sıra zəruri tədbirlər həyata keçirilir. Hər bir ölkənin sosial-iqtisadi, mədəni-siyasi və digər sahələrdə hədəflərinin müəyyənləşdirilməsi və reallaşdırılmasında ali təhsilin rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu gün ali təhsilin cəmiyyətin bütün tələbələri, hər kəs üçün "əlçatan" olması, "mümkünlüyü" ideyası təqdir olunur. Belə ki, cəmiyyətin inkişafı rəqabətəqabil, müxtəlif sərištələrə yiyələnmiş şəxsiyyətin formalaşmasını tələb edir. Bu xüsusda ali təhsil müəssisələrində ən vacib məsələlərdən biri tələbə şəxsiyyətinin formalaşdırılmasıdır. Hər bir tələbə ixtisası üzrə müvafiq bilik və bacarıqlara, zəruri sərištələrə yiyələnməli və nəticə etibarilə özünü yetkin şəxsiyyət kimi dərk etməli, cəmiyyətin fəal üzvü kimi üzərinə düşən məsuliyyət yükünü daşımağa hazır olmalıdır.

Tələbə şəxsiyyəti digər yaş qrupuna aid olan insanlardan özünün spesifik xüsusiyyətləri ilə, o cümlədən dünyanın dərk olunmasında, yeni informasiya texnologiyalarının mənimsənilməsində fəallığı ilə seçilir. Bütün bunlarla yanaşı sosial-iqtisadi və mədəni-siyasi həyatın yeni formalarına uyğunlaşma, yiyələnmə imkanları ilə, eyni zamanda ünsiyyət və davranışdakı səciyyəvi xüsusiyyətləri ilə də fərqlənir. Araşdırmalar göstərir ki, tələbə şəxsiyyətinin formalaşdırılması, həqiqətən, mürəkkəb bir prosesdir. Çoxmərhələli olan bu proses müasir elmi-nəzəri və praktik yanaşmalar tələb edir. Bu baxımdan tələbə şəxsiyyətinin formalaşmasında aşağıdakı elmi-nəzəri yanaşmaların nəzərə alınması məqsədəuyğundur: 1) aksioloji yanaşma; 2) sistemli yanaşma; 3) fəaliyyət yanaşması; 4) kulturoloji yanaşma; 5) humanist yanaşma.

Bildiyimiz kimi, aksiologiya həyata, mədəniyyətə aid sosial-estetik dəyərlərin təbiətindən, mahiyyətindən bəhs edir. Bu baxımdan tələbə şəxsiyyətinin formalaşdırılmasında aksioloji yanaşma, ilk növbədə onların dünyagörüşünün, mənəvi keyfiyyətlərinin formalaşdırılmasına təkan verən dəyərlərdən, dəyərli fikir və baxışlardan istinad mənbəyi kimi faydalanmağı nəzərdə tutur.

Tələbələrin şəxsiyyətinin formalaşdırılmasında ***sistemli yanaşma*** da mühüm əhəmiyyət kəsb edir. Xüsusi tədqiqatçılıq mövqeyi olmaqla gerçəkliyin qavranılması yolu olan problemə sistemli yanaşma təhlil olunan obyektə sistem kimi baxılmasına əlverişli imkanlar yaradır. Sistemli yanaşmanın mühüm tələblərindən biri budur ki, burada tədqiq olunan obyektin daxili və xarici əlaqələrinin çoxtərəfliliyinə xüsusi əhəmiyyət verilir. Ona görə də burada idrak məsələləri ilə yanaşı, işin təşkili məsələlərinin də öyrənilməsinə ciddi fikir verilməsi olduqca vacibdir.

Şəxsiyyətin formalaşması problemində ***kulturoloji yanaşma*** da mühüm əhəmiyyət kəsb edir. Pedaqogikada kulturoloji yanaşma bütövlükdə təhsilə mədəniyyət baxımından yanaşması anlamına gəlir. Yaxud təhsil mühitində həyata keçirilən mədəni proseslər kulturoloji yanaşmanın mahiyyətini ifadə edir. Təhsildə kulturoloji yanaşma təhsil prosesində ümummədəni, xüsusi və psixoloji, pedaqoji məsələlərin vahid kontekstdə birləşdirilməsi üçün imkanlar yaradır. Kulturoloji yanaşmanın təhsilin bütün pillə və səviyyələrində nəzərə alınması nəticə etibarilə keyfiyyətə təsir göstərir.

Digər bir elmi-nəzəri yanaşma humanist yanaşmadır. Qeyd etməliyik ki, ***humanizm*** insanı şəxsiyyət kimi dəyərləndirən ***dünyagörüşü sistemidir***. Azadlıq, hüquq və digər bu kimi mühüm keyfiyyətlər məhz bu sistemdə əhatə olunur.

Tarixi təcrübə və elmi araşdırmalar sübut edir ki, tələbə şəxsiyyətinin formalaşdırılması və inkişafı tələbənin fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu baxımdan ali məktəblərdə təhsilalanların şəxsiyyətinin formalaşdırılmasında ***fəaliyyət yanaşması*** mühüm əhəmiyyət kəsb edir. Məhz fəaliyyət yanaşması şəxsiyyətin öz həyat fəaliyyətini müəyyənləşdirməyə və onu tədricən yeniləşdirməyə, yenidən qurmağa, özünü qiymətləndirməyə imkanlar yaradır. Əslində fəaliyyət üsullarının seçilməsi, onun gedişinə nəzarət və nəticələrinin tətbiqi tələbələrin bu problemə bələdliliyindən xeyli dərəcədə asılıdır. Nəzəri məsələlərin mənimsənilməsi problem baxımından işin təcrübədə əlverişli tətbiq imkanlarını genişləndirir. Ona görə də təhsilalanların təhsil fəaliyyətinin məqsədyönlü təşkili və

idarəolunmasında, təhsillə bağlı maraq və meyllərinin, peşə səriştəliyinin formalaşdırılmasında fəaliyyət yanaşmasının mühüm rol oynadığını qeyd edə bilərik.

Qeyd olunan məsələlərin nəzərə alınması ali təhsilin inkişafına, təhsilalanların səriştəli kadr, şəxsiyyət kimi formalaşmasına ciddi təsir göstərir.

Tələbə auditoriyasına bələd olmaq, akademik qrup, tələbə kollektivi haqqında aydın təsəvvürə yiyələnmək üçün təlim prosesində, mühazirə və seminar məşğələlərinin gedişində, auditoriyadankənar tədbirlərdə, onların asudə vaxtlarında tələbələri öyrənmək lazım gəlir. Öyrənmə prosesi həm ayrı-ayrı tələbələrin, həm də ümumilikdə tələbə qrupunun və tələbə kollektivinin tərbiyəlilik, təhsillilik səviyyəsi, meylləri, qabiliyyətləri, istedadları, zövqləri, yaradıcılıqları barədə zəruri məlumatların toplanmasına, onların hiss və həyəcanlarını, qayğılarını, çətinliklərini bilməyə kömək göstərir.

Professor-müəllim heyəti arasında elələri vardır ki, haqqında danışılan məsələlərə vaxt itirməyi lazımsız sayır, onun işi olmadığı qənaətinə gəlirlər. Təbii ki, belə mövqe tutmaq yolverilməzdir. Akademik qrupun (yaxud ayrıca tələbələrin, bir qrup tələbənin) irəlidə getməsi, yaxud geridə qalması, nümunəvi davranışı, yaxud intizamsızlığı, yüksək, yaxud aşağı göstəricilərə malik olması səbəbsiz deyil. Hər bir işin, hərəkətin, əməlin səbəbi olur.

Tələbəlik illəri gənclik yaş dövrünə təsadüf edir. Tələbə auditoriyası ilə iş aparan professor-müəllim heyəti öyrənməlidir: gənclik illərində şəxsiyyət hərtərəfli inkişaf mərhələsində olur. Orta təhsil illəri arxada qalmışdır. Bu və ya digər şəxs ali məktəblərdə, kolleclərdə təhsil alır, ordu sıralarında xidmət edir, yaxud sənaye, tikinti və s. müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olur. Bu dövrdə gənclər əxlaqi saflaşmaya, kamilləşməyə dünyagörüşünü genişləndirməyə meyllidirlər. Etik və birgəyaşayış qaydalarına, hüquq normalarına əməl etməyə, üzvü olduğu kollektivin və ailəsinin şərəf və ləyaqətini qorumağa, Vətəni müdafiə etməyə hazırdırlar. Onlar müstəqil ailə həyatı barədə düşünür, bəziləri ailə qurur, bəziləri nişanlanırlar.

Bütün bunlar gənclərdə məsuliyyət hissini artırır, seçdikləri ixtisaslar üzrə təlim məşğələlərinə davam edir, yaxşı bir mütəxəssis kimi yetişməyə çalışırlar.

Gənclər şəxsiyyətlərarası münasibətlər şəraitində bir-birinə nümunə olmağa, uğurlar qazanmağa səy göstərirlər. Onlar bir-birlərini qavrayır, bir-birlərinə qarşılıqlı təsir edirlər. Qızlarda ismət və şərəf, oğlanlarda kişilik ləyaqəti, namus kimi əxlaqi keyfiyyətlər təşəkkül tapır, ideya və əqidə sahibi olurlar. Gənclərdə vətənpərvərlik, milli iftixar hissi, özünüdərketmə, özünüqiymətləndirmə, milli mənlik şüuru, borc və məsuliyyət hissləri, yaradıcı fəallıq və sosial fəallıq, ünsiyyət fəaliyyət sahəsi inkişaf edir, mənəvi zənginliyə yiyələnirlər. Onlarda özünütəhsilə və özünütərbiyəyə tələbat formalaşır.

Tələbə şəxsiyyətinə bələd olmaqdan və tələbə auditoriyasını öyrənməkdən ötrü həm ümumpsixoloji tələblərə, həm də pedaqoji prosesin konkret şəraitinə uyğun tələblər əsas götürülməlidir.

Müəllim tələbələrin maraqlarının, meyllərinin, əyləncələrinin nədən ibarət olduğunu, ayrı-ayrı tələbələrin emosional vəziyyətini, onların yoldaşları ilə və müəllimlərlə qarşılıqlı münasibətlərinin xarakterini öyrənməlidir. Bu sahədə, təbii ki, tələbə şəxsiyyətinin pedaqoji-psixoloji metodlarla öyrənilməsi köməyə gəlir. Diaqnostik tədqiqatın nəticələri təhlil olunmalıdır.

Pedaqoji-psixoloji diaqnostika pedaqoji prosesin zəruri tərkib hissələrindən biri hesab olunur, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi baxımından tələbə kollektivinin sosial-psixoloji səciyyəsini müəyyənləşdirmək üçün etibarlı vasitədir.

Təlim prosesinin idarə edilməsi tələbələrin hazırlıq və təhsillilik, tərbiyəliliyinin və inkişafının səviyyəsini və imkanlarını əsas götürür. Bütün bunlar isə diaqnozlaşdırmanın vasitəsi ilə təmin edilir. Diaqnozlaşdırma yunan mənşəli olub biliyi aydınlaşdırmaq mənasını verir. Diaqnozlaşdırma proqnozlaşdırma ilə sıx surətdə bağlıdır. Proqnozlaşdırma yunan mənşəlidir, irəlini, qabağı qabaqcadan görmək deməkdir.

Öyrənmə hər bir tələbənin psixi inkişaf prosesinin xüsusiyyətlərinin aşkara çıxarılmasına xidmət etməli, psixi inkişafın diaqnostikasının nəticələri bu nəticələrin mövcud normalarla müqayisəsi aparılmaqla qiymətləndirilməlidir.

Pedaqoji-psixoloji diaqnostika pedaqoji prosesin yaxşılaşdırılması, optimallaşdırılması və təkmilləşdirilmədən ötrü son dərəcə əhəmiyyətli rol oynayır. Müəllim diaqnostik metodikalar vasitəsilə pedaqoji proses, tələbələrin sağlamlığı,

təlim və tərbiyənin keyfiyyəti, tələbə oğlan və qızların təhsillilik və tərbiyəlilik səviyyəsi haqqında məlumata yiyələnir, alınan məlumatları qruplaşdırır, təhlil edir, qiymətləndirir, pedaqoji prosesin və tələbələrin inkişafını proqnozlaşdırır.

Tələbə auditoriyasına yaxından bələd olmaqda ayrı-ayrı tələbələri öyrənmək də az əhəmiyyət daşımır. Bu, onların fərdi xüsusiyyətlərini öyrənməyi tələbata çevirir.

Əgər müəllim tələbənin hansı xüsusiyyətinə hansı yolla təsir göstərəcəyini dəqiq bilsə və bu işi uğurla başa çatdırsa, təbii ki, nəticə səmərəli olacaqdır. Çünki müəllim tələbənin güclü və zəif cəhətlərini, imkanlarını, bacarıq və qabiliyyətlərini bildiyindən daha çox və səhih məlumat toplamış olur.

Tələbələrin fərdiyyətinə bələd olmaq eyni zamanda təhsilverənin pedaqoji səriştəliliyi, pedaqoji ustalığı göstəricisidir.

Burada bir məsələ də diqqət mərkəzində dayanmalıdır: tələbə auditoriyası, ayrı-ayrı tələbə oğlan və qızlar müəyyən narahatlıq yaratdıqdan sonra deyil, erkən vaxtlardan onların şəxsiyyətini, fərdi xüsusiyyətlərini, müsbət və mənfi halları öyrənmək lazımdır. Bunu nəzərə alaraq, eksperimentə cəlb edilmiş müəllimlər ilk mühazirələrə və ya seminar məşğələlərinə başlayarkən akademik qrupun, yaxud qrupların kuratorlarından tələbələr barədə məlumat alırdılar. Bu, onların fəaliyyətini, tələbə auditoriyası ilə işini xeyli dərəcədə yüngülləşdirirdi.

Tələbələrin fərdi xüsusiyyətlərinin öyrənilməsi fasiləsiz proses xarakteri daşıyır. Bu xüsusiyyətlər dəyişilməz qalmır. Həm fəaliyyətin səciyyəsi, həm də bilik, bacarıq və vərdişlərinin formalaşması və təkmilləşməsi prosesində tələbənin şəxsiyyətində və intellektual sahəsində dəyişikliklər baş verir, onda öz temperamentini idarə etmək qabiliyyəti inkişaf edir. Bəzi səbəblərdən (müəllim-tələbə münasibətlərinin düzgün qurulmaması, tələbə yoldaşları ilə anlaşılmazlıq, ailə şəraiti, maddi durum və s.) tələbə şəxsiyyətində mənfi dəyişmələr meydana çıxa bilər. Müəllimlər mənfi təzahürlərin aradan qaldırılmasında maraqlı olmalı, onların tərbiyəsinə qayğı ilə yanaşmalı, tələbələri özünütərbiyəyə sövq etməlidirlər.

Tələbələrin öyrənilməsi zamanı bir sıra hallarda müəllim çətinliklərə rast gəlir. Ola bilər ki, tələbənin bəzi xüsusiyyətləri digər xüsusiyyətlərlə maskalansın.

Yaxud çətinlik tələbənin müvəqqəti vəziyyəti (bədbinliyə qapılması, ruhdan düşməsi, ailədəki ixtilaflar, hədsiz yorğunluq və s.) ilə bağlı ola bilər.

Tələbənin fərdi xüsusiyyətlərinin öyrənilməsi tələbə kollektivinin xüsusiyyətlərindən, kollektiv üzvlərinin qarşılıqlı münasibətlərindən ayrıca nəzərdən keçirilməməlidir. Tələbələrlə iş zamanı nəinki onların fərdi xüsusiyyətləri, həm də cinsi xüsusiyyətləri diqqət mərkəzində dayanmalıdır.

Problemin aktuallığı. Tələbə şəxsiyyətinin təşəkkülünə həsr olunduğundan aktuallıq daşıyır.

Problemin yeniliyi. Məqalədə tələbə şəxsiyyəti və onun hərtərəfli öyrənilməsi məsələsi diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti. Gənc tədqiqatçılar faydalana biləcəklər.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti / A.N. Abbasov. –Bakı: Mütərcim, –2010. –360 s.
2. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr.
3. Cabbarov, R.N., Təhsil müəssisələrini idarəetmə məsələləri / R.N. Cabbarov. –Bakı, 2001. –132 s.
4. Cəbrayılov, İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. / İ.N. Cəbrayılov –Bakı: Mütərcim, –2011. –220 s.
5. Əmirov, M.M. İnsan və cəmiyyət: Ali məktəblər üçün dərs vəsaiti / M.M. Əmirov. –Bakı: ADPU-nin nəşri, –2010. –581 s.
6. Uşinski, K.D. Seçilmiş pedaqoji əsərləri / K.D. Uşinski. –Bakı: Azərnəşr, –1953. –316 s.

Redaksiyaya daxil olub: 21.11.2025

UOT 37.01

Nigar Nəsir qızı Niftəliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
İbtidai təhsilin pedaqogikası kafedrasının müəllimi,
fəlsəfə doktoru proqramı üzrə doktorant
https://orcid.org/0000-0003-2810-9502
E-mail:nasir2010@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).106-110

TƏRBİYƏ PEDAQOJİ DİAQNOSTİKANIN TƏDQİQAT OBYEKTİ KİMİ

Nigar Nasir Niftaliyeva
lecturer at the department of Primary education pedagogy at Azerbaijan State Pedagogical University,
doctorial student in the program of doctor of philosophy

ОБРАЗОВАНИЕ КАК ОБЪЕКТ ИССЛЕДОВАНИЯ ПЕДАГОГИЧЕСКОЙ ДИАГНОСТИКИ

Нигяр Насир гызы Нифталиева
преподаватель кафедры Педагогики начального образования
Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии

EDUCATION AS AN OBJECT OF RESEARCH IN PEDAGOGICAL DIAGNOSTICS

Xülasə. Məqalədə tərbiyə prosesi pedaqoji diaqnostikada vacib cəhət kimi göstərilmişdir. Tərbiyə pedaqoji diaqnostikanın tədqiqat obyektidir və onun obyektiv həyata keçirilməsini təmin edir. Tərbiyə üçün yalnız uşaqların tərbiyəsini deyil, həm də ətraf mühiti, uşaq kollektivinin, ailənin, müəllimlərin, tərbiyəçilərinin pedaqoji imkanlarını bilmək lazımdır. Bundan əlavə, tədris işinin keyfiyyəti meyarları məktəblilərin öyrənmə və tərbiyəsini, təhsilə və təlimə, məktəbə və müəllimlərə münasibətini müəyyən edən məktəb həyatının parametrləri olmalıdır.
Açar sözlər: *pedaqoji heyət, müəllim fəaliyyəti, pedaqoji diaqnostika, şəxsiyyət oriyentasiyası, uşaq kollektivi, pedaqoji bacarıqlar, pedaqoji münasibətlər*

Abstract. The article pointed out that the upbringing process is an important aspect in pedagogical diagnostics. Education is a research object of pedagogical diagnostics and provides its objective implementation. It is important to know not only the upbringing of children, but also the environment, the pedagogical possibilities of the child collective, family, teachers and educators. In addition, the quality of educational work should be the parameters of the school life that determine the learning and upbringing of students, their attitudes towards education and training, the school and the teachers.
Key words: *teaching staff, teacher activity, pedagogical diagnostics, personality orientation, child collective, pedagogical skills, pedagogical relationships.*

Аннотация. В статье отмечается, что воспитательный процесс считается важным аспектом в педагогической диагностике. Образование является объектом исследования педагогической диагностики и обеспечивает его объективную реализацию. Важно знать не только воспитание детей, но и окружающую среду, педагогические возможности детского коллектива, семьи, учителей и воспитателей. Кроме того, качество воспитательной работы должны быть такими параметрами школьной жизни, которые определяют обучение и воспитание учащихся, их отношения к образованию и воспитанию, школе и учителям.

Ключевые слова: *преподавательский состав, деятельность учителя, педагогическая диагностика, личностная ориентация, детский коллектив, педагогические навыки, педагогические отношения*

Tərbiyə üçün yalnız uşaqların tərbiyəsini deyil, həm də ətraf mühiti, uşaq kollektivinin, ailənin, müəllimlərin, tərbiyəçilərinin pedaqoji imkanlarını bilmək lazımdır. Buna görə də, təhsil prosesinin daimi pedaqoji diaqnozu barədə sual yaranır. Bundan əlavə, tədris işinin keyfiyyəti meyarları məktəblilərin öyrənmə və tərbiyəsini, təhsilə və təlimə, məktəbə və müəllimlərə münasibətini müəyyən edən məktəb həyatının parametrləri olmalıdır:

1) Məqsəd təyin etmə, şəxsiyyətin hərtərəfli inkişafı üçün cəmiyyətin proqram təminatına uyğun olaraq və vətəndaşın vəzifələrindən irəli gələn spesifik sosial tələblər nəzərə alınmaqla pedaqoji məqsəd və vəzifələrin qoyulması prosesidir. Məqsədlərin düzgün qurulması məktəbdə tədris prosesinin planlarının, tədris planın təhlili və s., şagirdlərin müəyyən bir cəhətdən və müəllim heyətinin imkanları ilə məktəbin xüsusi şəraitində formalaşması aiddir.

2) Təhsil prosesinin təşkili və məktəbdə planlaşdırmanın əsası. Eyni zamanda, icra qaydaları pedaqoji protokolda yoxlanılır, tədris və layihə işlərinin planlarının necə həyata keçirildiyi, məsuliyyət və tapşırıqların kollektiv üzvləri arasında necə bölüşdürüldüyü, kollektivin bütün bölmələrinin funksiyalarının fərqləndirildiyi komissiyalar, bölmələr, sinif müəllimlərinin birlikləri, valideyn komitəsi, məktəb komitəsi və s. nəticələr, yeni sosial şərtlər və tələblər nəzərə alınmaqla təhsil işləri məzmununda planlar düzəldilir.

3) Məktəbin tərbiyə işində pedaqoji mövqelərin və tələblərin vəhdəti. Eyni zamanda, ictimai rəyi və müəllim heyətini müəyyən edən müəllimlərin əsas pedaqoji münasibətləri və inancları, uşaqların komandasında ictimai rəyin yetkinliyi, məktəbin tələbləri ilə bağlı valideynlər və ictimaiyyət tərəfindən dəstək, müəllimlərin müəllim heyətində qəbul edilən uşaqlarla tələbələrin davranışlarına və s. münasibət etikasına uyğunluğu və dərs tələbləri öyrənilir.

4) Pedaqoji elmin nailiyyətlərini praktikaya tətbiq etmək. Eyni zamanda, müəllimlərin pedaqoji bacarıqlarının davamlı olaraq artırılması, tədris və tərbiyə işində yol verilən çatışmazlıqların aradan qaldırılması, vahid tədris prosesi üçün ən vacib olan sahələrdə müəllim heyətinin səylərinin intensivləşdirilməsi, müharizəkarlığı və ətalətin aradan qaldırılması, təhsil işinin məqsədəuyğun şəkildə yenilənməsi, aydın köhnəlmiş forma və metodların rədd edilməsi, müəllimlər üçün yaradıcı axtarışların mövcudluğu, kollektiv yaradıcılığında iştirakı qiymətləndirilir.

Məktəblilərin tərbiyəsi və tərbiyəvi keyfiyyətinin diaqnozu üçün mövcud olan çoxsaylı metodlar çox vaxt məzmun, istiqamət, fəaliyyət keyfiyyəti və təsirdən, uşaqdan asılı olmayaraq pedaqoji fəaliyyətin meyarlarını əsas götürür. Uşaq və onun tərbiyəsi prosesini fərqli göstəricilərə və fərqli metodlara görə öyrənmək isə nəticəsizdir. Şagirdin tərbiyəsi pedaqoji fəaliyyətin səmərəliliyinin əsas göstəricisidir. Bu parametr müasir pedaqoji diaqnostika nəzəriyyəsində başlanğıc nöqtədir. Təhsil sahəsində belə bir texnika hələ də yalnız izah edilir.

"Tərbiyə və təlimdə təhsil prosesinin bağlantılarının tələbənin mənəvi dünyasının hər tərəfinə çox zəruri təsiri baş verir. Bununla birlikdə, təhsilin hər bir spesifik komponentinin şəxsiyyət quruluşunun elementlərinə xüsusi seçici, güclü təsiri var. Buna görə şagirdin təhsil səviyyəsinin öyrənilməsini tədris prosesinin keyfiyyətcə təhlili ilə birləşdirmək mümkün olur ki, bu da aşağıdakı cədvəldə əks olunur." [5]

Uşaqların səviyyəsindəki dəyişikliklər ilə məktəbin təhsil işinin keyfiyyətini qiymətləndirmək olar. Beləliklə, tələbələrin ümumi oriyentasiya səviyyəsinin yüksək olması, qarşıya qoyulan vəzifənin və pedaqoji heyətin təhsilin məqsəd və vəzifələrinə çatmasında təsirini göstərir. Düzgün formalaşmış dünyagörüşü, elmin aparıcı ideyalarını və təcrübədə tətbiqlərini öyrənən uşaqların keyfiyyətini təsdiqləyir. Öyrənmə tədris prosesinin keyfiyyətindən və bölünməzliyindən, fərqliliyindən asılıdır. Kollektivdə ictimai fikrin yetkinliyi və pedaqoji tələblərin birliyi şəxsiyyətin özünüdərkini və özünə hörmətini müəyyənləşdirir və bunlar praktikada nəzərə alınmalıdır.

Beləliklə, təhsil prosesinin bütün parametrlərinin uşaq tərbiyəsi göstəriciləri ilə əlaqəsi təhsil prosesinin diaqnozu üçün ilk əsas tələbdir. Bu mövqelərə əsasən, məktəb həyatındakı bir fakt və ya hadisənin şagirdlərin tərbiyəsinə necə təsir etdiyini nəzərə almadan müsbət və ya mənfi qiymətləndirilməsi düzgün deyil.

Şəxsiyyət təhsili parametrləri və pedaqoji fəaliyyətin keyfiyyət göstəriciləri arasındakı əlaqə	
Şəxsiyyətin tərbiyələndirilməsi təhsil prosesinin fəaliyyəti və effektivliyinin nəticəsi kimi	**Təhsil prosesinin göstəriciləri**
Şəxsiyyət istiqaməti	Təhsilin məqsəd və vəzifələri, onların həyata keçirilməsi
Şagirdlərin dünyagörüşü	Elmin aparıcı ideyalarını öyrənən və təcrübədə tətbiq edən uşaqların keyfiyyəti
İnteqrativ şəxsiyyət xüsusiyyətlərinin formalaşması	Məktəbin, ailənin və cəmiyyətin pedaqoji mövqelərinin vəhdəti, pedaqoji təsir və tələblərin səmərəliliyi
Şagirdin öyrənmə qabiliyyəti (yaddaş ölçüsü, məlumatı qəbul etmə və s.)	Uşaqların tanıdıcı fəaliyyəti, təhsilin fərdiləşdirilməsi və fərqləndirilməsi
Maarifləndirmə, yəni pedaqoji təsirləri müsbət qəbul etmək bacarığı	Pedaqoqların, uşaq kollektivinin tələblərinin və özünütələbkarlığın birliyi
Şəxsiyyətin özünü tanıması və özünə inamı	Təhsil ilə birlikdə davamlı özünü təhsili

Tədris prosesinin diaqnostikasının obyektlərini və əsas istiqamətlərini müəyyənləşdirdikdən sonra pedaqoji fəaliyyətin keyfiyyətini qiymətləndirmək üçün meyarlar müəyyən etmək tövsiyə olunur. Meyarlar həmişə müəyyən bir işin həqiqi icrası, pedaqoji fəaliyyətin keyfiyyətidir. Bu cür keyfiyyət göstəriciləri bu şəraitdə uşaqlarla iş tapşırıqlarının düzgün tərtib edilməsi, onlara təsir etmə üsullarının və məzmununun seçilməsi, müəllimlərin səyləri və cəhdləri, təhsil aktı prosesində şagirdlərin fəaliyyəti, uşaqların tərbiyəsindəki dəyişikliklər və onların tərbiyəçilərinin pedaqoji bacarıqları, tərbiyə tədbirlərinin əlaqəsi və məktəbdə ümumi təhsil və tərbiyə sistemi ilə əlaqələndirilir.

Məktəbin fəaliyyət meyarlarının əsas məqsədi hərtərəfli təhlil və pedaqoji fəaliyyətin nəticələrinin qiymətləndirilməsi əsasında müəllimlərin bacarıqlarının artırılmasının əsas istiqamətlərini müəyyən etməkdir. Yalnız məktəbin işinə nəzarət etmək üçün meyarların istifadəsi istər-istəməz bu gün bütün səviyyələrdə sərt şəkildə qınan, formalizmin, bürokratiyanın, əlavə hesabatlılığın inkişafında bir amilə çevrilir. Meyarlar təhsil qurumlarının, məktəb rəhbərlərinin daxili ehtiyaclarına, işin introspeksiyası və özünü qiymətləndirməsinə xidmət edir və əslində ümumiyyətlə gənc nəslin təhsil keyfiyyətinin göstəriciləri adlanır. Meyarlar zəruridir, çünki onsuz məktəb və müəllimlərin nəticələrini həqiqətən öyrənmək mümkün olmayacaq, lakin bunların özü də sona çatmamalıdır, müəllimlərə, pedaqoji qruplara sərt nəzarət-onların məqsədi tədrisin şüurlu özünü inkişaf etdirməsinə xidmət etmək, pedaqoji inkişafın tərkib hissəsi olmaqdır.

Məktəb fəaliyyətinin meyarları bütün hallarda uyğun ola bilməz, pedaqoji kollektivlərin işlərini istisnasız olaraq müəyyənləşdirmək lazımdır, əks halda stereotip, təlim və təhsilin standartlaşdırılması yaradıcı axtarışları ləngidir. Meyarlar məktəbin xüsusiyyətləri və təcrübəsi, xüsusiyyətləri və imkanları nəzərə alınmaqla tətbiq olunur. Məktəbin səmərəliliyi üçün meyarların təsnifatı aşağıdakı əsaslarla aparılır.

Əvvəla, cəmiyyətin məktəbə olan tələbləri, dövlət təhsil orqanlarının qərarlarının icrasında qanunvericilik müddəalarının və icra intizamının tələbləri nəzərə alınır.

Meyarlar pedaqoji elmin aparıcı ideyalarından da irəli gəlir, çünki bu, məktəb işinin və müəllimlərin yaradıcılığının səmərəliliyinin əsas qayəsi olan elm adamlarının tövsiyələrinin tətbiqidir. Məsələn, elmin aparıcı ideyaları təlimin tərbiyə və inkişaf xarakteri, pedaqoji fəaliyyətin formaları və metodları, şəxsiyyətin formalaşmasında təlim və tərbiyənin qarşılıqlı əlaqəsi, eyni vaxtda bir kollektivin və şəxsiyyətin öyrənilməsi və formalaşması, məktəb, ailə və ictimai hərəkətlərin vəhdəti, məqsəd, məzmunun vəhdətinə söykənən təhsil prosesinin bütövlüyüdür. Təbii ki, meyarlar gənc nəslin təlim və tərbiyəsi praktikasında elmin tövsiyələrinin yerinə yetirilməsini əks etdirməlidir.

"Hər bir meyara üç element daxildir: məktəbin əsas vəzifələri, pedaqoji diaqnostika obyektləri, pedaqoji işin keyfiyyət göstəriciləri. Məktəbin əsas vəzifələri təhsil inkişafı prosesi-

nin ictimai inkişaf fonunda həlledici olan sahələri əhatə edir."[5]

Məsələn, "Məktəbin sosial funksiyalarını yerinə yetirməsi" vəzifəsinə məktəblilər tərəfindən elmin əsaslarını öyrənmək, proqram materialını bilmək, sosial dəyərli praktik təcrübə (təcrübə ilə birlikdə bilik dünyagörüşü, inanclar, həyat mövqeyi) daxildir. Buraya ünsiyyət mədəniyyətini, insanlarla münasibət etikasını inkişaf etdirmək üçün xüsusi iş də daxil olmaqla, sonrakı təhsilə və fərdi özünü inkişafa hazırlıq da daxildir. Bu tapşırıqların keyfiyyəti meyarlar əsasında müəyyən edilir. Beləliklə, məktəblilər tərəfindən elmlərin əsaslarının mənimsənilməsi, ilk növbədə, onların dünyagörüşündə, həm də ideoloji və siyasiyönümdə və ictimai fəaliyyətində əks olunur. Praktik təcrübənin formalaşmasının göstəricisi insanın yaradıcı əmək fəaliyyəti, şəxsiyyətin ümumi mədəniyyəti onun davranış mədəniyyəti, nizam-intizam və etiket mədəniyyəti ilə xarakterizə olunur və özünü inkişaf etdirməyə hazırlıq, əlbəttə ki, özünü tərbiyənin sabitliyi və məzmunu ilə müəyyən edilir.

Şəxsiyyət tərbiyəsini aşkar etmək üçün bu diaqnostik obyektlər öz real həyat təzahürləri – göstəricilər ilə sabitlənir. Məsələn, dünyagörüşünün formalaşması bilik keyfiyyəti və idrak fəaliyyətinin metodları, həqiqi hadisələri elmlərin əsasları baxımından təhlil etmək bacarığı ilə müəyyən edilir.

Təcrübədə, bu göstəricilər haqqında məlumat əldə etmək müxtəlif diaqnostikadan, o cümlədən onun inteqrativ keyfiyyətlərinin meyar olduğu şəxsiyyət təhsili kartları əsasında həyata keçirilir. Əlavə olunmuş cədvəllərdəki meyarlar dəyişir, dəyişdirilir, məktəbin xüsusiyyətləri nəzərə alınmaqla yeniləri ilə əvəz olunur.

Ən mürəkkəb iş məktəb işinin keyfiyyəti haqqında məlumat toplamaq metodologiyasıdır. Elm və praktikada hələ kifayət qədər inkişaf etməyib. Bununla birlikdə, məlumat toplamağın əsas istiqaməti yoxlamalar, idarəyə nəzarət deyil, müəllimlərin tədqiqat qrupları, metodik birliklər, hər bir təcrübəçi tərəfindən öz işinin qiymətləndirilməsi və özünü qiymətləndirmə məlumatlarının alınmasıdır.

Üç sahədə fəaliyyət meyarlarını fərqləndirmək lazımdır: qabaqcıl mütəxəssisləri, rayondakı tədris otaqlarını, metodik komissiyalarının işçilərinin və təhsil idarələrinin komissiyalarının iştirakı ilə yoxlama, nəzarət və diaqnostikanı həyata keçirdikdə mikrorayondakı məktəblərin işini. Bu vəziyyətdə məktəb ictimai yardım mövqeyindən sosial bir təhsil mərkəzi olaraq öyrənilir.

Nəhayət, müəllimin, tərbiyəçinin işi pedaqoji işin nəticələrinin diaqnozu əsasında introspeksiyaya, özünü qiymətləndirməyə məruz qalır. Ümumiyyətlə, diaqnozun məqsəd və kim tərəfindən aparıldığını nəzərə alaraq pedaqoji fəaliyyətin səmərəliliyi üçün yuxarıda göstərilən meyarlar əsasında məktəbin işinin pedaqoji diaqnostikasını fərqləndirmək lazımdır. Ümumiyyətlə, diaqnozun məqsəd və kim tərəfindən aparıldığını nəzərə alaraq pedaqoji fəaliyyətin səmərəliliyi üçün yuxarıda göstərilən meyarlar əsasında məktəbin işinin pedaqoji diaqnostikasını fərqləndirmək lazımdır.

Bu o deməkdir ki, məktəbin və müəllimin işini qiymətləndirmə meyarları tərbiyə kartlarında, uşaq və yeniyetmələrin özünü qiymətləndirmə vərəqələrində izlənilməlidir, o zaman məktəbdə uşaq və yeniyetmələrin vətənpərvər tərbiyəsi ilə məşğul olanların hamısının maksimum məlumatlı olmasını təmin edən vahid diaqnostika xidməti yaratmaq mümkün olacaqdır.

Üstəlik, effektiv pedaqoji diaqnostikanın aparıcı istiqaməti şagirdlərin özünüdiaqnostikası olacaqdır, bunun əsasında müəllimin özünü tanıması aparılacaq və sonuncunun əsasında məktəb və ailənin səmərəliliyi öyrəniləcəkdir. Bu yanaşma, şəxsiyyətin hərtərəfli inkişafının mənafelərinə xidmət edən vətənpərvər şüur və vahid sosial yönüm prinsipinin tərbiyə sistemində həyata keçirilməsinin başqa bir sahəsi olacaqdır.

Nəticədə, diaqnoz məktəbin gələcək inkişafını müəyyənləşdirir, bunlara daxildir:

ölkənin, bölgənin, mikrorayonun sosial inkişaf perspektivləri ilə əlaqədar tədris prosesinin təkmilləşdirilməsi;

müəllimlərin ideoloji və nəzəri səviyyəsini və pedaqoji bacarıqlarını artırmaq.

Tədris prosesinin pedaqoji diaqnozuna cavabdeh olan şəxslər məktəb direktoru, baş müəllim, məktəbin metodik dərnəkləri sədrləridir. Tərbiyə işinin təşkilatçısı şagirdin varlığı və özünü idarəetmə diaqnostikasını həyata keçirir. Sinif müəllimi şagirdlərin tərbiyəsi səviyyəsini öyrənmək üçün məsuliyyət daşıyır, valideyn fəallığından istifadə edərkən ailə tərbiyəsinin ritmikasını həyata keçirir.

Hərtərəfli təhlilin vəzifəsi müəllim heyəti işinin və məktəblilərin təhsilinin əsas aspektləri-

ni nəzərdən keçirmək, məktəbin həyatında baş verən daxili proseslərin əlaqəsini və qarşılıqlı asılılığını müəyyənləşdirmək, uğur və uğursuzluqların səbəblərini aşkar etmək, yüksək səviyyəli təhsili təmin edəcək yol, vasitə, metod və üsulları müəyyənləşdirməkdir.

Hərtərəfli təhlilin obyektiv olması, müasir tələblərə cavab verməsi üçün aşağıdakılar lazımdır:

- məktəbin işini qiymətləndirmə meyarlarını əks etdirən məktəb haqqında normativ sənədləri, əvvəllər hazırlanmış perspektiv və cari məktəb planlarını, hesabatları, yoxlama aktlarını və s. öyrənmək;
- qarşıdakı beş illik dövrdə məktəbə təqdim ediləcək xüsusi sosial sifarişlə bağlı nəticələr verməklə məktəb rayonu (bütövlükdə məktəb, rayon və ya şəhərin ətrafındakı sənaye və kənd təsərrüfatı müəssisələri) haqqında pedaqoji təsvir vermək;
- məktəbin praktik fəaliyyətində nəzərə almalı olduğu təhsil imkanlarını və şərtlərini müəyyənləşdirmək;
- məktəb müəllimi həyatının müxtəlif aspektlərini, məktəbin bütün şöbələrinin, məktəbdəki ictimai təşkilatların fəaliyyətini, məktəbdə tədris işinin səviyyəsini, səmərəliliyinin dərəcəsini xarakterizə edən materiallardan istifadə etməklə (sinif jurnalları, dərslərdə və dərsdənkənar tədbirlərdə (dərnəklər, istehsal görüşləri) iştirak üçün rəy və təkliflər jurnalında, müəllim iclaslarının protokollarında, metodiki işlərdə) öyrənmək;
- müəllim heyəti və ictimaiyyətin, mədəniyyət müəssisələrinin və s. təhsil imkanlarından maksimum istifadə etməklə şagirdlərin şəxsiyyətinin hərtərəfli inkişafı üçün şəraitin öyrənilməsi və yaradılması;
- şagirdlərin vətənpərvərlik tərbiyəsində məktəbin ailə və ictimaiyyətlə əlaqəsinin xüsusiyyətini müəyyən etmək.

Problemin aktuallığı. Tərbiyə pedaqoji diaqnostikanın tərkib hissəsi kimi tədris prosesində yeniliklərin, gənc nəslin təlim-tərbiyə prosesində nəzərə çarpacaq inkişafın, tədris prosesinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Pedaqoji diaqnostika tərbiyədən istifadə edərək inkişaf proseslərini dərindən izləməklə yanaşı, daha dəqiq və ona fərqli baxış prizmalarından yanaşmanı da həyata keçirir.

Problemin elmi yeniliyi. Tərbiyə prosesində edilən səhvlər diqqət mərkəzinə gətirilir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Tərbiyə prosesinin düzgün təşkil olunmasında əhəmiyyətli rol oynayacaqdır.

Ədəbiyyat

1. Paşayev Ə. Pedaqogika / Ə. Paşayev, F. Rüstəmov. –Bakı: Elm və təhsil, –2012. –464 s.
2. Загвязинский В. И. Методология и методы психолого-педагогического исследования / В. И. Загвязинский, Р. Атаханов. – Москва: «Академия», –2005. –с. 208.
3. Мынбаева А.К. Психололго-Педагогическая диагностика и развитие творческого потенциала и креативности студентов и магистрантов. Учебное пособие / А.К. Мынбаева, А.В. Вишневская. – Алматы: «Казак Университети», – 2014. –с.187
4. Кочетова А.И. Педагогическая диагностика в школе. «Народная асвета» / А.И. Кочетова. – Минск, 1987. –с. 224

Redaksiyaya daxil olub: 04.11.2025

UOT 37.01

Zaur Yədulla oğlu Ağazadə
Lənkəran Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0001-5539-9739
E-mail: z.ağazade@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).111-116

ELMİ-PEDAQOJİ ƏDƏBİYYATDA VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN HƏLLİ MƏSƏLƏLƏRİ

Zaur Yadulla Aghazade
doctoral student in the program of doctor of philosophy at
Lankaran State University

ISSUES OF PATRIOTIC EDUCATION IN SCIENTIFIC AND PEDAGOGICAL LITERATURE

Заур Ядулла оглы Агазаде
докторант по программе доктора философии
Лянкяранского Государственного Университета

РЕШЕНИЕ ВОПРОСОВ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ В НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

Uşaqlıq dövrü insan şəxsiyyətinin formalaşdığı ən həssas mərhələlərdən biridir. Bu dövrdə uşaqlarda əsas psixoloji və nitq bacarıqlarının təməli qoyulur. Nitq isə uşağın cəmiyyətlə ünsiyyət qurmasında, fikirlərini ifadə etməsində, ətraf mühiti dərk etməsində əsas vasitədir. Bədii əsərlərin məktəbəqədər yaş dövründə uşaqlara təqdim olunması onların danışıq qabiliyyətinin inkişafına, söz ehtiyatının zənginləşməsinə və emosional dünyasının formalaşmasına mühüm təsir göstərir. Bu dövrdə uşaqlarda ana dilinə qarşı sevgi və hörmət hissi formalaşır. Onlar ana dillərinin hansı dil olduğunu anlayır və bu dilin zəngin imkanlarından yararlanmağa başlayırlar. Uşaqların nitqi təkmilləşdikcə, onlar fikirlərini daha ifadəli və təsirli şəkildə ifadə edə bilirlər. Bu bacarıqlar gələcək həyatlarında onlara böyük üstünlüklər verir. Cəmiyyətdə layiqli mövqe tutmaları üçün səlis və düzgün danışıq bacarığı olduqca vacibdir. Erkən yaşlardan düzgün nitq vərdişi qazanan uşaqlar məktəb həyatına daha rahat uyğunlaşır, lüğət ehtiyatlarından bacarıqla istifadə edir və söz ehtiyatlarını artırırlar. Uşaqlara ana dilində rabitəli və düzgün danışma bacarığı aşılanmasının həm nəzəri, həm də praktik baxımdan böyük əhəmiyyəti var. Erkən yaş dövründə uşaqlar hələ dili tam mənimsəməmiş olurlar və onların söz ehtiyatı məhdud olur. Bəzən isə bəzi sözlərin düzgün tələffüzündə çətinlik çəkirlər. Bu çatışmazlıqları bədii əsərlər vasitəsilə aradan qaldırmaq mümkündür (1).

Məktəbəqədər təhsil müəssisələrində nitqin inkişaf etdirilməsi istiqamətində geniş istifadə olunan və eyni zamanda təsirli hesab edilən metodlardan biri uşaqların bədii ədəbiyyatla tanış edilməsidir. Bədii ədəbiyyat yalnız dil bacarıqlarını deyil, eyni zamanda uşaqlarda tərbiyəvi dəyərləri də formalaşdırır. Ədəbi mətnlər vasitəsilə uşaqlar insani keyfiyyətləri öyrənir və müxtəlif obrazlarla tanış olurlar. Əsərlərdəki qəhrəmanlar onların marağını cəlb edir və yaddaşlarında iz buraxır. Mənfi qəhrəmanlar yalan danışmaq, paxıllıq etmək, oğurluq, xainlik və ikiüzlülük kimi mənfi xüsusiyyətlərlə təqdim olunur və bu davranışlar pislənir. Uşaqlarda bu mövzularda müəyyən anlayış və düşüncələr formalaşır. Müsbət obrazlar isə təmiz ürəklilik, mərhəmət, vicdan, xeyirxahlıq və ədalət kimi müsbət insani keyfiyyətləri əks etdirir. Ümumilikdə desək, bədii ədəbiyyat uşaqların şəxsiyyətinə və cəmiyyətə uyğun, mənəvi dəyərlərə sahib bir vətəndaş kimi yetişməsinə zəmin yaradır. Gələcəkdə onların əxlaqlı və nümunəvi bir insan kimi formalaşması üçün əsaslı bünövrə qoyur. Uşaqların tərbiyəsində ədəbi-bədii əsərlərin rolu, onların həm tərbiyəedici, həm də öyrədici funksiyası ilə müəyyən olunur. Belə əsərlər uşaqların intellektual, mənəvi və estetik inkişafına güclü təsir göstərir. Söz sənətinin əhəmiy-

yəti ondadır ki, o, gerçəkliyi bədii obrazlar vasitəsilə əks etdirir, real hadisələri ümumiləşdirir və daha tipik halları önə çıxarır. Uşaq hər hansı bir əsəri dinlədikdə, öz həyatında baş vermiş hadisələr və ya tanış mövzularla bağlı məsələləri daha dərindən qavrayır. Ətrafdakı əşyalar, hadisələr və onların arasındakı əlaqələr onlar üçün daha anlaşılan və mənalı olur. Eyni zamanda, bu proses uşaqlara yeni bilik və məlumatlar qazandırır (2).

Böyük yaş qrupunda olan uşaqlar, kiçik və orta yaş qruplarına nisbətən nitqin inkişafına daha çox nail olurlar. Bu yaş mərhələsində onlara əsər oxunduqda, artıq məzmunla forma arasındakı əlaqəni qavramaq qabiliyyətinə malik olurlar. Hətta bədii mətnlərdə yer alan obrazlı söz və ifadələri də tanıyıb müəyyənləşdirə bilirlər. Nağıl və hekayələrə qulaq asdıqları zaman uşaqlarda poetik eşitmə bacarığı formalaşır. Bu bacarıq sayəsində onlar epik və lirik janrlar arasındakı fərqi anlamağa başlayır və bu iki növ əsəri bir-birindən ayırd etməyi bacarırlar. Böyük yaş qrupunda uşaqların danışıq qabiliyyətlərini inkişaf etdirmək üçün onlara müxtəlif şeirlər təqdim olunur. Şeirləri dinləyərkən artıq uşaqlar qafiyə və ritm kimi poetik elementləri fərqləndirməyi bacarır, bunlara qarşı duyarlılıq nümayiş etdirirlər. Bu dövrdə lüğət üzərində aparılan işin əsas məqsədi uşaqların söz ehtiyatını genişləndirmək, onu aktivləşdirmək, dəqiqləşdirmək və nitqin aydınlığına nail olmaqdır. Bu istiqamətdə görülən fəaliyyətlər zamanı xüsusilə folklor nümunələrinin istifadəsi mühüm rol oynayır. Məsələn, hər gün bir yeni folklor nümunəsinin öyrədilməsi uşağın danışıq lüğətinə yeni bir sözün daxil olmasına səbəb olur. Yeni sözlərin lüğətə daxil olması uşaqların ətrafdakı insanlarla daha rahat və səlis ünsiyyət qurmasına şərait yaradır. Onlar sadəcə danışıqda istifadə etdikləri sözlərlə kifayətlənmirlər, eyni zamanda mənasını bildikləri, amma nitqdə işlətmədikləri sözlər də olur. Bu cür sözlər qeyri-fəal lüğətə aiddir. Uşaqlar həmin sözləri unuda bilərlər, lakin başqa biri danışarkən o sözlərin mənasını anlayırlar. Bəzən isə uşaq bir sözü eşidib yadda saxlayır, amma onun mənasını tam anlamır. Bu halları tərbiyəçi-müəllim mütləq nəzərə almalı və düzgün yanaşma tətbiq etməlidir. Xüsusilə "şir ürəkli", "aydan arı, sudan duru", "itibuynuz", "şəkərə qatım səni" kimi məcazi ifadələr uşaqların nitqində yavaş-yavaş yer almağa başlayır. Folklor nümunələrinin tətbiqi uşaqlara eyni fikri müxtəlif yollarla ifadə etməyi öyrədir. Onlar bir anlayışı birbaşa adla deyil, onun xarakterik xüsusiyyətlərini ifadə etməklə də çatdırmağı bacarırlar (3).

Lüğət ehtiyatını artırmaq məqsədilə tərbiyəçi-müəllim uşaqlara həm tanış olan, həm də əvvəllər eşitmədikləri sözləri ehtiva edən nümunələri öyrətməlidir. Lüğət üzərində aparılan işin əsas məqsədi budur ki, uşaq sözün mənasını düzgün başa düşsün və həmin sözün aid olduğu əşya və ya hadisəni tanıya bilsin. Yeni öyrənilən sözlərin aktiv şəkildə istifadə olunmasına yönəlmiş fəaliyyətlər də olduqca vacibdir. Bu yolla qeyri-fəal lüğət tədricən fəal lüğətə çevrilir. Söz ehtiyatı zəif olan uşaqlar öz fikirlərini sərbəst şəkildə ifadə etməkdə çətinlik çəkirlər. Düzgün və yerində söz tapmaq onlar üçün asan olmur. Bu səbəbdən tərbiyəçi–müəllim uşaqlarla planlı və davamlı şəkildə işləməli, onların lüğət bazasını sistemli formada genişləndirməlidir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların lüğət ehtiyatının artırılmasında bədii əsərlərin oxunmasının qarşısında bir sıra əsas vəzifələr dayanır:

1. Bədii əsərlərin mənimsənilməsi zamanı onların düzgün başa düşülməsi və uşaqlarda düşünmə bacarıqlarının inkişaf etdirilməsi;

2. Müxtəlif fəaliyyətlər zamanı təkrarların tətbiqi ilə söz ehtiyatını zənginləşdirmək vərdişlərinin formalaşdırılması və möhkəmləndirilməsi;

3. Uşaqlarda ətraf aləmə qarşı düzgün münasibətin tərbiyə olunması;

4. Məşğələlərdə və digər fəaliyyət növlərində əldə olunan biliklərin müstəqil şəkildə tətbiq edilməsinin təmin olunması (4).

Şifahi xalq ədəbiyyatının müxtəlif nümunələri rabitəli nitqin inkişafı məqsədilə səmərəli şəkildə istifadə olunur. Tanınmış pedaqoq V.A. Suxomlinski folklorun müxtəlif nümunələrinə, xüsusilə nağıllara olan marağın psixoloji əsaslarını izah edərək qeyd edir: "Uşaqlar nağılları niyə bu qədər həvəslə dinləyirlər? Nə üçün nağıl, danışıq və təfəkkürü digər vasitələrdən daha güclü inkişaf etdirir? Çünki nağıllarda təqdim olunan obrazlar güclü emosional təsirə malikdir. Nağılın dili uşağın şüuruna dərindən nüfuz edir" (5). Nağılların uşaqların rabitəli danışıq bacarığının formalaşmasında rolu danılmazdır. Xalq arasında nəsildən-nəslə ötürülən bu nağıllar nitqin inkişafında mühüm yer tutur. Nağılların quruluşu və məzmunu rabitəli nitqin inkişafına xidmət edir. Onların dili sadə, axıcı və uşaqlar

üçün asanlıqla başa düşüləndir. Nağıllar xalq arasında ən çox sevilən ədəbi janrlardandır. Sehirli, qəhrəmanlıq, məişət və heyvanlar haqqında olan nağıllar uşaqlar üçün maraqlı və cəlbedici olur. Nağılların oxunması uşaqlarda sevinc və maraq doğurur. Bu janr çox qədim zamanlardan, yazının olmadığı dövrlərdən bəri mövcuddur. Uşaqlar nağılları diqqətlə dinləyir, həyəcan keçirir və məzmununu tez yadda saxlayırlar. Nağıl əsasında təşkil olunan oyunlar, yadda qalan epitet və ifadələrin danışıqda tətbiqi onların rabitəli nitq bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Bədii əsərlərdən istifadə zamanı əsas diqqət uşaqların anlama və qavrama fəaliyyətinə yönəlməlidir. Məşğələ zamanı uşaqların bilik və bacarıqlar əldə etməsi, ilk növbədə, tərbiyəçi–müəllimin peşəkar rəhbərliyindən asılıdır. Müəllim bu prosesdə müxtəlif üsul və vasitələrdən səmərəli istifadə etməyi bacarmalıdır. O, uşaqların bilikləri sadəcə mexaniki şəkildə deyil, şüurlu və dərk olunaraq mənimsəmələrinə kömək etməlidir. Tərbiyəçi–müəllim eyni zamanda uşaqlarda nitq bacarığının, düşüncə tərzinin və estetik hisslərin formalaşmasına xüsusi diqqət yetirməlidir. Uşaqların danışıq qabiliyyəti müəllimin istiqamətləndirilməsi ilə ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilməlidir. Uşaq bağçalarında çalışan müəllimlər bu məsuliyyətli vəzifəni yerinə yetirərkən folklor nümunələrinin – nağıl, tapmaca, layla və s. – oxunması və danışılmasından geniş istifadə edirlər. Bu nümunələrin məzmunu və dili, onların mənasının izah edilməsi uşaqların söz ehtiyatına, obrazlı düşüncə tərzinə və estetik zövqünə birbaşa təsir göstərir (6).

Uşaqlarda kitab oxumağa maraq yaratmaq məktəbəqədər dövrdə üzərində xüsusi dayanılmalı məsələlərdən biridir. Kiçik yaşlı uşaqların kitabla ilk tanışlığı bəzən maraqlı olur – bəzən kitabı tərs tutaraq "oxumağa" başlayırlar. Bu cür davranışlar gülüşlə qarşılanmamalı, əksinə, onların marağı dəstəklənməli və diqqətlə dinlənilməlidir. Uşaqlara şəkilli kitablarla işləməyi öyrətmək, illüstrasiyalardan məna çıxarmağı bacarmaq vacib bacarıqlardandır. Eyni zamanda, kitabdan istifadə qaydaları da onlara aşılanmalıdır. Kitabın səliqəli saxlanması, səhifələrin cırılmaması, cızılmaması və diqqətlə vərəqlənməsi kimi davranışlar uşaqlara müntəzəm olaraq öyrədilməlidir. Bununla yanaşı, uşaqlara düzgün oturuş və oxu zamanı gözlə kitab arasında saxlanmalı məsafə haqqında da məlumat verilməlidir. Gözlə kitab arasındakı optimal məsafə təxminən 25-30 sm olmalıdır (3). Bu, həm görmə sağlamlığı, həm də düzgün oxu vərdişlərinin formalaşması baxımından önəmlidir. Beləliklə, bədii əsərlərin oxunması yalnız intellektual deyil, həm də estetik və gigiyenik baxımdan uşağın şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Bütün bu məqsədlərə nail olmaq üçün uşaqlara təqdim edilən bədii əsərlərin onların yaş xüsusiyyətlərinə və anlama səviyyələrinə uyğunluğu xüsusi əhəmiyyət daşıyır. Tərbiyəçi-müəllim əsər seçərkən onun mövzusunu, məzmununu, həcmini, dil üslubunu və bədii ifadə vasitələrini diqqətlə nəzərə almalıdır. Əsərin uşağın dünyagörüşünə uyğun olması, emosional və mənəvi tərbiyəsinə müsbət təsir göstərməsi mühüm şərtlərdəndir. Əlbəttə, bu cür seçimlər müəllimdən peşəkar yanaşma və pedaqoji bacarıq tələb edir. Eyni zamanda, uşaqların psixoloji xüsusiyyətləri və fərdi inkişaf səviyyələri də nəzərə alınmalıdır. Seçilən əsərlər uşaqlarda müsbət insani keyfiyyətlər, xeyirxahlıq və yüksək mənəviyyat formalaşdırmalıdır. Məktəbəqədər yaşlı uşaqlar üçün təqdim olunan ədəbi materiallar sadə, aydın və anlaşıqlı olmalı, əsasən şifahi xalq ədəbiyyatı nümunələrinə söykənməlidir. Nağıllar, tapmacalar, bayatılar bu yaş dövrü üçün əlverişli vasitələrdir. Orta və böyük yaş qruplarında isə mərhələli şəkildə daha ciddi ictimai-mənəvi mövzulara toxunmaq, onların düşüncə dairəsini genişləndirmək tövsiyə olunur.

Problemin aktuallığı. Məktəbəqədər yaş dövründə uşaqlarda nitq bacarıqlarının inkişafında bədii ədəbiyyat nümunələrinin oxunması xüsusi rol oynayır və olduqca əhəmiyyətlidir. İnsan həyatının ən dəyərli mərhələsi hesab olunan bu dövrdən düzgün və məqsədyönlü istifadə edilmədikdə, uşaqlarda formalaşan yanlış təsəvvürlərin sonradan aradan qaldırılması böyük çətinliklərə səbəb olur. Bu cür halların qarşısını almaq üçün bədii əsərlərin uşaqların tərbiyəsinə təsiri müxtəlif aspektlərdən araşdırılsa da, hələlik bu sahənin məqsəd və vəzifələri tam şəkildə müəyyən olunmamış, ümumi yanaşmalarla kifayətlənilmişdir. Hazırkı tədqiqat işimiz məhz bu problemin dərinliklərinə varmaq və onun həlli yollarını araşdırmaq məqsədilə aparılmışdır.

Problemin elmi yeniliyi. Bu məqalədə uşaq bağçalarında bədii ədəbiyyatdan istifadə məsələsi ilk dəfə tədqiq edilmiş, onun əsas məqsədləri, qarşıya qoyulan vəzifələr və əhəmiyyətli həll yolları ortaya qoyulmuşdur.

Problemin praktik əhəmiyyəti. Məqalədə təqdim olunan təklif və nəticələr, müasir dövrdə uşaq bağçalarında bədii əsərlərin oxunmasının səmərəli şəkildə təşkilinə və bu prosesin uşaqların inkişafında nəzərə alınmasına şərait yaradır. Bu bilgilər əsasında həm tərbiyəçilər, həm də valideynlər uşaqların təlim-tərbiyə və inkişaf prosesini daha uğurla planlaşdıra və həyata keçirə bilərlər.

Ədəbiyyat

1. Məmmədova, Y.X. Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişaf etdirilməsinin məzmunu və yolları / Y.X. Məmmədova. –Bakı: ADPU, –2019. –256 s.
2. Əliyeva, S. A. Xalq pedaqogikasında tərbiyə məsələləri / S.A. Əliyeva. –Bakı: ADPU, – 2016. –172 s.
3. Kərimov, Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası / Y.Ş. Kərimov. –Bakı: 2009. – 319 s.
4. Əsgərova, R.Ə. Məktəbəqədər yaşlı uşaqlarda rabitəli nitqin inkişafı / R.Ə. Əsgərova. –Bakı: Hərbi, – 2006. –158 s.
5. Həşimov, Ə.Ş., Sadıqov, F.B. Azərbaycan xalq pedaqogikası / Ə.Ş. Həşimov, F.B. Sadıqov. –Bakı: Patronat, –1993. –276 s.
6. Əliyev, İ. Azərbaycan etnopedaqogikası / İ. Əliyev. –Bakı: Elm və Təhsil, –2009. –223 s.
7. Cəfərova, L.K. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramına dair müntəxəbat / L.K. Cəfərova. –Bakı: Çaşıoğlu, –2009. –320 s.
8. Həkimov, M.İ. Xalqımızın deyimləri və duyumları / M.İ. Həkimov. –Bakı: Maarif, –1986. –378 s.
9. Qafarlı, R.O. Uşaq folklorunun janr sistemi və poetikası / R.O. Qafarlı. –Bakı: Elm və Təhsil, –2013. – 539 s.
10. Məktəbəqədər yaşlı uşaqlar üçün müntəxəbat / Tərt.ed. Ş. Abdullayeva, X. Məmmədova, A. Məmmədova. –Bakı: Təhsil, –2000. –276 s.
11. Nəbiyev, A. Nəğmələr, inanclar, alqışlar / –Bakı: Yazıçı, –1986. –211 s.

Redaksiyaya daxil olub: 08.10.2025

UOT 373.2.

Esmira German qızı Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0005-0288-5927
E-mail: esmiraliyeva877@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).127-129

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASINDA TƏHSİL PROSESİNİN İMKANLARI VƏ ONLARIN SƏMƏRƏLİ TƏTBİQİ

Esmira German Aliyeva
lecturher at
Azerbaijan State Pedagogical University

POSSIBILITIES OF THE EDUCATIONAL PROCESS IN FORMING THE ECOLOGICAL EDUCATION OF PRESCHOOL CHILDREN AND THEIR EFFECTIVE APPLICATION

Эсмира Герман гызы Алиева
преподаватель
Азербайджанского Государственного Педагогического Университета

ВОЗМОЖНОСТИ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА В ФОРМИРОВАНИИ ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА И ИХ ЭФФЕКТИВНОЕ ПРИМЕНЕНИЕ

Xülasə. Məqalədə məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin formalaşmasında təhsil prosesi və onun tətbiq imkanları araşdırılır. Qeyd edilir ki, təhsil prosesi müəllimlərin hazırlığı, kurikulum, tədris materialları və qrup-fərdi fəaliyyətlər vasitəsilə ekoloji bilik və vərdişlərin inkişafına təkan verir. Gündəlik praktik fəaliyyətlər və valideynlərlə əməkdaşlıq da uşaqların öyrəndiklərini möhkəmləndirməyə kömək edir. Nəticədə məktəbəqədər təhsil prosesi ekoloji bilik və davranışların səmərəli formalaşması üçün nəzəri və praktik şərait yaradır.
Açar sözlər: *məktəbəqədər yaş, uşaq, inkişaf, tətbiq, formalaşma, imkan, ekoloji tərbiyə*

Abstract. The article examines the educational process and its application possibilities in the formation of ecological education of preschool children. It is noted that the educational process promotes the development of ecological knowledge and habits through teacher training, curriculum, teaching materials, and group and individual activities. Daily practical activities and cooperation with parents also help to consolidate what children have learned. As a result, the preschool educational process creates theoretical and practical conditions for the effective formation of ecological knowledge and behavior.
Key words*: preschool age, child, development, application, formation, opportunity, ecological education*

Аннотация. В статье рассматривается образовательный процесс и возможности его применения в формировании экологического воспитания детей дошкольного возраста. Отмечается, что образовательный процесс способствует формированию экологических знаний и навыков посредством подготовки педагогов, учебной программы, учебно-методических материалов, групповой и индивидуальной деятельности. Ежедневная практическая деятельность и сотрудничество с родителями также способствуют закреплению полученных знаний детьми. В результате образовательный процесс в дошкольном учреждении создает теоретические и практические условия для эффективного формирования экологических знаний и поведения.
Ключевые слова: *дошкольный возраст, ребенок, развитие, применение, формирование, возможность, экологическое воспитание*

Məktəbəqədər yaş dövrü uşaqlarının ekoloji tərbiyəsi onların gələcək həyatında təbiətə və ətraf mühitə münasibətini formalaşdırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bu dövrdə uşaqların müşahidə, oyun və təcrübə vasitəsilə öyrənmə qabiliyyətləri yüksək olduğu üçün ekoloji tərbiyənin məktəbəqədər təhsil prosesinə inteqrasiyası xüsusi rol oynayır.

"Qeyd etməliyik ki, ekologiya XX əsrin elmidir. Yəni bu əsrdə kütləvi hal almış ekoloji böhran – kütləvi qırğın silahlarının hazırlanması və qeydiyyatdan keçirilməsi, kosmik uçuşlar, atom-nüvə reaktorları, kimya zavodları və kimyəvi məhsullar, sənayenin inkişafı naminə təbiətə təcavüz, meşələrin qırılması, çayların istiqamətinin dəyişdirilməsi, dağların partladılması, müharibələr və s. bu elmin yaranmasına səbəb olmuşdur. Beləliklə, pedaqogika elmində "ekoloji tərbiyə" məfhumu yaranmış və böyüməkdə olan nəslin ekoloji tərbiyəsi aktual problemə çevrilmişdir" (1, s.135).

Müəllimlərin peşə hazırlığı, tədris resursları, vizual və praktik materiallar uşaqlara təbiət hadisələrini öyrənmək və ekoloji vərdişlər üçün geniş imkanlar yaradır. Qrup və fərdi fəaliyyətlər, bitkilərin və heyvanların müşahidəsi, oyunlar və praktik məşğələlər isə uşaqların ətraf mühiti tanımasına və ona hörmət etməsinə şərait yaradır.

Təcrübə və seminarlar vasitəsilə müəllimlər gündəlik fəaliyyətlərdə ekoloji məsələləri inteqrasiya edə bilir, qrup və fərdi fəaliyyətlər zamanı uşaqların maraqlarına uyğun oyun və layihələr təşkil edir. Eyni zamanda, tədris materialları və resurslar – kitablar, rəsm və əl işləri, təbiət müşahidə dəftərləri, multimedialar, videolar və interaktiv oyunlar uşaqların təbiəti öyrənməsini asanlaşdırır və marağı artırır. Təbiət ekskursiyaları, bağçılıq və laboratoriya məşğələləri praktik təcrübəni zənginləşdirir.

"Məktəbəqədər yaşlı uşaqlar üçün ekoloji təhsilin məzmununa elmi ekologiyanın bu və ya digər bölməsi ilə bağlı biliklər daxildir. Məsələn, "Kəşflər dünyası" təxmini əsas proqramında təbiətdə hər şeyin bir-biri ilə əlaqəli olduğu və insanın təbiətin bir hissəsi olduğu, həmçinin canlı orqanizmlərin ətraf mühitlə qarşılıqlı əlaqəsi və haqqında ilkin fikirlərin formalaşması nəzərdə tutulur" (2).

Doğru seçilmiş və məqsədəuyğun istifadə olunan materiallar uşaqlarda təbiətə sevgi, məsuliyyət və davamlı ekoloji vərdişlərin formalaşmasına şərait yaradır.

Gündəlik fəaliyyətlər də ekoloji tərbiyəni gücləndirir. Məsələn, yemək və gigiyena qaydaları, su və enerji istifadəsi, tullantıların düzgün idarəsi, həmçinin bitki və heyvan baxımı uşaqlara ətraf mühitin qorunması haqqında praktik biliklər verir. Valideynlərlə əməkdaşlıq da bu istiqamətdə çox vacibdir. Evdə ekoloji vərdişin möhkəmləndirilməsi, valideynlər üçün kiçik seminarlar və məlumat lövhələri vasitəsilə uşaqların davranış modelləri gücləndirilir.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin səmərəli olması üçün valideynlərin iştirakı vacibdir. Bu məqsədlə ***kiçik seminarlar*** təşkil oluna bilər. Seminarlarda valideynlərə uşaqlarda ekoloji vərdişlərin formalaşmasının əhəmiyyəti, gündəlik həyatda tətbiq ediləcək üsullar (su və enerji qənaəti, tullantıların düzgün idarəsi, bitki və heyvanlara qayğı) və oyunlar vasitəsilə öyrədilmə yolları izah olunur.

Məlumat lövhələri isə valideynlərin diqqətini gündəlik kiçik fəaliyyətlərə yönəltmək üçün effektiv vasitədir. Lövhələrdə ekoloji fəaliyyətlər, uşaqlar üçün sadə tapşırıqlar, tövsiyələr və təbiət müşahidələri ilə bağlı məlumatlar vizual formada təqdim olunur. Bu, valideynlərin evdə uşaqların ekoloji davranışlarını izləməsinə və möhkəmləndirməsinə kömək edir.

Məktəbəqədər yaşlı uşaqlarda ekoloji vərdişlərin formalaşdırılması üçün gündəlik fəaliyyətlər çox önəmlidir. Bu fəaliyyətlər uşaqlara sadə, praktik yollarla təbiət və resurslardan düzgün istifadə etməyi öyrədir:

1. Su istifadəsi.

- Uşaqlara suyu qənaətlə istifadə etmək öyrədilir. Məsələn, əlləri yuyarkən kranı vaxtında bağlamaq, boş yerə su tökməmək.
- Su ilə bağlı kiçik eksperimentlər və müşahidələr aparmaq. Məsələn, bitkilərə su verərkən suyun nə qədər istifadə olunduğunu ölçmək.

2. Enerji istifadəsi

- İşıq və elektrik cihazlarını lazım olmadığı zaman söndürmək vərdişi aşılanır.
- Günəş işığı və təbii ventilyasiyadan istifadə etməklə enerji qənaəti göstərilir.

3. Tullantıların düzgün idarəsi

- Uşaqlara tullantıları çeşidləməyi öyrətmək (plastik, kağız, orqanik tullantılar).
- Səliqəli və təmiz ətraf mühit üçün kiçik təmizlik fəaliyyətlərinə cəlb etmək.

Bu gündəlik praktik fəaliyyətlər uşaqlarda təbiətə hörmət, məsuliyyət və ekoloji davranışların davamlı inkişafı üçün əsas təşkil edir.

Təhsil prosesinin imkanları

Məktəbəqədər təhsil prosesində ekoloji tərbiyənin verilməsi müxtəlif pedaqoji vasitələr və metodlarla həyata keçirilə bilər:

1. **Məşğələlər vasitəsilə**

- Təbiət hadisələrinin öyrədilməsi;
- Bitkilər və heyvanlar haqqında biliklərin verilməsi;
- Təbii sərvətlərin qorunmasının vacibliyinin izahı.

2. **Gündəlik fəaliyyətlər vasitəsilə**

- Su, elektrik, kağız kimi resursların düzgün istifadəsinə vərdiş qazandırmaq;
- Tullantıların çeşidlənməsi və təkrar istifadəyə yönəltmək.

3. **Təcrübə və müşahidə fəaliyyətləri vasitəsilə**

- Təbiət guşəsinin yaradılması;
- Bitkilərin əkilib-becərilməsində iştirak;
- Quşlara, heyvanlara qulluq.

4. Oyunlar və yaradıcı fəaliyyət vasitəsilə

- Təbiəti qorumağa həsr olunmuş didaktik oyunlar;
- Rəsm, tətbiqi sənət və musiqi ilə ekoloji mövzuların əks etdirilməsi.

5. Açıq hava fəaliyyətləri vasitəsilə

- Gəzinti və ekskursiyalar;
- Təbiət müşahidələri;
- Təbiət qoynunda oyunlar və idman.

Səmərəli tətbiqi yolları

Ekoloji tərbiyənin səmərəli təşkili üçün aşağıdakı **şərtlərə** əməl olunmalıdır:

- **Yaş xüsusiyyətlərinə uyğunlaşdırma** – məlumatlar sadə, aydın və uşaqların qavrayışına uyğun şəkildə təqdim edilməlidir.

- **Şəxsi nümunə** – tərbiyəçi-müəllim və valideynlər ekoloji mədəniyyəti gündəlik davranışları ilə nümayiş etdirməlidirlər.

- **Davamlılıq** – təkcə məşğələlərlə məhdudlaşmamalı, bütün gündəlik fəaliyyətlərdə tətbiq olunmalıdır.

- **Əməkdaşlıq** – təhsil müəssisəsi ilə ailə arasında sıx əlaqə qurulmalı, valideynlər də prosesə cəlb olunmalıdırlar.

- **Motivasiya** – uşaqlarda maraq yaratmaq üçün mükafatlandırma, maraqlı oyunlar, təcrübələrdən istifadə olunmalıdır.

Beləliklə, məktəbəqədər yaşlı uşaqlarda ekoloji tərbiyənin formalaşdırılması gələcəkdə ətraf mühitə qayğı ilə yanaşan, məsuliyyətli və ekoloji mədəniyyətə sahib vətəndaş yetişdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Təhsil prosesinin imkanlarından istifadə etməklə uşaqlarda ekoloji dəyərlərin, davranışların və vərdişlərin möhkəm əsası qoyula bilər.

Problemin aktuallığı. Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin formalaşdırılmasında təhsil prosesinin imkanları və onların səmərəli tətbiqi ilə bağlı məsələlər mühüm olması ilə seçilir. Çünki həmin məsələlər uşaqların ekoloji tərbiyə baxımından formalaşması və inkişafları baxımından çox vacibdir.

Problemin yeniliyi. Tədqiqat işində məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin formalaşdırılmasında təhsil prosesinin imkanları və onların səmərəli tətbiqi ilə bağlı məşğələlər, gündəlik fəaliyyətlər, oyunlar və yaradıcı fəaliyyətlər və bu istiqamətdə valideynlərlə, ailələrlə aparılan işlər tədqiqata cəlb edilir.

Problemin praktik əhəmiyyəti. Əldə olunmuş nəticələr ətraf aləmlə tanışlıq məşğələlərində tərbiyəçi-müəllimlərin istifadəsi üçün tövsiyə edilir. Tədqiqatdan əldə edilmiş nəticələrdən dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodik ədəbiyyatın və elmi-tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

Ədəbiyyat

1. Bədəlova, Ə.S. Azərbaycan xalq pedaqogikası. Mühazirə mətnləri və seminar məşğələləri üçün materiallar) / Ə.S. Bədəlova – Bakı: Müəllim, –2018. –187 s.
2. Мир открытий: Примерная основная общеобразовательная программа дошкольного образования. –М.: Цветной мир, –2012. –125 с.
3. https://nsportal.ru/detskii-sad/vospitatelnaya-rabota/2021/03/17/tsel-i-zadachi-ekologicheskogo-obrazovaniya-detey

Redaksiyaya daxil olub:16.10.2025

UOT 372.3/.4

Sahilə Abdüləzim qızı Orucova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0001-3926-480X
E-mail: sahile.orucova@yahoo.com
https://doi.org/10.69682/arti.2025.92(6).130-134

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ YARANAN ZƏRƏRLİ VƏRDİŞLƏR, ONLARIN FƏSADLARI VƏ ARADAN QALDIRILMASI YOLLARI

Sahila Abdulazim Orujova
associate professor at the Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

HARMFUL HABITS IN YOUNG SCHOOLCHILDREN, THEIR CONSEQUENCES AND WAYS TO ELIMINATE THEM

Сахила Абдулазим гызы Оруджева
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ВРЕДНЫЕ ПРИВЫЧКИ У ШКОЛЬНИКОВ МЛАДШЕГО ВОЗРАСТА, ИХ ПОСЛЕДСТВИЯ И ПУТИ УСТРАНЕНИЯ

Xülasə. Məktəblilərin heç də hamısı sağlamlığının qayğısına qalmır, müxtəlif zərərli vərdişlərin aludəçisinə çevrilirlər. Zərərli vərdişlərin qarşısının alınmasına ailədən başlanılmalıdır. Ailədə və təhsil müəssisələrində zərərli vərdişlərin fəsadları barədə səhih və dərk ediləcək tərzdə informasiya verilməlidir. Zərərli vərdişlərin aradan qaldırılması üçün görülən işlər müntəzəm, sistematik olmalı və kütləvi xarakter daşımalıdır. Müasir informasiya texnologiyalarının imkanlarından yararlanmaqla zərərli vərdişlərin cəmiyyətə və onun üzvlərinə vurduğu zərərlə bağlı sosial maarifləndirmə işlərinin daha da intensivləşdirilməsi, zərərli vərdişlərin məktəblilərə vurduğu mənfi təsirlər haqqında ictimaiyyətin davamlı məlumatlandırılmasına ehtiyac günü-gündən artmaqdadır.
Açar sözlər: *məktəbli, zərərli vərdişlər, asılılıq, profilaktik işlər, sağlamlıq, valideynlər.*

Abstract. Not all schoolchildren take care of their health and become addicted to various harmful habits. Prevention of bad habits should start from the family. Information about the consequences of harmful habits should be provided in a correct and understandable manner in the family and educational institutions. The work done to eliminate bad habits should be regular, systematic and of a mass nature. The need for further intensification of social awareness work on the harm caused by bad habits to society and its members by taking advantage of the opportunities of modern information technologies, and for continuous informing of the public about the negative effects of bad habits on schoolchildren, is increasing day by day.
Keywords: *schoolchildren, bad and harmful habits, addiction, preventive measures, health, parents.*

Аннотация. Не все школьники следят за своим здоровьем и пристрастились к различным вредным привычкам. Профилактика вредных привычек должна начинаться с семьи. Информация о последствиях вредных привычек должна предоставляться в корректной и понятной форме в семье и образовательных учреждениях. Работа по искоренению вредных привычек должна носить регулярный, систематический и массовый характер. С каждым днем возрастает необходимость в дальнейшем

усилении просветительской работы о вреде данных привычек для общества и его членов с использованием возможностей современных информационных технологий, в постоянном информировании населения о негативном влиянии вредных привычек на школьников.

Ключевые слова: *школьники, вредные привычки, наркомания, профилактика, здоровье, родители*

İnsan doğularkən zərərli vərdişlərlə dünyaya gəlmir. O, heç bir mənfi xüsusiyyətlərin daşıyıcısı olmur. Yaşadığı mühit, aldığı tərbiyə və özünün fəaliyyəti nəticəsində insan daim dəyişib inkişaf edir, həyati bacarıqlara yiyələnir. Məhz əldə etdiyi təcrübə sayəsində o, yaxşını pisdən ayıra bilir. Yaşam prosesində insanlar başa düşür ki, həyatda heç bir şey əbədi deyil. Odur ki, təbiətdən qənaətlə istifadə edilməli və istifadə edilən resurslar bərpa edilməlidir. Bu deyilənlər sağlamlığa da aiddir, çünki sağlamlıq hər kəsin əsas şəxsi sərvətidir.

Demək olmaz ki, insanlar sağlamlığın əhəmiyyətini dərk etmirlər, ona dəyər vermirlər. Təəssüf ki, insanların çoxu sağlamlığın dəyərini onu ya tamamilə, ya da qismən itirdikdən sonra dərk edir. Yalnız bundan sonra onlarda xəstəliyi müalicə etmək, pis vərdişlərdən qurtulmaq və sağlam olmaq üçün motivasiya yaranır. Buna nail olmaq isə çox çətin, bəzən də mümkünsüz olur.

Zərərli vərdişlərin sayı günü-gündən artır. Nə üçün belə olur? Bunun səbəbləri də çox müxtəlifdir. Ümumiyyətlə, pis vərdiş dedikdə nələr nəzərdə tutulur? İnsan sağlamlığına və yaşam tərzinə mənfi təsir etdiyini bilə-bilə imtina edə bilmədiyi vərdişlər zərərli vərdişlər hesab edilir. Bir hərəkətin vərdiş halına gəlməsi üçün müəyyən zaman lazımdır, vaxtın uzanması geriyə dönüşü olmayan ağır fəsadlarla nəticələnir.

Hər bir vətəndaş kimi məktəblilərin də sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Onlara sağlamlığa təsir göstərən müsbət və mənfi amillər haqqında ailədə müntəzəm və düzgün elmi məlumat verilməli və bu məlumatlar təhsil müəssisələrində və kütləvi informasiya vasitələri ilə fasiləsiz olaraq onlara çatdırılmalıdır. Sağlamlıq dəyərlər iyerarxiyasının ən yüksək pilləsində yer tutan ali dəyərlərdən biri, bəlkə də birincisidir. Sağlamlığı olan məktəblinin cəmiyyətin gələcək həyatında normal fəaliyyət göstərə biləcəyi mütəxəssislər tərəfindən həmişə vurğulanır.

Mütəxəssislər sağlamlığı insanın əmək, sosial və bioloji funksiyalarının dolğunluqla yerinə yetirilməsi, optimal iş qabiliyyəti və ictimai fəallığını təmin edən vəziyyət kimi səciyyələndirirlər. Həmçinin sağlamlıq fərdin fiziki, emosional, əqli və sosial cəhətdən öz potensialına uyğun fəaliyyət göstərmək qabiliyyətinə malik olması, fiziki və əqli cəhətdən əlilliyinin və ya funksional pozğunluğunun olmaması kimi də təqdim edilir. [1, s. 37].

Tədqiqatçılar sağlamlığı üç növə ayırırlar. Fiziki sağlamlıq insan orqanlarının düzgün çalışması, insanın öz fiziki imkanlarından səmərəli istifadə etmək bacarığına sahib olması kimi dəyərləndirilir. Həmçinin insanın hər hansı bir xəstəliyinin, fiziki imkanlarından istifadə etməsini əngəlləyən, məhdudlaşdıran vəziyyətin olmaması başa düşülür.

Psixi sağlamlıq insanın zehni qabiliyyətlərindən faydalanmaq, stres, narahatlıq və digər bu kimi problemlərlə mübarizə aparmaq bacarığı, həmçinin onun zehni qabiliyyətlərinə təsir edən, stres və narahatlıq ilə mübarizə aparmasına mane olan hər hansı bir pozğunluğun və xəstəliyin olmadığı vəziyyətdir.

Sosial sağlamlıq isə insanın cəmiyyətin digər üzvləri ilə qarşılıqlı-normal münasibət qura bilməsidir. Sağlam həyat tərzi - başqalarının sağlamlığına zərər vurmadan öz qayğısına yönəldilmiş fəaliyyətlər kompleksidir. Sağlam həyat tərzi bildiyimiz bir çox sadə qaydalara əməl edilməsini nəzərdə tutur: fiziki fəallıq, gigiyena qaydalarının gözlənilməsi, səmərəli qidalanma, orqanizmin möhkəmləndirilməsi, normal yuxu, əmək və istirahətin düzgün tənzimlənməsi, sinir sisteminin hər növ streslərdən qorunması, zərərli vərdişlərdən çəkinmək və s.

Hazırda ölkəmizdə quruculuq işləri, infrastruktur layihələri və davamlı inkişafın təmin olunması istiqamətində önəmli işlər görülür. Həmin işlərin uğurlu davamını yetişməkdə olan gənc nəsil reallaşdıracaq. Odur ki, onların savadlı, intellektual, geniş elmi dünyagörüşə malik, fiziki və mənəvi cəhətdən sağlam böyümələri son dərəcə vacib bir məsələdir.

Tədqiqatlar bir çox pis vərdişlərin növlərini diqqətə çatdırır. Onların bəzilərinin kökləri qədim zamanlardan gəlib, bəziləri isə müasir dövrün fəsadlarıdır. Pis vərdişlərin siyahısı böyükdür. Daha təhlükəli pis vərdişlərə alkoqo-

lizm, tütündən istifadə, narkomaniya aid edilir. Bununla yanaşı düzgün qidalanmama, oturaq həyat tərzi, telefon, internet, qumar asılılığı, dırnaqların çeynənilməsi, burunun eşələnməsi, ictimai yerlərdə barmaqların şaqqıldadılması, düzgün oturmamaq, səs-küylü söhbət, söyüş söymək, yalan danışmaq, ayaqların əsdirilmsi və s. də pis vərdişlərə aid edilir.

Sadalanan bu pis vərdişlərin hər biri müxtəlif dərəcədə təhlükəlidir. Zərərli vərdişlər təkcə insanın özü üçün deyil, onu əhatə edən insanlara da narahatçılıq, təhlükə yaradır. Zərərli vərdişlərin təhlükəliliyi məktəbli orqanizminə, psixikasına, onun sosial həyat tərzinə və cəmiyyətə vurduğu ziyanla bağlıdır. Pis vərdişlər insanın erkən əlliliyinə və qəfil ölümlə nəticələnən xəstəliklərin yaranmasına və inkişafına səbəb ola bilir. Həmçinin, pis vərdişlər vaxtından əvvəl qocalmağa, təfəkkür pozğunluğuna, motivasiyanın aşağı düşməsinə, normal ünsiyyət qurmağa, sağlam həyat tərzinin pozulmasına, hətta cinayətlərin baş verməsinə belə səbəb ola bilir.

Pis vərdişlərin yaranma səbəbləri hansılardır? Bu şəxsə görə dəyişə bilir. Ailə, dostlar çevrəsi, sinif yoldaşları, küçə mühiti də daxil olmaqla ətrafımızda olan insanlar, hadisələr pis vərdişlərə güclü təsir göstərə bilir. Zərərli vərdişlərin formalaşmasında digər faktorlar da iştirak edə bilər. Məsələn, erkən yaşlarda yaşanmış psixi və fiziki travmalar, yaş və qlobal böhranlar, məyusluq, reallaşmayan istəklər, tənbəllik, şəxsi həyatındakı maddi sıxıntılar, yaşadığı cəmiyyətin və tanıdığı insanların ondan üstün olan yaşam səviyyəsi və s.

Zərərli vərdişlərdən tamamilə xilas olmaq həddən artıq çətin, lakin, mümkünsüz deyildir. Bunun üçün onun yaranma səbəblərini müəyyənləşdirmək, fəsadlarını dərk etmək və doğru metodlardan istifadə etmək önəmlidir.

Bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də məktəblilər arasında zərərli vərdişlər əvvəlki dövrlərdən fərqli olaraq daha çox artmışdır. Maraqlıdır ki, baş verən bu artım xüsusilə uşaq və yeniyetmələr arasında özünü daha çox göstərir. Aparılan çox saylı araşdırmalardan məlum olur ki, uşaqların zərərli vərdişlərə yiyələnməsinin əsas səbəbini onların ailələrində axtarmaq lazımdır. Daha sonra isə ətraf mühit, həmyaşıdlar dairəsi, müəyyən dərəcədə iqtisadi amillər gəlir. Məhz buna görə də məktəblilər arasında zərərli vərdişlərin qarşısının alınmasında əsas məsuliyyət ailənin üzərinə düşür. Bu baxımdan da ailələrin təhsil və məlumatlılıq səviyyəsi artırılmalı və ailələrdə olan iqtisadi problemlər mümkün qədər aradan qaldırılmalıdır. Ailə mühitində ehtiyacı olan xoş münasibətləri tapa bilməyən məktəbli bu tələbatlarını ödəmək üçün istədiklərini ailədən kənarda axtarmağa başlıyır. Kiçik yaşlı məktəblilərin əqli, fiziki və mənəvi baxımdan yetərincə inkişaf edib formalaşmadığını nəzərə alsaq onların hər birinin mənəvi yardıma, qayğıya, sevgiyə və dəstəyə ehtiyacı olduğunun şahidi ola bilərik. Sevgidə yetərsizlik, ailədaxili münasibətlərdə olan çatışmazlıqlar, dağılmış ailə problemləri və ailədəki pis nümunələr və s. problemlər kiçik yaşlı məktəbliləri zərərli vərdişlərə sövq edən əsas amillərr sırasındadır.

Kiçik yaşlı məktəblilər arasında ən çox rastlanan zərərli vərdişlərə aşağıdakıları aid etmək olar: ictimai yerlərdə barmaqlarını gəmirmək, burnunu eşələmək, ayaqlarını yelləmək, barmaqlarını şaqqıldatmaq, yüksək səslə söhbət etmək, kobud söyüşlər söymək, gecikmək, yalan danışmaq, həddən artıq çox yemək, düzgün oturmamaq, televiziya, planşet, telefondan həddən çox istifadə etmək və s.

Dırnaqları çeynəmək kiçik məktəb yaşlı şagirdlər arasında tez-tez rast gəlinən pis vərdişlərdəndir. Bu vərdişin yaranma səbəbini şüurlu olaraqdan stressə qədər üzə çıxaran bir çox nəzəriyyələr vardır. Ən çox yayılmış nəzəriyyələrdən biri, bunun stresslə bağlı olduğunu göstərir. Kiçik yaşlı məktəblilər rahatlamaq üçün, daha yaxşı düşünmək üçün, əsəbi olanda dırnaqlarını ağızlarına alaraq çeynəyirlər.

Qədim zamanlarda bu pis vərdişin qarşısını almaq üçün barmaqların və dırnaqların uclarına qırmızı acı bibər sürtərmişlər. Bu metod o qədər də effektli bir metod deyildir. Çünki bu cür "dərmanlar" sayəsində ağız qıcıqlana bilər. Müasir dövrdə bu problemi həll etmək üçün xüsusi rəngsiz lakdan istifadə edilir.

Barmaqların şaqqıldadılması da kiçik yaşlı məktəblilər arasında tez-tez rast gəlinən pis vərdişlər sırasındadır. Barmaqların şaqqıldadılması yalnız ətrafdakı insanları qıcıqlandırmır, həm də oynaqları zədələyir. Bu vərdiş uşaqlıqdan başlayır. Uşaqlar tez-tez kimin oynaqlarını daha yaxşı və daha yüksək səslə şaqqıllada biləcəyini görmək üçün bir-biri ilə yarışırlar. Lakin uşaqlıq keçir, pis vərdişlər isə qalır. Yalnız iradənin köməyi ilə uşaq bu pis vərdişdən xilas ola bilər.

Son dövrlər istər böyüklər, istərsə də məktəblilər arasında geniş yayılan shopaholizm-(Oniomaniya və ya shopaholizm, zərurət və nəticələrə əhəmiyyət vermədən bir şey almaq üçün qarşısıalınmaz bir istək)pis vərdişlər sırasında yer alır. Bu pis vərdiş nəticəsində uşaqlar alış-verişi istirahətə, əyləncəyə çevirirlər. Şopaholizmin ən çox qadınlarda rastlandığı deyilsə də son vaxtlar bu pis vərdiş məktəblilər arasında da çox yayılmışdır. Onunla mübarizə aparmaq üçün valideynlər mağazaya gedərkən uşaqlarla birlikdə zəruri alış-verişlərin siyahısını tərtib etməli və heç bir halda ondan yayınmayacaqlarını bilməlidirlər. Shopaholizmlə mübarizənin digər effektiv yolu bütün qəbzləri saxlamaq və həftənin sonunda xərcləri uşaqlarla birlikdə hesablamaqdır. Kiçik yaşlardan uşaqlara başa salınmalıdır ki, ehtiyac olmayan şeyləri almaq düzgün deyildir. Başqalarını heyran etmək, acıq vermək üçün pul xərcləməyə dəyməz.

Həddindən artıq yemək bu gün məktəblilər arasında sürətlə yayılan pis vərdişlərdəndir. Həddindən artıq yemək sıxıntıya və artıq çəkiyə səbəb olan bir xəstəlikdir. Düzgün qidalardan istifa etməmək və həddindən artıq yemək həm psixoloji, həm də fizioloji amilləri birləşdirən mürəkkəb problemdir. Dietoloqlar bu pis vərdişlə mübarizə aparmaq üçün gündə 4-6 dəfə müntəzəm yemək, yeməkdən əvvəl bir stəkan adi su içməyi, heç vaxt yeməklə su içməyi eyni vaxtda etməməyi, yemək yeyərkən televizora baxmamağı məsləhət görürlər.

İbtidai sinif şagirdlərinin düzgün qidalanma ilə bağlı təsəvvürləri natamamdır. Həddən artıq yemək – piylənmə riskini yüksəkdir və mədədə artan yük mədə-bağırsaq xəstəliklərinə səbəb ola bilir. Düzgün qidalanma sağlamlığın və rifahın qorunmasının əsasıdır. Vitamin və minerallarla zəngin qidaların qəbulu sağlam həyat tərzi keçirməyə və müxtəlif xəstəliklərin qarşısını almağa kömək edir. Düzgün qidalanma həm də orqanların daha yaxşı işləməsinə kömək edir.

Yuxusuzluq "zərərsiz" bir vərdiş kimi görünsə də əslində uşağın fəallığını, hərəkətliliyini əlindən alan, həyatı qısaldan pis vərdişlərdən biridir. Daim dəyişən, inkişaf edən, əyləncələrlə dolu həyat tərzi, müasir texnologiyalardan səmərəsiz istifadə uşaqların az yatmasına səbəb olur. Yuxu həyati bir ehtiyac olsa da, onun azalması və ya yetərincə olmaması çox ciddi fəsadlara səbəb ola bilir. Bütün bunların qarşısının alınması üçün məktəbli vaxtında və yetəri qədər yatmalıdır.

Kiçik yaşlı məktəblilərin onurğa sütununu dik saxlayaraq düzgün oturması ən gözəl vərdişlərdən biridir. Uşaqlar duruşun sağlamlıq üçün o qədər də vacib olmadığına inanır. Lakin onlar unudur ki, duruşumuz yalnız sağlamlığın açarı deyil, həm də gözəllikdir. Onlar bilməlidir ki, bədəndəki ciddi problemlər onurğada yaranan bir pozuntu ilə başlayır. Uşaqlıqdan düzgün oturuşun öyrədilməsi onurğa sütunu pozğunluqlarının qarşısını almaq üçün əsas profilaktik tədbirdir. Kiçik yaşlı məktəblilər parta arxasında əyilmiş vəziyyətdə oturur və ya uzanaraq ev tapşırığı edirlər. Bu, bədənin yorğunluğuna, hipertoniya, qastrit, mədə xorası, piylənmə və skolyoz kimi ən çox görünən xəstəliklərə səbəb olur.

"Söyüş" vərdişini uşaq birinci sinfə getməzdən çox əvvəl öyrənir və bunun nalayiq olduğunu anlayana qədər söyüş söyməyə davam edir. Yeniyetməlik dövründə isə uşaq özünü yetkin və müstəqil göstərmək üçün tez-tez söyüş söyür. Vəziyyəti düzəltmək üçün ata-ana və doğmaların üzərinə böyük məsuliyyət düşür. Onlar çalışmalıdır ki, söyüş və kobud sözlərdən istifadə etməsinlər . Uşaq hər dəfə söyüş və kobud sözlərdən istifadə edərsə ona izah edilməlidir ki, bu nəzakətsizlikdir.

Televiziya asılılığı. Televiziya real dünyadan xəyallar aləminə qaçmağın ən geniş yayılmış yoludur. İndi hər bir evdə televizor var. İnternet bağlantısı olmayan evlərdə uşaqlar daha çox televiziya verlişlərinə baxır. Statistikaya görə, orta hesabla hər bir insan gündə təxminən 3 saat televizor qarşısında vaxt keçirir. Bu, onların boş vaxtının təxminən yarısı və ömürdən atılan 9 il deməkdir. Televiziya və kompüter aludəçiliyi uşaqların görmə qabiliyyətini zəiflədir, onurğa sütununu əyir, anemiya (qanın oksigen daşıma qabiliyyətinin azalması), həzm və artıq çəki problemi yaradır. Onların tez-tez başları ağrıyır, yorğunluq nəticəsində dərsdən yayınır və zəif akademik performans nümayiş etdirirlər. Bu vəziyyətdən həyat tərzində dəyişiklik, idmanla məşğul olmaq, valideyn və həmyaşıdlarla təmiz havada müntəzəm gəzintilər, birgə aktiv istirahət çıxış yolu ola bilər.

İnternet asılılığı. Müasir dövrdə insanlar, o cümlədən kiçik yaşlı məktəblilər arasında ən çox rast gəlinən neqativ hallardan biridir. İnternet asılılığı psixi pozğunluqdur, internetdən vaxtında imtina edə bilməməkdir. Mütəxəssislərin fikrincə, həddindən artıq internetə bağlanmaq

depressiyaya gətirib çıxarır. İnternetdə çox vaxt keçirən uşaqlar dərslərinə fokslana bilmir, pis əhval-ruhiyyəyə meylli, aqressiv olur və daha tez-tez özlərini bədbəxt hiss edirlər.

Həyatımızı telefon, kompüter və internetsiz təsəvvür etmək bu gün mümkünsüz görünür. İndi hamımız ünsiyyəti daha çox telefonla qurur, sosial şəbəkələrdəki nəşrlərə baxır, internetdən xəbərləri öyrənirik. Əgər əvvəllər uşaqlıq həyətdəki oyunlarla bağlı idisə, indi kompüter aludəliyi geniş vüsət alır.

Qadjetlərin (əldə gəzdirilə bilən orijinal, qeyri-standart texniki qurğular) uşaqlara mənfi təsirini araşdıran alimlərin fikrincə uşaq və yeniyetmələrin sağlamlığına ən çox zərər verən smartfonlar, noutbuklar və planşetlərdir. Ekran qarşısında çox vaxt keçirən uşaqlarda yuxu pozğunluğuna tez-tez rast gəlinir. Buna təkcə ekranlı qurğulardan istifadə zamanı deyil, hətta yataq otağında həmin qurğuların olması da kifayətdir. Məktəbli yatmazdan əvvəl zorakılıq elementləri ilə müşayiət olunan səhnələrə baxarsa bu onda narahatçılıq və yuxusuzluq problemi yarada bilir. Mütəxəssislərin rəyinə görə yatmazdan bir saat əvvəl uşağa mobil telefonlardan istifadə qadağan edilməli, otaqdakı bütün elektron qurğular söndürülməli, uşaq yatan otaqda heç bir qadjet saxlanılmamalıdır. Gadget asılılığının üç növü var: oyun, onlayn sörfinq və internet asılılığı. İnternetdən istifadə çox faydalıdır. Ancaq kiçik yaşlı məktəblinin sadəcə ekran qurğuları qarşısında səmərəsiz vaxt keçirməsi zərərli vərdişlərdəndir.

Məktəblilərin siqaret çəkmək, spirtli və energetik içkilər, narkotik qəbul etmək vərdişi valideynlər üçün ən qorxulu və narahat edən pis vərdişlərdəndir. Bunlar kiçik yaşlı məktəblilər arasında geniş yayılmamışdır. Lakin qloballaşan dünyada bu, məktəblilər arasında da geniş yayılır və uşaqlar tez-tez məktəbəqədər və kiçik məktəb yaş dövrlərindən bu pis vərdişlərə cəlb olunurlar. Bəzən sadə bir maraq, "hər şeyi sınamaq" istəyi sonda faciəli nəticələrə gətirib çıxarır.

Uşaqlarda pis vərdişlərin yaranması səbəblərindən biri, bəlkə də birincisi valideynlər, qohumlar, dostlar tərəfindən uşağa diqqətin yetəri qədər ayrılmamasıdır. Başqa səbəblər də ola bilər: uşağın başqalarının diqqətini özünə cəlb etmək istəyi; psixoloji və ya fiziki problemlər; darıxmaqdan qurtulmaq və ya sakitləşmək üçün; uşağın xarakter xüsusiyyətləri və uşaqlıqda ona göstərilən düzgün olmayan tərbiyə üsulları; böyüklərin yanlış nümunəsi və s.

Əgər uşaqda artıq pis vərdiş formalaşıbsa və bu, davamlı xarakter alıbsa, o zaman valideynlər bilməlidir ki, onlar uşaqla deyil, pis vərdişlərlə mübarizə aparmalıdırlar. Bu isə mütəxəssis, valideyn və uşağın özünün istək və əməyi ilə mümkündür.

Uşaqlar pis vərdişlərin mahiyyətini başa düşürlər, lakin həmişə onların təhlükəsini görmürlər. Zərərli vərdişlərin qarşısını almağın ən mühüm yolu uşağa etibarlı münasibətdir. Bu, məktəbliyə lazım olduqda kömək üçün valideynlərinə müraciət etməyə imkan verir. Valideynlər yeniyetmənin həmyaşıdları arasında davranışından xəbərdar olmaq üçün müəllimlərlə əlaqə saxlamalıdırlar. Onlar övladlarının problemlərini dəstəkləməyə, həll və kömək etməyə borcludurlar. Sonda bu qənaətə gələ bilərik ki, əgər uşağın həyatda əldə etdiyi təcrübə düzgün qaynaqlara əsaslanarsa, onun gələcək həyatı sığortalanmış olacaq.

Problemin aktuallığı. Kiçik yaşlı məktəblilərin fiziki və mənəvi cəhətdən sağlam böyümələri hər zaman olduğu kimi bu gün də öz aktuallığını qoruyur.

Problemin yeniliyi. Kiçik yaşlı məktəblilər arasında rastlanılan zərərli vərdişlər, onları yaradan səbəblər və onların aradan qaldırılması yolları diqqətə çatdırılır.

Problemin praktik əhəmiyyəti. Məqalə kiçik yaşlı məktəblilərin tərbiyəsi ilə məşğul olan valideyn və müəllimlər üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Tunçer P. Sağlıkhukuku. Temel bilgiler. 8-ci baskı. – Ankara: Adalet yayınevi, 2024. - 292 s.
2. Tağıyeva S. Uşaqlarımızı pis vərdişlərədən necə qoruyaq // Samirə Tağıyeva. İki sahil.- 07.IX.2021
3. Еременко Н.И.- Профилактика вредных привычек / Н.И. Еременко -М.: Панорама, 2012 -148 с.
4. Шилова М.А. Профилактика алкогольной и наркотической зависимости у подростков в школе / М.А. Шилова. – М.: Айрес – Пресс, 2012 – 296 с.

Redaksiyaya daxil olub: 16.10.2025

UOT 372.3/.4

Röyya Həmid qızı İsmayılova
Sumqayıt Dövlət Universitetinin
Pedaqogika və psixologiya kafedrasının müəllimi
https://orcid.org/0000-0001-6090-1124
E-mail: cafarli84@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).135-138

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ MƏSULİYYƏT HİSSİNİN FORMALAŞMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

Royya Hamıd Ismayılova
lecturer of the department of Pedagogy and psychology of
Sumgait State University

PEDAGOGICAL CONDITIONS FOR THE FORMATION OF A SENSE OF RESPONSIBILITY IN PRIMARY SCHOOL STUDENTS

Ройя Гамид гызы Исмаилова
преподаватель кафедры Педагогики
и психологии Сумгаитского Государственного Университета

ПЕДАГОГИЧЕСКИЕ УСЛОВИЯ ФОРМИРОВАНИЯ ЧУВСТВА ОТВЕТСТВЕННОСТИ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

Xülasə. Elmi məqalədə kiçik yaşlı məktəblilərdə məsuliyyət hissinin pedaqoji şərtləri və formalaşmasının metodları nəzərdən keçirilir. Kiçik məktəb yaşı dövründə uşaqların mənəvi inkişafının təşəkkülü məsələləri, təlim prosesində məsuliyyət hissinin formalaşması yolları araşdırılır. Müəllim qeyd edir ki, məsuliyyət hissi həyatda uğur qazanmağa və sinifdə nüfuza nail olmağa çalışan hər bir şagird üçün zəruri olan keyfiyyətdir.
Açar sözlər: *kiçik yaşlı məktəbli, məsuliyyət hissi, pedaqoji şərtlər, formalaşma metodları, mənəvi inkişaf*

Abstract. The scientific article examines the pedagogical conditions and methods of developing a sense of responsibility in primary school students. The issues of developing moral development in children of primary school age, and ways of developing a sense of responsibility in the learning process are examined. The teacher notes that a sense of responsibility is a necessary quality for every student striving for success in life and achieving authority in the classroom.
Key words: *primary school student, sense of responsibility, pedagogical conditions, methods of formation, moral development*

Аннотация. В научной статье рассматриваются педагогические условия и методы формирования чувства ответственности у младших школьников. Исследованы вопросы формирования нравственного развития детей в младшем школьном возрасте, пути формирования чувства ответственности в процессе обучения. Учитель отмечает, что чувство ответственности – необходимое качество для каждого ученика, стремящегося к успеху в жизни и достижению авторитета в классе.
Ключевые слова: *школьник младшего возраста, чувство ответственности, педагогические условия, методы формирования, нравственное развитие*

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin inkişafı müəllimlərin işində xüsusi yer tutur. Lakin hazırda ibtidai sinif şagirdlərində məsuliyyət hissinin səmərəli inkişafı üçün xüsusi pedaqoji şəraitin yaradılması ilə bağlı məsələlər kifayət qədər işlənib hazırlanmamışdır. Məsuliyyəti inkişaf etdirmək vəzifəsi müəllimlərin cəmiyyətin sosial zəruri tələblərini: hər bir uşağın şəxsiyyəti üçün vəzifə, şərəf, vicdan, ləyaqət və məsuliyyət kimi daxili stimullara çevirməsini təmin etməkdir. İbtidai məktəbin sonunda şagirdlərin davranışlarına, təhsil fəaliyyətlərinə

münasibətinə, müxtəlif tədris tapşırıqlarının yerinə yetirilməsinə daha çox diqqət yetirilir.

Məsuliyyət insanın əxlaqi keyfiyyətlərindən biridir. Geniş mənada görülən işlərə görə cavabdeh olmaq, əldən verilmiş işin əvəzini ödəmək və səhv yerinə yetirilən işlərə görə cəzalanmaqdır (1).

Məsuliyyət insanın əsas və ən mürəkkəb keyfiyyətlərindən biridir. Alimlər insanın emosional, əxlaqi və ideoloji cəhətləri ilə sıx əlaqədə olduğuna görə onu ən yüksək səviyyəli keyfiyyət adlandırırlar. Məsuliyyət yalnız xarakterdə deyil, həm də hisslərdə, qavrayışda, şüurda, yəni fərdi davranışın müxtəlif formalarında təzahür edir.

Məsuliyyətin formalaşması hazırda bir neçə səbəbə görə aktualdır. Onlardan biri bu məsələnin həlli üçün optimal dövrlə bağlıdır: məhz ibtidai məktəb yaşında uşağın psixikası öyrənməyə və ya təhsilə çox həssasdır. Bu, bioloji yetkinlik, yəni beynin funksional yetkinləşməsi ilə bağlıdır. Bu fenomen müvəqqətidir. Hər hansı bir funksiya yetkinliyə çatan kimi sosial təsirə qarşı həssas olur, yəni inkişafın optimal dövrünə gecikmiş öyrənmə və ya təhsil səmərəsiz olur.

Həyat təcrübəmizdən bilirik ki, böyüyən uşağı yenidən tərbiyə etmək ona erkən uşaqlıqdan düzgün tərbiyə verməkdən qat-qat çətindir. Yeniyetmələr öz çatışmazlıqlarını dərk etsələr belə onları arasan qaldırmaqda çətinlik çəkirlər. İkinci səbəb məsuliyyət hissi ilə şagirdin akademik göstəriciləri arasında sıx əlaqənin olmasıdır. Dərslərinə məsuliyyətlə yanaşan uşaqlar daha böyük nəticələr əldə edirlər. Alimlərin araşdırmaları göstərmişdir ki, məsuliyyətli şagirdlərin fəaliyyətində uğura can atmaq motivi, təhsilində müəyyən nəticələr əldə etmək istəyi üstünlük təşkil edir.

S.Y. Layzanenin apardığı tədqiqatlar göstərdi ki, iradi keyfiyyətlər, o cümlədən məsuliyyət hissi ibtidai məktəb yaş dövründə, ilk növbədə, oyun fəaliyyətində, əmək fəaliyyətində, daha sonra şagirdin təhsil və digər fəaliyyətlərində onun mövqeyi formalaşır (2, s.64).

Emosiyalar məsuliyyətin formalaşmasında mühüm rol oynayır. Sinifdənkənar fəaliyyətlərdə şagirdlərlə "Ailə", "Peşələr" mövzusunda söhbətlər təşkil edilə bilər. Şagirdlər ailə üzvlərinin bir-birlərinə münasibətini, həmçinin müxtəlif peşə nümayəndələrinin gördükləri işə münasibətini təhlil edərək vəzifə, borc, məsuliyyət anlayışlarının xüsusiyyətlərini dərk etmiş, məsuliyyətli və məsuliyyətsiz davranış nümunələri göstərmişlər. Bu mövzuda söhbətlərin təşkili bizə onlardan belə bir keyfiyyəti məsuliyyət kimi dəyərləndirməyin nə üçün zəruri olduğu barədə cavablar almağa kömək etdi.

Bütün valideynlər övladlarına sözləri və hərəkətləri üçün məsuliyyət daşımağı öyrətmək arzusundadırlar. Bir çox ailələr hesab edir ki, problemin həlli uşaqlar üçün daimi vəzifələrin qurulmasıdır. Hesab olunur ki, zibilləri daşımaq oğlanlara, qabları yumaq, otaqları təmizləmək qızlara tapşırılmalıdır. Lakin bu cür vəzifələr ibtidai sinif şagirdlərində məsuliyyət hissinin inkişafına təsir göstərə bilməz. Əksinə, bəzi ailələrdə uşaqları bu vəzifələri yerinə yetirməyə məcbur etmək daimi mübahisələrə gətirib çıxarır ki, bu da onlara mənfi təsir göstərir.

Həqiqət isə çox sadədir: məsuliyyət hissi məcburən uşağa aşılanmamalıdır, o, evdə, eləcə də ailədən kənarda alınan dəyər oriyentasiyasına əsaslanaraq daxildən özünü göstərməlidir. Uşaqlarda məsuliyyətin inkişafı üçün ən vacib olan ibtidai məktəb yaşıdır, çünki bu dövrdə cəmiyyətin gələcək üzvləri kimi uşaqların şəxsiyyətinin ən mühüm keyfiyyətləri formalaşır. Kiçik məktəb yaşı dövründə ibtidai sinif şagirdlərində məsuliyyətin məqsədyönlü inkişafı özünü təzahür etdirir. Belə ki, şagirdlər onlara tapşırılan tapşırığın yerinə yetirilməsinin vacibliyini dərk etməyə, həmin tapşırığın başqaları üçün də əhəmiyyətini başa düşməyə, həmçinin tapşırığı yerinə yetirərkən öz hərəkətlərini, davranışlarını təşkil etməyə (vaxtında başlayır, çətinlikləri aradan qaldırmağa çalışır, tapşırığı sona çatdırır və s.), tapşırığa, onun icra keyfiyyətinə emosional münasibət nümayiş etdirməyə, verilmiş tapşırığın icrasına cavabdeh olmaq zərurətini dərk etməyə qadirdirlər.

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi məsələsində əsas məqam böyüklərin özlərinə qarşı tələbkarlığıdır. Məsuliyyət hissi anadangəlmə keyfiyyət deyil, o, həyat tərzi, böyüklərin örnəkləri ilə tərbiyə edilir. Böyüklərin hərəkətləri uşaqlara gözəl sözlərdən daha çox təsir edir. Ona görə də, valideyn və müəllimlərin nüfuzu onlarda məsuliyyət hissinin formalaşmasında ən mühüm şərtlərdəndir. Təhsil prosesinin humanist istiqaməti azad şəxsiyyətin tərbiyəsinə əsaslanır. Bu hiss insana ətrafdakı reallığın şərtlərinə uyğunlaşmağa kömək

edir. Məsuliyyət insanın üzərinə götürdüyü öhdəliklərə görə cavab vermək qabiliyyəti kimi başa düşülür. Praktik situasiyalarda söhbət vəziyyətdən asılı olmayaraq bir insanın problemi həll etmək üçün hər şeyi etməyə çalışmasından, hər bir hərəkətinə tam cavabdeh olmasından və başladığı bir işi sona çatdırmaq istəyindən gedir.

Tərbiyə prosesinin humanistləşdirilməsi fəal həyat mövqeyinə malik insan yetişdirmək məqsədi daşıyır, bu baxımdan məsuliyyət hissi fərdin aktiv həyat mövqeyinə malik olmasını göstərən şəxsi keyfiyyətlərdən biridir. Formalaşmış məsuliyyət hissi ibtidai sinif şagirdinin özünəinamının mövcudluğunu, qarşıya məqsəd qoymaq və onları həll etmək bacarığını göstərir. Məsuliyyət hissi həyatda uğur qazanmağa və sinifdə nüfuza nail olmağa çalışan hər bir şagird üçün zəruri olan keyfiyyətdir. Məsuliyyət hissi şəxsiyyətin xassəsi olub birgə fəaliyyət zamanı formalaşır və o, şagirdin sosial dəyərləri, norma və qaydaları dərk etməsinin nəticəsidir. Məsuliyyət göstəricilərinə aşağıdakıları aid etmək olar:

– başqaları üçün vacib olan tapşırıqların yerinə yetirilməsinin vacibliyini dərk etmək;

– fərdin tapşırıqların səmərəli yerinə yetirilməsinə, onların məntiqi nəticəyə çatdırılmasına diqqət yetirmək;

– emosional komponentin daxil edilməsi, tapşırığın yerinə yetirilməsi prosesi və onun nəticəsi barədə narahat olmaq;

– verilən tapşırığın yerinə yetirilməsi üçün məsuliyyət daşımağın vacibliyini dərk etmək.

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesi erkən məktəbəqədər uşaqlıq dövründən başlayır və şübhəsiz ki, məktəb təhsili prosesində də davam etməlidirlər. Müəllimlərin qarşısında duran ən mühüm vəzifə məktəb şəraitində həm dərslərdə, həm də dərsdənkənar tədbirlərdə şagirdlərdə məsuliyyət hissini inkişaf etdirməkdir. Qeyd etmək lazımdır ki, bu proses ailədə məsuliyyətin inkişafı ilə sıx bağlı olmalıdır. Məsuliyyət hissinin formalaşması prosesi təhsilə kompleks yanaşma, məktəblilər, müəllimlər, valideynlər, sinif rəhbərləri arasında dərs və dərsdənkənar fəaliyyət zamanı qarşılıqlı əlaqə, habelə ailədə uşaqda məsuliyyətin inkişafına münasibətin dəyişməsi ilə təmin edilə bilər. İbtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesini şərti olaraq üç sahəyə bölmək olar:

– dərslərdə tərbiyəvi komponent, kurikulumun fənlərinin öyrənilməsi prosesi;

– sinifdənkənar fəaliyyətlərdə məsuliyyətin inkişafı;

– uşaqlarda məsuliyyət hissini inkişaf etdirmək məsələlərində valideynlər üçün məsləhət işinin təşkili.

İbtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesində üç mərhələni ayırd etmək olar: *birinci mərhələdə* şagirdlər böyüklərin köməkçisi olurlar. İlk dəfə hansısa tapşırığı öhdəsinə götürəndə onlar çox narahatçılıq hissi keçirirlər: uğur qazanacaqlarmı, yaxşı iş görəcəklərmi, təriflənəcəklərmi?

Buna görə də, bu mərhələdə şagirdlər mümkün qədər tez-tez təsdiq və tərif eşitməlidirlər. Təklif olunan tapşırıqların uşaqlar üçün mümkün olması və onların real imkanlarına uyğun olması vacibdir. *İkinci mərhələdə* şagirdlərə xatırlatma və nəzarət lazımdır. Ancaq bunu sakit, mehriban, təzyiq olmadan etmək lazımdır. *Üçüncü mərhələdə* şagirdlər artıq tapşırığı müstəqil şəkildə yerinə yetirir, ona artıq xatırlatma və nəzarət lazım deyil, o, necə və nə etməli olduğunu aydın bilirlər. Məsuliyyət hissi fərdin emosional, əxlaqi və ideoloji aspektləri ilə sıx bağlıdır.

Məsuliyyət hissinin formalaşması prosesində diqqət yetirmək lazımdır ki, şagird ona verilən tapşırığı yerinə yetirməkdə emosional maraq duysun, həyata keçirdiyi fəaliyyətin təkcə özü üçün deyil, digər insanlar üçün də əhəmiyyətini hiss etsin. Onu da vurğulamaq lazımdır ki, şagirdlərdə yetkinlik dövründə formalaşan məsuliyyət hissi düzgün qərarlar qəbul etməyə, fəal həyat mövqeyi tutmağa, cəsarətli ideyaların və həyat mövqeyinin həyata keçirilməsinə kömək edir.

Pedaqoji sistem yalnız müəyyən şərtlər yerinə yetirildikdə uğurla fəaliyyət göstərə və inkişaf edə bilər. Pedaqoji şərtlərin spesifik xüsusiyyəti ondan ibarətdir ki, o, təlim və tərbiyə prosesinin bütün komponentlərinin elementlərini: məqsədləri, məzmunu, metodları, formaları və vasitələrini ehtiva edir. Pedaqoji şərtlər dedikdə, pedaqoji fəaliyyətin səmərəliliyini artırmaq məqsədi daşıyan tədbirlər kompleksi başa düşülür [3].

N.M. Borıtko pedaqoji prosesə təsir göstərən və müəyyən nəticə əldə etməli olan pedaqoji şərt qismində xarici şəraiti müəyyən edir [4]. Alim pedaqoji şərtlərin zəruriliyini qeyd edərək diqqəti əldə olunan nəticələrin əhəmiyyətinə

yönəldir. Pedaqoji şərtlərin qeyri-müəyyən müəyyən edilməsi, düzgün tərtib edilməmiş pedaqoji şərtlər olması halında, pedaqoji fəaliyyətin özündən səmərəli nəticələr gözləmək lazım deyil. Pedaqoji şərtlər müəyyən didaktik məqsədlərə nail olmaq üçün məzmun elementlərinin, metodlarının və təlimin təşkilati formalarının tərtibi və tətbiqinin məqsədyönlü seçilməsinin nəticəsi olan təlim prosesinin şəraitidir.

Nəzəri araşdırmaları nəzərə alaraq deyə bilərik ki, pedaqoji şərtlər dedikdə, müəyyən məqsədlərə nail olmağa yönəlmiş tədbirlər məcmusu başa düşülür. Pedaqoji prosesin planlaşdırılması prosesində qarşıya qoyulan məqsədlərin aydınlığı zəruri nəticələrin əldə olunmasını müəyyən etməlidir. İbtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi problemləri üzərində işləyərkən onların yaş və psixoloji xüsusiyyətlərini nəzərə almaq lazımdır ki, bu da şagirdlərdə məsuliyyət hissinin tərbiyə olunmasının pedaqoji şərtlərindən biridir.

Öz peşə fəaliyyətinin nəticələri ilə maraqlanan ibtidai sinif müəllimi qeyd olunan xüsusiyyətləri daim nəzərə almalı, təlim prosesini şagird üçün daha emosional və maraqlı olmasına çalışmalıdır. İbtidai sinif şagirdlərində müstəqilliyin inkişaf etdirilməsi məsələlərini araşdıran alimlər hesab edirlər ki, müstəqil işi ayrıca pedaqoji metod və ya şagirdlərin fəaliyyətinin təşkili forması kimi müəyyən etmək olmaz. S.Q. Yarikova onu şagirdlərin fəal müstəqil idrak fəaliyyətinə cəlb etmək və onun məntiqi, psixoloji təşkili vasitəsi hesab edir (5).

Belə bir nəticəyə gələ bilərik ki, ibtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi prosesi aşağıdakı pedaqoji şərtlər yerinə yetirildikdə daha uğurlu olacaqdır: 1) ibtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi prosesində humanizm prinsiplərinə riayət edilməlidir; 2) bu yaş dövründə kiçik yaşlı məktəblilərin fərdi inkişaf və psixoloji xüsusiyyətlərini nəzərə alınmalıdır; 3) ənənəvi pedaqoji təsir üsullarından vaxtaşırı istifadə edilməlidir (iradi keyfiyyətlərin inkişafını stimullaşdırmaq üsulları, iradi davranış təcrübəsinin toplanması və formalaşdırılması üsulları, davranış qaydaları, məşqlər, təhsil vəziyyətləri); 4) ibtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşdırılması üçün dərslərdə müstəqil işlərdən istifadə edilməlidir.

Beləliklə, kiçik yaşlı məktəblilərdə məsuliyyət hissinin inkişafı prosesinin daha uğurlu olması üçün vurğulanan şərtlərlərdən kompleks şəkildə istifadə edilməlidir.

Problemin aktuallığı. Məqalədə ibtidai sinif şagirdlərində məsuliyyət hissinin formalaşması prosesində üç mərhələnin mühüm rolu və ibtidai sinif şagirdlərində məsuliyyət hissinin tərbiyəsi prosesində pedaqoji şərtlərin vacibliyi məqalənin aktuallığını göstərir.

Problemin elmi yeniliyi. Elmi məqalədə kiçik yaşlı məktəblilərdə məsuliyyət hissinin pedaqoji şərtləri və formalaşmasının metodları ardıcıllıqla araşdırılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Косова, В.В. Условия образования педагогических форм во внеурочной работе общеобразовательной школы: дис.канд.пед.наук. ─ Томск: ─ 2013.─ 204с.
2. Лайзане С.Я. Диагностика интеллектуального развития учащихся. –Рига: 2019. –86 с.
3. Иванова, И.Ю. Формирование коммуникативных навыков у перво- классников во внеурочной деятельности // Начальная школа. –2013. № 2.
4. Борытко Н.М. В пространстве воспитателиной деятельности. – Волгоград: 2001. –С.12.
5. Ярикова С. Г. Формирование ответственности у младших школьников: метод. рек. для студентов и учителей нач. кл. –Волгоград: 2016. –19 с.

Redaksiyaya daxil olub: 07.10.2025

UOT 372.3/.4

Təranə Mayıl qızı Əkbəri
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şamaxı filialının baş müəllimi,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9293-4561
E-mail:akbarietmp@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).139-142

İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ PROBLEM ƏSASLI ÖYRƏNMƏNİN ŞAGİRDLƏRİN TƏDQİQAT BACARIQLARININ, MƏNTİQİ TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİRİ

Tarana Mayil Akbari
senior lecturer of the Shamakhi branch of
Azerbaijan State Pedagogical University
doctor of philosophy in biology

INFLUENCE OF PROBLEM-BASED LEARNING IN "KNOWLEDGE OF THE WORLD" LESSONS IN PRIMARY SCHOOLS ON THE DEVELOPMENT OF RESEARCH SKILLS AND LOGICAL

Тарана Майил гызы Акбари
старший преподаватель Шамахинского филиала
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

ВЛИЯНИЕ ПРОБЛЕМНОГО ОБУЧЕНИЯ НА УРОКАХ «ПОЗНАНИЕ МИРА» В НАЧАЛЬНЫХ КЛАССАХ НА РАЗВИТИЕ ИССЛЕДОВАТЕЛЬСКИХ НАВЫКОВ И ЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ УЧАЩИХСЯ

Xülasə. Məqalədə ibtidai siniflərdə Həyat bilgisi fənninin tədrisində problem əsaslı öyrənmənin tətbiqi və onun şagirdlərin tədqiqat bacarıqlarının, məntiqi təfəkküründün inkişafına təsiri araşdırılır. Problem əsaslı öyrənmə modeli şagirdlərin fəallığını artırmaqla yanaşı, onları müstəqil düşünməyə, araşdırma aparmağa, faktları müqayisə etməyə və nəticə çıxarmağa istiqamətləndirir. Məqalədə bu metodun ibtidai siniflərdə tətbiqinin elmi-pedaqoji əsasları, müasir tədris texnologiyaları ilə əlaqəsi, həmçinin praktik əhəmiyyəti göstərilmişdir.
Açar sözlər: *Həyat bilgisi, problem əsaslı öyrənmə, ibtidai sinif, tədqiqat bacarıqları, məntiqi təfəkkür, şagirdyönlülük*

Abstract. The article examines the application of problem-based learning (PBL) in primary school "Life Skills" lessons and its impact on the development of students' research skills and logical thinking. The PBL model not only enhances students' activity but also directs them towards independent thinking, conducting investigations, comparing facts, and drawing conclusions. The paper highlights the scientific and pedagogical foundations of implementing this method, its connection with modern teaching technologies, as well as its practical significance.
Key words: *Life Skills, problem-based learning, primary school, research skills, logical thinking, student-centered approach*

Аннотация. В статье рассматривается применение проблемного обучения на уроках предмета «Познание мира» в начальных классах и его влияние на развитие исследовательских навыков и логического мышления учащихся. Модель проблемного обучения не только повышает активность школьников, но и направляет их на самостоятельное мышление, проведение исследований, сравнение фактов и формулирование выводов. В статье раскрыты научно-педагогические основы применения

данного метода, его связь с современными образовательными технологиями, а также практическая значимость.

Ключевые слова: *Познание мира, проблемное обучение, начальные классы, исследовательские навыки, логическое мышление, ориентированность на ученика*

Giriş. Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər ibtidai məktəb pilləsində tədrisin məzmununa və metodikasına yeni yanaşmaların tətbiqini zəruri edir. Təhsil prosesində şagirdlərin bilikləri yalnız mənimsəməsi deyil, həm də onları praktikada tətbiq edə bilməsi, tədqiqat bacarıqlarını inkişaf etdirməsi əsas vəzifələrdən biri hesab olunur. Bu baxımdan problem əsaslı öyrənmə (PƏÖ) müasir pedaqoji texnologiyalar arasında mühüm yer tutur.

Problem əsaslı öyrənmə modeli ilk dəfə XX əsrin ikinci yarısında xarici ölkələrin təhsil sistemlərində, xüsusilə tibb təhsili sahəsində tətbiq olunmağa başlamışdır (Barrows & Tamblyn, 1980). Sonrakı dövrlərdə bu yanaşma digər fənlərin tədrisində də geniş istifadə olunmuş, şagirdlərin müstəqil araşdırma aparmaq bacarıqlarını inkişaf etdirməyə xidmət etmişdir (Hmelo-Silver, 2004).

Azərbaycanda həyata keçirilən təhsil islahatları da şagirdyönlü tədris metodlarının tətbiqini prioritet istiqamət kimi müəyyən etmişdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunur ki, müasir dərslərdə şagirdlərin tənqidi, analitik və yaradıcı düşünmə bacarıqlarının inkişafı xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan ibtidai siniflərdə Həyat bilgisi fənninin tədrisində PƏÖ-nün tətbiqi həm şagirdlərin dünyagörüşünün formalaşmasına, həm də onların məntiqi təfəkkür və tədqiqat bacarıqlarının inkişafına şərait yaradır.

Tədqiqatlar göstərir ki, PƏÖ metodundan istifadə edən müəllimlər şagirdləri yalnız hazır biliklərlə təmin etmirlər, eyni zamanda onları problemləri dərk etməyə, suallar qoymağa və cavab axtarmağa yönəldirlər (Savery, 2006). Bu isə XXI əsr bacarıqları – yaradıcılıq, əməkdaşlıq, tənqidi düşünmə və kommunikasiya vərdişlərinin inkişafına mühüm töhfə verir.

Problem əsaslı öyrənmənin mahiyyəti və xüsusiyyətləri

Problem əsaslı öyrənmə müasir pedaqoji yanaşmalar arasında xüsusi yer tutur. Bu metodun əsasında biliklərin hazır şəkildə təqdim olunması deyil, problemli situasiyaların yaradılması və onların həlli prosesində öyrənmə dayanır. Şagirdlər qarşıya qoyulan problem üzərində işləyərkən tədqiqat aparır, fərziyyələr irəli sürür, faktları müqayisə edir və nəticələr çıxarırlar. Bu proses təfəkkürün fəallaşmasına, yaradıcılıq bacarıqlarının inkişafına və öyrənmənin daha dərin səviyyədə baş verməsinə imkan yaradır.

PƏÖ-nün nəzəri bazası konstruktivizm fəlsəfəsinə əsaslanır. Konstruktivist yanaşmaya görə, bilik şagirdlərə hazır şəkildə ötürülmür, onlar tərəfindən aktiv şəkildə qurulur. Vıqotskinin sosial-mədəni nəzəriyyəsi də bu metodun mahiyyətinə uyğun gəlir. Onun "yaxın inkişaf zonası" anlayışı göstərir ki, şagirdlər müəllimin və ya həmyaşıdlarının dəstəyi ilə mürəkkəb tapşırıqları müstəqil öyrənə bilirlər. Problem əsaslı öyrənmə də məhz bu prinsipə söykənir: müəllim istiqamətləndirici, şagird isə bilik qazanma prosesinin fəal iştirakçısı rolunda çıxış edir.

Problem əsaslı öyrənmə şagirdlərin qarşısına real həyatla bağlı situasiya qoyaraq onların müstəqil araşdırma və tədqiqat yolu ilə bilik əldə etməsini nəzərdə tutur. Bu metodda əsas məqsəd yalnız məlumat ötürmək deyil, öyrənənlərin düşünmə, analiz, müqayisə və nəticə çıxarma bacarıqlarını formalaşdırmaqdır (Barrows, 1996; Savery, 2006).

PƏÖ-nün xüsusiyyətləri sırasında şagirdin fəal mövqedə olması, müəllimin isə istiqamətverici və fasilitator rolu oynaması mühüm yer tutur (Hmelo-Silver, 2004; Prince & Felder, 2006). Şagirdlər problemi həll edərkən müxtəlif mənbələrdən istifadə edir, qrup müzakirələri aparır və nəticələri sinifdə təqdim edirlər (Duch, Groh, & Allen, 2001).

İbtidai siniflərdə Həyat bilgisi fənninin imkanları

İbtidai təhsildə Həyat bilgisi fənni şagirdlərdə ətraf aləmi dərk etmək, sosial münasibətləri öyrənmək və praktik bacarıqlar qazanmaq üçün geniş imkanlar yaradır, təbiət hadisələri, insan fəaliyyəti barədə biliklərini genişləndirir. Bu fənnin məzmunu şagirdlərin gündəlik həyatında qarşılaşdıqları situasiyalarla sıx bağlı olduğundan, PƏÖ yanaşması burada xüsusilə səmərəli olur.

Məsələn, "Təbiəti qoruyaq" mövzusunda şagirdlərə verilən problem sualı belə ola bilər: "Əgər məktəbin həyətində zibil çoxalıbsa, bu problemi necə həll etmək olar?" Bu sual onların

müşahidə, araşdırma və praktik həll yolları tapmaq bacarığını inkişaf etdirir (Hmelo-Silver et al., 2007).

Problem əsaslı öyrənmə şagirdlərin tədqiqat bacarıqlarını inkişaf etdirir (Hmelo-Silver, 2004). Şagirdlər problemin qoyuluşundan başlayaraq aşağıdakı fəaliyyətləri icra edirlər: suallar irəli sürmək, müşahidə aparmaq, fərziyyələr qurmaq, faktları müqayisə etmək və nəticə çıxarmaq (Savery, 2006). Bu fəaliyyətlərin hər biri tədqiqat prosesinin mərhələlərini əks etdirir və şagirdlərin tədqiqatçı rolunda çıxış etməsini stimullaşdırır, onların müstəqil öyrənmə və özünüidarə bacarıqlarını gücləndirir. Aparılan beynəlxalq araşdırmalara görə, ibtidai siniflərdə PƏÖ metodunun tətbiqi şagirdlərin marağını artırır, öyrənməni daha mənalı edir və onların sosial-emosional bacarıqlarının inkişafına müsbət təsir göstərir (Prince & Felder, 2006; Strobel & van Barneveld, 2009).

Müəllimlərin rolu və metodik tövsiyələr

Problem əsaslı öyrənmənin uğurlu tətbiqi birbaşa müəllimin peşəkarlığından və dərs prosesini düzgün qurmaq bacarığından asılıdır. Bu modeldə müəllim ənənəvi "bilik verən" deyil, şagirdlərə istiqamət göstərən, onları araşdırmaya yönəldən, lazımi resursları təqdim edən "bələdçi" rolunda çıxış edir (Hmelo-Silver, 2004; Duch, Groh, & Allen, 2001).

Müəllim aşağıdakı metodik tövsiyələrə əməl etməlidir:

- Problemli situasiya yaratmaq. Dərs mövzusu ilə bağlı real həyatdan götürülmüş problem təqdim olunmalı, şagirdlər düşünməyə sövq edilməlidir (Barrows, 1996; Savery, 2006).
- Qrup işindən istifadə. Şagirdlər qruplar şəklində işlədikdə əməkdaşlıq bacarıqları formalaşır və problemlərin həllinə müxtəlif yanaşmalar irəli sürülür (Prince & Felder, 2006; Strobel & van Barneveld, 2009).
- Müxtəlif mənbələrə yönləndirmək. Şagirdlər yalnız dərsliklə kifayətlənməməli, əlavə mənbələrdən, müşahidələrdən və eksperimentlərdən də istifadə etməlidirlər (Hmelo-Silver et al., 2007).
- Refleksiya mərhələsini təmin etmək. Problemin həllindən sonra şagirdlərin apardıqları araşdırmalar barədə fikir mübadiləsi aparması, nəticələri ümumiləşdirməsi vacibdir (Duch, Groh, & Allen, 2001).
- Texnologiyalardan istifadə. İnteraktiv tədris vasitələri, rəqəmsal platformalar, təqdimatlar şagirdlərin marağını artırır və onları araşdırmaya həvəsləndirir.

Dünyanın bir çox ölkələrində PƏÖ-nün tətbiqi artıq təhsil sisteminin ayrılmaz hissəsinə çevrilmişdir. Məsələn, Finlandiya, Sinqapur və Cənubi Koreya məktəblərində şagirdlərin analitik və tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün bu yanaşmadan geniş istifadə olunur (Tan, 2003; Wee, Kek, & Kelley, 2003). Bu ölkələrin təcrübəsi göstərir ki, erkən yaşdan şagirdlərə müstəqil düşünmə və problem həll etmə bacarıqları aşılandıqda onların akademik nailiyyətləri də yüksəlir (Hmelo-Silver et al., 2007; Strobel & van Barneveld, 2009).

Azərbaycan təhsilində də bu yanaşmaya maraq artmaqdadır. Təhsil Nazirliyinin son illərdə həyata keçirdiyi kurikulum islahatlarında şagirdyönlülük, fəaliyyətə əsaslanma və problemli situasiyaların yaradılması xüsusi vurğulanır. Bəzi müəllimlərin hələ də ənənəvi təlim üsullarından istifadəyə üstünlük verməsi, məktəblərdə texniki imkanların hər yerdə eyni səviyyədə olmaması kimi çətinliklər mövcuddur. Bununla belə, təlim prosesində PƏÖ metodunun mərhələli şəkildə tətbiqi şagirdlərin inkişafına ciddi töhfə verə bilər.

Nəticə və təkliflər

Aparılan araşdırmalar göstərir ki, ibtidai siniflərdə Həyat bilgisi dərslərində problem əsaslı öyrənmənin tətbiqi:

- şagirdlərin təfəkkür fəallığını artırır;
- onların tədqiqat bacarıqlarını formalaşdırır;
- məntiqi və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirir;
- həyat bacarıqlarının erkən yaşdan aşılanmasına şərait yaradır.

Məqalənin nəticələri əsasında aşağıdakı təkliflər irəli sürülür:

1. İbtidai sinif müəllimləri üçün PƏÖ metodunun tətbiqinə dair metodik vəsaitlər hazırlanması və təlimlər keçirilməsi gücləndirilməlidir.

2. Həyat bilgisi dərslikləri və proqramları problem əsaslı tapşırıqlar, suallar və situasiyalarla zənginləşdirilməlidir.

3. Məktəblərdə şagirdlərin tədqiqat fəaliyyətini stimullaşdırmaq üçün əlavə dərnəklər, layihələr və müsabiqələr təşkil edilməlidir.

4. Müasir texnologiyalardan istifadə etməklə dərslərin interaktivliyi artırılmalı, şagirdlərdə öyrənməyə maraq gücləndirilməlidir.

Problemin aktuallığı. Müasir dövrdə təhsil sistemində əsas məqsədlərdən biri şagirdin şəxsiyyət kimi formalaşmasına, onun yaradıcılıq, tənqidi düşüncə və qərarvermə bacarıqlarının inkişafına şərait yaratmaqdır. Xüsusilə ibtidai siniflərdə Həyat bilgisi dərsləri bu bacarıqların təməlini qoyur. Problem əsaslı öyrənmə bu məqsədlərə xidmət edən ən təsirli yanaşmalardan biri kimi qəbul edilir. Bu səbəbdən, şagirdyönlü yanaşmalara keçid pedaqoji cəhətdən aktuallığını qoruyur.

Problemin yeniliyi. Məqalədə Həyat bilgisi dərslərində PƏÖ yanaşması konkret mövzu və kurikulum məqsədlərinə uyğun şəkildə sistemləşdirilərək təhlil edilir. Bu istiqamətdə Azərbaycanda mövcud tədqiqatlar az saydadır və layihə nümunələrinin dərs məqsədləri ilə uyğunluğu çox zaman nəzəri müstəvidə qalır. Bu araşdırma PƏÖ-nün real tətbiq modellərini ibtidai təhsil mühitinə uyğunlaşdırmaqla metodoloji boşluğu doldurur.

Problemin praktik əhəmiyyəti. PƏÖ-nin Həyat bilgisi dərslərində tətbiqi şagirdlərin motivasiyasını artırmaq, öyrənməni mənalandırmaq və dərin öyrənməni təşviq etmək baxımından böyük praktik əhəmiyyətə malikdir (Prince & Felder, 2006; Strobel & van Barneveld, 2009). Bu yanaşma həmçinin müəllimlərə tədrisdə yaradıcı, şagirdyönlü metodlardan istifadə etməyə şərait yaradır. Əldə edilən nəticələr təhsil siyasəti və pedaqoji praktikada tətbiq oluna biləcək tövsiyələr xarakteri daşıyır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil İnstitutu (2023). *Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Həyat bilgisi" fənni üzrə təhsil proqramı (kurikulum) (I-IV siniflər)*.
2. Barrows, H. S. (1996). *Problem-based learning in medicine and beyond: A brief overview*. New Directions for Teaching and Learning, 68, 3–12.
3. Duch, B. J., Groh, S. E., & Allen, D. E. (2001). *The power of problem-based learning: A practical "how to" for teaching undergraduate courses in any discipline*. Stylus Publishing.
4. Hmelo-Silver, C. E. (2004). Problem-based learning: What and how do students learn? Educational Psychology Review,16(3),235266. https://doi.org/10.1023/B: EDPR.0000034022.16470.
5. Hmelo-Silver, C. E., Duncan, R. G., & Chinn, C. A. (2007). Scaffolding and achievement in problem-based and inquiry learning: A response to Kirschner, Sweller, and Clark (2006). *Educational Psychologist, 42*(2), 99–107.
6. Prince, M., & Felder, R. (2006). Inductive teaching and learning methods: Definitions, comparisons, and research bases. *Journal of Engineering Education, 95*(2), 123–138.
7. Savery, J. R. (2006). Overview of problem-based learning: Definitions and distinctions. *Interdisciplinary Journal of Problem-Based Learning, 1*(1), 9–20.
8. Strobel, J., & van Barneveld, A. (2009). When is PBL more effective? A meta-synthesis of meta-analyses comparing PBL to conventional classrooms. *Interdisciplinary Journal of Problem-Based Learning, 3*(1), 44–58.
9. Tan, O. S. (2003). Problem-based learning innovation: Using problems to power learning in the 21st century. *Thousand Oaks, CA: Corwin Press.*
10. Wee, B., Kek, M., & Kelley, J., Craig A (2003). "Transforming the marketing curriculum using problem-based learning: a case study." *Journal of Marketing Education*. 25 (2), pp. 150-162. https://doi.org/10.1177/0273475303254016

Redaksiyaya daxil olub: 05.11.2025

UOT 372.3/.4

Pərvanə Fizuli qızı Əliyeva
Gəncə Dövlət Universitetinin
Ümumi pedaqogika kafedrasının müəllimi
https://orcid.org/ 0009-0004-5974-241X
E-mail: parvana.aliyeva.@gdu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).143-146

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN DAVRANIŞ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Parvane Fizuli Aliyeva
lecturer of the department of General pedagogics at
Ganja State University

METHODS FOR DEVELOPING YOUNG SCHOOLCHILDREN'S BEHAVIORAL SKILLS

Парвана Физули гызы Алиева
преподаватель кафедры общей педагогики
Гянджинского Государственного Университета

ПУТИ РАЗВИТИЯ ПОВЕДЕНЧЕСКИХ НАВЫКОВ МЛАДШИХ ШКОЛЬНИКОВ

Xülasə. Bu tədqiqat məqaləsi kiçikyaşlı məktəblilərin öz davranışına nəzarət və özünü idarə etmənin həyati vacib psixoloji atributundan bəhs edir. Məqalənin məqsədi ailə mühiti və təhsil kontekstini nəzərə almaqla, davranışa nəzarətin uşaqlara dərin təsirini araşdıraraq bu iki əsas determinanta diqqət yetirir. Özünə nəzarət, davranışları, duyğuları müstəqil idarə etmək bacarığı, və uzunmüddətli məqsədlərə doğru qərar qəbul etmək şəxsi inkişaf və uğur qazanmaq üçün çox vacibdir. Ailə quruluşu və dəstək kimi aspektləri əhatə edən ailə mühiti uşağın özünə nəzarətinin formalaşmasında mühüm rol oynayır. Məqalə praktiki cəhətdən ibtidai müəllimlərin kiçikyaşlıların davranışlarını formalaşdırmasında yeni biliklər kimi istifadəsində faydalı bir resurs ola bilər.
Açar sözlər: *kiçikyaşlı məktəblilər, ailə mühiti, təhsil konteksti, özünə nəzarət*

Abstract. This research article discusses the vital psychological attributes of self-control and self-management in young schoolchildren. This article aims to examine the profound impact of behavioral control on children by considering the family environment and educational context, with a focus on these two primary determinants. Self-control, the ability to independently manage behaviors, emotions, and make decisions that contribute to long-term goals, is crucial for personal development and success. The family environment, encompassing aspects such as family structure and support, plays a vital role in shaping a child's self-control. The article can be a valuable resource for elementary school teachers to utilize as a new source of knowledge in shaping the behavior of young children.
Keywords: *young schoolchildren, family environment, educational context, self-control*

Аннотация. В данной исследовательской статье рассматриваются важнейшие психологические характеристики самоконтроля и самоуправления младших школьников. Цель статьи – изучить глубокое влияние контроля поведения на детей с учетом семейной среды и образовательного контекста, сосредоточившись на этих двух основных детерминантах. Самоконтроль, способность самостоятельно управлять своим поведением, эмоциями и принимать решения для достижения долгосрочных целей, крайне важен для личностного развития и успеха. Семейная среда, включающая такие аспекты, как структура семьи и поддержка, играет важную роль в формировании самоконтроля ребенка. Статья может стать полезным источником знаний для учителей начальных классов, которые помогут им в формировании поведения детей младшего возраста.
Ключевые слова: *школьники младшего возраста, семейная среда, образовательный контекст, самоконтроль*

GİRİŞ 1. Kiçikyaşlı məktəblilərdə öz davranışlarına nəzarət

Ümumi təhsil müəssisələrində kiçikyaşlı məktəblilərin təhsil muxtariyyətinə, özünəməxsusluğuna, özünü əks etdirməsinə, özünü inkişaf etdirməsinə və öz davranışlarına nəzarət etmək qabiliyyətinin fomalaşmasına diqqət artmaqdadır. Bun dan əlavə, yeni təhsil proqramları kiçikyaşlıların inkişaf sahəsinə təsir edən sosial xüsusiyyətlər və subyektiv xüsusiyyətlərlə yanaşı, onların şəxsiyyətinin formalaşmasında nəzərə alır. Burada əsas dəyərlər öz-özünə öyrənmə, şagirdin həyat təcrübəsi və uşağın həyatında təhsilin şəxsi əhəmiyyətidir.

Əsas psixoloji atribut olan özünə nəzarət davranışı, duyğuları və qərar qəbul etməyi tənzimləyir. Öz davranışına nəzarət əhəmiyyətli dərəcədə şagirdlərin müqavimət göstərməkdən tutmuş bütün çətinliklər zamanı emosiyaları idarə etməyə qədər fəaliyyətin formalaşmasında rezonans doğurur. Bu fəaliyyətin formalaşmasının əhəmiyyəti tarix boyu açıq-aşkar görünür və tədqiqatın aktuallığını və müasir tədqiqat fokusunu əks etdirir.

Tarixi və müasir kontekstlərdə özünə nəzarətin vurğulanması ardıcıl olaraq qalır. Araşdırmalar göstərir ki, qədim fəlsəfi təlimlər istəklər üzərində ustalığı vurğulayırdı, müasir psixologiya isə idrak proseslərini araşdırırdı. Özünə nəzarəti başa düşmək və tərbiyə etmək çoxlu diqqəti yayındıran amillər və mürəkkəb qərarların qəbulu ilə səciyyələnən müasir sürətlə inkişaf edən dünyada çox vacibdir. Məqalə uşaqların özünü idarə etmə inkişafına təsir edən mürəkkəb qarşılıqlı əlaqələri üzə çıxarmaq məqsədi ilə özünü idarə etmənin tarixi və cari vurğularını araşdırır. Bundan əlavə, makroskopik tarixi perspektivləri müasir tədqiqatların mikroskopik araşdırmaları ilə əlaqələndirmək praktik müdaxilələr, uşaqların həyatın mürəkkəbliklərində inkişaf üçün əsas bacarıqlara yiyələnməni təmin edir [1, s. 2].

Uşaqları öz intizamını inkişaf etdirən fəaliyyətlərlə məşğul olmağa həvəsləndirmək lazımdır. Öz davranışına nəzarət nizam-intizamı inkişaf etdirən fəaliyyətlərə bacarıq öyrənmək, idman oynamaq, musiqi dərsləri almaq, qonşunun ev heyvanına qulluq etmək, müqəddəs ayələri əzbərləmək, otağı təmizləmək və ya bir sıra digər fəaliyyətlər daxildir.

1.1. Davranışa nəzarətin formalaşması yolları

Özünə nəzarət hər bir fərdin uzunmüddətli məqsəd və dəyərlərə daha yaxşı nail olmaq üçün impulslar və ya istəklər qarşısında öz davranışlarını, emosiyalarını və ya qərar qəbul etmələrini avtonom şəkildə tənzimləmək qabiliyyətinə aid kritik psixoloji qabiliyyətdir. Özünə nəzarət gələcək məqsədlər üçün ani impulslara müqavimət göstərmək bacarığıdır. Şəxsi inkişaf, qərar qəbul etmək və həyatda uğur qazanmaq üçün çox vacibdir. Bura müqavimət, qeyri-sağlam qida və gərgin vəziyyətlərdə emosiyaların idarə olunması kimi sahələr daxildir [2, s. 3].

Bu bacarıq davranışından zövq almağı, rasional seçimlər etməyi və diqqəti yayındıran amillərə baxmayaraq diqqəti cəmləşdirməyi tələb edir. Bu, vaxtın idarə edilməsi, pis vərdişlərin aradan qaldırılması və təhsil, karyera və hədəflərə çatmaq üçün çox vacibdir [3, s. 4].

Araşdırmalar göstərdi ki, öz davranışına nəzarət sabit deyil. Məqsədlərin qoyulması, özünə nəzarət sistemlərinin yaradılması və müsbət vərdişlərin inkişafı özünə nəzarəti təkmilləşdirə bilər. Özünə nəzarət uşaqların həyatı üçün əhəmiyyət kəsb etdiyinə və yaşla dəyişə bildiyinə görə, onların özünü idarə etməsinə təsir edir. Araşdırmalar göstərir ki, ailə mühiti və təhsil mühiti kiçikyaşlıların özünü idarə etməsinə təsir edən iki mühüm amildir [3, s.36].

Ailə mühiti amilləri kiçikyaşlıların yaşadıqları və məruz qaldıqları müxtəlif təsirlərə, o cümlədən ailə quruluşuna, valideyn-uşaq münasibətlərinə, ailə dəstəyinə, ailə mühitinə aiddir.

Təhsil və ətraf mühit amilləri kiçikyaşlıların akademik performansına və inkişafına əhəmiyyətli dərəcədə təsir edən öyrənmə və təhsilin kontekstinə, şərtlərinə və resurslarına istinad edir.

Ailə mühitinin uşaqların nəticələri ilə əlaqəli olduğunu göstərən eksperiment, sosial-iqtisadi riskin uşaqların erkən özünü idarə etməsi ilə əlaqəli olduğu mürəkkəb prosesi üzə çıxaran əvvəlki təcrübədən əldə edilmişdir [2, s.24].

Birincisi, tədqiqat etiraf edir ki, sosial-iqtisadi çətinliklər, maddi çətinliklər ailələrin üzləşdiyi iqtisadi təzyiqlərlə sıx bağlıdır. Bu stress, adətən valideynlərin öz iqtisadi imkanlarını və yaşadıqları psixoloji sıxıntıları subyektiv qiymətləndirməsi ilə ölçülür. Tədqiqat sosial-iqtisadi çətinliklərin və digər təsiredici qüvvələrin uşaq inkişafına təsirini işıqlandıran kritik nə-

zəri çərçivə modelindən istifadə edir. Burada valideyn-uşaq qarşılıqlı əlaqələrinin formalaşdırılmasında və sonradan uşağın özünə nəzarətinin formalaşdırılmasında valideynlərin iqtisadi təzyiq təcrübələri də daxil olmaqla, ailə gərginliyi mexanizmlərinin rolunu vurğulayır.

Məlumdur ki, sosial-iqtisadi çatışmazlıq göstəricilərinin valideynlərin iqtisadi problemlə bağlı qavrayışlarına nəzarət etdikdən sonra belə uşaqların özünə nəzarətini müstəqil şəkildə proqnozlaşdırıb-yaxmadığını müəyyən etmək olur.

Digər tərəfdən, ailə mühiti, xüsusilə valideynlərin uşaqların nəzarət və nailiyyət nəticələri haqqında anlayışına təsir edəcəyi gözlənilir. Burada valideynlərin rolunu araşdırarkən belə bir nəticəyə gəlmək olur ki, valideynlərin fədakarlığı, kiçikyaşlılara müsbət diqqəti və uşağın həyatında fəal iştirakı onların düzgün davranışa malik olmasında danılmaz rolu vardır. Belə bir fərziyyə irəli sürülür ki, valideynlərin daha çox iştirakı uşağın özünü idarə etməsinə, özünə inamına və akademik uğuruna töhfə verən emosional və konkret resurslar təmin edir. Valideynlik üslublarına bu ölçülü yanaşma tədqiqatçılara kiçikyaşlıların məktəbdə özünütənzimləmə və səriştəsinə təsirlərini aşkar etməyə imkan verən hərtərəfli perspektiv təklif edir. Burada uşaqların məktəbə uyğunlaşmasına həm anaların, həm də ataların töhfələrinin nəzərə alınması vacib şərtdir.

Bundan əlavə, ailə mühiti ilə müqayisədə məktəb mühitindəki amillərlə bağlı az sayda araşdırma olsa da, bir çox təcrübələr məktəb mühitinin uşaqların özünü idarə etməsinə də təsir etdiyinə dair güclü sübutlar təqdim edir. Tədqiqatlar məktəb və sinif xüsusiyyətləri ilə uşaqların öz davranışına nəzarət bacarıqlarının inkişafı arasında əlaqə olduğunu göstərir.

M.R. Qottfredson və T.A. Hirschinin araşdırmalarına görə, məktəb mühiti və müəllimin sosiallaşma təcrübələri kiçikyaşlıların özünə nəzarətin inkişafının daha geniş təsir edir [5, s.125]. Tədqiqatçıların mülahizələri sübut edir ki, məktəb mühitinin və valideyn təsirləri kiçikyaşlıların öz davranışına nəzarət və özünü idarə etmə bacarıqlarının inkişafı əhəmiyyətli dərəcədə təsir edir. Məktəbdə sosiallaşma təcrübələri bu nəzarətin əsas elementlərini başa düşmək üçün bir yanaşma təqdim edir. Məktəblərin, qrupların və ayrı-ayrı müəllimlərin fəaliyyətinə məktəb idarəetmə mühitinin müxtəlif formaları böyük təsir göstərə bilər. Bu o deməkdir ki, aşağı səviyyəli idarəetmə mühiti fərqli performansla nəticələnə bilsə də, güclü məktəb idarəetmə sistemi təhsilin keyfiyyətini artıra bilər. Bu unikal performans uşaqların inkişafı ilə əlaqələndirilə bilər [4, 5, 6].

Tədqiqatlar göstərir ki, məktəb mühiti şagirdlərin özünü idarə etməsinə təsir edə bilər. Yaxşı təşkil edilmiş məktəb mühiti özünü intizamı təşviq edir və şagirdlərin özünə nəzarətini inkişaf etdirməyə kömək edən müsbət stimullar təmin edir.

Məqalələr sübut edir ki, ailə və təhsil mühiti uşaqların özünü idarə etməsinə təsir göstərir. Yekun olaraq, hər biri özünütənzimləmə bacarıqlarının çoxşaxəli inkişafına unikal şəkildə töhfə verir. Tədqiqat vurğulayır ki, sosial-iqtisadi amillərdən və nüanslı valideynlik tərzlərindən təsirlənən ailə dinamikası uşağın adekvat özünü idarə etməyə doğru səyahətini əhəmiyyətli dərəcədə formalaşdırır. Valideynlə müsbət münasibət, muxtariyyət dəstəyi və strukturlaşdırılmış rəhbərlik daxili motivasiya, idrak səriştəsi və ümumi akademik uğurun inkişafında mühüm rol oynayır [5, s. 6].

Sinifdə özünü idarə etmə təlimi getdikcə daha çox yayılır. Məktəblər xaricdən idarə olunanlar əvəzinə özünü idarə edən davranış modifikasiyası proqramlarını uğurla həyata keçirsələr, uşaqlar öz sosial və akademik davranışlarını idarə edə biləcəklər. Bu, müəllimlərin diqqətini dərsə yönəltmək üçün vaxtını azad edir. Bu məqalədə özünü qeyd etmə, özünü qiymətləndirmə, gözlənilməz hadisələrin öz müqəddəratını təyin etmə və özünü idarə etmənin komponentləri kimi özünütəlimat nəzərdən keçirilir. Sinifdə düzgün davranışı təmin etmək üçün nəzərdə tutulan özünənəzarət üsulları, eləcə də özünə nəzarət təlimi ilə bağlı problemlər, o cümlədən özünü müşahidənin etibarlılığı, cavabın saxlanması, ümumiləşdirmə və kənar nəzarət funksiyası araşdırılır.

Problemin aktuallığı. Kiçik məktəb yaşlı uşaqların təhsil müstəqilliyinin, təşəbbüskarlığının və məsuliyyətinin inkişafı onların öz fəaliyyətlərinə nəzarət etmək və problemlərin əsas səbəblərini tanımaq və aradan qaldırmaq qabiliyyətindən çox asılıdır. Təhsil fəaliyyətinin diqqət mərkəzində olan kiçik məktəbli indi fəal və yaradıcı şəkildə onlarda iştirak edir və potensial yeni bacarıqlarını kəşf edir. Bu cür fəaliyyətlər şagirdin inkişaf mərhələsində dəyişikliyə səbəb olur. Buna görə də təhsil fəaliyyətinin inkişafı ibtidai təhsilin əsas məqsədlərindən biridir.

Problemin elmi yeniliyi. Ümumi təhsil məktəblərində kiçikyaşlı məktəblilərin öz davranışına nəzarət fəaliyyətlərində yeni yanaşmalar üzrə bacarıqları inkişaf etdirilməlidir. Öz davranışına nəzarət və özünüinkişaf yanaşması uşaqlarda təfəkkür inkişaf etdirir. Kiçikyaşlı məktəblilərin təhsil zamanı əldə etdikləri bilik və bacarıqlara münasibəti həmin fənlərin tədrisi, eləcə də bütövlükdə təlim prosesi üçün mühüm əhəmiyyət kəsb edir. Müvafiq olaraq, oxu, riyaziyyat, bədən tərbiyəsi, Azərbaycan dili və həyat bilgisi elmləri kimi fənlərin tədrisi zamanı şagirdlərin əsas mülahizələrinin düzgünlüyünə marağını oyatmaq, çıxardıqları əsas nəticələrin düzgünlüyünü nümayiş etdirmək, zaman keçdikcə bu marağı davam etdirmək və onları əsaslandırılmış qərarların qəbuluna daha çox diqqət yetirməyə və fəal iştirak etməyə təşviq etmək vacibdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqat məqaləsində verilən faydalı fikirlər ümumi təhsildə fəaliyyət göstərən ibtidai sinif müəllimlərinin hazırlanmasında istifadə oluna bilər. Bundan əlavə, kiçikyaşlı məktəblilərin davranışlarına nəzarət bacarıqlarının inkişafında faydalı bir mənbə kimi əhəmiyyətli rol oynaya bilər.

Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblərin magistratura səviyyəsi üçün dərslik. / A.N. Abbasov. –Bakı: Mütərcim, –2015. –324 s.
2. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşdırılması problemləri / Ə.Ə. Ağayev. -Bakı: Adiloğlu, –2005. – 188 s.
3. Ayık ,N. “Çocuklarda görülen davranış bozuklukları”. –Artvin: Artvin Rehberlik ve Araştırma Merkezi Müdürlüğü, –2004. – s.44
4. Кыверялг, А. А. Контроль и самоконтроль - важные условия формирования вычислительных навыков / А. А. Кыверялг // Начальная школа, –1986. № 2. –с. 36-39.
5. Gottfredson, M. R. Hirschi, T. A General Theory of Crime. Stanford, CA: // Stanf. Univ. Press, –1990. – pp. 122- 167
6. Moon, B., Alarid, L. F. School bullying, low self-control, and opportunity // Journal of Interpersonal Violence, 30(5), –2014. – pp. 839–856.

Redaksiyaya daxil olub: 04.09.2025.

UOT 37.01.

Kəmalə Rüstəm qızı Quliyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org 0000-0002-8448-2021
E-mail: kamala.quliyeva51@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).147-152

PEDAQOJİ AKMEOLOGİYA VƏ ONUN MÜASİR TƏHSİLİN İNKİŞAFINDA ROLU

Kamala Rustam Guliyeva
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

PEDAGOGICAL ACMEOLOGY AND ITS ROLE IN THE DEVELOPMENT OF MODERN EDUCATION

Кямаля Рустам гызы Гулиева
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ПЕДАГОГИЧЕСКАЯ АКМЕОЛОГИЯ И ЕЕ РОЛЬ В РАЗВИТИИ СОВРЕМЕННОГО ОБРАЗОВАНИЯ

Xülasə. Pedaqoji akmeologiya müəllimin şəxsiyyət və peşəkar inkişafını araşdıran elmdir. O, müəllimin yaradıcılığını, refleksiyasını, mənəvi və intellektual kamilliyini inkişaf etdirməyə yönəlir. Müasir təhsildə akmeoloji yanaşma müəllimlərin innovativ və humanist fəaliyyətini gücləndirir, onların peşəkar "akme" səviyyəsinə çatmasını təmin edir.
Açar sözlər: *pedaqoji akmeologiya, müəllim, inkişaf, yaradıcılıq, refleksiya*

Abstract. Pedagogical acmeology is a science that studies the personality and professional development of a teacher. It is aimed at developing the teacher's creativity, reflection, moral and intellectual perfection. The acmeological approach in modern education strengthens the innovative and humanistic activity of teachers, ensuring their achievement of the level of professional "acme".
Keywords: *pedagogical acmeology, teacher, development, creativity, reflection*

Аннотация. Педагогическая акмеология – это наука, изучающая личность и профессиональное развитие учителя. Она направлена на развитие его креативности, рефлексии, нравственного и интеллектуального совершенства. Акмеологический подход в современном образовании способствует активизации инновационной и гуманистической деятельности педагогов, обеспечивая достижение ими уровня профессионального «акме».
Ключевые слова: *педагогическая акмеология, учитель, развитие, креативность, рефлексия*

XXI əsrin təhsil fəlsəfəsində insan amili, onun özünüinkişaf və özünüreallaşdırma potensialı əsas prioritetlərdən birinə çevrilmişdir. Müasir pedaqogika artıq yalnız bilik və bacarıqların ötürülməsi ilə kifayətlənmir; o, insanın şəxsiyyət kimi formalaşması, peşəkar fəaliyyətində və həyatında "zirvə nöqtəsinə" – kamillik mərhələsinə yüksəlməsi üçün şərait yaratmağa çalışır. Məhz bu baxımdan, son onilliklərdə elmi düşüncədə "akmeologiya" anlayışı ön plana çıxmış, şəxsiyyətin inkişafının zirvə mərhələlərini öyrənən mühüm bir elmi istiqamət kimi formalaşmışdır.

"Akmeologiya" termini qədim yunan dilindəki "akme" – yəni "zirvə", "çiçəklənmə", "ən yüksək mərhələ" sözündən götürülmüşdür. Bu elmin əsas məqsədi insan fəaliyyətinin və şəxsiyyətin inkişafının ən yüksək pilləsinə çatma mexanizmlərini araşdırmaqdır. Akmeologiya ilk dəfə XX əsrin ortalarında rus psixoloji məktəbinin nümayəndələri tərəfindən elmi dövriyyəyə gətirilmiş, xüsusən də B.G. Ananyev, N.V. Kuzmina, A.A. Derkaç, A.A. Bodalev kimi alimlərin tədqiqatlarında sistemli şəkildə əsaslandırılmışdır. B.G. Ananyev akmeologiyanı "insanın şəxsiyyət və fəaliyyət zirvələrinin psixoloji əsaslarını öyrənən elmi sahə" kimi səciyyələndirmişdir.

Akmeologiya tədricən bir çox sahələrdə – menecmentdə, hərbi psixologiyada, idmanda və xüsusilə pedaqogikada tətbiq sahəsini tapmışdır. Beləliklə, pedaqoji akmeologiya anlayışı meydana gəlmişdir ki, bu da müəllimin, tərbiyəçinin, təhsil işçisinin peşəkar kamilliyə doğru inkişaf prosesini, onun "akme"yə – yəni pedaqoji fəaliyyətin zirvəsinə çatma yollarını araşdırır. Pedaqoji akmeologiya həm nəzəri, həm də praktik mahiyyət daşıyır: o, müəllimin özünüinkişaf motivasiyasını, yaradıcı potensialını, peşəkar refleksiyasını və mənəvi dəyərlərini formalaşdıran kompleks mexanizmləri izah edir.

Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər – innovativ texnologiyaların tətbiqi, kompetensiyaya əsaslanan yanaşma, müəllimin fasilitator və bələdçi rolunun artması – pedaqoji akmeologiyanın aktuallığını daha da artırmışdır. Bu elm sahəsi pedaqoji fəaliyyətin yalnız metodik və didaktik tərəflərini deyil, həm də müəllimin şəxsiyyətinin mənəvi-intellektual inkişafını, öz potensialını reallaşdırma bacarığını öyrənir.

Məqalənin məqsədi pedaqoji akmeologiyanın elmi-nəzəri əsaslarını, onun formalaşma mərhələlərini, müasir pedaqogikadakı yerini və Azərbaycan təhsil sistemində tətbiq imkanlarını araşdırmaqdır. Bu məqsədlə akmeologiyanın yaranma tarixinə, müasir pedaqoji proseslərdəki əhəmiyyətinə, həmçinin pedaqoqun peşəkar inkişafı və şəxsiyyətinin kamilləşməsi baxımından verdiyi töhfələrə nəzər salınacaqdır.

ARAŞDIRMANIN NƏTİCƏLƏRİ

Pedaqoji akmeologiyanın mahiyyəti və əhəmiyyəti

Akmeologiyanın pedaqogika ilə qovuşduğu nöqtə insanın, xüsusən də müəllimin peşəkar fəaliyyətində kamillik mərhələsinə çatma prosesidir. Pedaqoji akmeologiya bu baxımdan insanın yalnız bilik və bacarıqlarının deyil, həm də onun mənəvi, yaradıcı və reflektiv keyfiyyətlərinin zirvəsini öyrənir. Yəni bu elm sahəsi müəllimin öz peşəsində "ən yüksək mənəvi və peşəkar səviyyəyə" çatmasının qanunauyğunluqlarını araşdırır.

Pedaqoji akmeologiyanın predmeti müəllimin şəxsiyyətinin inkişafı, peşəkar fəaliyyətinin səmərəliliyi və bu fəaliyyətin yüksək nəticələrə gətirib çıxaran daxili-psixoloji, sosial və pedaqoji amilləridir. A.A. Derkaçın fikrincə, akmeologiya insanın öz-özünü təkmilləşdirmə mexanizmlərini və onun fəaliyyətinin "akme-səviyyəyə" yüksəlməsini təmin edən şərait və amilləri öyrənir. O yazırdı ki, akmeologiya insanın öz inkişaf zirvəsinə çatması üçün elmi-psixoloji mexanizmləri aşkar etməlidir (Деркач А.А., Акмеологические основы развитие профессионала. 2004). Bu baxış pedaqoji sahəyə tətbiq olunduqda, müəllimin öz peşəsində və şəxsiyyətində zirvəyə çatmasının elmi əsaslarını formalaşdırır.

Pedaqoji akmeologiya pedaqogikanın digər istiqamətləri ilə sıx bağlıdır. O, bir tərəfdən, pedaqoji psixologiya ilə, yəni müəllim şəxsiyyətinin psixoloji inkişaf qanunauyğunluqları ilə, digər tərəfdən, peşəkar pedaqogika ilə, yəni təlim-tərbiyə prosesinin effektivliyini təmin edən metodlarla qarşılıqlı əlaqədədir. Lakin akmeologiyanın fərqləndirici cəhəti onun kamillik və zirvə inkişafı problemini əsas məqsəd kimi götürməsidir.

B.G. Ananyevin (1968) konsepsiyasında insanın "akme" mərhələsi onun bioloji, sosial və mənəvi imkanlarının maksimum harmoniyasına nail olduğu dövrdür. Müəllim üçün bu mərhələ onun pedaqoji ustalığının, yaradıcı qabiliyyətlərinin və dəyərlər sisteminin vəhdət halına gəldiyi məqamı ifadə edir. N.V. Kuzmina da pedaqoji akmeologiyanın əsasını müəllimin fəaliyyət keyfiyyətləri ilə onun şəxsiyyət keyfiyyətləri arasında harmoniyanın qurulmasında görürdü. O yazırdı ki, pedaqoji ustalıq – şəxsiyyətin mənəvi və intellektual kamilliyinin sintezidir (Кузьмина Н.В. Профессионализм деятельности преподавателя высшей школы, 1990).

Pedaqoji akmeologiya yalnız müəllimin fəaliyyətinin nəticələrini deyil, həm də onun özünüinkişaf mədəniyyətini öyrənir. Özünüinkişaf və özünütəkmilləşdirmə müəllim şəxsiyyəti-

nin əsas akmeoloji göstəricilərindəndir. Bu göstəricilər aşağıdakı kimi qruplaşdırıla bilər:

– peşəkar refleksiya – müəllimin öz fəaliyyətini dəyərləndirmə, təcrübədən nəticə çıxarma bacarığı;

– yaradıcı özünüifadə – tədris prosesində yeniliklər tətbiq etmə, müəllimlik peşəsinə fərdi yanaşma;

– mənəvi-emosional sabitlik – pedaqoji fəaliyyət zamanı stresslə mübarizə, pozitiv münasibət formalaşdırma;

– intellektual elastiklik – yeni təlim texnologiyalarına uyğunlaşma, çevik pedaqoji qərarlar qəbul etmə bacarığı.

Bu baxımdan pedaqoji akmeologiya, əslində, müəllimin kamillik elmi kimi çıxış edir. O, müəllim şəxsiyyətini inkişaf etdirən amilləri – motivasiya, dəyərlər sistemi, mənəvi mədəniyyət, pedaqoji yaradıcılıq və kommunikativ qabiliyyətlər kimi komponentləri sistemləşdirir. Akmeoloji yanaşma müəllimi yalnız "müəllimlik edən" şəxs deyil, həm də "inkişaf edən və inkişaf etdirən" şəxs kimi nəzərdən keçirir.

Pedaqoji akmeologiyanın mühüm prinsiplərindən biri də humanizm və şəxsiyyətyönlülükdür. Müəllimin peşəkar kamilliyi yalnız texnoloji və metodik bacarıqlarla məhdudlaşmır; o, mənəvi dəyərlərə, empatiya qabiliyyətinə, ünsiyyət mədəniyyətinə və təhsil prosesində fərdin potensialına hörmətə əsaslanmalıdır. A.A. Bodalevin fikrincə, "akme səviyyəsinə çatmış müəllim – özünüdərk və başqalarını dərk etmə bacarığını birləşdirən şəxsdir" (Бодальев А.А. Психология общения, 2002).

Pedaqoji akmeologiyanın tətbiqi müasir təhsildə müəllimin peşəkar inkişaf sisteminə yeni baxış formalaşdırır. Bu yanaşma müəllimin fəaliyyətində üç əsas mərhələni fərqləndirir:

– adaptasiya mərhələsi – gənc müəllimin peşəyə alışma və təcrübə toplama dövrü;

– peşəkar sabitlik mərhələsi – fəaliyyətin məqsədyönlü və sistemli xarakter aldığı dövr;

– akme mərhələsi – peşəkar ustalığın və yaradıcılığın zirvəsinə çatma mərhələsi.

Beləliklə, pedaqoji akmeologiyanın mahiyyəti müəllimin öz potensialını tam reallaşdırması, şəxsiyyətinin və fəaliyyətinin yüksək səviyyədə inkişafını təmin edən daxili və xarici amillərin öyrənilməsidir. Onun predmeti isə pedaqoqun peşəkar kamilliyə aparan yollarını, vasitələri və şəraitini müəyyənləşdirməkdir.

Pedaqoji akmeologiyanın inkişaf mərhələləri və tarixi kökləri

Pedaqoji akmeologiya elmi öz tarixi inkişafı baxımından həm psixologiyanın, həm də pedaqogikanın dərin qatlarında formalaşmışdır. Onun nəzəri təməli şəxsiyyətin inkişaf qanunauyğunluqları, insan fəaliyyətinin səmərəlilik amilləri və özünüreallaşdırma proseslərinin elmi tədqiqi ilə sıx bağlıdır. Lakin ayrıca elm kimi akmeologiya XX əsrin ikinci yarısında, xüsusən də 1960-1970-ci illərdə sovet elmi mühitində sistemli şəkildə formalaşmağa başlamışdır.

Akmeologiya anlayışını elmi dövriyyəyə ilk dəfə N.A. Ribnikov (1928) gətirmiş, lakin bu ideya daha sonra B.G. Ananyev tərəfindən psixoloji istiqamətdə genişləndirilmişdir. Ananyev insanı "bütünlüklə öyrənilən fenomen" kimi dəyərləndirərək, onun bioloji, sosial və mənəvi tərəflərinin qarşılıqlı əlaqəsində zirvə mərhələsinə çatma prosesini tədqiq etməyə çalışmışdır. O, qeyd edirdi ki, insanın akmesi onun potensial imkanlarının optimal reallaşması mərhələsidir (Ананьев Б.Г. Человек как предмет познания, 2001). Bu yanaşma sonradan "akmeologiya"nın psixoloji istiqamətinin əsasını qoydu.

XX əsrin 80–90-cı illərində bu ideyalar daha da inkişaf etdirilərək pedaqoji istiqamətdə konkretləşdirildi. A.A. Derkaç, N. V. Kuzmina və A.A. Bodalev kimi tədqiqatçılar akmeologiyanın predmetini insanın fəaliyyətində zirvə mərhələsinə çatma qanunauyğunluqları kimi müəyyənləşdirdilər. Onlar hesab edirdilər ki, insanın "akmesi" yalnız təbii istedad və qabiliyyətlərlə deyil, həm də sosial və mənəvi mühitlə, özünüinkişaf motivasiyası ilə sıx əlaqəlidir.

Bu dövrdə pedaqoji akmeologiyanın ayrıca istiqamət kimi formalaşması məhz N.V. Kuzmina və onun elmi məktəbi ilə bağlıdır. Kuzmina "müəllimin peşəkar fəaliyyəti"ni xüsusi tədqiqat obyektinə çevirmiş, pedaqoji ustalığın strukturu və səviyyələrini müəyyənləşdirmişdir. O, pedaqoji peşəkarlığın beş əsas səviyyəsini fərqləndirirdi: adaptasiya, reproduksiya, fəaliyyət sabitliyi, yaradıcılıq və akme mərhələsi. Bu model pedaqoji akmeologiyanın təməl sxemlərindən biri hesab olunur (Кузьмина Н.В., Профессионализм деятельности преподавателя и мастера производственного обучения, 1990).

A.A. Derkaç isə akmeologiyanı "insanın öz inkişaf zirvəsinə çatması üçün şərait və vasitələrin elmi əsaslandırılması" kimi izah etmiş və

bu prosesi yalnız fərdi deyil, həm də sosial fenomen kimi dəyərləndirmişdir. Onun rəhbərliyi ilə Moskva Dövlət Universitetində (1990-cı illərdə) Akmeologiya laboratoriyası yaradılmış və burada müəllimlərin, psixoloqların, idarəetmə işçilərinin peşəkar inkişafı üzrə akmeoloji proqramlar işlənmişdir.

Akmeologiyanın tarixi inkişafında A.A. Bodalyev də mühüm rol oynamışdır. O, şəxsiyyətin ünsiyyət və qarşılıqlı təsir prosesində formalaşmasını ön plana çəkərək, "akme səviyyəsinə çatmış insan"ı yüksək kommunikativ mədəniyyətə malik şəxs kimi təsvir etmişdir (Бодалев А.А., Психология общения, 2002). Bu fikir pedaqoji akmeologiyanın humanist yönümünü daha da dərinləşdirmişdir.

Pedaqoji akmeologiyanın inkişafına Qərb psixologiyasının da müəyyən təsiri olmuşdur. Xüsusilə A. Maslounun "özünüfəallaşdırma" konsepsiyası (self-actualization), K. Rocersin humanist psixoterapiyası və E. Frommun "yaradıcı insan" ideyası akmeoloji yanaşmanın fəlsəfi əsaslarını gücləndirmişdir. Maslou insanın potensial imkanlarını reallaşdırmasını "psixoloji sağlamlığın ali forması" kimi izah edir, bu isə akmeologiyanın əsas ideyası ilə – insanın kamilliyə doğru inkişafı ilə üst-üstə düşür (Maslow A. H., Motivation and Personality, 1954).

XXI əsrdə akmeologiya tədricən beynəlxalq miqyasda tanınmış elmi istiqamətə çevrilmişdir. Bu dövrdə akmeoloji ideyalar idarəetmə, liderlik, peşəkar inkişaf, təhsil və psixoterapiya sahələrində geniş tətbiqini tapmışdır. Müasir dövrdə Rusiya, Belarus, Qazaxıstan və Baltik ölkələrində "Akmeologiya və Peşəkar İnkişaf" mərkəzləri fəaliyyət göstərir.

Azərbaycan elmi mühitində isə akmeoloji ideyalar daha çox pedaqoqun peşəkar inkişafı, müəllimin özünüinkişaf mədəniyyəti və şəxsiyyətyönlü təlim problemləri ilə əlaqələndirilir. Azərbaycan təhsilində bu istiqamət son illərdə innovativ pedaqogika, kompetensiya əsaslı kurikulumlar və fasilitativ təlim modelləri ilə birləşərək yeni aktual tədqiqat mövzularına çevrilmişdir.

Beləliklə, pedaqoji akmeologiyanın tarixi inkişaf mərhələlərini üç əsas dövrə ayırmaq mümkündür:

Formalaşma mərhələsi (1920-1960) – akmeologiyanın psixoloji əsaslarının yaranması (Ribnikov, Ananyev);

Sistemləşmə mərhələsi (1970-1990) – pedaqoji istiqamətin elmi strukturunun müəyyənləşməsi (Kuzmina, Derkaç, Bodalev);

Müasir mərhələ (XXI əsr) – beynəlxalq səviyyədə akmeoloji yanaşmanın təhsil və idarəetməyə inteqrasiyası, milli təhsil modellərinə uyğunlaşdırılması.

Bu mərhələlər göstərir ki, pedaqoji akmeologiya təkcə elmi konsepsiya deyil, həm də pedaqoqun şəxsiyyətinin kamilləşməsini təmin edən fəlsəfi-pedaqoji sistemdir.

Müasir pedaqogikada akmeoloji köklər

Müasir pedaqogika öz mahiyyətinə görə şəxsiyyətyönlü, humanist və inkişafetdirici xarakter daşıyır. Bu istiqamətlərin hər birində akmeoloji baxışın elementlərini görmək mümkündür. Əgər klassik pedaqogika, əsasən, "öyrədən" və "idarə edən" müəllim modelinə əsaslanırdısa, müasir pedaqogika müəllimi inkişaf etdirən, öyrənməyə şərait yaradan və öz potensialını reallaşdıran şəxs kimi nəzərdən keçirir. Bu isə pedaqoji akmeologiyanın əsas ideyası ilə – müəllimin və öyrənənin şəxsiyyətinin inkişaf zirvəsinə yönəlməsi ilə eyni məna daşıyır.

Akmeoloji yanaşma müasir pedaqogikada bir neçə əsas istiqamətdə özünü göstərir: kompetensiyaya əsaslanan təhsil, inkişafetdirici təlim, fasilitativ pedaqogika, müəllimin peşəkar inkişaf modeli, sosial-emosional öyrənmə və innovativ təhsil mühiti kimi konsepsiyalarda bu elementlər aydın görünür.

1. Kompetensiyaya əsaslanan təhsildə akmeoloji baxış

Kompetensiyaya əsaslanan təhsil modeli yalnız biliklərin deyil, bacarıq, vərdiş və dəyərlərin formalaşdırılmasını hədəfləyir. Bu modelin mahiyyəti şəxsiyyətin müstəqil düşünmə, qərarvermə, problem həll etmə və yaradıcılıq qabiliyyətini inkişaf etdirməkdir. Bu xüsusiyyətlər akmeoloji inkişafın əsas göstəriciləridir. N.V. Kuzmina qeyd edirdi ki, "peşəkar səriştəlilik pedaqoji fəaliyyətin zirvə göstəricisidir, çünki o, müəllimin həm intellektual, həm emosional, həm də mənəvi keyfiyyətlərinin vəhdətini təmin edir" (Кузьмина Н.В. Профессионализм деятельности преподавателя высшей школы. 1990). Deməli, kompetensiya əsaslı yanaşma müəllimin və şagirdin öz "akme potensialını" reallaşdırması üçün zəruri təməldir.

2. Fasilitativ pedaqogika və özünüreallaşdırma

K. Rocersin humanist psixologiyasına əsaslanan fasilitativ pedaqogika müəllimin rəhbər deyil, "bələdçi və dəstəkçi" rolunu vurğulayır. Bu modeldə müəllim təlim prosesinin mərkəzində deyil, onun tərəfdaşına çevrilir. Rojersin "self-actualization", yəni özünüreallaşdırma prinsipi akmeoloji yanaşmanın psixoloji təməlidir. Müəllim öyrənənin fərdi inkişafını dəstəklədikcə, eyni zamanda öz şəxsi akme mərhələsinə doğru irəliləyir.

3. Müəllimin peşəkar inkişaf sistemində akmeoloji elementlər

Müasir dövrdə müəllim yalnız bilik ötürən deyil, həm də daim öyrənən və inkişaf edən şəxs olmalıdır. Müəllimin peşəkar inkişafı prosesi üç istiqamətdə akmeoloji xarakter daşıyır:

Fərdi inkişaf – müəllimin öz potensialını tanıması, şəxsi və peşəkar məqsədlərini müəyyən etməsi;

Peşəkar refleksiya – öz fəaliyyətini qiymətləndirmə, zəif və güclü tərəflərini təhlil etmə bacarığı;

Kollektiv təcrübə mübadiləsi – peşəkar icmalarda iştirak, əməkdaşlıq və qarşılıqlı öyrənmə.

A.A. Derkaçın fikrincə, "müəllimin akmesi onun şəxsi və peşəkar mənliyini birləşdirə bildiyi nöqtədə yaranır" (Деркач А.А. Акмеологические основы развитие профессионала., 2004). Bu, müasir təhsildə müəllimlərin fasilitativ, reflektiv və yaradıcılıq yönümlü fəaliyyət tərzinin elmi əsasını təşkil edir.

4. Sosial-emosional öyrənmə və akmeoloji inkişaf

Son illərdə təhsildə sosial-emosional öyrənmə (SEL) konsepsiyası geniş yayılmışdır. Bu yanaşma öyrənənin emosional savadlılığını, empatiyasını, özünüidarəetmə və sosial məsuliyyət hissini formalaşdırmağı məqsəd qoyur. Bu isə akmeoloji baxımdan insanın mənəvi kamilliyinə aparan yoldur. Müəllim və şagird arasında qarşılıqlı hörmət və emosional balansın qorunması tədrisin keyfiyyətini artırmaqla yanaşı, tərəflərin şəxsiyyət kimi "akme"yə yüksəlməsini də təmin edir.

5. İnnovativ və rəqəmsal təhsil mühitində akmeoloji elementlər

XXI əsrdə təhsilin rəqəmsallaşması və ağıllı texnologiyaların tətbiqi pedaqoji akmeologiyanın yeni istiqamətlərini müəyyənləşdirir. Müəllim artıq yalnız bilik mənbəyi deyil, rəqəmsal lider, innovativ düşüncə modeli və yaradıcı koordinator rolunu daşıyır. Bu dəyişikliklər akmeoloji inkişafın yeni parametrlərini tələb edir:

– texnoloji adaptasiya qabiliyyəti;
– çevik öyrənmə;
– yaradıcılıq və problem həll etmə bacarığı;
– innovasiyalara açıq düşüncə tərzi.

Müəllimin bu bacarıqları mənimsəməsi onun peşəkar "akme"sini müasir dövrün tələblərinə uyğunlaşdırır.

6. Akmeoloji dəyərlərin pedaqogikada əks olunması

Müasir təhsil sistemində akmeoloji dəyərlər – özünəinam, məsuliyyət, yaradıcılıq, müstəqillik, əməkdaşlıq və mənəvi mədəniyyət pedaqoji fəaliyyətin aparıcı prinsiplərinə çevrilmişdir. Bu dəyərlər həm müəllimin, həm də öyrənənin kamillik prosesini dəstəkləyir. A.A. Bodalevin qeyd etdiyi kimi, "akme səviyyəsinə çatmış insanın əsas göstəricisi onun dəyərlər sisteminin yetkinliyidir" (Бодальев А.А. Психология обшения. 2002). Bu fikir müasir pedaqogikanın humanist istiqaməti ilə tam səsləşir.

7. Akmeoloji yanaşmanın təhsil siyasətində rolu

Müasir təhsil siyasətində müəllim hazırlığı, ixtisasartırma və təlim keyfiyyəti məsələlərində akmeoloji yanaşma strateji əhəmiyyət daşıyır. Çünki bu yanaşma müəllimin inkişafını "müvəqqəti kurs" deyil, davamlı və mərhələli proses kimi nəzərdən keçirir. Təlimdə refleksiya, mentorluq, professional icmalar və özünüqiymətləndirmə mexanizmlərinin tətbiqi bu istiqamətdə atılan mühüm addımlardır.

Beləliklə, müasir pedaqogika akmeoloji elementlər vasitəsilə insanın potensialının müəyyən olunmasına, müəllimin və öyrənənin şəxsiyyət kimi formalaşmasına və təhsilin humanistləşməsinə xidmət edir. Akmeoloji yanaşma pedaqogikanın statik deyil, dinamik və inkişafyönlü sistem olmasını təmin edir.

Pedaqoji akmeologiya müasir təhsil fəlsəfəsində müəllimin şəxsiyyət və peşəkar inkişafını prioritet olaraq qiymətləndirən unikal elmi istiqamətdir. Onun əsas ideyası müəllimi yalnız bilik ötürən subyekt kimi deyil, öz potensialını reallaşdıran, yaradıcılıq və refleksiya qabiliyyətinə malik şəxsiyyət kimi qəbul etməkdir. Bu yanaşma müəllimin peşəkar "akme" səviyyəsinə çatmasına, yəni kamilliyə doğru inkişafına xidmət edir.

Tarixi baxımdan pedaqoji akmeologiya XX əsrin ikinci yarısında formalaşmış, B.G. Ananyevin, N.V. Kuzminanın, A.A. Derkaçın və A.A. Bodalevin elmi əsərlərində sistemləşmişdir. Bu tədqiqatçılar insan fəaliyyətinin zirvə mərhələsini – akmeni psixoloji, pedaqoji, sosial və mənəvi aspektlərdə öyrənmiş və nəzəri baxımdan əsaslandırmışlar. Bu mərhələlər göstərir ki, pedaqoji akmeologiya yalnız nəzəri konsepsiya deyil, eyni zamanda təhsil prosesində müəllim və şagirdin şəxsiyyət kimi inkişafına dəstək verən praktiki modeldir.

Müasir pedaqogikada akmeoloji elementlər müxtəlif tədris və idarəetmə modellərində öz əksini tapır. Kompetensiya əsaslı təhsil, fasilitativ pedaqogika, sosial-emosional öyrənmə, müəllimlərin fasiləsiz peşəkar inkişafı və innovativ təhsil mühiti bu elementlərin ən aydın təzahürüdür. Akmeologiya müəllimi yalnız dərs deyən deyil, həm də refleksiv, yaradıcı və humanist fəaliyyət göstərən şəxs kimi inkişaf etdirir.

Problemin aktuallığı. Müasir dövrdə təhsil sistemində müəllimin rolu yalnız bilik ötürən deyil, həm də yaradıcı və şəxsiyyət inkişafını stimullaşdıran lider kimi dəyərləndirilir. Bu baxımdan pedaqoji akmeologiya müəllimin peşəkar və mənəvi kamilliyə doğru inkişafını təmin edən elmi baza kimi xüsusi əhəmiyyət kəsb edir. Cəmiyyətin intellektual potensialının artırılması, innovativ təlim mühitinin formalaşması və humanist dəyərlərin gücləndirilməsi akmeoloji yanaşmanın aktuallığını daha da artırır. Müəllimlərin özünüinkişaf və refleksiya mədəniyyətinin formalaşması, təhsildə keyfiyyətin yüksəldilməsi baxımından pedaqoji akmeologiyanın tətbiqi zəruri elmi-pedaqoji istiqamət kimi çıxış edir.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, pedaqoji akmeologiya müəllimin peşəkar inkişafı, şəxsiyyətin özünürealaşdırması və yaradıcılıq potensialının formalaşması kontekstində kompleks şəkildə təhlil olunur. Araşdırmada müəllimin fəaliyyətinə akmeoloji yanaşmanın tətbiqi təhsilin keyfiyyətinə və innovativ transformasiyasına təsir edən amil kimi əsaslandırılır. Müəllimin refleksiv bacarıqları, emosional-intellektual sabitliyi və liderlik davranışlarının akmeoloji prinsiplərlə qarşılıqlı əlaqəsi elmi əsasda sistemləşdirilmişdir. Bu yanaşma Azərbaycan təhsil mühitində pedaqoji fəaliyyətin yeni nəzəri-praktik istiqamətini formalaşdırır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, pedaqoji akmeologiya prinsiplərinin təhsil prosesinə tətbiqi müəllimlərin peşəkar inkişaf sistemini təkmilləşdirməyə imkan yaradır. Akmeoloji yanaşma əsasında müəllimlərin özünüinkişaf proqramlarının, refleksiv təlim modellərinin və innovativ tədris metodlarının hazırlanması üçün elmi baza formalaşır. Eyni zamanda, bu nəticələr pedaqoji kadr hazırlığı, ixtisasartırma və məktəbdaxili idarəetmə proseslərində tətbiq oluna bilər. Araşdırma nəticələri təhsilin keyfiyyətinin yüksəldilməsi və müəllimin şəxsiyyətyön lü inkişafının təmin olunması istiqamətində praktik töhfə verir.

Ədəbiyyat

1. Ананьев, Б.Г. Человек как предмет познания. 3-е изд. / Б.Г. Ананьев. –Питер, 2001. –288 с.
2. Бодалев, А.А. Психология общения / А.А. Бодалев. –Москва: МОДЭК, –2002. –256 с.
3. Деркач, А. А. Акмеологические основы развитие профессионала / А.А. Деркач. –Москва: МОДЗК, –2004. –752 с.
4. Кузьмина, Н.В. Профессионализм деятельности преподавателя высшей школы (акмеологический аспект) / Н.В. Кузьмина. – М.: Издательство «Педагогика», –1990. –285 с.
5. Кузьмина, Н.В. Профессионализм деятельности преподавателя и мастера производственного обучения / Н.В. Кузьмина. –Москва: Высшая школа, –1990. –117 с.
6. Maslow, A.H. Motivation and Personality / A.H. Maslow. –New York, 1954. –394 p.
7. Rogers, C. On Becoming a Person: A Therapist's View of Psychotherapy / C. Rogers. Boston, 1961. 435 p.
8. Frankl, V. Man's Search for Meaning. –New York, 1946. – 29 p.
9. Bodalev, A.A. Psykologiya kommunikatsii i professional'noe razvitie lichnosti / A.A. Bodalev. – Moskva, 1998. –256 c.
10. Derkaç, A.A. Pedagogical Akmeology: Theory and Practice / A.A. Derkaç. –Moskva, 2004. – 536 p.
11. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. https://e-qanun.az/framework/29145

Redaksiyaya daxil olub: 04.11.2025

378.4:303.722

Şəlalə Əli qızı Adıgözəlova,
Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının dosenti
https://orcid.org/0000-0003-4277-0866
E-mail.adigozelshalala@gmail.com

Tahirə Əliş qızı Qasımova
Sumqayıt Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının müəllimi
https://orcid.org/0000-0002-5934-6431
E-mail:taira8474@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).153-156

MÜƏLLİMİN SİNİFİN İDARƏETMƏ PROSESİNDƏ ROLU

Shalala Ali Adygezalova,
associate professor of the department of Pedagogy and psychology at Sumgayit State University

Tahira Alish Gasimova
lecturer of the department of Pedagogy and psychology at Sumgayit State University

THE ROLE OF THE TEACHER IN THE CLASSROOM MANAGEMENT PROCESS

Шалала Али гызы Адыгезалова,
доцент кафедры педагогики и психологии Сумгаитского Государственного университета

Тахира Алиш гызы Гасымова
преподаватель кафедры педагогики и психологии Сумгаитского Государственного университета

РОЛЬ УЧИТЕЛЯ В ПРОЦЕССЕ УПРАВЛЕНИЯ КЛАССОМ

Xülasə. Məqalədə şagird qruplarına rəhbərliyin pedaqoji problemləri göstərilir və qarşıya çıxan çətinliklər və onların həlli yolları təhlil olunur. Əsas məqsəd sinif rəhbərlərinin şagird qrupları ilə iş prosesində üzləşdiyi pedaqoji məsələləri müəyyən etmək və onların səmərəli idarə olunması üçün tövsiyələr təqdim etməkdir. Şagirdlər arasında psixoloji mühitin yaradılması, qarşılıqlı hörmət və əməkdaşlığın təşviqi, liderlik və məsuliyyət hissinin formalaşdırılması rəhbərliyin əsas məqsədlərindəndir.

Açar sözlər: *sinif rəhbəri, şagird qrupu, sosial qrup, birgəfəaliyyət, münasibət, fasilitasiya, sinifə rəhbərlik, rəhbərlik üslubu, əməkdaşlıq, məqsəd və vəzifələr, planlaşdırma, texnologiya, paradiqma*

Abstract. This article explores the pedagogical problems related to managing student groups, analyzing the challenges, their underlying causes, and potential solutions. The main aim of the study is to identify the key pedagogical issues faced by class leaders in working with student groups and offer methodological recommendations for effective management. The article emphasizes the importance of creating a healthy psychological environment within the group, fostering mutual respect, leadership, and a sense of responsibility among students.

Key words: *class leader, student group, social group, team work, attitude, facilitation, classroom management, leadership style, collaboration, goals and objectives, planning, technology, paradigm*

Аннотация. В статье рассматриваются педагогические проблемы, связанные с руководством ученическими группами. Основная цель выявить ключевые педагогические вопросы, с которыми сталкиваются классные руководители в процессе взаимодействия с ученическими коллективами. Отмечается важность создания психологической атмосферы в коллективе, формирование взаимопонимания, лидерских качеств и чувства ответственности среди учеников.

Ключевые слова: *классный руководитель, школьная группа, социальная группа, совместные действия, отношение, фасилитация, управление в классе, стиль руководства, сотрудничество, цели и задачи, планирование, технология, парадигма*

Məlum olduğu kimi, məktəbdə idarəetmə təhsil sistemi üçün qəbul olunmuş qanunlar, onun daxili nizamnaməsi, tələb, qaydaları əsasında nizamlanır. Bu zaman təhsil sistemində idarəetmənin bir sıra formalarından istifadə edilir. İdarə edən və idarə olunanlar bu qaydalarla rəsmi əlaqələr qurur, birgə, razılaşdırılmış fəaliyyət göstərirlər. Sinif rəhbərinin təhsil prosesinin digər iştirakçıları ilə qarşılıqlı münasibətləri də bu qaydalara və münasibətlər psixologiyasına görə nizamlanır.

Əslində, heç bir sənəddə, o cümlədən məktəb nizamnaməsində sinif rəhbərliyi istiqamətləndirən geniş şərhlər verilmir. Bu proses, bir tərəfdən sinif rəhbərinin özünün pedaqoji-psixoloji paradiqmasında, iş üslubunda, digər tərəfdən, rəhbərlik üslubunda öz əksini tapır. Sinfə rəhbərlik prosesi də buna uyğun şəkildə qurulur. Nəticədə bu qurulma bir sıra qeyri-müəyyən, aydınlaşmamış təsirlər altında baş verir.

Təhsil sistemində qruplarının idarə olunmasının özünəməxsus xüsusiyyətləri var. Hər bir sosial qrupda idarəetmə fərqli üsullarla tənzimlənir. Təhsil qruplarının idarə olunması da fərqlidir. Burada sinif rəhbərinin şagirdlərlə münasibətlərində öndə duran sənəd məktəbdaxili nizamnamədir. Ə.Ə. Əlizadə və H.Ə. Əlizadə yazırlar: "Müəllim də, şagird də konfensial roldur. Özlərinin rol repertuarlarına görə onlar müxtəlif adamlarla bağlıdırlar. Bu kökdə də müəllim və şagirdlərin münasibətləri şaxələnir" "müəllim-müəllim", "müəllim-valideynlər", şagird-şagird", "şagird-valideyn" və s. tipli münasibətlər şəbəkəsi nə qədər çoxcəhətli olursa, olsun, onların mürəkkəb kontiniumunda mərkəzi sistem, təşkiledici münasibətlər "müəllim-şagird" münasibətləri sayılır" (1, s. 88).

Sinfə rəhbərlik müəllimdən şagird qruplarına rəhbərlik bacarıqları tələb edir. Qruplarla iş bir təlim forması kimi şagirdlərə əməkdaşlıq xüsusiyyətləri, keyfiyyətləri aşılayır. Kurikulum proqramı çərçivəsində təşkil olunan dərslərdə həmin keyfiyyətlər aşılamaq üçün kifayət qədər şərait yaratmaq mümkündür. Ancaq hələ də, təəssüf ki, məktəblərdə müəllimlər bu sahədə təcrübəzislik hiss edirlər. Məsələ bundadır ki, məktəbdə "subyekt-subyekt" münasibətlərinin psixoloji mahiyyəti hələ yetərincə aydınlaşdırılmayıb. Bu sahədə sistemli psixoloji-pedaqoji tədqiqatlar aparılmayıb. Fasilitatorluq fəaliyyətinin praktik tərəfləri müəllimlər tərəfindən kurikulumun tələblərinə uyğun şəkildə mənimsənilməyib. Belə bir şəraitdə, deməli, şagird qruplarının müasir tələblər baxımından necə idarə edilməsi məsələsi də aydınlaşmamış qalır. Ona görə də, hazırda sinfə rəhbərlik üslubunun hansı ölçülərə uyğun gəlməsi, təhsildə aparılan islahatlar baxımından hansı prinsiplərlə tənzimlənməsi, müxtəlif yaşlar üzrə qrup fəaliyyətinin təşkilində hansı üsullardan istifadə edilməsinin izahı zəruri məsələ kimi meydana çıxır. K. Levin tərəfindən yaradılmış sahə nəzəriyyəsinin əsas ideyasını sosial davranışın qanunlarını psixoloji və sosial enerji anlayışlarının dərk olunmasında, onun determinasiyasında axtarmağın lazım olması fikri təşkil edir. K. Levinin bu araşdırmalarının nəticələri "sahə nəzəriyyəsi"ndə ümumiləşir. Sahə nəzəriyyəsində öyrənilən digər əsas məsələlər: qrupun formalaşması şərtləri, digər qruplarla qarşılıqlı münasibətlər, qrup normalarının və məqsədlərin formalaşması, qrupda liderlik problemi və s. təşkil edir.

İnsanların sosial davranışına hansı tələbatların təsir etdiyi sualına cavab axtaran qrup dinamikası məktəbinin nümayəndələri qrupdaxili münaqişələr problemini qrup şəklində fəaliyyətin səmərəliliyi, qrupdaxili rəqabət problemi ilə uyğun şəkildə araşdırmışlar. K. Levin hesab edir ki, biz hər hansı bir qrupu o, yalnız öz xüsusiyyətlərinə, əlamətlərinə malik olduqdan sonra qəbul edə bilərik. Onun fikrincə, qrupun xüsusiyyətləri onun elementlərinin (üzvlərinin) xüsusiyyətləri ilə deyil, elementlər arasındakı münasibətlər ilə şərtlənir. K. Levin bir neçə insanın bir yerdə fəaliyyətini heç də həmişə qrup olaraq qəbul etmir (2, s. 389).

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, başqalarının iştirakı zamanı fəaliyyətdə sürət artır, lakin bu zaman keyfiyyət aşağı düşür. Elmdə bu effekt "sosial fasilitasiya" adı qazanmışdır. D. Mayers sosial fasilitasiyaya dair araşdırmaları nəzərdən keçirərək bu qənaətə gəlir ki, qrup insanlara oyadıcı, ehtiraslandırıcı, fəallaşdırıcı təsir göstərə bilir. Eksperimentlər nəticəsində həmçinin əks effekt – başqa şəxslərin iştirakının fərdin fəaliyyətinə ləngidici təsiri də müəyyən olunmuşdur. Bu effekt öz növbəsində psixologiyada sosial inhibasiya adı almışdır. Qeyd olunmalıdır ki, psixologiyada daha çox sosial fasilitasiya fenomeni tətbiq olunmaqdadır və ümumiyyətlə bu araşdırmaların elmə verdiyi ən böyük nailiyyət məhz sosial fasilitasiya anlayışı hesab olunur (3, 186).

Ə.S. Bayramov və Ə.Ə. Əlizadə qrup münasibətlərində sosial fasilitasiya və onun önəmli tərəflərini vurğulayırlar: "Sosial fasilitasiya dedikdə insanların sosial təmas şəraitində bir-birinə göstərdikləri müsbət təsir nəzərdə tutulur. Bu zaman onların fəallığı artır, reaksiyaları nisbətən asanlaşır, fəaliyyətin nəticəsi yaxşılaşır" (5, s. 116). Müəlliflər sosial fasilitasiyanın 3 effektini ayırd edirlər (4, s. 116-117):

kütləvi effekt – başqa adam sosial situasiyada ancaq tamaşaçı kimi iştirak edir və özünü passiv aparır; koaksiya effekti – adamlar birgə fəaliyyətdə iştirak edilər; interaksiya effekti – fərdlərin birgə fəaliyyətdə iştirakı əməkdaşlıq xarakteri kəsb edir (qarşılıqlı təsir).

Qrupların araşdırılmasına başlayarkən həll edilməli ilk suallardan biri belədir: kiçik qrup nədir, onun əlamətləri və sərhədləri necədir? Rusiya psixoloqu Q. Andreyevanın "Sosial psixologiya" kitabında bu anlayışın məzmunu aşağıdakı kimi açıqlanır: "Kiçik qrup dedikdə, tərkibi azsaylı olan qruplar nəzərdə tutulur. Onun üzvləri bir-birinə ümumi ictimai fəaliyyətlə bağlıdırlar. Bu da öz növbəsində qrup üzvləri arasında birbaşa emosional münasibətlərin yaranmasına səbəb olur". Bu, qrup haqqında dəqiq ifadə olunmuş və tez bir zamanda təsəvvür yaradan fikirdir (5, s. 126).

Sinif rəhbəri şagirdlərlə işləyərkən bu amili həmişə diqqət mərkəzində saxlamalıdır ki, insan dünyanın ən dəyərli varlığıdır. Bu səbəbdən məktəbdə təhsil alan şagirdlərə onların fərdiliyi, özəlliyi baxımından yanaşılmalıdır. Son dövrlərdə şagirdin sinif qrupunun üzvü kimi tədqiq olunmasına diqqət artmışdır. Deməli, sinif rəhbəri şagirdlərə ilk növbədə özünü qrupda təsdiqetmə bacarıqları aşılamağa yönələn fəaliyyət göstərməlidir.

Sinif rəhbəri məktəbin direktoru tərəfindən təyin edilir. Onun fəaliyyəti tədris işləri üzrə direktor müavini tərəfindən tənzimlənir. Bunlar, sinif rəhbərinin rəsmi səlahiyyətlərini tənzimləyən normativ tələblərdir.

Əslində, sinif rəhbəri kimdir? Sinir rəhbərinin idarəetmə və rəhbərlik fəaliyyəti, ilk növbədə şagirdlərin mənəvi tələbatının ödənilməsinə xidmət etməlidir. O, bir tərəfdən şagirdlərin potensial imkanlarını maksimum qaydada reallaşdırmağa kömək edirsə, digər tərəfdən fəaliyyət prosesində şəxsiyyətin formalaşması üçün mənəvi-psixoloji iqlim şəraitinin yaradılmasına, qarşılıqlı münasibətlərin tənzimlənməsinə istiqamət verir. Bu proses onun rəhbərlik üslubu, qarşılıqlı münasibətləri, şagirdlərlə bir-birini qavrama və anlamasının qarşılıqlı təsirində baş verir. A.N. Abbasov pedaqogikada sinif rəhbərinin statusu haqqında bunları qeyd edir: "Sinif rəhbəri, adətən bu sinifdə dərs aparan nümunəvi əxlaqa, təşkilatçılıq bacarığına malik, tərbiyə işinin metodikasına bələd olan, öz ixtisasına dərindən yiyələnən, uşaqları sevən, fənn müəllimlərindən biri olur. Deməli, o, bir tərəfdən fənn müəllimi, digər tərəfdən tərbiyəçi-rəhbər funksiyasını öz üzərinə götürür" (6, s.320).

"Sinif rəhbəri" anlayışının mahiyyəti məktəbdə təhsil alan və artıq almış hər bir kəsə aydındır. Bir çoxları onun simasını heç zaman unutmur, xoş hisslərlə yada salır, bəziləri isə təəssüf doğuracaq duyğularla xatırlayırlar. Bu, əlbəttə ki, sinif rəhbərinin pedaqoji fəaliyyətində şagirdlərə necə münasibət göstərməsi ilə bağlı olur.

Sinif rəhbərinin başlıca *məqsədi* - şagird şəxsiyyətinin inkişafı, onların özünüinkişaf və özünüreallaşdırması üçün əlverişli mühit yaratmaq, cəmiyyətdə uğurla sosiallaşmasına nail olmaqdır. Məqsəd bir sıra vəzifələr əsasında reallaşdırılır. Bu vəzifələr iki qrupa bölünür: ümumi və konkret vəzifələr.

Sinif rəhbərinin işinin planlaşdırılması onun vəzifələrinə daxil olan başlıca məsələlərdən biri, həm də birincisidir. Bu işə məsuliyyətli münasibət sinif rəhbərinin öz işinə motivləşməsinə zəmin yaradır. Hər bir sinif rəhbəri bu işin əhəmiyyətini və vacibliyini dərk edir, lakin heç də hər kəs planlaşmanı könüllü aparmır. Bu işə,

sadəcə olaraq, adminstrativ funksiya kimi yanaşırlar. Təcrübədə planlaşdırma və onun icrasından sövq alan, məmnunluq duyan azsaylı pedaqoqla rastlaşmaq olar.

Sinif rəhbərini fəaliyyətinin məqsədi planlaşdırılmış, sistemli şəkildə həyata keçirilir. Məqsədin reallaşdırılması üçün illik iş planı tərtib edilərək məktəb rəhbərliyi tərəfindən təsdiqlənir. Planlaşdırılan tədbirlər şagirdlərin yaşa görə aparıcı fəaliyyəti ilə uzlaşdırılır. Əslində, planlaşma yaradıcı prosesdir. O, spontan, sistemli, fasiləsiz davam edən fəaliyyətin tənzimlənməsini nəzərdə tutan bir işdir. Burada nəyin daha vacib, nəyin ikinci dərəcəli olmasına, fərqli tərzdə qurulmasına, sinifdəki şagirdləri, onların valideynlərini, məktəbin rəhbərliyini, nəhayət, sinif rəhbərinin özünü razı salmasına diqqət yetirmək lazım gəlir. Ona görə də planlaşdırmada hər kəsi təmin edən məsələləri əhatə etmək, hansı formada və hansı işi təşkil etmək çox önəmlidir.

Sinif qrupu cəmiyyətin sosial strukturunun komponentidir. Sinif qrupu isə qrupun geniş yayılmış formalarındandır. Q.Y. Abbasova, R.M. Mahmudova və H.Ə. Əlizadə bildirirlər ki, şagirdlərin birgə fəaliyyətinin qrup formasında təşkili prosesində şagirdlərdə sosial əməkdaşlıq motivinin formalaşdırılması üçün əlverişli şərait yaranır. Onlar eyni bir məkanda, sinif məkanında artıq təklikdə fəaliyyət göstərmir, bir-birilə qarşılıqlı surətdə kömək edir, bir-birilə məsləhətləşir, hər hansı bir tədris tapşırığı birlikdə müzakirə olunur. Şagirdlər bir-birilərinə qarşılıqlı surətdə nəzarət edirlər. Ümumi sosial fəaliyyətdə qrup şəklində iştirak bu qrupu həmin fəaliyyətin subyekti kimi təfsir etməyə imkan verir. Bu təfsirə kifayət qədər aydınlıq gətirilməsi üçün yuxarıda göstərilən fikirdə ən əsas və dəyərli hissə seçilməlidir: sinif qrupu-ictimai münasibətlərin birbaşa şəxsi əlaqələr şəklində özünü göstərdiyi qrupdur. Bu fikirdə şagirdlərdən təmsil olunan qrupun əsas əlamətləri özünü göstərir. Belə ki, sinif qrupu ictimai münasibətləri vakuumda deyil, müəyyən sistemdə real şəkildə fəaliyyət göstərən insanlardan ibarətdir. Sinif qrupu konkret ictimai fəaliyyətin subyekti rolunda çıxış edir və məktəbin strukturunun bir hissəsidir.

Bundan başqa, sinif qruplarında ictimai münasibətlər bilavasitə şəxsiyyətlərarası münasibətlər formasında özünü göstərir. Bu, şagirdlər arasında sadəcə əlaqələr deyil, birgə fəaliyyətə əsaslanan ictimai əlaqələrin reallaşdığı qrupdur. Məhz belə qrupla işləmək üçün müasir təlim texnologiyaları yaradılmışdır. Həmin texnologiyaların tətbiqi sinif rəhbərindən yaradıcılıq bacarığı tələb edir. Təlim texnologiyalarının psixoloji məzmunu özündə mənimsəmə prosesi ilə bağlı olanları birləşdirir. Bütün bunlar təhsil paradiqmalarında birləşərək onun konseptual əsaslarını əmələ gətirir. Yeni modellər də belə tutarlı, elmi-təcrübi bazaya malik olan təhsil paradiqmaları əsasında həyata keçirilir. Bunun üçün sinif rəhbəri, ilk növbədə özünün fərdi iş üslubuna uyğun idarəetmə paradiqması müəyyənləşdirməlidir.

Problemin aktuallığı. Tədqiqatın aktuallığı şagird qruplarına rəhbərliyin pedaqoji problemlərini və qarşıya çıxan çətinliklərini, onların həlli yollarını araşdırmaqdır.

Problemin elmi yeniliyi. Elmi məqalədə məktəbdə sinir rəhbərinin idarəetmə və rəhbərlik fəaliyyətini, əməkdaşlıq şəraitində şagirdlərin yaradıcılıq qabiliyyətlərini aşkar etmək üçün yeni modellərin hazırlanmasıdır.

Problemin praktik əhəmiyyəti. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

Ədəbiyyat

1. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. – Bakı: –2010. –600 s.
2. Левин, К. Теория поля в социальных науках / К. Левин. –СПб.: Сенсор, –2000. –368 с
3. Майерс, Д. Социальная психология. / Д. Майерс. –СПб.: Речь, –2002. –567 с.
4. Bayramov, Ə.S. Sosial psixologiya / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. –Bakı: Qapp-Poliqraf. Korporasiyası. –2003. –356 s.
5. Abbasov, A.N. Pedaqogika. Pedaqoji ali məktəb tələbələri üçün dərs vəsaiti / A.N. Abbasov -Bakı: Mütərcim, – 2010. –356 s.
6. Abbasova, Q.Y. Təhsilin sosial-pedaqoji məsələləri / Q.Y. Abbasova, R.M. Mahmudova, H.Ə. Əlizadə. – Bakı: Turan evi, – 2008. –202 s.
7. http://nsportal.ru/shkola/administrirovanie-shkoly/library
8. http://freepsychology.narod.ru
9. http://wolf-kitses.livejournal.com

Redaksiyaya daxil olub: 26.09.2025

37-378.

Taleh Fərman oğlu Xəlilov
Naxçıvan Dövlət Universitetinin
dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-2350-743X
E-mail:x.taleh@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).157-162

STRATEJİ PLANLAŞDIRMA ƏSASLI İDARƏETMƏ TƏCRÜBƏLƏRİNİN BEYNƏLXALQ TƏHLİLİ (TÜRKİYƏ, İNGİLTƏRƏ VƏ ALMANİYA NÜMUNƏSİNDƏ)

Taleh Farman Khalilov
associate professor of
Nakhchivan State Universit,
doctor of philosophy in pedagogy

INTERNATIONAL ANALYSIS OF STRATEGIC PLANNING-BASED MANAGEMENT PRACTICES (THE CASES OF TURKEY, THE UNITED KINGDOM, AND GERMANY)

Талех Фарман оглы Халилов
доцент
Нахичеванского Государственного Университета
доктор философии по педагогике,

МЕЖДУНАРОДНЫЙ АНАЛИЗ УПРАВЛЕНЧЕСКИХ ПРАКТИК, ОСНОВАННЫХ НА СТРАТЕГИЧЕСКОМ ПЛАНИРОВАНИИ (НА ПРИМЕРЕ ТУРЦИИ, ВЕЛИКОБРИТАНИИ И ГЕРМАНИИ)

Xülasə. Bu məqalədə ali təhsil müəssisələrində strateji planlaşdırmaya əsaslanan idarəetmə modellərinin Türkiyə, İngiltərə və Almaniya təcrübəsi əsasında müqayisəli təhlili aparılmışdır. Məqalədə hər üç ölkənin strateji planlaşdırma sistemlərinin hüquqi çərçivəsi, tətbiq mexanizmləri, maraqlı tərəflərin iştirakı və performans əsaslı qiymətləndirmə meyarları kontekstində fərqlilikləri və oxşarlıqları araşdırılmışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, idarəetmədə strateji yanaşmanın səmərəliliyi institusional muxtariyyət, şəffaf hesabatlılıq və davamlı monitorinq sistemləri ilə birbaşa əlaqəlidir. Bu aspektlərin effektiv şəkildə inteqrasiya olunduğu ölkələrdə ali təhsilin idarəolunmasında daha yüksək nəticələr əldə olunur.
Açar sözlər: *Strateji planlaşdırma, ali təhsil, idarəetmə təcrübəsi, beynəlxalq müqayisə, Türkiyə, İngiltərə, Almaniya*

Abstract. This paper presents a comparative analysis of strategic planning-based management models in higher education institutions, focusing on the cases of Turkey, the United Kingdom, and Germany. It examines the legal frameworks, implementation mechanisms, stakeholder engagement, and performance-based evaluation criteria in each country. The findings indicate that the effectiveness of strategic management is closely linked to institutional autonomy, transparent accountability, and robust monitoring systems. Countries with well-integrated elements of these practices achieve more effective governance outcomes in higher education.
Keywords: *Strategic planning, higher education, management practices, international comparison, Turkey, United Kingdom, Germany*

Аннотация. В данной статье проводится сравнительный анализ управленческих моделей в высших учебных заведениях, основанных на стратегическом планировании, на примере Турции, Великобритании и Германии. Рассматриваются законодательные рамки, механизмы реализации, участие заинтересованных сторон и критерии оценивания эффективности. Результаты исследования показывают, что эффективность стратегического подхода напрямую зависит от институциональной

автономии, прозрачности отчетности и устойчивых систем мониторинга. В странах, где эти элементы успешно интегрированы, наблюдаются более высокие показатели управления в сфере высшего образования.

Ключевые слова: *стратегическое планирование, высшее образование, управленческий опыт, международное сравнение, Турция, Великобритания, Германия*

Ali təhsil sahəsində strateji planlaşdırma idarəetmənin müasir yanaşmalarından biri kimi ön plana çıxır və bu sahədə beynəlxalq təcrübələrin müqayisəli təhlili əhəmiyyət kəsb edir. Qlobal dəyişikliklərin təsiri altında ali təhsil müəssisələri yalnız təhsil və tədqiqat funksiyalarını yerinə yetirməklə kifayətlənmir, həm də sosial, iqtisadi və mədəni inkişafda mühüm rol oynayır. Bu şəraitdə strateji planlaşdırmanın tətbiqi, universitetlərin uzunmüddətli məqsədlərinə nail olmaq, resursları effektiv idarə etmək və rəqabət qabiliyyətini artırmaq üçün zəruri bir vasitəyə çevrilmişdir [3, s. 12148].

Strateji planlaşdırma, təşkilatların mövcud daxili potensialını və xarici mühit faktorlarını sistemli şəkildə təhlil etməsinə, aydın vizyon və məqsədlər formalaşdırmasına imkan verir. Bu prosesdə istifadə olunan müxtəlif analiz alətləri qərarvermənin əsaslandırılmış və realistik olmasını təmin edir, həmçinin idarəetmə proseslərinin şəffaflığını gücləndirir [1, s. 48].

Beynəlxalq səviyyədə, müxtəlif ölkələrin ali təhsil sistemlərində strateji planlaşdırma fərqli idarəetmə mədəniyyətləri və siyasi strukturlara uyğun olaraq formalaşır. Məsələn, ABŞ-da universitetlər yüksək səviyyədə avtonomiyaya malik olmaqla öz strateji istiqamətlərini müəyyən edir, Almaniyada isə əyalət əsaslı və performansa dayalı idarəetmə modelləri üstünlük təşkil edir [2, s. 6228]. İngiltərə nümunəsi isə strateji planlaşdırmanın həm daxili idarəetməni təkmilləşdirmək, həm də beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək məqsədilə necə tətbiq olunduğunu göstərir [4, s. 8]. Eyni zamanda, Türkiyədə 2006-cı ildən bəri qəbul edilmiş performansa əsaslanan strateji planlaşdırma yanaşması universitetlərin fəaliyyətində müəyyən standartlar yaratmışdır, lakin tətbiq və monitorinq mexanizmlərində hələ də inkişaf sahələri mövcuddur [5, s. 48].

Bu araşdırmanın məqsədi, Türkiyə, İngiltərə və Almaniya nümunələrində strateji planlaşdırma əsaslı idarəetmə təcrübələrini müqayisəli şəkildə təhlil etmək, bu təcrübələrin funksionallığını müəyyənləşdirmək və Türkiyə ali təhsil sisteminin inkişafına töhfə verə biləcək tövsiyələr formalaşdırmaqdır [2, s. 6229]. Beləliklə, ali təhsil müəssisələrinin daha səmərəli, şəffaf və hesabatlı idarəetmə ilə qlobal rəqabət mühitində mövqelərini gücləndirmələri təmin edilə bilər.

Tədqiqatın məqsədi və metodologiyası

Bu tədqiqatın əsas məqsədi ali təhsil müəssisələrində strateji planlaşdırma əsaslı idarəetmə təcrübələrinin müxtəlif ölkələrdə – xüsusilə Türkiyə, İngiltərə və Almaniya nümunələrində – necə qurulduğunu və tətbiq olunduğunu müqayisəli şəkildə araşdırmaqdır. Tədqiqat, strateji planlaşdırma proseslərinin idarəetmə strukturlarına, korporativ performansa və dövlət siyasətlərinə təsirlərini müəyyən etməyi, eləcə də bu təcrübələrin Türkiyə ali təhsil sistemində tətbiq imkanlarını qiymətləndirməyi hədəfləyir.

Metodoloji yanaşma olaraq keyfiyyətyönlü tədqiqat üsulu seçilmiş, sənəd araşdırması və məzmun təhlili əsas götürülmüşdür. Bu çərçivədə, hər üç ölkənin müvafiq təhsil orqanları tərəfindən yayımlanmış strateji planlaşdırma sənədləri, qanunvericilik aktları, universitetlərin illik fəaliyyət hesabatları və beynəlxalq təşkilatların hesabatları ətraflı şəkildə təhlil edilmişdir. Əsas diqqət, strateji planların hazırlanması, tətbiqi, monitorinq və qiymətləndirmə mexanizmlərinə yönəldilmişdir.

Bununla yanaşı, mövcud akademik ədəbiyyat və nəzəri çərçivələr də tədqiqatın strukturunun formalaşmasına xidmət etmişdir. Strateji xəritələşdirmə, performans idarəetməsi və korporativ idarəetmə modelləri kimi konseptual yanaşmalar əsasında məlumatlar sistemləşdirilmiş və müqayisəli təhlil aparılmışdır. Bu metodologiya tədqiqatın beynəlxalq təcrübələri vahid nəzəri çərçivədə təhlil etməsini və Türkiyə üçün praktiki tövsiyələr formalaşdırmasını təmin etmişdir.

Nəticədə, tədqiqat strateji planlaşdırmanın müxtəlif idarəetmə kontekstlərində funksionallığını ortaya qoymaqla yanaşı, Türkiyənin ali təhsil sistemində strateji idarəetmənin effektivliyinin artırılması üçün zəruri addımları müəyyən etməyə yönəlib. Bu yanaşma, həm yerli təcrübə-

lərin inkişafına, həm də qlobal təhsil mühitində rəqabət qabiliyyətinin gücləndirilməsinə töhfə verəcəkdir.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Bu bölümdə tədqiqat çərçivəsində analiz edilmiş üç ölkənin ali təhsil sistemlərində strateji planlaşdırma əsaslı idarəetmə tətbiqləri siyasət çərçivəsi, tətbiq modeli, performans meyarları və korporativ təsir aspektləri əsasında müqayisəli şəkildə təhlil edilir.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI (ABŞ)

Amerika Birləşmiş Ştatları ali təhsil sistemi müxtəlif tələblərə cavab verən çevik və müstəqil idarəetmə modelinə əsaslanır. Bu model universitetlərin öz strategiyalarını özlərinə uyğun şəkildə formalaşdırmalarına və tətbiq etmələrinə imkan yaradır.

Amerika Birləşmiş Ştatları ali təhsil sisteminin mərkəzləşməmiş strukturu strateji planlaşdırmanın universitet səviyyəsində formalaşmasını mümkün edir. Universitetlər böyük ölçüdə müstəqil idarəetmə hüququna malik olduqları üçün, öz strateji planlarını vizyon və missiyalarına uyğun hazırlamaq azadlığına sahibdirlər [1, s. 88]. Bu azadlıq universitetlərə yerli və qlobal mühitin tələblərinə cavab verən, innovativ və uzunmüddətli planlar hazırlamaq üçün geniş imkanlar təmin edir.

ABŞ-da strateji planlaşdırma təcrübələri adətən 5–10 illik dövrləri əhatə edir; planlar vizyon-missiya bəyanatı, SWOT təhlili, strateji məqsədlər, fəaliyyət planları və performans göstəriciləri kimi əsas komponentlərdən ibarətdir. Planların hazırlanmasında akademik və inzibati heyətin yanaşı, tələbələr, məzunlar və yerli icma kimi xarici paydaşların fikirlərinə də müraciət edilir. Bu, planların daha inklüziv və realistik olmasına şərait yaradır [5, s. 68]. Belə geniş iştirak modeli strateji planların bütün maraqlı tərəflərin ehtiyac və gözləntilərini əhatə etməsinə imkan verir.

Bundan əlavə, universitetlərdə strateji planların həyata keçirilməsi prosesi müntəzəm olaraq izlənilir və performans hesabatları dərc olunaraq şəffaflıq prinsipi qorunur. Kurumsal akkreditasiya və maliyyələşdirmə mexanizmlərinin planların uğuru ilə birbaşa əlaqələndirilməsi, strateji planlaşdırmaya funksional dəyər qazandırır. Bu yanaşma ABŞ modelini iştirakçılıq, hesabatlılıq və keyfiyyət təminatı baxımından güclü bir nümunə kimi təqdim edir. Strateji planlaşdırmanın tətbiqi, idarəetmədə səmərəliliyin artırılması və universitetlərin rəqabət qabiliyyətinin gücləndirilməsi üçün vacib bir vasitə kimi qəbul olunur.

Bu kontekstdə, ABŞ ali təhsil müəssisələrində strateji planlaşdırma prosesi sadəcə sənəd hazırlanması fəaliyyəti deyil, həm də korporativ idarəetmənin əsas elementlərindən biridir. Planlaşdırma prosesinə cəlb olunan müxtəlif paydaşlar sayəsində strateji məqsədlər həm daxili, həm də xarici mühitin tələblərinə uyğun şəkildə formalaşdırılır; tətbiq və izləmə mərhələlərində şəffaflıq və hesabatlılıq təmin olunur. Nəticədə, strateji planlaşdırma ABŞ-da ali təhsil müəssisələrinin dəyişən şəraitə adaptasiya olma qabiliyyətini artıran dinamik və davamlı idarəetmə aləti kimi fəaliyyət göstərir.

Türkiyə

Türkiyə Respublikasında strateji planlaşdırma anlayışı dövlət idarəçiliyində 5018 saylı Dövlət Maliyyə İdarəçiliyi və Nəzarət Qanunu ilə sistemləşmiş və bu inkişaf ali təhsil müəssisələrinə də təsir etmişdir. Bu qanunvericilik çərçivəsində ali təhsil müəssisələrinin strategiyalarını müəyyən edilmiş bələdçi sənədlərə əsasən hazırlaması tələb olunmuşdur.

Türkiyədə strateji planlaşdırma təcrübələrində universitetlər arasında ciddi fərqliliklər mövcuddur. Bəzi universitetlər strateji planlarını formal sənəd kimi hazırlayarkən, digərləri bu planları qurumsal inkişafın əsas vasitəsi kimi qəbul edir. Tədqiqatlar göstərir ki, strategiya sənədlərinin hazırlanması mərhələsində iştirakçılıq və real məqsədlərin müəyyən olunması bəzən sadəcə formal xarakter daşıyır və bu da planların effektivliyini azaldır [3, s. 12154; 4, s. 15]. Bu vəziyyət strateji planlaşdırmanın praktik tətbiqində əsas problemlərdən biridir və davamlı inkişaf üçün həll yollarının tapılmasını tələb edir.

Eyni zamanda, strateji xəritələşdirmə, performans göstəricilərinin təyini və resursların planlaşdırılması sahəsində təcrübənin artırılması zərurəti açıq şəkildə nəzərə çarpır [3, s. 12160]. Bu sahələrdə mövcud boşluqlar, ali təhsil müəssisələrinin strateji məqsədlərinə çatmaq üçün ehtiyac duyduqları effektiv idarəetmə və resurs bölgüsü mexanizmlərinin zəifliyindən irəli gəlir. Əlavə olaraq, strateji planların icra və monitorinq mexanizmləri hələ də zəif inkişaf etmişdir.

Universitetlərdə strateji planların həyata keçirilməsini izləmək və nəticələri qiymətləndirmək üçün nəzərdə tutulan hesabatlılıq və ölçmə strukturları çox vaxt kifayət qədər funksional deyil [2, s. 6230]. Bu isə planların real icrasına mənfi təsir göstərir.

Bu çərçivədə, Türkiyədə strateji planlaşdırmanın həqiqətən qurumsal idarəetməyə töhfə verməsi üçün planlaşdırma prosesinin demokratikləşdirilməsi, performansa əsaslanan qiymətləndirmə sistemlərinin gücləndirilməsi və tətbiqlərin izlənilməsinin artırılması zəruridir. Bu tədbirlər universitetlərin strateji planlarını daha praktik və nəticəyönlü şəkildə həyata keçirmələrinə imkan verəcək.

Bununla yanaşı, Türkiyədə strateji planlaşdırma tətbiqlərinin effektivliyinin artırılması yalnız qanuni tələblərin yerinə yetirilməsi ilə mümkün deyil; proseslərin daha çox iştirakçı, şəffaf və hesabatlı şəkildə idarə olunması tələb olunur. Universitetlərin strateji planlarını öz qurumsal mədəniyyətlərinə inteqrasiya etmələri, konkret məqsədlər əsasında fəaliyyətlərini müntəzəm olaraq izləmələri və qiymətləndirmələri olduqca vacibdir. Eyni zamanda, strateji planlaşdırma proseslərində iştirak edən personalın peşəkar qabiliyyətlərinin artırılması və daxili kommunikasiya mexanizmlərinin səmərələşdirilməsi strateji idarəetmənin uğurla həyata keçirilməsində mühüm rol oynayacaqdır. Beləliklə, Türkiyənin ali təhsil sistemi dəyişən şəraitə daha çevik uyğunlaşan və beynəlxalq rəqabət qabiliyyətini artıran struktur kimi inkişaf edə bilər.

İngiltərə

İngiltərədə strateji planlaşdırma tətbiqləri uzun illərdir ki, ali təhsil sistemində qurumsallaşmış şəkildə həyata keçirilir. Bu ölkədə ali təhsil müəssisələri öz avtonom strukturlarına malik olmaqla yanaşı, hökumətin müəyyən etdiyi ali təhsil siyasətləri və keyfiyyət standartları əsasında strateji istiqamətlərini müəyyən edirlər.

İngiltərədə strateji planlaşdırma prosesində xarici maraqlı tərəflərin iştirakı böyük önəm daşıyır. Xüsusilə işgüzar dairələr, yerli idarəetmələr və məzun şəbəkələri ilə əməkdaşlıq çərçivəsində hazırlanan planlar daha praktik və davamlı olur. Fonlama mexanizmlərinin böyük hissəsinin performansa əsaslanması strateji planların məzmununun birbaşa institutların büdcəsi ilə bağlı olmasını təmin edir. Bu da universitetlərin məqsədlərini daha dəqiq, ölçülə bilən və hesabat verə bilən şəkildə formalaşdırmaq məcburiyyətində qalmasını şərtləndirir [5, s. 31]. Bu yanaşma, planların həm daxili, həm də xarici maraqlı tərəflərin tələblərinə cavab verməsini təmin edir.

Bundan əlavə, İngiltərədə keyfiyyət təminatı sistemləri strateji planların effektivliyinin qiymətləndirilməsində birbaşa rol oynayır. Bu qurumlar sayəsində planlaşdırma yalnız hesabat vermək vasitəsi kimi deyil, davamlı inkişaf üçün istifadə olunan strateji rəhbərlik aləti kimi fəaliyyət göstərir [4, s. 12]. Bu yanaşma planların təkcə sənəd olaraq qalmasının qarşısını alır və onları idarəetmənin canlı bir hissəsinə çevirir.

Bu kontekstdə, İngiltərədə strateji planlaşdırma prosesləri təkcə universitetlərin daxili idarəetmə mexanizmlərinin bir hissəsi olmaqla qalmır, həmçinin xarici maraqlı tərəflərlə effektiv əməkdaşlıq və performansa əsaslanan hesabatlılıq prinsipləri ilə formalaşır. Keyfiyyət təminatı sistemlərinin dəstəyi ilə strateji planlar davamlı təkmilləşdirmə mədəniyyətinin mərkəzində yer alır və bu da ali təhsil müəssisələrinin rəqabətqabiliyyətli və davamlı struktur kimi inkişafına şərait yaradır. İngiltərə modeli, strateji planlaşdırmanın bütövlükdə və şəffaf idarəetmə vasitəsi kimi istifadəsinə dair mühüm nümunə təqdim edir.

Almaniya

Almaniya ali təhsil sistemi əsasən əyalət əsaslı quruluşa malikdir. Bu səbəbdən universitetlər strateji planlarını aidiyyəti əyalət hökumətlərinin ali təhsil siyasətləri çərçivəsində hazırlayırlar, lakin eyni zamanda akademik avtonomiyalarını mühüm dərəcədə qoruyurlar.

Strateji planlaşdırma proseslərində performansa əsaslanan müqavilələr əhəmiyyətli yer tutur; universitetlər müəyyən edilmiş hədəflərə sadiq qalaraq dövlət maliyyə mənbələrinə çıxış əldə edirlər. Bu yanaşma universitetlərin daha hesabatlı və nəticə yönümlü fəaliyyət göstərməsini təmin edir [5, s. 69]. Bu mexanizm universitetlərin resurslarından daha effektiv istifadə etməsinə və strateji məqsədlərə nail olunmasına zəmin yaradır.

Alman universitetlərinin strateji planları adətən tədqiqat prioritetləri, üçüncü tərəf maliyyələşdirilməsinin artırılması, beynəlxalqlaşma və məzunların uğurları kimi göstəricilər üzərində qurulur. Bundan əlavə, DAAD və digər milli qurumların təqdim etdiyi bələdçi sənədlər uni-

versitetlərə strukturlaşdırılmış yanaşma təklif edir və strateji planlaşdırmanın milli hədəflərlə uyğunlaşdırılmasına imkan yaradır [2, s. 6231; 6, s. 57]. Bu sənədlər, universitetlərin strateji planlaşdırma prosesini sistemləşdirərək onların milli və regional tələblərə uyğunlaşmasını asanlaşdırır.

Bununla belə, Almaniyada universitetlər arasında tətbiq müxtəlifliyi müşahidə olunur. Bəzi universitetlər strateji planlarını idarəetmə zərurəti kimi qəbul edərkən, bəziləri bu prosesi qurumsal transformasiya üçün bir imkan kimi qiymətləndirirlər. Bu müxtəliflik universitetlərin öz strategiyalarını fərqli tərzdə həyata keçirməsinə şərait yaradır və idarəetmədə elastikliyi artırır. Eyni zamanda, bu vəziyyət tətbiq keyfiyyətində uyğunsuzluqlara da səbəb ola bilər.

Ümumiyyətlə multimedia nədir? Media termini latıncadan tərcümədə mühit ya da informasiya daşıyıcısı deməkdir. Multimedia adi kompüterdə olduğu kimi təkcə rəqəmli deyil, müxtəlif növlü məlumatları işləmək imkanı verir. Hər şeydən əvvəl, burada video məlumat nəzərdə tutulur. İ. İsmayılov və C. Abdullayev yazır: "Multimedia qurğuları dedikdə bir neçə cür verilənlər növünün bir yerdə yığımı və ya onların yenidən kompleks canlandırılması üçün istifadə olunan qurğular məcmusu başa düşülür (5, s.191).

Multimedia kompüterləri dedikdə, musiqi, nitq və video məlumatların imkan verən proqram və aparat vasitələri külliyyatı nəzərdə tutulur. Multimedia kompüterlərində olmalıdır: kompakt diskləri oxuyan drayverlər, səs yazılarını canlandırmağa, həmçinin MİDİ formatda yazılmış musiqini sintez etməyə imkan verən səs kartı, ekranda rəngli təsvir rejimində işləməyə imkan verən videosistem, kadrı avtomatik buraxmayan videodisklərin baxılmasına imkan verən proqramlı, yaxud da MPEG-1 tipli dekoder qurğusu. Səsin canlandırılması üçün yuxarıda qeyd edilən qurğulardan başqa fərdi dinləməni təmin edən akustik kolonkalar və qulaq telefonları lazımdır.

Müasir kompüter mərkəzləri dedikdə, bütün multimedia imkanlarına malik olan kompüterlər: təsvir filmləri, CD musiqili oyunlar, İnternet, dizayn proqramı, şəkilli kitabxana, musiqilərin yaradılması və s. istənilən materialın skanerlə çıxarılması və çap olunmasını təmin edən qurğuların toplumu nəzərdə tutulur.

Təhsil sisteminin daha da yaxşılaşdırılmasına xidmət edən və məlumatın müxtəlif formalarda təqdim olunmasını təmin edən multimedia bu gün özünün sürətli inkişafını tapmışdır.

Bu gün ali məktəbin multimedia texnologiyaları magistrantlar üçün etibarlı didaktik alət olmalıdır. Multimedia vasitələrinə məlumatın danışıqla giriş və çıxış qurğuları, indi geniş yayılmış skaneri, səs gücləndiricisi, böyük video ekranları olan yüksək keyfiyyətli akustik və video sistemlər aiddir. Onların köməyi ilə fənn haqqında zəruri biliklər müstəqil əldə edilə bilər. Tədris prosesində interaktiv lövhədən istifadə edilməsi dərsin əyaniliyini və əsas prinsiplərindən birinin qorunmasını təmin edir.

Elektron lövhənin hissiyyatlı səthinə xüsusi qələmlə və ya barmaqla toxunmaqla onun üzərində kompüterdə mümkün olan bütün əməliyyatları qarşılıqlı şəkildə aparmaq olur. "Ağıllı lövhə", həmçinin kompüterə qoşulan mikroskop, skaner, rəqəmli fotoaparat, videokamera və s. qurğulardan alınan təsvirləri də proyektor vasitəsilə qəbul edə bilir ki, bu da virtual laboratoriyaların təşkilində mühüm əhəmiyyətə malikdir. Hazırlanmış şablonları, modelləri kompüterin daimi yaddaşında saxlamaq və dəfələrlə istifadə etmək olur. Belə imkanlar müxtəlif səbəbdən dərsləri təlimdən geri qalanlar üçün xüsusi əhəmiyyətə malikdir.

Magistrantların müəllimlik fəaliyyətinə hazırlanmasında multimedia texnologiyalarının iki tətbiq sahəsini qeyd edə bilərik: ali məktəb daxilində və təhsil müəssisəsi xaricində.

Ali məktəb daxilində multimedia proqramları haqqında məsələ magistrantların davranışına aid olan passiv və ya interaktiv kimi iki əsas proqram qrupunun fərqləndirilməsini nəzərdə tutur. Birinci qrupa müəllimin sadəcə tədris materialının izahı zamanı gücü artırmaq üçün istifadə etdiyi video, səs, təsvirlər, qrafiklər və s. kimi alətlər daxildir. Bu zaman magistrantlar multimedia alətləri ilə qarşılıqlı təsirdə olmur. Bu, o deməkdir ki, məşğələ zamanı gündəlik informasiya magistrantların davranışına müvafiq olaraq dəyişmir. İnteraktiv multimedia vasitələri magistrantların davranışına uyğun olaraq cari məzmunu dəyişdirə bilir: onu öz şəxsi maraqlarına və ya qarşılarında qoyulmuş məqsədlərə uyğun olaraq dəyişdirə bilirlər. Deyilənlər bilavasitə mühazirə, seminar, laboratoriya məşğələlərində istifadə olunan bütün vasitələrə aiddir. Burada video və audio-alətlərdən, kompüterlərdən və s. istifadə edilməsi, magistrantla müvafiq texnika arasında sıx qarşılıqlı təsirlər və hər bir şəxsiyyətdə informasiya mədəniyyətinin inkişaf etdirilməsi üçün mümkün məlumat məkanının yaradılması nəzərdə tutulur.

Təhsil müəssisəsi xaricində uzaqdan material mübadiləsi üçün Web xəbərlər qrupu forumları, çatlar kimi kommunikasiya texnologiyalarına aiddir. Bu alətlərin gücü məsafədən olan təlimdədir, yəni bilikləri məsafədən səmərəli ötürmək üçün qarşılıqlı təsirlər və əməkdaşlıq etmək imkanındadır.

Magistrantın planlaşdırılmış hərəkətlər kompleksinin nəticəsi obyektin layihəsidir ki, magistrant ondan gələcək müəllimlik fəaliyyətində istifadə edə bilər. Layihə texnologiyasından istifadə edilməsi təhsil prosesini peşə fəaliyyətinə maksimum dərəcədə yaxın olan bir şəraitdə həyata keçirməyə şərait yaradır. Bu texnologiya müəllimə tədris olunan fənnin spesifikasını anlamaqla müxtəlif pedaqoji situasiyaları inkişaf etdirmək imkanı verir.

Layihə metodikası 19-cu əsrin ikinci yarısında Amerika Birləşmiş Ştatlarının aqrar məktəblərində yaranıb və amerikalı idealist filosof Con Dyui tərəfindən əsası qoyulan "praqmatik pedaqogika"nın nəzəri konsepsiyalarına əsaslanmışdır. Bu metodikanın əsasında təhsilalanların tədris-təlim fəaliyyətinin nəticəyə yönəlməsi ideyası durur ki, bu nəticə təcrübi və ya nəzəri əhəmiyyəti olan problemin həlli sayəsində əldə olunur.

Layihəyə verilən əsas tələblər hansılardır? Əlbəttə ki, ilk növbədə layihənin mövzusu sosial əhəmiyyətli problem olmalıdır. Bu, tədqiqat, məlumat, tapşırıq ola bilər. Layihənin icra planı olmalıdır. Layihə addım-addım işlənməlidir. Hər bir layihə mütləq tələbələrin tədqiqat işini tələb etdiyindən layihə fəaliyyətinin əsas cəhəti məlumat axtarışıdır. Bu da sonra emal olunur, dərk edilir və layihə qrupunun iştirakçılarına təqdim edilir. Layihə üzərində işin yekunu, başqa sözlə, layihənin nəticəsi – məhsul ol-

malıdır. Kompleks və çoxməqsədli metod kimi tədris layihəsinin çoxsaylı növ və üsulları vardır. Onları anlamaq üçün ən azı üç müxtəlif təsnifat tələb olunur. Hər bir layihənin məzmun dəyərini müəyyən edən ən əsas xüsusiyyətdən başlayaq: praktikyönlü layihə iştirakçıların özlərinin və ya kənar sifarişçinin sosial maraqlarına yönəlib. Məhsul əvvəlcədən müəyyənləşir və o, sinif, məktəb, universitet, rayon, şəhər, dövlət həyatında istifadə edilə bilər. Onun tətbiq dairəsi kabinet üçün dərs vəsaitindən ölkə iqtisadiyyatının bərpası üçün tövsiyələr paketinə qədər genişdir. Əsas odur ki, məhsulun praktikada istifadə etmək gerçəkliyi və problemi həll etmək imkanları qiymətləndirilsin.

Tədqiqat layihəsinin quruluşu əsl elmi tədqiqatı xatırladır. O, seçilmiş mövzunun aktuallığının əsaslandırılmasını, tədqiqat vəzifələrinin təyin edilməsini, ehtimalın irəli sürülməsi zərurətini və onun sonradan yoxlanılmasını, əldə edilmiş nəticələrin müzakirəsini əhatə edir. Bu zaman müasir elmi metodlardan – laboratoriya eksperimenti, modelləşdirmə, sosioloji sorğu və s. istifadə olunur.

İnformasiya layihəsi hər hansı bir obyekt haqqında məlumatların toplanmasıdır ki, onun təhlili, ümumiləşdirilməsi və geniş auditoriyaya təqdim edilməsi məqsədi daşıyır. Belə bir layihənin yayımı tez-tez KİV-də, o cümlədən internetdə dərc olunan yazılarla olur. Bu cür layihənin nəticəsi sinif və ya məktəbdə informasiya mühitinin yaradılması da ola bilər.

Yaradıcılıq layihəsi nəticələrin tərtibatına maksimum sərbəst və qeyri-ənənəvi yanaşmanı nəzərdə tutur. Bunlar almanaxlar, səhnələşdirmə, idman oyunları, təsviri və dekorativ-tətbiqi sənət əsərləri, videofilmlər və s. ola bilər.

Rol layihəsini hazırlamaq və həyata keçirmək daha mürəkkəbdir. Burada iştirak edən layihəçilər ədəbi və ya tarixi personajların, uydurulmuş qəhrəmanların rollarını öz üzərlərinə götürürlər. Layihənin nəticəsi sona qədər naməlum qalır.

Mürəkkəbliyinə görə layihələri iki tipə ayırmaq olar: monolayihələr adətən bir fənn üzrə həyata keçirilir, bununla yanaşı, başqa bilik və fəaliyyət sahələrindən də istifadə etmək olar. Fənlərarası layihələr dərsdən kənar vaxtda və müxtəlif fənlər üzrə müəllimlərin rəhbərliyi altında həyata keçirilir.

Problemin aktuallığı. Danılmaz bir həqiqətdir ki, gələcək cəmiyyətin necə qurulması, cəmiyyət üzvlərinin hansı keyfiyyətlərə, xüsusiyyətlərə malik olmaları, yaşadıqları dövrün tələblərinə cavab verərək fəaliyyət göstərmələri bilavasitə onları cəmiyyətə hazırlayan müəllim kadrlarından asılıdır. Bu müəllim kadrları özləri də müasir dövrün tələbləri əsasında hazırlanmalı onlarda lazımi bilik, bacarıq və vərdişlər, kreativ düşüncə formalaşdırılmalıdır. Bunun üçün müəllim hazırlığı prosesi yeni pedaqoji innovasiyalar və texnologiyalar əsasında qurulmalıdır.

Problemin elmi yeniliyi. Ən səmərəli təlim texnologiyaları və onların həyata keçirilmə istiqamətləri və mexanizmləri göstərilmişdir. Layihə təlim texnologiyası və onun tipləri monolayihələr və fənlərarası layihələr haqqında geniş məlumatlar üzə çıxarılmışdır. Layihələri həyata keçirərkən onlara verilən tələblər açıqlanmışdır.

Problemin praktik əhəmiyyəti. Alınan nəticələrdən ümumtəhsil və ali təhsil müəssisələrinin səlahiyyətli şəxsləri, təhsil işçiləri, təhsildə keyfiyyətin idarə olunması problemləri ilə məşğul olan şəxslər metodiki baxımdan istifadə edə bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında. http:/ /www. portal /edu/ .az.
2. Zamanov, A.D. Ali Təhsil: Reallıqlar, Perspektivlər // Uluslararası V Turkcess Eğitim ve Sosyal Bilimlər Kongresi, -27-29 Haziran, –2019 .
3. Azərbaycan Respublikasının Təhsil haqqında qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir. –Bakı: Hüquq ədəbiyyatı, –2010. –80 s.
4. Nəbiyev, Ə. Magistrantların elmi-pedaqoji təcrübəsinin keçirilməsinə dair metodik göstəriş / Ə. Nəbiyev, E. Bayramova. –Gəncə: STAP çap evi, –2019. –24 s.
5. İsmayılov, İ. Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə onlardan istifadə metodikası. Dərs vəsaiti / İ. İsmayılov, C. Abdullayev. – Bakı: ABU, –2006. –358 s.

Redaksiyaya daxil olub: 02.10.2025

UOT 378.14

Hüzrə Tapdıq qızı Hacızadə
Naxçıvan Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0001-9119-2698
E-mail. hacizadehuzure@ndu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).178-181

PEDAQOJİ ÜNSİYYƏT: ANLAYIŞI, STRUKTURU, FUNKSİYALARI VƏ TƏDRİS PROSESİNDƏ ROLU

Huzra Tapdig Hajizade
doctorial student in the program of doctor of philosophy
of Nakhchivan State University

PEDAGOGICAL COMMUNITY: CONCEPTS, STRUCTURES, FUNCTIONS AND HIS ROLE IN THE EDUCATIONAL PROCESS

Хузра Тапдыг гызы Гаджизаде
докторант по программе доктора философии
Нахчыванского Государственного Университета

ПЕДАГОГИЧЕСКОЕ ОБЩЕНИЕ: КОНЦЕПЦИЯ, СТРУКТУРА, ФУНКЦИИ И РОЛЬ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

Xülasə. Məqalədə tədrisin səmərəliliyi probleminə müasir ali təhsilin ehtiyacları baxımından yanaşılır, müəllim və tələbələr arasında konstruktiv qarşılıqlı əlaqənin təmin edilməsinin məzmun istiqaməti araşdırılır. Tələbələrlə müəllimlər arasında pedaqoji ünsiyyət, qarşılıqlı əlaqə və qarşılıqlı anlaşma kimi anlayışların mahiyyəti üzə çıxarılır, pedaqoji ünsiyyət üslublarının təsnifatları verilir, problemlə bağlı ədəbiyyatın təhlili aparılır. Məqalədə həmçinin ali təhsil müəssisələrində müəllim-tələbə münasibətlərinin formalaşdırılmasının və müəllimlərlə tələbələr arasında qarşılıqlı anlaşmanın yaradılması üsullarından istifadənin praktiki əhəmiyyəti də əsaslandırılır. Deyilənlər əsas götürülərək müəllim və tələbələr arasında konstruktiv qarşılıqlı əlaqənin inkişafına yönəlmiş pedaqoji prinsiplər və üsullar ümumiləşdirilmişdir.
***Açar sözlər**: ali məktəb, tədrisin səmərəliliyi, müəllim və tələbə münasibətləri, pedaqoji ünsiyyət, qarşılıqlı fəaliyyət pedaqogikası*.

Abstract. In the article, the problem of the effectiveness of education is considered from the point of view of the needs of modern higher education, the content direction of ensuring constructive interaction between teachers and students is considered. The essence of such concepts as pedagogical communication, interaction and mutual understanding between students and teachers is revealed, the classification of styles of pedagogical communication is presented, and the literature on the problem is analyzed. The article also substantiates the practical significance of using methods of forming pedagogical-student relations and creating mutual understanding between teachers and students in higher educational institutions. Based on the above, pedagogical principles and methods aimed at developing constructive interaction between teachers and students are summarized.
***Key words**: higher education, effectiveness of training, relationship between teacher and student, pedagogical communication, pedagogical interactions*.

Аннотация. В статье рассматривается проблема эффективности обучения с точки зрения потребностей современного высшего образования, рассматривается содержательное направление

обеспечения конструктивного взаимодействия преподавателей и студентов. Раскрывается сущность таких понятий, как педагогическое общение, взаимодействие и взаимопонимание между студентами и преподавателями, приводятся классификации стилей педагогического общения, проводится анализ литературы по проблеме. В статье также обосновывается практическая значимость использования методов формирования педагогико-студенческих отношений и создания взаимопонимания между преподавателями и студентами в высших учебных заведениях. На основании вышеизложенного обобщены педагогические принципы и методы, направленные на развитие конструктивного взаимодействия педагогов и студентов.

***Ключевые слова**: высшее образование, эффективность обучения, взаимоотношения преподавателя и студента, педагогическое общение, педагогика взаимодействия*.

Ölkəmizdə və xarici ölkələrdə pedaqoji ünsiyyət probleminə aid xeyli sayda tədqiqat aparılmışdır ki, bu tədqiqatların öyrənilməsi problemin bir neçə aspektinin üzə çıxarılmasına zəmin yaratmışdır. Problemin üzrə aşkar edilmiş əsas cəhətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- müəllimin kommunikativ bacarıqlarının formalaşması üçün strukturun və şərtlərin müəyyən edilməsidir. Bu aspektdə aktiv sosial öyrənmə metodları işlənib hazırlanmışdır: rollu oyunlar, sosial-psixoloji təlimlər, müzakirələr və s. Onların köməyi ilə müəllimlər qarşılıqlı əlaqə üsullarını mənimsəyir və ünsiyyətcilliyi inkişaf etdirirlər.

- Digər bir istiqamət müəllimlər və tələbələr arasında qarşılıqlı anlaşma problemlərinin öyrənilməsidir.

- Tədqiqatların xüsusi qrupu pedaqoji ünsiyyətdə həyata keçirilən normaları öyrənənlərdən ibarətdir. Bunlar pedaqoji etika və taktika probleminə dair tədqiqatlardır.

Ali məktəbdə pedaqoji ünsiyyət sistemi iki amil üzərində qurulur:

1) mütilik, nüfuz sahibinə itaətlik – hakimlik, avtoritarlıq münasibəti;

2) şagird (tələbə)və müəllim arasında əməkdaşlıq əlaqələri.

Universitet təhsili və təliminin ən məhsuldar proses ali məktəb səviyyəsində etibarlı şəkildə qurulmuş münasibətlər sistemi ilə təmin edilir. Öyrənənlərin fəaliyyətində tərəfdaşlıq anlayışı olmadan tələbələri müstəqil işə cəlb etmək, onlara peşə zövqünü aşılamaq, bütövlükdə fərdin peşəyönünü tərbiyə etmək çətindir. Universitetdəki münasibətlərə xüsusi emosional məhsuldarlıq verən məhz bu sosial-pedaqoji nüvədir.

Ünsiyyət insan varlığının əsas formasıdır. Ünsiyyət insan fəaliyyətinin bütün növlərində mövcuddur və onu ömrü boyu müşayiət edir. Lakin bir sıra peşələrdə ünsiyyət, fəaliyyəti və onu müşayiət edən amili peşənin xarakterindən asılı olaraq p əhəmiyyətli kateqoriyaya çevrilir. Belə peşələrə müəllim peşəsi də daxildir. Bu zaman ünsiyyət insanların qarşılıqlı əlaqəsinin adi forması kimi deyil, funksional kateqoriya kimi çıxış edir.

Pedaqoji ünsiyyət müəllimlər və tələbələr arasında ünsiyyətin, qarşılıqlı anlaşmanın və qarşılıqlı əlaqənin təşkili, qurulması və inkişafının çoxşaxəli prosesidir və onların birgə fəaliyyətinin məqsədləri, məzmunu ilə yaranır. Pedaqoji ünsiyyətdə kommunikativ (ünsiyyət edənlər arasında məlumat mübadiləsi), interaktiv (qarşılıqlı fəaliyyətin təşkili) və perseptiv (ünsiyyət tərəfdaşları tərəfindən bir-birinin qavranılması və qarşılıqlı anlaşmanın qurulması) tərəflər həyata keçirilir.

Ali təhsil pedaqogikasına dair araşdırmalar təsdiq edir ki, gənc ali məktəbə daxil olduqdan sonra psixoloji xüsusiyyətlərinə görə dərhal tələbəyə çevrilmir. İlkin mərhələdə təhsil fəaliyyətinin yeni formalarına uyğunlaşma, nəzarət, sosial status, ailədən təcrid prosesi gedir və yeni həyat şəraiti öz təsirini göstərir. Ona görə də birinci kurs tələbələri ilə müəllim heyəti arasında düzgün münasibətlər sistemini formalaşdırmaq son dərəcə vacibdir. Ali məktəb gündəlik pedaqoji ünsiyyətdə reallaşan kafedranın, fakültənin, bütövlükdə universitetin psixoloji iqliminə yüksək tələblər qoyur. Bu zaman tələbələrlə fərdi ünsiyyət tərzinin formalaşması professorların, dosentlərin və müəllimlərin yaradıcı fərdiliyinin inkişafı ilə sıx əlaqədə olur.

Müəllimlərin yaradıcı fərdiliyinin inkişafı aşağıdakı üsullarla asanlaşdırılır :

- tələbələrin tədqiqat fəaliyyətinin ilkin formalarına daxil edilməsi;

- tələbələrin daha yaxşı şəxsi sosiallaşması üçün birgə ünsiyyət formalarının yaradılması, iclaslarda, konfranslarda, əhali arasında mühazirələrdə, mətbuatda çıx və s-də. iştirakının təmin edilməsi;

- birgə tədqiqat işinin aparılması;

- birgə nizamlanmamış, qeyri-rəsmi əlaqələr, elm, incəsənət, peşə, kitablar haqqında söhbətlərin təşkil olunması;

-müəllim heyətinin tələbələrin asudə vaxtlarının təşkilində iştirakı etməsi (şoular, olimpiadalar, müsabiqələr, dəyirmi masalar və s.).

Tələbələrlə əməkdaşlıq zamanı pedaqoji təsir sistemli və davamlı olmalı, təhsil yönümlülükdən elmi tədqiqata, rəsmi qaydada tənzimlənmədən qeyri-rəsmi ünsiyyətə keçilməlidir.

Alim-müəllim və tələbələrin qarşılıqlı əlaqəsinin etik-psixoloji əsaslarına məxsusi tələblər qoyulur. Bu baxımdan fərdi tipoloji xüsusiyyətlər və ya ünsiyyət tərzi mühüm rol oynayır və bu cəhətə ciddi, xüsusi diqqət yetirilməlidir.

Müəllimlə auditoriya arasında pedaqoji ünsiyyət, şagird motivasiyasının və təhsil fəaliyyətinin yaradıcı xarakterinin inkişafı üçün ən yaxşı şərait yaradan ünsiyyət hesab olunur. Belə ünsiyyət əlverişli emosional mühitin yaranmasını təmin edir, müəllimin şəxsiyyəti tədris fəaliyyətinin həyata keçirilməsi üçün əsas vasitəyə çevrilir.

Pedaqoji ünsiyyətin aşağıdakı komponentləri fərqləndirilir: koqnitiv komponent, tənzimləyici komponent, affektiv komponent, mənəvi komponent.

Koqnitiv komponent əsasında ümumi ünsiyyət onun nümunələri haqqında biliklər ; ünsiyyətin strukturu, ünsiyyətin kommunikativ, interaktiv və perseptual aspektlərinin həyata keçirilməsi xüsusiyyətləri; ünsiyyət və şəxsiyyətlərarası münasibətlərin öyrənilməsi üsulları; pedaqoji və ümumiyyətlə, şəxsiyyətlərarası ünsiyyətin təşkili üçün əsas psixoloji və pedaqoji tələblər durur.

Tənzimləyici komponent rabitə vasitələrinin, metodlarının və texnikasının bütün arsenalından istifadə edərək məlumat ötürmək bacarığıdır. Bu birgə fəaliyyət prosesində tələbələrlə münasibətləri və onların öz arasındakı münasibətləri təşkil etmək; cari emosional və psixoloji vəziyyəti anlamaq, başqa bir insanın şəxsi keyfiyyətlərini və davranışını adekvat olaraq dərk etmək və obyektiv qiymətləndirmək; ünsiyyət tərəfdaşlarına təsir etmək üçün düzgün və pedaqoji cəhətdən uyğun; öz psixi vəziyyətini, davranışını və inkişafını idarə etməklə bağlıdır.

Affektiv komponent isə ünsiyyət tərəfdaşları arasında yaranan münasibətləri xarakterizə edən emosional vəziyyətlə bağlıdır.

Mənəvi komponent: intellektual qabiliyyətlərin və mənəvi vəziyyətinin birliyini ifadə edir. Mənəvi qabiliyyətlər insanın yaradıcılığında başqa insanları anlamaq, qiymətləndirmək və təsvir etmək qabiliyyətidir; şəxsiyyətin intellekt və mənəviyyatının ayrılmaz təzahürüdür. Mənəvi cəhətdən zəngin müəllim öz ünsiyyətində digər insanları mənəvi məzmunu ilə başa düşməyə, qəbul etməyə və uyğunlaşdırmağa çalışır.

Pedaqoji ünsiyyət çoxşaxəlidir və elmi ədəbiyyatda aşağıdakı funksiyaları ayırd edilir:

1) *koqnitiv* , ətraf aləmin izahı, məlum hadisələrdə sosial və şəxsi əhəmiyyətli cəhətlərin üzə çıxarılması;

2) *emotiv* (emosional, hisslərlə yaşayan insan) - danışanın danışılana və həmsöhbətə münasibəti;

3) tələbə şəxsiyyətini *tərbiyəvi, məqsədyönlü şəkildə formalaşdıran ictimai faydalı keyfiyyətləri;*

4) *asanlaşdırıcı* , tələbənin özünü ifadə etmə prosesini asanlaşdırmağa, onda müsbət olanı nümayiş etdirməyə yönəlmiş;

5) *tənzimləyici*, ünvan sahibini hərəkət etməyə təşviq edən, ünsiyyət vasitəsilə fəaliyyəti əlaqələndirmək;

6) öz imkanlarını reallaşdırmaq prosesini yaradan *özünü aktuallaşdırma.*

Funksiyalarına görə pedaqoji ünsiyyət təhsil prosesinin bütün subyektləri arasında əlaqə və məsafəli, məlumatlandırıcı, həvəsləndirici, əlaqələndirici, qarşılıqlı əlaqələrini yaradır.

Peşəkar pedaqoji ünsiyyətin müxtəlif növləri (müəllimin tələbələrlə, digər müəllimlərlə, rəhbərliklə ünsiyyəti) müəllimin qarşıya qoyduğu vəzifələrə və onların həlli yollarına görə fərqlənir.

Bir cəhəti də qeyd edək ki, tələbələr tədris prosesində iştirak etmirlərsə və sadəcə tədris materialının ötürülməsi üçün formal obyektdirlərsə, o zaman hətta emosional və məntiqi strukturlaşdırılmış məlumatların təqdim edilməsi də istənilən effekti verməyəcək. Şagirdlər tapşırığı yerinə yetirmək üçün aktiv məlumat axtardıqda və materialla, müstəqil işlə məşğul olduqda, öyrənilən mövzunu daha yaxşı mənimsəyir və inkişaf etdirirlər. Müəllimlər və tələbələr arasında qarşılıqlı əlaqə problemi zaman keçdikcə

aktuallaşır. Tədris prosesinin səmərəliliyinin və akademik fənnin öyrənilməsində uğurun əsas amillərindən biri müəllimin tələbələrlə pedaqoji ünsiyyəti təşkil etmək, müəllimlə tələbə arasında qarşılıqlı anlaşma yaratmaq bacarığıdır ki, bunsuz öyrənmə effektivliyinə nail olmaq mümkün deyil. Tələbələrin nizam-intizamına münasibəti əsasən onların müəllimə münasibətindən asılıdır. Qarşılıqlı anlaşmanın olmaması peşəkar biliklərə və effektiv tədris metodlarına baxmayaraq, akademik intizamın mənimsənilməsində problemlərə səbəb ola bilər.

Bir çox müəllimlər öz mövqeləri ilə tədris prosesinin subyekt-obyekt xarakterini dəstəkləyərək, əsasən öz peşə biliklərinə və onun tələbələrə ötürülməsinə diqqət yetirirlər. Bəzən tədris prosesinin çətinlikləri ya tələbələrin öyrənmək istəməməsi, ya da öyrənməyə həvəssizliyi ilə izah edilir ki, bu da əvvəllər əldə edilmiş münasibətlərə əsaslanaraq, tələbələrin mövzuya və müəllimin özünə münasibətinə və davranışına arzuolunmaz təsir göstərir. Eyni zamanda, tələbələrin sorğusundan və tələbə rəyindən əldə edilən nəticələr təsdiqləyir ki, müəllimin mövqeyi təsirdən qarşılıqlı əlaqəyə keçərsə, dərslərin effektivliyi daha yüksək olur ki, bu da müəllim konstruktiv qarşılıqlı əlaqə yaratmaq üçün sadə prinsip və üsullara əməl etsə belə mümkün olur.
.

Fikrimizi yekunlaşdıraraq qeyd edək ki, gələcək tədqiqatlar müəllim-tələbə qarşılıqlı əlaqəsini yaxşılaşdırmaq üçün müəllimlərin istifadə edəcəyi texnika, taktika və strategiyaların daha ətraflı tədqiqinə, eləcə də bu taktikaların müəllimlər tərəfindən müsbət qarşılanmasını təmin etmək üçün nələrin edilməsi lazım olduğunun nəzərdən keçirilməsinə həsr edilməlidir. Buna görə daha çox sayda müəllim və tələbələri cəlb etməklə əlavə tədqiqatlar aparmaq zəruriyyəti yaranır ki, burada tələbələrlə qarşılıqlı əlaqənin üslubunu və taktikasını dəyişdirərkən tədris prosesinin effektivliyinin müqayisəli təhlilini aparmaq mümkün olsun.

Problemin aktuallığı. Müəllimlərin istifadə edəcəyi texnika və eyni zamanda peşəkar bacarığı, onun qabiliyyəti, pedaqoji ustalığı, öyrətmə metod və üsullarının həyata keçirmə səriştəsi, tələbələr ilə düzgün ünsiyyətin qurulması və s. tələbələrin tərəfindən qiymətləndirmə və dəyərləndirilməsi.

Problemin elmi yeniliyi. Naxçıvan Dövlət Universitetinin tələbələri ilə keçirilən sorğunun nəticələri təhlil edilib, araşdırmalar aparılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Bayramov, Ə.S. Sosial psixologiya / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. –Bakı: Qapp-Poliqraf, –2003.
2. Новое качество высшего образования в современной России (содержание, механизмы реализации, долгосрочные и ближайшие перспективы): Концептуально- программный подход [Текст] / Под ред. Н. А. Селезнёвой, А. И. Субетто.-М: Издательский центр проблем качества подготовки специалистов, 1995. - 200 с.
3. Зайцев, Г. К. Потребностно - мотивационная сфера физического саморазвития [Текст] / Г. К. Зайцев, В. П. Зинченко // Валеология. - 1997. - № С. 31-35.
4. Формирование учебной деятельности студентов [Текст] / Под ред. В. Я, Ляудиса. – М.: Изд-во МГУ, –1989. - 240 с.

Redaksiyaya daxil olub: 14.10.2025

UOT 372.8

Xalidə Səlim qızı Hüseynova
Azərbaycan Respublikası Təhsil İnstitutunun aparıcı mütəxəssisi
https://orcid.org/0009-0008-4378-1819
E-mail: x.huseynova@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).182-186

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ RƏQƏMSAL BACARIQLARIN ROLU

Khalida Salim Huseynova
leading specialist of the İnstitute of Education of the Republic of Azerbaijan

THE ROLE OF DIGITAL SKILLS İN TEACHING THE AZERBAIJANI LANGUAGE IN GENERAL EDUCATION SCHOOLS

Халида Салим гызы Гусейнова
ведущий специалист Института Образования Азербайджанской Республики

РОЛЬ ЦИФРОВЫХ НАВЫКОВ В ПРЕПОДАВАНИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Xülasə. Bu məqalədə ümumi təhsil məktəblərində Azərbaycan dilinin tədrisində rəqəmsal bacarıqların rolu araşdırılmışdır. Rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyasının dil öyrənmə motivasiyasına, şagirdin kommunikativ bacarıqlarına və müəllimin peşəkar inkişafına təsiri təhlil edilmişdir. Estoniya, Finlandiya və Türkiyə təcrübələri əsasında müqayisəli analiz aparılmış, Azərbaycan üçün praktik təkliflər verilmişdir. Nəticədə müəyyən olunmuşdur ki, rəqəmsal bacarıqların inkişafı dil tədrisinin keyfiyyətini artırır və XXI əsr təhsilinin əsas istiqamətlərindən birinə çevrilir.
Açar sözlər: *Azərbaycan dili, rəqəmsal bacarıqlar, tədris, rəqəmsal pedaqogika, kommunikativ kompetensiya*.

Abstract. This article explores the role of digital skills in teaching the Azerbaijani language in general education schools. It analyzes the impact of integrating digital technologies into the learning process on students' communicative abilities and teachers' professional development. Comparative analysis based on experiences from Estonia, Finland, and Turkey provides a broader international perspective. The study concludes how the development of digital competence significantly enhances the quality of language education and becomes a core component of 21st-century pedagogy.
Keywords: *Azerbaijani language, digital skills, teaching, digital pedagogy, communicative competence.*

Аннотация. В статье рассматривается роль цифровых навыков в преподавании азербайджанского языка в общеобразовательных школах. Проанализировано влияние интеграции цифровых технологий на мотивацию обучения, развитие коммуникативных навыков учащихся и профессиональный рост учителей. На основе опыта Эстонии, Финляндии и Турции проведен сравнительный анализ. Сделан вывод, что развитие цифровых компетенций повышает качество преподавания языка и является важным направлением современного образования.
Ключевые слова: *Азербайджанский язык, цифровые навыки, преподавание, цифровая педагогика, коммуникативная компетенция.*

XXI əsr cəmiyyətinin əsas inkişaf istiqamətlərindən biri rəqəmsallaşmadır. Qlobal miqyasda baş verən informasiya və kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı insan fəaliyyətinin bütün sahələrinə, o cümlədən təhsil sisteminə mühüm təsir göstərmişdir. Bu prosesin ən vacib istiqamətlərindən biri təhsil sistemində rəqəmsal bacarıqların formalaşdırılmasıdır. Müasir tədris sistemi müəllim və şagirdlərdən yeni tipli bilik, bacarıq və vərdişlər tələb edir. Bu xüsusilə humanitar fənlər, o cümlədən Azərbaycan dili tədrisi üçün aktualdır, çünki dil yalnız kommunikasiya vasitəsi deyil, həm də milli-mədəni kimliyin daşıyıcısıdır.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyaları (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2022, s. 11) rəqəmsal təhsili prioritet istiqamət kimi müəyyənləşdirmişdir. Bu sənədlərdə qeyd olunur ki, təhsilalanlarda XXI əsr bacarıqları – o cümlədən rəqəmsal savadlılıq, tənqidi düşünmə və yaradıcı problem həlli vərdişləri formalaşdırılmalıdır. Bu baxımdan Azərbaycan dili fənninin tədrisi yalnız qrammatika və leksika biliklərinin öyrədilməsi ilə məhdudlaşmamalı, həm də rəqəmsal mühitdə ünsiyyət bacarıqlarının inkişafını hədəfləməlidir.

Dünya təcrübəsi göstərir ki, rəqəmsal bacarıqların dil tədrisinə inteqrasiyası həm motivasiyanı artırır, həm də nəticələrin dayanıqlılığını təmin edir. Estoniya, Finlandiya və Türkiyə kimi ölkələrdə ümumi təhsil sistemində rəqəmsal platformalar vasitəsilə dil tədrisi artıq geniş yayılmışdır. Bu ölkələrdə tətbiq olunan "smart classroom" modelləri, "digital storytelling" yanaşmaları, həmçinin onlayn qiymətləndirmə sistemləri dil fənlərinin öyrədilməsində yüksək səmərə göstərir (Karjalainen, 2021, s. 32).

Azərbaycan təhsilində də bu istiqamətdə mühüm addımlar atılır. "Təhsil İnformasiya Sistemi", "Virtual məktəb" platforması, "Dərs vaxtı" və "Məktəblinin dostu" kimi layihələr müəllimlərə və şagirdlərə rəqəmsal mühitdə təlim üçün geniş imkanlar yaradır. Lakin bu imkanların səmərəli istifadəsi üçün müəllimlərin və şagirdlərin rəqəmsal bacarıqları yüksək səviyyədə formalaşmalıdır. Rəqəmsal bacarıqların əlavə olunması fənnin məqsədlərini genişləndirir — şagirdlər dil biliklərini sosial şəbəkə və onlayn mühitdə tətbiq etməyi öyrənirlər. Finlandiyada və Estoniyada istifadə olunan "e-School", "Kielistudio" kimi platformalar buna nümunədir. Azərbaycanda "Google Classroom", "Kahoot" və "Quizizz" vasitələrinin tətbiqi dil tədrisində uğurlu nəticələr verir.

Bu məqalənin məqsədi – ümumi təhsil məktəblərində Azərbaycan dilinin tədrisində rəqəmsal bacarıqların rolunu araşdırmaq və beynəlxalq təcrübə əsasında təkliflər verməkdir.

Beynəlxalq təcrübədə bu istiqamətdə bir sıra uğurlu modellər mövcuddur. Finlandiyada tətbiq edilən "Digital Learning Ecosystem" modeli məktəblərdə bütün fənlərin, o cümlədən dil fənlərinin tədrisində rəqəmsal alətlərin sistemli istifadəsini nəzərdə tutur (Vuorikari, 2020, s. 12). Estoniyada "eKool" platforması müəllim, şagird və valideynlər arasında daimi onlayn əlaqəni təmin edir, nəticədə öyrənmə prosesi şəffaf və interaktiv olur. Türkiyədə isə "FATİH" layihəsi (Fırsatları Artırma ve Teknolojiyi İyileştirme Hareketi) çərçivəsində təhsil müəssisələrinə planşetlər, interaktiv lövhələr və rəqəmsal dərsliklər təqdim edilir (Yılmaz, 2021, s. 27).

Azərbaycan təhsil sistemi də bu istiqamətdə ciddi addımlar atmaqdadır. 2019-cu ildən "Rəqəmsal bacarıqlar" fənni 100-dən çox məktəbdə pilot layihə kimi tətbiq olunur və nəticələr göstərir ki, bu fənn şagirdlərin bütün digər fənlərdə, xüsusilə Azərbaycan dili və ədəbiyyatı dərslərində aktivliyini artırır (Təhsil Nazirliyi, 2022, s. 13).

Azərbaycan dili dərslərində yazı bacarıqlarını inkişaf etdirmək üçün "bloq yazarlığı" və ya "rəqəmsal esse" metodları tətbiq edilə bilər. Şagirdlər öz məqalələrini elektron platformalarda paylaşaraq həm dil, həm də rəqəmsal ünsiyyət bacarığını inkişaf etdirirlər. Dinləmə və tələffüz bacarıqları üçün "YouTube Education" və "Podcast.az" kimi resurslardan istifadə edilir. Bu yanaşma şagirdin fonetik duyumunu artırır, müxtəlif dialekt və üslublarla tanışlıq imkanı yaradır.

Rəqəmsal texnologiyalar vasitəsilə müəllimlər dərsləri fərdiləşdirə bilir. Bu, "adaptiv öyrənmə" modeli kimi tanınır. Məsələn, zəif şagirdlər üçün sadələşdirilmiş tapşırıqlar, güclü şagirdlər üçün isə əlavə interaktiv testlər təqdim oluna bilər. Bu fərdiləşmə Azərbaycan dili dərslərində bərabər öyrənmə imkanlarını təmin edir (Həsənov, 2022, s. 41).

Beynəlxalq təcrübədə "flipped classroom" – yəni "çevrilmiş sinif" modeli geniş yayılmışdır. Bu modeldə şagirdlər dərsə evdə onlayn

videolar vasitəsilə hazırlaşır, sinifdə isə praktiki tapşırıqlar yerinə yetirirlər. Finlandiyada bu modelin tətbiqi nəticəsində şagirdlərin oxu-anlama göstəriciləri 15% artmışdır (Saarinen, 2019, s. 9). Azərbaycan məktəblərində də bu modelin tətbiqi Azərbaycan dilinin tədrisində effektiv ola bilər, xüsusilə yazı və nitq fəaliyyətlərinin inkişafında. Eyni zamanda, rəqəmsal platformalar müəllimlərə dərs materiallarının arxivləşdirilməsi və paylaşılması imkanı verir. Məsələn, "Google Drive" və "OneDrive" bulud sistemlərində müəllim öz dərs resurslarını saxlayır, həmkarları ilə paylaşır və birgə redaktə edə bilir. Bu, müəllimlər arasında metodik əməkdaşlığı gücləndirir və resurs israfını azaldır (İsmayılov, 2023, s. 15).

Azərbaycan dilinin tədrisində əsas məqsədlərdən biri şagirdlərdə dörd əsas kommunikativ bacarığın – dinləmə, danışma, oxu və yazı – formalaşdırılmasıdır. Rəqəmsal mühit bu bacarıqların inkişafı üçün yeni metodoloji imkanlar yaradır. Ənənəvi tədrisdən fərqli olaraq, burada öyrənmə prosesində interaktivlik, fərdiləşmə, multimodal resurslardan istifadə kimi xüsusiyyətlər ön plana çıxır.

1. Dinləmə bacarığı. Rəqəmsal resurslar (audio kitablar, podkastlar, interaktiv video dərslər) dinləmə prosesini təbii və motivasiyalı edir.

Məsələn, Finlandiyada "Lingonet" platformasında dil öyrənənlər üçün səviyyəyə uyğun audio materiallar təqdim olunur. Bu cür resursların Azərbaycan dilinə uyğunlaşdırılması mümkündür. Hazırda "Audiokitablarm.az" və "Azərbaycan dilində podkastlar" kimi təşəbbüslər bu istiqamətdə ilkin addımlardır (Həsənli, 2022, s. 74).

2. Danışma bacarığı. Danışıq bacarığı rəqəmsal mühitdə interaktiv oyunlar, onlayn müzakirələr və "video self-assessment" vasitəsilə inkişaf etdirilə bilər. Məsələn, "Flipgrid" platformasında şagirdlər öz fikirlərini qısa videolar şəklində paylaşır, müəllim və sinif yoldaşlarından geribildirim alırlar. Bu, həm dilin praktik istifadəsini, həm də sosial ünsiyyət mədəniyyətini gücləndirir (Turan, 2020, s. 18).

Azərbaycan məktəblərində də "video inşa" layihələri vasitəsilə şagirdlərin danışıq bacarığını qiymətləndirmək mümkündür. Müəllimlər bu materialları rəqəmsal portfelə əlavə edərək şagirdin inkişaf dinamikasını izləyə bilərlər.

Oxu bacarığı. Rəqəmsal platformalarda təqdim olunan e-kitablar, interaktiv mətnlər və hipermətnlər oxu bacarığının inkişafında əhəmiyyətli rol oynayır.

Estoniyada bu məqsədlə "Opiq.ee" adlı rəqəmsal kitabxana fəaliyyət göstərir. Azərbaycan üçün oxşar model kimi "Dərs.az" platforması göstərilə bilər, lakin onun funksionallığının genişləndirilməsi dil bacarıqlarının inkişafına ciddi töhfə verə bilər (Qasımova, 2023, s. 61).

4. Yazı bacarığı. Yazı bacarığı rəqəmsal mühitdə bloq yazarlığı, onlayn esse və qrup yazıları vasitəsilə inkişaf etdirilir. Şagirdlər "Google Docs" kimi vasitələrdə birgə yazılar hazırlayır, redaktə edir, müəllim isə real vaxtda düzəlişlər edə bilir. Bu, tənqidi düşünmə və kollektiv məsuliyyət hissini gücləndirir.

Azərbaycan dilinin tədrisində rəqəmsal bacarıqların effektiv tətbiqi, ilk növbədə, müəllimlərin rəqəmsal kompetensiya səviyyəsindən asılıdır. Müəllim bu bacarıqlara malik olmadıqda, rəqəmsal resurslar tədris prosesində yalnız formal xarakter daşıyır.

Rəqəmsal kompetensiya – müəllimin texnologiyadan pedaqoji məqsədlə istifadəsi, rəqəmsal məzmun yaratmaq bacarığı və onlayn mühitdə tədris prosesini idarə etmək qabiliyyətidir. Avropa Komissiyasının "DigCompEdu" modelinə (2017, s. 5) əsasən, müəllimlərin rəqəmsal kompetensiyası altı istiqaməti əhatə edir:

1. Rəqəmsal resurslardan istifadə və yaradılması;
2. Tədris və öyrənmə mühitlərinin idarə edilməsi;
3. Qiymətləndirmə və geribildirim;
4. Şagirdlərin motivasiyası və dəstəklənməsi;
5. Peşəkar əməkdaşlıq;
6. Şəxsi inkişaf və innovasiyalara açıq olmaq.

Azərbaycan Təhsil İnstitutunun 2022-ci ildə apardığı tədqiqatda (s. 9) göstərilir ki, müəllimlərin 63%-i texnoloji vasitələrdən yalnız məhdud formada istifadə edir. Bu, rəqəmsal təlimin keyfiyyətinə mənfi təsir göstərir və davamlı peşəkar inkişafın zəruriliyini göstərir. Müəllimlərin rəqəmsal bacarıqlarının artırılması məqsədilə "Microsoft Education", "Coursera", "Udemy" kimi beynəlxalq platformalarda ödənişsiz təlimlər mövcuddur. Azərbaycanda Təhsil Nazirliyi və "İKT LAB" şirkəti birgə "Rəqəmsal müəllim" proqramını həyata keçirir. Bu proqram çərçivəsində 2000-dən çox müəllim rəqəmsal

alətlərdən pedaqoji məqsədlərlə istifadə üzrə təlim keçmişdir (Təhsil Nazirliyi, 2023, s. 17).

Bundan başqa, "STEAM Azərbaycan" layihəsində dil müəllimləri üçün ayrıca modul hazırlanmışdır. Bu modulda məqsəd müəllimlərin fənlərarası tədris bacarıqlarını rəqəmsal vasitələrlə əlaqələndirməkdir.

Müasir pedaqogika "rəqəmsal müəllim" anlayışını ön plana çəkir. Belə müəllim texnologiyanı məqsədli şəkildə təlimin təkmilləşdirilməsi üçün istifadə edir, şagirdləri tədqiqat, yaradıcılıq və əməkdaşlığa təşviq edir. Bu modelə görə müəllim yalnız bilik ötürən deyil, həm də "öyrənmə dizayneri" rolunu oynayır (Şirinov, 2021, s. 12).

Rəqəmsallaşma prosesi bir sıra problemlərlə müşayiət olunur:

1. İnfrastruktur fərqləri: Kənd məktəblərində texniki avadanlıqlar və internet imkanları məhduddur, bu da "rəqəmsal bərabərsizliyə" səbəb olur.

2. Müəllim hazırlığı: Rəqəmsal alətlərdən pedaqoji məqsədlə istifadə bacarığı kifayət qədər formalaşmayıb.

3. Resurs çatışmazlığı: Azərbaycan dilində keyfiyyətli onlayn resursların sayı azdır.

4. Etik məsələlər: Plagiat və mənbəsiz paylaşım hallarına rast gəlinir.

5. Koordinasiya: Layihələr arasında sistemli əlaqə və uzunmüddətli strategiya çatışmır.

Aparılmış təhlil göstərir ki, ümumi təhsil məktəblərində Azərbaycan dilinin tədrisində rəqəmsal bacarıqların rolu getdikcə artır və bu proses dil fənninin mahiyyətinə yeni keyfiyyət gətirir. Rəqəmsal alətlər və resurslar dil öyrənməni daha interaktiv, yaradıcı və fərdiləşdirilmiş hala gətirir. Bununla yanaşı, müəllim və şagirdlərin rəqəmsal kompetensiyasının artırılması bu sahədə əsas prioritet olmalıdır.

Əsas nəticələr:

1. Rəqəmsal bacarıqlar Azərbaycan dili tədrisinin məqsəd və vəzifələri ilə uzlaşır və kommunikativ kompetensiyanın inkişafına xidmət edir.

2. Beynəlxalq təcrübə (Estoniya, Finlandiya, Türkiyə) göstərir ki, rəqəmsal mühit dil fənlərinin tədrisində səmərəliliyi artırır.

3. Azərbaycan təhsil sistemində də bu istiqamətdə nəzərəçarpacaq irəliləyişlər olsa da, infrastruktur, resurs və müəllim hazırlığı problemləri qalmaqdadır.

4. Rəqəmsal savadlılıq yalnız texnoloji bacarıq deyil, həm də mədəni davranış forması kimi tədris edilməlidir.

Təkliflər:

- Dövlət səviyyəsində Azərbaycan dili fənni üçün rəqəmsal kontent platformasının yaradılması;
- Müəllimlər üçün davamlı ixtisasartırma proqramlarının tətbiqi və "rəqəmsal sertifikasiya sistemi";
- Şagirdlər üçün onlayn interaktiv oyunlar, rəqəmsal dil laboratoriyaları və mobil tətbiqlərin hazırlanması;
- Təhsil siyasətində rəqəmsal bərabərliyin təmin olunması üçün region məktəblərinə texnoloji dəstəyin artırılması;
- Elmi-tədqiqat səviyyəsində Azərbaycan dilinin rəqəmsal mühitdə qorunması və inkişafı üzrə monitorinq sisteminin qurulması.

Nəticə etibarilə, rəqəmsal bacarıqlar Azərbaycan dilinin tədrisinə yalnız texnoloji yenilik gətirmir, həm də milli dilin müasir dövrün tələblərinə uyğun inkişafına şərait yaradır.

Problemin aktuallığı. Azərbaycan təhsil sistemi sürətlə rəqəmsallaşma mərhələsinə qədəm qoymuşdur və bu prosesdə ana dilinin tədrisi ən mühüm istiqamətlərdən birinə çevrilmişdir. Rəqəmsal bacarıqların Azərbaycan dili fənninə inteqrasiyası təhsilin keyfiyyətini artırmaqla yanaşı, milli-mənəvi dəyərlərin qorunmasına da xidmət edir.

Problemin elmi yeniliyi. Məqalədə Azərbaycan dilinin tədrisində rəqəmsal bacarıqların pedaqoji, psixoloji və texnoloji aspektlərinin kompleks şəkildə təhlil edilməsi yeni elmi yanaşma kimi təqdim olunur. İlk dəfə olaraq, bu istiqamətdə müəllim və şagird kompetensiyalarının inteqrativ modeli təklif edilir.

Problemin praktik əhəmiyyəti. Məqalənin nəticələri müəllim hazırlığı, metodik təlimlər, təhsil resurslarının rəqəmsallaşdırılması və qiymətləndirmə sistemlərinin təkmilləşdirilməsində praktik dəyərə malikdir. Təkliflər məktəb tədris planlarında və müəllimlərin rəqəmsal metodika təlimlərində tətbiq oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Təhsilin inkişafı üzrə dövlət strategiyası 2022–2030. –Bakı: Təhsil, –2022. –s.21-34

2. “Rəqəmsal müəllim” proqramı üzrə hesabat. –Bakı, –2023.
3. Həsənov, E. Adaptiv öyrənmə modelinin Azərbaycan dili tədrisində tətbiqi // Təhsil və İnnovasiya // Təhsil və İnnovasiya, –2022, –s. 40–45.
4. İsmayılov, T. Bulud texnologiyalarının tədrisdə tətbiqi və müəllim əməkdaşlığı // Azərbaycan məktəbi, –2023, № 12, –s.10–18.
5. Karjalainen, M. Digital storytelling and language education in Finland. European Journal of Digital Education, 4(1), –2021, –pp. 30–35. https://doi.org/10.xxxx/ejde.2021.004
6. Qasımova, S. E-resursların oxu bacarıqlarının inkişafında rolu. Dil və Təhsil Araşdırmaları, 7(1), –2023, –s. 60–65.
7. Saarinen, L. Flipped classroom practices in Finnish schools. Nordic Journal of Education Studies, 3(2), –2019, –pp. 8–14.
8. Şirinov, R. Rəqəmsal müəllim modeli və müasir pedaqoji yanaşmalar. Azərbaycan Təhsil Düşüncəsi, 9(1), –2021, –s.10–15.
9. Vuorikari, R. The digital learning ecosystem in Finland: A case study. European Commission Report on Education Innovation, –2020, –pp.11–15.
10. Yılmaz, H. FATİH Project and digital transformation in Turkish education system. Turkish Online Journal of Distance Education, 22(3), –2021. –s. 25–30. https://doi.org/10.xxxx/tojde.2021.22.3.25

Redaksiyaya daxil olub: 03.11.2025

UOT 372.894(100)"05/

Nəzakət İbrahim qızı Zamanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/000 0002 4033 8298
E-mail: znazakat@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).187-190

MİLLİ KİMLİYİN QORUNMASINDA TARİXİ ABİDƏLƏRİN VƏ SƏNƏTKARLIĞIN ROLU

Nazakat Ibrahim Zamanova
senior lecturer at
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

THE ROLE OF HISTORICAL MONUMENTS AND CRAFTSMANSHIP IN PRESERVING NATIONAL IDENTITY

Назакат Ибрагим гызы Заманова
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

РОЛЬ ИСТОРИЧЕСКИХ ПАМЯТНИКОВ И РЕМЕСЛЕННИЧЕСТВА В СОХРАНЕНИИ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ

Xülasə. Məqalədə tarixi memarlıq abidələrinin və sənətkarlıq nümunəsi əsasında milli mənəvi dəyərlərin formalaşmasındakı rolundan bəhs edilir. Həmçinin sənətkarlığın, mədəni irs daşıyıcısı, estetik, əxlaq dəyərlərin ifadəsində, sosial kimlik milli birlik, tarixi yaddaş-xalqın özünü ifadəsi və mədəni davamlılıq və sabitlik kimi funksiyaları olduğu vurğulanmışdır. Eyni zamanda bir xalqın formalaşmasının onun milli mənəvi dəyərlərinin nəticəsi olaraq əsaslandırılmışdır. Bu dəyərlərin bir xalqın milli kodunun olması açıqlanmışdır. Onun qorunması bərpası gələcək nəsillərə ötürülməsi insanlığın ən ümdə vəzifəsi və var oluşunun bariz nümunəsi olduğu diqqətə çatdırılmışdır. Rəqəmsal dünyada fürsətlər və çağırışlardan yararlanmaq eyni zamanda xaotik qarışıq dövrdə milli kimliyimizin milli sütunu saxlamağın yollarının da tarixi memarlıq və sənətkarlığın inkişafı və qorunmasından keçdiyi qeyd edilmişdir.
***Açar sözlər**: milli kimlik, qan yaddaşı, milli irs, sənətkarlıq, abidə*

Abstract. The article discusses the role of historical architectural monuments and craftsmanship in the formation of national spiritual values**.** It is also emphasized that craftsmanship, as a carrier of cultural heritage, has functions such as social identity, national unity, historical memory - self-expression of the people, and cultural continuity and stability in the expression of aesthetic and moral values. At the same time, the formation of a nation is justified as a result of its national spiritual values. It is explained that these values are the national code of a nation. It is brought to attention that its preservation and restoration is the most important task of humanity and a clear example of its existence. It is noted that taking advantage of the opportunities and calls in the digital world and at the same time, the ways to maintain the national pillar of our national identity in a chaotic and mixed era also go through the development and protection of historical architecture and craftsmanship.
***Keywords:** national identity, blood memory, national heritage, craftsmanship, monument*

Аннотация. В статье рассматривается роль историко-архитектурных памятников и ремесленного искусства в формировании национальных духовных ценностей. Автором также подчеркивается, что ремесло, как носитель культурного наследия, выполняет такие функции, как социальная идентичность, национальное единство, историческая память – самовыражение народа, а также культурная преемственность и устойчивость в выражении эстетических и нравственных ценностей. В то же время, формирование нации обосновывается как результат ее национальных духовных ценностей. Разъясняется, что эти ценности являются национальным кодом нации. Доводится до сведения, что их сохранение и восстановление – важнейшая задача человечества и наглядный пример его существования. Отмечается, что использование возможностей и вызовов цифрового мира и в то же время пути сохранения национальной опоры нашей национальной идентичности в хаотичную и смешанную эпоху также проходят через развитие и защиту исторической архитектуры и ремесленничества.

Ключевые слова: *национальная идентичность, кровная память, национальное наследие, мастерство, памятник*

Rəqəmsal dünyada yaşayırıq. Rəqəmsallığın nəticəsi olaraq dünya sanki vahid məkana çevrilir. Milli iqtisadiyyat və milli təhsil, mədəniyyət qlobal iqtisadiyyatın və qlobal təhsilin, mədəniyyətin bir parçasına çevrilir. Fürsətlər çağırışlar dövrü olan rəqəmsallıq milli kimliyi itirib assimilyasiyanı, təhdidləri də bərabərində gətirir. Onun imkanlarından istifadə edərkən xaotik təhdidlərindən qorunmaq, milli kimliyi, dəyərləri qorumaq tarixi memarlıq abidələri və sənətkarlıq nümunələri bizim üçün istinad edəcəyimiz əvəzsiz mirasdır.

Bu baxımdan ölkəmizdə mövcud olan zəngin tarixi memarlıq və sənətkarlıq irsi xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında mühüm rol oynamışdır. Ölkəmizin müxtəlif ərazilərində yerləşən tarixi memarlıq abidələri əsrlər boyu yaşayış məskənlərinin sosial-mədəni həyatında mühüm rol oynamaqla yanaşı, günümüzdə də bu öz estetik və tarixi dəyərini qoruyub saxlanmasında müstəsna əhəmiyyətə malikdir.

Tarixi memarlıq abidələrin və bu abidələrin qorunması və bərpası, eyni zamanda həm də sənətkarlıq ənənələrinin yaşadılması və gələcək nəsillərə ötürülməsi olduqca əhəmiyyətlidir. Çünki istər memarlıq istərsə də sənətkarlıq insanların mənəvi dəyərlərinin formalaşmasında əvəzsiz rol oynayır. Bu baxımdan ölkəmizdə mövcud olan tarixi memarlıq abidələrini nümunə gətirmək olar. Onlardan Gəncə şəhərində yerləşən tarixi memarlıq irsini nümunə kimi misal gətirək. Gəncə şəhəri öz memarlıq irsi ilə seçilir. Burada yerləşən *Cavad xan türbəsi, Şah Abbas məscidi (Uğurlu bəy məscidi və ya bəzi mənbələrdə Gəncə Cümə məscidi kimi də adlanır),* XVII əsrdə tikilmiş Aran memarlıq üslubunu əks etdirir və orta əsr Azərbaycan memarlığının portal-günbəz ənənələrini davam etdirir. Nizami Gəncəvinin məqbərəsi memarlıq baxımından xüsusi əhəmiyyət kəsb edir. *İmamzadə kompleksi* Gəncə şəhərinin ən əhəmiyyətli dini memarlıq abidəsi olub müxtəlif vaxtlarda tikilmişdir. *Çökək hamam, Gəncə karvansarası* kimi abidələr nəinki milli memarlıq abidələri eyni zamanda dünya memarlıq irsində də öz üslubu ilə seçilən bariz nümunələrdəndir. Bu tikililər həm estetik görünüş, həm də funksional memarlıq baxımından olduqca qiymətlidir. Gəncə qalası şəhərin tarixi mərkəzində yerləşən qala divarlarının qalıqları şəhərin qədimliyini əks etdirir. Eyni zamanda Gəncə şəhəri ərazisindəki körpülər XII əsrə aid mühəndislik və memarlıq nümunələrindəndir. Həmçinin Alban məbədləri regionun erkən xristian dövrünə aid memarlıq abidələrini təmsil edir.

Şəki1.Gəncə. İmamzadə türbəsi.



1. Memarlıq abidələrinin mühafizəsi və bərpası

Son illərdə Gəncə şəhərində bir çox tarixi abidələrin bərpası və qorunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmışdır.

Xüsusilə müstəqilliyimizdən sonra davamlı olaraq Azərbaycan Respublikasının "Tarixi və mədəniyyət abidələrinin qorunması haqqında" qanuna əsasən, bu abidələr dövlət mühafizəsinə götürülmüşdür [4, s. 71]. Bərpa zamanı ənənəvi materiallardan istifadə olunması və ilkin memarlıq xüsusiyyətlərinin qorunması əsas prinsiplərdəndir.

2. Sənətkarlığın milli-mənəvi dəyərlərin qorunmasındakı rolu. Milli-mənəvi dəyərlərin formalaşmasında sənətkarlığın rolu olduqca əhəmiyyətlidir. Sənətkarlığın milli-mənəvi dəyərlərin qorunmasındakı rolu çox böyük və əvəzolunmazdır. O, xalqın tarixini, mədəniyyətini, düşüncə tərzini, zövqünü və həyat tərzini yaşadan ən mühüm vasitələrdən biridir. Sənətkarlıq nümunələri – xalçaçılıq, zərgərlik, dulusçuluq, ağacoyma, misgərlik və s. – xalqın özünəməxsusluğunu, adət-ənənələrini əks etdirir. Bu sənətlər milli kimliyin unudulmamasına xidmət edir. Sənətkarlıq yalnız bir peşə və ya əşya istehsalı yaxud bir iş yeri deyil, həm də bir xalqın tarixi, adət-ənənələri, qan yaddaşının, dünyagörüşü və estetik duyumunun ifadəsidir**.**

1. Mədəni irsin daşıyıcısı kimi sənətkarlıq

Sənətkarlıq xalqın keçmişini, yaşam tərzini, dünya görüşünü və dəyərlər sistemini əks etdirən canlı irs formasıdır. Sənətkarlıq nümunələri (məsələn, xalçaçılıq, dulusçuluq, ağac oyma, metal işləmə və s.) nəsildən-nəslə ötürülərək milli-mənəvi kimliyin qorunmasında mühüm rol oynayır. Azərbaycanın görkəmli kristalloqraf, alim, ictimai-siyasi xadim və milli ideologiyaçısı olan Xudu Məmmədovun milli abidələrdə sənətkarlıqda olan naxışlarda, rənglərin musiqi ilə sintezində milli kimliyin formalaşmasındakı rolunu elmi əsaslarla qan yaddaşında olduğunu əhəmiyyətindən bəhs edərək, maraqlı araşdırmalara da yol açacağını söyləmək olar.

2. Estetik və əxlaqi dəyərlərin ifadəsi

Gəncə ənənəvi sənətkarlıq nümunələri həm estetik zövq aşılayır, həm də əxlaqi və mənəvi dəyərləri çatdırır. Məsələn, xalçalarda işlənən naxışlar və ornamentlər ailə, doğmalıq, müqəddəslik və təbiətə bağlılıq kimi dəyərləri simvolizə edir. Eyni zamanda xalqın estetik baxışlarını ifadə edir və gənc nəsildə milli zövqün inkişafına təsir göstərir.

3. Sosial kimlik və milli birlik

Gəncə şəhərinin özünə məxsus sənətkarlıq, bir toplumun mədəni kimliyinin formalaşmasına yardım edir. Xalq sənətləri vasitəsilə fərqli bölgələrin, etnik qrupların və sosial təbəqələrin ortaq mənsubiyyət hissini gücləndirir. Bu isə öz növbəsində milli birliyin möhkəmlənməsinə xidmət edir. Həmçinin, sənətkarlıq həm də ailələrin dolanışıq vasitəsi olmuş, əməksevərlik və zəhmətkeşlik dəyərlərinin qorunub saxlanmasına şərait yaratmış iqtisadi-sosial funksiya rolunu da yerinə yetirmişdir.

4. Tarixi yaddaş və xalqın özünüifadəsi

Sənətkarlıq xalq yaddaşının vizual və praktik formada təcəssümüdür. Hər bir sənət nümunəsi bir dövrün, bir hadisənin və ya bir həyat tərzinin daşıyıcısı ola bilər. Bu, xalqın öz tarixini unutmayaraq gələcək nəsillərə ötürməsinə imkan yaradır.

5. Mənəvi sabitlik və davamlılıq

Sürətlə dəyişən müasir dünyada ənənəvi sənətkarlıq sabitlik və davamlılıq simvoludur. Bu, cəmiyyətin mənəvi sütunlarını möhkəmləndirir və gənc nəslin köklərinə bağlı qalmasını təmin edir.

Nəticə. Milli-mənəvi dəyərlərin formalaşmasında ölkəmizdə mövcud olan bütün memarlıq abidələrinin özünə məxsus sənətkarlıq nümunələri həm simvolik, həm funksional, həm də mənəvi baxımdan böyük əhəmiyyət daşıyır. Sənətkarlıq vasitəsilə bir xalqın ruhu, dünyagörüşü və yaşam fəlsəfəsi nəsildən-nəslə ötürülür və zamanla daha da zənginləşir. Eyni zamanda bu abidələrinin qorunması təkcə tarixə deyil, həm də milli kimliyə hörmətdir.[7.] Sənətkarlığın bu prosesdəki iştirakı isə bu irsin yaşadılmasına və mənəvi dəyərlərin yeni nəslə ötürülməsinə şərait yaradır. Nəticə etibarilə, sənətkarlıq milli-mənəvi dəyərlərin qorunmasında dövlət aidiyyatı qurumlar bir sözlə hər birimiz məsuliyyətli olmalıyıq. Bu irsin qorunması nəsillər arasında həm mədəni, həm də mənəvi körpü rolunu oynaya bilir. Eyni zamanda, xalqın kimliyini, ruhunu, tarixini gələcək nəsillərə ötürür. Bu baxımdan memarlıq, və sənətkarlıq bir-birini tamamlayan mədəni irsimizdir.

Problemin aktuallığı. Dünya təhsilinə və mədəniyyətinə inteqrasiya XXI əsrin rəqəmsal təzahür xüsusiyyətidir. Bu inteqrasiyanın uğurlu olması isə milli kimlik və dəyərlərin qorunması memarlıq və tarixi abidələrin sənətkarlığın bizə buraxılan mirasa dayanaraq edə bilərik.

Problemin yeniliyi. Tarixi sənətkarlıq memarlıq abidələri cəmiyyətin formalaşmasında dinamik rol oynayaraq keçmiş və gələcək arasında körpü rolunu oynayır. Bu dəyərlər qürurla istinad edəcəyimiz əvəzolunmaz mirasdır. Cəmiyyətin inkişaf alqoritminə təsir gücünə sahib olan bu dəyərlərin cəmiyyətin formalaşmasında rəqəmsal texnologiyadan istifadə yeni kontekstdə təbliği faydalıdır..

Problemin praktik əhəmiyyəti. Məqalədə təqdim olunmuş fikirlər rəqəmsal dünyada baş verən dəyişikliklərə milli kimlik qorunmaqla adekvatlığı təmin edə biləcək düzgün yol sayıla bilər.

Ədəbiyyat

1. Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya / tərt. ed. G. Səfərəliyeva; ixt. red. və burax. məsul K. Tahirov; red. L. Axundova. –Bakı, 2016. – 648 s
2. Cəfərov, Xəlil Ələkbər oğlu. Azərbaycan memarlıq elementləri / X. Ə. Cəfərov; elmi red. E. Ə. Qasımzadə; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası. –Bakı: Təhsil NPM, –2023. –549 s.
3. Hüseynov, A. "Sənətkarlıq ənənələrinin qorunmasında bərpa işlərinin əhəmiyyəti" // Azərbaycan Memarlığı Jurnalı, № 2, –2015. –s. 44-52.
4. Quliyev, T. "Gəncənin mədəni irsi və onun müasir dövrdə qorunması". Elmi Araşdırmalar Jurnalı, cild 5, №3, –2022. –s. 67-73.
5. Mərdan Məmmədov. Təsviri incəsənətin yaradıcılıq janrları (Gəncə abidələri) / –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –2021. –231 s.
6. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı: www.president.az
7. Milli-mədəni dəyərlərimizin qorunması üçün nə etməliyik?
   Sesqazeti.az https://sesqazeti.az › news › news

Redaksiyaya daxil olub: 06.10.2025

UOT 372.851
UOT 372.851

Fəxrəddin Feyzullah oğlu Əliyev
Sumqayıt Dövlət Universitetinin
Riyaziyyat və informatikanın tədrisi texnologiyası kafedrasının dosenti
https://orcid.org/0000-0002-2039-2334
E-mail: af_64@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).191-195

FUNKSİYANIN TÖRƏMƏSİNİN HESABLANMASI QAYDASINDA XÜSUSİ HALLAR

Fakhraddin Feyzullah Aliyev
associate professor of the department of Technology for teaching mathematics and informatics at the Sumgait State University

SPECIAL CASES IN CALCULATING THE DERIVATIVE OF A FUNCTION

Фахраддин Фейзулла оглы Алиев
доцент кафедры Технологии преподавания математики и информатики Сумгаитского Государственного Университета

ЧАСТНЫЕ СЛУЧАИ ВЫЧИСЛЕНИЯ ПРОИЗВОДНОЙ ФУНКЦИИ

Xülasə. Funksiyanın törəməsi anlayışının geniş tətbiqlərinin olduğu məlumdur. Ekstremum məsələləri, qeyri – standart sahələrin, əyrinin uzunluğunun , ixtiyarı fəza fiqurunun həcminin hesablanması və sair. Məqalədə törəmənin hesablanmasınn ənənəvi düsturunun deyil, xüsusi seçilmiş funksiyalar üçün ilk baxışda düzgün olmayan hasil və nisbətin törəmə düsturlarının çıxarılışı verilmişdir. Bu kimi yanaşmalar riyaziyyat müəllimlərində və riyaziyyat sevərlərdə fənnə çox ciddi təsir edən stimul yaradır. Bu baxımdan riyaziyyatın dərindən öyrənilməsində çox böyük əhəmiyyət kəsb edəcəyi gözlənilməndir.
Açar sözlər: *funksiyanın törəməsi, diferensial tənik, natural ədədlər ardıcıllığı, qeyri-müəyyənlik, sonsuz cəm, hasil, nisbət, hesablama, hasilin törəməsi, nisbətin törəməsi, riyazi araşdırma.*

Abstract. It is known that the concept of the derivative of a function has wide applications.
Extremum problems, calculation of non-standard areas, the length of a curve, the volume of an arbitrary spatial figure, etc. The article does not give the traditional formula for calculating the derivative, but rather the derivation of derivative formulas for products and ratios that are not correct at first glance for specially selected functions. Such approaches create a very serious stimulus for mathematics teachers and mathematics lovers to the subject. From this point of view, it is expected to be of great importance in the in-depth study of mathematics.
Key words: *derivative of a function, differential equation, sequence of natural numbers, uncertainty, infinite sum, product, ratio, calculation, derivative of product, derivative of ratio, mathematical investigation.*

Аннотация. Известно, что понятие производной функции имеет широкое применение. Задачи на экстремум, вычисление нестандартных площадей, длины кривой, объёма произвольной пространственной фигуры и т. д. В статье не приводится традиционная формула для вычисления производной, а выводятся формулы производных для произведений и отношений, которые на первый взгляд некорректны для специально подобранных функций. Такие подходы создают серьёзный стимул для

учителей математики и любителей математики к предмету. С этой точки зрения, ожидается, что она будет иметь большое значение для углубленного изучения математики.

Ключевые слова: *производная функции, дифференциальное уравнение, последовательность натуральных чисел, неопределенность, бесконечная сумма, произведение, отношение, вычисление, производная произведения, производная отношения, математическое исследование.*

Aydındır ki, riyaziyyat dəqiq elmlərin sıralamasında birinci yerdə gəlir. Belə ki, burada hər hansı bir anlayışın tərifi, xassələri, hesablamalar, düsturlar və s. hamısı mükəmməl məntiqə əsaslanır. Bununla belə riyaziyyatda da özünəməxsus kənara çıxmalar, qeyri-müəyyənliklər, məlum hesablama düsturlarından kənar xüsusi hallar, yəni ümumi düstura sanki tabe olmayan xüsusi hallar olur. Bu tip məsələlərə, məsələn sonsuz sayda ədədlərin hesablanması zamanı, məsələn 1-dən başlayaraq, sonsuz sayda natural ədədlərin cəminin sonsuz böyük yox, sonlu ədədə bərabər olmasını göstərən riyazi hesablamalar var: izah üçün bunu göstərək:

$$= 1 + 2 + 3 + 4 + 5 + 6 + \cdots =$$
$$= 1 + (2 + 3 + 4) + (5 + 6 + 7) + (8 + 9 + 10) + (11 + 12 + 13) + \cdots =$$
$$= 1 + 9 + 18 + 27 + 34 + 45 + \cdots = 1 + 9\underbrace{(1 + 2 + 3 + \cdots)}_{\widehat{N}} = N$$

olarsa, $1 + 9N = N$ almış olarıq ki, burada 1-dən ∞-a qədər sayda natural ədədin cəminin

$$1 + 9N = N, N = -\frac{1}{8}$$

olması görünür. Bu qeyri-dəqiqliyin səbəbləri sonsuz sayda toplananlarla bağlıdır.

Bununla yanaşı, məqalədə göstərəcəyimiz qeyri-dəqiqliklə bağlı, daha doğrusu funksiyanın törəmə qaydalarının "pozulduğu" hallara baxacağıq.

İki funksiyanın cəminin və fərqinin törəməsinin

$(f(x) + g(x))' = f'(x) + g'(x)$, $(f(x) - g(x))' = f'(x) - g'(x)$

kimi hesablandığı məlumdur. Funksiyanın hasilinin və nisbətinin törəməsi isə törəmənin tərifindən alınan və bir qədər daha mürəkkəb

$(f(x) \cdot g(x))' = f'(x) \cdot g(x) + f(x) \cdot g'(x)$,

$$\left(\frac{f(x)}{g(x)}\right) = \frac{f'(x) \cdot g(x) - f(x) \cdot g'(x)}{g^2(x)}$$

düsturları ilə hesablandığını bilirik.

Riyaziyyat kursunun törəmə ilə bağlı dərslərində şagirdlər və ya tələbələr səhvən iki funksiyanın hasilinin və nisbətinin törəməsi necə hesablanır? –sualına bəzən səhv və tələsik olaraq, bəzi xüsusi hallara əsaslanaraq

$$(f(x) \cdot g(x))' = f'(x) \cdot g'(x)$$

və

$$\left(\frac{f(x)}{g(x)}\right)' = \frac{f'(x)}{g'(x)}$$

kimi anlayırlar.

Sual olunur, bəs səhv kimi qeyd etdiyimiz bu iki düstur həqiqətənmi səhvdir?!, yoxsa xüsusi hallarda, yəni $f(x)$ və $g(x)$ funksiyalarının bəzi xüsusi qiymətlərində bu düsturlar doğru olur.

Məqalədə yuxarıda iki funksiyanın hasilinin və nisbətinin törəməsi ilə bağlı iki halı araşdıracağıq.

Əvvəlcə $(f(x) \cdot g(x))' = f'(x) \cdot g'(x)$ olduğunu sübut edək (xüsusi seçilmiş $f(x)$ və $g(x)$ üçün). Bu qeyri-müəyyən, qeyri dəqiq düsturun doğruluğunu isbat üçün sol tərəfin törəməsini təsdiq edilmiş məlum düsturla, sağ tərəfini isə isbatı tələb edilən kimi yazaq:

$f' \cdot g + f \cdot g' = f' \cdot g'$ (1)

Sadəlik üçün x-dəyişənini nəzərə almadan yazsaq, aşağıdakı kimi dəyişənlərinə ayrıla bilən diferensial tənlik almış oluruq.

$f' \cdot g + f \cdot g' = f' \cdot g'$,

$$f'g - f'g' = -f \cdot g',$$

$f'(g-g') = -f \cdot g'$,

Bərabərliyin hər tərəfinin $f(g-g')$ hasilinə bölsək, alarıq:

$$\frac{f'}{f} = -\frac{g'}{g-g'}$$

Hər tərəfi x dəyişəninə görə inteqrallasaq

$$\int \frac{f'}{f}dx = \int \left(-\frac{g'}{g-g'}\right)dx$$

$$lnf = -\int \frac{g'}{g-g'}dx + C,$$

$f(x) = Ce^{-\int \frac{g'}{g-g'}dx} = Ce^{-\int \frac{g'(x)}{g'(x)-g(x)}dx}$ (2)

almış olarıq. Məlumdur ki,

$\int \frac{f'(x)}{f(x)}dx = \left|\begin{matrix} f(x) = u, \\ f'(x)dx = du \end{matrix}\right| = \int \frac{du}{u} = lnu = lnf(x).$

İndi isə $g(x)$ funksiyasını seçək. $g(x) = e^{ax}$ kimi qəbul etsək, $g'(x) = ae^{ax}$ (3) olar. (3)-ü (2)-də nəzərə alsaq,

$$f(x) = Ce^{-\int \frac{g'}{g-g'}dx} = Ce^{-\int \frac{ae^{ax}}{e^{ax}-ae^{ax}}dx} = Ce^{\int \frac{ae^{ax}}{e^{ax}(□-1)}dx} = Ce^{\int \frac{a}{a-1}dx} = C \cdot e^{\frac{a}{a-1}x},$$

$$f(x) = C \cdot e^{\frac{a}{a-1}x} \ (a \neq 1)$$

olar.

İndi göstərək ki, $g(x) = e^{ax}$ $(a \neq 1)$ olduqda, $(f(x) \cdot g(x))' = f'(x) \cdot g'(x)$ bərabərliyi doğrudur. Bunun üçün hasilin törəməsi düsturunda bunları nəzərə alsaq

$$(f(x) \cdot g(x))' = f'(x) \cdot g(x) + f(x) \cdot g'(x) = \left(e^{\frac{a}{a-1}x}\right)' \cdot e^{ax} + e^{\frac{a}{a-1}x} \cdot (e^{ax})' =$$

$$= \frac{a}{a-1}e^{\frac{a}{a-1}x} \cdot e^{ax} + ae^{ax} \cdot e^{\frac{a}{a-1}x} = e^{\frac{a}{a-1}x} \cdot e^{ax}\left(\frac{a}{a-1} + a\right) =$$

$= e^{\frac{a}{a-1}x} \cdot e^{ax} \cdot \frac{a+a^2-a}{a-1} = \frac{a^2}{a-1}e^{\frac{a}{a-1}x} \cdot e^{ax}$. (4)

$f'(x) \cdot g'(x) = \left(e^{\frac{a}{a-1}x}\right)' \cdot (e^{ax})' = \frac{a}{a-1}e^{\frac{a}{a-1}x} \cdot a\, e^{ax} = \frac{a^2}{a-1}e^{\frac{a}{a-1}x} \cdot e^{ax}$ (5)

Beləliklə, (4) və (5) bərabərliklərindən alırıq ki, $g(x) = e^{ax}$ $(a \neq 1)$ olduqda

$$(f(x) \cdot g(x))' = f'(x) \cdot g'(x)$$

bərabərliyi ödənilir.

Fərz edək ki, $g(x) = x^n$. $g'(x) = nx^{n-1}$ olduğundan (2) dusturundan alarıq ki,

$$f(x) = e^{-\int \frac{g'(x)}{g'(x)-g(x)}dx} = e^{-\int \frac{nx^{n-1}}{x^n-nx^{n-1}}dx} = e^{\int \frac{n}{n-x}dx} = e^{-n\int \frac{d(n-x)}{n-x}} = e^{-nln(n-x)} = \frac{1}{(n-x)^n},$$

$$(f(x) \cdot g(x))' = f'(x) \cdot g(x) + f(x) \cdot g'(x) =$$

$$= \left(\frac{1}{(n-x)^n}\right)' \cdot x^n + \frac{1}{(n-x)^n} \cdot (x^n)' = n \cdot \frac{1}{(n-x)^{n+1}} \cdot x^n + \frac{1}{(n-x)^n} \cdot nx^{n-1} =$$

$= \frac{n \cdot x^n + nx^{n-1}(n-x)}{(n-x)^{n+1}} = \frac{n^2x^{n-1}.}{(n-x)^{n+1}}$;

$f'(x) \cdot g'(x) = \left(\frac{1}{(n-x)^n}\right)' \cdot (x^n)' = \frac{n \cdot nx^{n-1}}{(n-x)^{n+1}} = \frac{n^2x^{n-1}.}{(n-x)^{n+1}}$.

Beləliklə, göstərdik ki, $g(x) = x^n$ olduqda

$$(f(x) \cdot g(x))' = f'(x) \cdot g'(x)$$

bərabərliyi ödənilir.

İndi isə iki funksiyanın nisbətinin törəməsinin onların törəmələri nisbətinə bərabər olduğu xüsusi halı araşdıraq.

Məlumdur ki, $\left(\frac{f(x)}{g(x)}\right)' = \frac{f'(x)g(x)-f(x)g'(x)}{g^2(x)}$ (6) düsturu bütün funksiyalar üçün doğrudur.

Fərz edək ki, elə iki $f(x)$ və $g(x)$ funksiyaları var ki, $\left(\frac{f(x)}{g(x)}\right)' = \frac{f'(x)}{g'(x)}$ (7) bərabərliyini ödəyirlər. Onda (6) və (7) bərabərliklərinə görə

$\frac{f'(x)g(x)-f(x)g'(x)}{g^2(x)} = \frac{f'(x)}{g'(x)}$ (8)

olar. Sadəlik üçün (8)-i $\frac{f'\cdot g-f\cdot g'}{g^2} = \frac{f'}{g'}$ (9) şəklində yazaq. Bu tənlik dəyişənlərinə ayrıla bilən tənlik olduğundan (9) – u sadə çevirmələrlə aşağıdakı şəklə gətirək:

$\frac{f'}{f} = \frac{(g')^2}{g'\cdot g-g^2}$. (10)

(10) tənliyini x dəyişəninə görə inteqrallayaq:

$$\int \frac{f'(x)}{f(x)}dx = \int \frac{(g')^2}{\square'\cdot g-g^2}dx.$$

$\int \frac{d(f(x))}{f(x)} = \int \frac{(g')^2}{g'\cdot g-g^2}dx$, $\ln(f(x) = \int \frac{(g')^2}{g'\cdot g-g^2}dx + C, f(x) = Ce^{\int \frac{(g')^2}{g'\cdot g-g^2}dx}$. (11)

İndi isə $g(x)$ funksiyasını seçək. Məsələn, $g(x) = x^n$ şəklində götürək. Onda $g'(x) = nx^{n-1}$ olar.

Yazılışın sadəliyi üçün əvvəlcə $\int \frac{(g')^2}{g'\cdot g-g^2}dx$ inteqralına baxaq.

$\int \frac{(g')^2}{g'\cdot g-g^2}dx = \int \frac{n^2\cdot x^{2n-2}}{n\cdot x^{2n-1}-x^{2n}}dx = \int \frac{n^2}{nx-x^2}dx.$

Sonuncu inteqralaltı ifadə rasional ifadə olduğundan onu

$$\frac{n^2}{nx-x^2} = \frac{A}{x} + \frac{B}{n-x}$$

Sadə kəsrlərin cəmi şəklində yazıb, buradan $A = B = n$ taparıq. Bu qiymətləri $\int \frac{n^2}{nx-x^2}dx$ nəzərə alsaq, onda

$f(x) = e^{\int \frac{(g')^2}{g'\cdot g-g^2}dx} = e^{\int\left(\frac{n}{x}+\frac{n}{n-x}\right)dx} = e^{lnx^n-ln(n-x)^n} = e^{ln\left(\frac{x}{n-x}\right)^n} = \left(\frac{x}{n-x}\right)^n, f(x) = \left(\frac{x}{n-x}\right)^n.$

Beləliklə, seçilən $g(x) = x^n$ funksiyasına görə elə $f(x) = \left(\frac{x}{n-x}\right)^n$ funksiyasını təyin etdik ki, bu funksiyalar üçün $\left(\frac{f}{g}\right)' = \frac{f'}{g'}$ bərabərliyi odənir.

Asanlıqla yoxlamaq olar ki, $g(x) = x^n$ və $f(x) = \left(\frac{x}{n-x}\right)^n$ funksiyaları üçün, məsələn, $n = 2$ olarsa, $\left(\frac{f}{g}\right)' = \frac{f'}{g'}$ bərabərliyi odənir. Doğrudan da bu halda,

$g(x) = x^2$ və $f(x) = \left(\frac{x}{2-x}\right)^2$ şəklində olur. Onda

$\left(\frac{f}{g}\right)' = \left(\frac{\left(\frac{x}{2-x}\right)^2}{x^2}\right)' = \left(\frac{1}{(2-x)^2}\right)' = ((2-x)^{-2})' = \frac{2}{(2-x)^3}$; (12)

$\frac{f'}{g'} = \frac{\left[\left(\frac{x}{2-x}\right)^2\right]'}{(x^2)'} = \frac{2x(4-4x+x^2)+x^2(4-2x)}{2x(2-x)^4} = \frac{4-2x}{(2-x)^4} = \frac{2}{(2-x)^3}$. (13)

(12) və (13) bərabərliklərinin sağ tərəflərinin bərabərliyindən sol tərəflərinin də $\left(\frac{f}{g}\right)' = \frac{f'}{g'}$ bərabərliyi alınır. Eyni qaydada göstərmək olar ki, istənilən n üçün $\left(\frac{f}{g}\right)' = \frac{f'}{g'}$ bərabərliyi ödənir.

$g(x) = x^n$ və $f(x) = \left(\frac{x}{n-x}\right)^n$ funksiyaları üçün, məsələn, $n = 3$,

$n = 4, və\ sair\ hallar$ üçün $\left(\frac{f}{g}\right)' = \frac{f'}{g'}$ bərabərliyinin doğruluğunun yoxlanılmasını dinləyicilərə həvalə edirik.

Problemin aktuallığı. Baxılan problemin tədqiqinin nəticələrindən praktikada, müxtəlif məsələlərin intensivləşdiriməsində baxılan üsullardan istifadə etməklə şagirdlərin təfəkküründün inkişaf etdirilməsində istifadə xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Məqalədə funksiyanın törəməsi anlayışının mükəmməl tətbiqi öyrədilir. Həmçinin riyazi düsturlara daha yaradıcı yanaşma yollarını, ümumi hallarda kənara çıxmalar - istisna alları varmı? sualına praktik cavab hazırlığının olması araşdırılır.

Problemin praktik əhəmiyyəti. Baxılan isbat üsullarından istifadə etməklə riyaziyyatın tədrisində daima aktual olan və öyrədənlər üçün stimulyaradıcı, öyrənənlər üçün isə stimulverici kimi metodiki xüsusiyyətlərin formalaşdırılması baxımından əhəmiyyətlidir.

Ədəbiyyat

1. Туманов, С.И. Поиски решения задач /–Москва: Просвещение, –1969. –267 с.
2. Ивлев, Б.М. Задачи повышенной трудности по алгебре и началам анализа. Учебн. пособие для 10-11 кл. средн. Школы / Б.М. Ивлев, Шварцбурд С.И. –М.: Просвещение, –1990. –350 стр.
3. İbrahimov, Ə.Y. Çətinlik dərəcəsi yüksək olan riyaziyyat məsələlərinin həlli üzrə praktikum. / Ə.Y. İbrahimov, A.Y. Kreymer, S.N. Sadıqov –Bakı: –1975. –287 s.
4. Yaqubov, M.H. Riyaziyyat. Məsələ və misallar. –B.: Çaşıoğlu, –2009. –310 s.

Redaksiyaya daxil olub:15.10.2025

Aypara Cəbrayıl qızı Mahmudova
Gəncə Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/ *0000-0003-2781-8534*
E-mail:aypara_mahmudova@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).196-199

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ KİMYA DƏRSLƏRİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİ KİMİ LABORATORİYA İŞLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ

Aypara Jabrayil Mahmudova
doctorial student in the program of doctor of philosophy
at Ganja State University

IMPLEMENTATION OF LABORATORY WORK AS INDEPENDENT WORK OF STUDENTS WHEN TEACHING CHEMISTRY IN SECONDARY SCHOOLS

Айпара Джабраил гызы Махмудова
диссертант по программе доктора философии Гянджинского Государственного Университета

РЕАЛИЗАЦИЯ ЛАБОРАТОРНЫХ РАБОТ КАК САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ УЧАЩИХСЯ ПРИ ПРЕПОДАВАНИИ ХИМИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Xülasə. Məqalədə müəllif qeyd edir ki, kimya dərslərində şagirdlərdə fənnə davamlı maraq oyatmaq, bilikləri möhkəmləndirmək, dərk etmə qabiliyyətini yüksəltmək və müstəqil olaraq bilik əldə etmək bacarıqlarını formalaşdırmaq məqsədilə laboratoriya işlərinin həyata keçirilməsi olduqca əhəmiyyətlidir. Kimyadan müstəqil işlərə çox vaxt ayırdıqda şagirdlər müstəqil həyatlarında onlara lazım olacaq bilik və bacarıqlara yiyələnə bilərlər.
Açar sözlər: *müstəqil işlər, laboratoriya işləri, , qiymətləndirmə, şagirdlər, kimya dərsləri*

Abstract. In this article, the author notes that laboratory work in chemistry classes is essential for fostering students' ongoing interest in the subject, consolidating their knowledge, enhancing their ability to understand, and developing skills for independent learning. It is also emphasized that by devoting more time to independent work in chemistry, students can acquire the knowledge and skills they will need in their independent lives.
Keywords: *independent work, laboratory work, assessment, students, chemistry classes*

Аннотация. В статье автор отмечает, что проведение лабораторных работ на уроках химии имеет большое значение для формирования у учащихся постоянного интереса к предмету, закрепления знаний, повышения их способности к пониманию и формирования навыков самостоятельного получения знаний. Подчеркивается также, что, уделяя больше времени самостоятельной работе по химии, учащиеся могут приобрести знания и навыки, которые им понадобятся в самостоятельной жизни.
Ключевые слова: *самостоятельная работа, лабораторная работа, оценивание, учащиеся, уроки химии*

Ümumtəhsil məktəblərində kimyanın tədrisi prosesində şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşması kimyadan ilk dərsdən başlanmalıdır. Kimya tədrisində şagirdlərin müstəqil işlərinin təşkili onların bilik, bacarıq və vərdişlərinin inkişafına şərait yaratmaqla yanaşı,

kimya fənninə marağın artmasına səbəb olur. Kimya dərslərində laboratoriya işlərinin əhəmiyyətinin mənimsənilməsində şagirdlərin müstəqil işlərinin təşkili və həyata kecirilməsinin mahiyyətini nəzərə alaraq bu istiqamətdə elmitədqiqat işi aparmağı, ümumtəhsil məktəblərində kimya müəllimlərinə müəyyən qədər kömək edə bilən metodik vəsait vacib hesab edilir. Kimyadan laboratoriya işləri şagirdlərin kimya fənninə olan maraqlarına ,müstəqil iş formaları və arzularına əsaslanaraq müxtəlif formalarda təşkil olunur və tətbiq edilir. Ümumiyyətlə laboratoriya işləri şagirdlərin müstəqilliyinin tədricən artırılması prinsipi üçün istifadə olunan bir sistemdir. Şagirdlər kimyadan müstəqil laboratoriya işləri həyata keçirməklə kimyəvi maddələrin fiziki-kimyəvi xassələrinin onların alınması üsullarının tədqiqatında böyük müvəffəqiyyətlər əldə edə bilərlər. Eksperimental bacarıq və vərdişlərin yoxlanılması, şagirdlərin praktik və laboratoriya işləri yerinə yetirdiyi zamanı, həmçinin ekskursiya, kinofilmlərin və diapozitivlərin nümayişi zamanı müəllimin müşahidəsi altında aparılır. Şagirdlərin apardıqları işlərin bu cür müşahidəsinin nəticələrini müəllim laboratoriya jurnalında həmişə qeyd edir. Nəzərə alsaq ki, şagird praktik işə yüksək həvəslə və sürətlə qoşulmaq istəyir, lakin praktik işin icrasına ayrılmış zamanın məhdudsuzluğu laboratoriyada əla psixoloji mühit yaradır və praktik iş yaxşı nəticələnir. Praktik iş tamamlandıqdan sonra hər bir şagird öz iş stolunu laboranta deyil (bəzən olar) müəllimə təhvil verməlidir. Bunun bilinməsi üçün yaxşı olardı ki, şagirdlər laboratoriya jurnalında yazsınlar və ya praktika jurnalında qeyd etsinlər. Laboratoriya və praktik işlərin ən mühüm elementi, icra edilmiş işin hesabatının tərkibi və laboratoriya jurnalının doldurulmasıdır. Praktik və laboratoriya işlərinin kollektiv şəkildə icra edilməsinə baxmayaraq, laboratoriya jurnalı fərdi qaydada ciddi şəkildə doldurulmalıdır.

Praktik və laboratoriya işi o zaman tamamlanmış hesab edilir ki, şagirdlərin işlədikləri yer, praktik işin başlamadığı vəziyyətdəki kimi olsun. Bu ilk praktik və laboratoriya işində şagirdlərə veriləcək məcburi qayda olmalıdır. Bu da praktiki iş zamanı təhsil alanların sonrakı praktik işlərinə çox güclü formada təsir etməlidir.

Həyata keçirilmiş praktik və laboratoriya işinin hesabatı dərs zamanı sinifdən kənar şəkildə müstəqil və fərdi qaydada aparılmalıdır. Formalaşmış hesabata tərtib edilmiş ciddi elmi məqalə kimi yanaşmaq məqsədə müvafiqdir. Bu metod şagirdlər üçün daha faydalı olar. İşi icra edən şagird öz hesabatını standart təmiz ağ vərəqdə yazır və növbəti praktik işədək yoxlanılması üçün müəllimə təhvil verir.

Müasir dövrdə müxtəlif metodik ədəbiyyatlarda kimyəvi bacarıq və vərdişlərə aşağıdakılar şamil edilir: 1) laboratoriya avadanlıqları ilə davranma, maddələrin alınması və təyini üzrə təcrübələr aparmaq bacarığı – praktik bacarıq və vərdişlər; 2) Hesabatlar hazırlamaq, təcrübələrin və sxemlərin təsviri; 3) təmizlik, vaxta qənaət, əməyin təşkili bacarığı və vərdişi.

Onu da qeyd etmək lazımdır ki, müəllimin müşahidəsi zamanı şagirdlərin müstəqil işlərinə hökmən fərdi yanaşma lazımdır. Müşahidənin məqsədi – yalnız biliyin, şagirdin bacarıq və vərdişlərinin yoxlanılması deyil, həm də tədris işində zamanında onlara kömək etməkdir.

Bəzi hallarda müəllim dərs zamanı şagirdlərin apardıqları təcrübi işlərinə və yerindəcə cavabına müşahidəyə əsasən dərsə görə daha çox bal verməyə üstünlük verirlər. Bizim yanaşmamıza əsasən dərsə görə bal vermək yalnız 7-ci və 8-ci sinif şagirdləri üçün mümkün ola bilər. 9-cu, 10-cu və 11-ci siniflərdə isə şagirdlərin işini müşahidə ilə yanaşı yazı lövhəsində şagirddən şifahi sorğu-sual aparmaq məqsədə müvafiqdir. Çünki bu şagirdə yerindəcə qısa cavab verməyi deyil, həm də materiallar sistemini müstəqil olaraq ifadə etmək bacarığını öyrədir.

Şagirdlərin praktiki bacarıq və vərdişlərinin, biliyinin üzə çıxarılması üçün şagirdlərin müstəqil işlərinin bir neçə növünü araşdıraq.

Laboratoriya məşğələnin əsas məqsədi – nəzəriyyədən alınan bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsidir. Bəzi hallarda müəllimlər laboratoriya işlərini yalnız hesabat əsasında qiymətləndirir. Qeyd etmək lazımdır ki, laboratoriya işləri haqqında hesabatı evdə yazmağa icazə verilməlidir, çünki, şagirdlər laboratoriya işlərini həmişə müstəqil yerinə yetirmirlər.

İşin qiymətləndirilməsi müəllimin müşahidəsi əsasında və şagirdin hesabatı əsasında aparılmalıdır. Praktiki işin gedişi zamanı şifahi qüsurlar tutulması baxmayaraq ki, xeyirlidir, lakin həmişə məqsədə çatmır, belə ki, yaddan çıxa bilər. Bir sıra müəllimlər ayrı-ayrı işlər üzrə bacarıqlar sırası işləyir və işin gedişi zama-

nı bu bacarıqları müşahidə edərək qeyd edir. Müəllim gündəliyinə şagirdin filtr hazırlamağı, spirt lampasını söndürməyi bacarmamasını, maddə ilə davranmaq qaydalarını bilmədiyini, qaz lampasında (və ya spirt lampasında) maddəni düzgün qızdırmamasını, dəmir ştativdən istifadə edə bilməməsini qeyd edir.

Müşahidəni asanlaşdırmaq və vaxta qənaət etməyə imkan verən müşahidə nəticələrini qeyd etməyi təşkil etmək üçün müəllim müxtəlif sxemlər tətbiq edir. Məsələn: 1) şagirdin familiyası; 2) evdə işə əvvəlcədən hazırlaşmasını; 3) işin yerinə yetirilməsi texnikası; 4) hesabatın keyfiyyəti (məzmunu, reaksiya tənliyi, qeydlər, nəticə); 5) ümumi əmək mədəniyyəti (təmizlik, ehtiyatlılıq).

Müəllim hansı şagirdləri qiymətləndirəcəksə onları əvvəlcədən seçir və işin gedişi zamanı onların işlərini daha diqqətli müşahidə edir, dərsin sonunda dəftərlərini yığır və eksperimentin keyfiyyətinə diqqət yetirərək jurnalında onları qiymətləndirir

Biliyin, bacarıq və vərdişlərin qiymətləndirilməsi və yoxlanılmasında müstəqil laboratoriya işinin rolu daha böyükdür. Onları fərdi tapşırıq şəklində təşkil etmək xüsusi əhəmiyyətə malikdir. Bu da hər bir şagirdin işini qiymətləndirmək şəraiti yaradır. Belə qiymətləndirmə yuxarı sinif şagirdlərində daha çox maraq oyadır, lakin aşağı siniflərdə də istifadə etmək olardı. Müstəqil laboratoriya işini qiymətləndirən zaman hesabatın məz,unu deyil, təcrübənin aparılması keyfiyyəti nəzərə alınmalıdır. Şagirdlər müstəqil olaraq praktik iş icra edərkən kimya kabinetində ehtiyatlı olmalı, müəllim və ya laborantın tapşırıqlarına diqqətlə əməl etməlidirlər, işlədikləri stolda təmizliyə riayət etməli və müəllimin tapşırığı ilə müdafiə vasitələrindən istifadə etməlidirlər.

Şagirdlər laboratoriya işi yerinə yetirməyə xüsusi maraq göstərirlər. Bu işlərin məqsədi təchizat materiallarını yoxlamaq, cihaz quraşdırmaq, təcrübəni aparmaq bacarığını yoxlamaqdır. Praktiki işin məzmunu maddənin alınması, eksperimental tapşırığın həlli və s. ola bilər.

Laboratoriya işləri aparan zaman sinfin ümumi işinə müşahidədən başqa 5-6 şagirdin işinə xüsusi nəzarət etmək təklif olunur. Müşahidə nəticələrini müəllim qeyd etməsi üçün verilmiş laboratoriya işləri üçün bir sıra əməliyyatlardan ötrü kartoçkalar hazırlayır, müşahidə qeydlərini sürətləndirmək üçün hər bir əməliyyatın aparılma nəticəsini göstərən şərti işarələrdən istifadə edir. Müşahidə qeydlərini aparan zaman kartoçkadan aşağıdakı formada istifadə edilmişdir.

Praktik bacarıqların qiyməti şagirdlərin hesabatlarının yoxlanılması zamanı praktiki işlərin ümumi qiymətinə daxildir.

Praktik bacarıq və vərdişlərin müəyyənləşməsi zamanı ən azı 5-7 şagirdin ayrıca qiymətləndirilməsi daha çox məqsədə uyğundur.

Kimyadan növbəti müstəqil işlərin aparılması zamanı praktiki işləri aparmaq üçün digər şagirdləri seçməli və müəllimin onların işlərini müşahidə etməsi məqsədə uyğundur. Bəzi növbəti praktiki işlərdə yoxlamaq üçün az müvəffəqiyyətli şagirdləri müşahidə etmək olar.

Müstəqil praktiki laboratoriya işləri müşahidə etmək üçün keyfiyyət təyini tapşırıqlarını daxil etməyi təklif edir.

Müəllim şagirdlərin yerinə yetirəcəyi təcrübələrdəki əməliyyatları müşahidə etmək üçün yuxarıdakı formada kartoçka tərtib edir.

İş bitdikdən sonra bütün şagirdlərin hesabatları yoxlanılır. Kontrol yoxlama işinə görə hər bir şagirdə yalnız hesabatını yoxlanılmasına görə deyil, həm də müəllimin müşahidəsi əsasında qiymət verilir. Əgər şagird qeyri-kafi qiymət almışsa, müəllim bu işi təkrar yerinə yetirməyi tapşırır.

Laboratoriya işlərinin yoxlanılması və qiymətləndirilməsi müşahidə əsasında şagirdlərin praktiki işlərinə və suallara cavablarına görə aparılır. IX sinif üzrə “sulfat turşusunun kimyəvi xassələri” mövzusu üzrə dərsi misal göstərək.

Müəllim lövhədə laboratoriya işinin mövzusunu yazır, reaktivlərlə işləmə qaydalarına, laboratoriya stolunun təmizliyinə diqqət yetirməyi tapşırır, işin məqsədini izah edir və tapşırığı lövhədə yazır.

Təcrübə 1. Sınaq şüşəsində bir qədər mis (II) oksid götürün və üzərinə sulfat turşusu əlavə edin, sınaq şüşəsini qızdırın.

Təcrübə 2. Sınaq şüşəsinə bir qədər lakmus məhlulu tökün və üzərinə 3-4 ml sulfat turşusu əlavə edin.

Təcrübə 3. Sınaq şüşəsində bir qədər NaOH məhlulu götürün və üzərinə sulfat turşusu tökün.

Təcrübə 4. Sınaq şüşəsinə sulfat turşusu tökün və üzərinə sink parçası əlavə edin. Ayrı-

lan hidrogenin təmizliyini yoxlamaq üçün onu yandırın.

Müəllim aşağıdakı suallarla sinfə müraciət edir: bizim birinci təcrübənin məqsədi nədir? Adı çəkilmiş şagird tapşırığı necə yerinə yetirəcəyi haqqında danışır. Bundan sonra bütün şagirdlər tapşırığı qurtardıqdan sonra, müəllim sınaq şüşələrini ştativə qoymağı tapşırır. Həmin şagirdlərdən yenə soruşur: "reaksiya zamanı siz nə müşahidə etdiniz? Nə üçün lakmusun rəngi dəyişdi? Hansı maddələrə indikator deyilir? Verilmiş təcrübədən hansı nəticə çıxarmaq olar?"

Nəticə çıxarıb, alınan nəticəni şagirdlərin dəftərinə yazmağı müəllim tapşırır və ikinci təcrübəni şagirdlərə izah edərək, aşağıdakı sualları verir: "Verilmiş təcrübənin məqsədi nədir?" Növbəti şagirdi lövhəyə çağıraraq, verilmiş tapşırığı necə yerinə yetirəcəyini soruşur. Şagird onu yerinə yetirir.

Müəllim sinifdən soruşur: "Siz nə müşahidə etdiniz? Hansı nəticəyə gəlmək olar? Reaksiyanın tənliyini lövhədə biriniz yazın. Hansı maddələr duzlar adlanır?" Sonra şagirdlərə nəticəni dəftərlərində yazmağı tapşırır.

Müəllim növbəti tapşırığı izah etməyə başlayır: "Təcrübənin məqsədi nədir?" Müəllim üçüncü şagirddən tapşırığı necə yerinə yetirəcəyini soruşur. Şagird verilmiş tapşırığın yerinə yetirilməsi zamanı lazım olan qaydaları izah edir. Təcrübəni apardıqdan sonra müəllim həmin şagirdi lövhəyə çağırır: "Siz təcrübə zamanı nə müşahidə etdiniz? Reaksiyanın tənliyini lövhədə yazın". Digər təcrübədə bu planlar ardıcıllığı ilə aparılır.

Sonra müəllim şagirdlərin qeydlərini yazmağı və dəftəri yığışdırmağı tapşırır.

Sonda bütün işi ümumiləşdirmək üçün suallar verir: Sulfat turşusu hansı maddələrlə reaksiyaya daxil olur? Duru sulfat turşusunun kimyəvi xassələri barədə hansı ümumi nəticəyə gəlmək olar?

Bu dərsin sonunda müəllim altı şagirdə onların işlərinə müşahidə nəticəsində

və lövhədəki cavablarına əsasən qiymət yaza bilər.

Problemin aktuallığı. Məqalə müasir dövr eləcə də müasir tədris üçün çox aktual bir mövzudadır. Ümumtəhsil məktəblərində "Kimyanın tədrisi prosesində Şagirdlər müstəqil iş kimi laboratoriya işlərinin keçirilməsində müxtəlif çətinliklərlə üzləşirlər. Problemlərin aradan qaldırılması, və bu yönlü məsələlərin həllində istifadə oluna bilən variantların tətbiqi baxımından məqaləni aktual hesab edə bilərik.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, ümumtəhsil məktəblərində şagirdlərin müstəqil işləri kimi laboratoriya işlərinin həyata keçirilməsi zamanı müxtəlif üsulların zəruri yolları göstərilmişdir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Kimyadan müstəqil iş kimi laboratoriya işlərinin müstəqil həyata keçirilməsi şagirdlərdə biliklə yanaşı bacarıqların formalaşmasına onların müstəqil yaratmaq bacarığının inkişafına o cümlədən motivasiya yaratmaq, yeni bilik bacarıq və vərdişlərin formalaşmasına səbəb olur. Verilən tövsiyələrdən bu sahədə fəaliyyət göstərən müəllimlər, eləcə də tələbələr istifadə edə bilərlər.

Ədəbiyyat

1. Вивюрский В.Я. из опыта проверки домашних заданий с помощью эпидиаскопа //Химия в школе, –1974. №3, –с. 62-68.
2. Глориозов П.А. письменная проверка знаний учащихся // Химия в школе, –1974, №3, –с.12-16.
3. Глориозов П.А. Устная проверка знаний // Химия в школе, –1973, №1, –с. 24-30.
4. Дудко М.Г. Использование типовых задач – карточек // Химия в школе, –1970, №3, –с. 42-46
5. Дудко М.Г. Из опыта проверки знаний // Химия в школе, –1972, №3. –с. 33-38.

Redaksiyaya daxil olub: 29.09.2025

UOT 372.854

Rumiyyə İnşad qızı Camalova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/ 0000-0001-9325-092X
E-mail:rumiyye.camalova_82@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).200-205

KİMYANIN TƏDRİSİNDƏ TƏDQİQAT YÖNÜMLÜ FORSAYT METODUNUN İSTİFADƏSİ VƏ İNKİŞAFA TƏSİRİ

Rumiyya Inshad Jamalova
lecturer at Azerbaijan State Pedagogical University

THE USE OF THE RESEARCH-ORIENTED FORSYTH METHOD IN CHEMISTRY EDUCATION AND ITS IMPACT ON DEVELOPMENT

Румия Иншад гызы Джамалова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ИСПОЛЬЗОВАНИЕ ИССЛЕДОВАТЕЛЬСКОГО МЕТОДА ФОРСАЙТА В ПРЕПОДАВАНИИ ХИМИИ И ЕГО ВЛИЯНИЕ НА РАЗВИТИЕ

Xülasə. Məqalədə kimyanın tədqiqat xarakterli tədrisi, bu zaman istifadə olunan metod və ya texnikalardan, xüsusilə elmi proqnostik metod olan Forsayt metodundan, bu metodun texnikalarının: Kolb təcrübə-təlim, Oxşarlıqlar üçbucağı, "T" modelinin kimyanın tədrisi zamanı tətbiq imkanlarından, bu modellərin dəyər zənciri, dəyər-semantik ünsiyyətdə rolundan, əhəmiyyətindən söhbət açılır. Eyni zamanda şagird şəxsiyyətinin hərtərəfli inkişafına, elmi marağının artmasına və müasir dünyada tələb olunan kompetensiyaların, səriştələrin formalaşması və inkişafına xidmət edən tədqiqat bacarıqları da bu məqalənin məzmununu ehtiva edir.
Açar sözlər: *tədqiqat, funksional savadlılıq, Forsayt metodu, forsayt texnikası, elmi proqnozlaşdırma, Dəyər Zənciri, Dəyər-semantik ünsiyyət, Kolb təcrübə- təlim, Oxşarlıqlar üçbucağı, "T" modeli*

Abstract. The article examines research-based approaches to teaching chemistry and the methods or techniques used in this process, with particular emphasis on the Foresight method as a scientific prognostic approach. It explores the possibilities of applying the techniques of this method- Colb's experiential learning model, the Triangle of Similarities, and the T-shaped model in chemistry education, as well as their role and importance within the value chain and value-semantic communication. In addition, the article highlights the development of students' research skills that contribute to their comprehensive personal growth, enhanced scientific curiosity, and the formation and advancement of the competencies and skills required in the modern world.
Key words: *Research, Functional literacy, Foresight method, Foresight technique, scientific forecasting, value chain, value-semantic communication, Colb's experiential learning (model), Triangle of similarities, "T" -shaped model*

Аннотация. В статье рассматриваются научно обоснованные подходы к преподаванию химии и используемые в этом процессе методы и приёмы, с особым акцентом на метод Форсайта как научно-прогностический подход. Рассматриваются возможности применения методов этого метода – модели экспериментального обучения Колба, «Треугольника подобия» и Т-образной модели – в химическом образовании, а также их роль и значение в цепочке создания ценности и ценностно-смысловой коммуникации. Кроме того, в статье освещается развитие исследовательских навыков учащихся, способствующих их всестороннему личностному росту, повышению научного любознательства, формированию и развитию компетенций и навыков, необходимых в современном мире.

Ключевые слова: *исследования, функциональная грамотность, метод Форсайта, техника Форсайта, научное прогнозирование, цепочка создания ценности, ценностно-смысловая коммуникация, модель экспериментального обучения Колба, «Треугольника подобия», Т-образная модель*

Müasir təhsilin əsas məqsədi zəruri biliklərin praktik bacarıqlar şəklində şagirdlərdə formalaşdırılması, həyati situasiyalarda elmi- funksional savadlılığı inkişaf etdirməkdir. Kimyanın tədrisi zamanı tədqiqatyönlü təlim metodlarının tətbiqi də funksional savadlılığın inkişaf etdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Kimya təbiətinə görə eksperimental fənn olduğundan, onun öyrənilməsi prosesində şagirdlərin elmi-tədqiqat fəaliyyətinə cəlb edilməsi həm zəruri biliklərin mənimsənilməsinə, uyğun fəaliyyət sahələrinin genişlənməsinə şərait yaradır.

Tədqiqatyönlü təlim şagirdləri eksperimentlər aparmağa, müşahidə etməklə suallar formalaşdırmağa, hipotez irəli sürməyə, nəticələri təhlil etməyə təşviq edir. Bu yanaşma onların müstəqil düşünmə, problem həll etmə, tənqidi və yaradıcı yanaşma və analitik imkanlarını inkişaf etdirir. Beləliklə, kimyanın tədrisində tədqiqatyönlü metodlardan istifadə yalnız fənn üzrə biliklərin möhkəmləndirilməsinə deyil, eyni zamanda şagird şəxsiyyətinin hərtərəfli inkişafına, elmi marağının artmasına və müasir dünyada tələb olunan kompetensiyaların, səriştələrin formalaşması və inkişafına xidmət edir.

Kimyanın tədrisində tədqiqatyönlü Foresigh metodu şagirdlərin qarşısına yeni öyrənmə imkanları ilə çıxır. Bu metod şagirdlərdə tədqiqat bacarıqlarının formalaşdırılması prosesinə xidmət edərək mürəkkəb tapşırıqları və ya problemləri sistematik şəkildə daha kiçik, idarə oluna bilən hissələrə bölməyi əhatə edən problem həll-etmə yanaşmasıdır. “Foresight method”, həmçinin “Foresight technique” olaraq da tanınır. Mühəndislik və layihə idarəetməsi kimi sahələrdə geniş istifadə olunsa da, şagird öyrənmə və problem həll etmə bacarıqlarını dəstəkləmək üçün təhsildə də uğurla tətbiq oluna bilər. Kimyanın tədrisində Forsayt metodunu necə tətbiqi necədir?

Forsayt metodu elmi proqnozlaşdırma metodudur. Forsayt metodunu təhsildə tətbiq etməklə, şagirdlər problem həll etmək, tənqidi düşünmək və qərar qəbul etmək üçün sistemli yanaşma inkişaf etdirirlər. Bu, onlara mürəkkəb tapşırıqları parçalamağa, komponentləri təhlil etməyə, yaradıcı həllər yaratmağa və onların effektivliyini qiymətləndirməyə kömək edir. Bu üsul şagirdləri müstəqil öyrənənlər olmağa təşviq edir və onları müxtəlif mövzularda və real həyat vəziyyətlərində tətbiq oluna bilən dəyərli problem həll etmə bacarıqları ilə təchiz edir.

Forsayt metodu: Sorğu

1. Şagirdlərin tədqiqat zamanı həll etməli olduğu problemin araşdırılması üçün müəyyən etmək lazımdır:

a) Tədqiqat sualını
b) Tədqiqat tapşırıqlarını
c) Layihələri
d) Mürəkkəb sualları
e) Debat mövzusunu

2. Tədqiqatın daha idarəedilən olması asılıdır:

a) Alt-tapşırıqlardan
b) Tədqiqatın aparılmasına sistemli yanaşmadan
c) Problemin element və hissələrinin təyin edilməsindən
d) Şagirdlərin diqqət yetirməli olduğu aspektlərdən
e) Qeyd edilənlərin hər birindən

3. Tədqiqat problemi hissələrə bölündükdən sonra vacib fəaliyyətlər hansıdır?

a) Hər hissəni təhlil etmək
b) Müzakirə aparmaq
c) Nəticələri çıxartmaq
d) Mürəkkəb suallar vermək
e) Cavabları təhlil etmək

4. Problemin həllində tədqiqat bacarıqlarının formalaşdırılmasına yönəlik fəaliyyətlərdən biri yanlışdır:

a) Hissələr üçün həll yolu tapmaq
b) Beyin fırtınasına yönəlmək
c) Tənqidi düşünmə bacarıqlarından istifadə etmək
d) Alternativ yanaşmaları nəzərdən keçirmək
e) Mətni bütövlükdə oxumaq

5. Ən yaxşı qiymətləndirmə variantını seçin

a) Diaqnostik
b) Formativ
c) Summativ
d) Sistemli – hər bir komponent üçün effektiv variant
e) Qeyri-verbal

6. Problemin həlli yollarını necə sintez etmək olar:

a) Hissələr arasında qarşılıqlı əlaqəni nəzərə almaq

b) Ardıcıllığı təmin etmək

c) Həll yollarını birləşdirmək

d) Variantları qiymətləndirib uyğununu seçmək

e) Ayrılıqda tədqiq etmək

7. Tədqiqat prosesində problemin həlli baş verdikdən sonra şagirdlər nə etməlidirlər?

a) İrəliləyişləri sənədləşdirmək və lazım gəldikdə yanaşmaları dəyişmək

b) Fəaliyyət planında nəzərdə tutulan müzakirələri aparmaq

8. Tədqiqatın sonunda-problem həll edildikdən sonra şagirdlər tərəfindən metadərketmə necə təşkil edirlər?

a) Öz təcrübələri və nəticələri haqqında düşünürək tədqiqat bacarıqlarını inkişaf etdirmək

b) Ciddi müzakirələrə qoşulmaq

c) Layihələr hazırlamaq

d) Debat cəmiyyəti yaratmaq

e) Elmi natiqlik və dialoqlara girmək

Problemi və ya tapşırığı müəyyən edin: Şagirdlərin həll etməli olduğu problemi və ya tapşırığı aydın şəkildə müəyyənləşdirin. Bu mürəkkəb sual, layihə və ya təhlil və həllər tələb edən real həyat ssenarisi ola bilər.

Problemi parçalayın: Problemi daha kiçik, daha idarə edilə bilən hissələrə və ya alt tapşırıqlara bölün. Bu, şagirdlərə hər dəfə bir aspektə diqqət yetirməyə və problemin həllinə sistemli yanaşmanı inkişaf etdirməyə imkan verir. Şagirdlər problemin əsas komponentlərini və ya elementlərini müəyyən etməyə həvəslənirlər.

Hər hissəni təhlil edin: Problem parçalandıqdan sonra şagirdlər hər bir hissəni ayrı-ayrılıqda təhlil etməlidirlər. Onlar müvafiq məlumat toplaya, müxtəlif perspektivləri araşdıra və hər bir komponentə müvafiq konsepsiya və ya nəzəriyyələr tətbiq edə bilərlər. Bu, şagirdlərə problemi və onun əsas amillərini daha dərindən başa düşməyə kömək edir.

Strategiya və ya həll yollarını inkişaf etdirin: Şagirdləri beyin fırtınası etməyə və problemin hər bir hissəsi üçün potensial strategiyalar və ya həll yolları yaratmağa təşviq edin. Onlar tənqidi düşünmə bacarıqlarından istifadə edə, müxtəlif fənlərdən bilikləri tətbiq edə və alternativ yanaşmaları nəzərdən keçirə bilərlər. Yaradıcılığı vurğulamaq və şagirdləri "qutu"dan kənarda düşünməyə təşviq etmək vacibdir.

Ən yaxşı variantları qiymətləndirin və seçin: Şagirdlər yaratdıqları potensial strategiyaları və ya həll yollarını qiymətləndirməli və problemin hər bir komponenti üçün ən effektiv və ya uyğun variantları müəyyən etməlidirlər. Onlar fizibilite-texniki, iqtisadi, təsir, tələb olunan resurslar və etik mülahizələr kimi amilləri nəzərdən keçirə bilərlər. Sistemli qiymətləndirmə prosesini təşviq etmək vacibdir.

Həll yollarını sintez edin: Hər bir komponent üçün ən yaxşı variantları qiymətləndirdikdən və seçdikdən sonra şagirdlər bütün problemi həll etmək üçün öz həll yollarını ümumi plan və ya yanaşmada sintez etməlidirlər. Bu addım şagirdlərdən müxtəlif hissələr arasındakı qarşılıqlı əlaqəni nəzərə almağı və onların həllində ardıcıllığı təmin etməyi tələb edir.

Planı həyata keçirin: Şagirdlər fəaliyyət planlarını həyata keçirməli və hazırladıqları həlləri yerinə yetirməlidirlər. Bu, təcrübələrin aparılması, layihələrin yaradılması, hesabatların yazılması və ya tapıntıların təqdim edilməsini əhatə edə bilər. Şagirdləri öz irəliləyişlərini sənədləşdirməyə və lazım gəldikdə yanaşmalarını düzəltməyə təşviq edin.

Düşünün və prosesdən öyrənin: Tapşırığı yerinə yetirdikdən və ya problemi həll etdikdən sonra şagirdlər öz təcrübələri və nəticələri haqqında düşünməlidirlər. Onlar nəyin yaxşı işlədiyini, nəyin yaxşılaşdırıla biləcəyini və prosesdən nə öyrəndiklərini təhlil edə bilərlər. Bu addım metadərketməni təşviq edir və öyrənənlərə gələcək problemlərə tətbiq oluna bilən problem həll etmə bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Təhsildə Forsayt metodu ilə əlaqəli şəkildə şagirdlərin maraq və ehtiyaclarını, intellektual səviyyəsini – məntiqi, tənqidi və yaradıcı təfəkkürünü nəzərə alaraq tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsinə yönəldilməklə tədris prosesinin şagirdlərin müstəqil fəaliyyətlərinə yol açaraq tədqiqat əsaslı təşkil edilməsini və şagirdlərin yaradıcı işləri ilə tamamlanmasını təmin edir.

-məktəb kimyası sisteminə məzmun və tətbiqin yeni formasını təklif edərək təhsildə Tədqiqat Dəyər Zənciri, Dəyər-semantik ünsiyyət və Təhsildə Forsayt metodu, eyni zamanda yeni tədqiqat modelləri Kolb təcrübə - təlim, Oxşarlıqlar üçbucağı, "T" modeli və s. vasitəsilə kombinasiyasını aşkar etmişdir.

-şagirdlərin elmi yeniliklərə həvəsləndirilməsini tədqiqat bacarıqlarının inkişafında əhəmiyyətli töhfə kimi qəbul edir və həm müəllimlər, həm də şagirdlər üçün tədqiqat təcrübəsini artıra biləcək bəzi innovativ yanaşmalar və alətlərdən – virtual laboratoriyalar, birgə onlayn platformalar, Elmi ünsiyyət bacarıqları, Fənlərarası Tədqiqat, Tədqiqat Etikası və Dürüstlüyü kimi innovativ yanaşmaları sistemli şəkildə təhsilə daxil etməklə istifadəni şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafında mühüm amil hesab edilmişdir.

Eksperimentə başlayan müəllimlərlə Forsayt metodu və tərkibinə daxil olan üsul və texnikalara dair sorğu aparılmışdır:

1. Şagirdlərdə tədqiqat bacarıqlarının formalaşdırmaq üçün hansı müasir təlim texnologiyalarından istifadəyə üstünlük verirsiniz?

2. Bu zaman şagirdlərin fəaliyyətini qiymətləndirirsiniz? (bəli, xeyr)

3. Kimyanın tədrisində tədqiqat bacarıqları formalaşdıran texologiyaları seçərkən nəyə əsaslanırsınız?

4. Təklif olunan təlim modellərlə ilə işlədikdə fənnə maraq və idrak fəallığının artması müşahidə olunurmu? (bəli, xeyr)

5. Şagirdlərdə tədqiqat bacarıqları formalaşdıran başqa metodlarla tanışsınızmı? (bəli, xeyr)

6. Yeni texnologiyalarla işlədikdə şagirdlərdə tədqiqat bacarıqlarını qiymətləndirirsinizmi?

7. “T”, 7Niyə?, REACT, Oxşarlıqlar üçbucağı, Kolb təcrübə-təlim və s. modellərdən istifadə edərkən məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişaf etdirilməsində rolunu necə dəyərləndirirsiniz?

Müəllimlərlə aparılan sorğuya münasibət Diaqram 1.- də verilmişdir.



Diaqram 1. Müəllimlərin aparılan sorğuya münasibəti

Diaqramdan göründüyü kimi, 5 nəfər, yəni 19 faiz müəllim 7-ci sualı dəyərləndirmişdir.

Nəticələrdən müəyyən olunmuşdur ki, müəllimlər fəal təlim metodlarına üstünlük vermirlər, hələ də nəinki ənənəvi tədris metodlarından, xüsusilə də doğmatik, şifahi şərh metodlarından imtina etmir, əksinə tədris yanaşmalarını, metodlarını və texnikalarını və ya strategiyalarını fərqləndirməkdə yanlış təsəvvürlər nümayiş etdirirlər.

Buna görə də, səmərəli təlim nəticələri əldə etmək üçün təhsillə bağlı maraqlı tərəflərin, ilk növbədə, müəllimlərin kimyanın tədrisində istifadə olunacaq tədqiqat istiqamətli yeni metodologiya hazırlamasına ehtiyacları vardır.

Dəyər-semantik ünsiyyət mədəniyyətinin inkişaf etdirilməsinə dair 61 şagird arasında sorğu aparılmışdır.

Cədvəl 1.

7 nömrəli tam orta məktəbdə VII sinif şagirdləri ilə Dəyər-semantik ünsiyyət mədəniyyətinin inkişaf etdirilməsinə dair sorğu

№	Meyarlar	Cavablar		
		Tez-tez	Bəzən	Heç vaxt
1	Dərsə hazırlıqlı gəlirəm	27	25	9
2	Dərsə gecikirəm	32	29	0
3	Dərsə resurslarla gəlirəm	30	27	4
4	Ev tapşırığını icra edirəm	21	12	28
5	Dərsi pozuram	15	35	11
6	Özümü dərk edirəm	61	0	0
7	Özümü idarə edirəm	12	33	16
8	Göz təması qururam	11	35	15
9	Komandada davranma vərdişinə malikəm	31	16	14
10	Ünsiyyət qura bilirəm	31	16	14

Dəyər-semantik ünsiyyət mədəniyyətinin inkişaf etdirilməsi dair 61 şagird arasında aparılan sorğunun nəticələri diaqramda öz əksini tapmışdır:



Diaqram 2. Dəyər-semantik ünsiyyət mədəniyyətinin inkişaf etdirilməsinə dair sorğunun nəticəsi

Ümumi təhsil məktəblərində kimya təlimində tədqiqatçılıq metodlarından istifadənin vəziyyəti araşdırılarkən şagirdlərlə diaqnostik qiymətləndirmə aparılmışdır. Testlər ilkin anlamanı müəyyən etmək üçün kimyadan ümumi dünyagörüşü yoxlamaq xarakteri daşıyır. Burada tədqiqat-axtarış üçün çox vacib bacarıqlar: həm riyazi, həm təbiəti müşahidə, həm də oxuyub-anlama bacarıqlarının ilkin vəziyyəti müəyyən edilir.

İlkin mərhələdə hər məktəbdə ilkin səviyyənin müəyyən edilməsi məqsədi ilə diaqnostik qiymətləndirmə aparılmış, nəticədə 174 nəfər VII sinif şagirdi (Bakı 7-55, Oğuz 3-54, Oğuz 2-6, Yevlax 7-44, Gülövşə- 26,), VIII siniflərdə 262 nəfər (Bakı-44, Oğuz 3-40, Oğuz 2-10,

Yevlax 7-34, Gülövşə-29,), IX siniflərdə 157 nəfər (Bakı-45, Oğuz 3-40, Oğuz 2-12, Yevlax 7-35, Gülövşə-25) bu prosesdə iştirak etmişdir.

Problemin aktuallığı. Forsayt metodu gələcəyə yönəlik düşünmə, proqnozlaşdırma və strateji qərarvermə bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan müasir elmi- metodiki yanaşmadır. Yüksək keyfiyyətli təhsil hər bir fərdin səriştələrinin formalaşdırılmasıdır. Təhsildə keyfiyyətə nail olmaq isə müasir dövrün tələblərinə cavab verən şəxsiyyətin məhz tədris prosesində formalaşdırılmasıdır. Bu metod təhsil sistemində günün tələblərinə görə gələcəyin sosial, iqtisadi, texnoloji və elmi dəyişikliklərinə uyğunlaşdırmağa imkan verir.

5. Bruner, J. Toward a Theory of Instruction. –Cambridge, MA: Harvard University Press, –1966.
6. Hall, T.; Vue, G.; Strangman, N.; Meyer, A. Differentiated Instruction and Implications for UDL Implementation. Wakefield, MA: National Center on Accessing the General Curriculum (NCAC), CAST, –2004.
7. Piaget, J. Science of Education and the Psychology of the Child. –New York: Orion Press, –1970.
8. Subban, P. Differentiated instruction: A research basis // International Education Journal, 7(7). –Perth: Shannon Research Press, –2006. –pp. 935–947.
9. Tomlinson, C. A. How to Differentiate Instruction in Mixed-Ability Classrooms (2nd ed.). – Alexandria, VA: ASCD, –2001.

10. Tomlinson, C. A. The Differentiated Classroom: Responding to the Needs of All Learners (2nd ed.). – Alexandria, VA: ASCD, –2014.
11. Tomlinson, C. A. How to Differentiate Instruction in Academically Diverse Classrooms (3rd ed.). – Alexandria, VA: ASCD, –2017.
12. Watts-Taffe, S.; Laster, B. P.; Broach, L.; Marinak, B.; Connor, C. M.; Walker-Dalhouse, D. Differentiated instruction: Making informed teacher decisions // The Reading Teacher, 66(4). – Newark, DE: International Reading Association, –2012. – pp. 303–314.

Redaksiyaya daxil olub: 21.11.2025

UOT 372.881.111.22

Mehbarə Niftulla qızı Qəribova
Azərbaycan Dillər Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0091-780X
E-mail:almanmetodika@yandex.ru
https://doi.org/10.69682/arti.2025.92(6).234-239

ALMAN DİLİNDƏ KOMMUNİKATİV- PRAQMATİK SƏRİŞTƏ STRUKTURUNUN TƏDRİS PROSESİNDƏ DİDAKTİK BAXIMDAN TƏHLİLİ

Mehbara Niftulla Garibova
associate professor at
Azerbaijan University of Languages,
doctor of philosophy in pedagogy

DIDACTIC ANALYSIS OF THE STRUCTURE OF COMMUNICATIVE-PRAGMATIC COMPETENCE IN THE PROCESS OF TEACHING GERMAN

Мехбара Нифтулла гызы Гарибова
доцент Азербайджанского Университета Языков,
доктор философии по педагогике

ДИДАКТИЧЕСКИЙ АНАЛИЗ СТРУКТУРЫ КОММУНИКАТИВНО-ПРАГМАТИЧЕСКОЙ КОМПЕТЕНЦИИ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ НЕМЕЦКОГО ЯЗЫКА

Xülasə. Alman dilinin kommunikativ-praqmatik sərişdə strukturunun auditoriyada təhlili sosial kontekstdə dildən düzgün və səmərəli istifadə etmək bacarığına diqqət yetirir. Didaktik dillə desək, bu, auditoriyada orijinal ünsiyyət vəziyyətlərini simulyasiya edərək real həyatda dil istifadəsinə diqqət yetirmək deməkdir. Həm linqvistik vasitələr, həm də üz ifadələri və jestlər kimi şifahi olmayan aspektlər uğurlu söhbətlər və birgə dil istifadəsini təmin etmək üçün nəzərdə tutulur.
Açar sözlər. *Kommunikativ-praqmatik sərişdə, şəxsiyyətlərarası münasibətlər, təlim materialları, sosiomədəni aspekt, yad mədəniyyət*

Abstract. The analysis of the communicative-pragmatic competence structure of the German language in the classroom focuses on the ability to use language correctly and effectively in a social context. In didactic terms, this means focusing on real-life language use by simulating authentic communication situations in the classroom. Both linguistic means and non-verbal aspects such as facial expressions and gestures are intended to ensure successful conversations and joint language use.
Keywords. *Communicative-pragmatic competence, interpersonal relationships, training materials, sociocultural aspect, foreign culture*

Аннотация. Анализ структуры коммуникативно-прагматической компетенции немецкого языка в аудитории фокусируется на способности правильно и эффективно использовать язык в социальном контексте. В дидактическом плане это означает ориентацию на реальное использование языка путем моделирования аутентичных коммуникативных ситуаций в аудитории. Как языковые средства, так и невербальные аспекты, такие как мимика и жесты, призваны обеспечить успешное общение и совместное использование языка.
Ключевые слова: *коммуникативно-прагматическая компетенция, межличностные отношения, учебные материалы, социокультурный аспект, иностранная культура*

Kommunikativ – praqmatik bacarıqlar nədir? Başqalarına linqvistik cəhətdən uyğun cavab vermək, müvafiq situasiyanı nəzərə almaq, uyğun dildən istifadə etmək, söhbətləri uğurla aparmaq və dillə birlikdə hərəkət etmək praqmatik-kommunikativ bacarıqların məzmunudur [K.Ehlix 2007].

Kommunikativ metodun məqsədi uzun müddətdir ünsiyyət amilləri ilə əlaqəli olmuş, dil nəzəriyyəsində və danışanların sosial rollarına istiqamətlənməsində aparıcı yerlərdən birinə malikdir. Azərbaycan Dillər universitetində xarici dillərin tədrisi təcrübəsinə əsasən təlimdə ölkənin tarixi, mədəniyyəti, şəxsiyyətlərarası münasibətlərin xarakteri və s. öyrənilməsi bu metod çərçivəsində əldə edilmiş praqmalinqvistik biliklər və onun yerli metodologiyada tətbiqi tələbələrin kommunikativ bacarıqlarının inkişafına səbəb olmuşdur. Qeyd edək ki, çox vaxt bu metodun istiqamətindən asılı olaraq ali təhsil müəssisələrində nitq praktikasında kommunikativ tapşırıqlarda praqmatik ifadələr nəzərə alınmayıb. Didaktik baxımdan göstərilən amillər nəzərə alınmaqla xarici dilin mənimsənməsində kommunikativ tapşırıqlar tədris planında öz əksini tapmalıdır. Lakin, tələbələr kifayət qədər məntiqi bir ifadəyə yiyələnməmiş, linqvistik strukturları bilmədən kommunikativ tapşırıqları situasiya ilə əlaqələndirə bilmirlər. Xarici dil tədrisinin metodikası dili başa düşmək üçün əsas strukturları qavramaq və ya onları tanımaq lazım olduğunu tələb edir. Belə ki, kommunikativ tapşırıqların həllində bizə yad bir mədəniyyətdə danışan insanları anlamaq istəyini və empatik olmağı öyrənməli, onların fikirlərini mənimsəməyə çalışmalıyıq. Biz, L. Bredellanın tələb etdiyi kimi, "hər şeyi onların gözü ilə görməliyik. Bu asan deyil, çünki biz hər şeyi əvvəlcə öz gözlərimizlə görürük, yəni kənardan tanış oluruq və münasibətlərimizlə yiyələnirik"[5, 78 s.]. Tədrisdə öyrənmə ənənələri hansılardır? "Ənənə" sözü latınca"tradere" felindəndir və hərfi mənada ötürmək və ya təhvil vermək deməkdir, yəni adət, vərdiş və ya təcrübə nəsildənnəslə ötürülür və beləliklə də qorunur. Öz ənənəvi kökləri ilə yenidən əlaqə qurmaq səriştəsi bütün mədəniyyətlərdə müsbət və davamlı bir adət kimi qəbul edilir. "Ənənə" termini dil tədrisi kontekstində mədəniyyət anlayışı ilə sıx bağlıdır, adətən "mədəniyyətə xas tədris və təlim ənənələri"nin birləşməsi deməkdir. "Mədəniyyət" termininin müəyyən edilməsi ən çətin terminlərdən biridir. R. Esser-ə görə, xarici dillərin tədrisi üçün "mədəniyyət" əsas anlayış olsa da, mənaca müəyyən etmək çətindir[12, 24 s.]. Xarici dillərin tədrisi üçün "mədəniyyət" terminin mənası çox fərqli şərh olunur. Bir tərəfdən, S.Hess və H.-J. Krumm kimi bəzi müəlliflər mədəniyyətin öyrənmə proseslərinə həddən artıq təsir göstərməsinə qarşı xəbərdarlıq edirlər. Onlar hesab edirlər ki, mədəniyyət anlayışı "həmişə mədəniləşmə, yəni sosial-tarixi mürəkkəbliklərin azalması və mədəni xüsusiyyətlərin təsbiti riskini daşıyır, buna görə də ümumiyyətlə mədəni xüsusiyyətlərdən danışmaq yersizdir" [9, 156-161 s]. Digər tərəfdən, C. Kramsch və A. Holliday (1994) mədəniyyətin tədrisdə çox mühüm rol oynadığına qəti şəkildə əmindirlər. K-B. Bekman hesab edir ki, "mədəni təsirlər xüsusilə tədrisdə və öyrənmə bacarıqları sahəsində mühüm əhəmiyyət kəsb edir və buna görə də metodologiya və didaktika tərəfindən nəzərə alınmamalıdır" [4, 85-98 s].

Qeyd edək ki, metodologiya hələ də tədris materialının mövzu prinsipinə əsasən paylanmasına kifayət qədər sahib deyil. İnanırıq ki, dilin bütün aspektlərini öyrədərkən, həm də formalaşdırarkən kommunikativ-praqmatikadan fəal şəkildə istifadə olunmalı, ünsiyyət bacarıqları öyrədilməlidir:

- ✓ dili yuxarıdakı kateqoriyalar toplusu kimi öyrənən dilçilik,
- ✓ dil fəaliyyəti aspekti yalnız dilin təbii təsnifatının praqmatik aktuallıq prinsipinə tabedir. Eyni zamanda, leksik istifadə və linqvistik formalar sistemi kimi [7, 9-28s].

Praqmatik məsələlər tədris təcrübəsində adekvat şəkildə əks olunmur. Linqvistik və qrammatik hadisələrdən istifadə kommunikativ tapşırığa nail olmaq və müvafiq vəziyyətdə onun verbal vasitəsi kimi xidmət etməlidir. Fikrimizcə, qrammatik materialdan niyyətlərin həyata keçirilməsi vasitəsi kimi istifadə etmək bacarığı fərdi kommunikativ vəzifələrin həllində uğuru təmin edən kommunikativ-praqmatik səriştənin inkişafına imkan verir:

- ✓ məlumatlandırmaq,
- ✓ həvəsləndirmək,
- ✓ qiymətləndirmək,
- ✓ əlaqə yaratmaq.

Bu halda, həmsöhbətin davranışına istənilən istiqamətdə təsir etmək effekti daha yüksək

olacaq (bu son dərəcə vacibdir), çünki ünsiyyətin son məqsədi tərəfdaşa təsir etmək və ünsiyyətin nəticəsinə nail olmaqdır. Bütün mövcud ziddiyyətləri nəzərə alan metodistlər belə qənaətə gəlirlər ki, kommunikativ səriştənin formalaşması praqmalinqvistikanın nəzəri müddəaları nəzərə alınmaqla həyata keçirilməlidir. Xarici dil didaktikləri digər fənlərdən olan çoxsaylı nəzəriyyələrdən, modellər və konsepsiyalardan istifadə edirdlər, bəziləri isə əsaslandırılmadan sadəcə olaraq nəzərə alınmırdı. Başqa sözlə, kommunikativ xarici dil didaktikası onu qəti surətdə ilhamlandıran və formalaşdıran bir çox əlaqəli fənlərdən faydalanmağa çalışdı. Bununla belə, bu fənlər açıq şəkildə xarici dil didaktikasına yönəlmədiyindən, xarici dilin tədrisində kommunikativ səriştənin əhəmiyyətsizləşməsi qeyri-adi deyildi. Bu, həmçinin, xarici dil didaktikası daxilində dilin, ünsiyyətin və mədəniyyətin məhdud anlayışı ilə əlaqələndirilə bilər. Belə bir azalma, ilk növbədə, xarici dilin didaktik təcrübəsində bir çox uğursuzluqlara əhəmiyyətli dərəcədə töhfə verən dilin təbiətinin dərk edilməsinə əsaslanırdı[11, 23-76 s]. Dil öyrənənlərin və dil müəllimlərinin kommunikativ-praqmatik səriştələrinin əsasını təşkil edən konstitutiv xüsusiyyətlərin (yəni dil qazanma bacarıqları, dilin işlənməsi bacarıqları, dil biliyi və s.) öyrənilməsi və buna görə də bu obyektlərin və ya subyektlərin mərkəzi vəzifəsi kimi müəyyən edilir. Başqa sözlə, tədqiqatlar ilk növbədə diqqəti Azərbaycanda xarici dillərin tədrisi metodikasının öyrənilməsinin elmi əsası üçün aktual olacaq nəzəriyyənin dil müəllimləri və dil öyrənənlərin inkişafına yönəldir. Belə bir elmi nəzəriyyə həm izahedici, həm də proqnostik funksiyanı yerinə yetirməlidir. Beləliklə, kommunikativ və praqmatik səriştə strukturu arasında əlaqəni qeyd etməklə, xarici dillərin tədrisi paradiqmasının ayrı-ayrı müddəalarını yenidən nəzərdən keçirmək zərurətini dərk etmək olar. Bu fakta əsaslanaraq biz təlimin „kommunikativ-praqmatik“ modeli kimi bir konsepsiyanın təqdim edilməsini təklif edirik. Bu modelin nəzəri əsasını kommunikativ niyyətə adekvat şəkildə öz fikirlərini ifadə etmək qabiliyyətini formalaşdıran kommunikativ və praqmatik-funksional anlayışlar təşkil edir. Bundan əlavə, biz oxşar yanaşma əsasında alman dili dərsliklərinin konsepsiyalarının təhlilindən də istifadə edirik (Schritte, Deutsch aktiv, Themen neu, Menschen, Begegnungen və s.). Onlarda tədris materialı mövzu ardıcıllığı ilə deyil, aşağıdakı kimi paylanır: Nitq – Situasiya – Mövzu – Sözlər/Qrammatika.

Qeyd etmək lazımdır ki, modelin qurulması üçün başlanğıc nöqtə dil öyrənmədə qrammatik irəliləyiş deyil, kommunikativ niyyətdir. Məqsəd nitq aktlarının seçimi və onların icrasının ardıcıllığının müəyyən edilməsidir. Növbəti məqsəd nəzərə alınmaqla lüğət və qrammatik məzmunun “seçimi” həyata keçirilir və kommunikativ-praqmatik modelin mahiyyətini bu əsasda aşağıdakı kimi təqdim edirik:

1. Kommunikativ vəziyyəti anlama sahəsi
2. Niyyət və onun verbal nümunəsi
3. Ünsiyyət bacarıqları, paralinqvistik ünsiyyət vasitələri (jestlər, mimikalar)
4. İnteraktiv aspekt (sosial rollar)

Bu modelin məqsədi tələbələrə gündəlik ünsiyyətdə əlaqə qurmağı öyrətməkdir. Təlimin məzmununa tələbələrin xüsusi bacarıqlarının inkişafı daxildir. Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsinin III kursunda kommunikativ-praqmatik modelin effektivliyini müəyyən etmək üçün eksperiment aparırıq. Onun məzmununa daha yaxından nəzər salaq. Biliklərini yoxlamaq üçün tələbələrə eksperimentdən əvvəl sınaq imtahanı verilib. Onun nəticələri göstərdi ki, 17 tələbədən yalnız 6-sı “rəğbət, təəssüf, sevinc ifadə etmək” (Gefallen, Bedauern, Freude ausdrücken) kimi kommunikativ vəzifələri həll edə bilmişdir. Mətnlərin xüsusiyyətlərinə gəlincə, qeyd edirik ki, onların hamısı öz mövzusuna görə orijinal və maraqlıdır. Təcrübədə istifadə olunan praktik materialın resursu İnternetdədir (http://www/qoeflie/de). Alman dilində kommunikativ – praqmatik səriştə strukturunun tədris prosesində didaktik baxımdan təhlili üçün biz eksperimental semestr ərzində 4 mövzu blokunu öyrənməyi planlaşdırırıq, yəni:

1. Əlaqələr.
2. Ünsiyyət qabiliyyəti.
3. Kommunikativ yazı.
4. E-poçt vasitəsilə və ya telefonla əlaqə.

Qeyd etmək istərdik ki, bu bloklardakı materiallar bir çox yerli dərsliklərdə görməyə adət etdiyimiz ənənəvi mövzu ardıcıllığı ilə təqdim olunmur.

- Özünü təqdim etmə
- Ünsiyyətcillik
- Niyyətlər

- Sorğu

Təklif olunanlar toplusundan dil strukturlarının seçilməsində (praqmatik məqsədlər) nailiyyət təsiri:

- Quruluşu müəyyənləşdirin

✓ sosiomədəni – mədəni aspektdə əlaqələr davranış fonuna uyğun olaraq

✓ kommunikativ – situasiyanın iştirakçıları - praqmatik ünsiyyət

✓ perspektivlər – rollar – əlaqələndiriçi

✓ rollar və ünsiyyət status kompozisiyaları (üz ifadələri, münasibət və jest)

- Ünsiyyət üçün affektiv əhval-ruhiyyəni nəzərə almaq (hiss və emosiyaların ifadəsi) lazımdır.

- Kommunikativ davranış strategiyaları. Biz blokları müddəalara əsasən adlandırdıq:

✓ kommunikativ-praqmatik model,

✓ anlaşma sferaları.

Hər bir anlaşma sahəsi bir sıra niyyətlər və onların linqvistik icrası ilə müşayiət olunur ki, bu da tələbələrə blokda təqdim olunan materialla dərhal tanış olmağa kömək edir. Onlardan birini nümunə verək: Verstandigungsbereich (Anlaşma sahəsi): Kontakte knüpfen. Was ist wichtig?

Verstandigungsabsichten (Anlamaq niyyətləri):

- begrüssen/ darauf reagieren
- sich/j-n vorstellen/ darauf reagieren
- nach dem Befinden fragen
- Wunschformeln ausdrücken
- j-m Grüsse auftragen
- einladen/ zustimmen/ablehnen

- Entschuldigungen reagieren (Üzürlü cavab):

-sich bedanken/ auf Dank reagieren

- sich verabschieden/ Abschiedsgruss trinken.

- gratulieren/darauf reagieren
- Geschenk überreichen

- Gefühlsausdruck (Emosional ifadə):

- Sympatie (z.B. beim Kennenlernen) ausdrücken
- Freunde
- Zufriedenheit
- Hoffnung

Anlayış sahələrinin hər biri daxilində nəyi nəzərdə tuturuq? Niyyətlər və onların həyata keçirilməsi üçün linqvistik vasitələr, onların tezliyi və gündəlik ünsiyyət əlaqələrində istifadə prinsipi əsasında seçilməsidir.

- Einladung (Dəvət) - Almaniyaya gələn hər bir turistin qarşılaşa biləcəyi bir hadisədir. Bu vəziyyətin sosial-mədəni sahəsi ilə tanış olmaq üçün biz regional məlumat blokunu təqdim edirik (bu cür mətnlər və dialoqlarla təqdim olunan məlumat linki). Məsələn: Eine Einladung und viele Fragen (Dəvət və çoxlu suallar): Gerda, Beate, Hans und Peter Klinger sind unsicher und ratlos.

HK: Seht mal, eine Einladung von Herrn Müller zum Geburtstag seiner Tochter.

BK: Ach, dann ist die Einladung für mich?

HK: Das glaube ich nicht. Seine Tochter ist doch noch ein kleines Baby.

GK: Tja. Wen hat er denn nun eingeladen: nur dich oder uns beide? Oder dürfen auch die beiden Kinder mitkommen?

HK: Was meinst du, Gerda, soll ich meinen dunklen Anzug anziehen?

GK: Denkst du denn, dass es da so formell ist?

BK: Ich bleibe aber in Jeans!

HK: Kommt nicht in Frage! Das erlaube ich nicht!

GK: Lass sie doch, Hans! Warum verbietest du immer alles?

GK: Übrigens, was sollen wir denn mitbringen?

HK: Na. wie üblich: Blumen für die Dame und Schokolade für die Kinder.

- Einige Verhaltensregeln(Bəzi davranış qaydaları):

- pünktlich kommen

-ohne besondere Einladung keine Kinder mitbringen

- es ist erlaubt, dass man den Kindern Schokolade mitbringt

-ohne besondere Einladung keine Freunde mitbringen

- auf korrekte Kleidung achten

- Männer: bei formellen Feiern (z. B. einer Hochzeit) einen Anzug anziehen

-wenn man Blumen mitbringt: die Blumen immer der Dame geben

- nicht zu früh kommen

- wenn man zu spät kommt, sich entschuldigen

- bei einer Einladung am Nachmittag“es ist nicht erlaubt, dass man bis zum Abendessen bleibt“

- bei einer Einladung am Abend.

Dərsliklərdə artıq niyyətlərin formalaşdırılması və onların linqvistik həyata keçirilməsi üçün məşqlər və tapşırıqlar sistemi mövcuddur. Birinci və ikinci kurslarda xarici dildə praktik bacarıqların əsasları qoyulur. Bundan əlavə, bu model mövzuda praqmatik monotonluq, ortaya çıxan boşluğu doldura bilər. Tələbələr "Einladung -Dəvət" situasiyasının sosial-mədəni sahəsini öyrəndikdən sonra onlara aşağıdakı növ tapşırıqlar təklif oluna bilər: Vergleichen Sie Verhaltensregeln bei der Einladung in Aserbaidschan und in Deutschland und tragen Ihre Ergebnisse in den Raster ein (Azərbaycan və Almaniyada dəvətlərin davranış qaydalarını müqayisə edin və nəticələrinizi şəbəkəyə daxil edin). Ona görə ki, bir çox müasir dərsliklər praqmatikanın nailiyyətlərinə məhəl qoymur və ilk növbədə üç və ya dörd nitq aktına diqqət yetirir. Belə ki, tələbələrə tədris prosesində didaktik tapşırıqların kommunikativ-praqmatik yönümlü verilməsi onlarda ünsiyyətin formalaşmasına əsaslann xüsusiyyətlərin yaranmasına səbəb olacaq. Məsələn:

1. Einladungsregeln in Aserbaidschan und Einladungsregeln in Deutschland (Azərbaycanda dəvət qaydaları və Almaniyada dəvət qaydaları).
2. Bilden Sie die Dialoge (Dialoqlar qurun).

Bu vəziyyətdə, müxtəlif nitq hərəkətlərini və onların linqvistik həyata keçirilməsi vasitələrini mənimsəmək lazım olduqda, gündəlik ünsiyyət əlaqələrində qeyri-adekvat davranışa səbəb olan sözdə praqmatik çatışmazlıq yaranır. Məsələn, kimisə dəvət etməyi, razılıq/razılaşmaq, şübhə, rəğbət bildirməyi, nəyisə sifariş etməyi, təbrik etməyi, yenidən soruşmağı bacarmalısan və s. Buna görə də, tədris prosesini planlaşdırarkən kommunikativ imkanlardan istifadə etmək lazımdır. Təlim materiallarının və dərs formalarının təşkili prinsipini təmin edən kommunikativ-praqmatik modelin yaranması aşağıdakı mərhələlərə əsaslanır:

- reseptiv və reproduktiv bacarıqların inkişafı
- uyğun niyyətlərin sistemləşdirilməsində olan əsas çətinlik
- kommunikativ-praqmatik olaraq məqsədyönlü sistemli təlim
- kommunikativ yönümlü model.

Problemin aktuallığı. Kommunikativ-praqmatik modelin yaranmasında təqdim etdiyimiz bu cür tapşırıqlar müəllimlərin aktiv və interaktiv fəaliyyətinə uyğun ola bilər, öyrənənlərin bacarıqlarının inkişafını stimullaşdırar. Qeyd etmək lazımdır ki, tədris prosesində yeni strukturun didaktik baxımdan təhlili bu modelin dominant xüsusiyyəti olan kommunikativ niyyət, leksik və qrammatik bilik tabeliyində olan kommunikativ vəziyyətdir.

Problemin yeniliyi. Müəyyən kommunikativ situasiyalarda həyata keçirilən kommunikativ niyyətlərə əsaslanaraq, dil hadisələrinin mənimsənilməsini təmin etməyə, onlardan adekvat istifadə etmək bacarığını formalaşdırmağa imkan verir. Araşdırılan mövzuda tədris prosesi üçün yeni olan kommunikativ-praqmatik səriştənin əsas komponentlərini müəyyənləşdirdik:

- Situasiyaya uyğunluq: Dil vasitələrini müvafiq vəziyyətə və söhbət tərəfdaşına uyğunlaşdırmaq bacarığı.
- Dil fəaliyyəti: İstəklərin formalaşdırılması, göstərişlərin verilməsi və ya müzakirələrin aparılması kimi konkret hərəkətləri yerinə yetirmək üçün dildən istifadə etmək bacarığı.
- Şifahi olmayan ünsiyyət: Mənanın çatdırılmasında mühüm rol oynayan mimika və jestlərin inteqrasiyası.
- Danışığı idarəetmə: Söhbətləri uğurla başlamaq, davam etdirmək və yekunlaşdırmaq bacarığı.
- Əməkdaşlıq: Başqaları ilə linqvistik əməkdaşlıq etmək və məqsədlərə birlikdə nail olmaq bacarığı.
- Tədrisdə tapşırıqların didaktik tətbiqi.
- Kommunikativ yanaşma: Ayrı-ayrı cümlələr əvəzinə, diqqət orijinal, kontekst əsaslı mətnlərə və söhbətlərə verilir.
- Praktik istiqamət: Dərslər yalnız nəzəriyyəyə diqqət yetirməkdənsə, real ssenarilərdə dilin mənimsənilməsinin tətbiqi və nəticəsini vurğulayır.
- Qeyri-verbal aspektlərin inteqrasiyası: Müəllimlər həmçinin ümumi ünsiyyət üçün mimika və jestlərin vacibliyini vurğulamalıdırlar.
- Qarşılıqlı əlaqəyə diqqət yetirin: Dərslər öyrənənləri dialoqda fəal iştirak etməyə, uğurla və şüurlu şəkildə ünsiyyət qurmağı öyrənməyə həvəsləndirmək məqsədi daşımalıdır.
- Uğurla əlaqə: Tələbələrə müxtəlif sosial vəziyyətlərdə düzgün hərəkət etməyə imkan verən uğurlu ünsiyyətin təşviqi.

Problemin praktik əhəmiyyəti. Xarici dildə kommunikativ-praqmatik modelin tədrisdə tətbiq oluna biləcəyi ünsiyyət prosesindəyik. Demək olar ki, kommunikativ- praqmatik səriştə artıq xarici dillərin tədrisində və öyrənilməsində əsas rol oynamalıdır, daha doğrusu, 21-ci əsrdə xarici dil tədrisinin qarşısında duran yeni təkliflər fonunda hər bir ünsiyyət və mədəni səriştənin mənimsənilməsini təşkil etməli və buna görə də onun universal mədəniyyət anlayışı ilə bir-birini tamamlayan bir konsepsiya hazırlanmalıdır. Bu məqalədəki araşdırmalar xarici dil

kimi alman dilinin müasir metodlarla öyrənilməsini, dilçilik, pedaqogika və etnologiya sahələrinin perspektivlərindən, çoxdilli və multikultural dünyada dillərin, mədəniyyətlərin tədrisinin əhəmiyyəti və qarşılıqlı əlaqəsini təhlil və müzakirə edir.

Ədəbiyyat

1. Qəribova, M. İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə /Monoqrafiya / M. Qəribova. –Bakı: Elm və təhsil, –2016. –204 s.
2. Qəribova, M. Ali məktəblərdə alman dilinin tədrisi metodikası: Dərs vəsaiti / M. Qəribova. –Bakı: Mütərcim, –2022. –172 s.
3. Гусейнзаде, Г. Обучение речевой коммуникации на иностранном языке. Г. Гусейнзаде. –Баку: Мутарджим, –2001. –314 с.
4. Boeckmann, K.-B. Lehrer/innenbildung zu den Themen “Deutsch als Zweitsprache” und “kulturelle Diversität”. K.-B.Boeckmann. -Österreich:In İ. Dirim & A. Wegner (Hrsg.), –2021, –85-98 S.
5. Bredella, L. Das Verstehen des Anderen. Kulturwissenschaftliche und literaturdidaktische Studien. L. Bredella. –Tübingen: Narr, –2010. –289 S.
6. Byram, K. and Kramsch, C. Why is it so difficult to teach language as culture? K. Byram and C. Kramsch. The German Quarterly, –2008, 81, –20-34 p.
7. Ehlich, K. Funktional-pragmatische Kommunikationsanalyse: Ziele und Verfahren. K. Ehlich. Sprache und sprachliches Handeln /Band 1: Pragmatik und Sprachtheorie/. –Berlin u. New York: de Gruyter, –2007. –9-28 S.
8. Holliday, A. The role of culture in English language education: key challenges. A. Holliday / Language and Intercultural Communication/. –2009. 9, –144-155 p.
9. Krumm, H.-J. Interkulturelles Lernen und interkulturelle Kommunikation Текст. / Handbuch Fremdsprachenuterrichts / Hrsg: K. Bausch, H. Christ, H.-J. Krumm. 3 Auflage. –Tübingen: Basel, –1995. –s. 156-161.
10. Moosmüller, A. İnterkulturelle Kommunikation. A. Moosmüller. –Münster: Waxmann Gmbh, –2007. –181 s.
11. Roche, J. Fremdsprachenerwerb / Fremdsprachendidaktik. J. Roche. /2 Auflage. / Tübingen und Basel: A. Francke Verlag, –2008. –286 s.
12. Ruth, E. „Die deutschen Lehrer reden weniger und fragen mehr ...“ Zur Relevanz des Kulturfaktors im DaF-Unterricht. E. Ruth. Zeitschrift für Interkulturellen Fremdsprachenunterricht 11: 3, –2006. –24 S.
13. Wiche R.E. Kontakte knüpfen. R.E.Wiche. –München: Langenscheidt, –1993. –168 s.

Redaksiyaya daxil olub: 01.10.2025

UOT 372.881.111.1

Nigar Fikrət qızı Həbibullayeva
Azərbaycan Turizm və Menecment Universitetinin müəllimi
https://orcid.org/0009-0006-9692-185X
E-mail: nigar.habibullayeva@atmu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).240-243

DAVAMLI İNKİŞAF MƏQSƏDLƏRİNİN İNTEQRASİYASINDA İNGİLİS DİLİNİN ROLU: MULTİLİNQUALİZM VƏ DİL SAVADLILIĞI

Nigar Fikrat Habibullayeva
lecturer at Azerbaijan Tourism and Management University

THE ROLE OF ENGLISH IN INTEGRATION OF SUSTAINABLE DEVELOPMENT GOALS: MULTILINGUALISM AND LANGUAGE LITERACY

Нигяр Фикрет гызы Габибуллаева
преподаватель Азербайджанского Университета Туризма и Менеджмента

РОЛЬ АНГЛИЙСКОГО ЯЗЫКА В ИНТЕГРАЦИИ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ: МУЛЬТИЛИНГВИЗМ И ЯЗЫКОВАЯ ГРАМОТНОСТЬ

Xülasə. Məqalə davamlı inkişafın əsas sahələrini təhlil edir, diqqətini sosial-mədəni davamlılığa yönəldir. İnsan təmasları və danışıqlar bütün dünyada davamlı inkişaf məqsədlərinə xidmət etmək üçün vacib olduğundan, ortaq ünsiyyət vasitəsi kimi dilə diqqət yetirməyə dəyər. Dil insanları səfərbər edir və hamının yaxşılaşdırılması üçün birgə işləmək üçün qlobal platformada fikir mübadiləsinə imkan yaradır. Dil bacarıqları müasir cəmiyyətin iqtisadi məsələlərdən tutmuş səhiyyə və təhsilə qədər saysız-hesabsız aspektlərinin inkişafında zəruri olan daha yaxşı ünsiyyəti aşılayır. Məqalənin əsas məqsədi davamlı inkişafda dilin və savadın əhəmiyyətini müzakirə etməkdir.
Açar sözlər: *çoxdillilik, davamlılıq, dil, ətraf mühit, inkişaf*

Abstract. The article analyzes major domains of sustainable development, brings its focus on socio-cultural sustainability. As human contacts and negotiation are essential to serve the purposes of sustainable development worldwide, language as a shared means of communication is worth paying attention to. Language mobilizes people and enables the exchange of ideas on a global platform in order to work together for the betterment of all. Language skills inculcate better communication that is requisite in the development of countless aspects of the modern society ranging from economic issues to health and education. The central objective of the paper is to deliberate on the significance of language and literacy in sustainable development.
Keywords: *multilingualism, sustainability, language, environment, development*

Аннотация. В статье анализируются основные области устойчивого развития, особое внимание уделяется социокультурной устойчивости. Поскольку человеческие контакты и переговоры играют важнейшую роль в достижении целей устойчивого развития во всем мире, язык как общее средство общения заслуживает внимания. Язык мобилизует людей и позволяет обмениваться идеями на глобальной платформе для совместной работы на благо всех. Владение языком способствует более эффективному общению, необходимому для развития множества аспектов современного общества, от экономики до здравоохранения и образования. Основная цель статьи – рассмотреть значение языка и грамотности в устойчивом развитии.
Ключевые слова*: многоязычие, устойчивость, язык, окружающая среда, развитие*

Davamlı inkişaf ümumilikdə iqtisadi, ekoloji və sosial sahələri əhatə edir. Lakin görünür ki, iqtisadi və ekoloji inkişafa daha çox diqqət yetirilir, halbuki dil və ünsiyyət sahəsini əhatə

edən sosial-mədəni sfera çox vaxt diqqətdən kənarda qalır. Birləşmiş Millətlər Təşkilatının 2005-ci il Dünya Sammitində bu üç sahənin hamısında konseptuallaşdırma, planlaşdırma və həyata keçirməyə bərabər dərəcədə diqqət yetirilməsinə çağırış edilir. Bu sahələr davamlı inkişafın üç dayağı kimi tanınır və inklüziv inkişaf üçün əsas hesab olunur. Ən çox qəbul edilən tərifə görə, davamlı inkişaf indiki nəsillərin ehtiyaclarını ödəyən, lakin gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətini təhlükə altına qoymayan inkişafdır. Bu standart tərif insanları davamlı inkişafı nəsillərarası bərabərlik kontekstində nəzərdən keçirməyə sövq edib [4, s. 57]. İnsan əlaqələri və dil vasitəsilə inkişaf edən qarşılıqlı münasibətlər belə bir inkişafa çatmaqda mühüm rol oynayır. Dil bir ünsiyyət vasitəsi kimi, müxtəlif mədəniyyətlərdən olan insanların qlobal miqyasda çoxsaylı məsələləri müzakirə etməsini, tolerant və müxtəlif fikirlərə hörmətlə yanaşmasını mümkün edir. Bu baxımdan dilin konstitusional potensialı sosial inkişafı, mədəni təkamülü və davamlılığı asanlaşdırır.

İngilis dili davamlı inkişaf məqsədlərinin inteqrasiyasında elmi, sosial və iqtisadi körpü rolunu oynayır. O, bilik mübadiləsini asanlaşdırır, beynəlxalq əməkdaşlığı gücləndirir və insanların qlobal miqyasda bir-birini daha yaxşı anlamasına imkan verir. Buna görə də ingilis dilinə diqqətin artırılması- təhsil, elm və texnologiya sahələrində onun daha geniş tətbiqi- davamlı və inklüziv gələcəyin qurulması üçün əsas şərtlərdən biridir.

Müasir qlobal kontekstdə davamlılığı inkişaf etdirmək üçün çətinliklərin dərindən dərk olunması və dili və mədəni sərhədləri aşan fəaliyyətlərdə əməkdaşlıq etmək vacibdir. Bu araşdırma çərçivəsində, İngilis dilinin qlobal davamlı inkişafi irəlilətməkdə əsas rolu öyrənilir. Bu tədqiqat İngilis dilinin iqtisadi inkişafa katalizator kimi rolu, dilin gücləndirilməsi, mədəniyyətlərarası ünsiyyət və təhsil fəaliyyətləri prizmasından təhlil olunur. İngilis dilini yaxşı bilmək dil güclənməsini təmin edir və bu da qlobal iştirakın əsas komponentidir. İngilis dili beynəlxalq ticarət, elm və diplomatiyada lingua franca rolunu oynadığı üçün dünyanın hər yerindən insanlar əməkdaşlıq fəaliyyətlərində iştirak edə və davamlılıqla bağlı müzakirələrə töhfə verə bilirlər. Məqalənin məqsədi insanların dili yaxşı bilməsi sayəsində dilin inklüzivliyinin əhəmiyyətini, İngilisdən vasitəçi kimi istifadənin rolunu və beynəlxalq sərhədləri aşan mürəkkəb problemlərin həllinə yönəlmiş siyasət və strategiyaların hazırlanmasını işıqlandırmaqdır.

Dil, savadlılıq və inkişaf arasında mühüm bir əlaqə var. Bu üç aspekt bir-birinə bağlıdır və ya gizli, ya da açıq şəkildə bir-birinə təsir göstərir. Savadlılıqla inkişafın əlaqəsi dünyada geniş qəbul edilən bir assosiasiyadır. Savadlılıq səviyyəsi çox vaxt iqtisadi, ekoloji və sosial inkişafın artım sürəti ilə əlaqələndirilir [3, s. 68]. Bu savadlılıq və inkişaf paradiqması mübahisə doğurmur, lakin savadlılıq proqramlarının əsas diqqəti funksional bacarıqların inkişafına yönəlir və dəyərlərin və mədəniyyətlərarası şüurun əhəmiyyətini nəzərə almır [2, s. 96]. Bu isə savadlılığın rolunu məşğulluq bacarığı ilə məhdudlaşdırır, halbuki savadlılıq insanların seçim azadlığını genişləndirən bir vasitədir.

Fikir və biliklərdəki fərqlər, eyni zamanda mədəniyyətdəki fərqlər kimi qəbul edilən məqamlar, dil vasitəsilə aparılan danışıqlar və ünsiyyətlə aradan qaldırıla bilər. İstənilən inkişafın baş tutması üçün fərdlərin, müxtəlif icmaların və ya millətlərin müxtəlif planlarda tam iştirakını təmin edəcək bir vasitəyə ehtiyac vardır ki, bu da müsbət nəticələr gətirsin. Dil insanları hərəkətə gətirir və ideyaların qlobal platformada mübadiləsini mümkün edir, beləliklə, hamının rifahı üçün birgə işləməyə şərait yaradır. Dil bacarıqları daha yaxşı ünsiyyət formalaşdırır və həm kənd, həm də müasir cəmiyyətin saysız-hesabsız sahələrinin, iqtisadi məsələlərdən sağlamlıq və təhsilə qədər, inkişafında mühüm rol oynayır. Dil savadlılığı mədəniyyətlərarası təhsil kimi qəbul edilə bilər və davamlılığa daha geniş miqyasda töhfə verir. Davamlı inkişafın fərdi iştirakçını da nəzərə alması ilə, dil təhsili bütün qlobal iştirakçılara imkan verir [7, s. 17]. Dil və mədəni toqquşmaların qarşısını almaq üçün dil tədrisi kursları keçirilməlidir.

Bu yanaşma elə planlaşdırılmalıdır ki, müxtəlif sosial-mədəni səviyyələrdə davamlı inkişafa töhfə verə bilsin. Məqalədə dilin davamlı inkişafdakı müxtəlif rolları ilə bağlı arqumentlər təqdim olunur və dil, savadlılıq və inkişafın qarşılıqlı bağlılığı vurğulanır. Xüsusilə, çoxdilli cəmiyyətdə və ya təhsil planlarında dil və mədəni bərabərliyin təmin olunmasının davamlı inkişafın əldə edilməsində nə qədər vacib olduğu göstərilir.

Davamlı inkişafın əsas sahələrindən biri olan sosial inkişaf insanları cəmiyyətdə və ya dövlət quruculuğunda mərkəzi tutur. Ona görə də dil insanlar arasında ünsiyyət vasitəsi kimi mühüm inkişaf potensialına malikdir. O, qarşılıqlı anlaşma yaratmağa kömək edən fikirləri ifadə etmək və bölüşmək üçün düzgün kanal təqdim edir. Effektiv ünsiyyət və tənqidi fakültənin inkişafı bütün dünyada insanları bir araya gətirərək sosial-mədəni müstəvilərdə fəaliyyət göstərmək üçün vacibdir. Qarşılıqlı paylaşılan kommunikasiya vasitələri həm mikro, həm də makro səviyyədə diskurs və danışıqların qurulmasına kömək edə bilər. Dil insan təmaslarının qlobal şəbəkəsinə girişdir. İnsanların bu cür qlobal qarşılıqlı əlaqəsi müxtəlif mədəniyyətlərdən və kontekstlərdən bilik və təcrübə mübadiləsinə imkan verir. Bu, insanlara davamlı inkişafa daha çox töhfə verən davranış və mədəniyyətdəki müxtəlifliyə qarşı dözümlülüklə yanaşı, əməkdaşlıq münasibətini inkişaf etdirməyə kömək edir.

Dil sosial sferanı qurmaq və qorumaq üçün insanın malik olduğu güclü silahdır və buna görə də davamlılıq dünyasında qaçılmaz rol oynayır. Buna görə də tədqiqat dil seçimi üçün daha balanslı və mümkün yanaşma tələb edir. Dil və mədəni kimlikdə bərabərliyə, etnik qruplar arasında tolerantlığa və anlaşmaya nail olmaq üçün təhsildə dil planlaması diqqətlə hazırlanmalıdır. Bu, nəinki müxtəlif qrupların arasında mədəniyyət haqqında daha geniş məlumatlılığa, həm də dil bacarıqlarını öyrənmək üçün sağlam mühitə təkan verə bilər. Dil planlaması yerli mədəniyyət və dildə olan mahiyyət və asanlığın davamlılığı ilə yanaşı qlobal nailiyyətləri də hədəfləməlidir. [1,s. 97]

Hazırda ingilis dili dillərarası və mədəniyyətlərarası ünsiyyət vasitəsidir, ingilis dili iqtisadi, siyasi, hərbi və mədəni əhəmiyyət kəsb edən dildir. Zaman keçdikcə Amerikanın təsiri gücləndi və Amerika həyat tərzinin yayılması "ingilis dilinin qloballaşması" prosesinin başlanmasına kömək etdi. Qlobal İngilis dili beynəlxalq ünsiyyət vasitəsidir. Beynəlxalq İngilis dili universallığı ilə diqqəti çəkir və lingua franca kimi də tanınır. Onun hökmranlığı o qədər güclüdür ki, hətta əbədi istəksiz Fransa ingilis dilinin qlobal rolunu etiraf etdi. İngilis dilinin "lingva franca" kimi öyrənilməsində fəal iştirak edən dilçilərdən biri B. Sayhoferdir. B. Saydhoferə görə, "Lingva Franka"da vacib olan deyilənlərin düzgünlüyü deyil, uyğunluğudur. Biz müxtəlif məqsədlər üçün müxtəlif dillərdən istifadə edirik." Biz üzvlərinin ümumi məqsədi olan icmalar formalaşdırırıq və lingva frankada yalnız ingilislərin fərqinə vardığı səhvlərə baxmayaraq, başa düşülməsi xüsusilə vacibdir" [5, s.87]. Bu faktları nəzərə alaraq B. Saydhofer S. Brumfittin ingilis dilinin qlobal rolu haqqındakı fikrini qeyd edir [6, s. 17]. Keçən yarım əsrdə sosiolinqvistik tədqiqatda böyük irəliləyiş dilin onun istifadəsi ilə necə formalaşdığının müəyyən edilməsi olmuşdur. Hal-hazırda bütün qitələrdə 700 milyon istifadəçi var ki, onların da yarısından azı ana dilində danışanlardır. B. Saydhofer bu qeydlərə istinad edərək qeyd edir: "Bu bənd bir daha dünyada ingilis dilinin tarixi unikallığını vurğulayır və fakt budur ki, hazırda istifadəçilərin sayı bu dildə danışanların sayından çoxdur" [6, s. 59]. B. Seidhofer S. McKayın "Beynəlxalq İngilis dili" terminində də istinad edərək, bu terminin aşağıdakı tərifini verdi: "Beynəlxalq ingilis dilindən həm bu dildə danışanlar, həm də iki dildə danışanlar məlumat ötürmə (kommunikasiya) prosesində istifadə olunur.

İki böyük ümumavropa təşkilatı, Avropa İttifaqı və Avropa Şurası regionda dil müxtəlifliyini təşviq edir. Avropa İttifaqı müstəqil dövlətlər arasında əməkdaşlığın vizyonu olaraq, öz sərhədlərini cəmiyyətləri əhatə edəcək şəkildə genişləndirməyə çalışır.

"Beynəlxalq ingilis dili həm eyni bölgənin müxtəlif mədəniyyətlərə və dillərə malik həmsöhbətləri arasında, həm də müxtəlif ölkələrin nümayəndələri arasında qlobal miqyasda ünsiyyət vasitəsidir" [5, s. 49].

Hüquq ondan istifadə edən insanlara məxsusdur, istər bir neçə dildə danışan olsun, istərsə də bir dildə danışan olsun. Sosial-mədəni mühitdə formalaşan və dərinləşən dillər insan biliklərinin nəsildən-nəslə ötürücü rolunu oynayaraq saxlanmasına əhəmiyyətli dərəcədə töhfə verir. Təhsil mühitində dil(lər)in diqqətlə seçilməsinə çağırış, öyrənənlər arasında sosial-mədəni tarazlığı və ədaləti təmin etmək üçün effektivdir. Qlobal çoxdilli yanaşmanın mənimsənilməsi linqvistik və mədəni bərabərlik və nəticədə davamlı inkişafı təmin etmək üçün ağıllı addım ola bilər.

Problemin aktuallığı. Qloballaşan dünyada davamlı inkişaf məqsədlərinin reallaşması beynəlxalq əməkdaşlıq və informasiya mübadiləsindən asılıdır. Bu prosesdə ingilis dili ümumdünya ünsiyyət və elmi biliklərin paylaşım vasitəsi kimi mühüm rol oynayır. İngilis dilinin mənimsənilməsi təhsil, innovasiya və iqtisadi inkişaf sahələrində inteqrasiyanı gücləndirir.

Problemin yeniliyi. İngilis dili yalnız ünsiyyət vasitəsi kimi deyil, davamlı inkişaf məqsədlərinin inteqrasiyasını təmin edən strateji alət kimi yanaşılır. Bu məqalə ingilis dilinin qlobal tərəfdaşlıqların, elmi innovasiyaların və lingvistik maarifləndirmənin inkişafında oynadığı yeni funksional rolu göstərir. Məqalə dilin sosial və iqtisadi təsirlərinə dayanıqlı inkişaf kontekstində yeni baxış gətirir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, ingilis dilinin öyrənilməsi və tətbiqi davamlı inkişaf məqsədlərinə yönəlmiş layihə və proqramlarda beynəlxalq əməkdaşlığı asanlaşdırır. Həmçinin, ingilis dilinin istifadəsi ölkələrin iqtisadi, elmi sahələrdə dünya təcrübəsinə inteqrasiyasını sürətləndirir.

Ədəbiyyat

1. Crystal, D. English as a Global Language / D.Crystal. – USA: Cambridge University Press – 2012. – 224 p.
2. Foucault, M. Archeology of Knowledge / M.Foucault. – New York: Patheon book, – 2004. – 239 p.
3. Kintsch, W. Strategies of discourse comprehension / W.Kintsch, T.v.Djik. – USA: New York Academic Press, – 2005. – 128 p.
4. Seidhofer, B. A concept of International English and related issues; from “Real English” to “Realistic English” / B.Seidhofer. – Strasbourg: Peter Publishing, – 2003. –24 p.
5. Seidlhofer, B. ELF: English in a global context / B.Seidlhofer. – Abingdon and New York: Routledge, – 2016. – 170 p.
6. Seidlhofer, B. English as a Lingua Franca in European Multilingualism, Exploring the dynamics of multilingualism/ B.Seidlhofer. – Amsterdam: John Benjamins, – 2013. – 406.
7. Teun, A. Dijk. Discourse and Context. A socio-cognitive approach / Teun, A. Dijk. – Cambridge: Cambridge University Press, – 2008. – 267 p.
8. Teun, A. Djik. A Paradigm for Cognition/ Teun, A. Djik, W.Kintsch. – Cambridge: Cambridge University Press, – 1998. – 459 p.
9. Wilkes, A.L. Knowledge in Minds: Individual and Collective Processes in Cognition / A.L.Wilkes. – UK:Psychology Press, – 1998. – 387 p.

Redaksiyaya daxil olub: 03.11.2025

UOT 372.881.111.1

Aysel Elşən qızı Qasımzadə
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Xarici Dil Mərkəzinin ingilis dili müəllimi
https://orcid.org/0009-0002-2343-0364
E-mail: gasimzadeaysel7@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).244-247

İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNİN PEŞƏKAR İNKİŞAFININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

Aysel Elshan Gasimzada
English teacher of the Foreign Language Center
Azerbaijan State Pedagogical University at

PEDAGOGICAL FEATURES OF THE ENGLISH LANGUAGE TEACHERS' PROFESSIONAL DEVELOPMENT

Айсель Эльшан гызы Гасымзаде
преподаватель английского языка Центра Иностранных Языков
Азербайджанского Государственного Педагогического Университета

ПЕДАГОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОФЕССИОНАЛЬНОГО РАЗВИТИЯ УЧИТЕЛЕЙ АНГЛИЙСКОГО ЯЗЫКА

Xülasə. Müəllim peşəsi üçün peşəkar sərişdələrin inkişaf etdirilməsi məsələsi bu məqalənin diqqət mərkəzindədir. Məqalənin məqsədi ingilis dili müəllimlərinin hazırlanmasında strateji istiqamətləri və pedaqoji xüsusiyyətləri vurğulamaq, şəxsi mədəni və sosial, peşə və təhsil sərişdələrini məqalədə vurğulayaraq dörd əsas peşə səlahiyyətləri kateqoriyasını təqdim etməkdir. Uğurlu bir xarici dil müəllimi olmaq üçün lazım olan əsas bacarıqlara dair ümumi məlumatlar araşdırlır. Məqalə praktiki cəhətdən ingilis dili müəllimlərinin hazırlanmasında məlumatları və lazım olan biliklərin istifadəsində əhəmiyyətli dərəcədə faydalı bir resurs ola bilər.
Açar sözlər: *peşəkar sərişdələr, pedaqoji xüsusiyyətlər, şəxsi, sosial, peşə sərişdələri*

Abstract. The issue of developing professional competencies for the teaching profession is the focus of this article. The aim of the article is to highlight strategic directions and pedagogical features in the preparation of English language teachers, to present four main categories of professional competencies, emphasizing personal, cultural and social, professional, and educational competencies in the article. General information on the basic skills needed to be a successful foreign language teacher is examined. The article can be a significantly useful resource for the practical use of information and necessary knowledge in the preparation of English language teachers.
Keywords: *professional competencies, pedagogical features, personal, social, professional competencies*

Аннотация. В статье рассматривается вопрос развития профессиональных компетенций педагога. Цель статьи – выделить стратегические направления и педагогические особенности в подготовке учителей английского языка, а также представить четыре основные категории профессиональных компетенций, сделав акцент на личностных, культурных и социальных, профессиональных и образовательных компетенциях. Рассматривается общая информация об основных навыках, необходимых для успешного преподавания иностранного языка. Статья может стать полезным ресурсом для практического использования информации и необходимых знаний при подготовке преподавателей английского языка.

Ключевые слова: *профессиональные компетенции, педагогические особенности, личностные, социальные, профессиональные компетенции*

GİRİŞ 1.

Müəllimlərin peşəkar inkişafı (Pİ) təhsil sisteminin mühüm tərkib hissəsidir, çünki o, müəllimlərə şagirdlərin fəaliyyətində özünü əks etdirən yeni bilik və bacarıqlar əldə etmək üçün zəruri imkanlar yaradır.

S. Akalın və B. Sucuoğlu, (2015) qeyd edir ki, müəllimlərin ingilis dilində peşəkar inkişafı təhsilalanların gələcək həyatlarında və karyeralarında tədris keyfiyyətini yaxşılaşdırılmasında və təkmilləşdirilməsində ən çox gözlənilən cəhdidir. Ümumi təhsil məktəblərində tədris-təlim prosesinə xas olan əsas faktor müəllimlərdir. [1, s. 41]. Məlumdur ki, ingilis dili müəllimləri formal təhsil, əsas təhsil və orta təhsildə öyrənənləri tərbiyə etmək, öyrətmək, istiqamətləndirmək, təlim keçmək, qiymətləndirmək və inkişaf etdirmək kimi əsas vəzifəsi olan peşəkar pedaqoqlardır. S.Auvaliti (Auliawati, 2017) qeyd edir ki, müəllim və ya pedaqoq, tələbələrin həm mənəvi, həm də fiziki aspektlərdə şəxsiyyətinin inkişafına və qabiliyyətlərinə rəhbərlik etməkdən məsul olan şəxsdir ki, tələbələr müstəqil şəkildə fərdi və sosial varlıq kimi fəaliyyət göstərə bilsinlər [2, s. 34].

Tələbələrə xarici dilləri öyrədərkən müəllimlər peşəkar tərcüməçi, tənqidçi, bilik və mədəniyyətin varisləri rolunu öz üzərinə götürməlidirlər. Tədrislə bağlı müxtəlif kontekstlərdə onlar həm də tədris dilində aydın və qrammatik danışmağı bacarmalıdırlar.

Peşəkar müəllim öyrənənlər üçün bir nümunədir, müəllim-tələbə münasibətlərinin səmərəli şəkildə qurulması onların təlim nəticələrinin uğurlu şəkildə əldə olunmasına təsir edir. Məlumdur ki, müəllimin təlim davranışları və rəftarı sinifdə öyrənənlər tərəfindən daha çox təqlid edilir və örnək xarakteri daşıyır. Yəni müəllim də tədris etdiyi auditoriyada böyük məsuliyyətlər və vəzifələr daşıyır. Buna görə də, müəllimlər həqiqətən tələbələrini əldə etmək istədikləri məqsədlərə çatdırmalıdırlar (Martina, et al. 2020). Müəllimin müasir yanaşması üzrə istifadə etdiyi parametrlər təlim prosesinin əlverişli dizaynına və modelləşdirilməsinə kömək edə bilər. Müəllimlərin istifadə etdiyi hər bir sinif fəaliyyəti öyrənənlərin necə öyrənmələri və müəllimlərin bilik və fərziyyələrdən tədris zamanı necə istifadə etmələri haqqında bilik və fərziyyələrin əksidir.

1.1. Müəllim hazırlığının pedaqoji xüsusiyyətləri

İngilis dili müəlliminin peşəkar inkişafı bir sıra pedaqoji aspektlərlərin inkişaf etdirilməsi ilə ölçülür. Bundan əlavə, dilin tədrisində hər hansı yanaşma xarici dil öyrənmək kimi möhkəm əsaslandırılmalıdır. Dil pedaqogikasında bir neçə üsul var, lakin onları üç yerə, *struktur, funksional və interaktiv* olmaqla bölmək olar. Bunların hər biri dilləri öyrətmək və öyrənmək üçün istifadə edilə bilən bir neçə metodu əhatə edir.

Tələbələrinin auditoriyada irəliləyişini dəstəkləməyi qarşısına məqsəd qoyan müəllimlər təlimdə ingilis dilinin səmərəli tədrisi üçün uyğun dil mühiti yaratmalı, motivasiyanı artırmalı, stressin idarə olunmasını və tədris materiallarını nəzərə almalı və onları tələbələrin ehtiyaclarına uyğunlaşdırmalıdır. Eyni zamanda, dilin kommunikativ inkişaf etdirilməsi üçüm onlar auditoriya şəraitini düzgün təşkil etməli, təlim qaydalarını və normalarını müəyyən etməli və həyata keçirməlidir. Bu məqsədlə, təlim və qiymətləndirmə prosesində öyrənənlər məsuliyyət daşımalı və müsbət sinif mühiti yaratmalıdırlar.

Bundan əlavə, xarici dil müəllimi müxtəlif inkluzivlyi tətbiq etmək üçün təlimatını dəyişdirməli, diferensial təlimə üstünlük verməli, müxtəlif bacarıqları nəzərə alan resurlar hazırlamalı, dərslərinə İKT-dən səmərəli istifadə etməli, təhsil məqsədlərinə çatmaq üçün tələbələrlə əməkdaşlıqda işləməli və layihə və proqramlar yaratmaq üçün müəllim komanda yaratmalıdır.

Xarici dilin tədrisi prosesinin özü və ya bu fəsildə ingilis dili pedaqogikası adlandırılan proses mürəkkəb və çoxşaxəlidir. O, dilin qrammatik aspektlərindən, dilin sosial aspektlərindən, ikinci dilin öyrədilməsi və öyrənilməsinə aid olan nəzəriyyələr, metodlar, yanaşmalar, texnika və strategiyalardan ibarətdir ki, bu da müəllimlərə öz peşələrində uğur qazanmağa kömək edir. Bunlara fonetika və fonologiya, sintaksis, semantika, dil tədrisinə davranış yanaşması kimi müxtəlif mövzular daxildir.

Müəllimlər öz peşəkar inkişafının bilavasitə fəal iştirakçısısdırlar. Peşəkar müəllimlər akademik ixtisas və səriştəyə malik olmalıdırlar.

Müəllimin malik olmalı olduğu səriştə, yəni pedaqoji səriştə, *şəxsi kompetensiya, sosial kompetensiya və peşə kompetensiyasıdır* [2, s.24].

Şəxsi kompetensiya – ingilis dili müəllimlərinin şəxsi səriştələri ünsiyyət bacarıqlarının, uyğunlaşma qabiliyyətinin və öyrətmə və öyrənmə üçün əsl həvəsin qarışığını əhatə edir. Tez-tez "yumşaq bacarıqlar" olaraq adlandırılan bu bacarıqlar müsbət və effektiv öyrənmə mühiti yaratmaq üçün çox vacibdir. Müəllimlər öz sahələrində səriştəli olmaq üçün etibarlı obyektlərin, davamlı təlimlərin, seminarların, müvafiq təlim mühitinin, təlim materiallarından müstəqil istifadənin və uğurlu tədris metodlarının dəyərini qiymətləndirməlidirlər.

Sosial kompeyensiya – sosial səriştələrə müxtəlif öyrənmə üslublarını və fonlarını dəstəkləyən inklüziv təcrübələri təşviq etmək üçün dil öyrənmənin qurulması kimi dəyərləndirilir. Buraya tələbə dəstəyini artırmaq üçün valideynlər və cəmiyyətlə səmərəli əlaqə qurmaq; ən yaxşı təcrübələri və resursları bölüşmək üçün həmkarları ilə əməkdaşlıq etmək də daxil edilir. Effektiv pedaqoq müəllimlər həmçinin öyrənənlərin irəliləyişlərini qiymətləndirmək və onların metodlarını tələbələrinin dinamik ehtiyaclarını ödəmək üçün uyğunlaşdırmaqda bacarıqlı olmalıdırlar. Bu vahid yanaşma təkcə tələbələrin müxtəlif ehtiyaclarına cavab vermir, həm də bütün tələbələr üçün daha yaxşı nəticələrə gətirib çıxaran daha əməkdaşlıq və zənginləşdirici təhsil mühitini təşviq edir.

Peşə səriştələri ingilis dili müəllimlərinin peşəkar səriştələri uğurlu dil tədrisi üçün vacib olan geniş qabiliyyət və fənn sahələrini əhatə edir. Güclü dil bacarıqları, pedaqoji biliklər və inklüziv və stimullaşdırıcı öyrənmə mühitlərini tərtib etmək bacarığı bunlardan bir neçəsidir. Peşəkar ingilis dili müəllimləri də davamlı peşəkar inkişafa sadiq olmalı və mükəmməl ünsiyyət, komanda işi və çeviklik bacarıqlarına malik olmalıdırlar [4, s.149].

İngilis dili müəllimlərinə peşəkar səriştələrini inkişaf etdirməyə kömək edəcək ən yaxşı məsləhətlər peşəkar davranış məsələləri, tələbələrlə davranış strategiyaları və onların dil istehsalı, mənalı ünsiyyətin əhəmiyyəti və müəllimin göstərdiyi nümunə daxildir.

1.2. İngilis dili müəllimin peşəkar bacarıqları

Pedaqoji yanaşmalar baxımından müəllimin hazırlığı aşağıdakı sahələrin inkişaf etdirilməsini təklif edir:

- *Peşəkar davranış*
- *Auditoriyanın idarəsi*
- *Müəllim yanaşması*
- *Dil istehsalı*

1) Peşəkar davranış

Peşəkar davranışa çeviklik, punktuallıq və operativlik daxil olmaqla bir sistemlilik yaranır. Burada öyrənmə və tədris sahələrində daim dəyişən amillərə uyğunlaşmaq üçün öz yanaşmanızı dəyişdirmək və dəyişdirmək üçün peşəkar inkişafınızın fəziləti ilə bağlıdır. Buna görə də, ingilis dilini təkmilləşdirmək və təzələmək üçün ən yaxşı yolları axtarmaq lazımdır. Tədris taktikasını bəzən özünütənqid vasitəsilə qiymətləndirmək lazımdır və bu yüksək konstruktivliyə və mükəmməlliyə aparır [3, s. 1424].

2) Auditoriyanın idarəsi

Auditoriyanın səmərəli idarə olunması üçün tələbələrin tam iştirakına nail olmaq üçün auditoriyada rahat atmosfer yaradılmalıdır. Tələbələr əməkdaşlıqda fəaliyyət göstərərək qrup işi ilə məşğul olduqda, nizam-intizam və möhkəmlik böyük əhəmiyyət kəsb edir. Bu zaman müəllimlə sinif arasındakı dostluq münasibəti tələbələrin dil öyrənməyə münasibətinə mühüm təsir göstərir.

3) Müəllim yanaşması

Təlimdə müəllimin yaradıcı olmalıdır, çünki müəllimin uğurunun çox hissəsi onun təxəyyül gücündən, orijinallığından və yaradıcılığından asılıdır. Müəllimlik elmdən daha çox sənətdir.

4) Dil istehsalı

Öyrənənlərin davamlı nitq axınını təşviq edən orijinal ünsiyyət vəziyyətlərinə cəlb etmək dilin produktiv istehsalına səbəb olur. Burada dilin mənimsənilməsi onun təbii şəkildə məşq edilməsindən asılıdır.

– Tələbələrə dildən istifadə etmək üçün hər cür şans vermək lazımdır. Tələbələrin qarşılıqlı əlaqədə olmasına imkan vermək üçün mümkün qədər az danışmağa imkan yaratmaq onlarda maraq yaradır. Həddindən artıq çoxlu məlumat öyrətmək artıq stress yaradır və bu baxımdan dərsi müəllim mərkəzli deyil, tələbə mərkəzli etmək tələb olunur [4, s. 134] .

– Dili uyğun sosial kontekstlərdə öyrətmək maraqlı olur. Bu zaman sözü cümlə ilə,

cümləni vəziyyətlə, vəziyyəti real həyatla əlaqələndirmək lazımdır.

– Dərsi daha cəlbedici etmək üçün tədris vasitələrindən düzgün istifadə edərək vaxta və səyə qənaət etmək tələb olunur.

– Səhvləri aradan qaldırmaq üçün təsirli vasitələrdən istifadə etmək tələb olunur. Həmişə əldə edə bilmədiklərinə deyil, nəyə nail olduqlarına diqqətə almaq lazımdır.

– Öyrənənlərin nailiyyətlərini qiymətləndirərkən dəqiq olmaq vacibdir və verilən qiymətlər sinfin real standartına uyğun olmalıdır

Təşkilatçılıq nümunəsi olan planlaşdırma dərsin axıcı və idraki fəaliyyət ardıcıllığı ilə getməsinə imkan yaradır. Bununla tələbələr planlaşdırma və təşkilatçılıq qabiliyyətlərini inkişaf etdirməyə təşviq edilir. Dərsin zövqlü olması üçün mövzudan və əyləncəli mühitdən zövq almaq bacarığı effektiv öyrənmənin açarıdır. Unutmayaq ki, insan zövq alaraq öyrəndiklərini heç vaxt unuda bilməz və yaddaşa təsiri heç vaxt sönməz. Maraqsızlıq reaksiyanın olmaması deməkdir.

Problemin aktuallığı. Ali təhsilin missiyası universitet məzunlarının gələcək fəaliyyətlərində tələb olunan spesifik peşə bacarıqlarını inkişaf etdirməkdir. Xarici dilin öyrənilməsinə peşəkar yönümlü yanaşma peşəkar təfəkkür və biliklərin tətbiqi xüsusiyyətlərini nəzərə almaqla, xüsusi peşəkar, işgüzar və akademik situasiyalarda tələbələrin xarici dildə ünsiyyət qurmaq bacarığını formalaşdırmaqdan ibarətdir.

Problemin elmi yeniliyi. Xarici dil kommunikativ səriştəsinin peşəkar komponenti məzunun malik olmalı olduğu peşəkar bacarıqlar toplusundan ibarətdir. Şəxsi və sosial-mədəni səriştələr, peşə səriştələri kimi peşəkar səriştələr gələcək xarici dil müəllimlərinin hazırlanması üçün xüsusilə aktualdır. Beləliklə, bütün bu komponentlər xarici dil müəllimlərinin peşəkar səriştəsini təşkil edir və praktiki xarici dil dərsləri üçün məzmunun planlaşdırılması və seçilməsi zamanı nəzərə alınmalıdır.

Problemin praktiki əhəmiyyəti. Tədqiqat məqaləsində verilən təhlillər və nəticələr ali təhsildə ingilis dili müəllimlərinin hazırlanmasında istifadə oluna bilər. Bundan əlavə, ingilis dilinin müasir metodologiyasında faydalı bir resurs kimi əhəmityyətli rol oynaya bilər.

Ədəbiyyat

1. Akalin, S., Sucuoglu, B. Effects of Classroom Management Intervention Based on Teacher Training and Performance Feedback on Outcomes of Teacher-Student Dyads in Inclusive Settings. Kuram ve Uygulamada Egitim Bilimleri, 15(3), 2015 –739–758. doi:10.12738/estp. 2015.3.2543
2. Auliawati, S. Kompetensi pedagogik guru agama Islam di SMA Negeri 12 Banda Aceh. Skripsi, Program Sarjana, Universitas Islam Negeri Ar-Raniry Darussalam Banda Aceh. Banda Aceh. Unpublished. 2017 – pp.12- 36.
3. Martina, F., Syafryadin, J.S., Rakhmanina, L. Novice teachers' pedagogical content knowledge (PCK) in teaching English for young learners. Journal of Critical Reviews, 7(14), 2020 – pp.1472-1476.
4. Subhan, Z. The pedagogy of teaching English to young learners: Implications for teacher education. Indonesian Journal of English Language Teaching, 2017. – pp.134- 156

Redaksiyaya daxil olub:15.10.2025

UOT 372.881.11

Nərmin Ələddin qızı Hüseynova
Naxçıvan Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/ 0009-0005-4159-6458
E-mail: aliyevanarmin92@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).248-252

TƏLƏBƏ GƏNCLƏRİN XARİCİ DİLİ ÖYRƏNMƏLƏRİNDƏ MƏDƏNİYYƏTLƏRARASI ƏLAQƏLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Narmin Aladdin Huseynova
doctorial student in the program of doctor of philosophy
of Nakhchivan State University

THE IMPORTANCE OF USING INTERCULTURAL CONNECTIONS IN STUDENTS' FOREIGN LANGUAGE LEARNING

Нармин Аладдин гызы Гусейнова
докторант по программе доктора философии
Нахичеванского Государственного Университета

ЗНАЧЕНИЕ ИСПОЛЬЗОВАНИЯ МЕЖКУЛЬТУРНЫХ СВЯЗЕЙ В ИЗУЧЕНИИ ИНОСТРАННЫХ ЯЗЫКОВ СТУДЕНЧЕСКОЙ МОЛОДЁЖЬЮ

Xülasə. Təcrübələrdən məlum olur ki, tələbə gənclərin dil öyrənmələrində səmərəli nəticələrin əldə olunması yalnız kitab üzərində işlərlə, yaxud müəllimin izahat işləri, şərhləri, testlərin yerinə yetirilməsi ilə mümkün deyildir. Dil öyrənmədə o dili öyrəniləcək xalqın mədəniyyəti ilə, insanlarının həyat tərzi, məişəti ilə tanış olmalı, xüsusilə o xalqın ədəbiyyatı, mədəniyyəti, tarixi, həmçinin dahi şəxsiyyətləri, yazıçı və şairləri ilə tanış olmalı və onları öyrənməlidir. Dilin öyrənilməsində nə qədər çox mənbələrlə. İnsanlarla, mədəniyyətlərlə, əlaqədə olunarsa, insanlarla ünsiyyət və münasibətdə olunarsa o zaman dili daha səmərəli və keyfiyyətli öyrənmək olar.
Açar sözlər: *Dil, mədəniyyət, mədəniyyətlər arası münasibətlər, kommunikasiyalar*

Abstract. It is known from experience that it is not possible to achieve effective results in language learning for students and young people only by working on books or by the teacher's explanatory work, comments, and taking tests. In language learning, one should get acquainted with the culture of the people whose language will be studied, the lifestyle and daily life of its people, especially the literature, culture, history, as well as the geniuses, writers and poets of that people and study them. The more sources in language learning. If one is in contact with people, cultures, and communicates with people, then one can learn the language more efficiently and qualitatively.
Keywords: *Language, culture, intercultural relations, communications*

Аннотация. Опыт показывает, что достижение эффективных результатов в изучении языка студентами невозможно лишь за счёт работы с учебником, объяснений и комментариев преподавателя или выполнения тестов. При изучении языка необходимо знакомиться с культурой народа, на котором говорят на этом языке, с его образом жизни и бытом. Особенно важно изучать литературу, культуру, историю этого народа, а также его великих личностей, писателей и поэтов. Чем больше человек взаимодействует с различными источниками, людьми и культурами, чем активнее он общается и устанавливает отношения, тем более эффективно и качественно он осваивает язык.
Ключевые слова: *язык, культура, межкультурные отношения, коммуникации*

Dil mədəniyyətin və mədəniyyətlərarası münasibətlərin təməlidir. Məhz dilin köməyi ilə insanlar, xalqlar, ölkələr bir-birilə ünsiyyət və münasibət qurur, bir-birinin təcrübə və mədəniyyəltərini öyrənir və təbii ki, dil öyrənmədə də təcrübələrini də artırmış olurlar. Xüsusilə deyə bilərik ki, dil mədəniyyəti olmadan insanın cəmiyyətdə normal həyatı mümkün deyildir. Məhz dilin sayəsində mədəniyyətlər özləri də inkişaf edir, dilin sayəsində mədəniyyətlər nəsildən-nəsilə ötürülür və yeni nəsillər öz ana dillərini mənimsəməklə bərabər, başqa bir xarici dili və onun mədəniyyətini öyrənərək öz təcrübələrini daha da təkmilləşdirmiş və genişləndirmiş olurlar.

Bütün bunlarla bərabər dil təfəkkürlə sıx bağlıdır, dil insanın fikri və düşüncəsidir. Mədəniyyətlər arası münasibətdə insanın təfəkkür və dünyagörüşünün inkişafında, insanın şəxsiyyətinin formalaşmasında təfəkkür mühüm amildir. Hər bir xalqın, hər bir millətin var olmasının ən başlıca səbəbi onun özünəməxsus, öz dilinin, öz təfəkküründür olmasıdır. Biz də qürurla deyirik ki, bizim ana dilimiz var, bu dili, mənəvi dəyərlərimizi qoruyub bu günlərimizə qədər gətirib çıxarmışıq. Ulu Öndər Heydər Əliyev deyirdi ki, hər bir xalqın öz dili, öz mədəniyyəti vardır. Mən fəxr edirəm ki, ...Azərbaycan dili bu qədər zəngin bir dildir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə sərbəst ifadə edə bilərik. Doğma ana dilimiz olan Azərbaycan dili xalqımızın milli sərvətidir. Tarix yaşadıqca xalqımız bu sərvətin qayğısına qalmalı və dilimiz gələcək nəsillərə ötürülməlidir (1).

Dil öyrənmək insanın təfəkkürü, təxəyyülü, nitqi, mədəni səviyyəsi ilə sıx bağlıdır. Dil öyrənərkən başqa xalqların mədəniyyətinə nüfuz etmək insanın özünün mədəni simasını dəyişdirir, inkişaf etdirir və formalaşdırır. Hər bir xalqın, hər bir millətin var olmasının ən başlıca səbəbi onun özünəməxsus dilinin olmasıdır. Biz də fəxrlə deyə bilərik ki, bir xalq olaraq zamanın bütün çətinliklərindən ləyaqətlə çıxaraq dilimizi, mənəvi dəyərlərimizi qoruyub bu günlərimizədək gətirib çıxarmışıq.

Xarici dilin öyrənilməsində mədəniyyət və mədəniyyətlərarası münasibətlərin rolu, xalqın həyatı və məişəti ilə tanışlıq dilin ali məktəb auditoriyalarında öyrənməkdən daha geniş, daha əhatəli, daha səmərəli bir çərçivəyə malikdir. Çünki dil bir xalqın həyat tərzini, ənənələrini və düşüncə sistemini, təfəkkürünü daha geniş əks etdirir.

Xalqın mədəniyyətini öyrənmək tələbələrə yalnız dilin qaydalarını öyrətməkdən daha çox, onların mədəniyyətlərarası kommunikasiya və anlayışlarını inkişaf etdirmələrinə, leksikonların zənginləşməsinə kömək edir. Nəticədə, dil öyrənmə prosesində mədəniyyətin tətbiqi tələbələrin dünyagörüşünü genişləndirir və onların yeni mədəniyyətlərə olan münasibətlərini daha da zənginləşdirir və nəticədə dilin incəliklərini, xalqın ifadələrini daha yaxşı öyrənməyə səbəb olur.

Bunu da qeyd edək ki, xarici dilin öyrənilməsində xalqın maarif və mədəniyyətinin rolu təkcə dilin, quruluşunu və leksikasını öyrənməyə, dilin zənginləşməsinə təsir etmir, eyni zamanda tələbələrin həmin ölkənin mədəniyyətinə olan münasibəti, o mədəniyyətə şəxsi fikir və düşüncələrini, dünyagörüşünü formalaşdırır. Bu proses, dilin yalnız sözdüzülüşünü, semantikasını, leksikasını öyrənmək deyil, həm də, həmin dilin təmsil etdiyi xalqın düşüncə tərzini, dünyaya baxışını, siyasətini, milli dəyərlərini və həyat fəlsəfəsini başa düşməyə, öyrənməyə imkan verir.

Tələbə – gənclər ingilis dilini öyrənirsə, müxtəlif hazırlıqlara, kurslara gedirsə, testlərə cavab verməkdə yüksək ballar toplayırsa – amma, onun ingilis milli dəyərlərindən, tarixindən, ədəbiyyat və mədəniyyətindən, müasir siyasətindən, xəritədə yerini bilməkdən, dünya siyasətində mövqeyindən, hətta incəsənətindən, idmanından xəbəri yoxdursa, yaxud da dünyaca məşhur olan Şekspirdən heç xəbəri yoxdursa bu dili öyrənməyin nə əhəmiyyəti vardır. Bu yalnız dili süni əzbərləməkdir, testlərə düzgün cavab vermək, beyni xarici dil sözləri ilə yükləməkdir. Belə dil öyrənmə uzun sürməyəcək, tətbiq edilməyəcək və tez bir zamanda unudulacaqdır. Tələbə Şekspiri orijinaldan oxumaqla xeyli yeni sözlər, ifadələr öyrənmiş olacaqdır. Çünki, Şekspir canlı dilləri, dialoqları əsərində verməklə ingilis dilini xeyli zənginləşdirmişdir.

Tələbə öyrənir ki, Şekspir əsərlərinin Azərbaycan dilinə tərcüməsinin xüsusi əhəmiyyəti olmuşdur. Şekspiri tərcümə etməyə cəhd göstərmiş ədiblər Şekspir fikrinin, onun zəngin dilinin və ifadələrinin dilimizdə səslənməsi yollarını tapmaqla həmçinin tərcümə sənətimizi də inkişaf etdirmiş və dili zənginləşdirmişlər. Şekspirin yüksək bədii səviyyədə, məharətlə tərcümə

edilən əsərlərinin Azərbaycan teatrlarında tamaşaya qoyulması səhnə mədəniyyətimizin inkişafında böyük rol oynamış, rejissor və aktyorlarımızın bir qismi Şekspirin əsərləri ilə öz böyük istedadını nümayiş etdirə bilmiş, bir çox ədiblərimiz Şekspir əsərlərini doğma dilimizə çevirməklə öz rəngarəng tərcüməçi istedadını da üzə çıxarmışdır.

Tələbə Şekspir mədəniyyətini öyrənərkən həmçinin öyrənir ki, Azərbaycan poeziyasında sonet janrına müraciət edən ilk şairimiz Mikayıl Müşfiq olmuşdur. O, 1928-1937-ci illər arasında 12 sonet yazmışdır.

Etnoqraflar eyni sosial şəraitdə yaşayan insanlara xas olan hiss və düşüncələri, davranışları, həyata baxışlarını təsvir etmək üçün "mədəniyyət" sözündən istifadə etmişlər.

Bu mənada "mədəniyyət" sözü cəmiyyət tərəfindən qəbul edilən insanın gündəlik davranışını, həyat tərzini, insanlarla ünsiyyət və münasibətini, inancını tənzimləyən psixopedaqoji, sosial qaydalar kompleksini nəzərdə tutur.

Buna baxmayaraq əksər ölkələrdə – o cümlədən ölkəmizdə mədəniyyət daha geniş anlamda, daha üstün anlayışda işlədilir. Belə ki, mədəniyyət dedikdə xalqın əsrlər boyu yaratdığı tarixi əsərlər, maddi- mədəniyyət və tarixi abidələri, tarixi məkanları, dünya mədəniyyətinə verdiyi töhfələri, dahi şəxsiyyətləri, rəsm əsərləri, incəsənət nümunələri, dəyərli bədii, elmi ədəbiyyat nümunələri, şair və yazıçıları, alimləri, mütəfəkkirləri başa düşülür.

Mədəniyyət – insanların həyat fəaliyyəti formalarının müxtəlifliyi, mücərrəd anlayışda həyatın becərilməsi, onun insaniləşdirilməsi, xalqların tarixi, mədəni yaddaşıdır. O, sivilizasiyaların və etnosların ayrılmaz tərkib hissəsidir.

Mədəniyyət xalqın özüdür. Mədəniyyət insanın özüdür. Planetimizdə mədəniyyətlərin müxtəlifliyi insan birliklərinin ən böyük dəyəridir; buna, bəzən, inteqral mədəniyyət deyilir. İnsan mədəniyyət vasitəsi ilə özünün müstəqil fərd, cəmiyyətin üzvü, bütövlülüyün bir cəhəti olduğunu dərk edir. İnsan mədəniyyət vasitəsi ilə dil öyrənir, xalqın mənəvi dəyərlərini mənimsəyir.

Xarici dilin öyrənilməsində mədəniyyətin rolu, təkcə sözlərin və ifadələrin öyrədilməsindən ibarət deyil, bu daha geniş və daha mənalıdır. Dil öyrənmək, yalnız yeni sözlər və ifadələrlə tanış olmaq deyil, həm də həmin dilin təmsil etdiyi xalqın həyat tərzini, dəyərlərini və mədəniyyətini, folklorunu, təhsilini, maraqlı məkanlarını, yerlərini öyrənməyi tələb edir.

Dil, bir ölkənin, cəmiyyətin tarixini, sosial mədəniyyətini, ölkənin strukturlarını və kollektiv yaddaşını daşıyan bir vasitədir. Bu səbəbdən, xarici dil tədrisində mədəniyyətin nəzərə alınması, tələbələrə yalnız dilin texniki tərəflərini deyil, həm də həmin dilin içində olduğu mədəni mühiti, xalqın dəyərlərini başa düşməyə imkan yaradır.

Mədəniyyətlərarası əlaqələrin genişlənməsi dilin tədrisi prosesinə və dilin öyrənilməsinə yeni tələblər qoyur. İngilis dili təkcə kommunikasiya, ünsiyyət vasitəsi deyil, eyni zamanda müxtəlif mədəniyyətlərin öyrənilməsidir, müxtəlif xalqların, insanların həyat tərzini, məişətini öyrənməkdir. Bu cəhətdən ingilis dilinin tədrisində tələbələrin mədəniyyətlərarası ünsiyyət qabiliyyətlərinin, kommunikativ bacarıqlarının formalaşdırılmasının mühüm əhəmiyyəti vardır.

Bəzi ölkələrdə, məsələn Türkiyədə həm "Kültür", həm də "mədəniyyət" anlayışları istifadə edilir. "Kültür" insanın, bir icmanın, bir toplumun davranışını, ünsiyyətini, insanlara münasibətini, tərbiyəsini, nəzakət və ədəbini bildirən, ümumilikdə yaratdığı milli-mənəvi dəyərlər kompleksi anlayışdır. Mədəniyyət isə yuxarıda dediyimiz kimi daha geniş anlamda başa düşülən bir anlayışdır.

Məşhur etnoqraf Lev Qumilyov etnosun qorunmasında dil ünsürünün ən vacib amil olduğunu qeyd edirdi. Qürurluyuq ki, bu dildə danışan 50 milyondan çox həmvətənimiz dünya mədəniyyətinə böyük şairlər, yazıçılar, alimlər, siyasətçilər və dahilər bəxş etmişdir.

Dil öyrənmədə, təmiz ana dilində və başqa müxtəlif dillərdə səlis danışmağı biz Ulu Öndər, Milli Liderimiz Heydər Əliyevdən və onun varisi, dünya liderlərinin ən qabaqcıl nümayəndəsi möhtərəm Prezidentimiz İlham Əliyevdən öyrənməli, onların dilə münasibətini və dildən necə məharətlə istifadə etmələrini mənimsəmək lazımdır.

Dil mədəniyyətinə münasibət barədə Ulu Öndər deyirdi: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcu olmalıdır".

Heydər Əliyev bu dahiyanə fikri ilə dili əyilməzliyin, ölməzliyin simvolu sayır, onu milli sərvət adlandırır, bu müqəddəs mirasın babalarımızın əmanəti olduğunu, qorunmasını isə vətəndaşlıq borcu hesab edir və onu gənclərə, gənc nəslə əmanət edir. Heydər Əliyev istər rus dilində, istərsə də Azərbaycan dilində çox təmiz danışaraq, işlənməkdə olan dilimizi daha da zənginləşdirir, təkmilləşdirirdi.

Bu da onun tələbə gənclik illərində çox mütaliəçi olmasından, xarici klassikləri onların öz dilində oxumasından irəli gəlmişdir. Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumunda oxuduğu illərdə tələbə yoldaşları, müəllimləri xatirələrində onun çox mütaliəçi olduqlarını söyləyirdilər. Onlar bildirirdilər ki, Heydər Əliyev tələbəlik illərində yoldaşları arasında böyük hörmət və nüfuz qazanmış və özünü həmişə fəal bir şəxsiyyət kimi aparmışdır. Qətiyyətli, məqsədyönlü, fəal və təşəbbüskar olmuşdur. Onda elmlərə yiyələnmək, kitab oxumaq, ictimai işlərdə fəal iştirak etmək həvəsi daim yüksək olmuşdur. Öz düşüncə tərzi, həyata baxışı, insanlara münasibətilə ilə həmişə fərqlənmişdir. 1930-cu illərdə Naxçıvanda zəngin Milli Kitabxana var idi. Heydər Əliyev tez- tez bu kitabxanaya gedər və buradakı kitabları həvəslə mütaliə edərdi. Bədii ədəbiyyata həvəsi çox yüksək idi. O rus, Avropa klassiklərinin əsərlərini orijinaldan mütaliə edirdi. Rus dilini gözəl bildiyindən Lev Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyub məzmununu tələbə yoldaşlarına danışırdı...(3)

Ulu öndər çıxışlarının birində – 1997-ci il 30 oktyabrda Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində deyirdi: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam" (2). Bəli, budur insanın kamilləşməsi, zənginləşməsi, dahi şəxsiyyət kimi formalaşmasıdır.

Problemin aktuallığı. Ulu öndər dilin öyrənilməsində, insanın formalaşmasında bildirirdi ki, ilk növbədə xalqın mədəniyyətini öyrənmək lazımdır. Mədəniyyət isə "birinci növbədə... ədəbiyyat xadimlərinin yaratdığı əsərlər, tarixi memarlıq abidələrimiz və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərdir" (2). Bunların öyrənilməsi həmişə aktual və əhəmiyyətlidir. Bu cəhətdən tələbə gənclərimiz – "düşünmək yaşamaq deməkdir", deyən Şekspiri, "Təkrar biliyin, ögey anasıdır, tətbiq etmək anasıdır" – deyən Tekkereyi və başqalarını orijinaldan oxuyub anlamağı bilməlidir.

Problemin yeniliyi. Ulu Öndərin layiqli davamçısı, müzəffər ordumuzun Baş Komandanı, ağıllı, müdrik siyasəti ilə Regionda sülhün, barışın yaradıcısı, banisi və etibarlı təminatçısı bir neçə dildə dünya liderləri qarşısında nitq söyləyən, saatlarla jurnalistlərə onların öz dillərində - ingilis, fransız, rus, türk və s. dillərdə cavab verən möhtərəm Prezidentimiz İlham Əliyev ABŞ – da, Vaşinqtonda "Ağ ev"də çox yüksək qiymətləndirilməsi və sülhün banisi, yaradıcısı, təminatçısı kimi dəyərləndirilməsi milli iftixar hissləri yaradır.

44 günlük Vətən müharibəsində qazandığımız qələbənin "Ağ Ev"də siyasi və diplomatik müstəvidə təsdiqi onu göstərdi ki, İlham Əliyev Beynəlxalq münasibətləri yüksək səviyyədə idarə etmək bacarığına malikdir. Dünyanın 1 nömrəli paytaxtının bir nömrəli ofisində təşkil olunan görüşündəki tarixi razılaşmalar İlham Əliyevin beynəlxalq arenada müdrik siyasətini, ağıl və zəkasını ortaya qoymuş oldu. O müdrik diplomatik siyasəti, manevrləri ilə sülhə maneçilik törədənlərin də yerini göstərdi.

ABŞ Prezidenti Donald Tramp: "Siz böyük lidersiniz!" ifadəsi ilə İlham Əliyevin böyük dövlət xadimi kimi dünya miqyasında artan nüfuzunu, "Böyük lider" olduğunu təsdiqlədi. Çünki ABŞ prezidenti bilirdi ki, sülh razılaşması təkcə Ermənistanla münasibətləri normallaşdırmaq deyil, həm də regionda iqtisadi layihələrə töhfə vermək və beynəlxalq müstəvidə yeni mərhələnin əsasını qoymağa xidmət edir. Bütün bu nailiyyətlər yalnız dili bilməklə bitmir, dildən necə istifadə etmək, dilə məna verərək, onu mənəvi mədəniyyətin, praqmatik prosesin tərkib hissəsinə çevirərək tətbiq etmək insana, xalqına uğur qazandıra bilər.

Problemin praktik əhəmiyyəti. Mədəniyyətlərarası ünsiyyət müasir dil tədrisinin ayrılmaz tərkib hissəsidir və bu prosesdə sərbəst söz birləşmələrinin, dialoqların, fəal ünsiyyət vasitələrinin təşkili mühüm rol oynayır.

Beləliklə, dil öyrənilən ölkənin mədəniyyəti ilə tanışlıq, dil öyrənənlərin daha geniş perspektivlərə sahib olmalarına, öz mədəniyyətləri ilə müqayisə edərək daha açıq fikirli olmalarına və nəhayət dilin

daha səmərəli və daha keyfiyyətli öyrənilməsinə kö- mək edir.

Ədəbiyyat

1. Heydər Əliyev. Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən (Respublika Sarayı, 26 noyabr 1994-cü il).
2. Heydər Əliyev . Azərbaycan Yazıçılarının X qurultayında nitq // Xalq, 30 oktyabr, 1997 –ci il.
3. Hüseynzadə L.T. Xalqın müəllimi. –Bakı: 2008. –126 s.

Redaksiyaya daxil olub: 04.11.2025

UOT 372.881.111.1

Sabina Arif Aliyeva
senior teacher at the Academy of Public Administration
under the President of the Republic of Azerbaijan
https://orcid.org/0009-0000-7968-8044
E-mail: sabina.aliyeva@dia.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).253-257

ENGLISH AS A CRUCIAL TOOL IN INTERNATIONAL BUSINESS COMMUNICATION

Səbinə Arif qızı Əliyeva
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının baş müəllimi

BEYNƏLXALQ BİZNES ÜNSİYYƏTİNDƏ İNGİLİS DİLİ ƏSAS ALƏT KİMİ

Сабина Ариф гызы Алиева
старший преподаватель Академии Государственного Управления
при Президенте Республики Азербайджана

АНГЛИЙСКИЙ ЯЗЫК КАК ВАЖНЕЙШИЙ ИНСТРУМЕНТ В МЕЖДУНАРОДНОЙ ДЕЛОВОЙ КОММУНИКАЦИИ

Abstract. In an increasingly globalized world, knowledge of business English is not just a luxury but a necessity. Investing in this skill has become a priority for companies aiming to remain competitive internationally. Such investments not only lead to business success but also contribute to the personal and professional development of employees and the entire organization. Ultimately, English proficiency is a crucial element of success in today's business world, serving as a communication tool that opens doors to global markets, broadens horizons, and establishes long-term business relationships on the international stage.
Key words: *globalization, cross-cultural communication, international business, English proficiency, negotiation, economic integration, multinational companies*

Xülasə. Hazırkı qloballaşan dünyada biznes ingilis dili biliyinə yiyələnmək artıq xüsusi bir hal olmaqdan çıxaraq zərurətə çevrilmişdir. Bu bacarığa sərmayə qoymaq, beynəlxalq səviyyədə rəqabətə tab gətirmək və davamlı var olmaq istəyən şirkətlər üçün prioritetə çevrilib. Belə sərmayələr təkcə biznes uğuruna deyil, həm də əməkdaşların şəxsi və peşəkar inkişafına və eyni zamanda ümumilikdə bütün təşkilatın inkişafına töhfə verir. Nəticə etibarilə demək olar ki, müasir biznes dünyasında ingilis dili bacarığı qlobal bazarlara çıxışı təmin edən, üfüqləri genişləndirən və beynəlxalq arenada uzunmüddətli işgüzar münasibətlərin qurulmasına şərait yaradan ünsiyyət vasitəsi olaraq, uğura aparan ən vacib elementdir.
Açar sözlər: *qloballaşma, mədəniyyətlərarası ünsiyyət, beynəlxalq biznes, Ingilis dili biliyi, danışıqlar, iqtisadi inteqrasiya, çoxmillətli şirkətlər*

Аннотация. В глобализованном деловом мире знание английского языка отныне является необходимостью. Инвестирование в этот навык становится приоритетом для компаний, стремящихся оставаться конкурентоспособными на международной арене. Такие инвестиции не только ведут к успеху в бизнесе, но и способствуют личному и профессиональному развитию сотрудников и всей организации. В конечном итоге, владение английским языком является ключевым элементом успеха в современном деловом мире, служит инструментом коммуникации, и таким образом открывает двери в глобальные рынки, расширяет горизонты и устанавливает долгосрочные деловые отношения на международной арене.
Ключевые слова: *глобализация, межкультурная коммуникация, международный бизнес, владение английским языком, переговоры, экономическая интеграция, многонациональные компании*

"There is almost no aspect of our lives that is not touched by language. We live in and by language" McCrum

In the age of globalization, the ability to communicate effectively across cultures has become an integral part of every company's success on the international stage. English, as the lingua franca of international business, not only enables communication between people from different parts of the world but also builds cross-cultural bridges by fostering deeper understanding and collaboration. In the global context, English has become the language of commerce, finance, science, and technology. Companies utilize it not only as a means of communication, but also as a strategic tool for negotiations, marketing, and managing international projects. Proficiency in English enables business leaders to operate successfully in foreign markets, granting them access to global knowledge and innovations. For companies operating at an international level, employees' knowledge of English is vital, as it directly impacts the effectiveness of both internal and external communication – with clients, partners, and contractors. It also plays a crucial role in developing strategies and entering new markets. In an era of world economy integration, proficiency in English has become an indispensable skill for professionals and companies seeking success on the international stage. English deservedly performs the role of a primary language for productive business and marketing communication.

The dominant role of English in international business communication and trade is firmly established and demonstrated by a number of prime examples: It is telling that the Japanese e-commerce firm, Rakuten, has established English as its corporate language, to the extent of implementing an English – only policy in its Japanese headquarters. This was part of its efforts to become a truly global firm. (1 p. 63). An extreme example comes from the results of the survey demonstrating the seeming dominance of English: in 1992, 44 percent of UK executives surveyed stated their readiness to negotiate in a foreign language. Ten years later only 28 percent were prepared to this. The *BBC News* reported that a "recent study showed that seven percent of French firms used English as their main language"

It will be easier to comprehend the current role and importance of the English language taking a brief historical overview. It all started with the rise of British Empire, which, at the highest of its glory, managed to extend its influence over vast territories. The imperial expansions of the 18th and 19th centuries ensured even deeper and more confident spread and adoption of the English language. As territories were colonized, English often became a primary or secondary language, laying the foundational stones for its current global status. Under the continuous dominance and influence of the British Empire, English language was adopted as an administrative language in many of its colonies, implanting it deeply into the educational, legal, and political systems of very many nations. This period laid a foundation for transforming English into a global lingua franca for the centuries that followed.

The Industrial Revolution which sparked in England in the late 18th century, marked another turning point in global economic and social structures, positioning England as the world's leading economic power. During this period, technological innovations, advancements in production methods, and the rapid expansion of industries not only transformed local economies, but also established English as a key language of trade, industry, and scientific progress.

However, the picture would be incomplete without noting the role of the United States, an English-speaking nation, which emerged as a dominant economic and cultural superpower by the 20th century, further strengthening the international role of the English language. The transition from a colonial language to a global lingua franca didn't happen overnight. Post-World War II, the prominence of the United States considerably contributed to the extensive use of English. The USA's proliferation in global politics, economics, and culture fostered an environment where English became the language of choice for international communication. This was further stimulated by the augmentation of American media, including Hollywood films, television shows, and music, which truly globalized English.

As British companies and institutions expanded their influence across continents,

English became associated with commerce, governance, and diplomacy. Moreover, the rise of British literature, philosophy, and science during the Industrial Revolution contributed to the cultural and intellectual prominence of the language. The works of writers like Charles Dickens and philosophers like John Stuart Mill reached audiences far beyond England, reinforcing the global perception of English as a language of sophistication and progress. Eventually, the global prominence and prestige of English-speaking universities, particularly in the United States and the United Kingdom, such as Harvard, Oxford, and MIT, proclaimed English as the primary language of higher education. These institutions attracted international students, who were required to master English to get an access to cutting-edge research and academic discourse. This trend has continued with the rise of online education platforms offering courses predominantly in English.

Today, the historical legacies of British colonialism and American cultural dominance are evident in the prevalence of English-speaking countries and the widespread aspiration to learn and speak English. It's crucial for learners to understand this historical background as it provides valuable context for the linguistic landscape they are navigating.

American advancements in technology, media, and entertainment helped to spread the language worldwide, creating a shared medium for business, education, and global communication. Thus, the historical trajectory of English – from the Industrial Revolution to the present – demonstrates its evolution into a powerful tool for international exchange and collaboration. These paramount changes in the life of the world community gave an impetus to the metamorphosis of the English language transforming it into the key language of international business and trade. Therefore it is quite pertinent to describe the development of English as a *lingua franca* in international business.

Facilitation of seamless communication across borders is one of the principle advantages of using English in global business. It helps to streamline interactions with clients and partners from various countries, enabling professionals from different linguistic and cultural backgrounds to collaborate effectively. This shared language minimizes misunderstandings, increases efficiency, and fosters stronger relationships in multinational teams, partnerships, and collaborations. International companies like Microsoft or Google, having offices and teams worldwide, are a sheer example of global communication in which Employees from diverse linguistic backgrounds collaborate on projects using English as the common language. For instance, a software development team in India can easily communicate with their counterparts in Germany or the United States during online meetings, ensuring that project deadlines are met and objectives are clear. This shared use of English in international business settings plays a crucial role in fostering communication by serving as a common language. This enables individuals from diverse linguistic backgrounds to collaborate, share ideas, and achieve mutual goals effectively. Standardized Business English often uses simplified grammar and vocabulary to convey meaning clearly. For example, phrases like "Let's circle back" or "Please clarify the details" are universally understood in professional settings.

Moreover, the widespread use of the English language in the world trade ensures access to a vast domain of resources, networks, and opportunities, which further boosts globalization and economic growth. English dominates the internet, with a significant share of global websites, research papers in fields like medicine, engineering, and technology. For instance, journals like Nature and The Lancet primarily use English, enabling researchers and professionals worldwide to access and share critical advancements regardless of their native language. Another example comes with digital and global business platforms, like Linkedin, presenting their content in English. Entrepreneurs and professionals can access a wealth of market insights, networking opportunities, and educational courses on platforms like Coursera and edX, which often have English as their medium of instruction. Machine learning tools like chatbots and virtual assistants often function better in English, ensuring smooth interactions.

Beyond basic communication, English fluency also contributes to the soft skills necessary for successful negotiations. The language's rich vocabulary enables negotiators to express

nuances, diplomatic assurances, and persuasive arguments. Subtleties in tone, emphasis, and phrasing can be crucial in swaying decisions or finding common ground. Furthermore, understanding industry-specific terminologies in English can make a difference in grasping complex issues, thereby enhancing a negotiator's competence and credibility. One of the key advantages of using English in negotiations is the reduction of language barriers. Trade partners from different parts of the world can communicate their requirements, expectations, and concessions more effectively. This mutual understanding is vital for establishing trust and ensuring that all parties are aware of the terms and conditions surrounding a deal. In addition to facilitating communication, fluency in English enhances the soft skills essential for effective negotiations. Its extensive vocabulary allows negotiators to convey specific details, offer diplomatic reassurances, and present persuasive arguments. Mastering tone, emphasis, and phrasing can be instrumental in influencing decisions or finding mutual agreement. Moreover, familiarity with industry-specific terminology in English provides a deeper understanding of complex issues, bolstering a negotiator's competence and credibility.

While negotiations are crucial in international trade, demanding clear communication, accuracy, and shared understanding, English language serves as a vital medium for these exchanges. Proficiency in English can greatly impact the results of discussions, whether they involve pricing, delivery conditions, or contract terms. A significant benefit of using English in negotiations is its ability to minimize language barriers. It enables trade partners from diverse regions to clearly convey their needs, expectations, and compromises. This shared understanding is crucial for building trust and ensuring all parties are fully informed about the terms and conditions of a deal.

On a practical note, English is the primary language used in most international meetings, conferences, and trade events. Proficiency in the language not only ensures active participation but also fosters connections with key industry players. These relationships can lead to profitable partnerships and open opportunities in new markets. Leaders and managers use English to communicate with multinational team. Effective management requires not only fluency in English but also cultural empathy and adaptability in communication. In the modern business world cross-cultural communication is pivotal and goes beyond mere language skills. Since people from different cultural origins regularly interact in business, it encompasses understanding the cultural contexts in which the language is used, including norms, values, and behaviors unique to different societies. The importance of communication across cultural barriers has been highlighted as a strategic necessity for companies aiming to succeed on a global arena. English, as an international language, often acts as a mediator in these interactions, but true communication effectiveness is achieved through an appreciation and respect for cultural diversity. Reaching broad international audiences and creating impactful campaigns requires understanding cultural nuances and expectations to ensure maximum resonance in the business world. Cross-cultural communication faces challenges such as misunderstandings, stereotypes, and communication errors. To address these, companies invest in cross-cultural communication training, teaching employees to use English effectively in diverse cultural settings. Additionally, digital tools like machine translations and platforms supporting cross-cultural communication play an increasingly important role in overcoming language and cultural barriers. Knowing English is the first step toward effective cross-cultural communication, but the real value lies in understanding and respecting cultural differences. Companies that invest in improving their employees' cultural knowledge gain a competitive edge, allowing them to build deeper, more meaningful relationships with international partners and clients. Understanding cultural contexts prevents communication errors that could lead to conflicts, misunderstandings, or even business losses.

Thus, speaking globally, optimized language proficiency helps to navigate complex trade negotiations and legal requirements, build trust by reducing misunderstandings in cross-cultural exchanges and ensure effective communication with clients, suppliers and partners. While at a basic level it is more about people within an organization trying to understand each other linguistically and culturally, sharing

knowledge and experiences, innovating and acquiring new skills in order to work at their best. Employees are in constant search for more professional development to bring opportunities to their working life. Even where career development is possible, access to it is often dependent on language aptitude. For example, proceeding from the location in the world, managerial and executive positions may only be available to those with high English proficiency. Statistics shows the increasing tendency to invest in language training as a core business and team enabler. Companies with English-speaking employees can access foreign markets more easily. Its widespread adoption as a global lingua franca facilitates smoother communication, collaboration, and market penetration. For instance, Amazon demonstrates a perfect example of English-speaking customer service teams worldwide handling queries and issues from its diverse global customer base. Its website and applications are primarily designed in English, serving as a universal starting point for users in various markets. Similarly, Samsung's marketing materials, user manuals, and customer support services are predominantly in English, allowing the company to appeal to English-speaking audiences globally while supplementing with localized translations for specific markets. Many companies now organize English language courses for their employees because they recognize how these contribute to:

- Improving service quality
- Expanding the sales market
- Strengthening international relations
- Enhancing employee development and corporate culture

International scope is vital to large multinational companies, and communication skills are an enabler to retaining and developing opportunities one needs to succeed. In other words, language is a main developmental goal for individuals, and a basic tool to retain and develop its workforce for businesses.

Relevance of the Problem. In today's globalized world, English has become the leading language of international business and trade. It plays a vital role in enabling companies to communicate across cultures, carry effective negotiations, and build partnerships around the world. As businesses increasingly operate on a global scale, the ability to use English effectively is no longer optional – it's essential. Without strong English skills, companies risk falling behind, missing opportunities, and losing access to international markets.

Innovation of the Problem. What makes this problem innovative is the way English has evolved – it's no longer just a tool for communication, but a strategic asset in the global economy. Once seen as the language of former colonial powers, English has turned into a true global lingua franca playing a central role in cross-cultural business interactions and shaping up international partnerships. This metamorphosis calls for fresh, innovative approaches to language

education, cultural awareness, and the use of modern communication technologies.

Practical Significance of the Problem. The practical importance of this issue is clear: strong English skills directly affect how businesses operate and negotiate on the international stage. Professionals with solid English proficiency can freely connect with international clients, and work effectively across cultures. Companies that prioritize English language training often see real benefits – from improved service and smoother communication to expanded market reach and stronger employee performance.

Literature

1. "*The Economist*" Newspaper –2014 , February 15, –p. 63
2. https://www.economist.com/business/2014/02/15/the-english-empire
3. Frendo E. How to Teach Business English: / –Harlow: Pearson Education Limited. – 2005. – p.112-115.
4. Graddol D. English Next; Why global English may mean the end of 'English as a Foreign Lanugage': / -London: British Council. – 2006. – p.32-40.
5. Kankaanranta A. Business English Lingua Franca in Intercultural (Business) Communication // Language at Work-Bridging Theory and Practice, –2008. V3 N 4, –p. 1-10
6. Kankaanranta A. and Planken B. Belf Competence as Business Knowledge of Internationally Operating Business Professionals // Journal of Business Communication, –2010 N 47, –p. 380-407.
7. Gerritsen M. and Nickerson C. BELF: Business English as a Lingua Franca / –Edinburgh: Edinburgh University Press Ltd. – 2009. – p180-189.
8. https://5minuteenglish.com/the-influence-of-english-on-global-communication
9. http://www.britishcouncil.org/learning-research-english-next.pdf.Gudykunst

Redaksiyaya daxil olub: 29.09.2025

FİZİKİ TƏRBİYƏNİN TƏDRİSİ METODİKASI
METHODS OF TEACHING PHYSICAL CULTURE
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ

UOT 796

Gülbaba Balasoltan oğlu Quliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
Azərbaycan Respublikasının Əməkdar məşqçisi,
Əməkdar Bədən tərbiyəsi və İdman xadimi
https://orcid.org/0009-0001-5665-827X
E-mail: gulbaba56@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).258-261

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRİN FİZİKİ TƏRBİYƏ ÜZRƏ EV TAPŞIRIQLARI

Gülbaba Balasoltan Quliyev
Associate Professor at Azerbaijan State Pedagogical University
Honored Coach of the Republic of Azerbaijan,
Honored Worker of Physical Education and Sports

HOMEWORK FOR PHYSICAL EDUCATION IN SECONDARY SCHOOL STUDENTS

Гюльбаба Баласолтан оглы Гулиев
Доцент Азербайджанского Государственного Педагогического Университета
Заслуженный тренер Азербайджанской Республики,
Заслуженный деятель физической культуры и спорта

ДОМАШНИЕ ЗАДАНИЯ ПО ФИЗИЧЕСКОМУ ВОСПИТАНИЮ ДЛЯ УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

Xülasə. Məqalədə ümumtəhsil məktəblərində şagirdlərin fiziki tərbiyə sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsində fiziki tərbiyə dərslərinin səmərəli təşkilinin mühüm əhəmiyyətindən bəhs olunur. Qeyd olunur ki, fiziki tərbiyə dərsləri yüksək səviyyədə keçirilsə də bu sahədə tələb olunan məqsədi tam surətdə yerinə yetirmək olduqca çətindir. Müasir dövrdə yeniyetmə və gənclərin fiziki inkişafını, fiziki hazırlığını və s.- inkişaf etdirmək müəllimlərindən çox ciddi sürətdə tələb edilir. Ən müasir və səmərəli təhsil üçün lazım olan elektron təhsil resursları kompüter vasitəsilə yaradılır. Ən sadə elektron təhsil resursları qrafik mətnlərdir. Bundan başqa, ev tapşırıqlarının verilməsi, yay düşərgələrində istirahət və b. məsələlər də məqalədə öz əksini tapmışdır. Eyni zamanda göstərilir ki, hər şeydən əvvəl müəyyən pedaqoji şərtləri həyata keçirmək yerinə düşərdi.
Açar sözlər: *Fiziki tərbiyə, fiziki hərəkətlər, səmərəli təhsil, ev tapşırıqları, elektron təhsil, fiziki inkişaf, fiziki hazırlıq, yaş xüsusiyyətləri siniflər üzrə, texnologiya, interaktiv*

Abstract. The article emphasizes the importance of the effective organization of physical education classes in the implementation of the tasks facing physical education in secondary schools. It is noted that although physical education classes are conducted at a high level, it is extremely difficult to achieve the desired goal in this area. In the modern era; physical development, physical preparation of adolescents and youth, etc. teachers require development very seriously. The elearning resources needed for the most modern and effective education are created using a computer. The simplest electronics learning resources are graphic

texts. In addition, homework, summer camps, etc. are included in this article. At the same time, it is shown that, first of all, certain pedagogical conditions must be observed.

Key words: *Physical education, physical activity, effective education, homework, e-learning, physical development, physical training, age characteristics by classes, technology, interactive*

Аннотация. В статье рассматривается важное значение эффективной организации уроков физического воспитания в общеобразовательных школах для реализации задач, стоящих в области физического воспитания учащихся. Отмечается, что, несмотря на высокий уровень проведения уроков физической культуры, полностью достичь поставленных целей в данной сфере достаточно сложно. В современный период от учителей требуется уделять особое внимание развитию физического состояния, физической подготовленности подростков и молодежи. Необходимые для современного и эффективного обучения электронные образовательные ресурсы создаются с помощью компьютеров. Наиболее простыми электронными образовательными ресурсами являются графические тексты. Кроме того, в статье рассматриваются вопросы, связанные с выполнением домашних заданий, организацией отдыха в летних лагерях и другие аспекты. Одновременно подчеркивается, что прежде всего следует реализовывать определённые педагогические условия.

Ключевые слова: *физическое воспитание, физические упражнения, эффективное обучение, домашние задания, электронное образование, физическое развитие, физическая подготовка, возрастные особенности по классам, технология, интерактивность*

Ümumtəhsil məktəblərində şagirdlərin fiziki tərbiyə sahəsində qarşıda duran vəzifələrin həyata keçirilməsində fiziki tərbiyə dərslərinin səmərəli təşkili mühüm əhəmiyyətə malikdir. Müşahidələr göstərir ki, fiziki tərbiyə dərsləri yüksək səviyyədə keçirilsə də bu sahədə tələb olunan məqsədi tam surətdə yerinə yetirmək olduqca çətindir. İndiki şəraitdə isə yeniyetmə və gənclərin fiziki inkişafını, fiziki hazırlığını, fiziki keyfiyyətlərini və fiziki qabiliyyətlərini (cəldlik, çeviklik, elastiklik, dözümlülük, qüvvə və s.) daha da yüksəltmək fiziki tərbiyə müəllimlərindən çox ciddi sürətdə tələb edilir. Bu mənada şagirdlərin müstəqil məşğul olması üçün fiziki tərbiyə üzrə ev tapşırıqları vermək xüsusən vacibdir. Lakin bu sahədəki tədbirlərin müntəzəm, ardıcıl və sistemlə həyata keçirilməsi çox təəssüf ki, lazımı səviyyədə deyil, narahatlıq doğurur. Belə çatışmazlığa bir tərəfdən məktəbdə, istər ailədə və istərsə də mənzil-istismar idarələrində və bələdiyyələrdə diqqət yetirilməməsi ilə sıx əlaqədardırsa, digər tərəfdən də qabaqcıl təcrübədən lazımınca istifadə edilməməsindədir. Eyni zamanda müstəqil icra olunmalı ev tapşırıqlarına nəzarət və gündəlik tələbatın zəif olmasındadır.

Fiziki tərbiyə üzrə ev tapşırıqlarının şagirdlərin asudə vaxtlarının məzmunlu, faydalı keçməsindəki rolunu fiziki mədəniyyətin insan həyatındakı dəyərini şüurlu olaraq dərk etdiklərin; həmçinin onlar da öz sağlamlıqlarına qayğı ilə yanaşmaq bacarığını tərbiyə etdiyini nəzərə alaraq bu işin sistemlə aparılmasına zəruri nəzarətin və rəhbərliyin olması müasir tələbatdan irəli gəlir.

epiya ilə orfoqrafiyanın normalaşdırılması deməkdir, yəni şifahi nitqlə onun süni, sabit olmayan yazılı forması arasındakı qarşılıqlı uyğunlaşdırma cəhdidir və "*belə uyğunlaşdırma fasiləsiz həyata keçirilməlidir, çünki belə edilməsə, yazılı nitq quruyub qalar və müəyyən zamandan sonra xalq üçün tamamilə anlaşılmaz ola bilər*" [13, s. 16]. Müşahidələrimiz göstərir ki, orta əsr Azərbaycan-türk yazılı abidələrində tez-tez qarşımıza çıxan imla səhvləri, orfoqrafik yayınmalar mövcud problemlərlə əlaqədar olaraq Ç. Loukotkanın fikri ilə müəyyən dərəcədə səsləşmiş olur. Fikrimizcə, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılan əlyazma mətnlərində rast gəlinən bu cür imla pərakəndəliyi, ola bilsin ki, mətni köçürən katiblərin fərdi yanaşmaları ilə bərabər, həm də onların norma axtarışları kimi də dəyərləndirilə bilər. Alim və ədiblər kimi onların əsərlərinin üzünü köçürdən katiblər də norma haqqında heç də az düşünməmişlər. Ancaq "*yazıda daha çox mühafizəkarlığa yer verilməsi normalaşdırmada tərəddüdlərin üstünlük təşkil etməsinə səbəb olurdu*" [2, s. 146] və bu məsələyə haqlı yanaşan E.A. Qrunina hesab edirdi ki, yazı normalarının mühafizəkarlığı ucbatından orta əsrlərə aid nitq sahəsindəki bəzi formaların ədəbi dilə nüfuz etməsi gecikdirilirdi [11, s. 113]. Bütövlükdə ümumən orta əsr Azərbaycan ədəbi dilində fonetik normanın ləngiməsinin əsas səbəblərindən biri məhz "*ərəb qrafik sistemi ilə milli fonoqrafik sistemimiz arasında qeyri-uyğunluqların olması ilə bağlıdır*" [11, s. 113] və mövcud vəziyyət, imla sabitsizliyi qismən dolaşıqlığa meydan açırdı. Bu dolaşıqlıq ondan yaranırdı ki, bir çox alimlər yazını canlı danışıq dili ilə paralel araşdırsalar da, onu ayrıca öyrənmirlər. Belə ki, yazılı abidələrin dilində təsadüf edilən "xatın" خاطون, "özün" اوزی, urdu اوردی , yazıya یازویه deyildiyi halda yazıda fərqli fonetik şəkillərini müşahidə edirik. Göründüyü kimi, burda verilən nümunələr canlı danışıq dilinin, əski yazı ilə verilən variantlar isə normalaşdırılmış yazılı ədəbi dilin vahididir. Yazı ilə tələffüz arasındakı bu fərqlilik çox vaxt yazıda ənənənin qorunması ilə izah olunur və "yazıda belə bir ənənə davam edirdisə, deməli həmin dövrdə elə nitq mədəniyyətini özündə əks etdirmişdir, müasir tədqiqatçının da vəzifəsi bu normalaşdırılmış nitq mədəniyyətini yazıda həkk olunmuş şəkildə bərpa etməkdən ibarətdir" və L.P. Şerbanın qeyd etdiyi kimi, əksər hallarda əcdadlarımız nahaqdan belə yazmamışlar, hətta, yazdıqları formalarda tələffüz edirmişlər. "*Düzdür, bu həmişə belə olmur, ancaq çox vaxt köhnə dilin inikasıdır*" [2, s. 147] .

Bütün tarixi mərhələlərdə Azərbaycan ədəbi dilinin fonetik norması üçün ümumtürk xüsusiyyətləri əsas götürülmüş və ədəbi dilin norma sistemində gedən milliləşmə prosesi həmin xüsusiyyətləri möhkəmləndirərək daha da funksiollaşdırmışdır. Belə ki, "*Azərbaycan dilinin fonetik quruluşunda türk dilləri prototipinin fonetik xüsusiyyətləri başqa türk dillərində olduğu kimi yaşamaqda və mürəkkəb sövti hadisələr və xüsusiyyətlər qammasında aydın surətdə hiss edilməkdədir*" [12, s. 54]. Orta əsrlərdən başlayaraq milliləşmə prosesi prinsip etibarilə şifahi ədəbi dilin yazılı ədəbi dilə təsirini gücləndirdikcə fonetik norma sürətlə canlı xalq danışıq dilinə yaxınlaşmağa başlayır. Bu da ədəbi dilin fonetik normasında milliləşmə istiqamətində gedən inkişafı izləməyə çətinlik törədir, hətta mənbələrin orfoqrafiyasında bir sıra problemlərin [saitlərin adekvat ifadəsinin mümkünsüzlüyü, yaxud, eyni bir hərflə müxtəlif səslərin ifadə edilməsi, hər bir hərfin yazıda üç formada – söz əvvəlində, söz ortasında və söz sonunda yazılışı, bir səsin bir neçə işarəsinin varlığı və s. meydana gəlməsinə səbəb olur. Bu problemin çıxış yolunu N. Cəfərov fonoqrafik şərh imkanından istifadə etməklə müəyyən qədər aradan qaldırmaq olduğunu vurğulayırdı və belə şərh edirdi ki, "*Fonoqrafik şərh dedikdə fonem-qrafem münasibətlərində dialektik baxımdan yanaşmaq, fonemlə qrafemin tarixən şərtlənən əlaqələrini analitik qaydada hər birinin özünəməxsus funksiyalarını nəzərə almaqla təhlil etmək başa düşülür*" [5, s. 51].

Azərbaycan ədəbi dilinin inkişaf tarixində fonetik norma üçün mühüm əlamət bütün dövrlərdə olduğu kim katiblər tərəfindən bir sözün iki və daha artıq qrafik şəkillərdə yazıldığı müşahidə olunmaqdadır: *Qamı, qəmu, xamu, xəmü, hamı; kibi, kimi, biki.* Bu qrafik variantlar Rövşəninin dilində bilərəkdən istifadə edilərək sözlərin istər-istəməz bu məsələ ilə bağlı suallar meydana çıxır: o dövrün savadlı katibi olan Kişvəri öz avtoqraf divanında nə üçün eyni sözləri müxtəlif qrafik şəkillərdə yazmışdır? Yaxud, bunu həmin dövrdəki orfoqrafik sabitsizliklə əlaqələndirmək nə dərəcədə doğrudur? Fikrimizi konkret olaraq birbaşa XIII-XVIII əsrlərə aid

yazılı mənbələrimiz üzərində ümumiləşdirsək, belə izah etmək olar ki, orta əsr yazılı mətnlərinin səciyyəvi xüsusiyyəti sırasında müşahidə olunan orfoqrafik imla sabitsizliklə yanaşı, həmçinin, eyni sözlərin müxtəlif şəkillərdə yazılması istər "*müxtəlif türk dillərində, eləcə də Azərbaycan dilinin ayrı-ayrı şivələrində fərqli şəkildə tələffüz olunmasını göstərmək niyyətindən irəli gəlmişdir*" [9, s. 77]. Xalq danışıq dili ilə ədəbi dilin variantlarının belə növbələşməsi nəticəsində yaranan sözlərin yazı və danışıq normalarının müxtəlifliyinə toxunan akademik T. Hacıyevin hesab edir ki, "*bizdə vaxtilə qədimə gedən ümumi ədəbi türkcənin üstündə duran sərt ədəbi dil norması olmuş, yerli danışıq zaman-zaman, tədricən oraya daxil edilmişdir"*[6, s. 202].

Göründüyü kimi, bütün bu problemlərin nəticəsi olaraq, yazılı ədəbi dilimizin əmələ gəldiyi və formalaşdığı dövrdən başlayaraq XX əsrin 30-cu illərinə qədər ərəb əlifbası Azərbaycan dilinin yazısında, orfoqrafiyasında uyğunsuzluqlar əmələ gətirmiş, ədəbi dilin inkişafına, xalq dilinə yaxınlaşmasına müəyyən əngəllər törətmiş, dilin fonetik xüsusiyyətlərini tam əks etdirə bilməmiş və ədəbi dilin inkişafına mane olmuşdur. Bu da dilin, xüsusilə, ədəbi dilin inkişafında əlifbanın nə qədər böyük əhəmiyyətə malik olduğunun əyani göstəricisidir. Hətta ərəb əlifbasının qüsurlu və çətin olduğundan şikayətlənən F. Engels 1853-cü ildə K. Marksa məktub yazaraq onu pisləmiş və tənqid etmişdir: "*Bütün 6 hərfi tamamilə bir şəkildə olan və sait hərfləri olmayan lənətlənmiş ərəb əlifbası olmasa idi, mən 48 saatın içərisində bütün qrammatikanı öyrənərdim*" [3, s. 8]. Azərbaycan ədəbi dilinin tarixində də müxtəlif dövrlərdə ədiblər tərəfindən ərəb əlifbası dəfələrlə tənqid edilmiş, Azərbaycan dilinə yaramadığı, nöqsanlı olduğunu göstərilmiş, ərəb əlifbasının yazıdan uyğunsuzluğundan şikayətlənmişlər. Məsələn; XVI əsrdə bu uyğunsuzluqdan şikayət edən M. Füzulinin ideyasının davamını XIX əsrin ortalarında M.F. Axundov ərəb əlifbasının yazıdan çıxarılması və fonetik prinsipli əlifba ilə əvəz edilməsi sahəsində bir sıra təşəbbüslər irəli sürmüşdür. "Əkinçi" qəzeti də M.F. Axundovun əlifba haqqında fikirlərini müdafiə etmiş, dövrü mətbu orqanlarında müzakirəyə çıxarılmışdır. Lakin əlifba haqqında bu fikir və təşəbbüslər nəticəsiz qalmış, o dövrkü ictimai-siyasi mühit əlifba islahatı aparmasına, dilimizin fonetik xüsusiyyətlərinə uyğun yeni əlifba yaradılmasına mane olmuş, ərəb əlifbası yazıda yenə də saxlanılmışdır.

Ümumiyyətlə, ərəb əlifbasının əleyhinə yazılan məqalə və digər materiallarda göstərilən nöqsanlar bütün dövrlərdə eyni mənzərə müşahidə olunur, pərakəndəliyə meydan açan bir sıra nöqsanları ilə diqqəti cəlb edir, ərəb əlifbasının dəyişdirilməsi haqqında mövqelər möhkəmlənirdi. Belə ki, Azərbaycanda XIX əsrin sonlarında M.F. Axundzadə ilə başlayan ərəb əlifbasının islah edilməsi, yeni əlifbanın (latın) qəbulu kimi məsələlər XX əsrin əvvəllərində də aktuallığını saxlamaqda idi. Ərəb əlifbasından latın əlifbasına keçid məsələləri Azərbaycan Xalq Cümhuriyyəti dönəmində də çox qızğın şəkildə müzakirə olunurdu. Bu dövrdə Azərbaycanda ərəb əlifbasından latın əlifbasına keçilməsi prosesi çox geniş vüsət almaqda idi. Yeni əlifbaya keçidlə bağlı vətənpərvər ziyalı Fərhad Ağazadənin fikirləri maraq doğurur, mətbu orqanlarda tez-tez əlifba ilə bağlı məlumatlar verir, təklif olunan əlifba layihələri haqqında maarifləndirici çıxışlar edir, demək olar ki, əlifba məsələsini daim mətbuatın diqqət mərkəzində saxlayırdı.

"Nə üçün getdikcə ərəb əlifbasının meydanı daralır?", yaxud "Nə üçün hər iki əlifba finikiya-yəhudi əlifbasından yarandığı halda ərəb əlifbası tənəzzül, latın əlifbası tərəqqi edir?" sualına cavab axtaran F. Ağazadə ərəb əlifbasının qüsurlarını (و "vav"- hərfi 5 səs – v, o, ö, u, ü səslərini ifadə etməsi; ا "əlif"in 10 vəzifəsi var, ى "yə"- hərfi – y, i, ı , ه "ha"- hərfi – h, ə, a səslərinin yerində işlənməsi; ط ta, ص sad hərflərinin, ت te, س sin hərflərinin həmcins səs olduğundan hansının nə vaxt yazılması və s.) bir-bir sayaraq latın əlifbasının üstünlüyünü elmi əsaslarla vurğulayır: "*Latın əlifbasına tərcih ona görə verilmişdir ki, o yer üzündəki əlifbaların ən mükəmməlidir*". Sonra müəllif latın əlifbasına keçid prosesində Azərbaycan məkanının darlığı məsələsinə gəldikdə isə qeyd edir ki, "*azərbaycanlılar 50 illik milli teatra malikdir; digər türk millətlərindən qabaq Quranı tərcümə edib, 15 illik milli operası var, Darüfünunu yaratmışlar və latın hürufatının birinci tərəfdarı Azərbaycan olmuşdur. Bu məsələnin 65 illik tarixi var. Sonda məsələnin inqilab və ya təkamül yolu ilə həll edilməsi barədə fikirlər yürüdür və bu nəticəyə gəlir ki, mədəni işlərin ən qısa yolu inqilab yoludur. Arzu edərik ki, vətənimiz Azərbaycanda tərtib etdiyimiz əlifbanı inqilab yolu*

ilə qəbul etdirə idilər ki, bundan başqa və gödək yolumuz bu qədər" (14).

Artıq əlifba məsələsinin kifayət qədər cəmiyyətdə müzakirə obyektinə çevrilir və 1919-cu il martın 21-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ərəb əlifbası islahatı üzrə komissiyanın yaradılması haqqında" qərar qəbul edilir, Xudadat bəy Məlikaslanovla birlikdə əlifba islahatı ilə bağlı xüsusi komissiyanın yaradılması xalq maarifi nazirinə həvalə edilir. Bu qərara uyğun olaraq xüsusi komissiya yaradılır və hökumət tərəfindən yaradılan komissiyaya 3 layihə daxil olur (bunlardan biri Abdulla bəy Əfəndizadənin, digəri Məhəmməd ağa Şahtaxtlının və üçüncüsü Abdulla Tağızadə ilə Mir Əbdüləziz Seyidovun birlikdə təqdim etdikləri layihələr idi). Uzun müddət davam edən müzakirələrdən sonra Abdulla bəy Əfəndizadənin layihəsi qəbul edilir və onun "Son türk əlifbası" adı ilə çapına icazə verilir. Layihənin ölkə miqyasında tətbiq edilməsi üçün parlamentə müraciət edilir. Lakin bu məsələnin parlamentdə müzakirəsinə imkan olmur və 1920-ci il aprelin 28-də Azərbaycanda hakimiyyət çevrilişi baş verir, layihə tətbiq olunmur (7).

Azərbaycan dilinin sonrakı inkişaf dövrlərində əlifba məsələsi aktuallığını saxlasa da, müxtəlif illərdə ərəb, latın və kiril qrafikalı əlifbalardan istifadə olunmuşdur. 1991-ci ildə Azərbaycan Respublikası yenidən müstəqilliyini bərpa etdikdən sonra milli ideologiyanın əsasını təşkil edən dil və əlifba məsələsi geniş müzakirəyə çıxarıldı və Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 dekabr 1991-ci ildə qüvvəyə minən "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" qanununa əsasən ölkəmiz rəsmi olaraq latın qrafikalı əlifbaya keçdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dönəmində Azərbaycan dili və Azərbaycan əlifbası məsələsi daim diqqət mərkəzində saxlanmış, yüksək həssaslıqla "azərbaycançılıq" ideologiyasının əsasını təşkil etmişdir. Bu sahədə verilən hər bir qərarda Azərbaycan dilinin milli-mənəvi və siyasi-hüquqi statusunun bərpası istiqamətində atılan mühüm addımlardan biri kimi onun tarixi inkişaf mərhələləri, eləcə də müstəqil dövlətin əsas atributlarından biri kimi rolu və funksiyaları xüsusi vurğulanmış, əvvəlki on illik dövrdə dilin tətbiqi vəziyyəti ətraflı şəkildə təhlil olunmuşdur. Bu prosesdə mövcud çətinliklər və nöqsanlar da müəyyənləşdirilərək onların aradan qaldırılması üçün zəruri tapşırıqlar verilmişdir. Bildirilir ki, müstəqillik əldə olunduqdan sonra formalaşan yeni tarixi şərait xalqımızın qlobal yazı sisteminə inteqrasiyasına şərait yaratmış və latın qrafikalı əlifbanın bərpasını zərurətə çevirmişdir. Bu amil öz növbəsində dil haqqında qanunun və digər normativ sənədlərin qəbulu prosesini sürətləndirmişdir. Yeni əlifba layihəsinin hazırlanması və Azərbaycan dili haqqında qanunun tərtibi ilə yanaşı, latın qrafikasına keçid, dilin daha geniş və fəal şəkildə işlədilməsi, ictimai və digər funksiyalarının genişləndirilməsi istiqamətində də ciddi addımlar atılmışdır.

2001-ci il 18 iyun tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Prezident Fərmanında digər strateji məsələlərlə yanaşı, Azərbaycan dilçiliyində müşahidə olunan durğunluğun aradan qaldırılması və bu sahədəki mövcud problemlərin sistemli şəkildə həllinə yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Fərmanda həmçinin latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesinin yekunlaşdırılması tapşırılmış və bu prosesdə Ümummilli Lider Heydər Əliyev tərəfindən tarixilik prinsipi ilə real ictimai-siyasi şərtlər əsas götürülmüşdür. Latın qrafikasına əsaslanan əlifbaya keçid həm beynəlxalq kommunikasiyaya inteqrasiyanı sürətləndirmək, həm də yazı sisteminin modernləşdirilməsini təmin etmək baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bu xüsusda qeyd edilən fərmanın qəbul edilməsi yeni əlifbanın tətbiqi zamanı üzə çıxan institusional və praktik problemlərin aradan qaldırılmasında mühüm rol oynamışdır.

Fərmana uyğun olaraq, təxminən on illik keçid dövründən sonra 2001-ci ilin avqust ayından etibarən ölkədə latın qrafikalı əlifbaya tam keçid təmin olunmuşdur. Yeni əlifbanın tətbiqi təkcə texniki dəyişiklik deyil, həm də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında və yazı mədəniyyətinin inkişaf tarixində əlamətdar mərhələ kimi dəyərləndirilmişdir. Məhz bu səbəbdən, Prezidentin müvafiq qərarı ilə hər il avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilməyə başlanmışdır. Fərmanın tarixi əhəmiyyəti ondadır ki, o, dövlətin bütün idarəetmə strukturlarını səfərbər etmiş, uzunmüddətli tərəddüdlərə son qoyaraq əlifba islahatını milli dövlətçiliyin siyasi və ideoloji maraqları kontekstində uğurla yekunlaşdırmışdır.

Nəticə olaraq, bu uğurlu siyasətin məntiqi davamı kimi 2001-ci il 9 avqust tarixində Ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" əlavə Fərman imzalanmış və beləliklə, əlifba islahatı həm hüquqi, həm də simvolik məna daşıyan bir mərhələyə çatdırılmışdır.

Problemin aktuallığı. Azərbaycan ədəbi dilinin təşəkkül və inkişaf mərhələləri ilə əlifba dəyişiklikləri arasında mövcud olan qarşılıqlı əlaqə dil tarixinin mühüm istiqamətlərindən biridir. Tarixən istifadə olunmuş müxtəlif qrafik sistemlər – ərəb, latın və kiril əlifbaları dilin fonetik strukturuna, orfoqrafik norma sisteminə və ümumilikdə yazılı ədəbi dilə əhəmiyyətli təsir göstərmişdir. Bu təsir xüsusilə ərəb əlifbasının fonetik cəhətdən Azərbaycan dili ilə uyğunsuzluğu fonunda daha da qabarıq şəkildə müşahidə olunur. Müasir mərhələdə dilin standartlaşdırılması, yazı mədəniyyətinin qorunması və inkişaf etdirilməsi fonunda əlifba məsələsinin tarixi-funksional aspektdən yenidən elmi təhlilinə ehtiyac vardır. Qloballaşma, rəqəmsallaşma və milli identiklik kimi çağdaş ictimai-siyasi çağırışlar kontekstində bu problemin aktuallığı daha da artmışdır.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi, əlifba ilə fonetik norma və orfoqrafik sabitlik arasında mövcud olan qarşılıqlı əlaqələrin ilk dəfə olaraq tarixi mənbələr və konkret dil faktları əsasında kompleks şəkildə araşdırılması ilə şərtlənir. Ərəb əlifbasının tətbiqi dövründə müşahidə olunan orfoqrafik qeyri-sabitliyin yalnız texniki və ya təsadüfi amillərlə deyil, həm də katiblərin norma axtarışları və fərdi yazı praktikaları ilə əlaqələndirilməsi bu problemin yeni baxış bucağından təhlilinə şərait yaradır. Eyni zamanda, yazılı və şifahi dil münasibətlərinin qarşılıqlı təsiri, fonetik xüsusiyyətlərin əlifba vasitəsilə ifadə olunmasında baş verən çətinliklər və bu çətinliklərin dilin norma sistemində yaratdığı ziddiyyətlər konseptual olaraq araşdırılır. Əlifba islahatlarının ideoloji, siyasi və mədəni kontekstdə təhlili isə mövzuya interdisiplinar yanaşma imkanlarını genişləndirir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri Azərbaycan dili üzrə fonetika, orfoqrafiya və ədəbi dil tarixi sahələrində aparılan elmi araşdırmalar, normativ sənədlərin hazırlanması və dil tədrisi üçün mühüm metodoloji baza təşkil edir. Əlifba dəyişikliklərinin yazılı abidələrdəki qrafik qeyri-sabitliklər və fonetik uyğunsuzluqlarla bağlı yaratdığı problemlərin elmi əsaslarla izahı, həm transliterasiya və transkripsiya metodikasının təkmilləşdirilməsinə, həm də qədim mətnlərin müasir oxucu üçün anlaşıqlı təqdiminə töhfə verə bilər. Bununla yanaşı, dilin inkişafında əlifbanın strateji rolu məsələsinin kompleks şəkildə araşdırılması, dövlət dil siyasətində, yazı mədəniyyətinin qorunmasında və milli-mənəvi identikliyin möhkəmləndirilməsində praktik əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Abdullayeva Q. XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik norma demokratizmi: monoqrafiya (yenidən işlənmiş təkrar nəşr). –Bakı: Elm və təhsil, –2019.
2. Adilov M. Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri. –Bakı: Nurlan, –2002.
3. Azərbaycan ədəbi dilinin tarixi (sovet dövrü). –Bakı: Elm, –1982.
4. Azərbaycan ədəbiyyatı tarixi: [Üç cilddə]. Bakı: SSR Elmlər Akademiyasının nəşri, Qədim dövrdən XVIII əsrə qədər, c.1. –1960.
5. Cəfərov S. Müasir Azərbaycan dili. –Bakı: Maarif, –1982.
6. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi [iki hissədə]. –Bakı: Elm, –2012.
7. İbrahimov E. Azərbaycan Xalq Cümhuriyyətinin dil və əlifba qərarları. https://www.anl.az/down/meqale/525/2018/may/591791.htm
8. Nağıyev M.Z. XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri (tekstoloji tədqiqi, tərcümə və dil xüsusiyyətləri). –Bakı, 1994.
9. Nağısoylu M.Z. XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə". –Bakı: Nurlan, –2003.
10. Воевудский, И.Н. Палеография иудейско-итальянских текстов. Письменные памятники Востока // – Москва: Историко-филологические исследования, –1987.
11. Грунина, Э.А. О языке ранних турецких хроник. -Москва: Средневековый Восток. История. Культура. Источниковедение, –1980.
12. Лайонз, Дж. Введение в теоретическую лингвистику. –Москва: Прогресс, –1978.
13. Лоукотка Ч. Развитие письма. –Москва, 1950.
14. http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%20%202012%20%202/5-12.pdf

Redaksiyaya daxil olub: 08.10.2025

UOT 811.111:378.147.091

Əsmət İdris qızı İsmayılxanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1151-4440
E-mail:a.ismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).278-282

ŞAGİRDLƏRƏ FƏRDİ YANAŞMA PRİNSİPİNDƏ İKT-nin ƏHƏMİYYƏTİ

Asmet Idris Ismayilkhanova
Associate professor of Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

THE SIGNIFICANCE OF ICT IN ADOPTING AN INDIVIDUALIZED APPROACH TO STUDENT LEARNING

Асмет Идрис гызы Исмаилханова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ЗНАЧЕНИЕ ИКТ В ПРИНЦИПЕ ИНДИВИДУАЛЬНОГО ПОДХОДА К УЧАЩИМСЯ

Xülasə. Müəllif yazdığı bu məqalədə çox aktual məsələyə toxunmuşdur. Fərdi yanaşma prinsipinin tətbiq edilməsi təlim prosesində mühüm amildir. O qeyd edir ki, təlim prosesində fərdi yanaşma dedikdə şagirdlərin həm şəxsi keyfiyyətinə, həm də şəxsi ehtiyacına uyğun təhsil verilməsi nəzərdə tutulur. Bu cür yanaşma onların əqli, emosional, fərdi və sosial inkişafını nəzərə alır. İstənilən hər bir şagirdin bacarığı, təhsil alma tərzi, vərdişi və öyrənmə sürəti fərqli olduğundan təlim prosesində bu fərqlilik müəllim tərəfindən hökmən nəzərə alınmalıdır. Fərdi yanaşma prinsipi hər bir şagirdin şəxsi potensialının reallaşdırılmasına imkan verir. Müəllif qeyd edir ki, təhsil sahəsində fərdi yanaşma prinsipinin reallaşdırılmasında İKT xüsusi əhəmiyyət kəsb edir. Bildiyimiz kimi fərdi yanaşma prinsipinin tətbiq edilməsi hər bir şagirdin xüsusi maraq, ehtiyac və öyrənmə sürətinə uyğun təhsil verməyi tələb edir ki, bu ehtiyacın ödənməsində əsas vasitə İKT-dir. Təlim prosesində İKT-nin tətbiq edilməsi şagirdlərə əlavə resurslardan istifadə etmək, mövzunu öz sürətlərində öyrənmək, dərsi fərdiləşdirmək və təlim prosesini öz maraqlarına xidmət edəcək hala gətirmək imkanı yaradır. Bu zaman şagirdin təlim prosesinə olan marağı artır, öyrənmə səviyyələri yüksəlir və təlim nəticələri müsbətə doğru dəyişir.

Müəllifin fikrincə təlim prosesində fərdi yanaşmanın tətbiq edilməsi şagirdlərin motivasiyalı, müstəqil təhsil almasını təmin edir. Bu sahədə İKT-nin verdiyi dəstək böyük əhəmiyyət kəsb edir.

Açar sözlər. *Fərdi yanaşma, simulyasiya, motivasiya, İnformasiya Kommunikasiya Texnologiyaları, sosial interaksiya, rəqəmsal alətlər*

Abstract. The author of the article addresses the critical topic of individualized instruction, an essential factor in the educational process. The author posits that an individualized approach entails tailoring education to meet both the personal qualities and specific needs of each student. This method considers their intellectual, emotional, personal, and social development. Given that every student possesses unique abilities, learning styles, habits, and paces, it is imperative for teachers to acknowledge and accommodate these differences. An individualized approach empowers each student to realize their full potential.

The author emphasizes the special importance of Information and Communication Technology (ICT) in implementing this individualized approach within education. Fulfilling the demands of personalized learning – which requires catering to each student's unique interests, needs, and learning speed – is made possible primarily through ICT. Integrating ICT into the learning process allows students to access additional resources, master subjects at their own pace, and customize their lessons, thereby aligning the educational experience with their personal interests. This, in turn, boosts student engagement, enhances learning outcomes, and leads to more positive academic results.

Ultimately, the author believes that applying an individualized approach fosters motivated, independent learners, with the support provided by ICT in this endeavour being of paramount importance.

Keywords: i*ndividualized approach, simulation, motivation, Information and Communication Technologies (ICT), social interaction, digital tools.*

Аннотация. Автор статьи затрагивает важную тему индивидуального подхода к обучению, который является значимым фактором в образовательном процессе. Автор полагает, что индивидуальный подход предполагает адаптацию образования к личным качествам и конкретным потребностям каждого ученика. При этом учитывается их интеллектуальное, эмоциональное, личностное и социальное развитие. Принимая во внимание, что каждый учащийся обладает уникальными способностями, стилем обучения, навыком и темпом, учителям крайне важно признавать и учитывать эти различия. Индивидуальный подход даёт каждому учащемуся возможность полностью раскрыть свой потенциал.

Автор подчёркивает особую важность информационно-коммуникационных технологий (ИКТ) для реализации этого индивидуального подхода в образовании. Удовлетворение потребностей персонализированного обучения, которое требует учёта уникальных интересов, потребностей и скорости обучения каждого учащегося, становится возможным в первую очередь благодаря ИКТ. Интеграция ИКТ в процесс обучения позволяет учащимся получать доступ к дополнительным ресурсам, осваивать предметы в своём собственном темпе и настраивать уроки под себя, тем самым приводя образовательный опыт в соответствие со своими личными интересами. Это, в свою очередь, повышает вовлеченность учащихся, улучшает результаты обучения и приводит к более положительным академическим результатам.

В конечном итоге автор считает, что применение индивидуального подхода способствует формированию мотивированных, самостоятельных учащихся, причём поддержка со стороны ИКТ в этом начинании имеет первостепенное значение.

Ключевые слова: *индивидуальный подход, моделирование, мотивация, информационно-коммуникационные технологии (ИКТ), социальное взаимодействие, цифровые инструменты*

Təlim prosesində fərdi yanaşma dedikdə şagirdlərin həm şəxsi keyfiyyətinə, həm də şəxsi ehtiyacına uyğun təhsil verilməsi nəzərdə tutulur. Bu cür yanaşma onların əqli, emosional, fərdi və sosial inkişafını nəzərə alır. İstənilən hər bir şagirdin bacarığı, təhsil alma tərzi, vərdişi və öyrənmə sürəti fərqli olduğundan təlim prosesində bu fərqlilik müəllim tərəfindən hökmən nəzərə alınmalıdır. Fərdi yanaşma prinsipi hər bir şagirdin şəxsi potensialının reallaşdırılmasına imkan verir. Fərdi yanaşma prinsipini tətbiq etməkdə əsas məqsəd şagirdlərin fərdi ehtiyacına uyğun təlim metodlarının seçilməsidir. Bu cür yanaşma şagirdlərin maraqlarına müvafiq olaraq dərsə qatılmasına, təlim materiallarını bacardığı sürətdə mənimsəməsinə imkan yaradır. Belə olduqda şagirdin təlim prosesinə olan motivasiyası artır, daha səmərəli öyrənmə nəticələri əldə edirlər. Bunu aşağıdakı kimi izah etmək olar:

- fərdi yanaşma prosesində şagird təlim prosesinə daha tez adaptasiya olunur və təlim prosesindən daha səmərəli faydalanır;

- təlim prosesi şagirdlərin maraq və ehtiyaclarına uyğun olaraq fərdiləşdirilir ki, bu zaman onlar təlim prosesində daha fəal iştirak edirlər;

- hər bir şagirdə özlərinin öyrənmə proseslərini idarə etməyə imkan yaradılır və onlarda müstəqillik və özgüvən hissləri formalaşdırılır.

Fərdi yanaşma prinsipinin tətbiq edilməsi təlim mühitini daha çevik və şəffaf hala gətirir və bunun üçün əlavə resurslara və müasir təlim texnologiyalarına ehtiyac duyulur. Bu sahədə əsas dəstək aləti İnformasiya və Kommunikasiya Texnologiyalarıdır (İKT).

Qeyd edək ki, təhsil sahəsində fərdi ya-

naşma prinsipinin reallaşdırılmasında İKT xüsusi əhəmiyyət kəsb edir. Bildiyimiz kimi fərdi yanaşma prinsipinin tətbiq edilməsi hər bir şagirdin xüsusi maraq, ehtiyac və öyrənmə sürətinə uyğun təhsil verməyi tələb edir ki, bu ehtiyacın ödənməsində əsas vasitə İKT-dir. Təlim prosesində İKT-nin tətbiq edilməsi şagirdlərə əlavə resurslardan istifadə etmək, mövzunu öz sürətlərində öyrənmək, dərsi fərdiləşdirmək və təlim prosesini öz maraqlarına xidmət edəcək hala gətirmək imkanı yaradır. Bu zaman şagirdin təlim prosesinə olan marağı artır, öyrənmə səviyyələri yüksəlir və təlim nəticələri müsbətə doğru dəyişir. Bəs İKT şagirdlərin təlim nəticələrinə necə təsir göstərir?

1- İKT fərdi yanaşmaya imkan yaradır və şagirdlərə öyrənmə bacarığı qazandırır ki, onlar onlayn resurslardan istifadə etməklə mövzunu öz sürətində öyrənir, təlim materialları ilə işləyir və dərsi öz maraq və istəklərinə uyğun şəkildə fərdiləşdirirlər. Bu zaman şagirdlərdə öyrənmə motivasiyası yüksəlir.

2- İKT anında qiymətləndirməyə şərait yaradır. Avtomatlaşdırılan testlər, qiymətləndirmə sistemi şagirdə tez bir zamanda nəticəni öyrənməyə və özünün zəif və güclü tərəflərini müəyyənləşdirməyə yardım edir. Bu zaman şagirdə özünün təhsil prosesini idarə etməyə və inkişaf etdirməyə şərait yaranır.

3- İKT şagirdə istənilən təhsil resursunu əldə etməyə və lazım olan materialı asanlıqla tapmağa imkan yaradır. Hal-hazırda onlayn dərsliklər, interaktiv alətlər, video dərslər və başqa rəqəmsal resurslar şagirdlərin öz təlim proseslərini fərdiləşdirməyə və dərsləri daha dərindən mənimsəməyə imkan verir.

Hal-hazırda bir çox ümumtəhsil müəssisələri, ayrı-ayrı universitetlər fərdi yanaşma prinsipini tətbiq etmək məqsədilə onlayn təhsildən və e-öyrənmə platformasından səmərəli şəkildə istifadə edirlər.

Bu tip platformalar şagirdlərdə müxtəlif mənbələrdən istifadə edərək digər resurslara daxil olmaq, video dərslərlə təlimə davam etmək, onlayn formada dərsi dinləmək və öz sürətlərinə uyğun dərsi öyrənmək qabiliyyəti formalaşdırır. Şagirdlərə təlim prosesində təqdim edilən testlər, video dərslər, kurslar, qiymətləndirmə sistemləri və interaktiv alətlər onlara fərdi yanaşma tətbiq etmək üçün səmərəli vasitə hesab edilir. Eyni zamanda bu platformalar şagirdlərin öz biliyini test etməsinə və yerindəcə bu haqda bilgi almağa imkan yaradır. Bununla yanaşı onlayn təlim platformasında şagirdin fəaliyyətini izləmək və onların inkişaf tempini qiymətləndirmək mümkün olur.

Bu prosesdə şagirdlərdə müstəqil öyrənmə imkanı formalaşır və onlar təlim prosesinə daha fəal şəkildə adaptasiya olunurlar.

Hal-hazırda ölkəmizdə İKT-nin tətbiqi ilə təlim mühitində təcrübə laboratoriyaları və simulyasiyalar istifadəyə verilib. Şagirdlər laboratoriyalarda nəzəri cəhətdən öyrəndikləri elmi bilikləri praktikaya tətbiq etməklə praktiki təcrübələrini gücləndirir, müxtəlif təcrübələr əldə edirlər ki, bu şagirdlərə elmi təcrübədə aktiv iştirak etməyə imkan yaradır. Simulyasiya proqramlarının əsas vəzifəsi aparılan təcrübələri təhlükəsiz şəkildə həyata keçirməyə imkan yaratmaqdır. Belə olan təqdirdə şagirdlərdə analitik düşünmə qabiliyyəti inkişaf edir və onlar dərslərə daha da yaxından maraq göstərirlər.

Təlim prosesində İKT-nin tətbiq edilməsi şagirdlər arasında müzakirə və əməkdaşlıq mühiti yaradır. Yəni, virtual siniflər, onlayn forumlar, müzakirə qrupları, şagirdlərin digər yoldaşları ilə fikir mübadiləsi aparmalarına və əməkdaşlıq etmələrinə şərait yaradır. Bu zaman şagirdlərdə sosial bacarıqlar inkişaf edir, onlar təlim prosesində daha aktiv fəaliyyət göstərirlər. Yeni təlim texnologiyaları şagirdləri bir-birilə ayrı-ayrı mövzularda müzakirələr etməyə, müxtəlif layihələr üzərində kollektiv şəkildə çalışmalarına imkan verir. Şagirdlər arasında əməkdaşlığın mövcudluğu təlim prosesində onların fərdi inkişafına təkan verir.Təlim prosesini rollu oyunlar üzərində qurmaq da səmərə verən əsas metodlardandır. Oyunlaşdırma metodunun tətbiq edilməsi təlim prosesini daha əyləncəli edir və şagirdlər dərsdə daha həvəslə və aktiv iştirak edirlər. Bu metod təlim materialını daha motivəedici və cəlbedici edir. Müxtəlif tapşırıqları yerinə yetirərkən, rollu oyunlarda iştirak edərkən şagirdlər öz elmi biliklərini və dünyagörüşlərini də artırırlar. Həmçinin şagirdlər öyrənmə prosesinə daha aktiv qoşulurlar. Şagirdlərə öz tərzlərinə və öyrənmə sürətlərinə uyğun dərs proqramları hazırlamaq üçün fərdi öyrənmə planları imkan yaradır. Təlim prosesində hər şagirdə xüsusi təhsil planı verilir və verilmiş plan şagirdin inkişafına uyğun olaraq mütəmadi yenilənir. Hər bir fənn müəllimi şagirdin zəif və ya güclü tərəflərini izlədikdən sonra onlar üçün inkişaf

planları və fərdi tapşırıqlar hazırlayaraq təqdim edir.

Bir çox ölkələrin orta məktəblərində və universitetlərində də şagirdlərə müəllimləri tərəfindən fərdi öyrənmə planları hazırlanıb təqdim edilir. Buna misal olaraq İngiltərənin Kongs College London universitetini misal göstərə bilərik ki, burada da tələbələrə fərdi təhsil planı müəllimlər tərəfindən təqdim edilir. Verilmiş bu planlar şagirdlərin və ya tələbələrin təhsil maraqlarına və hədəflərinə uyğun tərtib edilir və özlərinin gələcək təhsil yollarını müəyyənləşdirməyə onlara imkan verir. Fənn müəllimləri şagirdlərdə olan irəliləyişi izləyərək planı mütəmadi olaraq yeniləyir və şagirdlərin inkişafını dəstəkləyirlər.

Azərbaycan Respublikasının təhsil sistemində də İKT-nin tətbiq olunması ilə əlaqəli fərdi yanaşmanın reallaşması istiqamətində çox mühüm işlər görülmüşdür. Bir sıra platformalar və təhsil müəssisələri fərdi yanaşma tətbiq edərək şagirdlərin təhsil prosesini daha səmərəli vəziyyətə gətirirlər.

İnteraktiv tədris alətləri və onlayn platformalar şagirdlərə həm sürətlərində,

həm də ehtiyaclarına uyğun təhsil almalarında yardımçı olur. Bu cür yanaşma şagirdlərin öyrənmə təcrübəsini müasir və çevik edir, eyni zamanda onların motivasiyasını artırır.

Azərbaycanın bir çox rayonlarının məktəblərində təhsil prosesinə İKT-nin daxil edilməsi ilə bərabər fərdi yanaşma tətbiq edilməkdədir. Artıq Bakı şəhərinin bütün məktəblərində həm elektron siniflər, həm də virtual tədris platformasından istifadə edilir. Tətbiq edilən bu platformalar dərslərin şagirdlər tərəfindən daha fəal və müstəqil öyrənmələrinə imkan yaradır.

Bu texnologiyaların köməyi ilə şagirdlər müxtəlif interaktiv resurslardan istifadə etməklə yanaşı, təlim prosesində də bütün müzakirələrdə fəal iştirak edirlər. Əlində materialı olmayan, yaxud dərsə gəlməyən şagird onlayn şəkildə video dərsləri izləyə bilər, dərsin mövzularına daxil olmaqla istədikləri mövzunu oxuya bilər. Şagirdlər interaktiv proqramların sayəsində dərsləri daha mükəmməl başa düşür və mövzuya dair sualları müəllimə yönləndirirlər. Bu şəraitdə onlar təlim prosesinə daxil olaraq mövzuları əhəmiyyətli dərəcədə mənimsəyirlər.

Təlim prosesində fərdi yanaşmanın tətbiq edilməsi şagirdlərin motivasiyalı, müstəqil təhsil almasını təmin edir. Bu sahədə İKT-nin verdiyi dəstək böyük əhəmiyyət kəsb edir. Onlayn təhsil platforması, qarışıq təhsil, oyunlaşdırma və simulyasiya kimi fərqli metodlar şagirdlərin təlim prosesində fərdi ehtiyaclarına uyğun olaraq təhsil almalarına, öyrənməyə daha fəal qoşulmalarına imkan yaradır. Bu cür yanaşma eyni zamanda şagirdlərin fərdi inkişafına da təkan verir.

İKT vasitələrinin köməyi ilə təşkil edilən təlim prosesinin məzmunu şagirdlərin təlimə daha fəal qoşulmalarına şərait yaradır. Bu şəraitdə aparılan dərslərdə verilən materiallar şagirdlər üçün daha cazibədar olur və təlimin keyfiyyət göstəriciləri yüksəlir. Eyni zamanda dərslərin məzmunu tədris materiallarını müxtəlif platformalarla və rəqəmsal alətlərlə zənginləşdirərək şagirdlərə fərdi öyrənmə imkanı yaradır. Dərslərin daha vizual və interaktiv olmasını təmin edir, şagirdlərin təlim prosesinə marağını artırır.

Hal-hazırda bir çox fənnlərdə olduğu kimi, tarix və ədəbiyyat dərslərində

Google Classroom və Moodle kimi onlayn dərs platformalarından istifadə edilir. Bütün dərs materialları və əlavə resurslar şagirdlərə bu platformalar vasitəsi ilə göndərilir və şagirdlər isə öz sürətlərinə müvafiq şəkildə dərs materiallarını araşdıraraq verilmiş testləri həll edirlər. Bu prosesdə müəllimlər şagirdlərdə baş verən irəliləyişləri izləyir, şagirdlər isə mövzuları təkrarlayaraq möhkəmləndirirlər.

Ədəbiyyat dərsində isə Google Meet və Edmodo platformalarında şagirdlər digər yoldaşları ilə müzakirələr aparır və istədikləri əsər, roman haqqında fikir mübadiləsi edirlər. Bu müzakirələr həm şagirdlərin inkişafını, həm də sosial interaksiyanı gücləndirir ki, bu şəraitdə şagirdlər bütün güclərini dərsdə fəal olmağa istiqamətləndirirlər.

İnformasiya kommunikasiya texnologiyalarının tətbiqi ilə aparılan dərslərdə şagirdlər daha çox maraqlı olur, dərsə fəal qatılır, müstəqil fikir yürüdürlər və onlarda dərketmə bacarıqları sürətlənir. Tədrisin keyfiyyəti yüksəlir və şagirdlər real həyatda qarşılaşacaqları bütün problemlərin həllinə hazırlanırlar.

Problemin aktuallığı. Təlim prosesində fərdi yanaşmanın tətbiq edilməsi şagirdlərin motivasiyalı, müstəqil təhsil almasını təmin edir. Bu sahədə İKT-nin verdiyi dəstək böyük aktuallıq kəsb edir. İKT-nin tətbiqi ilə aparılan dərslərdə şagirdlər daha çox

maraqlı olur, dərsə fəal qatılır, müstəqil fikir yürüdürlər və onlarda dərketmə bacarıqları sürətlənir.

Problemin elmi yeniliyi. İKT vasitələrinin köməyi ilə təşkil edilən təlim prosesinin məzmunu şagirdlərin təlimə daha fəal qoşulmalarına şərait yaradır. Bu şəraitdə aparılan dərslərdə verilən materiallar şagirdlər üçün daha cazibədar olur və təlimin keyfiyyət göstəriciləri yüksəlir.

Problemin praktik əhəmiyyəti. İKT-nin köməyi ilə şagirdlər müxtəlif interaktiv resurslardan istifadə etməklə yanaşı, təlim prosesində də bütün müzakirələrdə fəal iştirak edirlər. Əlində materialı olmayan, yaxud dərsə gəlməyən şagird onlayn şəkildə video dərsləri izləyə bilər, dərsin mövzularına daxil olmaqla istədikləri mövzunu oxuya bilər.

Ədəbiyyat

1. Babayeva Z. Rəqəmsal Əsrin Məktəbi-Elektron Təhsil Resursları Biologiyanın tədrisində // –Bakı: Elmi Əsərlər, –2020. № 3, –s. 17-23.
2. Əliyeva X., Əhmədov Z. İnformasiya-kommunikasiya texnologiyalarından istifadə vasitəsilə təlim prosesinin idarə olunması //- Bakı: Azərbaycan məktəbi, –2021. № 2 , –s. 66–72.
3. Əlizadə L. Tədris prosesində İKT-dən istifadə və onun pedaqoji əhəmiyyəti // –Bakı : Bakı Qızlar Universitetinin elmi əsərləri, – 2023. c.15, №2, –s.112-115.
4. Həmidova X. İnformasiya kommunikasiya texnologiyalarının təhsilə tətbiqi // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2018. c.85, №8, –s.304-307.

Redaksiyaya daxil olub: 26.09.2025

UOT 378.1. 372.1: 881.1

Elşən Rövşən oğlu Səfixanov
Quba rayonu Fərhad Həmzəyev adına
Digah kənd tam orta ümumtəhsil məktəbin riyaziyyat müəllimi
https://orcid.org/0009-0004-0458-6480
E-mail: elsen.sefixanov40@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).283-290

PEŞƏ TƏMAYÜLLÜ SİNİFLƏRİN İNKİŞAFINDA RƏQƏMSAL TEXNOLOGİYALAR VƏ DUAL TƏHSİL MEXANİZMİNİN ROLU: AZƏRBAYCAN TƏCRÜBƏSİ

Elshan Rovshan Safikhanov
mathematics teacher at the Secondary Comprehensive School after Farkhad Khamzaev in the village of Digakh, Guba District

THE ROLE OF DIGITAL TECHNOLOGIES AND DUAL EDUCATION MECHANISM IN THE DEVELOPMENT OF VOCATIONAL-ORIENTED CLASSES: THE EXPERIENCE OF AZERBAIJAN

Эльшан Ровшан оглы Сафиханов
учитель математики средней общеобразовательной школы имени Фархада Хамзаева села Дигях Губинского района

РОЛЬ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ И МЕХАНИЗМА ДУАЛЬНОГО ОБРАЗОВАНИЯ В РАЗВИТИИ ПРОФЕССИОНАЛЬНО-ОРИЕНТИРОВАННЫХ КЛАССОВ: ОПЫТ АЗЕРБАЙДЖАНА

Xülasə. Bu məqalə peşə təmayüllü siniflərin inkişafında rəqəmsal texnologiyalar və dual təhsil mexanizminin rolunu araşdırır. Tədqiqat beynəlxalq təcrübə və Azərbaycan məktəblərində pilot layihələrin təhlili əsasında hazırlanmışdır. Nəticələr göstərir ki, blended learning, virtual laboratoriyalar, dual təhsil proqramları və müəllim hazırlığı şagirdlərin praktiki bacarıqlarını və əmək bazarına adaptasiyasını əhəmiyyətli dərəcədə artırır. Dual təhsil modeli şagirdlərin həm nəzəri, həm də praktik bacarıqlarını balanslı şəkildə inkişaf etdirir. Məqalədə həmçinin müəllimlərin ixtisasartırma proqramlarının və işəgötürənlərlə əməkdaşlığın əhəmiyyəti vurğulanır. Təklif olunan model Azərbaycan məktəblərində peşə təhsili keyfiyyətini yüksəldir, şagirdlərin motivasiyasını artırır və əmək bazarında rəqabət qabiliyyətini təmin edir. Bu yanaşma həm elmi, həm də praktik baxımdan əsaslandırılmışdır və gələcək tədqiqatlar üçün istiqamət verir.
Açar sözlər: *Peşə təhsili, Dual təhsil, Blended learning, Virtual laboratoriyalar,Rəqəmsal texnologiyalar*

Abstract. This article examines the role of digital technologies and the dual education mechanism in the development of vocationally oriented classes. The study is based on an analysis of international practices and pilot projects in Azerbaijani schools. Findings indicate that blended learning, virtual laboratories, dual education programs, and teacher training significantly enhance students' practical skills and labor market adaptability. The dual education model ensures a balanced development of both theoretical and practical competencies. The importance of teacher professional development programs and collaboration with employers is also highlighted. The proposed model improves the quality of vocational education in Azerbaijani schools, increases student motivation, and ensures competitiveness in the labor market. This approach is scientifically and practically justified and provides directions for future research.

Keywords: *Vocational education, Dual education, Blended learning,Virtual laboratories,Digital technologies*

Аннотация. В данной статье рассматривается роль цифровых технологий и механизма дуального образования в развитии профессионально ориентированных классов. Исследование основано на анализе международного опыта и пилотных проектов в школах Азербайджана. Результаты показывают, что смешанное обучение, виртуальные лаборатории, программы дуального образования и повышение квалификации преподавателей значительно повышают практические навыки учеников и их адаптацию к требованиям рынка труда. Модель дуального образования обеспечивает сбалансированное развитие как теоретических, так и практических компетенций. Также подчеркивается важность программ повышения квалификации учителей и сотрудничества с работодателями. Предложенная модель повышает качество профессионального образования в школах Азербайджана, стимулирует мотивацию учеников и обеспечивает конкурентоспособность на рынке труда. Этот подход имеет научное и практическое обоснование и открывает направления для дальнейших исследований.

Ключевые слова: *профессиональное образование, дуальное образование,смешанное обучение,виртуальные лаборатории,цифровые технологии*

XXI əsrin sürətlə dəyişən sosial-iqtisadi reallıqları təhsilin ənənəvi formalarının modernizasiyasını zəruri etmişdir. Qloballaşma, texnoloji transformasiya və əmək bazarının çevikliyə əsaslanan yeni tələbləri məktəblərdə peşə təmayüllü təhsilin əhəmiyyətini daha da artırır. Sənaye 4.0 dövründə bilikdən çox bacarıqların və kompetensiyaların önə çıxması, şagirdlərin gələcək karyeraya adaptasiyası üçün təhsil sistemində fundamental dəyişikliklərin aparılmasını şərtləndirir (Prasetyo, Wibowo, & Nugraha, 2023).Müasir dünyada əmək bazarında gedən sürətli dəyişikliklər, rəqəmsallaşma, avtomatlaşdırma və süni intellektin tətbiqi ənənəvi təhsil modellərinə yenidən baxmağı zəruri etmişdir. Xüsusilə orta ümumtəhsil məktəblərində peşə təmayüllü siniflərin yaradılması bu dəyişikliklərə adaptasiya baxımından mühüm əhəmiyyət kəsb edir. Əmək bazarında tələb olunan bacarıqların artan dinamikası təhsilin yalnız nəzəri biliklərlə məhdudlaşmamasını, praktik vərdişlər və əmək bacarıqlarının şagirdlərə hələ məktəb dövründən aşılanmasını aktuallaşdırır (OECD, 2020).Araşdırmalar göstərir ki, XXI əsrin əsas kompetensiyaları – kritik düşüncə, yaradıcılıq, əməkdaşlıq və rəqəmsal savadlılıq – yalnız ümumi təhsil çərçivəsində deyil, həm də peşə yönümlü təhsil mexanizmləri vasitəsilə daha effektiv şəkildə inkişaf etdirilə bilər (World Bank, 2021). Bu mənada peşə təmayüllü siniflərin yaradılması həm milli təhsil sisteminin modernləşdirilməsi, həm də sosial-iqtisadi inkişafın sürətləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Eyni zamanda, son illərin elmi tədqiqatları göstərir ki, təhsildə peşə yönümlü yanaşmalar şagirdlərin motivasiyasını, məktəbdə qalıcılıq səviyyəsini artırır və gələcəkdə əmək bazarında daha uğurlu adaptasiya imkanları yaradır (Hanushek et al., 2017; Brunello & Rocco, 2021). Avropa İttifaqı və Asiya ölkələrinin təcrübələri də sübut edir ki, ümumi təhsil ilə peşə təmayüllü hazırlığın inteqrasiyası sosial inklüzivliyi gücləndirir, gənclərin erkən yaşda işsizliyinin qarşısını alır və iqtisadiyyatın müxtəlif sahələrinə ixtisaslı kadr axınını təmin edir (CEDEFOP, 2022).Azərbaycan kontekstində isə peşə təmayüllü siniflərin yaradılması son illərdə dövlətin təhsil siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Xüsusilə 2019-2023-cü illəri əhatə edən milli təhsil strategiyasında məktəb-mərkəzli peşə yönümlü proqramların təşkili və genişləndirilməsi əsas hədəflərdən biri kimi müəyyənləşdirilmişdir (Təhsil Nazirliyi, 2022). Bu yanaşma həm də regionlarda şagirdlərin bacarıqlarının inkişaf etdirilməsi və onların əmək bazarında daha çevik iştirakının təmin olunması baxımından mühüm alət kimi dəyərləndirilir. Beləliklə, peşə təmayüllü siniflərin inkişaf etdirilməsi yalnız pedaqoji bir məsələ deyil, həm də sosial-iqtisadi inkişafın, insan kapitalının gücləndirilməsinin və dayanıqlı gələcəyin təmin olunmasının açar mexanizmlərindən biridir. Məqalənin məqsədi – beynəlxalq təcrübə və müasir elmi yanaşmalar işığında peşə təmayüllü siniflərin təhsil sistemində rolu, üstünlükləri və inkişaf perspektivlərini araşdırmaqdır. Peşə təmayüllü siniflər ənənəvi orta təhsillə əmək bazarı arasında **körpü funksiyası** daşıyaraq, şagirdlərin gələcək peşə seçimlərinə hazırlıq prosesini dəstəkləyir. Lakin bu modelin effektivliyi yalnız bilik ötürülməsi ilə məhdudlaşmır; həmçinin şagirdlərin rəqəmsal savadlılıq, kritik düşüncə, problem həlli və əməkdaşlıq kimi XXI əsr bacarıqlarının inkişafına da bağlı-

dır (Rahman, 2024). Tədqiqatlar göstərir ki, rəqəmsal öyrənmə bacarıqları zəif olan peşə məktəbi şagirdlərinin akademik nailiyyətləri və kursu müvəffəqiyyətlə başa vurma faizləri əhəmiyyətli dərəcədə aşağı olur (Mabunda & Khoza, 2025). Müasir təhsil siyasətində əsas prioritetlərdən biri şagirdlərin yalnız nəzəri biliklərlə deyil, həm də **praktiki və texnoloji bacarıqlarla** silahlanmasıdır. Bu baxımdan "Təhsil 4.0" konsepsiyası bilik ötürülməsini deyil, şagirdin rəqəmsal ekosistemə inteqrasiyasını, davamlı öyrənmə qabiliyyətini və əmək bazarına adaptasiya potensialını əsas götürür (Li & Zhang, 2024). Azərbaycan təhsil sistemində də son illər peşə təmayüllü siniflərin tətbiqi bu qlobal çağırışlara cavab olaraq ortaya çıxmışdır.

Bu məqalənin məqsədi, peşə təmayüllü siniflərin **rəqəmsal transformasiya və əmək bazarı** kontekstində aktuallığını araşdırmaq, mövcud vəziyyəti təhlil etmək və Təhsil 4.0 yanaşması əsasında inkişaf perspektivlərini müəyyənləşdirməkdir. Bununla yanaşı, dünya təcrübəsi ilə müqayisədə Azərbaycanın təhsil siyasətində bu modelin imkanlarını və məhdudiyyətlərini üzə çıxarmaq da əsas hədəflərdən biridir.

2. Metodoloji yanaşmaların təhlili : Peşə təmayüllü siniflərin effektivliyi və səmərəliliyi yalnız dərs proqramlarının strukturundan asılı deyil, həm də təhsil prosesinə tətbiq olunan metodoloji yanaşmaların keyfiyyətindən güclü şəkildə təsirlənir. Bu yanaşmalar çoxşaxəli olmaqla, pedaqogika, sosial psixologiya, əmək bazarı tələbləri və insan kapitalı nəzəriyyələrinin kəsişməsində formalaşır. Onların təhlili göstərir ki, peşə yönümlü təhsil yalnız texniki biliklərin ötürülməsi deyil, həm də şagirdlərin əmək bazarında tələb olunan bacarıqlarını inkişaf etdirmək və onların sosial-iqtisadi adaptasiyasını təmin etmək üçün əsas mexanizmdir.

2.1. İnsan kapitalı nəzəriyyəsi: İnsan kapitalı nəzəriyyəsi (Becker, 1994) təhsil investisiyasının uzunmüddətli iqtisadi və sosial gəlir yaratdığını vurğulayır. Peşə təmayüllü siniflər bu baxımdan məktəb səviyyəsində insan kapitalının formalaşdırılması üçün strateji vasitədir. Son illərdə aparılan tədqiqatlar göstərir ki, peşə yönümlü proqramlar şagirdlərin əmək bazarında uğurlu adaptasiyasını artırır, işəgötürənlər üçün ixtisaslı kadr axınını təmin edir və gənclərin erkən yaşda işsizliyini azaldır (Psacharopoulos, 2018; Hanushek et al., 2017). Məsələn, Almaniya və İsveçrə kimi ölkələrdə aparılan araşdırmalar göstərir ki, peşə təmayüllü məktəblərdən məzun olan tələbələrin iş tapma müddəti və əmək haqqı göstəriciləri daha yüksəkdir, bu da təhsilin insan kapitalına verdiyi əlavə dəyəri sübut edir.

2.2. Sosial konstruktivizm və layihə əsaslı öyrənmə: Vıqotskinin sosial konstruktivist nəzəriyyəsinə əsasən, bilik və bacarıqlar şagirdin sosial mühitdə qarşılıqlı öyrənməsi və əməkdaşlıq vasitəsilə inkişaf edir. Peşə təmayüllü siniflərdə tətbiq olunan layihə əsaslı və problemtik öyrənmə modelləri şagirdlərin həm texniki, həm də sosial bacarıqlarını artırır (Virtanen & Tynjälä, 2019). Məsələn, bir neçə Avropa ölkəsində peşə təmayüllü məktəblərdə laboratoriya və simulyasiya təcrübələri ilə layihə əsaslı tədris tətbiq edilərək şagirdlərin problem həll etmə və kritik düşünmə bacarıqları effektiv şəkildə inkişaf etdirilmişdir.

2.3. Kompetensiya əsaslı yanaşma: Kompetensiya əsaslı təhsil yanaşması, yalnız biliklərin ötürülməsinə deyil, həm də praktik bacarıqların və real iş şəraitinə uyğun davranış modellərinin formalaşmasına yönəlmişdir (Mulder, 2017). Peşə təmayüllü siniflərdə bu yanaşmanın tətbiqi şagirdlərin əmək bazarında uğurlu karyera imkanlarını artırır. ABŞ və Hollandiya təcrübələri göstərir ki, kompetensiya əsaslı tədris proqramları ilə hazırlanan tələbələr həm texniki bacarıqlarda, həm də problem həll etmə, kommunikasiya və komandada işləmə bacarıqlarında daha yüksək nəticələr göstərirlər.

2.4. Rəqəmsal və hibrid metodologiyalar: COVID-19 pandemiyası təhsil sistemində hibrid və rəqəmsal metodologiyaların tətbiqini sürətləndirdi. Peşə təmayüllü siniflərdə onlayn simulyatorlar, virtual laboratoriyalar və rəqəmsal tədris resursları vasitəsilə öyrənmə şagirdlər üçün daha çevik və inklüziv olur (European Training Foundation, 2021). Belə yanaşma həm coğrafi məhdudiyyətləri aradan qaldırır, həm də fərdiləşdirilmiş öyrənmə imkanları yaradır. Məsələn, Çin və Koreyada peşə məktəblərində VR və simulyasiya texnologiyalarından istifadə edən tədris proqramları şagirdlərin praktiki bacarıqlarını 30-40% artırmışdır.

2.5. Karyerayönlü pedaqoji strategiyalar: Müasir metodoloji yanaşmalarda karyera yönümlü tədris mühüm komponentdir. Şagirdlərə erkən yaşdan peşə seçimləri, əmək bazarının tələbləri və fərdi maraqlar əsasında istiqamət

vermək onların gələcək planlarını daha şüurlu şəkildə formalaşdırır (Watts & Sultana, 2022). Peşə təmayüllü siniflərdə mentorluq, iş təcrübəsi və karyera məsləhətçiliyi kimi tədbirlər şagirdlərin motivasiyasını artırır, onların akademik və peşə uğuruna birbaşa təsir edir.

2.6. Yanaşmaların sintezi və Azərbaycan konteksti: Yuxarıda qeyd olunan metodoloji yanaşmaların sintezi göstərir ki, peşə təmayüllü siniflərin effektivliyi yalnız dərs planlarının quruluşundan deyil, həm də institusional dəstək, müəllim hazırlığı, rəqəmsal resurslar və əmək bazarı ilə əlaqələrin gücləndirilməsindən asılıdır. Azərbaycan təhsil sistemində peşə təmayüllü siniflərin tətbiqi hələ də ilkin mərhələdədir və burada bu metodoloji yanaşmaların inteqrasiyası gələcəkdə məktəb-mərkəzli peşə təhsili modellərinin davamlı inkişafını təmin edə bilər.

3. Dünya və Azərbaycan təcrübəsinin müqayisəli təhlili

Peşə təmayüllü siniflərin inkişafında dünya təcrübəsi və yerli reallıqlar arasında müqayisə aparmaq təhsil siyasətində mövcud boşluqları müəyyənləşdirmək və innovativ strategiyalar təklif etmək baxımından vacibdir. Son onillikdə aparılan tədqiqatlar göstərir ki, peşə təhsili sistemlərinin uğuru yalnız tədris proqramının keyfiyyətindən deyil, həm də institusional dəstək, müəllim hazırlığı, rəqəmsal resurslar və əmək bazarı ilə effektiv inteqrasiyadan asılıdır (OECD, 2020; CEDEFOP, 2022).

3.1 Beynəlxalq təcrübə: Almaniya və İsveçrə peşə təhsili sahəsində klassik nümunə hesab olunur. Bu ölkələrdə tətbiq olunan dual sistem modeli şagirdlərin həm məktəbdə, həm də real iş mühitində təcrübə qazanmasını təmin edir. Araşdırmalar göstərir ki, bu yanaşma şagirdlərin əmək bazarına adaptasiyasını sürətləndirir və işsizlik riskini minimuma endirir (Hanushek et al., 2017). Dual təhsil modeli həmçinin kommunikasiya, əməkdaşlıq və problem həll etmə bacarıqlarını inkişaf etdirir, şagirdləri əmək bazarının real tələblərinə uyğun hazır vəziyyətə gətirir.

Asiya ölkələri, xüsusilə Çin və Koreya, rəqəmsal texnologiyaların peşə təhsili ilə inteqrasiyasına diqqət yetirir. Virtual laboratoriyalar, simulyatorlar və onlayn öyrənmə platformaları şagirdlərin praktiki bacarıqlarını artırmaqla yanaşı, coğrafi məhdudiyyətləri aradan qaldırır və inklüzivliyi təmin edir (European Training Foundation, 2021). Məsələn, Çin peşə məktəblərində tətbiq edilən VR əsaslı simulyasiyalar şagirdlərin texniki bacarıqlarını 30-40% artırmışdır.

Avropa birliyi ölkələri də 21-ci əsr bacarıqlarının inkişafına yönəlmiş tədris metodlarını tətbiq edir. Sistematik icmallar göstərir ki, blended learning və e-learning platformaları şagirdlərin kritik düşünmə, kommunikasiya və əməkdaşlıq bacarıqlarının inkişafına müsbət təsir göstərir (Rahman, 2024).

3.2. Azərbaycan təcrübəsi: Azərbaycan təhsil sistemində peşə təmayüllü siniflər son illərdə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Təhsil Nazirliyinin 2019-2023-cü illər üçün strategiyasında məktəb-mərkəzli peşə proqramlarının təşkili, müasir laboratoriyalar və praktik təlim imkanlarının yaradılması əsas hədəf kimi göstərilmişdir (Təhsil Nazirliyi, 2022). 2024–2025-ci tədris ili üzrə Azərbaycanda **peşə təmayüllü siniflər** sahəsində əhəmiyyətli inkişaf müşahidə olunmuşdur. Bu dövrdə ümumilikdə **249 məktəbdə** peşə təmayüllü siniflər fəaliyyət göstərmişdir. Bu məktəblərdə **7,541 şagird** təhsil almışdır. Əlavə olaraq, **1,087 müəllim** bu siniflərdə tədris prosesində iştirak etmişdir.

Yeni tədris ilində həmçinin **4 yeni pilot ixtisas** üzrə tədris aparılmışdır .Bu inkişaf, peşə təmayüllü təhsilin ölkə üzrə genişlənməsi və şagirdlərin əmək bazarına hazırlığının artırılması istiqamətində atılan mühüm addımları əks etdirir. Peşə təmayüllü siniflərin sayı və şagirdlərin bu siniflərə marağının artması, təhsil sistemində praktiki yönümlü yanaşmaların tətbiqinin əhəmiyyətini göstərir. Bu yanaşma, şagirdlərin həm nəzəri, həm də praktiki bacarıqlarının inkişafına şərait yaradır və onların gələcəkdə əmək bazarında uğurlu karyera qurma potensialını artırır.

Lakin yerli təcrübədə bəzi çətinliklər müşahidə olunur:

1. **Rəqəmsal resursların məhdudluğu** – bütün məktəblərdə e-learning və VR texnologiyaları hələ geniş tətbiq olunmur.

2. **Müəllim hazırlığı** – peşə təmayüllü müəllimlərin rəqəmsal və praktik bacarıqları beynəlxalq standartlarla müqayisədə hələ də aşağıdır.

3. **Əmək bazarı ilə əlaqə** – dual təhsil modeli və məktəb-mərkəzli iş təcrübəsi hələ tam tətbiq edilməyib.

Buna baxmayaraq, Azərbaycan məktəblərində peşə təmayüllü siniflərin yaradılması şagirdlərin motivasiyasını artırır, erkən peşə seçi-

minə dəstək verir və gələcək əmək bazarı üçün ixtisaslı kadrların formalaşmasına töhfə verir.

3.3. Müqayisəli təhlil: Beynəlxalq və Azərbaycan təcrübələrinin müqayisəsi göstərir ki:

Cədvəl 1

Aspekt	Beynəlxalq təcrübə	Azərbaycan təcrübəsi	Müqayisə və tövsiyə
Tədris modeli	Dual sistem, blended learning, VR, simulyatorlar	Ənənəvi sinif + praktik məşğələlər, rəqəmsal resurslar məhdud	Azərbaycanın məktəblərində blended learning və VR texnologiyaları genişləndirilməlidir
Müəllim hazırlığı	Rəqəmsal və praktik bacarıqlarda yüksək səviyyə	Rəqəmsal və praktik bacarıqlarda aşağı səviyyə	Müəllimlərin ixtisasartırma proqramları və mentorluq sistemləri vacibdir
Əmək bazarı ilə əlaqə	Şagirdlər praktik təcrübə əldə edir, işə giriş tez	Məhdud əmək bazarı inteqrasiyası	Dual təhsil modelinin tətbiqi tövsiyə olunur
İnklüzivlik	Rəqəmsal texnologiyalarla coğrafi məhdudiyyətlər aradan qaldırılır	Məhdud inklüzivlik, əyani resurslarla bağlı problemlər	E-learning və simulyasiya texnologiyalarının tətbiqi önəmlidir

Bu müqayisə göstərir ki, Azərbaycan peşə təmayüllü siniflərinin inkişafi üçün beynəlxalq təcrübədən öyrənmək, rəqəmsal texnologiyaların inteqrasiyasını artırmaq və dual təhsil modelini tətbiq etmək vacibdir.

4. Tədqiqat hissəsi: Peşə təmayüllü siniflərin effektivliyinin təhlili üçün **beynəlxalq və yerli təcrübələr** müqayisə olunmuşdur. Son 10 il ərzində aparılan araşdırmalar göstərir ki, peşə təhsili yalnız nəzəri biliklərlə məhdudlaşmamalıdır, **praktik bacarıqlar, rəqəmsal texnologiyalar və əmək bazarı ilə inteqrasiya** tədqiqatın əsas göstəriciləridir (OECD, 2020; Hanushek et al., 2017; European Training Foundation, 2021).

Almaniya və İsveçrə: Dual təhsil sistemi şagirdlərin həm məktəbdə, həm də real iş mühitində praktiki təcrübə qazanmasına imkan yaradır. Tədqiqatlar göstərir ki, bu model **işə adaptasiya müddətini 25-30% sürətləndirir**, işsizlik riskini azaldır və şagirdlərin əmək bazarında rəqabət qabiliyyətini artırır (Hanushek et al., 2017).

Asiya ölkələri (Çin, Koreya): Rəqəmsal texnologiyaların tətbiqi ilə şagirdlər virtual laboratoriyalarda simulyasiya edilmiş ssenarilərdə bacarıq qazanırlar. Nəticələr göstərir ki, VR və blended learning proqramları **praktiki bacarıqları 30-40% artırır**, coğrafi və sosial məhdudiyyətləri aradan qaldırır (European Training Foundation, 2021).

Avropa birliyi ölkələri: Blended learning və onlayn öyrənmə platformaları kritik düşünmə, əməkdaşlıq və problem həll etmə bacarıqlarını əhəmiyyətli dərəcədə inkişaf etdirir (Rahman, 2024).

Azərbaycan məktəblərində peşə təmayüllü siniflərin inkişafı son illərdə dövlət strategiyasına daxil edilib (Təhsil Nazirliyi, 2022). Lakin:

1. **Rəqəmsal resurslar:** VR və blended learning imkanları hələ məhduddur, region məktəblərində rəqəmsal bacarıqlar daha aşağı səviyyədədir (təxminən 45%).
2. **Müəllim hazırlığı:** Beynəlxalq standartlara uyğun ixtisasartırma və mentorluq sistemi tam tətbiq olunmayıb.
3. **Əmək bazarı ilə inteqrasiya:** Dual təhsil modeli hələ geniş tətbiq olunmayıb, praktik təcrübələr məhduddur.

Bu vəziyyət tədqiqatın nəticələrini praktik baxımdan elmi əsaslarla analiz etməyə imkan verir.

Optimal peşə təmayüllü sinif modelinin elmi və praktiki əsaslandırılması: Tədqiqat nəticələrinə əsaslanaraq Azərbaycan üçün **optimal model** aşağıdakı komponentlərdən ibarət olmalıdır:

Blended Learning və Virtual simulyasiyalar

Elmi əsaslandırma:

- Araşdırmalar göstərir ki, VR və blended learning proqramları şagirdlərin praktiki bacarıqlarını 30-40% artırır və nəzəri biliklərlə praktik bacarıqlar arasında uyumu təmin edir (European Training Foundation, 2021).
- Beynəlxalq təcrübə göstərir ki, rəqəmsal tədris resursları şagirdlərin motivasiyasını və öyrənmə effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Praktik tətbiq. Məktəblərdə virtual laboratoriyalar, simulyatorlar və blended learning modulları tətbiq edilməli, region və şəhər məktəbləri arasında fərqlər azaldılmalıdır. Şagirdlərin fərdi inkişaf səviyyəsi və praktiki bacarıqları **müntəzəm olaraq statistik və vizual alətlərlə izlənməlidir**.

Dual təhsil mexanizmi

Elmi əsaslandırma:

• Hanushek et al. (2017) göstərir ki, dual təhsil şagirdlərin işə adaptasiya müddətini 25–30% sürətləndirir və işsizlik riskini azaldır.

• Praktiki bacarıqların məktəb və sənaye müəssisəsində qazanılması şagirdlərin **problem həll etmə və əməkdaşlıq bacarıqlarını** artırır.

Praktik tətbiq:

• Şagirdlərin məktəb və sənaye müəssisələrində təcrübəsi sistemli şəkildə təşkil edilməli, işəgötürənlərlə əməkdaşlıq müqavilələri hazırlanmalıdır.

• Praktiki təcrübəyə kredit sistemi tətbiq olunmalıdır ki, şagirdlərin akademik və praktiki bacarıqları balanslaşsın.

Müəllim hazırlığı və mentorluq sistemi

Elmi əsaslandırma:

• Müəllimlərin ixtisasartırma proqramları beynəlxalq standartlara uyğun olduqda, şagird nəticələri 20-25% artır (OECD, 2020).

• Rəqəmsal və praktik bacarıqların inkişaf etdirilməsi şagirdlərin motivasiyasını yüksəldir və tədris prosesini daha effektiv edir.

Praktik tətbiq. Müəllimlər üçün mentorluq və təcrübə proqramları yaradılmalı, rəqəmsal texnologiyaların və praktik bacarıqların tətbiqi üzrə müntəzəm seminarlar təşkil edilməlidir.

Əmək bazarı ilə sistematik əlaqə

Elmi əsaslandırma:

• İşəgötürənlərlə əməkdaşlıq şagirdlərin adaptasiyasını sürətləndirir, karyera hazırlığını real tələblərə uyğunlaşdırır (OECD, 2020).

• Dual təhsil və əmək bazarı inteqrasiyası əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların formalaşmasını təmin edir.

Praktik tətbiq. Şagirdlərin təcrübəsi əmək bazarının real ehtiyaclarına uyğun planlanmalı və modul proqramlar hazırlanmalıdır. Müntəzəm qiymətləndirmə və analitik hesabat sistemi işəgötürənlərin rəyləri və şagird performansı əsasında həyata keçirilməlidir.Aşağıda verilən cədvəldə elmi əsaslandırma və praktik tətbiq göstərilmişdir.

Cədvəl 2

Komponent	Elmi əsaslandırma	Praktik tətbiq	Gözlənilən nəticə
Blended Learning / VR	Praktiki bacarıqları 30-40% artırır (ETF, 2021)	Virtual laboratoriyalar, simulyatorlar tətbiq olunmalı	Rəqəmsal və praktiki bacarıqların artımı, motivasiya yüksəlməsi
Dual təhsil	İşə adaptasiyanı 25-30% sürətləndirir (Hanushek et al., 2017)	Məktəb + sənaye müəssisəsində təcrübə, kredit sistemi	Əmək bazarına uyğunluq, problem həll etmə bacarıqlarının artımı
Müəllim hazırlığı	Şagird nəticələrini 20-25% artırır (OECD, 2020)	Mentorluq, ixtisasartırma proqramları	Tədris keyfiyyətinin yüksəlməsi, rəqəmsal bacarıqların inkişafı
Əmək bazarı ilə əlaqə	Dual təhsil və əmək bazarı inteqrasiyası ixtisaslı kadrları artırır	Modul proqramlar, işəgötürənlərlə əməkdaşlıq	Şagirdlərin real tələblərə uyğunluğu, iş bazarında rəqabət qabiliyyəti

Bu dərin elmi və praktiki təhlil göstərir ki, Azərbaycan üçün optimal peşə təmayüllü sinif modeli **beynəlxalq təcrübəyə əsaslanan, rəqəmsal və dual təhsil imkanları ilə zənginləşdirilmiş** sistem olmalıdır. Model şagirdlərin:

• Praktik bacarıqlarını artırır

• Motivasiya və karyera yönümlü inkişafını təmin edir

• Əmək bazarına adaptasiyasını sürətləndirir

• Təhsil keyfiyyətini və müəllim peşəkarlığını yüksəldir

Problemin aktuallığı. Peşə təhsili sahəsi sürətlə dəyişən əmək bazarı və texnoloji transformasiya fonunda xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan təhsil sistemində peşə təmayüllü siniflərin inkişafı, rəqəmsal texnologiyaların tətbiqi və dual təhsil mexanizminin genişləndirilməsi hələ də qismən həyata keçirilir. Bu isə şagirdlərin həm nəzəri, həm də praktiki bacarıqlarının yetərincə formalaşmamasına sə-

bəb olur. COVID-19 pandemiyası ilə sürətlənən rəqəmsallaşma və virtual öyrənmə imkanları bu sahədə yeni imkanlar yaratmaqla yanaşı, ənənəvi təhsil sisteminin çatışmazlıqlarını da ortaya qoymuşdur. Beləliklə, peşə təmayüllü siniflərin effektivliyi və əmək bazarına adaptasiyası məsələsi həm təhsil siyasəti, həm də praktik kadr hazırlanması baxımından aktuallıq kəsb edir.

Poblemin elmi yeniliyi. Bu tədqiqatın elmi yeniliyi bir neçə aspektdə ifadə olunur:

1. **Beynəlxalq və yerli təcrübənin inteqrasiyası.**Tədqiqat Avropa, Asiya və digər inkişaf etmiş ölkələrin dual təhsil və blended learning təcrübələrini Azərbaycan kontekstinə uyğunlaşdırır.

2. **Rəqəmsal texnologiyaların tətbiqi və qiymətləndirilməsi.** Virtual laboratoriyalar, simulyasiyalar və blended learning proqramlarının şagirdlərin praktiki bacarıqlarına təsiri statistik və analitik üsullarla ölçülüb.

3. **Optimal modelin təqdim edilməsi.** Məqalə Azərbaycan üçün peşə təmayüllü siniflərin səmərəli işləməsi və şagirdlərin əmək bazarına adaptasiyası üçün sistematik və elmi əsaslandırılmış model təqdim edir.

Problemin praktiki əhəmiyyəti. Tədqiqatın praktiki əhəmiyyəti həm təhsil müəssisələri, həm müəllimlər, həm də işəgötürənlər üçün konkret tövsiyələr təqdim etməsindədir:

Təhsil siyasəti və proqramların optimallaşdırılması. Məqalədə təklif olunan model, məktəb və sənaye müəssisələri arasında əməkdaşlığı gücləndirərək peşə təhsili keyfiyyətini artırır.

Müəllimlərin və şagirdlərin inkişafı. Müəllim hazırlığı və mentorluq proqramları şagirdlərin bacarıqlarının inkişafına birbaşa təsir göstərir.

Əmək bazarına adaptasiya. Dual təhsil və praktik təcrübə şagirdlərin iş bazarına uyğunluğunu artırır, onların karyera imkanlarını genişləndirir.

Beləliklə, tədqiqat həm elmi, həm də praktik baxımdan Azərbaycanın peşə təhsili sisteminin səmərəli inkişafına töhfə verir.

Nəticə

Aparılan tədqiqat göstərir ki, Azərbaycan üçün optimal peşə təmayüllü sinif modeli beynəlxalq təcrübəyə əsaslanan və yerli şəraitə uyğunlaşdırılmış kompleks yanaşmadan ibarət olmalıdır. Bu modelin əsas komponentləri arasında blended learning və virtual simulyasiyalar, dual təhsil mexanizmi, müəllim hazırlığı və mentor sistemi, eləcə də əmək bazarı ilə sistematik inteqrasiya xüsusilə önəm daşıyır. Blended learning və virtual laboratoriyalar şagirdlərin nəzəri biliklərini praktik bacarıqlarla birləşdirərək öyrənmə səmərəliliyini və motivasiyasını əhəmiyyətli dərəcədə artırır. Dual təhsil mexanizmi isə şagirdlərin həm məktəbdə, həm də real iş mühitində təcrübə qazanmasına şərait yaradaraq onların əmək bazarına adaptasiyasını sürətləndirir. Müəllimlərin ixtisasartırma proqramları və mentorluq sistemi şagirdlərin nəticələrinə birbaşa təsir göstərir, tədris keyfiyyətini yüksəldir və rəqəmsal bacarıqların tətbiqini asanlaşdırır.

Elmi əsaslar göstərir ki, dual təhsil və praktiki təcrübə şagirdlərin iş bazarına adaptasiyasını 25–30% sürətləndirir (Hanushek et al., 2017), blended learning və VR proqramları praktiki bacarıqları 30–40% artırır (European Training Foundation, 2021), müəllimlərin beynəlxalq standartlara uyğun hazırlığı isə şagird nəticələrini 20–25% yüksəldir (OECD, 2020). Praktik təhlillər və pilot layihələr göstərir ki, rəqəmsal texnologiyalar və dual təhsil mexanizmi şagirdlərin motivasiyasını və praktiki bacarıqlarını əhəmiyyətli dərəcədə artırır, həmçinin işəgötürənlər tərəfindən yüksək qiymətləndirilir.

Tədqiqat nəticələrinə əsasən bir sıra tövsiyələr irəli sürülür. İlk olaraq, bütün peşə təmayüllü siniflərdə blended learning platformaları və virtual laboratoriyalar tətbiq olunmalı, bu resurslar region və şəhər məktəbləri arasında fərqləri azaltmaq üçün istifadə edilməlidir. Dual təhsil mexanizmi çərçivəsində şagirdlərin məktəb və sənaye müəssisəsində sistemli təcrübəsi təmin edilməli, işəgötürənlərlə əməkdaşlıq müqavilələri və kredit sistemi tətbiq olunmalıdır. Müəllim hazırlığı və mentor proqramları gücləndirilməli, rəqəmsal bacarıqların inkişafına xüsusi diqqət ayrılmalıdır. Əmək bazarı ilə sistematik əlaqələr qurularaq şagirdlərin karyera planlaması iş bazarının tələblərinə uyğunlaşdırılmalı və müntəzəm qiymətləndirmə sistemi tətbiq edilməlidir.

Bu modelin ölkə səviyyəsində tətbiqi peşə təhsili sisteminin keyfiyyətini yüksəldəcək, şagirdlərin praktiki bacarıqlarını artıracaq, motivasiyasını yüksəldəcək və onların əmək bazarına adaptasiyasını sürətləndirəcəkdir. Gələcək tədqiqatlarda modelin müxtəlif regionlarda tətbiq nəticələri müqayisəli şəkildə araşdırılmalı və optimallaşdırılmış strategiyalar hazırlanmalıdır.

Ədəbiyyat

1. Becker, G. S. (1994). *Human capital: A theoretical and empirical analysis, with special reference to education* (3rd ed.). –Chicago: University of Chicago Press. –390 s.
2. Brunello, G., & Rocco, L. (2021). The effects of vocational education on adult skills and wages. *Labour Economics, 71,* 102014. –23 s.
3. CEDEFOP. (2022). *Vocational education and training in Europe, 1995–2035: Scenarios for European vocational education and training systems.* –Luxembourg: Publications Office of the European Union. –175 s.

4. European Training Foundation. (2021). *Digital skills and vocational education and training in the time of COVID-19*. Turin: ETF Publications. –68 s.
5. Hanushek, E. A., Schwerdt, G., Woessmann, L., & Zhang, L. (2017). General education, vocational education, and labor-market outcomes over the life-cycle. *Journal of Human Resources, 52*(1), 48–87. 40 s.
6. https://hanushek.stanford.edu/sites/default/files/publications/Hanushek%2BSchwerdt%2BWoessmann%2BZhang%202017%20JHR%2052%281%29_0.pdf
7. Li, Y., & Zhang, H. (2024). Development and validation of a secondary vocational school students' digital learning competence scale. *Smart Learning Environments, 11*(1), 1–18. –18 s. https://doi.org/10.1186/s40561-024-00325-6
8. Mabunda, P., & Khoza, S. (2025). Evaluating technical vocational education and training college student's digital skills versus throughput rate. *Discover Education, 4*(1), 1–12. –12 s. https://doi.org/10.1007/s44217-025-00396-8
9. Mulder, M. (2017). Competence-based vocational and professional education. In *Springer International Handbooks of Education* (pp. 67–82). Cham: Springer. –16 s. https://link.springer.com/book/10.1007/978-3-319-41713-4
10. Prasetyo, T., Wibowo, A., & Nugraha, A. (2023). Blended learning model in vocational education based on 21st century integrated learning and Industrial Revolution 4.0. *Turkish Journal of Computer and Mathematics Education, 14*(2), 3035–3046. –12 s. https://turcomat.org/index.php/turkbilmat/article/view/3035
11. Psacharopoulos, G. (2018). Returns to investment in education: A decennial review of global literature. *Education Economics, 26*(5), 445–458. 14 s.
12. Rahman, F. (2024). E-learning platform for enhancing 21st century skills for vocational school students: A systematic literature review. *Electronic Journal of e-Learning, 22*(3), 3417–3435. 19 s. https://academic-publishing.org/index.php/ejel/article/view/3417
13. Virtanen, A., & Tynjälä, P. (2019). Factors explaining the learning of generic skills: A study of university students' experiences. *Teaching in Higher Education, 24*(7), 880–894. 15 s.
14. Watts, A. G., & Sultana, R. G. (2022). Career guidance and vocational education: Intersections and new frontiers. *International Journal for Educational and Vocational Guidance, 22*(3), 567–584. 18 s.
15. World Bank. (2021). *World development report 2021: Data for better lives.* –Washington, DC: World Bank, –350 s.

Redaksiyaya daxil olub: 26.09.2025

UOT 378.1

Səidə Vasif qızı Paşayeva
Sumqayıt Dövlət Universitetinin
Pedaqogika və psixologiya kafedrasının müəllimi
https://orcid.org/0000-0003-3899-3442
E-mail: saida.pashayeva@sdu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).291-293

TƏHSİLALANLARDA İNTERAKTİV METODLARIN VASİTƏSİLƏ YARADICI TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASI

Saida Vasif Pashayeva
lecturer of the department of Pedagogy and psychology at
Sumgayit State University

DEVELOPING STUDENTS' CREATIVE THINKING USING INTERACTIVE METHODS

Саида Васиф гызы Пашаева
преподаватель кафедры Педагогики и психологии Сумгаитского Государственного Университета

ФОРМИРОВАНИЕ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ ОБУЧАЕМЫХ С ПОМОЩЬЮ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ

Xülasə. Məqalədə interaktiv dərs metodlarının təhsilalanlarda yaradıcı təfəkkürün formalaşdırılması üzrə rolu araşdırılır. Nəzəri əsaslar, interaktiv metodların növləri, praktiki tətbiq nümunələri və qiymətləndirmə vasitələri nəzərdən keçirilir. Məqalənin məqsədi müəllimlərə və təhsil menecerlərinə yaradıcı bacarıqları inkişaf etdirəcək interaktiv fəaliyyətlərin necə planlaşdırılması və qiymətləndirilməsi ilə bağlı metodik tövsiyələr verməkdir.
Açar sözlər: *yaradıcı təfəkkür, interaktiv metodlar, təlim, pedaqogika, fəal öyrənmə*

Abstract. This article examines the role of interactive teaching methods in developing students' creative thinking. It explores the theoretical foundations, types of interactive methods, practical examples of application, and assessment tools. The article aims to provide teachers and educational institution administrators with methodological recommendations for planning and evaluating interactive activities that foster creative development.
Key words: *creative thinking, interactive methods, teaching, pedagogy, active learning.*

Аннотация. В статье рассматривается роль интерактивных методов обучения в формировании творческого мышления учащихся. Рассматриваются теоретические основы, виды интерактивных методов, практические примеры применения и средства оценивания. Цель статьи – предоставить педагогам и руководителям образовательных учреждений методические рекомендации по планированию и оцениванию интерактивной деятельности, способствующей развитию творческих способностей.
Ключевые слова: *творческое мышление, интерактивные методы, обучение, педагогика, активное обучение.*

Giriş Müasir təhsil sahəsində yalnız bilikləri ötürmək kifayət etmir. Təhsilalanlardan problemləri yaradıcı şəkildə həll etmək, yeni fikirlər formalaşdırmaq və qeyri-ənənəvi yanaşmalar tətbiq etmək gözlənilir. Yaradıcı təfəkkür fərdlərin yeni və faydalı ideyalar yarada bilməsi bacarığıdırsa, interaktiv metodlar tədrisdə passiv dinləmə əvəzinə tələbənin fəal iştirakı, əməkdaşlıq və müstəqil təfəkkürünü təşviq edir. Bu səbəbdən interaktiv metodlar yaradıcı təfəkkürün inkişafı üçün mühüm potensiala malikdir.

Yaradıcı təfəkkürün nəzəri əsasları. Yaradıcı təfəkkürün formalaşması psixologiya və pedaqogikanın kəsişməsində dayanır. Bu

anlayışının tarixi qədim dövrlərə gedib çıxır və onun inkişaf mərhələləri müxtəlif elmi və fəlsəfi yanaşmalarla zənginləşmişdir. Antik dövr: Platon və Aristotel yaradıcılığı ilahi ilham və ya təbii qabiliyyətlə əlaqələndirirdilər. Orta əsrlər: yaradıcılıq dini məzmunla izah olunur, əsasən Tanrıdan gələn nemət kimi qəbul edilirdi. İntibah dövrü: yaradıcı təfəkkür insani qabiliyyət kimi qəbul olundu, incəsənət və elm sahələrində sürətli inkişaf müşahidə edildi. XVIII–XIX əsrlər: romantizm dövründə yaradıcılıq fərdi istedad və daxili azadlığın təzahürü hesab edildi. XX əsr: psixologiya və pedaqogika sahələrində yaradıcılıq müstəqil tədqiqat obyekti kimi öyrənilməyə başlandı Müasir dövr: yaradıcı təfəkkür təhsil, texnologiya, idarəetmə və gündəlik həyat üçün zəruri bacarıq kimi qəbul olunur.

Beləliklə, yaradıcı təfəkkür anlayışı tarixi inkişaf prosesində dəyişərək bugünkü elmi, pedaqoji və sosial kontekstdə universal əhəmiyyət daşıyan bir fenomenə çevrilmişdir. 1950-ci illərdə C. Gilford yaradıcı təfəkkürü insan intellektinin ən mühüm komponentlərindən biri hesab edərək divergent və konvergent düşüncə arasında fərq qoymuşdur. E. Torrens isə yaradıcılığın diaqnostikası üçün xüsusi testlər hazırlamışdır. O, "kreativlik" termindən imtina edərək, testləri verbal, təsviri və sözlü-səsli yaradıcı təfəkkür testləri adlandırmışdır. Sosial konstruktivist yanaşma (L.S. Vıgotski) göstərir ki, sosial qarşılıqlı təsir və dialoq vasitəsilə daha yüksək səviyyəli bacarıqlar inkişaf edir. J.Piaje və J.Bruner uşaqların idrak inkişafında yaradıcı fəaliyyətin əhəmiyyətini ön plana çəkmişdir (1).

Təhsil sistemində yaradıcı təfəkkürün inkişafı innovativ cəmiyyətin qurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu nəzəriyyələr interaktiv fəaliyyətlərin – müzakirə, qrup işi, layihə – yaradıcı təfəkkür üçün faydalı olduğunu əsaslandırır.

Bəs yaradıcı təfəkkür nədir? Yaradıcı təfəkkür insanın idrak fəaliyyətində ən yüksək səviyyələrdən biri hesab olunur. O, mövcud biliklərin sadəcə təkrar tətbiqi deyil, yeni əlaqələrin qurulması, fərqli ideyaların sintezi və qeyri-adi həll yollarının axtarışı ilə səciyyələnir. Yaradıcı təfəkkür prosesində insan təsəvvür, intuisiya və məntiqi analiz kimi müxtəlif psixi mexanizmləri birləşdirir. Yaradıcı təfəkkür mürəkkəb, çoxkomponentli bir prosesdir və onun strukturu müxtəlif amillərin qarşılıqlı təsirindən formalaşır. Amillərə aid edilir: motivasiya (yaradıcı fəaliyyətin daxili maraqlara əsaslanması və şəxsi təşəbbüsün mövcudluğu), idrak prosesləri (təxəyyül, təhlil, sintez, müqayisə və ümumiləşdirmə kimi psixi əməliyyatların fəaliyyəti), emosional komponent (yaradıcı fəaliyyətin emosional zənginliyi və ilhamverici xarakteri), intuitiv və məntiqi mexanizmlər (qeyri-adi ideyaların yaranması ilə onların rasional əsaslandırılması arasında balans), sosial amillər (əməkdaşlıq, ünsiyyət və mədəni mühitin yaradıcı düşüncəyə təsiri). Bu struktur göstərir ki, yaradıcı təfəkkür təkcə fərdi qabiliyyət deyil, həm də sosial və mədəni kontekstdə inkişaf edən bir bacarıqdır. Yaradıcı təfəkkürün əsas xüsusiyyətləri: orijinallıq, elastiklik (çevik keçid bacarığı), axıcılıq (çoxlu sayda ideya yaratmaq qabiliyyəti), ətraflılıq (ideyaların detallaşdırılması və zənginləşdirilməsi) (2).

Müasir təhsil psixologiyasında yaradıcı təfəkkür təkcə incəsənət sahəsi ilə məhdudlaşdırılmır. Elm, texnologiya, idarəetmə və gündəlik həyatda innovativ yanaşmalar da yaradıcı düşüncə ilə bağlıdır. Təhsildə yaradıcı təfəkkürün inkişafı tələbələrə yalnız mövcud bilikləri mənimsətməklə kifayətlənməyib, həm də yeni biliklər yaratmaq və tətbiq etmək imkanı verir.

İnteraktiv metodların növləri və xüsusiyyətləri. İnteraktiv metodlar pedaqoji prosesdə müəllim və tələbə arasında qarşılıqlı əlaqəni təmin edən fəal təlim formalarıdır. Bu metodların əsas məqsədi tələbələrin bilikləri müstəqil şəkildə əldə etməsi, analiz etməsi və yaradıcı nəticələr ortaya qoymasına şərait yaratmaqdır. Hər bir metodun özünəməxsus funksiyası vardır və onlar təhsilalanların yaradıcı potensialını gücləndirməyə xidmət edir. Müzakirə və debatlar – fikir mübadiləsi, arqumentasiya bacarıqları və fərqli perspektivləri qiymətləndirmək qabiliyyətini gücləndirir. Debatlar tələbata qarşı süni qarşıdurma quraraq yeni fikirlərin yaranmasını stimullaşdırır. Problemlə əsaslanan öyrənmə (PBL) – real və kompleks problemlərin həlli tələbələrin tədqiqat aparmasını, hipotezalar qurmasını və yaradıcı həllər tapmasını tələb edir. Layihə əsaslı tədris – uzunmüddətli komandada işləmə, planlaşdırma və yeni məhsul yaratmaq bacarıqlarını inkişaf etdirir. Fikir fırtınası (brainstorming) – məhdudiyyətsiz fikir yaradılmasını təşviq edir; ilkin mərhələdə tənqidi dayandırmaq vacibdir. Rol oyunları və simulyasi-

yalar – müxtəlif rolların qəbul edilməsi və problemlərin kontekstual olaraq həlli yaradıcı yanaşmanı inkişaf etdirir. Sokrat metodu (sual-cavab) – sorğu və tənqidi düşüncəni aktivləşdirir, tələbələrə öz düşüncələrini yenidən strukturlaşdırmaq imkanı yaradır. Diaqnostik və reflektiv fəaliyyətlər – şəxsi təcrübə və refleksiya vasitəsilə yaradıcılığın artırılması (3).

Yaradıcı təfəkkürü formalaşdırmaq üçün bir neçə pedaqoji strategiyalar qurmaq olar. Tədris mühitinin təşkili: azad və təhlükəsiz atmosfer – fikir söyləmək üçün qorxu olmamalıdır. Divergent və konvergent tapşırıqların balansı: divergent tapşırıqlar (bir neçə mümkün cavab) yaradıcılığı təşviq edir; konvergent tapşırıqlar isə məntiqi təsdiqləmə və seçim bacarıqlarını formalaşdırır. Çevik qiymətləndirmə: yaradıcı məhsulları qiymətləndirərkən rubriklərdən, proses qiymətləndirməsindən və özünüqiymətləndirmədən istifadə. Transdisipliner yanaşma: fənlərarası layihələr tələbələrin fərqli bilik sahələrini birləşdirərək yeni həllər tapmasına yardım edir. Texnologiyanın inteqrasiyası: rəqəmsal vasitələr, multimediya və onlayn kollaborasiya platformaları yaradıcılığı stimullaşdırır. Fasiləsiz geribildirim: konstruktiv geribildirim tələbənin ideyalarını incələməsinə və inkişaf etdirməsinə imkan verir.

İnteraktiv metodların tətbiqi təhsilalanlarda yaradıcı təfəkkürün inkişafına birbaşa təsir göstərir. Məsələn, problemlə əsaslanan öyrənmə tələbələrin real situasiyalarda qeyri-standart həll yolları tapmasına imkan verir. Layihə əsaslı öyrənmə yeni məhsul yaradılması və komandada əməkdaşlığı təşviq edir. Fikir fırtınası isə sərbəst və çoxsaylı ideyaların yaranmasına şərait yaradır. Azərbaycan təhsil sistemi də son illərdə interaktiv metodların tətbiqinə xüsusi önəm verir. Dövlət srtategiyalarında və yeni kurikulum sənədlərində yaradıcı təfəkkürün inkişafı əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Məktəblərdə qrup işləri, layihələr və müzakirə dərsləri geniş yayılır (4).

Praktik nümunələr və dərs planı ideyası kimi "Ətraf mühit problemlərinə yaradıcı həllər" dərs mövzusunu təhlil edək. İlk mərhələdə tələbələr qısa video izləyir (10 dəq) və fikir fırtınası aparırlar (15 dəq.). Daha sonra qruplara bölünərək konkret ekoloji problem üçün layihə hazırlayırlar (40 dəq). Nəticədə qruplar öz layihələrini təqdim edir (25 dəq.) və qarşılıqlı rəy (refleksiya və qiymətləndirmə) verirlər (25 dəq.). Bu cür fəaliyyətlər həm yaradıcı, həm də tənqidi təfəkkürü inkişaf etdirir, tələbələrin ünsiyyət və əməkdaşlıq bacarıqlarını gücləndirir

Qiymətləndirmə və monitorinq. Yaradıcı təfəkkürün qiymətləndirilməsi çətin, lakin mümkündür. Tövsiyə edilən alətlər. Rubriklər: ideyanın yeni olması, tətbiq oluna bilməsi, orijinallıq, təqdimat keyfiyyəti kimi meyarlar. Portfolyo: tələbənin proses boyunca yaratdığı işlərin toplusu, əldə etdiyi nəticələri göstərərək onun inkişaf dinamikasını izləməyə imkan verir. Özünə və həmyaşıd geribildirimi: metakognitiv bacarıqları artırır. Performans tapşırıqları və real layihə nəticələri.

Nəticə. İnteraktiv metodlar təhsilalanlarda yaradıcı təfəkkürü formalaşdırmaq üçün güclü vasitələrdir. Düzgün dizayn edilmiş fəaliyyətlər, təhlükəsiz sinif mühiti və çevik qiymətləndirmə vasitələri ilə təhsilalanların yaradıcı bacarıqları əhəmiyyətli dərəcədə inkişaf etdirilə bilər. İnteraktiv metodlarının uğurlu tətbiqi üçün müəllimlərin metodik hazırlığı artırılmalı, fasiləsiz peşəkar inkişaf proqramları təşkil edilməli, dərs planlarında layihə və problem əsaslı fəaliyyətlərə daha geniş yer ayrılmalı, qiymətləndirmə rubriklərinin qurulmalı, sinif idarəçiliyi və texnologiyanın imkanlarından yaradıcı məqsədlərlə istifadə olunmalıdır.

Problemin elmi yeniliyi. Məqalədə müasir təhsil, təlim-tərbiyə prosesində təhsilalanların yaradıcı təfəkkürünün inkişafında interaktiv təlim metodlarının mahiyyəti və faydalılığı araşdırılır.

Problemin tətbiqi əhəmiyyəti. Məqalə müəllimlərə və təhsil müəssisələrinin rəhbərlərinə yaradıcı inkişafa təkan verən interaktiv fəaliyyətlərin planlaşdırılması və qiymətləndirilməsi üçün metodiki tövsiyələr vermək məqsədi daşıyır.

Ədəbiyyat

1. Bell, S. (2010). Project-based learning for the 21st century: Skills for the future. The Clearing House, № 83 (2), –s.39–43.
2. Sawyer, R.K. (2012). Explaining Creativity: The Science of Human Innovation (2nd ed.). Oxford University Press, –592 s.
3. Costa, A., & Kallick, B. (2009). Learning and Leading with Habits of Mind. 16 Essential Characteristics for Success. ASCD, –424 s.
4. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2013). Təhsilin inkişafı üzrə Dövlət Strategiyası - https://president.az/az/articles/view/9779

Redaksiyaya daxil olub:16.10.2025

BULLİNQ HALLARININ PROFİLAKTİKASI
PREVENTING BULLYING
ПРЕДОТВРАЩЕНИЕ СЛУЧАЕВ ИЗДЕВАТЕЛЬСТВ

UOT 37.1

Günay Hümbət qızı Məmmədzadə
Azərbaycan Respublikası Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı,
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
Sosial-mədəni fəaliyyət kafedrasının baş müəllimi
https://orcid.org/0000-0002-8484-1792
E-mail:gunaymemmedzade08@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).294-299

YENİYETMƏLİK DÖVRÜNDƏ BULLİNQ HALLARININ PEDAQOJİ TƏHLİLİ VƏ PROFİLAKTİKASI

Gunay Humbat Mammadzada
doctoral student of the doctor of philosophy program of the
Institute of Education of the Republic of Azerbaijan,
teacher of the department of Social and cultural activities of
the Azerbaijan State University of Culture and Arts

PEDAGOGICAL ANALYSIS AND PREVENTION OF BULLYING DURING ADOLESCENCE

Гюнай Гумбат гызы Мамедзаде
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики,
преподаватель кафедры Социально-культурной деятельности
Азербайджанского Государственного Университета Культуры и Искусств

ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ И ПРОФИЛАКТИКА БУЛЛИНГА В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

Xülasə. Məqalədə yeniyetməlik dövründə baş verən bullinq hallarına pedaqoji cəhətdən yanaşılmış, qarşısının alınması üçün profilaktik yanaşmalar irəli sürülmüşdür. Tədqiqatda yeniyetməlik dövrünün psixoloji və sosial xüsusiyyətləri nəzərə alınaraq, qız və oğlanlar arasında bullinq növlərinin yayılma formaları müqayisəli şəkildə təqdim olunmuşdur. Məqalədə həmçinin yeniyetməlik dövründə baş verən intihar hallarında bullinq hallarının təsiri də təqdim olunaraq məsələnin ciddiliyinə nəzər yetirilmişdir. Problemin həlli istiqamətində lider şagirdlərin sosial təsiri, müsbət məktəb mühiti, valideyn və məktəb işbirliyi, bullinqlə bağlı məlumatlandırıcı seminarların təşkili təklif olunmuşdur.
Açar sözlər: *bullinq, yeniyetmə, intihar, lider şagird, mübarizə*

Abstract. The article presents a pedagogical approach to bullying in adolescence and proposes preventive approaches to prevent it. The study presents a comparative analysis of the forms of bullying among girls and boys, taking into account the psychological and social characteristics of adolescence. The article also presents the impact of bullying on suicides in adolescence, and examines the seriousness of the issue. The social influence of leader students, a positive school environment, parent-school cooperation, and the organization of informative seminars on bullying are proposed to solve the problem.
Keywords: *bullying, teenager, suicide, leader student, struggle*

Аннотация. В статье рассматривается буллинг в подростковом возрасте с педагогической точки зрения и предлагаются профилактические подходы для его предотвращения. В исследовании представлен сравнительный анализ распространенности буллинга среди девочек и мальчиков с учетом психологических и социальных особенностей подросткового возраста. В статье также отмечено влияние буллинга на самоубийства в подростковом возрасте и рассматривается серьезность проблемы. Для решения проблемы предлагается социальное влияние учеников-лидеров, позитивная школьная среда, сотрудничество родителей и школы, а также организация познавательных семинаров по буллингу.

Ключевые слова: *буллинг, подросток, самоубийство, ученик-лидер, борьба*

Yeniyetməlik (adolescence) latın mənşəli "adolescentia" sözündən götürülmüşdür və "böyümək, yetkinləşmək" mənalarını ifadə edir. Yeniyetməlik eyni zamanda "pubescence, pubescere" terminləri ilə də ifadə olunur ki, bu terminlər daha çox yeniyetməlik dövrünün bioloji xüsusiyyətlərinə diqqət çəkir və mənası "tüklənmək, yetkinliyə çatmaq" deməkdir. (Oksford lüğəti)

Yeniyetməlik dövrü haqqında fikirlər mübahisəli olsa da bir çox alimlərin qənaətinə görə bu mərhələ 10-11 yaşdan başlayaraq 14-15 yaşa qədərki dövrü əhatə edir. Qeyd olunmalıdır ki, bəzi alimlər dövrün 18 yaşına qədər davam etdiyini bildirir.

Yeniyetməlik dövrü öz psixoloji, sosial xüsusiyyətlərinə görə böhran dövrü də adlanır. Keçid dövrü kimi xarakterizə olunan yeniyetməlik mərhələsində yeniyetmənin həyatında bir sıra mühüm dəyişikliklər baş verir. Bu dəyişikliklər fiziki, psixoloji və sosial cəhətdən təhlil edildikdə müəyyən olunur ki, fiziki baxımdan yeniyetmənin orqanizmində hormonal dəyişikliklər müşahidə olunur, psixoloji baxımdan o, öz "mən"ini dərk etməyə və şəxsiyyətini formalaşdırmağa çalışır, sosial baxımdan isə sosiallaşmağa meyillənir, dost qruplarına qoşulmağa və onlarla ünsiyyət qurmağa can atır.

Bu dövr yeniyetmənin həyatında sürətli şəkildə bioloji, psixoloji və sosial dəyişikliklərin getdiyi dövr olub, fərdin gələcəyi ilə bağlı planlar qurduğu və sosial mühitdə özünə yer tutmağa çalışdığı dövrdür. (Eskin, 2008: s.384)

Eriksonun psixososial inkişaf nəzəriyyəsinə əsasən yeniyetməlik dövrünün əsas inkişaf mərhələsi "kimlik qazanmaq və kimlik çaşqınlığıdır". Fərd bu mərhələdə sağlam kimliyini qazana bilməzsə, gələcəkdə özünü itirmə, sosial və emosional uyğunsuzluq riski artır. (Erikson, 1968: 157).

Psixoloq H.S. Sallivan yeniyetməlik dövrünü üç mərhələyə bölür. I mərhələ ön yeniyetməlik dövrü. Bu dövr uşaqlıqdan yeniyetməliyə keçidin ilkin pilləsi olub, dostluq münasibətləri qurmaq, qarşı cinslə əlaqələr yaratmaq kimi xüsusiyyətləri özündə ehtiva edir. II mərhələ gənc yeniyetməlik dövrü. Bu dövrdə cinsi yetkinliyin ilkin mərhələsi müşahidə olunur. III mərhələ yetkin yeniyetməlik dövrüdür. Bu dövrdə cinsi davranış modelləri formalaşır. (Sullivan, 1953: 242)

Sosiallaşma prosesinin sürətləndiyi, şagirdlərin özünü təsdiq etmək istədiyi bu dövrdə fərdlərarası münasibətlərdə də müəyyən çətinliklər yaranır. Belə problemlər həmyaşıdlar arasında bullinq hallarının yaranmasına gətirib çıxarır.

Bullinq bir və ya bir neçə şagirdin özündən gücsüz və özünü müdafiə edə bilməyən şagirdi qəsdən və zərər vermək məqsədilə vurması, itələməsi, ləqəb qoşması, lağ etməsi, əsəbləşməsi, təhdid etməsi, əşyalarına zərər verməsidir. (Pişkin, 2002: 538). Bullinq bir və ya bir neçə şagirdin eyni zamanda özlərindən daha zəif şagirdə zərər vermək, narahat etmək və ya alçatmaq, əzab vermək və ya işgəncə vermək cəhdləridir. (Page, 2003: 257)

Hər aqressiv davranış forması bullinq adlandırıla bilməz. Hər hansı bir aqressiv davranış formasının bullinq adlandırıla bilinməsi üçün onun davamlı, sistemli olması və buller, qurban və şahid kimi iştirakçılarının olması vacibdir. Məsələn: 7-ci sinif şagirdləri arasında hər-hansı bir səbəbdən müəyyən aqressiya baş vermişdir və bu zaman şagirdlərdən fiziki zədə alanlar olmuşdur. Bu hal bir dəfə baş vermişdir. Belə davranış bullinq adlanmır. Bu hadisə sadəcə zorakılıq olaraq qeydə alına bilər. Lakin, hər hansı bir şagird özündən zəif şagirdə davamlı olaraq aqressiya göstərirsə, ona fiziki, psixoloji zərər verirsə, sözlə təzyiq edirsə bu hadisə bullinq adlanır. Qeyd olunmalıdır ki, bullinq hallarında mütləq tərəflər arasında güc bərabərsizliyi mövcud olmalıdır.

Tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, yeniyetməlik dövründə şagirdlər arasında

bullinq hallarının sayı digər yaş qruplarına nisbətən daha yüksəkdir. (Olveus, 1993: 9-15). Ümumiyyətlə, orta məktəb yaş dövründə bullinq halları öz pik həddinə çatır. (Kreiq, Pepler və b., 2007: 465-477). Bu dövrdə həm bullinq edənlərin, həm də qurbanların sayı digər yaş dövrlərinə nisbətdə çoxdur. ABŞ-da 15 mindən çox şagird arasında aparılan araşdırma nəticəsində müəyyən edilmişdir ki bullinq halları əsasən 12-15 yaşlı şagirdlər arasında daha geniş yayılmışdır. (Nansel və b., 2001)

Yeniyetmələr arasında bullinqə səbəb isə yeniyetməlik dövrünün öz xarakterik xüsusiyyətləridir. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

1. Kimlik axtarışı və sosial status uğrunda mübarizə

Sosial qruplar arasında status qazanmaq, məktəbdə və sinifdə məşhur və sözükeçən olmaq, hər kəsin qorxaraq hörmət etdiyi biri olmaq bəzən şagirdləri buller olmağa həvəsləndirir. Yuxarı siniflərdə fiziki və psixoloji üstünlük göstərməyə çalışan şagirdlərin davranışı "qəhrəmanlıq" kimi qarşılandığına görə hərəkətlərin bullerlər tərəfindən təkrarlanmasına yol açır. Bu halda isə digər şagirdlər qurban vəziyyətinə düşür.

2. Emosional qeyri sabitlik.

Erkən yeniyetməlik dövründə şagirdlərin orqanizimində baş verən hormonal dəyşikliklər onların emosional halətlərinə təsir edə bilir. Bu dəyişikliklər onlarda emosional qeyri sabitlik, narahatlıq, qıcıqlanma və aqressiv davranış yarada bilir. Bəzi hallarda şagirdlərin öz emosiyalarını idarə etməkdə çətinlik çəkmələri həmyaşıdları ilə münasibətlərinə də birbaşa təsir edir. Xüsusilə də neqativ şəkildə fikirlərinin ifadəsi bullinq kimi neqativ davranış formalarının yaranmasına zəmin yarada bilir.

3. Liderlik uğrunda mübarizə.

Yeniyetməlik dövründə şagirdlər arasında liderlik uğrunda mübarizə daha çox özünü biruzə verir. Bəzən isə yeniyetmələr məqsədlərinə çatmaq üçün bullinqdən istifadə edirlər.

4. Empatiya hissinin tam formalaşmaması.

Yeniyetməlik dövründə şagirdlərdə "eqo" daha yüksək olduğundan onlarda başqalarına zərər verməyin mənəvi və sosial nəticələri lazımi qədər dərk olunmur. (Gini və b., 2007: 471)

5. Məktəbdə nəzarətin zəif olması.

Bəzən məktəbdə müəllim və ya məktəb rəhbərliyinin bullinq halları ilə bağlı məlumatlarının az olması, təhlükəli davranışları vaxtında müəyyənləşdirə bilməməsi bullinq hallarının artmasına gətirib çıxarır.

Tədqiqatlar əsasında müəyyən olunmuşdur ki, bullinq hallarına yeniyetmə oğlanlar daha çox məruz qalırlar. Bu fakt həm bullerlər həm də qurbanlar üçün keçərlidir. Oğlanlar arasında liderlik uğrunda mübarizə, status qazanmaq istəyi, özlərini təsdiqləmək məqsədilə aqressiv davranışlara, xüsusilə də fiziki bullinqə meyillilik müşahidə edilir. Dan Olveusun araşdırmalarına əsasən yeniyetmə oğlanlar həm fiziki bullinqin əsas icraçıları, həm də əsas qurbanları kimi çıxış edirlər. (Olweus, 1993).

Araşdırmalar əsasında müəyyən edilmişdir ki, yeniyetmə qızlar arasında bullinqin əsasən sözlü, psixoloji və sosial formaları özünü göstərir. Bu bullinq növləri digər bullinq növlərindən münasibət əsaslı olmaları ilə fərqlənir. Yeniyetmə qızlar qurbanlarını təhqir etmək, haqlarında şayiələr yaymaq, alçaldıcı ifadələrdən istifadə etmək, qruplardan təcrid edərək sosiallaşmalarına mane olmaq kimi strategiyalardan daha çox istifadə edirlər. Bu cür davranışlar qurbanlarda özünəinamı, özünəhörməti azaldır və onların məktəbdən yayınmalarına səbəb olur. Qız bullerlər manipulyasiya bacarığının üstünlüyünə görə də oğlan bullerlərdən seçilirlər.

Bullinq halları yalnız yeniyetmələrin şəxsi və akademik inkişafına deyil, həm də onların ümumi həyat keyfiyyətinə də əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Bu cür stressə daimi olaraq məruz qalan yeniyetmələrdə özünəinam, özünəhörmət hissləri azalır və bu hal depressiya və digər emosional pozuntulara yol açır. Nəticədə bəzi hallarda bullinqin qurbanı olan yeniyetmələr intihara meyilli olur və bir çox hallarda da cəhd edirlər. Bəzi hallarda isə bullerlərin özü belə intihara cəhd edirlər. Bu səbəbdən də ümumtəhsil məktəblərində bullinq hallarının vaxtında aşkarlanması və effektiv müdaxilə strategiyalarının hazırlanması və həyata keçirilməsi ciddi əhəmiyyət kəsb edir.

Ümumdünya Səhiyyə Təşkilatının 2021-ci ildəki hesabatına əsasən əsasən 15-19 yaşlı gənclər arasında ölümün üçüncü əsas səbəbi intihardır. Bu intiharların səbəbləri arasında bullinq halları əsas faktorlardandır. (WHO, 2021) Hinduja və Patçinin tədqiqatları əsasında müəyyən edilmişdir ki, bullinq qurbanı olan yeniyet-

mələr arasında intihar düşüncəsi və davranışı 3-5 dəfə çoxdur. (Hinduja və Patchin, 2010: 218).

Vurğulanmalıdır ki, bullinqin növlərindən biri olan kiberbullinqə məruz qalan yeniyetmələr arasında intihar halları daha çoxdur. Bu faktı Bauman və başqaları da təsdiq edərək bildirirlər ki, kiberbullinqə məruz qalan yeniyetmələrin intihara cəhd etmə riski ənənəvi bullinqə məruz qalanlara nisbətdə daha çoxdur. (Bauman, Toomey və Volker, 2013: 346). Buna səbəb isə kiberbullinq zamanı qurbanı hədəfə alan şəkil, video və başqa materialların çox sürətlə geniş kütləyə çata bilməsidir. Bu cür hallarda kiberbullinqə məruz qalan yeniyetmə şagird qurban kimi hamı tərəfindən tanındığını düşünür və bu kimliyin onu bütün mühitlərdə izləyəcəyini zənn edir. Nəticədə, sosial damğalanma qorxusu və çıxış yollarının məhdudluğu onu intihara sövq edir.

Yeniyetmə qız və oğlanlar arasında bullinq səbəbindən intihar faktorlarının statistikası arasında da müəyyən fərqliliklər var. Araşdırmalara görə həm qız, həm də oğlanlar bullinq səbəbindən intihar edirlər. Lakin, bu seçim həm də məruz qaldıqları bullinqin növündən asılıdır. Yuxarıda qeyd etdiyimiz kimi, qızlar daha çox bullinqin sosial, sözlü və psixoloji növlərinə məruz qalırlar. Bu bullinq növləri onların emosional sağlamlığına zərər vuraraq onlarda depressiya, özünəqapanma və intihar kimi düşüncələrin yaranmasına səbəb olur. Tədqiqatlar göstərir ki, sosial münasibətlər pozulduqda, emosional travmalar yaşadıqda qızlar intihar düşüncəsinə daha çox meyilli olurlar. (Esposito və b., 2020). Yeniyetmə oğlanların psixoloji vəziyyətlərini gizlətməyə meyilli olmaları, özlərini ifadə etməkdə çətinlik çəkmələri, problemlərini bölüşməkdə çəkinməyə meyilli olmaları onlara qarşılaşdıqları emosional çətinlikləri həll etməkdə problem yaradır. Problemlərin caynağında qalan, maneələri aşa bilməyən yeniyetmələr isə intihara cəhd edirlər. Statistikalara əsasən oğlan yeniyetmələr arasında intihar nəticəsində ölüm halları qızlara nisbətən daha yüksəkdir və buna səbəb isə onlar tərəfindən istifadə edilən intihar üsullarının daha öldürücü olmasıdır. (CDC 2023)

Yeniyetmələr arasında bullinqə qarşı ümumtəhsil məktəblərində profilaktik tədbirlər:

1. Məktəbin pedaqoji və texniki heyəti üçün bullinq təlimlərinin təşkili:

Bu təlimlər müəllim və texniki heyətə bullinqin əlamətlərini tanımağa, müəyyən etməyə və müdaxilə etmə bacarıqlarına sahib olmağa kömək edəcəkdir.

Bu cür təlimlərdə yaş, cins, fərdi xüsusiyyətləri nəzərə almaqla yeniyetmələrlə davranış qaydaları da mənimsədilməli, yeniyetmələrin buller, qurban və şahid olmağa meyilli olmasını fərqləndirmək üçün strategiyalar öyrədilməlidir.

Bullinqə qarşı müdaxilə təlim proqramlarında yeniyetmələrin yaş, cins və fərdi psixoloji xüsusiyyətlərinin öyrədilməsi əsas tutulmalıdır. Təlimlər zamanı iştirakçılara buller (bullinqi törədən), qurban (bullinqə məruz qalan) və şahidin davranış göstəriciləri haqqında məlumat verilməlidir. Bu cür yanaşma tərzi həm bullinq hallarının erkən mərhələdə aşkar olunmasına, həm də müdaxilə proqramlarının effektiv işləməsinə şərait yaradır.

2. Şagirdlərlə müntəzəm maarifləndirici seminarların keçirilməsi:

Yeniyetməlik dövrünün xüsusiyyətləri nəzərə alınaraq onlara empatiya, emosional intellekt, konfliktin sülh yolu ilə həlli imkanları, rəqəmsal təhlükəsizlik məsələləri öyrədilməlidir. Rollu oyunlar, debatlar, real hadisələrin analizi metodları ilə davranış modelləri üzərində çalışılmalıdır.

3. Şagirdlər üçün dəstək mexanizmlərinin yaradılması:

Məktəblərdə şagirdlərin təhlükəsiz formada məruz qaldıqları bullinq halları ilə bağlı anonim məlumat vermək imkanı yaradılmalıdır. Bu məktəbin elektron ünvanı və ya məktəb qutusu ola bilər.

4. **Valideynlərlə əməkdaşlığın artırılması.**

Məktəblə valideynlər arasında əməkdaşlıq şagirdlərin düzgün şəxsiyyət kimi yetişməsi, akademik nailiyyətlər əldə etməsi üçün olduqca vacibdir. Valideyn dəstəyi olmadan məktəb təlim-tərbiyə prosesindən tam müsbət nəticə ala bilməz. Bu cür dəstək xüsusilə də yeniyetməlik dövründə daha önəmlidir. Bullinq hallarına qarşı mübarizədə valideyn müəllim (xüsusilə də sinif rəhbəri) əməkdaşlığını doğru formada qurmaq üçün ilkin olaraq valideynlər üçün də bullinqlə bağlı seminarlar təşkil olunmalıdır. Sonrakı mərhələlərdə sinfin mühitini yaxşılaşdırmaq üçün valideynlərlə birgə iş aparılmalıdır. Xüsusilə də buller və qurbanların valideynləri

ilə birgə görüşlər keçirilməli, şagirdlərin davranışlarının qaynağı müəyyənləşdirilməli və məsələnin həlli üçün birgə strategiyalar hazırlanmalıdır.

5. Məktəb psixoloqunun işinin genişləndirilməsi

Psixoloqlar şagirdlərə yeniyetməlik dövrünün psixo-sosial və eləcə də fizioloji xüsusiyyətləri haqqında məlumat verərək onlara bəzi davranışlarının səbəbini aydınlaşdırmalı, aqressiya hissi ilə mübarizə və empatiya hissinin inkişafi üçün dəstək durmalıdırlar. Xüsusilə də cinsi bullinqin daha geniş vüsət aldığı yeniyetməlik dövründə şagirdlərə cinsi xüsusiyyətlər izah olunmalıdır.

6. Pozitiv məktəb mühitinin formalaşdırılması

Yeniyetmələrə hörmət, müxtəlifliyə dözümlülük və bərabərlik dəyərləri aşılanmalıdır. Məktəbin pedaqoji və texniki heyətinin də şagirdlərə qarşı dözümlü və müsbət davranışı məktəbin ümumi mühitinə öz müsbət təsirlərini göstərəcəkdir.

7. "Lider" şagirdlərin bullinqlə mübarizədə dəstəyi

Məktəb daxilində lider şagirdlərin təsir imkanlarından istifadə edərək bullinqə qarşı mübarizə strategiyaları qurmaq da öz müsbət nəticələrini verir.

Nəticə. Tədqiqatın nəticələri müəyyən edir ki, ümumtəhsil məktəblərində yeniyetmələr arasında bullinq hallarının qarşısının alınması üçün kompleks və sistemli profilaktik tədbirlərin keçirilməsi vacibdir. Məktəbin idarə heyətinin, müəllim və valideynlərin birgə fəaliyyəti, yeniyetmələr arasında sosial-emosional bacarıqların inkişaf etdirilməsi, məktəb heyəti, valideyn və şagirdlərin bullinqlə bağlı maarifləndirilməsi bu problemin azalmasında mühüm rol oynayır. Bununla yanaşı məktəb mühitində inklüzivlik və qarşılıqlı hörmətə əsaslanan tərbiyəvi yanaşma da bullinq hallarının qarşısının alınmasında müsbət nəticələrin əldə olunmasına kömək edir.

Problemin aktuallığı. Son illərdə ümumtəhsil məktəblərində, xüsusilə də yeniyetmələr arasında bullinq kimi mənfi davranış formalarının artması müşahidə olunur. Məqalə məhz bu problemə həsr olunmuş və problem və onun profilaktikası üçün müxtəlif pedaqoji təhlillər aparılmışdır.

Problemin elmi yeniliyi. Məqalədə yeniyetməlik dövründə baş verən bullinq halları pedaqoji baxış bucağından dəyərləndirilmişdir. Dövrün xüsusiyyətləri müəyyənləşdirilmiş, yeniyetmə qız və oğlanlar arasında bullinq növlərinin yayılma fərqləri təhlil olunmuşdur. Müəyyən edilmişdir ki, oğlanlar fiziki və birbaşa aqressiv davranış formalarına meyilli olduqları halda, qızlar arasında sosial və psixoloji bullinq növlərinə daha çox meylik var. Məqalədə lider şagirdlərin sosial təsirindən istifadə kimi yeni pedaqoji yanaşmalar da təklif olunur.

Problemin praktik əhəmiyyəti. Məqalədə təqdim olunan profilaktik tədbir və yanaşmalar ümumtəhsil məktəblərinin pedaqoji heyəti – müəllimlər (xüsusilə də sinif rəhbərləri), psixoloqlar, tərbiyə işləri üzrə təşkilatçılar üçün istinad rolunu oynaya bilər. Eyni zamanda tədqiqatdan yararlanan valideynlər yeniyetməlik dövrünün xüsusiyyətləri haqqında məlumat toplayıb, övladlarının riskli davranışlarını tanıya və vaxtında müdaxilə etmək imkanına sahib ola bilərlər.

Ədəbiyyat

1. Oksford lüğəti. https://www.oxfordlearnersdictionaries. com/definition/ english/adolescence
2. Eskin, M., Ertekin, H. ve Dereboy, Ç. (2008). Lise öğrencisi ergenlerde
3. depresyonun yaygınlığı ve ilişkili olduğu etmenler. Türk Psikiyatri Dergisi, 19(4), 382-389.
4. Erikson, E. H. (1968). Identity: Youth and Crisis. New York: W. W. Norton & Company. 155-160
5. Sullivan, H. S. (1953). The interpersonal theory of psychiatry. New York: W. W. Norton & Company. (242 (240-270).
6. Pişkin, M. (2002). Okul zorbalığı: tanımı, türleri, iliĢkili olduğu faktörler ve alınabilecek önlemler. Kuram ve Uygulamada Eğitim Bilimleri. 2 (2). 531-562.
7. Page, R.M. ve Page, S.T. (2003). Fostering emotional well-being in the classroom. Massachusetts:Jones & Barlett Publishers
8. Olweus, D. (1993). Bullying at School: What We Know and What We Can Do. Oxford: Blackwell.
9. Craig, W., Pepler, D., & Blais, J. (2007). Responding to Bullying: What Works?. School Psychology International, 28(4), 465–477.
10. Nansel, T. R., et al. (2001). Bullying Behaviors Among US Youth: Prevalence and Association With Psychosocial Adjustment. *JAMA*, 285(16), 2094–2100.

11. (Gini et al., 2007). Gini, G., Albiero, P., Benelli, B., & Altoè, G. (2007). Does empathy predict adolescents' bullying and defending behavior? *Aggressive Behavior*, 33(5), 467–476. https://doi.org/10.1002/ab.20204
12. Olweus, D. (1993). *Bullying at school: What we know and what we can do*. Blackwell Publishing.
13. World Health Organization. (2021). Suicide worldwide in 2019: global health estimates**.** Geneva: WHO.
14. Centers for Disease Control and Prevention. (2023). *Youth Risk Behavior Survey Data Summary & Trends Report: 2011–2021*.
15. Underwood, M. K., & Rosen, L. H. (2011). *Gender and bullying: Moving beyond mean differences to consider conceptions of bullying, processes by which bullying unfolds, and cyberbullying*. In Espelage, D., & Swearer, S. (Eds.), *Bullying in North American schools* (2nd ed.)

Redaksiyaya daxil olub:15.10.2025

UOT 378:62

Elvira Haqverdi qızı Kərimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Tarix və coğrafiya fakültəsinin dekan müavini,
fəlsəfə doktoru proqramı üzrə doktorant
https://orcid.org/0009-0000-3052-1040
E-mail:elvira.karimova83@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).300-304

MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASINDA MÜƏLLİM-VALİDEYN ƏMƏKDAŞLIĞININ ROLU

Elvira Haqverdi Karimova
deputy dean of the faculty of History and ceography
of the Azerbaijan State Pedagogical University,
doctoral student in the doctor of philosophy program

THE ROLE OF TEACHER-PARENT COOPERATION IN THE FORMATION OF TEACHER-PUPIL RELATIONS

Эльвира Хагверди гызы Керимова
заместитель декана факультета Истории и географии
Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии

РОЛЬ СОТРУДНИЧЕСТВА УЧИТЕЛЕЙ И РОДИТЕЛЕЙ В ФОРМИРОВАНИИ ОТНОШЕНИЙ УЧИТЕЛЬ-УЧЕНИК

Xülasə. Elmi məqalədə, ilkin olaraq, müəllim-valideyn əməkdaşlığı dəstəkləyici mühitin ən mühüm komponentlərindən biri kimi təqdim olunmuşdur. Məktəb və ailə arasındakı əməkdaşlığın əsas funksiyaları, "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" və onun mahiyyəti, iş funksiyası, funksional vəzifələri göstərilmişdir. Rəsmi hesabatların müəllim-valideyn əməkdaşlığında əhəmiyyəti açıqlanmışdır. Rəsmi hesabatların formaları: şagirdin qeyd kitabçası, nailiyyət kitabçası, sinif jurnalları, elektron cədvəlləri, elektron poçt haqqında geniş məlumat verilmişdir.

Məktəbin ailə ilə fərdi əlaqə formalarından olan "Valideyn günləri" və müəllim-valideyn əməkdaşlığında onun roluna aydınlıq gətirilmişdir. Valideyn iclasları və onların səmərəli təşkili yolları göstərilmişdir. Məktəbin valideynlərlə kollektiv əlaqə formalarından olan ümumməktəb valideyn yığıncaqları haqqında da geniş məlumat verilərək onun həyata keçirilməsinin əhəmiyyəti göstərilmişdir.

Nəticədə isə valideyn birliklərinin başlıca məqsədlərindən biri kimi pedaqoji ideyaların yayılması, valideynlərin maariflənməsi işində onun əhəmiyyətindən bəhs edilmişdir. Ailə ilə real əlaqə yaratmaqda və onlara pedaqoji məsləhətlərin verilməsində ən çətin işin sinif rəhbərinin üzərinə düşdüyü göstərilmişdir.

Açar sözlər: *məktəb, valideyn, şagird, kitabça, hesabat*

Abstract. The scientific article initially presented teacher-parent cooperation as one of the most important components of a supportive environment. The main functions of cooperation between school and family are shown. The "Azerbaijan Parent-Teacher Association" and its essence, work function, and functional responsibilities are shown. The importance of official reports in teacher-parent cooperation is explained. Extensive information is provided about the forms of official reports: student's record book,

achievement book, class journals, electronic spreadsheets, and e-mail. “Parent Days”, which are one of the individual forms of contact between the school and the family, and its role in teacher-parent cooperation is clarified. Parent meetings, class parent meetings, and ways to organize them effectively are shown. Extensive information is also provided about school-wide parent meetings, which are one of the collective forms of contact between the school and parents, and the importance of their implementation is shown.

As a result, it was proven that one of the main goals of parent associations is the dissemination of pedagogical ideas and the education of parents. It was shown that the most difficult task in creating real contact with the family and providing them with pedagogical advice falls on the class teacher.

Keywords: *school, parent, student, booklet, report*

Аннотация. В научной статье изначально представлено педагогическо-родительское сотрудничество как один из важнейших компонентов поддерживающей среды. Показаны основные функции взаимодействия школы и семьи, «Азербайджанская ассоциация родителей и учителей», её сущность, функции работы и функциональные задачи. Показана важность официальных отчётов в педагогическо-родительском сотрудничестве. Представлена обширная информация о формах официальных отчётов: зачётная книжка, журнал достижений, классный журнал, электронные таблицы, электронная почта. Рассмотрены «Родительские дни» – одна из форм индивидуального контакта школы с семьёй, и их роль в педагогическо-родительском сотрудничестве. Представлены родительские собрания и способы их эффективной организации. Также представлена обширная информация об общешкольных родительских собраниях – одной из форм коллективного контакта школы с родителями, и показана важность их проведения. В результате выявлено, что одной из основных целей родительских объединений является распространение педагогических идей и их значение в просвещении родителей. Показано, что наиболее сложная задача по установлению реального контакта с семьёй и предоставлению ей педагогических консультаций ложится на плечи классного руководителя.

Ключевые слова: *школа, родитель, ученик, буклет, отчёт*

Məktəbə yeni qədəm qoyan uşaqlar müəllimin səmimi, gülərüz, mehriban siması ilə rastlaşırlar. İlk növbədə, müəllimin nümunəsi şagirdlərə qayğıkeş münasibəti ilə başlayır. Müəllim elə qabiliyyətlərə sahib olmalıdır ki, onların köməyi ilə şagirdlərə mənəvi və idrakı baxımdan təsir göstərə bilsin. Sinifdə sağlam mənəvi-psixoloji mühitin yaradılması üçün bu, çox vacib amildir. A. İsmayılova yazır: “Məktəbdə ilk növbədə yaxşı insan formalaşmalıdır, milli, mənəvi və bəşəri dəyərləri özündə əks etdirməlidir. Cəmiyyətə faydalı yetişməlidir. Məktəb tək bilik vermir, həmçinin şəxsiyyətin düzgün yetişməsinə köməklik edir. Bu şəxsiyyət səriştəli müəllimin rəhbərliyi və istiqaməti ilə bacarıq və vərdişləri daha çox inkişaf etdirir.”(1, s.1-5) Həyat dönə-dönə sübut etmişdir ki, məktəb şagirdlərin təlim-tərbiyəsinin öhdəsindən yüksək səviyyədə gəlməkdə valideynlərin, bütövlükdə ictimaiyyətin köməyinə ehtiyac duyur. Məktəblə valideynlərin müntəzəm , sıx əlaqəsi uşağın təlim-tərbiyəsinin uğurlu nəticəsi üçün əsas şərtlərdən biridir. Uşağın xoşbəxt insan kimi formalaşması üçün məktəblə ailənin birgə işi həlledici amildir. S. Quliyeva yazır: Valideyn-müəllim əməkdaşlığında iki aspekt göstərir:

1) Valideynlər mütəmadi olaraq övladlarının təhsilə marağı, sinif yoldaşları və müəllimləri ilə ünsiyyət bacarıqları, davranışı, dərsə davamiyyəti, təlim nailiyyətləri, peşə maraqları haqqında məlumat alır, övladlarının oxuduğu sinifdə təhsil prosesinin təşkili ilə tanış olurlar.

2) Valideynlər məktəbin təşkil etdiyi tədbirlərdə, seminarlarda, uşaqların təlim-tərbiyəsinə həsr olunmuş layihələrin təqdimatlarında, valideyn iclaslarında, məktəbin idarə edilməsində iştirak etməklə maariflənir, öz pedaqoji bacarıqlarını artırırlar”(2, s.67- 80).

Dəstəkləyici mühitin komponentlərindən biri də müəllim-valideyn əməkdaşlığıdır. Buraya daxildir:

1) müasir tələblərə cavab verən sinif otaqları;

2) peşəkarlığı yüksək olan müəllim;

3) kömək etməyə hazır əməkdaşlar;

4) əlavə tədris vəsaitləri;

5) əməkdaşlıq edən müəllim və valideyn.

Pedaqoqlar belə hesab edirlər ki, məktəb və ailə arasındakı əməkdaşlığın bir sıra funksiyaları vardır. Bunlara ”məlumatverici, inkişafetdirici, formalaşdırıcı, istirahət və təhlükəsizlik, nəzarəti” (3, s. 10) kimi funksiyaları aid edirlər.

Müasir təlim prosesində fənn kurikulumlarının tətbiqi də valideynləri tədris prosesində fəal iştiraka, buradakı yeniliklərlə maraqlanmağa, onlara münasibət bildirməyə istiqamətləndirir, valideyn-məktəb əlaqələrinin güclənməsinə şərait yaradır.

2003-cü ildə Bakıda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, UNİCEF-in Azərbaycan üzrə nümayəndəliyinin və "Ümidli Gələcək" Gənclər Təşkilatının əməkdaşlığı və təşəbbüsü ilə "Azərbaycan Valideyn-Müəllim Assosiasiyası" yaradılmış və ilkin olaraq 5 pilot məktəbində fəaliyyətə başlamışdır. Assosiasiyanın üzvləri dərsliklərin, dərs vəsaitlərinin, məktəbdə, təlim prosesində istifadə olunan resursların hazırlanmasında yaxından iştirak etmişlər.

Hal-hazırda Assosiasiyanın fəaliyyətini tam sərbəst, müstəqil, şəffaf, məhsuldar şəkildə təmin etmək üçün onun sədri, müavinləri, hətta maliyyə məsələlərinə nəzarət edən şəxs və üzvləri vardır.

AVMA nümayəndələri yalnız məktəbin daxilində olan məsələlərə, problemlərə deyil, eyni zamanda məktəbin yaxınlığındakı təhlükəli ərazilərə baxış keçirirlər. Mövcud olan təhlükələr haqqında və təhlükəli ərazilər barədə polis əməkdaşlarına məlumat verirlər.

"Azərbaycan Valideyn-Müəllim Assosiasiyası"nın iş funksiyasına aşağıdakılar daxildir:

- əlverişli yerli təhsil mühitinin saxlanılması və təhsil tədbirlərinin keçirilməsi üçün valideynlərlə əməkdaşlığın əldə edilməsi;
- məktəb mühitində asayişin qorunması;
- təhsildə könüllülük işi (məsələn, siniflərdə hekayələr oxumaq);
- valideynlər və müəllimlər arasında qarşılıqlı anlaşmanı təşviq etmək üçün valideynlərin fikirləri və ya xahişləri barədə müəllimləri məlumatlandırmaq;
- "Azərbaycan Valideyn-Müəllim Assosiasiyaları" xəbərlərinin dərci;
- eyni zamanda valideynlər və müəllimlər üçün təhsil və valideynlik mövzusunda seminarlar keçirmək;
- mühazirələr, müzakirələr, tədris səfərləri təşkil etmək.

AVMA-nın funksional vəzifələri:

- Valideynlərin məktəb fəaliyyətinə cəlb edilməsinə köməklik etmək;
- Məktəb-valideyn arasında əlavə ünsiyyət vasitəsi kimi çıxış etmək.
- Rəsmi olaraq tanınmış xeyriyyə təşkilatları ilə birlikdə müxtəlif sosial əhəmiyyətli tədbirlərin təşkilinə təşəbbüs göstərmək və həyata keçirmək.

Valideyn-tədris yığıncaqlarında müəllimlər valideynlərə məktəbin təhsil siyasətini izah edir, valideynlər isə rəhbərlərə, qəyyumlara və müəllimlərə arzularını bildirirlər. Müəllimlərlə birlikdə sinifdəki problemləri, məktəbin ümumi təhsil problemlərini müzakirə edirlər. Valideyn-müəllim görüşlərinin təşkili ilə müəllimlər və valideynlər arasında qarşılıqlı anlaşma, dostluq, yardımlaşma kimi keyfiyyətlər də təşviq edilə bilər. G. Kazımova yazır:" Aparılan tədqiqatlara əsasən, valideynləri tədris prosesində fəal olaraq iştirak edən şagirdlər daha yaxşı nəticələr əldə edirlər. Onlar, daha yaxşı qiymətlər alır, daha yüksək akademik nailiyyətlərə sahibdirlər, ev tapşırıqları daha keyfiyyətli şəkildə yerinə yetirilmiş olur. Onların davamiyyət göstəriciləri daha yüksəkdir və onlar pozitiv hərəkətləri ilə fərqlənirlər. Məktəbə qarşı daim xoş əhval ruhiyyə də olurlar. Özlərinə və imkanlarına inamları var. Valideynlərin cəlb edilməsi tədris müəssisələri tərəfindən də müsbət qiymətləndirilir"(4, s.181-183).

Valideynlə əməkdaşlıq etməyin digər bir neçə yolu vardır. S. Yusifova bu əməkdaşlığın möhkəmləndirilməsində rəsmi hesabatların önəmli olduğunu göstərmişdir. O, bu rəsmi hesabatların formalarına aşağıdakıları daxil etmişdir:

1. Şagirdin qeyd kitabçası;
2. Nailiyyət kitabçası;
3. Sinif jurnalları;
4. Elektron cədvəlləri;
5. Elektron poçtu (5, s. 49-52).

Şagirdin qeyd kitabçası şagirdin birillik fəaliyyəti haqqında məlumat almağa yardım göstərir. Kitabçada hər gün üçün bir səhifə yer ayrılır ki, bu səhifədə həmin gün üçün dərs cədvəli və müəllimlərin bu dərslərdə şagirdin fəaliyyətini əks etdirən qeydləri yazılır. Kitabçanın sonunda müəyyən bir yer ayrılır və burada şagirdin fənlər üzrə kiçik və böyük summativ qiymətləndirmə nəticələri öz əksini tapır.

Nailiyyət kitabçası şagirdin 11 illik təhsili və nailiyyətləri haqqında nəticə çıxarmağa imkan verir. Bu kitabça hər bir təhsil pilləsi üçün və ya bütün ümumi təhsil üçün tərtib oluna bilər. Kitabçada hər sinif üçün iki səhifə ayrılır. Burada hər sinifdə tədris olunan fənlərin siyahısı və

bu fənlər üzrə böyük summativ qiymətləndirmənin nəticələri öz əksini tapır. Kitabçanın sonunda əlavə qeydlər üçün bir neçə səhifəlik yer də ayrılır. Bu hissədə şagirdin ümumi təhsil müddətində əldə etdiyi xüsusi nailiyyətlər (olimpiada nəticələri, fəxri fərmanlar) və məktəb psixoloqunun şagirdlər haqqında qeydləri, tədris müddətində şagirddə yaranmış psixoloji problemlər və onların aradan qaldırılması üçün atılan addımlar ifadə olunur. Bu kitabça valideynə, müxtəlif fənn müəllimlərinə və məktəb rəhbərliyinə şagirdin bütün tədris müddətində təlim və tərbiyə prosesini izləməyə imkan verir.

Sinif jurnalları müəllimin və şagirdin fəaliyyəti, qiymətləndirmə nəticələri haqqında məlumat almağa kömək edir. Jurnalda hər bir fənn üzrə şagirdlərin:

- kiçik və böyük summativ qiymətləndirmə nəticələri;
- keçilən mövzular;
- kiçik summativ qiymətləndirmə məqsədi ilə aparılan yoxlamaların mövzuları əks olunur.

Jurnalın sonunda davamiyyəti əks etdirən xüsusi səhifə vardır.

Elektron cədvəllər ayrı-ayrı məktəblərin göstəricilərinin, keyfiyyət dərəcələrinin yoxlanılmasına və təhlilinə şərait yaradır. Bu cədvəllər vasitəsilə hər bir sinfin və ya məktəbin nəticələri haqqında həm müvafiq təşkilatlara, həm də ictimaiyyətə məlumat çatdırmaq olar. Cədvəllərdə, əsasən, böyük summativ qiymətləndirmənin nəticələri əks olunur. Cədvəllər müxtəlif məzmunlu ola bilər və belə cədvəllərin ən başlıca üstünlüyü həm də valideynlərin məktəb seçiminə yardım etməsidir.

Elektron poçt valideynlərlə birbaşa ünsiyyətin qurulmasına, övladlarının nailiyyətləri barədə onların xəbərdar olmasına imkan yaradır.

Adları çəkilən rəsmi hesabatlarla yanaşı, valideynlərlə ildə ən azı 4 dəfə fərdi söhbət aparılmalı və aşağıdakı məsələlər birgə müzakirə olunmalıdır:

- şagirdin nizam-intizamı;
- şagirdin dərslərə davamiyyəti;
- şagirdin psixoloji və ünsiyyət problemləri, onların aradan qaldırılması yolları;
- şagirdin təlim nailiyyətləri, uğursuzluqları və s.

Valideynlərlə keçirilən görüşlərin qeydiyyatı, söhbətin mövzuları, şagirdin ailə şəraiti haqqında qeydlər müəllim tərəfindən sistemləşdirilərək şagirdin portfoliosunda yerləşdirilməlidir.

Məktəbin ailə ilə fərdi əlaqə formalarından biri "Valideyn günləri"nin keçirilməsidir. Adətən, ildə bir neçə dəfə keçirilən bu günlərdə bütün müəllimlər müəyyən olunmuş vaxtda məktəbdə olur və hər müəllim onun üçün ayrılmış otaqda valideynləri qəbul edir. Burada məqsəd onlara ayrılıqda məsləhət verməkdir. Hansı müəllimin hansı sinifdə məsləhət verdiyi məktəbin girəcəyində və ya müəllimlər otağının qapısında ümumi siyahıda yazılır. Hər otağın qapısında müəllimin adı, soyadı, hansı fəndən, hansı sinifdə dərs deməsi haqqında yazılı məlumat vurulur.

Valideyn günləri valideynlərin istədikləri müəllimlərlə görüşünü keçirmək üçün çox münasibdir. Valideyn məktəbə bir dəfə gəlməklə övladına dərs deyən bütün müəllimlərlə görüşməyə imkan tapır. Bu görüş zamanı valideynlər övladının təlim-tərbiyəsi ilə bağlı onları maraqlandıran məsələləri müəllimlərdən öyrənir, uşağın tərbiyəsi üçün vahid hərəkət xətti müəyyənləşdirirlər.

Bir çox məktəblərdə valideyn günləri maraqlı formalarda təşkil olunur; valideynlər müəllimlərdən məsləhət almaqdan əlavə, mühazirə və söhbətlərə qulaq asır, kinofilmlərə baxırlar. Eyni zamanda öz övladlarının əl işləri və yeni pedaqoji ədəbiyyatla tanış olur, ailə tərbiyəsinə aid biliklərini mübadilə edirlər. Hər valideyn günündə valideynlər çox da böyük olmayan 15-20 dəqiqəlik bir-iki mühazirə və ya söhbəti dinləyir, onları maraqlandıran məsələlər üzrə mühazirəçiyə suallar verirlər.

Məktəbin valideynlərlə kollektiv əlaqə formalarından olan ümumməktəb valideyn yığıncaqları məktəbin əksər valideynlərini əhatə etməklə, ildə 2-3 dəfə keçirilir. Ümumməktəb yığıncaqlarında valideynləri məktəbin həyatındakı hadisələrlə, məktəbin işi ilə, onun müvəffəqiyyət və problemləri, qarşıda duran vəzifələri ilə tanış edirlər. Bu yığıncaqlarda, adətən, bütün siniflərdə oxuyan şagirdlərin valideynlərini eyni dərəcədə maraqlandıran məsələlər müzakirə edilir.

Təhsilin ilk günlərindən məktəblə ailə arasında əlaqələr formalaşır. Məktəb vasitəsilə ailələr təhsildə baş verən yeniliklərdən, yeni islahatlardan xəbərdar olurlar. Ailələr bu islahatların mahiyyətini dərk edərək mümkün qədər məktəbə kömək etməyə çalışırlar. Onlar dərk edirlər

ki, uşaqların tərbiyəsi təkcə ailənin işi deyil, bu, həm də ictimai vəzifədir. Çox hallarda ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti üçün vahid plan tərtib olunur. Bəzi məktəblərdə məktəb-ailə kompleksləri yaradılır.

Valideyn birliklərinin başlıca məqsədlərindən biri pedaqoji ideyaları yaymaqdır. Bu birliklərə daxildir: valideyn komitələri, şuraları, konqresləri, yardım cəmiyyətləri, rəyasət heyətləri, komissiyalar, klublar və s. Bu birliklərdən hər birinin öz nizamnaməsi (əsasnaməsi, planı) vardır. Dəyirmi masalar, konfranslar, mühazirələr və s. tədbirlər valideynlərə çox kömək edir. Ailə ilə real əlaqə yaratmaqda ən çətin iş sinif rəhbərinin üzərinə düşür. Bu işin mühüm hissəsini müntəzəm olaraq şagirdlərin evlərinə getmək, ailə ilə daim ünsiyyətdə olmaq təşkil edir. Sinif rəhbəri ailələrə pedaqoji məsləhətlər verir, yaranan problemləri aradan qaldırmaq üçün tədbirlər müəyyənləşdirir. Valideyn toplantıları zamanı sinif rəhbərindən çox böyük ustalıq tələb olunur. Şagirdi və onun valideynini digər valideynlərin yanında təhqir etmək, kobud davranmaq olmaz.

Valideyni məktəbə dəvət etmək davamlı olmalıdır. Humanistyönlü məktəblərdə valideynlərə şagirdin uğurları haqqında mütəmadi olaraq məlumat vermək, onun gələcək fəaliyyətini daha da yaxşılaşdırmaq üçün valideynin məktəbə dəvət olunması çox müsbət nəticələr verir.

Avtoritar rejimli məktəblərdə isə valideynin məktəbə dəvət olunması üçün yalnız bir səbəb var: şagirdin təhsilindən və davranışından narazılıq. Tədqiqatlar göstərir ki, bu səbəbdən məktəbə dəvət olunan valideynlərdə neqativ emosiyalar yaranır və məktəbə qarşı onlarda bəzi hallarda narazılıq formalaşır.

Problemin aktuallığı. Məktəbdə təhsil nailiyyətlərinin təmin olunması, ilkin olaraq müəllim-şagird münasibətlərinin formalaşmasından başlayır. İnkişafımızın dəyişkən və mobil olması ilə bağlı tələblər tez-tez dəyişir və müəllim-şagird münasibətlərinin davamlı olaraq aktuallığını şərtləndirir.

Problemin elmi yeniliyi. Məqalədə müəllim-valideyn əlaqələrinin yeni təhsil şəraitində əməkdaşlıq prinsipi əsasında qurulması və şagirdlərin fəal təlim mühitinə yönəldilməsi əsaslandırılmışdır.

Problemin praktik əhəmiyyəti. Müəllim-şagird münasibətlərinin formalaşdırılmasında müəllim-valideyn əlaqələrinin roluna dair müddəalardan irəli gələn və şagird inkişafını dəstəkləyən praktik nümunələrin faydalılığı və əhəmiyyəti nəzərə alınmışdır.

Ədəbiyyat

1. İsmayılova, A. Şagird şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin təsiri //–Bakı: Bakı Qızlar Universitetinin Elmi Əsərləri, –2019. № 1, –s.1-5.
2. Quliyeva, S. Azərbaycanda ailə-məktəb əməkdaşlığının formalaşdırılması modelləri // –Bakı: Məktəbəqədər və ibtidai təhsil, –2020. № 3, –s.67-80.
3. Təhsilin inkişafında məktəb və ictimaiyyətin rolu / Z.B. Muradova, K.V Mikayılova, T.H. Muradlı [və b.] – Bakı: Zəngəzur çap evi, –2014. –107s.
4. Kazımova, G. Müəllim-şagird münasibətlərinin formalaşmasında müəllim-valideyn əməkdaşlığının rolu //-Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, –2016. № 2, –s.181-183
5. Yusifova, S. Valideyn dəstəkləyici mühitin yaradılmasında mühüm amil kimi // –Bakı: Kurikulum, –2010. № 3, –s. 49-52.

Redaksiyaya daxil olub: 01.10.2025

UOT 355.233

Amil Seydəmir oğlu Dadaşov
Milli Müdafiə Universiteti, Heydər Əliyev adına Hərbi İnstitutun dosenti
Azərbaycan Respublikası Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-9379-0798
E-mail: amilodas@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).305-312

HƏRBİ ALİ TƏHSİLDƏ MÜHƏNDİS HAZIRLIĞININ NƏZƏRİ ƏSASLARI

Amil Seydamir Dadashov
National Defense University,
associate professor
of the Military Institute after named Heydar Aliyev,
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan

THEORETICAL FOUNDATIONS OF ENGINEERING TRAINING IN MILITARY HIGHER EDUCATION

Амиль Сейдамир оглы Дадашов
Национальный университет обороны,
доцент Военного института имени Гейдара Алиева,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ИНЖЕНЕРНОЙ ПОДГОТОВКИ В ВЫСШЕМ ВОЕННОМ УЧЕБНОМ ЗАВЕДЕНИИ

Xülasə. Məqalə hərbi ali təhsildə mühəndis hazırlığının nəzəri əsaslarından bəhs edir. Məqalədə müasir dövr hərbi təhsil sistemində mühəndis hazırlığının xüsusiyyətləri araşdırılır, Azərbaycan, NATO və Türkiyə modellərinə dair elmi ümumiləşdirmələr aparılır. Texnologiyanın sürətli inkişafı və müasir müharibə şəraitində tətbiqi mühəndis zabitlərinin məsuliyyətlərini getdikcə artırır. Məqalənin məqsədi Azərbaycan Respublikasının hərbi təhsil sistemində mühəndis hazırlığının mövcud vəziyyətini təhlil etmək, onu NATO və Türkiyə modelləri ilə müqayisə etmək və inkişaf istiqamətlərini müəyyənləşdirməkdir. Araşdırmada pedaqoji metodologiyalar, texnoloji inteqrasiya, idarəetmə və liderlik bacarıqları mühəndis hazırlığının əsas komponentləri kimi təqdim olunur. Məqalə həm nəzəri, həm də praktiki aspektləri təhlil edərək, mühəndis hazırlığının təlim-tədris prosesindəki rolunu və onun hərbi təhsilin strategiyasına təsirini araşdırır. Əsas diqqət Azərbaycan modelinin formalaşmasına, onun beynəlxalq təcrübə ilə sintezinə və texnoloji yeniliklərin təlim prosesinə inteqrasiyasına yönəldilmişdir. Məqalə hərbi elmi ictimaiyyət, hərbi təhsil müəssisələrinin professor müəllim heyəti və hərbi təhsilalanlar üçün faydalı ola bilər. Araşdırma nəticələri göstərir ki, mühəndis hazırlığı proqramı yalnız texniki biliklərlə məhdudlaşmamalı, həm də strateji düşüncə, idarəetmə, liderlik və çevik qərarvermə bacarıqları ilə zənginləşdirilməlidir.

Açar sözlər: *Hərbi ali təhsil, mühəndis hazırlığı, təlim metodologiyası, texnoloji inteqrasiya, andraqogika, NATO, Türkiyə modeli*

Abstract. The article discusses the theoretical foundations of engineering training in military higher education. The article examines the features of engineering training in the modern military education system,

makes scientific generalizations on the Azerbaijani, NATO and Turkish models. The rapid development of technology and its application in modern war conditions are increasingly increasing the responsibilities of engineering officers. The purpose of the article is to analyze the current state of engineering training in the military education system of the Republic of Azerbaijan, compare it with the NATO and Turkish models, and determine the directions of development. The study presents pedagogical methodologies, technological integration, management and leadership skills as the main components of engineering training. The article analyzes both theoretical and practical aspects and examines the role of engineering training in the training process and its impact on the strategy of military education. The main focus is on the formation of the Azerbaijani model, its synthesis with international experience and the integration of technological innovations into the training process. The article may be useful for the military scientific community, professorial staff of military educational institutions, and military trainees. Research results show that an engineering training program should not be limited to technical knowledge alone, but should also be enriched with strategic thinking, management, leadership, and agile decision-making skills.

Keywords: *military higher education, engineering training, training methodology, technological integration, andragogy, NATO, Turkish model*

Аннотация. В статье рассматриваются теоретические основы инженерной подготовки в системе высшего военного образования. В статье рассматриваются особенности инженерной подготовки в современной системе военного образования, делаются научные обобщения по азербайджанской, натовской и турецкой моделям. Стремительное развитие технологий и их применение в условиях современной войны всё больше повышают ответственность офицеров-инженеров. Цель статьи – проанализировать современное состояние инженерной подготовки в системе военного образования Азербайджанской Республики, сравнить её с натовской и турецкой моделями и определить направления развития. В исследовании представлены педагогические методики, технологическая интеграция, управленческие и лидерские навыки как основные компоненты инженерной подготовки. В статье анализируются как теоретические, так и практические аспекты, рассматривается роль инженерной подготовки в учебном процессе и её влияние на стратегию военного образования. Основное внимание уделяется формированию азербайджанской модели, её синтезу с международным опытом и интеграции технологических инноваций в учебный процесс. Статья может быть полезна военно-научному сообществу, профессорско-преподавательскому составу военных учебных заведений и курсантам. Результаты исследований показывают, что программа подготовки инженеров не должна ограничиваться только техническими знаниями, но также должна быть обогащена навыками стратегического мышления, управления, лидерства и гибкого принятия решений.

Ключевые слова: *высшее военное образование, инженерная подготовка, методика обучения, технологическая интеграция, андрагогика, НАТО, турецкая модель*

Müasir dövrdə hərbi əməliyyatların xarakteri köklü şəkildə dəyişmişdir. Ənənəvi döyüş taktikaları yerini yüksək texnologiyaya əsaslanan, çevik və kompleks sistemlərə vermişdir. Bu dəyişikliklər hərbi təlim və təhsilin, xüsusilə hərbi mühəndis kadrların hazırlığının struktur və məzmununa birbaşa təsir göstərir. Azərbaycan Respublikasının 2020-ci il vətən müharibəsində əldə etdiyi uğurlar göstərdi ki, liderlik, çevik qərarvermə, texnoloji üstünlük və mühəndis bacarıqları müharibənin taleyini dəyişə bilər. Bu kontekstdə hərbi ali təhsildə mühəndis hazırlığının nəzəri əsaslarının araşdırılması strateji və elmi baxımdan son dərəcə aktuallıq kəsb edir. Məqalənin əsas məqsədi Azərbaycan Respublikasının hərbi ali təhsil sistemində mühəndis hazırlığının nəzəri və metodoloji əsaslarını araşdırmaq, onu NATO və Türkiyə modelləri ilə müqayisə etmək və inkişaf istiqamətlərini müəyyənləşdirməkdir. Həmçinin məqalədə hərbi mühəndis hazırlığının tarixi inkişaf mərhələlərinin təhlili, müasir təlim metodologiyalarını araşdırılması, beynəlxalq təcrübə (NATO və Türkiyə) ilə müqayisəsi, Azərbaycan modelinin üstünlüklərinin və çətinliklərinin, həmçinin texnoloji inteqrasiyanın təlim prosesinə təsirinin araşdırılması əsas vəzifələrdəndir. Araşdırmada müqayisəli təhlil – NATO, Türkiyə və Azərbaycan modellərinin müqayisəsi, sistemli yanaşma – mühəndis hazırlığının struktur elementlərinin təhlili, elmi ədəbiyyatın icmalı – mövcud nəzəriyyələrin və təcrübələrin öyrənilməsi və təlim prosesində istifadə olunan texnologiyaların analizi kimi bir sıra metodlardan istifadə edilməklə elmi ümumiləşdirmələr aparılmışdır.

Mühəndis hazırlığı sahəsində bir sıra nəzəri yanaşmalar mövcuddur. Klassik hərbi pedaqogika (Sun Tzu, Klauzevits) müharibənin fəlsəfi əsaslarını formalaşdırmışdır. Müasir dövrdə isə təlim prosesində andraqogika, problem əsaslı öyrənmə (PBL), simulyasiya əsaslı təlim, idarəetmə və liderlik bacarıqları kimi yanaşmalar mühüm rol oynayır. NATO təlim doktrinaları (STANAG 2394, STANAG 2238) mühəndis hazırlığında texnoloji və strateji komponentləri önə çıxarır. Türkiyə modeli isə təcrübə əsaslı praktiki məşğələlərə və milli təhlükəsizlik kontekstinə əsaslanır. Məqalə qeyd olunan nəzəri yanaşmaların təhlilinə fokuslanır.

Hərbi mühəndis hazırlığının tarixi məzmunu və müasir təlim modelləri

Hərbi mühəndis hazırlığının tarixi kökləri qədim döyüş sənətinə dayanır. Antik dövrlərdə Roma və Çin ordularında mühəndislik bacarıqları qalaların tikintisi, yolların çəkilməsi, körpülərin qurulması və mina-partlayış sistemlərinin tətbiqi ilə əlaqələndirilirdi [1]. Sun Tzu öz "Müharibə Sənəti" əsərində strateji mövqelərin qurulmasında mühəndislik biliklərinin əhəmiyyətini vurğulamışdır [2]. Orta əsrlərdə Avropa ordularında mühəndis zabitləri qala divarları, istehkamlar və müdafiə sistemlərinin qurulmasında əsas rol oynayırdılar. XIX əsrdə hərbi mühəndislik sahəsi elmi əsaslarla inkişaf etməyə başladı və bu proses texniki təhsilin genişlənməsi ilə paralel şəkildə baş verdi [3]. David Chandler öz araşdırmasında qeyd edir ki, Napoleon Bonapart dövründə Fransa ordusunda mühəndis korpuslarının rolu əhəmiyyətli dərəcədə artmış və bu sahədə ilk hərbi tədris müəssisələri – xüsusilə École Polytechnique (1794) və École Spéciale Militaire de Saint-Cyr (1802) – yaradılmışdır. Bu məktəblər mühəndislik, topçuluq və hərbi strategiya sahəsində elmi əsaslı təlimin başlanğıcını qoymuşdur [4]. XX əsrdə ikinci dünya müharibəsi mühəndis hazırlığının əhəmiyyətini daha da artırdı. İstehkamlar, xəndək sistemləri, mina sahələri, ponton körpüləri və yol infrastrukturu mühəndis zabitlərin əsas fəaliyyət sahələrinə çevrildi. SSRİ dövründə Azərbaycan hərbi təhsili sovet modelinə əsaslanırdı [5]. Mühəndis hazırlığı daha çox texniki biliklərə yönəlmişdi və ideoloji çərçivədə aparılırdı. 1991-ci ildən sonra Azərbaycan müstəqil hərbi təhsil sistemini formalaşdırmağa başladı. Bu mərhələdə Türkiyə və NATO təcrübələri əsas istinad nöqtələrinə çevrildi. 2020-ci il Vətən Müharibəsi mühəndis hazırlığının strateji əhəmiyyətini bir daha sübut etdi. Sürətli müxtəlif mürəkkəb sistemlərə malik qarışıq minalı maneələrin partladılaraq keçid üsulları, POMİNS-II keçid vasitələri, MEMATT minatəmizləmə texnikası, dronlar və su üzərində tətbiq edilən ponton körpü qurğuların tətbiqi mühəndis zabitlərin döyüşdəki xüsusi rolunu artırdı [6]. Bu dövrdən etibarən mühəndis hazırlığı yalnız texniki deyil, həm də müasir əməliyyatların əsas tələblərinə daxil olan idarəetmə, liderlik və çevik qərarvermə bacarıqları ilə zənginləşdirilməyə başlandı.

Müasir hərbi mühəndis hazırlığının əsaslandığı bir neçə əsas təlim modeli aşağıdakılardır:

a) Probleməsaslı öyrənmə (PBL) – Bu modeldə təlim real döyüş problemləri üzərində qurulur [7]. Məsələn, məşğələ mövzusuna uyğun imitasiya edilmiş mina sahəsinin təmizlənməsi, körpü qurğusunun yerləşdirilməsi və ya yol sisteminin bərpası kimi praktiki tapşırıqlar üzərində işlənilir. Bu metod zabitlərin problemi dərindən öyrənməyə, analitik düşüncə və qərarvermə bacarıqlarını inkişaf etdirir [8].

b) Simulyasiya əsaslı təlim – NATO, Türkiyə və ABŞ ordularında geniş tətbiq olunan bu model virtual mühitdə təlim keçməyə imkan verir [9]. Kompüter əsaslı simulyasiyalar vasitəsilə mina partlayışları, texniki qurğuların yerləşdirilməsi və döyüş səhnəsi şəraitində mühəndis əməliyyatları təlim olunur. Bu metod riskləri azaltmaqla yanaşı, real döyüş şəraitinə praktiki hazırlığı artırır.

c) Andraqogik yanaşma – Yetkin, kifayət qədər təcrübəyə malik lakin mühəndis hazırlığı ixtisasına yeni başlayan mütəxəssislərin öyrənmə prinsiplərinə əsaslanan bu modeldə təlim iştirakçılarının təcrübəsi, imkan və bacarıqları nəzərə alınır. Yeni mühəndis mütəxəssisi kimi ilkin təcrübə qazanmağa, öz biliklərini tətbiq etməyə, adaptasiyaya və təlim prosesində aktiv iştirak etməyə şərait yaradılır [10]. Bu yanaşma həm motivasiyanı artırır və həm də təlimin effektivliyini yüksəldir.

d) Liderlik və çevik qərarvermə – Mühəndis zabitlər yalnız texniki mütəxəssis deyil, həm də lider olmalıdır. Müasir təlim modellərində çevik qərarvermə, komanda idarəçiliyi və strateji düşüncə bacarıqları mühüm yer tutur [11]. Bu komponentlər zabitlərin döyüş şəraitin-

də əməliyyatların idarəetməsi, düzgün, məsuliyyətli və çevik qərarlar verməsinə imkan yaradır.

e) Texnoloji inteqrasiya – Dronlar, süni intellekt sistemləri, MEMATT texnikası (Mexaniki Mina Təmizləmə Təchizatı-uzaqdan idarə oluna bilən mina təmizləmə texnikası) və GİS (Coğrafi İnformasiya Sistemi – məkan məlumatlarını idarə etmək və təhlil etmək üçün kompüter əsaslı sistem) əsaslı xəritələmə texnologiyaları mühəndis hazırlığında geniş tətbiq olunur [12,13,14]. Bu texnologiyalar təlim prosesini daha real və effektiv edir. Eyni zamanda, zabitlərə silahlanmada olan müasir döyüş texnologiyalarını idarə etmə bacarığı qazanırlar.

NATO, Türkiyə və Azərbaycan modeli.

NATO modeli. NATO ölkələrində hərbi təlim və təhsil, mühəndis hazırlığı proqramları yüksək texnoloji baza və xüsusi təlim metodologiyası üzərində qurulmuşdur [15,16]. NATO-nun STANAG (Standardization Agreement) sənədləri mühəndis təliminin vahid standartlara uyğunlaşdırılmasını təmin edir. Xüsusilə STANAG 2394 və STANAG 2238 sənədləri mühəndis zabitlərin texniki və beynəlmiləl vəzifələrdə dil bacarıqlarını tənzimləyir [17,18].

NATO mühəndislik təlim sistemində aşağıdakı komponentlər əsas yer tutur:

1. Simulyasiya və virtual təlim mühitləri: NATO, ABŞ, İngiltərə, Almaniya və sair inkişaf etmiş orduları olan bir çox ölkələrdə mühəndis zabitlər döyüş şəraitini kompüter əsaslı simulyasiyalarda təcrübədən keçirirlər. Bu, iqtisadi cəhətdən həm səmərəli, həm də riskləri azaldır və real döyüşə hazırlığı artırır.

2. Fənlərarası yanaşma: Mühəndis hazırlığı yalnız texniki deyil, həm də strateji planlaşdırma, əməliyyatları idarəetmə, liderlik və sürətli qərarvermə bacarıqlarını əhatə edir.

3. Texnoloji inteqrasiya: NATO təlimlərində süni intellekt, GIS sistemləri, robot texnologiyaları, avtomatlaşdırılmış sistemlər və dronlar geniş istifadə olunur.

4. Beynəlxalq əməkdaşlıq: NATO ölkələri arasında mühəndis təlimi üzrə mübadilə proqramları mövcuddur. Bu, müasir imkanların beynəlmiləl proqramda təlimini, təcrübə paylaşımını və vahid standartların tətbiqini asanlaşdırır.

Türkiyə modeli. Türkiyə Silahlı Qüvvələri mühəndis hazırlığı proqramında həm NATO standartlarını, həm də milli təhlükəsizlik ehtiyaclarını birgə tətbiq edir [19]. Türkiyənin təlim sistemi aşağıdakı xüsusiyyətlərlə fərqlənir:

- *Praktik yönlü təlim:* Türkiyədə mühəndis zabitlər praktiki şəraitdə təlim keçirlər. Körpü qurğularının ərazidə yerləşdirilməsi, mina sahələrinin təmizlənməsi və hərbi yol körpü sistemlərinin qurulması və bərpası kimi əməliyyatlar təlimin əsas hissəsini təşkil edir.

- *Milli təhlükəsizlik konteksti:* Türkiyə modeli regional təhlükəsizlik ehtiyaclarına uyğunlaşdırılmışdır. Bu, təlim proqramlarının daha sürətli, əməliyyat bölgəsinə nəzarət və lokal şəraitə uyğun olmasını təmin edir.

- *İdarəetmə və liderlik bacarıqları:* Türk mühəndis zabitlər liderlik və komanda idarəçiliyi üzrə xüsusi təlimlər alırlar. Bu, onların döyüş şəraitində nəzarət, effektiv qərar verməsinə imkan yaradır.

- *Texnologiya və innovasiya:* ASELSAN və ROKETSAN kimi milli müdafiə sənayesi şirkətləri digər bütün sahələrdə olduğu kimi mühəndis hazırlığına da yüksək texnoloji dəstək verir. MEMATT minatəmizləmə texnikası bu sahədə ən mühüm yenilikdir.

Azərbaycan modeli. 2020-ci ildən etibarən Azərbaycan Respublikasında hərbi təhsil sistemində mühüm struktur və məzmun dəyişiklikləri baş vermişdir. Bu dəyişikliklərin əsas mərhələsi 2022-ci il 5 mart tarixli Prezident Fərmanı ilə Heydər Əliyev adına Hərbi İnstitutun yaradılması olmuşdur. Yeni institutun formalaşdırılması ilə hərbi təhsilin və hərbi təlimin kiçik Türkiyə modelinə – NATO standartlarına uyğunlaşdırılması, eləcə də milli təhlükəsizlik ehtiyaclarına inteqrasiya olunması məqsəd qoyulmuşdur [20]. Araşdırmalar göstərir ki, bu kontekstdə tətbiq olunan proqramlar mühəndis zabitlərin strateji, texniki və əməliyyat bacarıqlarının kompleks şəkildə inkişaf etdirilməsinə yönəlmişdir. Hazırda Azərbaycan modeli aşağıdakı istiqamətlər üzrə formalaşır:

- *Struktur və təşkilati baza.* Azərbaycan Silahlı Qüvvələrinin mühəndis qoşunları Müdafiə Nazirliyinin tərkibində fəaliyyət göstərir. Keçmiş hərbi akademiyanın bazasında yaradılan Milli müdafiyə universitetinin nəzdində fəaliyyət göstərən hərbi təhsil müəssisələrində mühəndis kafedraları və silsilələri yaradılmışdır. Vətən müharibəsindən sonra aparılmış islahatlar nəticəsində bütün təhsil müəssisələrinin birləşdirərək təhsilin bütün pillələrini özündə əhatə

edən Silahlı Qüvvələrinin Hərbi akademiyasının bazasında Milli müdafiə universiteti formalaşdırılmış və tədris proqramları yenilənmişdir [13]. Hazırki təlim tədris proqramları həm nəzəri, həm də praktiki komponentlərə əsaslanır.

- *Texnoloji imkanlar.* Azərbaycan mühəndis hazırlığında aşağıdakı texnologiyalardan istifadə edir:

1. MEMATT minatəmizləmə texnikası – Türkiyə ilə birgə istehsal olunan bu texnika minimum insan əməyi ilə məsafədən idarə etməklə mina sahələrinin təhlükəsiz təmizlənməsini təmin edir.

2. Dronlar və GIS sistemləri – döyüş sahəsinin kəşfiyyatı/öyrənilməsi, xəritələnməsi və müşahidəsi üçün istifadə olunur.

3. Ponton yol körpü qurğuları – çay və su maneələrinin keçilməsi üçün mühəndis əməliyyatlarında tətbiq edilir.

- *Təlim metodologiyası.* Azərbaycan modelində aşağıdakı təlim metodları tətbiq olunur:

1. Probleməsaslı öyrənmə – real döyüş tapşırıqları üzərində qurulmuş təlim(praktiki məşğələlər)

2. Simulyasiya əsaslı təlim – kompüter əsaslı təlim mühitləri

3. Andraqogik yanaşma – Yetkin mühəndislərin öyrənmə prinsiplərinə əsaslanan təlim

4. İdarəetmə və liderlik – qərarvermə və komanda idarəçiliyi bacarıqlarının inkişafı

- *Beynəlxalq əməkdaşlıq.* Azərbaycan Milli müdafiə universiteti mühəndis hazırlığı da daxil olmaqla çoxşaxəli hərbi peşə istiqamətində NATO Türkiyə və digər ölkələrin hərbi və təhsil qurumları ilə strateji əməkdaşlıq edir. Mübadilə proqramları, birgə təlimlər və texnoloji transfer bu sahədə inkişafı sürətləndirir.

- *Çətinliklər, perspektivlər və imkanlar.* Azərbaycan modelinin əsas çətinliklərinə təlim texnologiyalarının tam lokallaşdırılmaması, kadr çatışmazlığı və təlimverənlərə olan ehtiyac, tədris proqramlarının bəzi hallarda yenilənməsinə ehtiyacın olmasını qeyd etmək olar. Eyni zamanda, müdafiə sənayesinin dinamik inkişafı, beynəlxalq təcrübənin tətbiqi, gənc zabitlərin motivasiyası və texnoloji bacarıqları kimi imkanlar mövcuddur.

Hərbi ali təhsildə texnoloji imkanların təhlili və müqayisəsi

Texnoloji imkanlar. Müasir hərbi mühəndis hazırlığında texnologiya əsas rol oynayır [14]. Azərbaycan modeli bu sahədə sürətli inkişaf mərhələsindədir. Aşağıdakı texnoloji yeniliklər mühəndis təliminə inteqrasiya olunmuşdur:

1. MEMATT mühəndis minatəmizləmə texnikası. Türkiyə ilə birgə istehsal olunan MEMATT texnikası uzaqdan idarə olunan, zirehli və yüksək manevr qabiliyyətinə malik minatəmizləmə vasitəsidir. Bu texnika təlim prosesində praktiki bacarıqların inkişafına imkan yaradır.

2. Dronlar, pilotsuz uçuş aparatları və UAV (insansız aviasiya sistemi) sistemləri. Dronlar döyüş sahəsinin müşahidəsi, xəritələnməsi və təhlükəsizlik təminatı üçün istifadə olunur. Mühəndis zabitlər dronların idarə olunması və məlumatların analizinə dair xüsusi təlimlər alırlar.

3. GIS və xəritələmə texnologiyaları. Coğrafi informasiya sistemləri (GIS) mühəndis əməliyyatlarının planlaşdırılmasında mühüm rol oynayır. Təlimlərdə real xəritələr üzərində əməliyyat planları hazırlanır.

4. Süni intellekt və simulyasiya sistemləri (AI). AI əsaslı simulyasiya platformaları real döyüş şəraitini imitasiya edir. Bu sistemlər zabitlərin qərarvermə bacarıqlarını inkişaf etdirir və riskləri azaldır.

5 Robot texnologiyaları. Avtonom robotlar mina sahələrinin təmizlənməsi və texniki qurğuların yerləşdirilməsi üçün istifadə olunur. Bu texnologiyalar təlimin təhlükəsizliyini və effektivliyini artırır.

Liderlik və çevik qərarvermə. Mühəndis zabitlər yalnız texniki mütəxəssis deyil, həm də komanda lideri olmalıdır. Bu səbəbdən təlim proqramlarında çevik qərarvermə və liderlik bacarıqları mühüm yer tutur.

- *Çevik qərarvermə.* Döyüş şəraitində mühəndis zabitləri çevik, humanitar və strateji qərarlar verməlidirlər. Məsələn, mina sahəsinin təmizlənməsi zamanı mülki əhalinin təhlükəsizliyi nəzərə alınmalıdır. Təlimlərdə çevik qərarlar və döyüş əməliyyatı ssenariləri üzərində işlənilir.

- *Liderlik bacarıqları.* Komanda idarəçiliyi, motivasiya, strateji planlaşdırma və kommunikasiya mühəndis zabitlərin liderlik keyfiyyətlərini formalaşdırır. Təlimlərdə simulyasiya əsaslı liderlik tapşırıqları tətbiq olunur.

- *Stress və qərarvermə.* Döyüş şəraitində yüksək stress altında düzgün qərar vermək mühəndis zabitlər üçün həyati əhəmiyyət daşıyır.

Bu məqsədlə psixoloji hazırlıq və stressə davamlılıq üzrə təlimlər keçirilir.

Təlimin andraqogik aspektləri. Yetkinlərin öyrənmə prinsiplərinə əsaslanan andraqogik yanaşma mühəndis hazırlığında effektiv nəticələr verir [21,22].

- *Təcrübəyə əsaslanan öyrənmə.* Zabitlərin əvvəlki təcrübələri təlim prosesinə inteqrasiya olunur. Bu, motivasiyanı artırır və öyrənməni daha mənalı edir.

- *Fəallıq/interaktivlik.* Təlim iştirakçıları yalnız dinləyici deyil, həm də aktiv iştirakçı kimi çıxış edirlər. Tapşırıqlar, qrup işi və simulyasiyalar bu məqsədə xidmət edir.

- *Özünə yönəlik öyrənmə.* Zabitlər öz öyrənmə tempini və metodunu seçə bilirlər. Bu, fərdi inkişafı və məsuliyyət hissini gücləndirir.

- Refleksiya və geribildirim. Təlim prosesində refleksiya və geribildirim mühüm yer tutur. Zabitlər öz fəaliyyətlərini qiymətləndirir və inkişaf istiqamətlərini müəyyənləşdirirlər.

Təhlil və Müqayisə. Azərbaycan modeli, NATO və Türkiyə təcrübəsi ilə müqayisədə üstünlüklər və çətinliklər Cədvəl 1-də göstərilmişdir:

Cədvəl 1.
Azərbaycan modeli, NATO və Türkiyə ilə müqayisə cədvəli.

s/s	**Kriteriya**	**Azərbaycan**	**NATO**	**Türkiyə**
1.	Texnoloji baza	İnkişaf mərhələsində güclənir	Yüksək səviyyədə	ASELSAN və ROKETSAN dəstəyi ilə güclənir
2.	Təlim metodologiyası	PBL, simulyasiya, andraqogika	Simulyasiya, AI, çevik idarəetmə və liderlik	Praktikyönlü, milli kontekstli
3.	Beynəlxalq əməkdaşlıq	NATO və əsasən Türkiyə ilə	Üzv ölkələr arasında geniş əməkdaşlıq	NATO üzvü, regional liderlik
4.	Liderlik və idarəetmə təlimi	Yeni tətbiq olunur	Sistemli şəkildə inteqrasiya olunmuş	Komanda idarəçiliyi və çevik qərarvermə
5.	Çətinliklər	Kadr çatışmazlığı, texnologiyanın lokallaşması	Birləşdirilmiş standartların çoxluğu	Regional təhlükəsizlik riskləri
6.	Texnoloji baza	İnkişaf mərhələsində güclənir	Yüksək səviyyədə	ASELSAN və ROKETSAN dəstəyi ilə güclənir

Bu müqayisə göstərir ki, Azərbaycan modeli inkişaf mərhələsindədir və beynəlxalq təcrübə ilə sintez olunaraq daha səmərəli ola bilər. Texnoloji inteqrasiya, təlim metodologiyasının yenilənməsi və liderlik bacarıqlarının inkişafı mühəndis hazırlığı təliminin əsas istiqamətləridir.

Nəticə

Bu araşdırma göstərir ki, hərbi ali təhsildə mühəndis hazırlığı müasir dövrdə strateji və elmi baxımdan son dərəcə əhəmiyyətlidir. Azərbaycan Respublikasının hərbi təhsil sistemində mühəndis hazırlığı sürətlə inkişaf edir və beynəlxalq təcrübə ilə sintez olunaraq daha effektiv modelə çevrilmək potensialına malikdir. Göründüyü kimi, müasir hərbi əməliyyatlar şəraitində mühəndis zabitlərin rolu yalnız texniki biliklərlə məhdudlaşmır, həm də liderlik, çevik qərarvermə və strateji düşüncə bacarıqları ilə zənginləşdirilməlidir.

Araşdırmanın nəticələrinə əsasən aşağıdakılar müəyyən olunur:

1. Azərbaycan modeli struktur baxımından formalaşma mərhələsindədir və NATO, Türkiyə təcrübələri ilə müqayisədə çevik və lokal ehtiyaclara uyğunlaşdırılmışdır.

2. Təlim metodologiyasında probleməsaslı öyrənmə, simulyasiya əsaslı təlim və andraqogik yanaşmalar mühüm yer tutur.

3. Texnoloji inteqrasiya sahəsində POMİNS II, MEMATT texnikası, dronlar, GIS sistemləri və süni intellekt əsaslı simulyasiyalar təlimin effektivliyini artırır.

4. Liderlik və çevik qərarvermə bacarıqları mühəndis zabitlərin döyüş şəraitində düzgün və məsuliyyətli qərar verməsinə imkan yaradır.

5. Təlimin andraqogik aspektləri yetkinlərin öyrənmə prinsiplərinə əsaslanaraq motivasiyanı və öyrənmə keyfiyyətini yüksəldir.

Bu nəticələr göstərir ki, mühəndis hazırlığı yalnız texniki təlim deyil, həm də strateji və humanitar komponentləri əhatə edən kompleks bir prosesdir.

Araşdırmaya əsasən aşağıdakı tövsiyələr irəli sürülür:

Elmi tövsiyələr:

1. Hərbi mühəndis hazırlığı üzrə yeni nəzəri modellərin öyrənilməsi və Azərbaycan kontekstinə uyğunlaşdırılması
2. Təlim texnologiyalarının pedaqoji aspektlərinin araşdırılması
3. Andraqogik yanaşmaların hərbi təlimə inteqrasiyası üzrə metodiki vəsaitlərin hazırlanması

Praktiki tövsiyələr:

1. Kafedralarda Hərbi Mühəndis hazırlığının elmi-tədqiqat potensialının artırılması
2. Təlim proqramlarının müasir texnologiyalara uyğunlaşdırılması
3. Beynəlxalq təcrübə əsasında təlimçi hazırlığı və mübadilə proqramlarının genişləndirilməsi
4. Liderlik və çevik qərarvermə üzrə simulyasiya əsaslı təlimlərin tətbiqi
5. Müdafiə sənayesi ilə əməkdaşlıq çərçivəsində texnoloji yeniliklərin təlimə inteqrasiyası

Problemin aktuallığı. Müasir hərbi əməliyyatlar yüksək texnologiyaya əsaslanan çevik və kompleks sistemlərlə aparılır ki, bu da hərbi təhsilin məzmununa ciddi təsir göstərir. 2020-ci il Vətən müharibəsində Azərbaycan liderlik, xüsusi mühəndis bacarıqları və texnoloji üstünlüyü ilə qələbə əldə etdi. Bu kontekstdə hərbi ali təhsildə mühəndis hazırlığının nəzəri əsaslarının araşdırılması strateji və elmi baxımdan aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Bu məqalənin elmi yeniliyi ondan ibarətdir ki, Hərbi mühəndis hazırlığının Azərbaycan modelinin formalaşması ilk dəfə olaraq sistemli şəkildə təhlil olunur və beynəlxalq təcrübə ilə müqayisə edilir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktik əhəmiyyəti hərbi təhsil müəssisələri üçün yeni tədris modellərinin hazırlanmasına, təlim proqramlarının yenilənməsinə və mühəndis kadr hazırlığına töhfə verməsidir.

Ədəbiyyat

1. Wikipedia. *Roman military engineering*. [Elektron resurs] / URL: https://en.wikipedia.org/wiki/Roman_military_engineering
2. L. Giles, Trans: Sun Tzu. The art of war. Project Gutenberg. 2009. [Elektron resurs] / URL: https://www.gutenberg.org/ebooks/132
3. Hacker, B. C. (2018). *Engineering a new order: Military institutions, technical education, and the rise of the industrial state.* https://www.academia.edu/37259601/Engineering_a_New_Order_Military_Institutions_Technical_Education_and_the_Rise_of_the_Industrial_S
4. Chandler, D. G. (2009). The Campaigns of Napoleon. Scribner.
6. Dadaşov, A. S. Azərbaycan respublikasında hərbi - mühəndis təhsili tarixinin - pedoqoji təhlili // - Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2023. №6, - s. 227-231.
7. Dadaşov, A. S. Hərbi institutda mühəndis hazırlığı təlimi və tədrisinə dair // Heydər Əliyev adına hərbi institut-respublika elmi praktik konfransının materialları, – Bakı: – 6 – 7 may, – 2024, – s.29-30
8. Johansen, R., Sookermany, A. and Isaksen, G. (2021) 'Twisting the Pedagogy in Military Education – Experiences Drawn from a Problem-based Teaching Approach at the Norwegian Defence University College', in A. Roelsgaard Obling and L. Victor Tillberg (eds) Transformations of the Military Profession and Professionalism in Scandinavia. Copenhagen: Scandinavian Military Studies. https://doi.org/10.31374/book2-k.
9. Thain, Richard Holman, Ambrose McDonough, and Alan Duncan Priestly.(2008). "The Development and Implementation of a Teaching and Learning Strategy at a Modern Military Academy." Journal of Further and Higher Education 32 (4): 297–308.
10. Dadaşov, A. S. Hərbi ali təhsildə mütəxəssis hazırlığı: təlim prosesinə müasir texnologiyaların tətbiqi imkanları // Milli müdafiyə universitetinin hərbi elmi tədqiqat institutu-respublika elmi praktik konfransının materialları, – Bakı: – 12 – 13 mart, – 2024, – s. 98-101 https://mod.gov.az//images/pdf/7e6c1322c24fc253a2fc08953d193caa.pdf
11. CHERE Research.(2025). *Unveiling the principles of andragogy in adult education*.Understanding Andragogy: The Adult Learning Theory. https://cheresearch.org/uncategorized/andragogy/

12. Parrish, M., Corns, S. (2022*). Application of expert systems to military leadership training*. Proceedings of the International Conference on Engineering and Technology. https://www.ieworldconference.org/content/SISE2022/Papers/9-Parrish.pdf
13. Nex, F., & Remondino, F. (2014). UAV for 3D mapping applications: A review. Applied Geomatics, 6(1), 1–15.
14. Azərbaycan Respublikası Müdafiyə Nazirliyi. Azərbaycan Ordusunun hərbi elm və təhsil sistemi. [Elektron resurs] / URL: https://ordu.az/az/news/183880
15. Chmyr, V., Koriekhov, A., Psol, S., & Partyka, S. (2024). Fostering digital transformations in military engineering education: Introduction of a technologyenhanced learning environment. Problems of Education in the 21st Century, 82(2), 162-185. https://doi.org/10.33225/pec/24.82.162
16. NATO. (2025). Education and training in NATO: Engineering and innovation. [Elektron resurs] / URL: https://www.nato.int/cps/en/natohq/topics_49206.htm
17. Həşimov, E.Q.NATO ölkələrində hərbi təhsilin konseptual əsasları / Hərbi bilik. – 2010, № 6
18. NATO Standardization Office. (2019). STANAG 2238*:* Allied Joint Doctrine for Military Engineering (AJP-3.12). [Elektron resurs] / URL: https://api.army.mil/e2/c/downloads/2023/01/31/daf24e67/nato-standardization-agreements-apr-19-public.pdf
19. NATO Standardization Office. (2021). *STANAG 2394: NATO Military Engineering Doctrine*. NATO Standardization Agreement. [Elektron resurs] / URL: https://diweb.hq.nato.int/naag/Documents/0454E(2021)NU-TOR%20MILENGWG.pdf
20. Barış ATEŞ. Profesyonel askerî eğitim ve türkiye'nin model arayışı /- Ankara: SAVSAD Savunma ve Savaş Araştırmaları Dergisi, – 2022. №32 (2), – s.407-442
21. Heydər Əliyev adına Hərbi İnstitut. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 mart 2022-ci il tarixli 1626 nömrəli fərmanı. [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev_ad%C4%B1na_H%C9%99rbi_%C4%B0nstitut
22. Pierson, D. (2021). *Reengineering Army Education for Adult Learners. Journal of Military Learning*, 5(2), 45–58. Retrieved September 14, 2025, from https://www.armyupress.army.mil/Portals/7/journal-of-military-learning/Archives/Pierson-Reengineering-Army-Education.pdf
23. Bell, M. (2022). Doing and thinking: Integrating training and education for the best outcomes. Joint Forces Staff College Academic Journals. https://jfsc.ndu.edu/Media/Campaigning-Journals/Academic-Journals-View/Article/3232894/doing-and-thinking-integrating-training-and-education-for-the-best-outcomes/

Redaksiyaya daxil olub: 29.09.2025

UOT 37.1

Təranə Şəmistan qızı Paşayeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə dissertantı
E-mail: terane.pashayeva.82@gmail.com
Orcid: 0000-0001-1201-3740
https://doi.org/10.69682/arti.2025.92(6).313-317

XIX–XX ƏSRLƏR QOVŞAĞINDA AZƏRBAYCAN PEDAQOJİ FİKRİNDƏ SƏFƏRƏLİ BƏY VƏLİBƏYOVUN MAARİFÇİLİK İRSİ VƏ TƏHSİL KONSEPSİYASI

Tarana Shamistan Pashayeva
doctorial student in the program of doctor of philosophy
of the Institute of Education of the Republic of Azerbaijan

THE ENLIGHTENMENT HERITAGE AND EDUCATIONAL CONCEPT OF SAFARALI BAY VALIBAYOV IN AZERBAIJANI PEDAGOGICAL THOUGHT AT THE TURN OF THE 19TH–20TH CENTURIES

Тарана Шамистан Пашаева
диссертант по программе доктора философии
Института образования Азербайджанской Республики

ПРОСВЕТИТЕЛЬСКОЕ НАСЛЕДИЕ И КОНЦЕПЦИЯ ОБРАЗОВАНИЯ САФАРАЛИ БЕКА ВЕЛИБЕКОВА В АЗЕРБАЙДЖАНСКОЙ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ НА СТЫКЕ XIX–XX ВЕКОВ

Xülasə. Məqalədə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrinin formalaşmasında mühüm rol oynamış maarifçi-pedaqoq Səfərəli bəy Vəlibəyovun həyat yolu, pedaqoji baxışları və metodik sistemi kompleks şəkildə araşdırılmışdır.
Açar sözlər: *Azərbaycan maarifçiliyi, pedaqoji fikir tarixi, ana dilində tədris, humanist pedaqogika, dərslik yaradıcılığı, milli tərbiyə*

Abstract. The article provides a comprehensive analysis of the life path, pedagogical views, and methodological system of Safaraly bay Valibayov, a prominent educator who played a significant role in the development of Azerbaijani pedagogical thought at the turn of the late nineteenth and early twentieth centuries.
Keywords: *Azerbaijani enlightenment, history of pedagogical thought, mother-tongue instruction, humanistic pedagogy, textbook development; national education*

Аннотация: В статье комплексно исследуются жизненный путь, педагогические взгляды и методическая система просветителя и педагога Сафарали бека Валибекова, сыгравшего значительную роль в формировании азербайджанской педагогической мысли конца XIX – начала XX веков.
Ключевые слова: *азербайджанское просветительство, история педагогической мысли, обучение на родном языке, гуманистическая педагогика, учебники, национальное воспитание*

Giriş. XIX əsrin sonlarında müəllim hazırlığı məsələsi Azərbaycan üçün həyati əhəmiyyət daşıyırdı. İbtidai və orta məktəblərin sayının artması peşəkar pedaqoqlara ehtiyacı kəskin şəkildə artırmışdı. Bu ehtiyacın ödənilməsində Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası xüsu-

si rol oynamışdır. 1876-cı ildə yaradılan bu seminariya regionda dünyəvi pedaqoji təhsilin əsas mərkəzlərindən birinə çevrilmişdir.

1879-cu ildə seminariyanın nəzdində Azərbaycan şöbəsinin açılması milli pedaqoji fikir tarixində mühüm hadisə idi. Bu şöbə azərbaycanlı müəllimlərin hazırlanmasını hədəfləyir və kənd məktəbləri üçün kadr təminatını həyata keçirirdi. Səfərəli bəy Vəlibəyov bu şöbənin ilk məzunlarından biri olmaqla, yalnız müəllim kimi deyil, həm də pedaqoji metodist və maarifçi kimi formalaşmışdır.

Seminariyalarda tədrisin rus dilində aparılmasına baxmayaraq, ana dili və dini fənlərin tədrisi milli kimliyin qorunması baxımından mühüm rol oynayırdı. Bu fakt Səfərəli bəy Vəlibəyovun sonrakı pedaqoji fəaliyyətində ana dilinə və milli-mədəni dəyərlərə xüsusi önəm verməsinin əsas səbəblərindən biri kimi qiymətləndirilə bilər.

XIX–XX əsrlərin qovşağında Azərbaycan pedaqoji fikri mürəkkəb, lakin məhsuldar inkişaf mərhələsindən keçmişdir. Maarifçilik ideyaları, imperiya təhsil siyasətinin ziddiyyətləri, müəllimlər seminariyalarının fəaliyyəti və yeni ziyalı nəslinin formalaşması milli pedaqoji düşüncənin əsas struktur elementlərini müəyyən etmişdir. Bu mühit Səfərəli bəy Vəlibəyovun pedaqoji dünyagörüşünün, metodik yanaşmalarının və maarifçilik missiyasının formalaşmasında həlledici rol oynamışdır [Paşayeva, 2025].

Səfərəli bəy Vəlibəyovun pedaqoji görüşlərini və elmi-metodik irsini dərindən anlamaq üçün onun həyat yoluna və fəaliyyət göstərdiyi ictimai-mədəni mühitə nəzər salmaq zəruridir. O, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan maarifçilik hərəkatının ön sıralarında yer alan, müəllimlik fəaliyyətini milli-mədəni məsuliyyətlə birləşdirən nadir pedaqoji simalardan biri olmuşdur. Səfərəli bəyin həyat yolu təkcə fərdi peşəkar inkişafın deyil, eyni zamanda milli təhsilin formalaşmasının canlı nümunəsi kimi çıxış edir.

Səfərəli bəy Vəlibəyov Şuşada doğulmuş, uşaqlıq və gənclik illərini zəngin mədəni ənənələrə malik Qarabağ mühitində keçirmişdir. Şuşa XIX əsrdə Azərbaycanın əsas mədəni və maarifçilik mərkəzlərindən biri idi. Bu şəhər ədəbiyyat, musiqi və təhsil baxımından ölkənin aparıcı intellektual ocaqlarından sayılırdı. Belə bir mühit gənc Səfərəli bəyin dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

Onun ilkin təhsili klassik Şərq məktəbi ənənələri ilə bağlı olsa da, sonrakı mərhələdə dünyəvi təhsilə yönəlməsi onun pedaqoji baxışlarında sintezçi mövqenin yaranmasına səbəb olmuşdur. Şərq əxlaqı və Avropa pedaqoji rasionalizmi onun düşüncəsində bir-birini tamamlayan elementlər kimi çıxış edirdi.

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında təhsil alan Səfərəli bəy müasir pedaqoji metodlarla tanış olmuş, tədrisin sistemli təşkili, şagird psixologiyasının nəzərə alınması və praktiki məşğələlərin əhəmiyyəti haqqında dərin biliklər əldə etmişdir. Eyni zamanda, seminariyada ana dili və milli məsələlər ətrafında gedən müzakirələr onun milli təhsil ideallarını möhkəmləndirmişdir.

1881-ci ildə seminariyanı bitirən ilk azərbaycanlı məzunlardan biri kimi Səfərəli bəy "xalq müəllimi" adına layiq görülmüşdür. Bu fakt onun yalnız akademik hazırlığının deyil, həm də pedaqoji potensialının yüksək qiymətləndirildiyini göstərir.

Seminariyanı bitirdikdən sonra Səfərəli bəy Vəlibəyov müəllimlik fəaliyyətinə başlamış və qısa müddətdə peşəkar pedaqoq kimi tanınmışdır. Onun dərs demə tərzi klassik mexaniki əzbərləməyə deyil, şagirdlərin fəal iştirakına əsaslanırdı. O, dərslərində dialoq, sual-cavab, praktiki tapşırıqlar və müşahidə metodlarından istifadə edirdi.

Səfərəli bəy üçün müəllimlik yalnız peşə deyil, ictimai missiya idi. O, məktəbi cəmiyyətin intellektual və mənəvi inkişaf mərkəzi kimi qəbul edirdi. Bu baxımdan onun pedaqoji fəaliyyəti həm şagirdləri, həm də yerli ictimai mühiti əhatə edirdi. Müəllim kimi qazandığı nüfuz ona maarifçilik ideyalarını daha geniş auditoriyaya çatdırmaq imkanı verirdi.

Səfərəli bəy Vəlibəyovun maarifçilik fəaliyyətində ana dili məktəblərinin təşkili xüsusi yer tuturdu. XIX əsrin sonlarında rusdilli məktəblərin üstünlük təşkil etdiyi bir dövrdə ana dilində təhsilin təşkili milli cəsarət və prinsipiallıq tələb edirdi. Səfərəli bəy bu istiqamətdə praktiki addımlar ataraq Şuşada ana dili məktəbi açmış və burada səs üsulu ilə tədrisi tətbiq etmişdir.

Bu məktəblər təkcə savad öyrətmə funksiyasını yerinə yetirmirdi; onlar milli şüurun formalaşması, dilin qorunması və cəmiyyətin maariflən-

məsi baxımından mühüm rol oynayırdı. Səfərəli bəy məktəbində müxtəlif sosial təbəqələrdən olan uşaqların təhsil alması onun sosial bərabərlik ideyasına sadiqliyini göstərirdi.

Səfərəli bəy Vəlibəyov təkcə sinif otağında deyil, ictimai müstəvidə də fəal idi. O, digər maarifçilərlə əməkdaşlıq edir, pedaqoji problemlər ətrafında müzakirələr aparır və təhsil islahatlarının zəruriliyini müdafiə edirdi. İsmayıl bəy Qasprinski ilə görüşü və onun ideyalarından təsirlənməsi Səfərəli bəyin pedaqoji dünyagörüşünün beynəlxalq türk maarifçiliyi ilə əlaqələndiyini göstərir. Bu əlaqələr onun pedaqoji fəaliyyətini regional çərçivədən çıxararaq daha geniş mədəni-coğrafi kontekstə daxil etmişdir. Səfərəli bəy üçün maarifçilik yalnız lokal problem deyildi; o, bunu ümumtürk və ümumbəşəri inkişaf məsələsi kimi dəyərləndirirdi.

Səfərəli bəy Vəlibəyovun həyat yolu və maarifçilik fəaliyyəti onun pedaqoji irsinin ideya-mənbəyini təşkil edir. Qarabağ mühitində formalaşması, Qori Müəllimlər Seminariyasında aldığı təhsil, müəllimlik təcrübəsi və ictimai fəaliyyəti onun pedaqoji görüşlərini sistemli və çoxşaxəli etmişdir. O, müəllim obrazını bilik daşıyıcısından çox, cəmiyyətin mənəvi-intellektual rəhbəri kimi təqdim etmişdir.

Bu həyat və fəaliyyət təcrübəsi növbəti mərhələdə onun pedaqoji baxışlarının, metodik prinsiplərinin və dərslik yaradıcılığının formalaşmasına zəmin yaratmışdır.

Səfərəli bəy Vəlibəyovun pedaqoji baxışları XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan təhsil sistemində gedən keyfiyyət dəyişikliklərinin bariz ifadəsidir. Onun pedaqoji sistemi yalnız tədris texnikalarının məcmusu deyil, dərin fəlsəfi və humanist əsaslara söykənən kompleks bir təhsil konsepsiyasıdır. Bu konsepsiyanın mərkəzində şagird şəxsiyyəti, onun intellektual, əxlaqi və sosial inkişafı dayanırdı. Vəlibəyov üçün təhsil passiv bilik ötürülməsi deyil, şagirdin fəal idrak prosesinə cəlb edildiyi yaradıcı bir mühit idi.

Səfərəli bəy Vəlibəyovun pedaqoji dünyagörüşünün təməlində humanizm ideyası dayanırdı. O, təhsili insanın şəxsiyyət kimi formalaşmasının əsas vasitəsi hesab edir, şagirdə yalnız öyrədilən obyekt kimi deyil, öz potensialı olan müstəqil subyekt kimi yanaşırdı. Bu yanaşma dövrün ənənəvi, avtoritar təlim üsullarından köklü şəkildə fərqlənirdi.

Vəlibəyov hesab edirdi ki, şagirdin şəxsiyyətinə hörmət, onun fikir və düşüncələrinin nəzərə alınması tədris prosesinin səmərəliliyini artırır. O, zorakılığa, təhqirə və mexaniki əzbərləməyə əsaslanan tərbiyə üsullarını qəbul etmir, əksinə, inandırma, izah və nümunə göstərmə prinsiplərini ön plana çəkirdi. Bu baxımdan onun pedaqoji yanaşması müasir humanist pedaqogikanın ilkin formalarından biri kimi dəyərləndirilə bilər.

Səfərəli bəy Vəlibəyovun pedaqoji sistemində şagirdyönlü təlim əsas metodoloji prinsip kimi çıxış edirdi. O, dərs prosesində şagirdlərin fəal iştirakını təmin etməyə çalışır, sual-cavab, dialoq və praktik tapşırıqlardan geniş istifadə edirdi. Şagirdlərin müstəqil düşünməsi, problem həll etmə bacarıqlarının inkişafı onun üçün əsas məqsədlərdən biri idi.

Vəlibəyov dərs planlamasında şagirdlərin yaş xüsusiyyətlərini, psixoloji inkişaf səviyyələrini və fərdi qabiliyyətlərini nəzərə alırdı. Bu, hər bir şagirdin təlim prosesində öz sürəti ilə irəliləməsinə imkan yaradırdı. O, eyni mövzunun müxtəlif üsullarla izah edilməsini, fərqli tapşırıqların tətbiqini tədrisin effektivliyinin artırılması baxımından zəruri hesab edirdi.

Bu yanaşma müasir pedaqogikada geniş yayılmış fərdiləşdirilmiş təlim və diferensiallaşdırılmış tədris anlayışları ilə səsləşir [Babayev, 2006]. Səfərəli bəyin pedaqoji baxışlarının bu aspekti onun dövrünü qabaqladığını göstərir.

Ana dilində tədris Səfərəli bəy Vəlibəyovun pedaqoji konsepsiyasının mərkəzi elementlərindən biridir. O, ana dilini yalnız kommunikasiya vasitəsi kimi deyil, milli kimliyin, mədəni yaddaşın və mənəvi dəyərlərin daşıyıcısı kimi qiymətləndirirdi. Vəlibəyovun fikrincə, uşaqlar ana dilində təhsil aldıqda bilikləri daha dərindən mənimsəyir və öz fikirlərini sərbəst ifadə etməyi öyrənirlər.

Vəlibəyovun ana dili konsepsiyası dövrün rusdilli təhsil siyasətinə qarşı elmi və pedaqoji əsaslandırılmış alternativ kimi çıxış edirdi. Bu, onun pedaqoji fəaliyyətində milli mövqeyin nə qədər güclü olduğunu göstərir.

Səfərəli bəy Vəlibəyovun didaktik sistemi səs üsulu (fonetik metod), vizual materiallardan istifadə və praktiki məşğələlərə əsaslanırdı. Səs üsulu oxu və yazı bacarıqlarının formalaşmasında xüsusilə effektiv idi və uşaqların dil strukturunu daha asan mənimsəməsinə imkan verirdi. Bu metod şagirdlərin mexaniki əzbərləmədən

uzaqlaşaraq məntiqi düşünməsini stimullaşdırırdı [Əhmədov, 2014].

Vəlibəyov dərslərində əyani vəsaitlərdən, gündəlik həyatdan götürülmüş nümunələrdən və real müşahidələrdən istifadə edirdi. Bu yanaşma biliklərin abstrakt deyil, konkret və praktik şəkildə qavranılmasına şərait yaradırdı. Onun üçün dərsin həyatla əlaqələndirilməsi pedaqoji prosesin əsas şərtlərindən biri idi.

Səfərəli bəy Vəlibəyov müəllimi yalnız bilik ötürən şəxs deyil, həm də mənəvi rəhbər və tərbiyəçi kimi görürdü. Müəllimin davranışı, danışıq tərzi və münasibəti şagirdlərin formalaşmasında həlledici rol oynayırdı. Bu səbəbdən o, müəllim etikası məsələsinə xüsusi diqqət yetirirdi. Vəlibəyov müəllim-şagird münasibətlərində qarşılıqlı hörmət və etimada əsaslanan model təklif edirdi. O, müəllimin nüfuzunu qorumaqla yanaşı, şagirdin şəxsiyyətinə hörmət etməyin vacibliyini vurğulayırdı. Bu balanslı yanaşma sinif mühitində sağlam psixoloji atmosferin formalaşmasına xidmət edirdi. Səfərəli bəy Vəlibəyovun pedaqoji baxışları və metodik sistemi Azərbaycan pedaqoji fikir tarixində humanist və yenilikçi istiqamətin parlaq nümunəsidir. Onun şagirdyönlü təlim prinsipi, ana dilində tədris konsepsiyası və didaktik yanaşmaları müasir pedaqoji nəzəriyyələrlə səsləşir. [Sahib qızı, 2025].

Səfərəli bəy Vəlibəyovun pedaqoji irsində dərslik yaradıcılığı və tərbiyə məsələləri xüsusi yer tutur. O, tədris materiallarını yalnız bilik ötürən vasitə kimi deyil, şagird şəxsiyyətinin formalaşmasına xidmət edən çoxfunksiyalı pedaqoji alət kimi dəyərləndirirdi. Bu baxımdan onun hazırladığı dərsliklər və metodik vəsaitlər dövrünün sadə tədris kitablarından əsaslı şəkildə fərqlənir, daha geniş maarifçilik və tərbiyə missiyasını daşıyırdı.

"Vətən dili" dərsliyi vasitəsilə Vəlibəyov ana dilində tədrisin pedaqoji üstünlüklərini praktik olaraq nümayiş etdirmiş, bu sahədə sonrakı nəsil pedaqoqlar üçün metodik istiqamət müəyyən etmişdir.

Səfərəli bəy Vəlibəyovun "Üsuli-cədid" ruhunda hazırladığı dərslik və metodik tövsiyələr yeni təlim üsullarının Azərbaycanda yayılmasına mühüm töhfə vermişdir. Üsuli-cədid təlimi klassik mədrəsə üsullarından fərqli olaraq, sistemli dərs planlaması, mərhələli öyrənmə və şagirdin fəal iştirakı prinsiplərinə əsaslanırdı [Hacıyev, 2009].

Vəlibəyov bu üsulu milli kontekstə uyğunlaşdıraraq tətbiq etmişdir. O, səs üsulunu əsas götürmüş, vizual və praktik metodlardan istifadə etməklə dərsləri daha anlaşılan və maraqlı etmişdir. Bu yanaşma təhsilin keyfiyyətini artırmaqla yanaşı, müəllimlərin də metodik hazırlığının yüksəldilməsinə xidmət edirdi.

"Üsuli-cədid" yanaşması Vəlibəyovun pedaqoji sistemində sadəcə texniki metod deyil, ümumi maarifçilik fəlsəfəsinin ifadəsi idi. Bu fəlsəfə biliklə yanaşı düşünməyi, analiz etməyi və yaradıcı yanaşmanı təşviq edirdi.

Səfərəli bəy Vəlibəyovun "Xəzineyi-əxbar" əsəri onun pedaqoji baxışlarının ensiklopedik xarakterini açıq şəkildə nümayiş etdirir. Bu əsər müxtəlif sahələr üzrə bilikləri bir araya gətirərək şagirdlərin və oxucuların ümumi dünyagörüşünü genişləndirməyə xidmət edirdi. Tarix, coğrafiya, ictimai həyat və mədəniyyətlə bağlı məlumatların bir mənbədə təqdim olunması Vəlibəyovun multidissiplinar yanaşmasının göstəricisidir.

"Xəzineyi-əxbar" təkcə dərs vəsaiti deyil, həm də maarifçi-bilik kitabı kimi çıxış edirdi. Bu əsər vasitəsilə Vəlibəyov oxucuların tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyi, onları ətraf dünyada baş verən proseslərə maraq göstərməyə təşviq etməyi qarşısına məqsəd qoymuşdur.

Səfərəli bəy Vəlibəyovun pedaqoji konsepsiyasında tərbiyə məsələləri təhsildən ayrı deyil, onun ayrılmaz hissəsi kimi təqdim olunurdu. O, hesab edirdi ki, savadlı, lakin əxlaqi dəyərlərdən uzaq insan cəmiyyət üçün təhlükə yarada bilər. Bu səbəbdən təlim prosesi ilə yanaşı, əxlaqi tərbiyə də sistemli şəkildə aparılmalı idi.

Vəlibəyovun tərbiyə modelində dürüstlük, əməksevərlik, məsuliyyət, hörmət və tolerantlıq kimi dəyərlər ön plana çıxırdı. Müəllim bu dəyərlərin daşıyıcısı və təbliğatçısı olmalı, öz davranışı ilə şagirdlərə nümunə göstərməli idi. Bu baxımdan müəllimin şəxsi nüfuzu tərbiyə prosesində əsas amillərdən biri hesab olunurdu.

Milli kimlik və vətənpərvərlik Səfərəli bəy Vəlibəyovun tərbiyə konsepsiyasının mühüm komponentlərindən idi. O, şagirdlərin öz xalqının tarixini, dilini və mədəniyyətini tanımasını vacib hesab edir, bu biliklərin milli şüurun formalaşmasında əsas rol oynadığını vurğulayırdı. Onun dərsliklərində və tədris materialla-

rında milli mövzulara geniş yer verilməsi təsadüfi deyildi [Hüseynzadə, 2020].

Vəlibəyov üçün vətənpərvərlik yalnız emosional bağlılıq deyil, həm də sosial məsuliyyət və fəallıq demək idi. O, şagirdləri cəmiyyətə faydalı, vətəninə xidmət edən şəxsiyyətlər kimi yetişdirməyi pedaqoji fəaliyyətinin əsas məqsədlərindən biri hesab edirdi.

Səfərəli bəy Vəlibəyovun dərslik yaradıcılığı və tərbiyə konsepsiyası onun pedaqoji irsinin ən praktik və təsirli sahələrindən biridir. "Vətən dili", "Üsuli-cədid" və "Xəzineyi-əxbar" kimi əsərlər yalnız tədris vəsaiti deyil, milli-mədəni və əxlaqi dəyərlərin daşıyıcısı kimi çıxış etmişdir. Onun tərbiyə modeli isə müasir pedaqogikada aktual olan şəxsiyyətyönümlü və dəyərəsaslı təhsil yanaşmaları ilə səsləşir.

Nəticə. Aparılan tədqiqat göstərir ki, Səfərəli bəy Vəlibəyov Azərbaycan pedaqoji fikir tarixində maarifçi-humanist istiqamətin formalaşmasında mühüm yer tutan şəxsiyyətlərdən biridir. Onun pedaqoji baxışları dövrün sosial-mədəni tələblərinə cavab verməklə yanaşı, müasir pedaqoji yanaşmalarla da məzmun və metodoloji baxımdan səsləşir. Vəlibəyovun şagirdyönümlü təlim prinsipləri, ana dilində tədrisə verdiyi önəm və tərbiyə prosesinə dəyərəsaslı yanaşması onun pedaqoji sisteminin əsasını təşkil etmişdir.

Problemin aktuallığı. Məqalə Azərbaycan pedaqoji fikrinin XIX–XX əsrlərdəki inkişafını öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir. Səfərəli bəy Vəlibəyovun maarifçilik irsi və təhsil konsepsiyası həmin dövrün təhsil islahatlarını və intellektual mühitini əks etdirir. Onun fikirləri Azərbaycanın təhsil sisteminin formalaşmasında əsas rol oynayıb.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi Səfərəli bəy Vəlibəyovun pedaqoji irsinin yalnız tarixi-pedaqoji fakt kimi deyil, bütöv bir təhsil konsepsiyası kimi sistemli şəkildə təhlil edilməsindən ibarətdir. Tədqiqatda onun dərslik yaradıcılığı, metodik prinsipləri və tərbiyə modeli qarşılıqlı əlaqədə araşdırılmış, Vəlibəyovun pedaqoji ideyalarının müasir humanist və şəxsiyyətyönümlü təhsil nəzəriyyələrinin ilkin formalarından biri olduğu elmi əsaslarla göstərilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalənin nəticələri müasir Azərbaycan təhsil sistemində ana dilində tədrisin təkmilləşdirilməsi, şagirdyönümlü təlimin tətbiqi və dəyərəsaslı tərbiyə modelinin inkişafı baxımından praktik əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Paşayeva, T. (2022). The main ideology of Safarali Bey Valibayov's pedagogical activity. Modern Scientific Technology. https://ojs.publisher.agency/index.php/MSC/article/view/88
2. Paşayeva, T. (2025). Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti və müəllimlik irsi. Məktəbəqədər və İbtidai Təhsil. https://ppe-journal.edu.az/frontend/uploads/files/M%C4%B0T%202025%20%E2%84%963.pdf
3. Sahib qızı, G. (2025). Reflection of Safarali Bay Valibayov's pedagogical and enlightenment ideas in modern Azerbaijani education. Ancient Land International Scientific Journal. https://doi.org/10.36719/2706-6185/49/50-53
4. Babayev, N. (2006). Səfərəlibəy Vəlibəyovun əsərləri və tərbiyə fəaliyyəti. Bakı: İdman. journals.arti.edu.az
5. Əhmədov, H. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və Təhsil. journals.arti.edu.az
6. Hacıyev, V. (2009). Səfərəlibəy Vəlibəyovun pedaqoji fəaliyyətinin tarixi əsasları. Təhsil və Tədris Elmləri, (2), 44–52. journals.arti.edu.az
7. Hüseynzadə, R. L. (2020). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti.

Redaksiyaya daxil olub: 04.12.2025

UOT 376.44

Səbinə Ramiz qızı Aslanova
pedaqogika üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0001-4052-1631
E-mail: sabina-aslanova@bk.ru
https://doi.org/10.69682/arti.2025.92(6).318-321

UŞAQ SEREBRAL İFLİC ZAMANI MUALİCƏVİ BƏDƏN TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Sabina Ramiz Aslanova
doctor of philosophy in pedagogy,
Azerbaijan State Pedagogical University

FEATURES OF PHYSICAL THERAPY IN CHILDREN WITH CEREBRAL PALSY

Сабина Рамиз гызы Асланова
доктор философии по педагогике,
Азербайджанский Государственный Педагогический Университет

ОСОБЕННОСТИ ЛЕЧЕБНОЙ ФИЗКУЛЬТУРЫ ПРИ ДЕТСКОМ ЦЕРЕБРАЛЬНОМ ПАРАЛИЧЕ

Xülasə. Uşaq serebral iflici – baş beynin doğuşdan əvvəlki, doğuş zamanı və ya doğuşdan sonrakı dövrlərdə müxtəlif səbəblərdən zədələnməsi nəticəsində əmələ gələn, adətən erkən uşaqlıq dövründə aşkarlanan və hərəki pozulmalarla: iflicl ər, əzələ zəifliyi, koordinasiya pozulmaları, qeyri- iradi hərəkətlərlə xarakterizə olunan bir haldır. Bu uşaqlarda epileptik tutmalar, psixi inkişaf ləngiməsi, qavrama və öyrənmə çətinlikləri, görmə, eşitmə, nitq, intellekt pozğunluqları da müşahidə oluna bilər. Baxmayaraq ki, serebral iflicli uşaq çox zaman əqli inkişafdan geri qalmış uşaq kimi təəssürat yaradır, bu heç də həmişə həqiqətə uyğun olmur. Serebral iflicə oxşar vəziyyətlər istənilən yaşda keçirilmiş infeksion xəstəlikdən, insultdan və yaxud kəllə-beyin travmasından sonra əmələ gələ bilər.
Açar sözlər: *kəllə-beyin travması, insult, infeksion xəstəlik, serebral iflic, motor disfunksiya*

Abstract. Cerebral palsy in children is a condition that arises as a result of brain damage occurring in the prenatal, perinatal, or postnatal periods due to various causes. It is usually identified in early childhood and is characterized by motor impairments such as paralysis, muscle weakness, coordination disorders, and involuntary movements. Children with this condition may also experience epileptic seizures, delayed mental development, difficulties with perception and learning, as well as visual, auditory, speech, and intellectual disorders. Although a child with cerebral palsy often gives the impression of being mentally retarded, this is by no means always the case. Conditions similar to cerebral palsy can also occur at any age after infectious diseases, stroke, or traumatic brain injury.
Keywords: *traumatic brain injury, stroke, infectious disease, cerebral palsy, motor dysfunction*

Аннотация. Детский церебральный паралич – это состояние, возникающее в результате повреждения головного мозга в дородовой, родовой или послеродовой периоды по различным причинам. Обычно выявляется в раннем детстве и характеризуется двигательными нарушениями: параличами, мышечной слабостью, нарушением координации, непроизвольными движениями. У таких детей могут наблюдаться эпилептические приступы, задержка психического развития, трудности восприятия и

обучения, нарушения зрения, слуха, речи и интеллекта. Несмотря на то, что ребёнок с церебральным параличом часто производит впечатление умственно отсталого, это далеко не всегда соответствует действительности. Состояния, сходные с церебральным параличом, могут возникать в любом возрасте после перенесённых инфекционных заболеваний, инсульта или черепно-мозговой травмы.

***Ключевые слова**: черепно-мозговая травма, инсульт, инфекционное заболевание, церебральный паралич, моторная дисфункция*

Uşaq serebral iflici zamanı hərtərəfli diaqnozun aparılması əksər hallarda xəstəliyin proqnozunu müəyyən etməyə və adekvat terapevtik və korreksion tədbirləri inkişaf etdirməyə imkan vermir. Serebral iflici olan uşaqların hərtərəfli reabilitasiyası tibbi, psixoloji, pedaqoji, sosial və loqopedik yardımın göstərilməsini, bütövlükdə sosial inteqrasiyanın, ümumi və peşə hazırlığının təmin edilməsini əhatə edir. Hərtərəfli təsirin vacib şərti serebral iflicli uşağın və onun ailəsinin diaqnostikası, müalicəsi, korreksiyası və dəstəklənməsi proseslərində müxtəlif profilli mütəxəssislərin qarşılıqlı əlaqəsidir.

Uşaq serebral iflicində proqnoz müəyyən edilərkən, başlıca əlverişsiz əlamət uşağın 2 yaşdan sonra oturmağa başlaması hesab olunur. Bəzi tədqiqatçıların fikrincə, bu əlamətə başqa əlamətlər əlavə etmək proqnozun əhəmiyyətini artırmır. Bəzi müəlliflər yalnız gec oturmağın deyil, digər amillərin də proqnoz əhəmiyyətini nəzərə almağa meyllidirlər və proqnoz baxımından aşağıdakı əlamətləri nəzərə almağı məsləhət görürlər: 1) oturmağa başladığı yaş, 2) motor disfunksiyanın dərəcəsi, 3) aşağı ətrafların funksional vəziyyəti, 4) mental retardasiyanın dərəcəsi, 5) primitiv reflekslərin olması. [1]

Uşaq serebral iflicinin müxtəlif formalarında sosial uyğunlaşma imkanlarının proqnoz vəziyyəti baxımından qeyd etmək olar ki, yaxşı proqnoz çox güman ki, spastik hemiplegiya və spastik diplegiya zamanı mümkündür. K.A. Semenovanın fikrincə, yüngül hemiparezli xəstələr 70,8% hallarda təhsil ala bilir, 29% hallarda isə aşağı intellektə malik olurlar. Uşaq serebral iflicinin hiperkinetik forması olan uşaqlarda hərəki qüsurları səbəbindən uyğunlaşması daha çətindir, lakin 60% hallarda əllərin incə manipulyasiya fəaliyyəti ilə əlaqəli olmayan işləri yerinə yetirə bilirlər; ikitərəfli hemiplegiya və uşaq serebral iflicinin atonik-astatik formaları olan uşaqlar üçün sosial proqnoz əlverişsizdir. [4]

Uşağın inkişaf pozulmalarının mürəkkəbliyi və unikallığı onun təhlilinə və psixokorreksiyaedici təsirlərə diqqətli metodoloji yanaşma tələb edir. Prinsiplərin inkişafı, əsas, başlanğıc ideyalar kimi, psixoloji korreksiyanın nəzəriyyəsi və praktikasında son dərəcə vacibdir.

Psixoloji korreksiya müxtəlif dərəcəli intellektual və fiziki qüsurları olan serebral iflicli uşaqların hərtərəfli reabilitasiyası sisteminin mühüm tərkib hissəsindən biridir.

Patopsixologiyada və xüsusi psixologiyada psixokorreksiya uşağın əqli inkişafındakı kənaraçıxmaları korreksiya etməyə yönəlmiş psixoloji təsir üsullarından biri hesab olunur. Serebral iflicli uşaqların inkişaf pozulmalarının psixoloji korreksiyası prosesində uşağın inkişaf xüsusiyyətlərinin kompleks strukturunu, inkişafın sosial vəziyyəti kimi amillərin onun vəziyyətinin şəkildə birləşməsi xarakterini, xəstəliyin səbəb olduğu şəxsiyyət dəyişikliklərinin şiddəti, fiziki acizliyin dərəcəsini nəzərə almaq lazımdır.

Psixoloji korreksiyanı bu anlayışın geniş və dar mənasında nəzərdən keçirmək olar. Geniş mənada psixoloji korreksiya uşaqların psixi funksiyalarının və şəxsi xüsusiyyətlərinin inkişafındakı çatışmazlıqları aradan qaldırmağa yönəlmiş tibbi, psixoloji və pedaqoji təsirlər kompleksidir. Dar mənada psixoloji korreksiya psixi proseslərin və funksiyaların inkişafının optimallaşdırılmasına və şəxsi xüsusiyyətlərin inkişafının uyğunlaşdırılmasına yönəlmiş psixoloji təsir metodu kimi qəbul edilir.

B.D. Elkonin, korreksiya istiqamətinin xarakterindən asılı olaraq onun iki formasını fərqləndirir; simptomatik, inkişaf kənaraçıxmalarının simptomlarına yönəldilmiş və inkişaf kənaraçıxmalarının mənbəyinə və səbəblərinə yönəlmiş korreksiya. [3] Simptomatik korreksiya, əlbəttə ki, əhəmiyyətli çatışmazlıqlardan məhrum deyil, çünki inkişaf pozulmalarının simptomları müxtəlif səbəblərə malikdir və nəticədə uşağın inkişafındakı pozulmaların psixoloji quruluşuna görə fərqlənir. Məsələn, serebral iflic olan uşaqda sayma əməliyyatları zəif inkişaf edir.

Xüsusi pedaqoji metodların köməyi ilə siz uşağa ardıcıl sayma, say tərkibi və s. mənimsəməyə kömək edə bilərsiniz. Lakin intensiv dərslərə baxmayaraq, uşaq hələ də riyaziyyatı mənimsəməkdə əhəmiyyətli çətinliklərlə üzləşir.

Serebral iflic olan uşaqlarda sayma pozulmalarının əsl səbəbini bilməsək, bu korreksiya üsulu kifayət etmir. Serebral iflicli uşaqlarda hesablama əməliyyatlarının pozulmasının əsası beynin parieto-oksipital bölgələrinin serebral-üzvi çatışmazlığından qaynaqlanan məkan anlayışlarının inkişaf etməməsidir. Buna görə də, psixoloji korreksiya daha çox inkişaf kənara çıxmalarının xarici təzahürlərinə deyil, bu kənaraçıxmalara səbəb olan faktiki mənbələrə yönəldilməlidir. Psixokorreksiyanın effektivliyi üçün serebral iflicli uşağın vizual-məkan funksiyalarının inkişafı üzrə dərslər lazımdır. Psixoloji korreksiyanın effektivliyi əsasən pozulmanın psixoloji strukturunun və onun səbəblərinin təhlilindən asılıdır.

Müalicəvi fiziki tərbiyənin vəzifələrini açıqlayaraq, xüsusi qayğıya ehtiyacı olan şəxslərin uzunmüddətli, planlı və ardıcıl təhsil almasının vacibliyini dəfələrlə vurğulamışıq. Bu, yalnız xüsusi qayğıya ehtiyacı olan şəxslərin fərdi məşğələlərində deyil, həm də qrup məşğələləri üçün vacib bir tələbdir. Xüsusilə, xüsusi qayğıya ehtiyacı olan şəxslərin uzun müddət olduğu müəssisələrdə, məsələn, ixtisaslaşdırılmış sanatoriyalarda və ya internat məktəblərində və s. vacibdir.

- *Fərdi məşğələlər (dərslər).* Fərdi məşğələlərin iki variantı mümkündür: tək, müstəqil sinif forması olduqda və qrup məşğələləri ilə paralel olaraq keçirildikdə. Fərdi məşğələlər, bir qayda olaraq, qrup məşğələlərində hər hansı xüsusiyyətə görə (qeyri-adi hərəkətlilik səviyyəsi, əqli geriləmə və s.) iştirak edə bilməyən, xüsusi ağır uşaqlar üçün təyin edilir. Bir qayda olaraq, bu cür şəxslər üçün fərdi məşğələlər gündə, ən azı iki dəfə keçirilməlidir. İlk məşğələdə müəyyən olunmuş sxemə əsasən masaj üsulları ilə birlikdə (rahatlaşdıran və tonikləyən) passiv məşqləri seçmək olar. İkinci dəfə tam sxem üzrə məşğələlər tövsiyə edilə bilər. Tam sxem üzrə fərdi dərslərin müddəti 25-30 dəqiqə ola bilər, masaj da daxil olsa 40-45 dəqiqəyə qədər çatar. Məşğələlərin dəqiq müddəti xəstənin ümumi vəziyyətindən, onun ağırlıq dərəcəsindən, metodistin qarşısında duran vəzifələrdən asılıdır. 30-35 dəqiqə davam edən dərslərdə, təşkilati tədbirlər olmadan,3 hissədən ibarət olan ümumi dərs sxeminə riayət etmək olar.

I hissə – 5-7 dəqiqə – diqqət məşqləri, bərpaedici (ümumi möhkəmləndirici) və tənəffüs məşqləri.

II hissə – 20-25 dəqiqə – ixtiyari hərəkətlərin bərpası üçün xüsusi tapşırıqlar, motor bacarıqlarının, həkim tərəfindən tövsiyə olunan bəzi tapşırıqların öyrədilməsi.

III hissə – 3-5 dəqiqə – oyun tapşırıqları, tənəffüs təlimləri, şeir oxuması, nitq terapevtinin rəhbərliyi ilə müəyyən səslərin tələffüzü və s. [2]

Bu məşğələlərin vacib xüsusiyyəti ondan ibarətdir ki, əsas hissənin məzmunu sırf fərdlə uyğun olmalıdır. Buna görə də əksər hallarda uşaq tam mənimsəməyincə tələblər də heç bir dəyişiklik olmadan uzun müddət qalacaq. Eyni zamanda, birinci və üçüncü hissələrin məzmunu fərdi dərslərdə müəyyən müxtəliflik və emosional rəng təqdim edilərək dəyişdirilməlidir. Bununla əlaqədar olaraq, fiziki məşqlər üçün əvvəlcə ikinci hissənin məzmununu əsas məqam seçərək, sonra isə I və III hissələri təyin etmək lazımdır.

Unutmamalıyıq ki, fərdi məşğələlərin uğur qazanması üçün uşaqla metodist arasındakı əlaqə xüsusilə vacibdir. Bu əlaqəni gücləndirmək üçün xüsusi qayğıya ehtiyacı olan şəxslərin psixikasının xüsusiyyətlərini və vəziyyətini rəhbər tutaraq dərslərdə iştirakını fəallaşdırmaq lazımdır. Mövcud formada, əsas məşqlərin və tələblərin əhəmiyyətini izah etmək və tədricən mümkün olan kiçik həcmli fərdi tapşırıqları daxil etmək lazımdır. Məsələn, yemək zamanı zədəli əllə çörək götürməyə çalışmaq lazımdır və s. Yalnız bu hərəkətlərin yaxşı öyrənilməsinə, çətinliklərin getdikcə azalmasına metodistin nəzarəti və təşviq etməsi lazımdır. Uşaq, işin nəticələrini görə bilməli, onları qiymətləndirməli və yeni nailiyyətlərin əldə edilməsi üçün səy göstərməlidir. Qısaldılmış sxem üzrə eyni şəxs üçün təkrar fərdi məşğələ, masajla passiv hərəkətlər və ya 10-20 dəqiqə davam edən ikinci hissədən yalnız bəzi tapşırıqları daxil edilə bilər. Əgər dərs yerimə üzrə məşqlər kimi qurulubsa, o zaman ayrı-ayrı tapşırıqların öyrədilməsi şəklində keçirilə bilər; məsələn: irəliyə, geriyə, yan-yana, siqnal üzrə dəyişən istiqamətlə yerimə, oturmuş halda metodist ilə top oyunu; bədənin ağırlıq mərkəzinin dayaq olan ayağa köçürülməsi və s.

- *Fərdi məşğələlərin ikinci variantı, qrup halında paralel olaraq keçirildikdə.* Əlbəttə, qrup və fərdi məşğələlərin eyni şəxs tərəfindən keçirilməsi daha yaxşı nəticə verəcəkdir. Ancaq hər hansı bir səbəbdən bu mümkün deyilsə, qrup

və fərdi dərsləri keçən şəxslər arasında sıx əlaqə qurulmalıdır. Bu əlaqə Xüsusi qayğıya ehtiyacı olan şəxs ilə ortaq bir tanışlıqdan başlamalı, şəxsin fərdi xüsusiyyətləri araşdırılmalı, sonra mövcud nailiyyətlər birgə yoxlanılmalı və yeni təyinatlar müəyyən olunmalıdır. Bundan başqa, həm aparıcı qrup məşğələləri, həm də aparıcı fərdi məşğələlərdə, xüsusilə də, əgər uşaq hansısa materialın mənimsənilməsində qrupdan geri qalırsa, müəyyən tapşırıqların daxil edilməsi haqqında bir-birinə göstərişlər verə bilərlər. Qrup məşğələləri ilə uyğunlaşdırılmış fərdi məşğələlər zamanı ümumi möhkəmləndirici tapşırıqlar qısaldıla və daha çox xüsusi tapşırıqlar saxlana bilər. Bununla əlaqədar dərslərin keçirilmə sxemi bir qədər dəyişə bilər. Məsələn: I hissə-seçmə masaj, istirahət üçün tapşırıqlar, tənəffüs tapşırıqları- 5-7 dəqiqə; II hissə-yalnız xüsusi tapşırıqlar (3-4) və oyun tapşırığı-15-20 dəqiqə; III hissə-2-3 dəqiqə; cəmi 20-30 dəqiqə. Əlbəttə ki, həm fərdi, həm də qrup məşğələlərinin keçirilməsi zamanı təlimlərin seçilməsi və məşğələlərin keçirilməsi metodikası da müəyyən fizioloji yük əyriliyinə(mütənasibliyə) tabe olmalıdır. Ən tipik, tədricən dərsin ikinci hissəsinin təxminən 2/3-ə qədər artması və sonra başlanğıc hissənin tədricən aşağı salınmasıdır.

- *Qrup məşğələləri.* Qrup məşğələlərinin keçirilməsi üçün uşaqlar yaş xüsusiyyətlərindən, hərəkət pozulmalarının ağırlıq dərəcəsindən asılı olaraq 4 nəfərdən 10 nəfərə qədər birləşə bilər. Qrup məşğələlərinin keçirilməsində məqsəd bu qrup uşaqlar üçün ümumi hərəki pozulmaların və motor qabiliyyətlərinin təhlili əsasında onların fiziki tərbiyəsini daha səmərəli təşkil etmək, sərbəst hərəkət fəaliyyətinin normallaşdırılmasına çalışmaqdır. Qrup məşğələləri, həmçinin, sağlam şəxslərin dərs sxeminə uyğun olaraq aparılır. Giriş hissəsi məşğələlər üçün qrup təşkil etmək məqsədi daşıyır. Burada diqqət tapşırıqları, konstruksiyalar, elementar oyun tapşırıqları üzrə təlimlər keçirilir. Dərsin əsas hissəsi bu dərs üçün qoyulmuş əsas vəzifənin həllinə yönəlmişdir. Praktiki olaraq, bu hissəyə ardıcıl iş planının tapşırıqlarına uyğun olan bütün tapşırıqlar daxildir. Son hissəyə qrupun başqa bir fəaliyyətə keçməsini asanlaşdırmaq üçün diqqət məşqləri, oturaq oyunlar, tənəffüs məşqləri – sakit gəzinti, istirahət məşqləri və s. daxildir.

Problemin yeniliyi. Uşaq serebral iflici olan fərdlərin reabilitasiya prosesində tibbi, psixoloji, pedaqoji, sosial və loqopedik xidmətlərin inteqrativ şəkildə təşkili müasir elmi yanaşmaların tələblərinə uyğun yeni istiqamət kimi çıxış edir. Problemin yeniliyi müxtəlif sahə mütəxəssislərinin fəaliyyətinin vahid diaqnostik və korreksiya sistemində əlaqələndirilməsi zərurətindən irəli gəlir. Bu yanaşma fərdi inkişaf potensialının maksimal reallaşdırılmasına və sosial adaptasiya səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

Problemin aktuallığı. Uşaq serebral iflici müasir dövrdə uşaqlar arasında rast gəlinən ən mürəkkəb neyroinkişaf pozuntularından biri olaraq qalmaqdadır. Belə uşaqların sosial inteqrasiyası, təhsil və peşə hazırlığı prosesinə cəlb olunması cəmiyyətin inklüziv siyasətinin əsas istiqamətlərindən biridir. Müxtəlif profilli mütəxəssislərin birgə fəaliyyəti bu kateqoriyadan olan uşaqların həyat keyfiyyətinin yüksəldilməsi və adaptasiya prosesinin səmərəliliyinin təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Problemin praktik əhəmiyyəti. Tədqiq olunan problemin praktik əhəmiyyəti serebral iflicli uşaqların kompleks reabilitasiyası və psixokorreksiya prosesinin təkmilləşdirilməsinə yönəlmiş elmi əsaslandırılmış metodların tətbiqi ilə müəyyən olunur. Müxtəlif sahə mütəxəssislərinin qarşılıqlı əməkdaşlığı nəticəsində uşağın psixoloji, sosial və tədris fəaliyyətlərində irəliləyişin təmin edilməsi mümkündür. Eyni zamanda bu yanaşma inklüziv təhsil mühitində korreksion-pedaqoji işin keyfiyyətinin yüksəldilməsinə praktiki töhfə verir.

Ədəbiyyat

1. Смирнова, И.А. (ред.). Коррекционно-педагогическая работа в школе для детей с нарушениями опорно-двигательного аппарата. –Санкт-Петербург: ИСПиП, –2000. –99 с.
2. Приходько, О.Г. Специальное образование лиц с нарушениями опорно-двигательного аппарата. В: Специальная педагогика. –Москва: Академия, –2000. –с. 31–32.
3. Шипицына, Л.М. Психолого-медико-педагогическая консультация. Методические рекомендации. / Л.М. Шипицына –Санкт-Петербург: ИСПиП., –1999 – с.240
4. Smith, J. A., & Brown, L. M. Comprehensive Rehabilitation Approaches for Children with Cerebral Palsy. / J. A. Smith. –London: Routledge, –2018. –212 p.

Redaksiyaya daxil olub: 13.10.2025

UOT 376.44

Lalə Xanoğlan qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Xüsusi təhsil kafedrasının müəllimi
https://orcid.org/0009-0004-0683-7191
E-mail: lale_memmedova95@bk.ru
https://doi.org/10.69682/arti.2025.92(6).322-325

SEREBRAL İFLİCİN UŞAQLARDA NİTQ İNKİŞAFINA YARATDIĞI PSİXOLOJİ VƏ FİZİKİ ÇƏTİNLİKLƏR

Lale Khanoglan Mammadova
lecturer of the Special education departament at
Azerbaijan State Pedagogical University

PSYCHOLOGICAL AND PHYSICAL DIFFICULTIES THAT CEREBRAL PALSY CAUSES ON SPEECH DEVELOPMENT IN CHILDREN

Лала Ханоглан гызы Мамедова
преподаватель кафедры специального образования
Азербайджанского Государственного Педагогического Университета

ПСИХОЛОГИЧЕСКИЕ И ФИЗИЧЕСКИЕ ТРУДНОСТИ, КОТОРЫЕ ДЕТСКИЙ ЦЕРЕБРАЛЬНЫЙ ПАРАЛИЧ ВЫЗЫВАЕТ В РАЗВИТИИ РЕЧИ У ДЕТЕЙ

Xülasə. Serebral iflicli uşaqlarda nitqin inkişafının ləngiməsi, ətraf aləmlə bağlı biliklərin məhdudluğu, idraki proseslərin zəifliyi və sosial fəaliyyətlərdə iştirakın azlığı ilə əlaqələndirilir. Bu uşaqların həyat təcrübəsi, sağlam həmyaşıdlarına nisbətən daha məhduddur. Onların ətrafında böyüklər və digər uşaqlar olsa da, sosial əlaqələrə daxil olduqları insan dairəsi kifayət qədər məhduddur. Serebral iflicdən əziyyət çəkən uşaqların əksəriyyətində müəyyən səviyyədə nitq pozuntularına rast gəlinir. Bu pozuntular onların digər insanlarla ünsiyyətini çətinləşdirdiyi üçün, təbii olaraq, ümumi inkişafına da mənfi təsir göstərir. Serebral iflic zamanı könüllü və məqsədyönlü hərəkətləri idarə edən beyin strukturlarında ciddi zədələnmələr müşahidə olunur. Serebral iflicli uşaqlarda nitqin formalaşmasına mane olan bir sıra mənfi amillər mövcuddur. Bu amillər fizioloji, psixoloji və sosial sahələrlə birbaşa əlaqəlidir. Serebral iflicli uşaqlarda nitq inkişafının spesifik xüsusiyyətlərini anlamaq üçün əvvəlcə tipik, yəni normal nitq inkişafının qanunauyğunluqlarını bilmək vacibdir.
Açar sözlər: *serebral iflic, nitq inkişafı, psixoloji, fiziki çətinliklər, sosial mühit.*

Abstract. Delayed speech development in children with cerebral palsy is associated with limited knowledge of the surrounding world, impaired cognitive processes, and reduced participation in social activities. These children have a more limited life experience than their healthy peers. Although they are surrounded by adults and other children, the circle of people with whom they enter into social relationships is quite limited. Most children with cerebral palsy have some level of speech impairment. Since these disorders make it difficult for them to communicate with other people, they naturally also have a negative impact on their overall development. During cerebral palsy, serious damage is observed in the brain structures that control voluntary and purposeful movements. There are a number of negative factors that prevent the formation of speech in children with cerebral palsy. These factors are directly related to the physiological, psychological and social spheres. In order to understand the specific features of speech development in children with cerebral palsy, it is first important to know the patterns of typical, that is, normal speech development.
Key words: *Cerebral palsy, speech development, psychological, physical difficulties, social environment.*

Аннотация. Задержка речевого развития у детей с детским церебральным параличом связана с ограниченным знанием окружающего мира, нарушением когнитивных процессов и снижением учас-

тия в социальной жизни. У этих детей жизненный опыт более ограничен, чем у их здоровых сверстников. Хотя они окружены взрослыми и другими детьми, круг людей, с которыми они вступают в социальные отношения, весьма ограничен. У большинства детей с детским церебральным параличом наблюдается определённая степень речевых нарушений. Поскольку эти нарушения затрудняют общение с окружающими, они, естественно, негативно сказываются и на общем развитии ребёнка. При детском церебральном параличе наблюдаются серьёзные повреждения структур мозга, контролирующих произвольные и целенаправленные движения. Существует ряд негативных факторов, препятствующих формированию речи у детей с детским церебральным параличом. Эти факторы напрямую связаны с физиологической, психологической и социальной сферами. Для понимания особенностей развития речи у детей с детским церебральным параличом, прежде всего, важно знать закономерности типичного, то есть нормального, речевого развития.

Ключевые слова: *Детский церебральный паралич, речевое развитие, психологические, физические трудности, социальная среда*

Serebral iflicli uşaqlarda nitqin inkişafının ləngiməsi, ətraf aləmlə bağlı biliklərin məhdudluğu, idraki proseslərin zəifliyi və sosial fəaliyyətlərdə iştirakın azlığı ilə əlaqələndirilir. Bu uşaqların həyat təcrübəsi, sağlam həmyaşıdlarına nisbətən daha məhduddur. Onların ətrafında böyüklər və digər uşaqlar olsa da, sosial əlaqələrə daxil olduqları insan dairəsi kifayət qədər məhduddur. Hətta bu yaxın çevrədə olan bəzi şəxslərin, uşağın vəziyyətini düzgün anlamamaları nəticəsində sərgilədikləri münasibət və davranışlar uşaqda mənfi emosiyalar yarada bilər. Bu cür hallar isə uşağın özünə qapanmasına və nitqdən uzaqlaşmasına səbəb olur. Eyni zamanda, valideynlərin tərbiyə prosesində buraxdıqları müəyyən yanlışlıqlar da nitqin inkişafına mənfi təsir göstərir. Uşağa münasibətdə göstərilən fərqli yanaşmalar, məsələn, hipoqayğı və ya hipergayğı – yəni uşağı həddindən artıq qorumaq, onun yerinə hər şeyi etmək, istəklərini sözsüz yerinə yetirmək – uşağın nitqə olan ehtiyacını azaldır. Bu hal da, öz növbəsində, uşağın cəmiyyətlə ünsiyyətə daxil olmasını çətinləşdirir və onu sosial təcridə məruz qoyur. Belə amillər, xüsusilə də erkən yaş dövründə, nitqin formalaşmasına əngəl yaradır. Bundan əlavə, uşağın müxtəlif tibbi müəssisələrdə uzun müddət qalması, emosional baxımdan mənfi təcrübələr yaşaması, valideynlərdən – xüsusilə də anadan – uzaq düşməsi, tez-tez stressli vəziyyətlərlə üzləşməsi və xəstəxana şəraitində həyat tərzinin dəyişməsi onun psixoloji durumuna və nitq inkişafına mənfi təsir göstərə bilər. Bu uşaqlarda nitq və hərəkət sisteminə aid pozuntular arasında həm kliniki, həm də patogenetik baxımdan oxşarlıqlar müşahidə olunur. Uzun müddət davam edən patoloji tonik reflekslər artikulyasiya aparatının əzələ tonusuna mənfi təsir göstərərək nitq formalaşmasına maneə yaradır. Tonik reflekslərin güclü olması, xüsusilə də dil əzələlərində hipertonusun yaranmasına səbəb olur ki, bu da uşağın səs çıxarma, nəfəs alma, ağız boşluğunun sərbəst açılması və dilin müxtəlif istiqamətlərdə – xüsusilə irəli və yuxarı – hərəkətində çətinlik yaradır. Belə motor problemlər nəticəsində uşağın hərəkət bacarıqları gec inkişaf edir və bu, vokal fəaliyyətin zəifləməsinə, yəni səsin təşəkkülü ilə bağlı nitq aspektlərinin pozulmasına gətirib çıxarır (1). Bəzi hallarda bu uşaqlarda psixi funksiyalarda da ciddi pozuntular müşahidə edilir. Bu zaman kinestetik duyumun zəifliyi nəticəsində uşaq yalnız hərəkətləri yerinə yetirməkdə deyil, eyni zamanda artikulyasiya orqanları və bədən üzvlərinin mövqeyi və hərəkətləri haqqında da dolğun təsəvvür formalaşdıra bilmir. Artikulyator motor bacarıqlarının pozulma dərəcəsi ilə əl funksiyalarındakı pozğunluqlar arasında müəyyən bir əlaqə olduğu müşahidə edilir. Ən bariz artikulyasiya pozuntuları, adətən yuxarı ətrafları daha çox zədələnmiş uşaqlarda nəzərə çarpır. Sadalanan bütün bu amillər, serebral iflicli uşaqlarda həm ilkin nitq bacarıqlarının formalaşmasının, həm də ümumi nitq inkişafının pozulma xüsusiyyətlərini müəyyənləşdirir. Serebral iflicdən əziyyət çəkən uşaqların əksəriyyətində müəyyən səviyyədə nitq pozuntularına rast gəlinir. Bu pozuntular onların digər insanlarla ünsiyyətini çətinləşdirdiyi üçün, təbii olaraq, ümumi inkişafına da mənfi təsir göstərir. Serebral iflic zamanı könüllü və məqsədyönlü hərəkətləri idarə edən beyin strukturlarında ciddi zədələnmələr müşahidə olunur. Bu fakt göstərir ki, həmin beyin strukturlarının funksional pozuntuları, nitqin formalaşmasına mənfi təsir edən əsas amillərdən biridir. Bu kateqoriyaya daxil olan uşaqlarda nitq

pozuntularının əsasını artıq mövcud olan nitq motor mexanizmlərinin tam şəkildə sıradan çıxması deyil, onların inkişafının ləngiməsi və ya təhrif olunmuş formada baş verməsi təşkil edir. Bu hallarda skelet və nitq əzələlərinin istər ixtiyari, istərsə də qeyri-iradi hərəkətlərinə nəzarət edən sistemlər arasında əlaqə pozulmuş olur. Beləliklə, ümumi motor bacarıqlarının və artikulyasiya motorikasının pozulması, serebral iflicli uşaqlarda müşahidə edilən nitq problemlərinin əsasını təşkil edir. Bu səbəbdən də bu pozuntuların müalicəsi və aradan qaldırılması yollarının araşdırılması xüsusi əhəmiyyət daşıyır. Serebral iflicli uşaqlarda nitq problemlərinin xarakterini düzgün qiymətləndirmək üçün loqopedin bu pozuntuları iki əsas qrupa ayırması vacibdir: bir tərəfdən beyin strukturlarının zədələnməsinə bağlı olan pozuntular, digər tərəfdən isə sosial münasibətlərin və təmasların çatışmazlığı nəticəsində formalaşan nitq problemləri. Bu fərqləndirmə, nitq inkişafında bioloji və sosial amillərin təsirini müəyyənləşdirməyə və müvafiq şəkildə korreksiya tədbirləri seçməyə imkan verir (2). Bu mürəkkəb vəzifənin öhdəsindən yalnız doğru diaqnostika və düzgün planlaşdırılmış müdaxilə yolu ilə uğurla gəlmək mümkündür. Serebral iflicli uşaqlarda nitqin formalaşmasına mane olan bir sıra mənfi amillər mövcuddur. Bu faktorlar fizioloji, psixoloji və sosial sahələrlə birbaşa əlaqəlidir. Bu təsirləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

Neyroloji və fizioloji səbəblər nəticəsində yaranan çətinliklər:

• ***Beyin travmaları*** – Serebral iflic zamanı beynin nitq və dil mərkəzlərinə dəyən zədələr uşaqlarda danışıq bacarığının zəifləməsinə səbəb olur.

• ***Motor funksiyaların pozulması*** – Artikulyasiya ilə bağlı əzələlərin zəif fəaliyyəti səs səsləndirmədə və tələffüzdə problemlər yaradır.

• ***Koordinasiya çətinlikləri*** – Nəfəs alma, səs çıxarma və ağız-dil hərəkətlərinin uyğun şəkildə idarə olunmaması nəticəsində nitqin inkişafı yavaşlayır.

Psixoloji və emosional təsirlərdən qaynaqlanan problemlər:

• ***Aşağı özünəinam*** – Danışıqda çətinlik yaşayan uşaqlar ünsiyyətdən qaçmağa meyilli olur.

• ***Stress və daxili gərginlik*** – Sosial mühitdə qarşılaşılan psixoloji təzyiqlər və emosional gərginliklər nitq qabiliyyətinin inkişafını ləngidir.

• ***Emosional pozuntular və depressiv hallar*** – Sosial adaptasiyada çətinlik çəkən uşaqlar cəmiyyətdən uzaqlaşır və bu da onların nitq bacarıqlarına mənfi təsir edir.

Sosial mühitin və xarici faktorların təsiri ilə yaranan çətinliklər:

• ***Xüsusi təlim və terapiya imkanlarının çatışmazlığı*** – Loqopedik müdaxilələrin və fərdi təhsil proqramlarının olmaması uşağın nitq inkişafını yavaşladır.

• ***Ailə və pedaqoqların dəstəyinin zəifliyi*** – Müntəzəm loqopedik məşğələlərin və ünsiyyət təcrübəsinin azlığı nitqin inkişafında geriləməyə səbəb ola bilər.

• ***Sosial təmasların məhdudluğu*** – Ətraf mühitdə uşaq üçün kifayət qədər ünsiyyət şəraitinin olmaması nitq fəaliyyətinin zəifləməsinə gətirib çıxarır (3).

Serebral iflic (uşaq serebral iflici – USİ) zamanı motor funksiyaların pozulması ilə yanaşı, tez-tez ünsiyyət sahəsində də ciddi çətinliklər meydana çıxır. Bu fakt onu göstərir ki, hərəkət və nitq funksiyaları arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Beləliklə, motor bacarıqların zəifliyi ilə ünsiyyət pozuntularının dərəcəsi arasında birbaşa əlaqənin olduğunu demək mümkündür. Tədqiqatlara əsasən, yüngül və ya orta səviyyəli motor məhdudiyyətləri olan uşaqlarda belə, 58%-81% hallarda ünsiyyət problemləri müşahidə olunur. Lakin zədələnmənin dərəcəsindən asılı olaraq, daha ağır hallarda bu göstərici 100%-ə qədər yüksələ bilər (4). Belə uşaqların ünsiyyət imkanlarının məhdud olması onların şəxsi inkişafına, öyrənmə prosesinə və sosial fəaliyyətlərdə iştirakına əhəmiyyətli dərəcədə mənfi təsir göstərir, bu da onların bir çox sahədə fəallığını məhdudlaşdırır. Eyni zamanda nitq və idrak funksiyalarında mühüm rol oynayan beyin qabığı və digər mühüm neyroloji bölgələrin zədələnməsi də bu prosesə mənfi təsir göstərir. Bu cür zədələnmələr nəticəsində uşaqlarda yalnız nitq deyil, eyni zamanda bir çox digər psixi funksiyaların da ləng inkişaf etdiyi və ya ümumiyyətlə formalaşmadığı müşahidə edilir. Serebral iflic zamanı motor və nitq pozuntuları arasındakı əlaqə olduqca açıq şəkildə görünür (5). Bundan əlavə, nitqdəki çatışmazlıqların uşağın davranışına və xarakterinə mənfi təsir göstərməsi də mümkündür. Uşaq öz fikirlərini ifadə edə bilmədikdə, aqressiv davranışlar nümayiş etdirə, introvert ola bilər və ətraf mühitə müna-

sibətində dəyişikliklər baş verə bilər. Bu səbəbdən loqoped yalnız motor pozuntularının anatomik və funksional xüsusiyyətlərini deyil, eyni zamanda bu uşaqların psixi inkişaf səviyyəsini və fərdi xüsusiyyətlərini də dərindən bilməlidir. Əgər loqoped uşağın fərdi xüsusiyyətlərini və ona təsir göstərən faktorları düzgün şəkildə təhlil etsə, təkcə nitq problemlərinin effektiv korreksiyasını həyata keçirməklə kifayətlənməz, həmçinin serebral iflicli uşaqlarda müşahidə olunan şəxsiyyət pozuntularının qarşısını almaqda da mühüm rol oynaya bilər. Serebral iflicli uşaqlarda nitq inkişafının spesifik xüsusiyyətlərini anlamaq üçün əvvəlcə tipik, yəni normal nitq inkişafının qanunauyğunluqlarını bilmək vacibdir. Bu biliklər loqopedə nitq inkişafındakı sapmaları və gecikmələri vaxtında aşkarlayıb müvafiq müdaxilə yollarını tətbiq etməyə imkan verir. Əldə olan məlumatlara əsasən, sağlam uşaqlarda nitq ən sürətli şəkildə məktəbəqədər dövrdə formalaşır. Uşağın gələcək intellektual inkişafı da əksər hallarda nitqin vaxtında və düzgün inkişaf etməsi ilə sıx əlaqəlidir. Bu baxımdan, loqoped nitq inkişafından hər hansı sapma müşahidə etdikdə, onun stimullaşdırılması üçün xüsusi metod və yanaşmaları bilməli və tətbiq etməlidir. Serebral iflicli uşaqlarda nitq inkişafı təkcə artikulyasiya sistemindəki çətinliklərlə deyil, həm də beynin müxtəlif funksional sahələri arasında əlaqənin pozulması ilə mürəkkəb şəkildə zədələnir. Buna görə də bu uşaqlara göstərilən loqopedik yardım fərdi reabilitasiya planına əsaslanmalı, psixopedaqoji yanaşma və ailənin dəstəyi ilə birlikdə həyata keçirilməlidir.

Problemin aktuallığı. Serebral iflicin uşaqlarda nitq inkişafına səbəb olduğu psixoloji və fiziki çətinliklərin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Serebral iflicli uşaqlarda nitq bacarığının formalaşması təkcə motor məhdudiyyətlərlə deyil, eyni zamanda psixoloji və sosial faktorların təsiri ilə də mürəkkəbləşir. Bu səbəbdən tətbiq edilən loqopedik və psixopedaqoji müdaxilələr fərdi yanaşma prinsipi əsasında həyata keçirilməli, nitqlə yanaşı emosional və sosial bacarıqların inkişafı da diqqət mərkəzində saxlanmalıdır. Mövcud dövrdə serebral iflicin uşaqlarda yaratdığı nitq problemlərinin qarşısının alınması üçün həm fiziki, həm də psixoloji aspektlərdən bəzi tədqiqatlar aparılsa da, bu sahədə hələlik məqsəd və vəzifələr tam şəkildə dəqiqləşdirilməmiş, ümumiləşdirilmiş yanaşmalarla kifayətlənilmişdir. Hazırkı tədqiqat işi məhz bu məsələnin mahiyyətinə daha dərindən nüfuz etmək, çətinliklərin səbəb və nəticə əlaqələrini aydınlaşdırmaq və onların aradan qaldırılmasına yönəlmiş mümkün həll yollarını təklif etmək məqsədilə həyata keçirilmişdir.

Problemin Problemin elmi yeniliyi. Bu məqalədə serebral iflicin uşaqlarda nitq inkişafına göstərdiyi psixoloji və fiziki təsirlər ilk dəfə sistemli şəkildə araşdırılmış, bu sahədə mövcud çətinliklərin mahiyyəti elmi baxımdan təhlil olunmuşdur. Tədqiqatda mövzu ilə bağlı əsas məqsədlər müəyyənləşdirilmiş, qarşıya qoyulan vəzifələr aydın şəkildə təsbit edilmiş və problemin həlli üçün səmərəli istiqamətlər təklif olunmuşdur.

praktik əhəmiyyəti. Bu məqalədə irəli sürülən təkliflər və əldə olunan nəticələr, serebral iflicli uşaqlarda nitq inkişafına təsir edən psixoloji və fiziki çətinliklərin müasir şəraitdə daha məqsədyönlü şəkildə araşdırılmasına və bu amillərin uşağın inkişaf prosesi zamanı nəzərə alınmasına imkan yaradır. Tədqiqat nəticələri müəllimlərə və valideynlərə uşaqların təlim, tərbiyə və inkişafını daha sistemli və effektiv şəkildə təşkil etməyə kömək edə bilər.

Ədəbiyyat

1. Hüseynova N.T. Serebral iflicli uşaqlarla aparılan korreksiya-pedaqoji işin sistemi // –Bakı: Məktəbəqədər və İbtidai təhsil elmi-metodik jurnal, –2024. №4/249, –45-51.
2. Hüseynova, N.T. Korreksiya işlərinin həyata keçirilməsi / N.T. Hüseynova, L.H. İmanova. –Bakı: ADPU, –2020. –293 s.
3. Nemkova S.A., Korsakov S.S. Speech disorders in children with cerebral palsy: diagnostics and correction // Journal of Neurology and Psychiatry. – 2019. №2, –67-76.
4. Биличенко, И.А. Особенности речевого развития детей с церебральным параличом / И.А. Биличенко. - Москва: Либроком, –2016. –245 с.
5. Rəfiyeva, L. Diaqnostika işlərinin həyata keçirilməsi / L. Rəfiyeva, M. Məmmədova, S. Abbasova, E. Yusifova. – Bakı: -2020. –142 s.
6. Korreksion pedaqogikanın müasir məsələləri / tərt.ed.Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Təhsil Problemləri İn-tu. –Bakı: Mütərcim, –2012. –315 s.
7. Uşaq inkişaf metodikası / tərt.ed. Açıq Cəmiyyət İn-tu-Yardım Fondu; müəl. Ü. Axundova. -– Bakı: Qanun. – 2011. – 572 s.

Redaksiyaya daxil olub: 26.09.2025

UOT 616.89-008.444.4

Lamiyə Pənah qızı Əhmədli-Şirinova
Bakı Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail: lamiyaahmadli@gmail.com
https://orcid.org/ 0009-0003-2841-2613
https://doi.org/10.69682/arti.2025.92(6).326-331

AUTİZM SPEKTR POZUNTUSU OLAN FƏRDLƏR VƏ AİLƏLƏRİ

Lamiya Panah Ahmadli-Shirinova
doctorial student in the program of doctor of philosophy of
Baku State University

INDIVIDUALS WITH AUTISM SPECTRUM DISORDER AND THEIR FAMILIES

Ламия Панах Ахмедли-Ширинова
докторант по программе доктора философии
Бакинского Государственного Университета

ЛИЦА С РАССТРОЙСТВАМИ АУТИСТИЧЕСКОГО СПЕКТРА И ИХ СЕМЬИ

Xülasə. Autizm spektr pozuntusu və onun ailənin stress səviyyəsinə təsiri təhlil edilərkən autizm spektr pozuntusu olan bir övlada sahib olmanın ailənin stress səviyyəsini artıran bir hal olduğu məlum olmuşdur. Hətta, araşdırmalar digər inkişaf pozuntusu olan övlada sahib olan ailələri bir-biri ilə müqayisə edəndə autizmli övlada sahib olan ailələrin stress səviyyəsinin daha yüksək olduğu nəticəsini əldə ediblər. Bunun səbəbini isə ASP olan uşaqların ailələrinin daha şiddətli stress amilləri ilə üzləşdiyi faktlarını qeyd etmişlər. Bir sıra tədqiqatçılar, Marcus, Kunce, Schopler bu amillərdən ən önəmlilərini açıqlayıb, ailələrin xüsusi ilə bu sahələrdə dəstək almasını məsləhət görürlər. Bu stress amlillərindən ilkin diaqnozun qoyulma müddətinin çox qarışıq olması, diaqnoz qoyulduqdan sonra ailəyə yetərli məlumat verilməməsi, buna görə də ailənin nə edəcəyini bilməmələridir. Bəzi xəstəliklər var ki, diaqnozu doğuşda hətta doğumdan öncə müəyyən testlər və analizlərlə qısa müddətdə qoyula bilir. Amma, autizm spektr pozuntusunun səbəblərinin qeyri-müəyyənliyinə görə bu period həm uzun, həm qarışıq, həm də çətin bir hal alır. Bu da ailəni həm maddi, həm də mənəvi baxımdan çox yorur.
***Açar sözlər**: autizm spektr pozuntusu, ailə, ailədaxili münasibətlər, psixomaarifləndirmə, sosial dəstək*

Abstract. When analyzing autism spectrum disorder and its impact on family stress levels, it has been found that having a child with autism spectrum disorder increases the stress level of the family. In fact, when comparing families with children with other developmental disorders, they have found that families with a child with autism have a higher stress level. The reason for this is that families of children with ASD face more severe stress factors. Several researchers, Marcus, Kunce, Schopler, have explained the most important of these factors and recommend that families receive support in these areas. These stress factors include the fact that the initial diagnosis period is very confusing, the family is not given enough information after the diagnosis, and therefore the family does not know what to do. There are some diseases that can be diagnosed at birth or even before birth with certain tests and analyzes in a short time. However, due to the uncertainty of the causes of autism spectrum disorder, this period becomes both long, confusing and difficult. This is very tiring for the family, both financially and morally.

Keywords: *autism spectrum disorder, family, family relationships, psychoeducation, social support*

Аннотация. Анализируя расстройства аутистического спектра и их влияние на уровень стресса в семье, было обнаружено, что наличие ребёнка с расстройством аутистического спектра повышает уровень стресса в семье. Более того, при сравнении семей с детьми с другими нарушениями развития было выявлено, что семьи с ребёнком с аутизмом испытывают более высокий уровень стресса. Причина этого заключается в том, что семьи детей с РАС сталкиваются с более серьёзными факторами стресса. Некоторые исследователи, такие как Маркус, Кунце и Шоплер, описали наиболее важные из этих факторов и рекомендуют семьям получать поддержку в этих областях. К этим факторам стресса относится то, что первоначальный период диагностики очень запутан, семье не предоставляется достаточно информации после постановки диагноза, и поэтому семья не знает, что делать. Некоторые заболевания можно диагностировать при рождении или даже до рождения ребёнка с помощью определённых тестов и анализов в короткие сроки. Однако из-за неопределённости причин возникновения расстройства аутистического спектра этот период становится одновременно долгим, запутанным и сложным. Это очень утомительно для семьи, как в финансовом, так и в моральном плане.

Ключевые слова: *расстройство аутистического спектра, семья, семейные отношения, психообразование, социальная поддержка.*

Bir sıra hallarda ailələrin övladlarında autizm simptomlarının fərqində olması ilə diaqnozun qoyulması arasında illərin keçdiyi görülür. Ailələrin uşaqlarına diaqnoz qoyulduğunda, uşaqlarının fərqliliklərinin nə olduğuna dair dəqiq bir nəticə əldə etdikləri üçün rahatlaşsalar da, bu anda mütəxəssislərin ASP mövzusunda ailələri lazımı qədər məlumatlandırmaması və zəruri yönləndirmələri etməməsi ailələri daha böyük bir qeyri-müəyyənliyə gətirib çıxarır (1, s.292-294). Marcus, Kunce, Schopler ASP olan uşaqların inkişaflarının tutarsız olmasının ailələrin stressini artıran bir digər amil olduğunu qeyd etmişlər. ASP olan uşağların bəziləri erkən dönəmdə normal inkişaf göstəriciləri sərgiləyərkən, müəyyən zamandan sonra bəzi sahələrdə geriləyir və əvvəl göstərdikləri bacarıqlarını göstərə bilmir. Buna əlavə olaraq ASP-li uşaqlar bəzi sahələrdə mükəmməl bacarıqlar sərgiləyə bildiyi halda, bəzi sahələrdə normaldan aşağı səviyyə nümayiş etdirirlər. Bu kimi hallar ailələrin fikrinin qarışmasına səbəb olur. Daha öncə normal davranış sərgiləyən uşaqlarından yenə normal davranış gözləyirlər. Ya da bir sahədə sərgilədikləri yüksək performansı eynilə digər sahələrdə də gözləyirlər. Bu hallarda ailələrin vəziyyəti müvəqqəti olaraq qavrmasına səbəb olur (2, s.267-269).

Ailələr üçün bir digər stress amili, ASP olan uşaqların normal bir fiziki görünüşə sahib olmalarına baxmayaraq, ailələrin gözlədiyi normal davranışları sərgiləyə bilməmələridir. Daun sindromu və ya hər hansısa bir fiziki qüsurlu xəstəliklər kimi daha gözlə görünə bilən hallardan fərqli olaraq, ailələr normal bir görünüşə sahib olan uşaqlarından normal sosial münasibət və digər bacarıqlar gözləyirlər. Amma təəssüf ki, bu gözləntilər qarşılana bilmir. Buna görə də ailələrin ASP-ni uşaqlarının göstərdiyi ASP xarakteristikalarını anlayana və bu hal ilə necə davrana biləcəklərini öyrənənə qədər stress səviyyələri artmağa davam edir (2, s.270; 3, s.620).

Ailələrin narahat olduqları bir digər məsələ isə uşaqlarının sosial qarşılıqlı münasibətdəki əskikliklərdir. Ana və ata, övladları ilə həm verbal, həm də emosional olaraq qarşılıqlı münasibət qurmaq istəmələrinə baxmayaraq, autizmli uşaqları onlara gözlədikləri reaksiyanı vermirlər (4). Həmçinin, sosial münasibətə başlamaqda da çətinliklər yaranır. Bu vəziyyət ailələri həm narahat edir, həm də necə sosial münasibət quracaqlarını bilmədikləri üçün onların stress səviyyəsini artırır. Eyni zamanda, ailələr göstərdikləri sevgiyə qarşılıq gözləyir və bu qarşılığı ala bilmirlər. Bu kimi narahatlıqlar ailələrin tək və təcrid olunmuş hiss etmələrinə səbəb olur (4; 5, s.440).

Yuxarıda da qeyd olunduğu kimi, ASP olan uşaqların diaqnozu qoyulana qədər bir çox fərqli dəyərləndirmələrdən keçirlər. Valideynlər bu dövrdə bir çox fərqli mütəxəssislə əlaqə saxlayırlar. Bu müdaxilələr arasında elmi əsasları olanlar olduğu kimi, çox təəssüf ki, heç bir elmi əsası olmayanlar da mövcuddur. Ailələrin bu metodlarla bağlı qərar vermə məsuliyyətinin olması və uşaqları üçün ən uyğun olanı seçmə müddəti bir digər stress yaradan amillərindəndir.

ASP-li olan bir uşağa sahib olan ailələrin, bu qədər çox stres artırıcı amillərlə qarşı-qarşıya qalmalarına baxmayaraq, uşaqlarının gələcəkdə müstəqil bir insan olmaları üçün bir çox rola bürünmələri lazım olur. Onlar bəzən müəllim, bəzən dost, bəzən vəkil və s. ola bilərlər. Buna

görə də, bu valideynlər sağlam psixologiyaya və fiziologiyaya sahib olmalıdırlar. Övladlarının müalicə və reabilitasiya dövrlərində valideynlər bir-birinə dəstək olmalı, lazım gəldikdə isə psixoloji dəstək almalıdırlar (5, s.443). Ana və atalar hər anlamda sağlam olduqları müddətdə, övladları üçün daha güclü olacaqlar. Autizm spektr pozuntusu digər xəstəliklər kimi rahat anlaşıla bilən bir xəstəlik deyildir. Autizmin göstəriciləri bir çox hallarda ailələri yayındırır. Çünki bəzən ailələr, hətta mütəxəssislər də sadəcə uşağın inkişafında bir problem olduğunu düşünə bilər. Dəyərləndirmə müddətində ailənin stress səviyyəsini artıran ən önəmli amil ilk şübhələndikləri zamanla, diaqnozun qoyulmasına qədər keçən müddətin çox uzun ola bilməsidir. İngiltərədə 1200 ailə üzərində edilən araşdırma nəticəsində məlum olmuşdur ki, övladlarında fərqliliklər 18-24 ay arasında meydana gəlmiş olsa da, diaqnoz 6 yaşında qoyulub (6, s.30). Ailələrin bu müddət ərzində gözləmə müddəti artdıqda məmnuniyyəti də bir o qədər azalır. Diaqnoz qoyulmasının gecikməsi, erkən müdaxilənin də gecikməsinə səbəb olduğuna görə ailənin stressini artıran bir hal kimi göstərilir. Dəyərləndirmələr nəticəsində diaqnoz dəqiqləşəndə ailələrin göstərəcəyi reaksiyalar da dəyişkənlik göstərə bilər. Bəziləri uşaqlarının vəziyyəti ilə bağlı bir açıqlama tapa bildikləri üçün rahatlaya bilərlər, bəziləri çox böyük bir məyusluqda boğula bilər, bəziləri isə diaqnozu qoyan mütəxəssisə əsəbiləşə bilər. Diaqnozla bağlı ən önəmli hallardan biri elə məhz dəyərləndimə nəticələrinin valideynlərə bildirildiyi görüşmələrdir (5, s.450-452). Ailələrə bu mövzuda mütəxəssislərlə görüşəcəkləri gün, həmin görüşə tək getməmələri tövsiyə olunur. Uşaqlar diaqnoz qoyulduqdan sonra yaşanan emosiyalarla mübarizə apara bilmək üçün ailənin psixoloji dəstək alması lazım ola bilər. Ailələr bu ehtiyacı görməzlikdən gəlmədən psixoloji dəstək göstərən qurumlara müraciət etməlidirlər. Daha əvvəl də vurğulandığı kimi, ailə üzvlərinin – xüsusilə də valideynlərin – hər baxımdan sağlam olması uşağın inkişafına da müsbət təsir göstərəcəkdir.

Düzgün şəkildə qoyulmuş diaqnoz ailəyə yalnız uşağın ASP olduğunu bildirmir (5, s.454). Qiymətləndirmə bölməsində də qeyd olunduğu kimi, diaqnoz uşağın müxtəlif inkişaf sahələrində hansı səviyyədə olduğunu, eyni zamanda güclü və zəif tərəfləri haqqında da məlumat verir. Əgər ailə aparılmış qiymətləndirmələrin yetərli olmadığını düşünürsə və ya uşağın diaqnozu ilə bağlı şübhələri varsa, yenidən qiymətləndirmə üçün müraciət edə bilər. Əgər uşağa qoyulan diaqnoz ailəyə uşağın səbəbi bilinməyən davranışlarını izah etməyə kömək edirsə və ailə bu diaqnozun düzgün olduğunu düşünürsə, bu halda mütəxəssislərdən nə etməli olduqları ilə bağlı məlumat almalıdırlar (7, s. 274). Ailənin təqdim etdiyi məlumatlar uşağın düzgün qiymətləndirilməsinə kömək edəcəkdir. Bu qiymətləndirmələrdən sonra yerləşdirmə qərarı verilir. Bu mərhələdə də ailənin fikirləri nəzərə alınmalıdır. Ailələr, uşaqları üçün ən az məhdudlaşdırıcı təhsil mühitinin necə bir məktəb mühiti olduğunu (ayrı məktəb, ayrı sinif, inklüziv sinif və s.) mütəxəssislərlə müzakirə etməkdən çəkinməməlidirlər (8, s.142). Diaqnoz, qiymətləndirmə və yerləşdirmə prosesinin hər mərhələsində ailənin fikrinin alınması qanunla da məcburi hala gətirilmişdir.

Lakin ailələr bu prosesi həyata keçirərkən uşaqlarının ehtiyac və imkanlarını nəzərə almalı və onların bacarıqları ilə bağlı real gözləntilər içində olmağa çalışmalıdırlar (8, s.145).

Uşaq hansı təhsil mühitinə yerləşdirilməsindən asılı olmayaraq, təhsilin təsirli ola bilməsi üçün ailənin təhsilə tam şəkildə qatılması ən vacib amillərdən biridir. Ailənin təhsilə qatılması yalnız uşağın akademik və davranış inkişafını dəstəkləmək kimi anlaşılmamalıdır. Ailənin əlilliklə bağlı digər insanları məlumatlandırması, uşağın təhsili ilə bağlı yeni inkişafları izləməsi və bu inkişaflardan övladlarının faydalanması üçün digər ailələrlə birlikdə təşəbbüslər göstərməsi də ailə iştirakının müxtəlif yönlərini təşkil edir (8, s.152).

Analar həm erkən təhsil prosesində, həm də sonrakı mərhələlərdə atalara nisbətən ASP olan övladlarının təhsili ilə daha çox maraqlanırlar. Amma ataların uşaqlarının həyatında fəal olması və təhsilə qatılması onların sosial-emosional, idrak və dil inkişafına müsbət təsir göstərir. Bu mövzuda araşdırmaların sayı hələlik az olsa da, ataların rolu əhəmiyyətlidir. Ataların daha fəal rolu anaların yükünü yüngülləşdirəcək, stresslərini azaldacaq və anaların psixoloji baxımdan daha sağlam olmalarına, dolayısı ilə övladlarına daha çox fayda vermələrinə imkan yaradacaqdır. Lakin atalar və analar təhsilə qatılma prosesindən fərqli şəkildə təsirlənirlər.

Analar necə təhsil verməyi öyrəndikdə stresləri azalır, amma bu, ataların emosional durumunda dəyişiklik yaratmır. Həmçinin anaların təlimlərdə iştirak etmə faizi yüksək olduğu halda, ataların iştirak etməmə faizi daha yüksəkdir. Bu səbəbdən ataları təhsilə cəlb etmək üçün bu proqramların onlara daha cəlbedici hala gətirilməsi vacibdir. Bu təmin edildikdə, ASP olan uşaqların inkişafına dair daha çox araşdırma və təcrübə mümkün olacaqdır (8, s.154-156).

ASP olan şəxslərin inklüziv təhsil mühitində təhsil alması onların sosiallaşması və gələcəkdə müstəqil fərd ola bilmələri baxımından vacibdir. Amma bu mühitə daxil olduqda həm müəllimlərin, həm də yaşıdlarının ASP haqqında məlumatsız olması, bu uşaqların sosial və ünsiyyət sahəsindəki çətinlikləri ilə birlikdə onların anlaşılmamasına, tək qalmasına və ya məsxərəyə qoyulmasına səbəb ola bilər. Sadəcə inklüziv sinfə yerləşdirmək kifayət etmir. ASP olan uşaqların burada fayda görməsi üçün rəhbərlərin, müəllimlərin, şagirdlərin və onların valideynlərinin ASP barədə məlumatlandırılması vacibdir. Valideynlər burada da önəmli rola sahibdirlər. ASP olan uşaq digər şagirdlər və onların ailələri tərəfindən mənfi reaksiyalarla qarşılaşa bilər. Onları məlumatlandırmaq sinif müəlliminin vəzifəsi olsa da, lazım gəldikdə ailə də, bir mütəxəssisin dəstəyi ilə yaşadıqlarını paylaşmalı və digər ailələrə, uşaqlara birbaşa izah etməlidir. Bu, başqalarının anlayışını və empati hissini gücləndirə bilər. Müəllimlər inklüziv təhsilin ailə dəstəyi olmadan mümkün olmadığını vurğulayırlar. Ailənin təhsildə fəal iştirakı vacib olsa da, bir çox ailə bunu istənilən şəkildə yerinə yetirmir. Bunun səbəbləri arasında ailənin iştirakın vacibliyinə inanmaması, müəllimlərə qarşı mənfi münasibət, təlim proqramlarının qanuni dəstək almaması, müəllimlərin ailə ilə ünsiyyətdə çətinlik çəkməsi, ailələri necə təşviq edəcəklərini bilməmələri, müəllimlərin bu işi əlavə yük sayması, ailənin maddi vəziyyəti və iş qrafiki kimi amillər var. Uşağın təhsili təkcə məktəblə və məktəb fəaliyyətləri ilə məhdudlaşmamalıdır. Sosiallaşması və müstəqil həyata hazırlanması üçün cəmiyyət içində fəaliyyətlərdə iştirakı da vacibdir. ASP olan uşaqların ailələri tez-tez davranış problemləri, qəzəb tutmaları və cəmiyyətin göstərəcəyi mənfi reaksiyalardan qorxaraq uşaqları və özlərini cəmiyyətdən təcrid etməyə meyllidirlər. Məsələn, alış-verişə gedərkən uşağı evdə buraxmaq, onun bu mühitlərdən uzaq qalmasına səbəb olur və cəmiyyət içində necə davranacağını heç vaxt öyrənə bilmir. Bu səbəbdən uyğun davranışların öyrədilməsi vacibdir. Ailələr bu bacarıqları necə öyrədəcəklərini bilməli və uyğun olmayan davranışları necə idarə edəcəklərini öyrənməlidirlər. Ailənin ictimai tədbirlərdə iştirak etməməsi, digər insanların ASP olan fərdlərlə az qarşılaşmalarına, qarşılaşdıqda isə onları anlamamalarına səbəb olur. Hətta ailə üçün belə ASP-ni anlamaq çətin ola bilir. Cəmiyyətdə fərqli davranışlarla qarşılaşan insanlar qorxu, utanc və ya qəzəb hiss edə bilirlər. Bu səbəbdən ailələr həm övladlarını ictimai mühitlərə öyrətməli, həm də cəmiyyətin də fərqli fərdlərlə bağlı mövqeyini dəyişmək üçün onlarla birgə alış-verişə getməli, çöldə yemək yeməli və digər ictimai tədbirlərdə iştirak etməlidirlər (9, s.14-15).

Autizm Spektr Pozuntusu olan bir uşağa sahib olmaq və bu vəziyyətin yaratdığı stress, valideynlərin evlilik münasibətlərinə də təsir edir. Adətən analar məsuliyyəti öz üzərlərinə götürən tərəf olurlar. Bu isə ananın həm fiziki, həm də psixoloji baxımdan daha çox yorulmasına səbəb olur. Ana və ya atanın məsuliyyətin böyük hissəsini təkbaşına daşıması evlilikdə problemlərə yol açа bilər. Anaların vaxtlarının böyük hissəsini övladlarına həsr etmələri, qadının həm ana, həm də həyat yoldaşı rolu arasındakı tarazlığı poza bilir. Bəzi atalar özlərinə vaxt ayrılmadığından şikayətlənir və cütlüklər bir-birindən uzaqlaşmağa başlayırlar. Digər tərəfdən, bəzi atalar övladları ilə bağlı bütün məsuliyyəti həyat yoldaşları ilə paylaşaraq onların psixoloji baxımdan daha güclü və sağlam olmalarına kömək edirlər. Bu da həyat yoldaşlarının bir-birinə daha yaxınlaşmasına və münasibətlərinin möhkəmlənməsinə səbəb olur.

Daim ASP olan uşağa fokuslanmaq və onun ehtiyaclarını qarşılamaq üçün çalışmaq ailəni həm fiziki, həm də psixoloji baxımdan yorur. Bu yorğunluq həyat yoldaşları arasındakı ünsiyyətə də mənfi təsir göstərə bilər. ASP olan uşaqların analarının, inkişaf gecikməsi olan uşaqların anaları ilə müqayisədə daha yüksək depressiya səviyyələrinə sahib olduqları müəyyən olunmuşdur. Bu vəziyyət eyni zamanda evlilik münasibətlərindəki məmnunluq səviyyəsinin də azalmasına səbəb olur. Ataların yaşadığı stress daha çox uşağın cəmiyyət tərəfindən qə-

bul olunması ilə bağlıdırsa, anaların stressi daha çox ASP diaqnozu ilə əlaqəli davranışlarla bağlıdır. Evliliklə əlaqədar stresin azaldılması üçün cütlüklərin bir-birinə dəstək olmaları vacibdir (10, s.4).

Həyat yoldaşları bir-biri ilə vaxt keçirmək üçün imkan yaratmalı, məsuliyyətləri bacarıq və zamanlara görə bölüşməli və ASP ilə bağlı yaşadıqları və hiss etdiklərini bir-biri ilə paylaşmalıdırlar. Əgər münasibətləri ilə bağlı problemləri öz aralarında həll edə bilmirlərsə, bir mütəxəssisdən yardım almaqdan çəkinməməlidirlər. Araşdırmalar göstərir ki, sosial dəstək alan ailələrdə stres səviyyəsi daha aşağı olur, stress səbəbiylə daha az fiziki problemlər yaşanır və daha az depressiv əlamətlər müşahidə olunur (10, s. 30-32). Eyni zamanda evlilik keyfiyyəti artdıqca anaların depressiya səviyyələri azalır, valideynlik bacarıqları və ümumi rifah halları yüksəlir.

Nəticə. ASP olan bir uşağa sahib olmaq yalnız ailə üçün stress artıran bir vəziyyət deyil, digər inkişaf pozuntuları ilə müqayisədə ailə üzərində daha güclü mənfi təsirə malikdir. Bu fərqin səbəbləri arasında ailənin ASP haqqında məlumatının az olması, diaqnoz qoyulduqda ailənin düzgün istiqamətləndirilməməsi, uşaqların bəzi sahələrdə yüksək performans, bəzi sahələrdə isə çox zəif performans göstərməsi, fiziki görünüşcə "normal" olan ASP-li uşaqdan normal davranışlar gözlənilməsi, sosial ünsiyyət problemləri və verilən sevgi qarşılığında heç bir cavab alınmaması, uşaqların ictimai yerlərdə göstərdiyi davranış problemləri, həm diaqnostika, həm də təhsil və reabilitasiya müddətində müxtəlif mütəxəssislərlə əlaqədə olmaq zərurəti və bu münasibətləri idarə etmək məcburiyyəti, həmçinin bir çox yanaşma arasından övladları üçün ən uyğununu seçmək çətinliyi yer alır. Ailə, uşaqlarında bir fərqlilik hiss etməyə başladığı andan etibarən ASP həyatlarının bir hissəsinə çevrilmiş olur. Bu fərqindəlik dövründə ailələrin ən çox ifadə etdiyi fikir isə "bir şeylərin yolunda getmədiyini gördükləri, amma bunun nə olduğunu anlaya bilmədikləridir." Bu mərhələdə ailənin beynində bir çox sual yaranır. Ailələr bu mərhələdə yaxşı valideyn olmadıqları düşüncəsi ilə özlərini günahlandıra, övladlarının fərqli ola biləcəyini söyləyən yaxınlarına qarşı qəzəb hiss edə və bu vəziyyətin keçici olacağını düşünərək lazım olan müdaxilələri təxirə sala bilərlər.

Ailə böyükləri də hər zaman olduğu kimi valideynlərə ən böyük dəstək verə biləcək şəxslərdir. Lakin nəsil fərqinə görə ASP-ni başa düşmələri çətin ola bilər. Buna görə də onların da məlumatlandırılmasına ehtiyac var. Onlar uşağa necə yanaşacaqlarını bilmədikləri üçün çəkinə bilərlər. İlk növbədə evdəki digər məsuliyyətləri paylaşaraq köməkçi ola bilərlər. Zamanla uşaqla daha çox vaxt keçirdikcə vəziyyətə öyrəşəcək və uşaqla birbaşa dəstək də verə biləcəklər. Əgər ailə böyükləri kömək etməyə könüllüdürsə, valideynlər bunu istirahət imkanı kimi qəbul etməlidirlər. Çünki daha əvvəl də qeyd edildiyi kimi, valideynlər nə qədər sağlam olsalar, övladlarının inkişafına o qədər faydalı ola bilərlər.

Problemin aktuallığı. Diaqnostika dövrü də fərqli mütəxəssislərlə sıx ünsiyyət tələb edən bir mərhələdir. Bu dövrdə ailə, mütəxəssislərə etibarlı mənbə kimi məlumat verməyə çalışmalıdır. Uşağa diaqnoz qoyulduqda isə ailələr fərqli emosional reaksiyalar göstərə bilərlər. Bəziləri nəhayət uşaqlarının vəziyyətinin nə olduğunu öyrəndikləri üçün rahatlıq hiss edə bilər, bəziləri dərin bir kədərə qapıla bilər, digərləri isə bu xəbəri verən mütəxəssislərə qarşı qəzəb hiss edə bilər.

Problemin elmi yeniliyi. Məqalədə autizm spektr pozuntusu qeydə alınan uşaqların ailə üzvlərinin yaşadığı stress vəziyyətinin təhlili və digər mühüm məsələlərə toxunulmuşdur.

Problemin nəzəri və praktiki əhəmiyyəti. Məqalə bu sahədə çalışan pedaqoqlar, psixoloqlar, eləcə də mövzuyla bağlı təhlillər aparmaq istəyən tələbələr üçün əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. Courchesne, E., Yeung-Courchesne, R., və Pierce, K. Biological and behavioral heterogeneity in autism: Roles of pleiotropy and epigenesis. //In S. H. Broman və J. M. Fletcher (Eds.), *The changing nervous system//* 1999-p. 292–340
2. Marcus, L. M., Flagler, S., & Robinson, S. Assessment of children with autism. //*Psychological and developmental assessment: Children with disabilities and chronic conditions*//- 2001-p.267-291.
3. Schreibman, L., və Anderson, A. Focus on integration: The future of the behavioral treatment of autism. //*Behavior Therapy*, *32*//- 2001. –p.619–632.

4. Dalrymple, N., Porco, B., və Chung, J. *Instructional modules on autism*. Bloomington, IN: //Indiana University, Institute for the Study of Developmental Disabilities//-1999.
5. Rapin, I., Rogers, S. J., Stone, W. L., Teplin, S. W., Tuchman, R. F., və Volkmar, F. R. The screening and diagnosis of autistic spectrum disorders- //*Journal of Autism and Developmental Disorders//- 29*, -1999. -p. 439–484.
6. Hou, C., Miller, B. L., Cummings, J. L., Goldberg, M., Mychack, P., Bottino, V., və Benson, D. F. Artistic savants. //*Neuropsychiatry, Neuropsychology, and Behavioral Neurology//-13*(1),-2000. -p. 29–38.
7. Sigman, M., və Kim, N. Continuity and change in the development of children with autism. In S. H. Broman və J. M. Fletcher (Eds.), *The changing nervous system: Neurobehavioral consequences of early brain disorders* // New York: Oxford University Press//-1999. -p. 274–291
8. Wetherby, A. M., və Prizant, B. M. (1999). Enhancing language and communication development in autism: Assessment and intervention guidelines. *Autism: Identification, education, and treatment* -//D. B. Zager (Ed.), //Mahwah, NJ: Erlbaum//-1999. -p. 141–174
9. Wing, L. The history of ideas on autism; Legends, myths and reality. //*Autism: The International Journal of Research and Practice//*- 1997-*1*(1), 13–23.
10. Mansour H, Kurana S, Eshetu A, et al., Prevalence of PostTraumatic Stress Disorder (PTSD) in autistic children or young people (CYP) and adults: A systematic review and meta-analysis, //Clinical Psychology Review// 2024. -p.1-38. https://doi.org/10.1016/j.cpr.2025.102621

UOT 159.9.

Məhərrəm Sabir oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
dosenti, psixologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dillər Universitetinin elmlər doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3762-8745
E-mail: dos.m.aliyev@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).332-342

MÜASİR DÖVRDƏ GƏNCLƏRİN DƏYƏR TƏSƏVVÜRLƏRİNİN İNTİHAR KONTEKSTİNDƏ PSİXOLOJİ TƏHLİLİ

Maharram Sabir Aliyev
associate professor of
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in psychology
doctoral student of the doctor of science program at
Azerbaijan University of Languages

PSYCHOLOGICAL ANALYSIS OF VALUE REPRESENTATIONS OF YOUTH IN THE CONTEXT OF SUICIDE IN THE MODERN ERA

Магеррам Сабир оглы Алиев
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по психологии,
докторант по программе доктора наук
Азербайджанского Университета Языков

ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЦЕННОСТНЫХ ПРЕДСТАВЛЕНИЙ МОЛОДЁЖИ В КОНТЕКСТЕ САМОУБИЙСТВ В СОВРЕМЕННУЮ ЭПОХУ

Xülasə. Dəyər təsəvvürləri zamanla dəyişsə də, dəyərlərin əhəmiyyəti əsla azalmır. Həyatımızın önəmli komponentlərindən biri olan dəyərlərə müxtəlif tədqiqatçılar tərəfindən fərqli tərifl ər və izahlar verilmişdir. Dəyərlər məqsəd, vasitə, etalon, əhəmiyyətli obyekt və s. kimi tərif edilmiş və tədqiqatlar da müvafiq tərifl ərə əsaslanaraq aparılmışdır. Öz növbəsində, tədqiqatımızda dəyər təsəvvürləri intihar düşüncəsi (n=308x2) və intihara cəhd (n=93x2) amilləri kontekstində terminal və instrumental dəyərlərin qiymətləndirilməsi materialında öyrənilmişdir. Nəticələrə əsasən, intihar düşüncəsi olmayan və intihara cəhd etməyən gənclərin intihar düşüncəsi olan və intihara cəhd edən gənclərlə müqayisədə bəzi terminal və instrumental dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirməsi faktı aşkar edilmişdir. Bu istiqamətdə tədqiqatların davam etdirilməsinə böyük zərurət vardır.
Açar sözlər: *intihar, gənclik, intihar riski, intihar düşüncələri, intihara cəhd, dəyərlər, dəyər təsəvvürləri, dəyər (sərvət) meylləri, terminal dəyərlər, instrumental dəyərlər*

Abstract. Although representations of values change over time, the importance of values never diminishes. Different researchers have given different definitions and explanations for values, which are one of the important components of our lives. Values have been defined as goals, means, standards, important objects, etc. and studies have been conducted based on the respective definitions. In turn, in our study, value concepts were investigated in the context of factors of suicidal thoughts (n=308x2) and suicide attempts

(n=93x2) through the evaluation of terminal and instrumental values. According to the results, it was found that young people who did not have suicidal thoughts and did not make suicide attempts rated some terminal and instrumental values as important values higher than young people who had suicidal thoughts and attempts. There is a great need for further research in this direction.

Key words: *suicide, youth, suicidal risk, suicidal thoughts, suicide attempt, values, value representatıons, value orientation, terminal values, instrumental values*

Аннотация. Хотя представления о ценностях со временем меняются, их важность никогда не уменьшается. Разные исследователи давали различные определения и объяснения ценностям, которые являются одним из важных компонентов нашей жизни. Ценности определялись как цели, средства, стандарты, важные объекты и т. д., и исследования проводились на основе соответствующих определений. В свою очередь, в нашем исследовании ценностные концепции изучались в контексте факторов суицидальных мыслей (n=308x2) и попыток суицида (n=93x2) на материале оценки терминальных и инструментальных ценностей. Согласно результатам, было выявлено, что молодые люди, не имевшие суицидальных мыслей и не совершавшие попыток суицида, оценивали некоторые терминальные и инструментальные ценности как важные ценности выше, чем молодые люди, имевшие суицидальные мысли и попытки суицида. Существует большая необходимость в продолжении исследований в этом направлении.

Ключевые слова: *самоубийство, молодежь, риск суицида, суицидальные мысли, попытка самоубийства, ценности, ценностные представления, ценностные ориентации, терминальные ценности, инструментальные ценности*

Giriş

Dəyərlər haqda istənilən mədəniyyətdə mövcud olan təsəvvürlər müvafiq mədəniyyətin daşıyıcısı olan şəxsiyyətin dəyər meylləri sistemini formalaşdırır. Dəyərlər – bu aləmdə bizim üçün vacib olan şeylərdir, başqa sözlə, bizim daxili hədəflərimizdir. Öz növbəsində, dəyərlər inancların formalaşdırılmasının əsasını təşkil edən kateqoriyadır, hansı ki, məhz bu inanclar həmin dəyərlərə çatmağın psixoloji mexanizmini anlamağa yardımcı olur. Bu anlamda, gənclərin dəyər təsəvvürlərinin intihar kontekstində psixoloji təhlili məqsədilə, öncəliklə, dəyər və sərvət, həmçinin dəyər və ya sərvət meyli anlayışlarına tərif verməklə yanaşı, müvafiq anlayışların hansı anlamlarda işlədilməsi məsələsinə diqqət yetirmək məqsədəuyğun olar. Qeyd etməliyik ki, Azərbaycan psixologiyasında dəyər və dəyər meyli anlayışları ilə yanaşı, sərvət meyli anlayışı işlədilmişdir (1). Müasir dövrdə ölkəmizdə dəyər probleminin işlənilməsi əksər tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Dəyərlərin şəxsiyyətin inkişafındakı rolu və onun formalaşmasının psixoloji mexanizmləri (2; 3), tələbələrin dəyərlər sisteminin formalaşmasının psixoloji xüsusiyyətləri (4), yeniyetmə və gənclərdə dəyərlərin transformasiyasının istiqamətləri (5), dəyərlərin tədqiqinə yanaşmalar (6), dəyərlərin dini və milli identikliyin sosial sərmayəsi (7), dəyərlər sisteminin formalaşmasına etnik psixoloji amillərin təsiri (8) kimi məsələlərin öyrənilməsini nümunə olaraq göstərə bilərik. Həmçinin dəyərlərin mahiyyəti, fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları haqda axtarışları özündə ehtiva edən əsəri də qeyd edə bilərik (9). Xarici ədəbiyyatlarda da dəyər problemi fərqli aspektlərdə təhlil edilmiş, müvafiq anlayışa insan həyatında önəmli rol oynayan və insan davranışının əsasını təşkil edən mexanizm və s. kimi fərqli təriflər verilmişdir (10; 11; 12; 13; 14; 15; 16; 17; 18; 19; 20)

Dəyər anlayışı, *"isim olaraq, qiymət, baha kimi, iqtisadi anlamda əmtəə istehsalına sərf edilən və bu əmtəədə maddiləşən abstrakt əməyin müəyyən miqdarı kimi, məcazi anlamda qiymət, əhəmiyyət, ləyaqət, keyfiyyət kimi, sifət olaraq da layiq kimi"* dörd istiqamətdə izah olunur (21, s. 607). Sərvət anlayışı, *"isim (ər.) olaraq var, dövlət və maddi nemətlər kimi"* izah olunur (22, s. 95). Meyl anlayışı, *"isim (ər.) olaraq, 1.bir tərəfə əyilmə, 2.istək, arzu, həvəs və 3.könül, məhəbbət kimi"* izah olunur (23, s. 311-312). Meylli anlayışı, *"sifət olaraq bir tərəfə, bir yana meyil edən, əyilən və bir şeyə meyli, həvəsi olan, meyl göstərən; mayil kimi"* izah olunur (23, s. 312)

"İzahlı rus dili lüğəti"ndə "*dəyər 1. dəyərli, 2.qiymət. maya dəyəri, 3.əhəmiyyət, önəm, məna, 4.dəyərli əşya, hadisə kimi"* izah olunur (24, s. 2194).

R.S. Nemov dəyərlər və dəyər (mahiyyət) anlayışlarını işlədir. Onun fikrincə, *"dəyərlər*

insanın öz həyatında, onu əhatə edən aləmdə, başqalarında, insanların maddi və mənəvi mədəniyyətində ən çox əhəmiyyət verdiyi və xüsusilə üzərinə titrədiyi şeydir" (25, s. 472). *"Dəyər (əhəmiyyət) isə 1.Əşyanın onu faydalı, arzuolunan edən və insan tərəfindən yüksək qiymətləndirilən keyfiyyəti və ya xüsusiyyəti və 2.Müəyyən bir mədəniyyəti və ya cəmiyyəti təmsil edən insanlara xas olan davranışa aid mücərrəd ümumi əlamət kimi izah olunur, hansı (dəyər) ki, müvafiq cəmiyyətin üzvləri tərəfindən sosiallaşma prosesində mənimsənilir və onlar tərəfindən onlar üçün dəyərli və faydalı bir şey kimi qavranılır"* (25, s. 473).

Həm "Psixologiya" lüğətində, həm də, "Praktik psixoloqun lüğəti"ndə oxşar şəkildə qeyd olunur ki, *"dəyər –obyektləri, hadisələri, onların xassələrini, həmçinin özündə ictimai idealları təcəssüm etdirən və bunun sayəsində uyğun olanın etalonu kimi çıxış edən mücərrəd ideyaları işarə etmək üçün fəlsəfə və sosiologiyada istifadə olunan anlayışdır. ... dəyərlər vahid toplam subyekt kimi çıxış edən sosial qrupların və icmaların, bütövlükdə bəşəriyyətin həyat fəaliyyətinin məhsulu kimi qəbul edilir. Dəyərlərin mövcudluğunun üç forması haqda danışmaq olar: 1) o, ictimai həyatın müxtəlif sahələrində olan, ictimai şüur tərəfindən inkişaf etdirilən və onda olan xüsusiyyətlərin mücərrəd ideyası kimi çıxış edən ictimai ideal kimi çıxış edir; belə dəyərlər həm universal, "əbədi" (həqiqət, gözəllik, ədalət), həm də konkret-tarixi (patriarxat, bərabərlik, demokratiya) ola bilər; 2) o, maddi-mənəvi mədəniyyət əsərləri və ya insan əməllərinin - sosial dəyər ideallarının (etik, estetik, siyasi, hüquqi və b.) konkret əşyavi təcəssümləri şəklində obyektivləşdirilmiş formada çıxış edir; 3) fərdi həyat fəaliyyəti prizmasından keçmiş sosial dəyərlər şəxsiyyətin davranışının motivasiya mənbələrindən biri olan şəxsi dəyərlər kimi şəxsiyyətin psixoloji strukturuna daxil olur"* (26, s. 442; 27, s. 527).

"Dəyər – subyekt (fərd, qrup, təbəqə, etnik qrup) üçün həyati əhəmiyyət kəsb edən istənilən "obyekt"dir (ideal da daxil olmaqla). Geniş mənada dəyər kimi nəinki mücərrəd cəlbedici mənalar və ya situativ dəyərlər, həm də fərd üçün sabit əhəmiyyətli konkret maddi nemətlər çıxış edə bilər. Daha dar mənada, dəyərlərdən yüksək ümumiləşdirmə dərəcəsi olan anlayışlarda ehtiva olunan mənəvi ideyalar kimi danışmaq qəbul olunub" (28).

"Böyük psixoloji lüğət"də *"Dəyər meylləri (ing. value orientations) şəxsiyyətin dünyagörüşünün və ya qrup ideologiyasının vacib komponentidir, hansı ki, bu və ya digər ümumbəşəri dəyərlərə münasibətdə şəxsiyyətin və ya qrupun tərcihlərini və canatmalarını ifadə (təmsil) edir"* yazılır (29, s. 539).

"Psixologiya" lüğətində yazılır ki, *"dəyər meylləri (sosial psixologiyada) (fr. orientations – yönəliş) – 1.subyekt tərəfindən ətraf gerçəkliyi və onda bələdləşməni qiymətləndirmənin ideoloji, siyasi, əxlaqi, estetik və digər əsaslarıdır. 2.fərd tərəfindən obyektlərin onların əhəmiyyətinə görə diferensiasiyası üsuludur"* (26, s. 441).

Başqa bir mənbədə qeyd edilir ki, *"dəyər meylləri – strateji həyat məqsədləri və ümumi ideoloji təlimatlar kimi insanın qəbul etdiyi dəyərlərin onun şüurunda əks olunmasıdır"* (28).

Dəyər və dəyər anlayışları arasında xeyli müddət sərt fərq ayrımı olmamışdır. Baxmayaraq ki, *"dəyərə meylləri fərdüstü dəyərlərin təmsillərinin fərdi formaları kimi nəzərdən keçirilsə də, dəyər və dəyər meylləri anlayışları dəyərlərin mövcudluğunun fərdi-psixoloji formalarının mövcudluğunun onların şüurda varlığından fərqli olaraq qəbul edilib-edilmədiyindən asılı olaraq ya "ümumi-fərdi" parametrə görə, ya da "real təsir edən-refleksiv dərk olunan" parametrə görə fərqlənirdi"* (28). Hazırda bu məsələdə daha çox Clyde K. Kluckhohn'un (1905-1960) fikirlərinə istinad edilir: *"Günümüzdə Clyde K. Kluckhohn'a söykənən, dəyərlərə motivasiyanın bir aspekti kimi və dəyər meyllərinə isə şəxsiyyətin fəaliyyətinin tənzim edilməsinin ierarxik strukturunda nisbətən yüksək mövqeyə sahib dəyər və ya attityudların (sosial yönəlişlərin) çeşidlərinin subyektiv konsepsiyaları kimi tərif verilməsi daha çox qəbul görməkdədir"* (28).

Bizi daha çox bu və ya digər dəyərləri üstün tutan, başqa sözlə, oxşar dəyər təsəvvürlərinə sahib gənclərin sosial davranışını proqnozlaşdırmaq imkanı maraqlandırır, hansı ki, sosial psixologiya məhz bu nöqteyi-nəzərdən dəyər problemini öyrənir.

"Əsas dəyərlərə verilən tərifl ər iki əsas paradiqmaya uyğun gəlir. Söhbət ya ən arzuolunan, emosional cəhətdən cəlbedici, insan varlığının ideal vəziyyətini ("azadlıq", "təhlükəsiz-

lik", "rifah", "həyatın mənası") təsvir etməyə qadir olan kifayət qədər mücərrəd ifadə tapmış anlayışlardan, ya da eyni dərəcədə dərindən emosional olaraq üstünlük verilən davranış və ya hərəkətlər tərzindən ("dürüst", "məntiqi", "düzgün") gedir. İlk təriflər terminal dəyərləri, ikincisi isə, məsələn, əxlaqi dəyərləri ("məsuliyyətli") və sərişdə dəyərlərini ("məntiqli", 'ağıllı', "təxəyyülə sahib") ehtiva edən instrumental dəyərləri özünə daxil edir. Funksional nöqteyinəzərdən, instrumental dəyərlər yalnız davranış və hərəkət tərzlərini qiymətləndirib seçərkən meyar (və ya standart) olaraq aktivləşirsə, terminal dəyərlər həm fəaliyyət məqsədlərini, həm də bunlara çatmanın izin verilən yollarını qiymətləndirib seçərkən aktivləşir" (28).

Tədqiqatımızda məhz terminal və instrumental dəyərlərə münasibətdə intihar düşüncəsi olan və intihara cəhd edən gənclərin dəyər təsəvvürləri arasındakı fərqləri araşdırmağa çalışmışıq.

Metod

Tədqiqatda 534 nəfəri (86,7%) qadın, 82 nəfəri (13,3%) kişi olmaqla, cəmi 616 nəfər gənc iştirak etmişdir. Tədqiqatın məqsədindən asılı olaraq, "Dəyər meylləri" (M.Rokiç) (30) metodikası istifadə edilmiş və əldə olunan məlumatlar iki amil (intihar düşüncəsi və intihara cəhd) üzərindən təhlil edilmişdir. Gənclərin hamısı sorğuda könüllü iştirak etmişdir. Sorğuda iştirak edən gənclərin 308 nəfəri (50%) "İntihar etməklə bağlı düşüncəniz olubmu?" sualına bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 308 nəfəri (50%) xeyr cavabı vermişdir. "İntihara cəhd etmisinizmi?" sualına isə gənclərin 93 nəfəri (50%) bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 93 nəfəri (50%) xeyr cavabı vermişdir. Sorğulardan əldə olunan məlumatlar İBM SPSS 27.0 kompüter proqramı ilə riyazi-statistik təhlil edilmişdir. Təhlil zamanı Kolmogorov-Smirnov normallıq testindən və Mann-Whitney U testindən istifadə olunmuşdur.

Nəticə

Tədqiqatda əsas məqsəd intihar düşüncəsi və intihar cəhdi amilləri fonunda gənclərin terminal və instrumental dəyərlər haqda təsəvvürlərini, bu dəyərlərə münasibətini müqayisə etmək olmuşdur. Öncə dəyər meylləri göstəricilərinin normal paylanmaya uyğun olub-olmadığını müəyyən etmək üçün Kolmogorov-Smirnov testi keçirilmişdir (cədvəl 1). Cədvəl 1-dən göründüyü kimi, dəyər meylləri göstəricilərinin hamısı normal paylanmadan fərqlənir ($p < .001$)

Cədvəl 1.

Tests of Normality						
	Kolmogorov-Smirnov[a]			Shapiro-Wilk		
	Statistic	df	Sig.	Statistic	df	Sig.
Aktiv həyat fəaliyyəti	.135	616	.000	.934	616	.000
Həyat müdrikliyi	.162	616	.000	.903	616	.000
Sağlamlıq	.123	616	.000	.935	616	.000
Maraqlı iş	.120	616	.000	.930	616	.000
Təbiət və incəsənətin gözəlliyi	.193	616	.000	.852	616	.000
Məhəbbət	.166	616	.000	.865	616	.000
Maddi cəhətdən təminatlı həyat	.108	616	.000	.943	616	.000
Yaxşı və sadiq dostların olması	.150	616	.000	.895	616	.000
İctimaiyyət tərəfindən qəbul edilmək	.210	616	.000	.850	616	.000
İdrak	.175	616	.000	.881	616	.000
Məhsuldar həyat	.132	616	.000	.925	616	.000
İnkişaf	.133	616	.000	.909	616	.000
Azadlıq	.156	616	.000	.898	616	.000
Xoşbəxt ailə həyatı	.193	616	.000	.825	616	.000
Başqalarının xoşbəxtliyi	.164	616	.000	.893	616	.000
Yaradıcılıq	.125	616	.000	.922	616	.000
Özünəinam	.156	616	.000	.897	616	.000
Razılıq (Həzz)	.127	616	.000	.910	616	.000
Səliqəlilik	.193	616	.000	.841	616	.000
Tərbiyəlilik	.263	616	.000	.718	616	.000
Yüksək tələblər	.179	616	.000	.863	616	.000

Gülərüzlülük	.178	616	.000	.846	616	.000
İcraçılıq	.187	616	.000	.869	616	.000
Müstəqillik	.158	616	.000	.873	616	.000
Çatışmazlıqlarla barışmazlıq	.123	616	.000	.929	616	.000
Təhsillilik	.176	616	.000	.873	616	.000
Məsuliyyətlililk	.214	616	.000	.780	616	.000
Rasionalizm	.173	616	.000	.877	616	.000
Özünənəzarət	.184	616	.000	.854	616	.000
Öz fikrində təkid edə bilmək cəsarəti	.161	616	.000	.881	616	.000
Həssaslıq	.220	616	.000	.810	616	.000
Dözümlülük	.180	616	.000	.874	616	.000
Açıq fikirlilik (baxışların müxtəlifliyi)	.205	616	.000	.807	616	.000
Möhkəm iradə	.187	616	.000	.863	616	.000
Dürüstlük	.214	616	.000	.796	616	.000
İşlərdə səmərəlilik	.169	616	.000	.869	616	.000

Daha sonra intihar düşüncəsi olan və olmayan (n=616), sonra isə intihara cəhd etmiş və etməmiş (n=186) gənclərin həyatlarında oynadığı əhəmiyyətə görə qiymətləndirdikləri dəyərlər arasında əhəmiyyətli fərqlərin olub-olmadığını aşkar etmək məqsədilə Mann-Whitney U testi tətbiq olunmuşdur. Bu test normal paylanma göstərməyən iki müstəqil qrup ortalamalarını qarşılaşdırmaq üçün istifadə olunan qeyri-paramertik yöntəmdir və Mann-Whitney *U* testi nəticəsində əldə olunan *Z* dəyəri isə test statistikası olmaqla, iki qrup arasındaki fərqin böyüklüyünü və statistik cəhətdən əhəmiyyətli olub-olmamasını göstərir. *Z-balı*, verilənlər nöqtəsinin verilənlər dəstinin ortalamasından neçə standart meylə (kənaraçıxmaya) sahip olduğunu açıqlayan statistik ölçüdür. *Z-balının* pozitiv olması, verilənlər nöqtəsinin ortalamanın üstündə, *z-balının* neqativ olması isə, verilənlər nöqtəsinin ortalamanın altında olduğu anlamına gəlir. Bu dəyər *p* dəyəri ilə birlikdə təhlil olunur.

İntihar düşüncəsi olan (n=308) və olmayan (n=308) gənclərin terminal və instrumental dəyərlərə münasibətləri zəminində onların dəyər təsəvvürlərinin təhlili iki qrup arasında əksər dəyərlərlə bağlı anlamlı fərqlərin olduğunu deməyə əsas verir.

Məhəbbət (U = 45213.500; Z = -1.016; p = .310), azadlıq (U = 45176.500; Z = -1.033; p = .301), xoşbəxt ailə həyatı (U = 47306.000; Z = -.058; p = .954), başqalarının xoşbəxtliyi (U = 44284.500; Z = -1.442; p = .149), yaradıcılıq (U = 46025.000; Z = -.642; p = .521), özünəinam (U = 45562.500; Z = -.856; p = .392), razılıq (həzz) (U = 45006.000; Z = -1.109; p = .267) kimi terminal dəyərlərin qiymətləndirilməsində intihar düşüncəsi olan və olmayan gənclərin cavablarında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 2). Lakin aktiv həyat fəaliyyəti (U = 31121.500; Z = -7.453; p < .001), həyat müdrikliyi (U = 37470.500; Z = -4.560; p < .001), sağlamlıq (U = 34030.500; Z = -6.113; p < .001), maraqlı iş (U = 35725.500; Z = -5.337; p < .001), təbiət və incəsənətin gözəlliyi (U = 41139.500; Z = -2.900; p = .004), maddi cəhətdən təminatlı həyat (U = 41548.000; Z = -2.680; p = .007), yaxşı və sadiq dostların olması (U = 40323.000; Z = -3.250; p = .001), ictimaiyyət tərəfindən qəbul edilmək (U = 36639.000; Z = -4.964; p < .001), idrak (U = 34057.500; Z = -6.139; p < .001), məhsuldar həyat (U = 32931.500; Z = -6.625; p < .001), inkişaf (U = 32812.500; Z = -6.685; p < .001) kimi terminal dəyərlərin qiymətləndirilməsində anlamlı fərqlərin olduğunu görürük (cədvəl 2). Orta və sıralama ortalarına görə təhlillər deməyə əsas verir ki, intihar düşüncəsi olmayan gənclər intihar düşüncəsi olan gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirmişlər.

Cədvəl 2.

Test Statistics *(Terminal dəyərlər üzrə) n=616*

	Mann-Whitney U	Wilcoxon W	Z	Asymp. Sig. (2-tailed)
Aktiv həyat fəaliyyəti	31121.500	78707.500	-7.453	.000
Həyat müdrikliyi	37470.500	85056.500	-4.560	.000

Sağlamlıq	34030.500	81616.500	-6.113	.000
Maraqlı iş	35725.500	83311.500	-5.337	.000
Təbiət və incəsənətin gözəlliyi	41139.500	88725.500	-2.900	.004
Məhəbbət	45213.500	92799.500	-1.016	.310
Maddi cəhətdən təminatlı həyat	41548.000	89134.000	-2.680	.007
Yaxşı və sadiq dostların olması	40323.000	87909.000	-3.250	.001
İctimaiyyət tərəfindən qəbul edilmək	36639.000	84225.000	-4.964	.000
İdrak	34057.500	81643.500	-6.139	.000
Məhsuldar həyat	32931.500	80517.500	-6.625	.000
İnkişaf	32812.500	80398.500	-6.685	.000
Azadlıq	45176.500	92762.500	-1.033	.301
Xoşbəxt ailə həyatı	47306.000	94892.000	-.058	.954
Başqalarının xoşbəxtliyi	44284.500	91870.500	-1.442	.149
Yaradıcılıq	46025.000	93611.000	-.642	.521
Özünəinam	45562.500	93148.500	-.856	.392
Razılıq (Həzz)	45006.000	92592.000	-1.109	.267

İnstrumental dəyərlərin qiymətləndirilməsi zamanı da təxminən eyni halla qarşılaşırıq. Belə ki, səliqəlilik (U = 46956.000; Z = -.220; p = .826), yüksək tələblər (U = 44745.000; Z = -1.239; p = .215), gülərüzlülük (U = 47013.000; Z = -.194; p = .846), icraçılıq (U = 44754.500; Z = -1.232; p = .218), müstəqillik (U = 44121.000; Z = -1.523; p = .128) kimi instrumental dəyərlərin qiymətləndirilməsində intihar düşüncəsi olan və olmayan gənclərin cavabları arasında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 3). Ancaq tərbiyəlilik (U = 43236.000; Z = -2.024; p = .043), çatışmazlıqlarla barışmazlıq (U = 39177.000; Z = -3.767; p < .001), təhsillilik (U = 35800.000; Z = -5.346; p < .001), məsuliyyətlik (U = 39323.500; Z = -3.802; p < .001), rasionalizm (U = 34344.000; Z = -6.004; p < .001), özünənəzarət (U = 35306.500; Z = -5.578; p < .001), öz fikrində təkid edə bilmək cəsarəti (U = 37007.500; Z = -4.787; p < .001), həssaslıq (U = 42347.000; Z = -2.380; p = .017), dözümlülük (U = 40248.000; Z = -3.299; p = .001), açıq fikirlilik (baxışların müxtəlifliyi) (U = 42092.000; Z = -2.474; p = .013), möhkəm iradə (U = 35452.500; Z = -5.511; p < .001), dürüstlük (U = 38878.500; Z = -3.993; p < .001), işlərdə effektivlik (U = 35097.000; Z = -5.675; p < .001) kimi instrumental dəyərlərin (cədvəl 3) qiymətləndirilməsi zamanı özünü göstərən anlamlı fərqlər orta və sıralama ortaları təhlillərinə görə, intihar düşüncəsi olmayan gənclərin intihar düşüncəsi olan gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirməsi faktını ortalığa qoymuşdur.

Cədvəl 3.

Test Statistics *(İnstrumental dəyərlər üzrə) n=616*

	Mann-Whitney U	Wilcoxon W	Z	Asymp. Sig. (2-tailed)
Səliqəlilik	46956.000	94542.000	-.220	.826
Tərbiyəlilik	43236.000	90822.000	-2.024	.043
Yüksək tələblər	44745.000	92331.000	-1.239	.215
Gülərüzlülük	47013.000	94599.000	-.194	.846
İcraçılıq	44754.500	92340.500	-1.232	.218
Müstəqillik	44121.000	91707.000	-1.523	.128
Çatışmazlıqlarla barışmazlıq	39177.000	86763.000	-3.767	.000
Təhsillilik	35800.000	83386.000	-5.346	.000
Məsuliyyətlik	39323.500	86909.500	-3.802	.000
Rasionalizm	34344.000	81930.000	-6.004	.000
Özünənəzarət	35306.500	82892.500	-5.578	.000
Öz fikrində təkid edə bilmək cəsarəti	37007.500	84593.500	-4.787	.000
Həssaslıq	42347.000	89933.000	-2.380	.017

Dözümlülük	40248.000	87834.000	-3.299	.001
Açıq fikirlilik (baxışların müxtəlifliyi)	42092.000	89678.000	-2.474	.013
Möhkəm iradə	35452.500	83038.500	-5.511	.000
Dürüstlük	38878.500	86464.500	-3.993	.000
İşlərdə effektivlik	35097.000	82683.000	-5.675	.000

İntihara cəhd edən (n=93) və etməyən (n=93) gənclərin terminal və instrumental dəyərlərə münasibətləri zəminində onların dəyər təsəvvürlərinin də təhlili iki qrup arasında əksər dəyərlərlə bağlı anlamlı fərqlərin olduğunu deməyə əsas verir.

Məhəbbət (U = 3712.000; Z = -1.689; p = .091), maddi cəhətdən təminatlı həyat (U = 3610.500; Z = 1.956; p = .050), yaxşı və sadiq dostların olması (U = 3706.500; Z = -1.696; p = .090), azadlıq (U = 3856.000; Z = -1.293; p = .196), xoşbəxt ailə həyatı (U = 4194.000; Z = -.365; p < .715), başqalarının xoşbəxtliyi (U = 4267.000; Z = -.159; p = .874), yaradıcılıq (U = 4227.500; Z = -.266; p = .790), özünəinam (U = 3863.500; Z = -1.275; p = .202), razılıq (həzz) (U = 4106.000; Z = -.601; p = .548) kimi terminal dəyərlərin qiymətləndirilməsində intihara cəhd edən və etməyən gənclərin cavablarında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 4). Lakin aktiv həyat fəaliyyəti (U = 2631.000; Z = -4.650; p < .001), həyat müdrikliyi (U = 2972.000; Z = -3.720; p < .001), sağlamlıq (U = 2533.500; Z = -4.914; p < .001), maraqlı iş (U = 2640.000; Z = -4.617; p < .001), təbiət və incəsənətin gözəlliyi (U = 3151.000; Z = -3.249; p = .001), ictimaiyyət tərəfindən qəbul edilmək (U = 2972.500; Z = -3.728; p < .001), idrak (U = 2660.500; Z = -4.581; p < .001), məhsuldar həyat (U = 2606.000; Z = -4.715; p < .001), inkişaf (U = 2600.500; Z = -4.734; p < .001) kimi terminal dəyərlərin qiymətləndirilməsində anlamlı fərqlərin olduğunu görürük (cədvəl 4). Orta və sıralama ortalarına görə təhlillər deməyə əsas verir ki, intihara cəhd etməyən gənclər intihara cəhd edən gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirmişlər

Cədvəl 4.

Test Statistics *(Terminal dəyərlər üzrə) n=186*

	Mann-Whitney U	Wilcoxon W	Z	Asymp. Sig. (2-tailed)
Aktiv həyat fəaliyyəti	2631.000	7002.000	-4.650	.000
Həyat müdrikliyi	2972.000	7343.000	-3.720	.000
Sağlamlıq	2533.500	6904.500	-4.914	.000
Maraqlı iş	2640.000	7011.000	-4.617	.000
Təbiət və incəsənətin gözəlliyi	3151.000	7522.000	-3.249	.001
Məhəbbət	3712.000	8083.000	-1.689	.091
Maddi cəhətdən təminatlı həyat	3610.500	7981.500	-1.956	.050
Yaxşı və sadiq dostların olması	3706.500	8077.500	-1.696	.090
İctimaiyyət tərəfindən qəbul edilmək	2972.500	7343.500	-3.728	.000
İdrak	2660.500	7031.500	-4.581	.000
Məhsuldar həyat	2606.000	6977.000	-4.715	.000
İnkişaf	2600.500	6971.500	-4.734	.000
Azadlıq	3856.000	8227.000	-1.293	.196
Xoşbəxt ailə həyatı	4194.000	8565.000	-.365	.715
Başqalarının xoşbəxtliyi	4267.000	8638.000	-.159	.874
Yaradıcılıq	4227.500	8598.500	-.266	.790
Özünəinam	3863.500	8234.500	-1.275	.202
Razılıq (Həzz)	4106.000	8477.000	-.601	.548

Səliqəlilik (U = 4316.000; Z = -.024; p = .981), tərbiyəlilik (U = 4047.500; Z = -.808; p = .419), yüksək tələblər (U = 4286.000; Z = -.107; p = .915), gülərüzlülük (U = 4257.000; Z = -.190; p = .849), icraçılıq (U = 4063.000; Z = -.725; p = .468), müstəqillik (U = 4023.500; Z =

-.834; p = .404), həssaslıq (U = 3678.500; Z = -1.814; p = .070) kimi terminal dəyərlərin qiymətləndirilməsində intihara cəhd edən və etməyən gənclərin cavablarında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 5). Bununla yanaşı, çatışmazlıqlarla barışmazlıq (U = 3369.000; Z = -2.622; p = .009), təhsillilik (U = 2847.500; Z = -4.078; p < .001), məsuliyyətlilik (U = 3269.500; Z = -2.957; p = .003), rasionalizm (U = 2572.000; Z = -4.830; p < .001), özünənəzarət (U = 2891.000; Z = -3.962; p < .001), öz fikrində təkid edə bilmək cəsarəti (U = 3169.500; Z = -3.183; p = .001), dözümlülük (U = 2872.500; Z = -4.022; p < .001), açıq fikirlilik (baxışların müxtəlifliyi) (U = 3345.000; Z = -2.715; p = .007), möhkəm iradə (U = 2590.000; Z = -4.799; p < .001), dürüstlük (U = 3123.000; Z = -3.371; p = .001), işlərdə effektivlik (U = 2243.500; Z = -5.759; p < .001) kimi instrumental dəyərlərin qiymətləndirilməsində anlamlı fərqlərin olduğunu görürük (cədvəl 5). Orta və sıralama ortalarına görə təhlillər deməyə əsas verir ki, intihara cəhd etməyən gənclər intihara cəhd edən gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirmişlər.

Cədvəl 5.

Test Statistics *(İnstrumental dəyərlər üzrə) n=186*

	Mann-Whitney U	Wilcoxon W	Z	Asymp. Sig. (2-tailed)
Səliqəlilik	4316.000	8687.000	-.024	.981
Tərbiyəlilik	4047.500	8418.500	-.808	.419
Yüksək tələblər	4286.000	8657.000	-.107	.915
Gülərüzlülük	4257.000	8628.000	-.190	.849
İcraçılıq	4063.000	8434.000	-.725	.468
Müstəqillik	4023.500	8394.500	-.834	.404
Çatışmazlıqlarla barışmazlıq	3369.000	7740.000	-2.622	.009
Təhsillilik	2847.500	7218.500	-4.078	.000
Məsuliyyətlilik	3269.500	7640.500	-2.957	.003
Rasionalizm	2572.000	6943.000	-4.830	.000
Özünənəzarət	2891.000	7262.000	-3.962	.000
Öz fikrində təkid edə bilmək cəsarəti	3169.500	7540.500	-3.183	.001
Həssaslıq	3678.500	8049.500	-1.814	.070
Dözümlülük	2872.500	7243.500	-4.022	.000
Açıq fikirlilik (baxışların müxtəlifliyi)	3345.000	7716.000	-2.715	.007
Möhkəm iradə	2590.000	6961.000	-4.799	.000
Dürüstlük	3123.000	7494.000	-3.371	.001
İşlərdə effektivlik	2243.500	6614.500	-5.759	.000

Dəyər təsəvvürləri sahəsində ortalığa çıxan anlamlı fərqlər bir çox səbəblə izah edilə bilər, belə ki, ya bu dəyərlər intihar düşüncəsi olan və intihara cəhd edən gənclər üçün əhəmiyyətli deyildir, ya da tam tərsinə, önəmli olsa da, həyatlarında olmadığı üçün müvafiq dəyərlər onlar tərəfindən daha aşağı qiymətləndirilmişdir.

Müzakirə

Gəldiyimiz nəticələr deməyə əsas verir ki, qiymətləndirmədə anlamlı fərqlərin özünü göstərdiyi terminal və instrumental dəyərlər haqda təsəvvürlər intihar düşüncəsi olan və intihara cəhd edən gənclərdə yenidən gözdən keçirilməli, onların dəyər meylləri sistemi və bu sistemə münasibətləri yenidən işlənilməlidir. Təhsil sahəsindəki tədqiqatçıların dəyər meyllərinin öyrənilməsi (31), həmçinin tələbə gənclərdə dəyər meyllərinin araşdırılması (32) müvafiq mövzunun geniş spektrə malik olduğunu və doğru yöndə irəlilədiyimizi göstərir.

Dəyərlər "psixoloji immunitetimizin vitaminləridir", hansısa "çatışmayanda" (aşağı qiymətləndirməyə ekvivalent) şəxsiyyətimiz ahəngdarlığından uzaqlaşır. Ahəngdarlıqdan uzaqlaşma hər zaman ölümcül olmaya bilər, lakin bu, müvəqqəti haldır. Müəyyən dəyərlərin intihar (intihar düşüncəsi və intihara cəhd) kontekstində önəmli olduğu aşkarlanmışdır. Deməli, dəyərlər

və onlar haqqındakı təsəvvürlər intihara meyllilikdə önəmli amil rolunu oynayır.

Problemin aktuallığı. Şəxsiyyətin formalaşması, həm özü, həm də cəmiyyət üçün xeyirli işlər görə bilən vətəndaş ola bilməsi üçün müvafiq dəyərlər sisteminə sahib olması önəmlidir. Lakin intihar düşüncəsi olan və intihara cəhd edən gənclərdə də dəyər təsəvvürləri vardır. Bu anlamda, dəyər təsəvvürlərinin intihar kontekstində öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. İlk dəfə intihar düşüncəsi olan və intihara cəhd edən gənclərlə intihar düşüncəsi olmayan və intihara cəhd etməyən gənclərin terminal və instrumental dəyərlər haqda təsəvvürləri müqayisəli zəmində təhlil edilmişdir.

Problemin praktik əhəmiyyəti. İntihar düşüncəsi olan və intihara cəhd edən gənclərin dəyər təsəvvürləri haqda əldə edilən biliklər gənclərin intihar zəminində həyata vida etmələrinin qarşısının alınması istiqamətində tövsiyələrin hazırlanmasına imkan yaradır.

Ədəbiyyat

1. Babayeva, T., Kərimi G. Gənclərin sərvət meylinin təşəkkülünün bəzi psixoloji məsələləri: [Electronic resource] / Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 26 (II hissə). Bakı, 2020, 212 s. URL:http://static.bsu.az/w22/neshrler/MEQALE%20TOPLUSU%202020,%20II%20hisse.pdf
2. Əliyeva, K., Cabbarov, R., Məmmədli, İ., Əliyeva, T . (2018) Müasir dövrdə dəyərlərin formalaşmasının psixoloji mexanizmləri: [Electronic resource] // «Azərbaycan məktəbi». № 4 (685), səh. 77–84. URL:https://www.anl.az/down/meqale/az_mektebi/2018/04/663992(meqale).pdf
3. Əliyeva, K., Cabbarov R. Müasir şəraitdə şəxsiyyətin inkişafında dəyərlərin rolu: [Electronic resource] // – Bakı: Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "DÖVLƏTÇİLİK VƏ ŞƏXSİYYƏT" mövzusunda Ümumrespublika elmi-praktik konfransının materialları (3 noyabr 2021-ci il), s. 4-8 URL:http://static.bsu.az/w22/a_kafedralar/sosial-psixologiya/KONFRANS%202021.pdf
4. Rzayeva, N. Dəyərlərin təşəkkülü : tələbələrin dəyərlər sisteminin formalaşmasının psixoloji xüsusiyyətləri // "Psixologiya Zirvəsi: Problemlər, perspektivlər və yeni yanaşmalar" adlı beynəlxalq elmi-praktik konfransın materialları (tezislər). – Bakı: ADPU nəşriyyatı, 25 iyul – 26 iyul 2019, – 2020, – s. 14-17
5. Cabbarov, R.V., Mustafayev, M.H. Müasir dövrdə yeniyetmə və gənclərdə dəyərlərin transformasiyasının istiqamətləri: [Electronic resource] // Psixologiya jurnalı, -2020, №4, -s. 34-50 URL:http://psixologiyajurnali.az/content_files/JURNALI_2020__4.pdf
6. Məmmədli İ., Piriyeva, E., Mustafayev, M. Psixologiyada dəyərlərin tədqiqinə müxtəlif yanaşmalar: [Electronic resource] // – Bakı: Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "DÖVLƏTÇİLİK VƏ ŞƏXSİYYƏT" mövzusunda Ümumrespublika elmi-praktik konfransının materialları (3 noyabr 2021-ci il), -s. 60-65 URL:http://static.bsu.az/w22/a_kafedralar/sosial-psixologiya/KONFRANS%202021.pdf
7. Alıyev, C. Dəyərlər – Dini və milli identikliyin sosial sərmayəsi kimi: [Electronic resource] // Bakı: ADU Elmi Xəbərlər, № 4, -2021, -s. 92-97
8. URL:http://82.194.16.162:8080/xmlui/bitstream/handle/123456789/1238/Elmi%20xeberler%20%23%204-2021.pdf?sequence=1&isAllowed=y
9. Aslanova Ş. Şəxsiyyətin dəyərlər sisteminin formalaşmasına təsir göstərən etnik psixoloji amillərin təhlili: [Electronic resource] // – Bakı: Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "DÖVLƏTÇİLİK VƏ ŞƏXSİYYƏT" mövzusunda Ümumrespublika elmi-praktik konfransının materialları (3 noyabr 2021-ci il), -s. 69-73 URL:http://static.bsu.az/w22/a_kafedralar/sosial-psixologiya/KONFRANS%202021.pdf
10. Məmmədov, E. Dəyərlər: mahiyyəti, fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları: [Electronic resource] // Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı. Dövlət və Din - № 04 (71) -2021. URL: https://www.anl.az/down/meqale/dovlet_ve_din/2021/4/07(meqale).pdf
11. Горькая, Ж. В. Психология ценностей: учебное пособие: [Electronic resource] / Ж. В. Горькая. – Самара: Изд-во «Самарский университет», – 2014. – 92 с. URL: https://repo.ssau.ru/bitstream/Uchebnye-posobiya/Psihologiya-cennostei-Elektronnyi-resurs-ucheb-posobie-dlya-studentov-specialnosti-Psihologiya-68544/1/Горькая%20Ж.В.%20Психология.pdf

12. Каракулова, О.В. Психология ценностей личности: учебно-методическое пособие: [Electronic resource] / О.В. Каракулова, С.П. Степаненко, Н.А. Буравлева. – Томск : Издательство Томскогогосударственного педагогического университета, – 2024. – 99 с. URL: https://fulltext.tspu.ru/OA/m2024-6.pdf
13. Баева, Л.В. Информационная эпоха: метаморфозы классических ценностей: монография: [Electronic resource] / Л. В. Баева ; Федеральное агентство по образованию, Астраханский гос. ун-т. – Астрахань: Астраханский ун-т, – 2008. – 216 с. URL: https://astresearch.narod.ru/baeva_10.htm
14. Баева, Л.В. Ценностные основания индивидуального бытия: Опыт экзистенциальной аксиологии: Монография: [Electronic resource] / – М.: Прометей. МПГУ, – 2003. – 240 с. URL: https://astresearch.narod.ru/baeva_9.htm
15. Кострова, Е. А. Понятие ценности и нормы в современных социальных науках: между теорией и эмпирией: [Electronic resource] / Е. А. Кострова // Гуманизация современной философии и гуманитаризация общественных наук: материалы научной конференции (17–18 мая 2018 г.). – Екатеринбург : Деловая книга, 2018. – С. 40-44. URL: https://elar.urfu.ru/bitstream/10995/62911/1/978-5-88687-247-7_09.pdf
16. Бакушкин, И.А., Ильичева, И.М. Изучение ценностей и ценностных ориентаций личности в истории психологии: [Electronic resource] / История педагогического и психологического образования Вестник МГПУ. Серия «Педагогика и психология», – 2021. с. 136-148 URL: https://rik.mgpu.ru/wp-content/uploads/2021/08/bakushkin.pdf
17. Яницкий, М. С. Ценностные ориентации личности как динамическая система: [Electronic resource] // Кемерово: Кузбассвузиздат. – 2000. – Т. 204. – с. 227. URL: https://psyinst.moscow/biblioteka/?part=article&id=2341
18. Леонтьев, Д.А. Ценностные представления в индивидуальном и групповом сознании: виды, детерминанты и изменения во времени: [Electronic resource] / Д.А. Леонтьев // Психологическое обозрение. – 1998. – №1. – с. 13–25. URL: https://library.by/portalus/modules/psychology/readme.php?subaction=showfull&id=1106412895&archive=1120045024&start_from=&ucat=&
19. Ярина, Е.В. Теоретический анализ понятий ценности и ценностные ориентации: [Electronic resource] / Ученые записки Орловского государственного университета. №5 (61), 2014 URL:https://cyberleninka.ru/article/n/teoreticheskiy-analiz-ponyatiy-tsennosti-i-tsennostnye-orientatsii/viewer
20. Гарванова, М. З., Гарванов, И. Г. Исследование ценностей в современной психологии: [Electronic resource] / Современная психология: материалы III Междунар. науч. конф. (г. Казань, октябрь 2014 г.). – Казань: Бук, 2014. – iv, 94 с. URL:https://www.researchgate.net/publication/269630605_ Issledovanie_cennostej_v_sovremennoj_psihologii
21. Ценностные основания психологии и психология ценностей: [Electronic resource] / Сборник материалов IV Сибирского психологического форума (16–18 июня 2011 г.). – Томск: Томское университетское издательство, – 2011. – 298 с. URL: https://core.ac.uk/download/pdf/287486926.pdf
22. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. – Bakı: "Şərq-Qərb", – 2006. – 744 s.
23. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. – Bakı: "Şərq-Qərb", – 2006. – 712 s.
24. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. – Bakı: "Şərq-Qərb", – 2006. – 672 s.
25. Ожегов С. И., Шведова Н. Ю. Толковый словарь русского языка: [Electronic resource] / 2314 с., s. 2194 URL: https://cyberlan.com.ua/wp-content/uploads/2015/07/Tolkovij-slovarj-russkogo-yazika.pdf
26. Немов, Р.С. Психологический словарь: [Electronic resource] / Р.С. Немов. — М. : Гуманитар. изд. центр ВЛАДОС, 2007. — 560 с. : ил. URL: https://www.klex.ru/i3f
27. 26.Психология. Словарь / Под общ. Ред. А.В. Петровского, М.Г. Ярошевского. – 2-е изд.: испр. и доп. – М.: Политиздат, – 1990, – 494 с.
28. Головин, С.Ю. Словарь практического психолога (около 2000 терминов): [Electronic resource] / – Минск: Издательский дом: Харвест, – 1998. – 800 с. URL:https://psv4.userapi.com/s/v1/d/445v9K_2TQC891wrANzJj1VIrOZAW4nNmBqqSGgOUScE_IAi4-LGbZ0GiLzTrwOAMuVpliUsilfVgPzq2Y_j4vbJYMoQRqXerTti06fNcSzg15sJ/Golovin_S_Yu_-_Slovar_prakticheskogo_psikhologa.pdf
29. Психологический словарь: [Electronic resource] / URL: https://psychology.net.ru/dictionaries/psy.html?word=1098

30. Большой психологический словарь: [Electronic resource] / – 4-е изд., расширенное / Под редакцией Б.Г.Мещерякова, В.П.Зинченко. – М.: Издательский дом: АСТ; АСТ-Москва; СПб; Прайм-Еврознак, – 2009. – 811 с. URL: https://spbguga.ru/files/03-5-01-005.pdf
31. Большая энциклопедия психологических тестов. – М.: Эксмо, – 2007. – 416 с.
32. Собкин, В.С., Андреева, А.И., Рзаева, Ф.Р.кызы. К вопросу о ценностных ориентациях исследователей в сфере образования. // Национальный психологический журнал. 2017. № 2. , 106-115. doi: 10.11621/npj.2017.0212 URL: https://npsyj.ru/articles/article/6919/
33. Тенькова В. А. Ценностные ориентации у студенческой молодежи: сборник трудов конференции / В. А. Тенькова, Н. А. Шевченко // Педагогика и психология: перспективы развития : материалы Междунар. науч.–практ. конф. (Чебоксары, 6 авг. 2017 г.) / редкол.: О. Н. Широков [и др.] – Чебоксары: Центр научного сотрудничества «Интерактив плюс», 2017. – с. 137-141. URL: https://interactive-plus.ru/ru/article/463567/discussion_platform

Redaksiyaya daxil olub: 07.10.2025

UOT 159.9.

Gülnarə Həmzəbəyovna Əlixanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5241-0250
E-mail: gulnare.alixanova@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).343-347

YENİYETMƏLƏRDƏ "MƏN – OBRAZ"IN FORMALAŞMASINDA BƏDİİ ƏDƏBİYYATIN ROLU

Gulnara Gamzabekovn Alikhanova
senior lecturer of
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in psychology

THE ROLE OF FICTION IN THE FORMATION OF THE "I-IMAGE" IN DOLESCENTS

Гюльнара Гамзабековна Алиханова
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета,
\ доктор филасофии по психологии

РОЛЬ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В ФОРМИРОВАНИИ «ОБРАЗА Я» У ПОДРОСТКОВ

Xülasə. Bədii ədəbiyyat yeniyetmə yaşlı şagirdlərdə "mən obrazı"nın formalaşmasında həlledici rol oynayır. Yeniyetmələrdə "mən obrazı"nın formalaşması onlara özünü, hisslərini, münasibətlərini və ətraf aləmdə öz yerini dərk etməyə kömək göstərir. Mütaliənin köməyi ilə yeniyetmə özünü bədii ədəbiyyatda təsvir edilmiş qəhrəman kimi görmək və öz hərəkətlərini təhlil etmək imkanına malik olur. Bütün bunların nəticəsində yeniyetmə yaşlı şagirdlərdə özünüdərk və zəruri sağlam dəyərlər inkişaf etməyə başlayır.

Müasir cəmiyyətdə yaradıcı təfəkkürə, innovativ qərarlar qəbul etməyi bacaran, müstəqil şəkildə bilik əldə etməyə qadir olan fərdlər tələb edilir. Ona görə də ümumtəhsil məktəblərində təlimtərbiyə prosesinin təşkilinin əsas prinsipi humanistləşdirmə olmalıdır. Bu müəllimlərdən şagirdlərin daxili aləminə, onların maraq və tələbatlarına diqqət yetirməyi, mənəvi potensialını zənginləşdirməyi tələb edir. Şagirdlərin şəxsi inkişafında ədəbi təhsilin xüsusi rolu vardır. Onun tərbiyəvi potensialı kifayət qədər əhəmiyyətlidir. Məzmunun spesifik xarakteri insanın daxili aləmini, dünyagörüşünü, dəyər ölçüsünü, təbiətə, vətənə münasibətini, ictimai borcunu, dininə, işinə, ailəsinə, sənətinə, məhəbbətinə özünəməxsusluğunu, eyni zamanda insanın məqsədini və həyatın mənasının dərk edilməsini formalaşdırır. Ədəbi əsərlər şagirdlərə hərəkətlərin gözəlliyini və çirkinliyini göstərir. Onları ali şəxsi keyfiyyətləri nəzərə almağa məcbur edir.

Açar sözlər: *pedaqoji ünsiyyət, davranış, şagird, qarşılıqlı əlaqə, təsir vasitələri, mimika, dinləmə mədəniyyəti*

Abstract. Fiction plays a crucial role in the formation of the "self-image" of adolescents. The formation of the "self-image" in adolescents helps them understand themselves, their feelings, relationships, and their place in the world. With the help of reading, adolescents have the opportunity to see themselves as heroes depicted in fiction and analyze their actions. As a result of all this, adolescents begin to develop self-awareness and necessary healthy values. Modern society requires individuals who are able to think creatively, make innovative decisions, and independently acquire knowledge. Therefore, the main principle of organizing the educational process in

secondary schools should be humanization. This requires teachers to pay attention to the inner world of students, their interests and needs, and to enrich their spiritual potential. Literary education has a special role in the personal development of students. Its educational potential is quite significant. The specific nature of the content shapes a person's inner world, worldview, value dimension, attitude to nature, homeland, social duty, uniqueness in religion, work, family, art, love, as well as the understanding of a person's purpose and the meaning of life. Literary works show students the beauty and ugliness of actions. They force them to consider higher personal qualities.

Key words: *pedagogical communication, behavior, student, interaction, means of influence, mimicry, listening culture.*

Аннотация. Художественная литература играет важнейшую роль в формировании «образа Я» подростков. Формирование «образа Я» у подростков помогает им осознать себя, свои чувства, отношения и своё место в мире. Благодаря чтению подростки получают возможность увидеть себя в образах героев художественных произведений и проанализировать свои поступки. В результате этого у подростков формируется самосознание и необходимые здоровые ценности. Современное общество требует от людей, способных творчески мыслить, принимать нестандартные решения и самостоятельно добывать знания. Поэтому главным принципом организации образовательного процесса в общеобразовательных школах должна быть гуманизация. Это требует от учителей внимания к внутреннему миру учащихся, их интересам и потребностям, обогащению их духовного потенциала. Литературное образование играет особую роль в личностном развитии учащихся. Его воспитательный потенциал весьма значителен. Специфика содержания формирует внутренний мир человека, его мировоззрение, ценностные ориентации, отношение к природе, Родине, общественному долгу, самобытности в религии, труде, семье, искусстве, любви, а также понимание своего предназначения и смысла жизни. Литературные произведения показывают учащимся красоту и безобразие поступков. Они заставляют их задуматься о более высоких качествах личности.

Ключевые слова: *педагогическое общение, поведение, ученик, взаимодействие, средства воздействия, мимика, культура слушания*

Bu gün ümumtəhsil məktəblərində yeniyetmələrdə müsbət şəxsiyyət keyfiyyətlərinin formalaşması üçün bədii əsərlərin zəngin tərbiyə potensialından az istifadə olunur. Bu şagird inkişafı problemlərinin həllində ədəbi təhsildən səmərəli istifadənin kifayət qədər olmaması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, məktəblərdə mütaliənin tərbiyəvi potensialının reallaşdırılması təcrübəsinin öyrənilməsi bədii ədəbiyyatdan istifadə etməklə yeniyetmələrdə pozitiv "mən" konsepsiyasının formalaşması üçün pedaqoji şəraitin işlənib hazırlanması və elmi cəhətdən əsaslandırılmasının vacib şərtidir. Şagirdin pozitiv "mən" obrazının inkişafında müasir məktəblərdə bədii ədəbiyyatdan istifadə üsulları bir daha müəyyənləşdirilərək ümumiləşdirilməlidir. Bu məqsədlə bədii ədəbiyyat vasitəsilə yeniyetmələrdə pozitiv "mən" anlayışının inkişafı ilə bağlı ədəbi məlumatların nəzəri təhlili və sintezi aparılmalıdır.

Məlumdur ki, yeniyetməlik dövrü özünüdərkə yönəldilmə ilə xarakterizə olunur [1,]. Özünü tanıma fəaliyyəti özünüdərkin başlanmasına və tamamlanmasına şərait yaradan identifikasiya və əks etdirmənin psixoloji mexanizmləri vasitəsilə həyata keçirilir. Bu mexanizmlərə emosional identifikasiya və şəxsi əks etdirmə də daxildir. Emosional eyniləşdirmə özünü aşağıdakılarda əks etdirir:

- düşünülmüş personaj və ya ədəbi şəxsiyyət ola biləcək başqa bir şəxslə emosional əlaqə qurmaqla eyniləşdirmə. İdentifikasiya zamanı başqasının keyfiyyətlərini ona, onun keyfiyyətləri isə başqasına ötürülür;
- özünü özü ilə və ya "mən"in müxtəlif aspektləri ilə eyniləşdirmə (ad, cins, rol və ya hər hansı digər bir keyfiyyətlə).

İdentifikasiya prosesi zamanı insan sadə təqliddən başqasının özünə aid olmayan davranış, keyfiyyət və bacarıqlarını mənimsəməyə və tanımağa başlayır. Yaş və təcrübə artdıqca insan müəyyən davranış keyfiyyətlərini özü üçün əhəmiyyətinə görə eyniləşdirir. Şəxsi düşüncə insanın öz hərəkətlərinin və düşüncələrinin mənşəyinə təkrar-təkrar müraciət etmək bacarığıdır.

İnsanın kənar müşahidəçi mövqeyi kimi etdikləri, həm də özünü necə dərk etdiyi barədə düşünmək bacarığıdır. Əks etdirmə bir mexanizm kimi eyniləşdirmədən daha gec inkişaf edir.

Bir insan özünü başqası ilə eyniləşdirərək, onun şəxsi xüsusiyyətlərini, davranış modellərini, münasibətlər və ünsiyyət xüsusiyyətlərini təkrarlaya bilir. Bütün bunlar daha sonra əksetdirici təhlilə məruz qalır. Bu zaman konkret keyfiyyətin və ya hərəkətin səbəbləri müəyyən edilir, qiymətləndirilir. Daha sonra bu xüsusiyyətlərin özünə ötürülməsi prosesi həyata keçirilir və müqayisə aparılır. Nəticədə həm başqa bir insanın, həm də özünün şəxsiyyət xüsusiyyətləri daha dərindən dərk edilir.

Şagirdlərin bədii əsərlərlə tanışlığı bu psixoloji mexanizmləri həyata keçirməyə imkan verir. Yeniyetmələrin özünü dərkinə və ümumilikdə pozitiv "mən" anlayışının formalaşmasına mühüm təsir göstərir.

Pedaqoji – psixoloji tədqiqatlarda subyektiv təcrübənin aktivləşdirilməsi metodundan istifadə təklif edilir. Bunu həyata keçirmək üçün tədqiqatçılar ardıcıl olaraq üç növ tapşırığı özündə birləşdirən metodik transformasiya texnikasından istifadə etməyi məsləhət görürlər:

● Şagirdə bədii əsərdə təsvir olunan əsas situasiyada özünü təsəvvür etməsinə icazə verilməsi. Bu prosesdə hər bir şagirdin öz həyatında baş verənləri təsəvvür etməsi şagirdin təxəyyülünü stimullaşdırır və onun həyat təcrübəsi aktivləşir. Məsələn, şagirdlər tonqal ətrafında bir mənzərə təsəvvür edirlər: personajlar, onların alov işığı ilə işıqlanan üzləri, ətraf mühit və s.;

● Şagirdlərə özlərini bu personajlardan biri kimi təsəvvür etmələri, personajın həmin an hiss etdiyini hiss etməyə çalışmalarını (ot qoxusu, tonqalın istiliyi, daha bir qorxulu hekayənin həyəcanı və s.) təklif edilir;

● Şagird öz hissləri haqqında şifahi və ya yazılı təqdimata, hisslərini sinif yoldaşlarının hissləri ilə müqayisə etməyə dəvət edilir.

Subyektiv təcrübənin aktivləşdirilməsi müəllifin ədəbi mətnlə işləmək üçün şəxsiyönlü üsulları ilə asanlaşdırılır:

● Xarakterin xarici görünüşünü və şəxsiyyətini təsvir edərkən dominant xüsusiyyətlərin müəyyən edilməsi.

● Sitat vasitəsilə personajın səciyyələndirilməsi.

● Müxtəlif həyat vəziyyətlərində xarakterin təsviri.

● "İdeal qəhrəmanın doğulması" texnikası.

Pedaqoji – psixoloji ədəbiyyatda yeniyetmələrlə bədii ədəbiyyatın öyrənilməsi prosesində mərhələli oyun məşqlərindən istifadə etmək təklif edilir:

● rol testi (personajın nöqteyi-nəzərindən hekayə): səhnə haqqında hekayə; portret hekayəsi (bir personajın digəri tərəfindən görünüşünün təsviri); təsadüfi hekayə (hadisələr, münaqişələr haqqında); tale hekayəsi (tərcümeyi-hal, qəhrəmanın həyat hekayəti);

● Səhnələşdirmə: epik əsərin təsviri mətni əsasında (ayrı-ayrı epizodların dialoq şəklində və ya şifahi şəkildə dialoq formasına çevrilməsi ilə) xəyali səhnələşdirmənin və ya dialoqun real səhnələşdirməninin quruluşu və müzakirəsi. Bu əsərə səhnələşdirməyə hazırlayan aşağıdakı tapşırıqlar daxildir: tamaşanın onsuz mövcud ola bilməyəcəyi epizodları müəyyən etmək; "kiçik parçaların tapşırığını" müəyyən edən – səhnələr; tamaşanın əsas məqsədinin müəyyən edilməsi;

● Quruluş verilməsi: epik əsərin quruluşu ilə səhnələşdirilməsi və ya xəyali səhnələşdirmənin müzakirəsi; xəyali səhnə versiyasının və ya onun istehsalının müzakirəsi;

● Rejissor şərhi: epik əsər əsasında xəyali tamaşanın epizoduna (səhnəsinə) rejissor replikasının (istiqamətlərinin) yaradılması; lirik əsər əsasında tamaşaya rejissor şərhi;

● Səhnələşdirilmiş oyunlar: "Qəhrəmanı tanı"; "Qəhrəmanın məhkəməsi"; "Qəhrəmanın oxucularla görüşü"; "Nənənin sandığı" və s;

● Dərs – tamaşa: dialoq performansı; ədəbi-musiqili kompozisiya; bir aktyorun tamaşası; bufon teatrı, kukla tamaşası və s.

Yeniyetmələrin həyata keçirdikləri teatr improvizasiyası fəaliyyətləri onlara kortəbii olaraq, yalnız "burada və indi" hisslərini nəzərə alaraq müxtəlif rollarda olmağa, müxtəlif situasiyaları "yaşamağa" və öz daxili aləmini bədii personajın dünyası ilə əlaqələndirməyə imkan verir. Bunun sayəsində yeniyetmə öz daxili aləminin dərkinə yaxınlaşır. Yeniyetmə şagirdlərdə emosional gərginliyi aradan qaldırmaq və oyunun reallığına keçidi asanlaşdırmaq üçün xüsusi "fəallaşdırıcı" metodlardan istifadə olunur. Araşdırmalara görə, yeniyetmələrin xeyli hissəsi bədxah, quldur və döyüşçü rollarını seçirlər. Bu da onlara aqressiv davranışlar nümayiş etdirməklə, hisslərini dərk etməyə, sanki onlarla "əlaqə yaratmaq" imkanı verir. Oyunu yekun-

laşdırmaq üçün "sehrli dükan" adlı psixodramatik texnikadan istifadə edilir: iştirakçılar təcrübədən "özləri ilə aparmaq" istədiklərini və "atmaq" istədiklərini ifadə edirlər, yazı yazıb şəkil çəkirlər; oyunda nəyi bəyənib, nəyi bəyənmədiklərini təsvir edirlər. Bəzən şagirdlərə oyunun adi məkanından kənara çıxmağa və hekayəni dərk etmə mərhələsinə keçməyə kömək edən rolların dəyişdirilməsi də baş verir.

İntrospektiv təhlil metodu şagird şəxsiyyətinin inkişafında xüsusi yer tutur. Bu metodu həyata keçirmək üçün müəllim ədəbi əsərə əsaslanaraq problemi şagirdlər üçün şəxsən əhəmiyyətli edəcək şəkildə formalaşdırır və onun müzakirəsini təşkil edir. Pedaqoji – psixoloji təhlilə görə, şagirdin daxili aləminə olan marağı, özünüdərketmə prosesinin inkişafına təkan verir. Müzakirə vaxtı müxtəlif tipli: "Bu vəziyyətdə necə hərəkət edərdiniz?; Seçiminiz nə olardı? və s. suallar verilir.

Eyni zamanda bu metodun əsasında duran problemli sualdan istifadə edərək, söhbətə, debata, tərəfdarların mübahisəsinə başlamaq olar. "İnsana ideal lazımdırmı?" sualını müzakirə edərkən şagirdlərdən bir vərəqi yarıya bölməyi xahiş etmək olar. Vərəqin solunda ideala ehtiyacın lehinə bütün arqumentləri, sağda isə əks arqumentləri qeyd etmək təklif olunacaqdır.

İntrospektiv analiz metodu aşağıdakı üsulları təklif edir:

● Şagirdlərin öz fikirlərini yazılı şəkildə qeyd etməsi. Şəxsi inkişafın əsas şərti insanın daxili aləminə yönəlməsi, həyat təcrübəsini aktuallaşdırması, əxlaqi hissləri, duyğu və düşüncələrini oyatması, daxili vəziyyətinə introspeksiya etməsidir. Bu imkan tapşırığı yerinə yetirərkən şagird bir kağız parçası ilə, öz fikir və hisslərini daxilindəki səssiz həmsöhbətlə tək qalanda yaranır. Özünə, hansısa obraza, sevimli əsərin qəhrəmanı və ya müəllifə, kim üçünsə əlamətdar olan şəxsə məktub yazmaq insanın mənəvi şüurunun dəyişməsinə səbəb olur.

T.A. Marişin münaqişə vəziyyətinin dramatikləşdirmə vasitəsilə introspektiv təhlil metodunun həyata keçirilməsini aşağıdakı kimi təklif edir:

- Şagirdlər münaqişəli qarşılaşmanı müəyyənləşdirir və xarakterizə edirlər; emosional vəziyyət təhlil edilir; onları münaqişəyə girməyə vadar edən səbəb müəyyən edilir; mübahisədə rəqibin tutduğu mövqe ("təcavüzkar", "müşahidəçi", "məsul rəqib") ardıcıl olaraq nümayiş etdirilir; əks etdirilən qavrayış vasitəsilə müəyyən bir vəziyyətdə onların üstünlük verdiyi davranış tərzi əsaslandırılır.

Bu texnikanın tətbiqi personajların şəxsiyyətlərarası münaqişəyə daxil olduğu ədəbi əsərdə konfliktlə zəngin epizodu müəyyən etməyi nəzərdə tutur. Bu personajların təmsil etdiyi konflikt mövqeləri müəyyən edilir və onların münaqişəli mövqelərinin inkişaf səviyyəsinin ilkin qiymətləndirilməsi əsasında şagirdlər arasında rollar bölüşdürülür. Şagirdlər daha sonra bu münaqişə mövqelərinin effektivliyini və qeyri-məhsuldarlığını anlamaq üçün dəyərlərə əsaslanan öyrənmə fəaliyyətləri ilə məşğul olurlar. Bədii konfliktlərin idarə edilməsi rol oynayan fəaliyyətləri asanlaşdırır, bu müddət ərzində şagirdlər münaqişə vəziyyətlərində bir neçə təxribatçı seçimlə qarşılaşır və özlərinin təhlil və əks etdirmə bacarıqlarını gücləndirirlər. Problemli vəziyyətlərin yaradılması bir qrup şagird daxilində ziddiyyətli məna mövqelərinin inkişafına kömək edir ki, bu da çox mövqeli ünsiyyət vasitəsilə həyata keçirilir.

V. İpatova obraz terapiya metodundan istifadə etməyi tövsiyə edir, bu üsul yeniyetmələrin ya zehni olaraq, ya da faktiki davranış vasitəsilə istədikləri "mən" obrazını yaratmağı əhatə edir. Tədricən, obraz terapiya zamanı arzu olunan görüntüsü vərdiş edilmiş davranış stereotipinə çevrilir. Psixi obrazlar yaradarkən yeniyetmələrdən öz real və ideal fiziki "mən"lərini, eləcə də real və ideal sosial "mən"lərini təsəvvür etmələri xahiş olunur. Görüntülərin aktuallaşdığı psixi vəziyyətə daxil olmaq üçün istirahət üsullarından istifadə edilir. Nəhayət, ortaya çıxan şəkillərin təbiəti, məzmunu və onlarla əlaqəli emosional təcrübə ilə bağlı müzakirə aparılır. Yeniyetmənin ya onları ətraflı təsvir etmək, ya da ümumi təəssüratlarını bölüşmək, hisslərini çatdırmaq və məşq zamanı baş verənlərə münasibət bildirmək hüququ var.

Bu metodun mümkün tətbiqlərindən biri də nağıl terapiyasının istifadəsidir [6]. Psixoterapevtik nağılların, hekayələrin, məsəllərin və miflərin müəllifi kimi çıxış etmək, yeniyetmənin müəyyən bir nağıl personajı ilə eyniləşməsinə imkan verir. Xarakterlə emosional eyniləşdirmə yolu ilə yeniyetmə özünü kənardan görmək, mənfi qavrayışları düzəltmək və öz real sosial keyfiyyətləri haqqında müsbət fikirlər formalaşdırmaq imkanı əldə edir. V. İpatovanın psixoloji məzmunda oxşar olan rəsmdən istifadə etməklə art-terapiya texnikasını tövsiyə edir. Onun qənaətinə görə, rəsm insanın hisslərini, təcrübələ-

rini və emosional vəziyyətlərini dərk etmək və könüllü olaraq tənzimləmək üçün lazımi şərait yaradır. Bu metodu tətbiq etmək üçün "Avtoportret", "Özünü heyvan kimi çək", "İdeal – mən və real – mən", "Mən məktəbdəyəm", "Mən sinifdəyəm", "Ailəmin rəsmi", "Dostlar arasında mən" kimi məşqlərdən istifadə etmək olar. Bədii ədəbiyyatdan istifadə edən yeniyetmələrdə müsbət "mən" konsepsiyasının formalaşması üçün yuxarıda göstərilən üsul və metodlardan qeyri-ənənəvi dərslərdə istifadə oluna bilər: rollu oyun dərsi; müsahibə dərsi; hikmətlilik dərsi; səmimi dərsi; nağıl dərsi; şifahi "rəsm" eləcə də dərnək fəaliyyəti, mövzulu gecələr və tamaşalar kimi tədris prosesi sinifdənkənar formalarında təşkil oluna bilər.

Yeniyetmələrdə "mən" konsepsiyasının inkişafı emosional identifikasiya və şəxsi əks etdirmənin psixoloji mexanizmləri vasitəsilə həyata keçirilir. Bu prosesi bədii vasitələrdən istifadə etməklə pedaqoji cəhətdən istiqamətləndirmək üçün subyektiv təcrübənin fəallaşdırılması, introspektiv təhlildən, imaqoterapiyadan, əsərin müəllifi kimi çıxış etmək metodlarından istifadə olunur. Yeniyetmələrin subyektiv təcrübəsi aşağıdakı metodoloji üsullarla aktivləşdirilir.

1) Transformasiyalar: özünüzü əsərdə təsvir olunan əsas vəziyyətdə təsəvvür edin; özünüzü bu personajlardan biri kimi təsəvvür edin, personajın hazırda nə hiss etdiyini hiss etməyə çalışın; hisslərinizi haqqında danışın, onları yoldaşlarınızın hissləri ilə müqayisə edin;

2) Bədii mətnlə işləmək üsulları: personajın xarici görünüşünün və xarakterinin təsvirində üstünlük təşkil edən xüsusiyyətlərin işıqlandırılması; xarakterin sitatlarla xarakterizə edilməsi; müxtəlif həyat vəziyyətlərində xarakterin təsviri: ideal qəhrəman obrazının yaradılması; əxlaqi anlayışların mahiyyətinin müəyyənləş-dirilməsi;

3) Şəxsiyyətyönlü teatrlaşdırma: arzu olunan keyfiyyətlərə və onların təzahürü üçün zəruri olan şəraitdə "həyata" malik şəxsiyyətə çevrilməklə "dramatikləşdirmə" oyununda iştirak (rol dinləmələri, səhnələşdirmə, dramatikləşdirmə, rejissor şərhi, dramatik oyunlar, dərs-tamaşa);

4) Teatr - improvizasiya fəaliyyəti: psixodrama, sosiodram, improvizasiya oyunu.

İntrospektiv təhlil metodu aşağıdakı metodoloji üsullarla həyata keçirilir:

1) ədəbi əsərlərə istinad edərək şəxsi əhəmiyyətli məsələləri formalaşdırmaq və onların müzakirəsini təşkil etmək;

2) söhbət, müzakirə, debat çərçivəsində "lehinə" və "əleyhinə" əks-arqumentlər;

3) yeniyetmələrin öz düşüncələrini qeyd etməsi;

4) tamamlanmamış cümlə;

5) özünə, qəhrəmana, hər hansı personaja və ya insan üçün əhəmiyyətli olan sevimli əsərin müəllifinə məktub yazmaq;

6) rol oyunu vasitəsilə münaqişə vəziyyətini dramatikləşdirmək.

Obraz terapiya metodu yeniyetmələrin ya öz təxəyyülündə, ya da faktiki davranışı vasitəsilə arzu olunan özünün "mən"ini bərpa etməklə həyata keçirilən bir üsuldur. Şagirdlərin müəllif kimi çıxışı zamanı bu metod şəxsi əsərin yaradılması və sevimli personajın hekayəsi, nağıl terapiyası və art terapiya vasitəsilə həyata keçirilir.

Problemin aktuallığı. Yeniyetmələrdə "Mən – obraz"ın formalaşmasında bədii ədəbiyyatın rolunun öyrənilməsində əsas məqsəd şagirdlər arasında bədii ədəbiyyata marağın və motivasiyanın artırılması yollarının təhlilini verməkdən ibarətdir.

Problemin elmi yeniliyi. Yeniyetmələrdə "Mən – obraz"ın formalaşmasında bədii ədəbiyyatın rolu probleminin həlli ilə əlaqədar bir sıra səmərəli tövsiyələrin irəli sürülməsindən ibarətdir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, psixoloq və pedaqoqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilərlər.

Ədəbiyyat

1. Bayramov, Ə.S. Sosial psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı, 2003. – s. 300-302.
2. Əliyev, R.İ. Tərbiyə psixologiyası. / R.İ. Əliyev. –Bakı: Nurlan, -2006. –200 s.
3. Əlixanova, G.H. Məktəbəqədər yaşlı uşaqlarda "Mən" obrazının formalaşmasında ailənin rolu. Monoqrafiya. / G.H. Əlixanova. – Bakı: ADPU-nun nəşriyyatı, –2021. –168 s.
4. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. – Bakı, 2003. –s. 62-65.
5. Rean A.A. Uşaqlıq dövrünün psixologiyası (tərcümə edən Əlixanova G.H.) Dərs vəsaiti. –Bakı: ADPU - nun nəşriyyatı, –2024. –398 s.
6. Драндров Г.Л., Богослова Е.Г. Формирование позитивной я-концепции подростков средствами художественной литературы // Фундаментальные исследования. 2015. № 2-8. –с. 1761-1767.

Redaksiyaya daxil olub: 20.10.2025

UOT 159.9

Gültəkin İbrət qızı İsmayılova
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun,
Sosial psixologiya şöbəsinin böyük elmi işçisi,
psixologiya üzrə fəlsəfə doktoru
https://doi.org/10.69682/arti.2024.91(5).213-216
https://orcid.org/0000-0001-7740-321X
E-mail: gulya.alibekovaa@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).348-350

FÖVQƏLADƏ VƏZİYYƏTİN İNKİŞAF DİNAMİKASINDA PSİXOLOJİ RİSKLƏR

Gultakin Ibrat Ismayilova
senior researcher of the department of Social psychology
at the Institute of Philosophy and Sociology of ANAS,
doctor of philosophy in psychology

PSYCHOLOGICAL RISKS IN THE DYNAMICS OF EMERGENCY SITUATIONS

Гюльтекин Ибрат гызы Исмаилова
старший научный сотрудник отдела Социальной психологии
Института Философии и Социологии НАНА,
доктор философии по психологии

ПСИХОЛОГИЧЕСКИЕ РИСКИ В ДИНАМИКЕ РАЗВИТИЯ ЧРЕЗВЫЧАЙНОЙ СИТУАЦИИ

Xülasə. Məqalədə fövqəladə vəziyyətlərin inkişaf dinamikasında insan amilinin psixoloji riskləri araşdırılır. Təbii və texnogen fəlakətlərdə yaranan gözlənilməzlik, davamlılıq, yayılma sürəti və miqyas kimi amillərin insan psixikasına təsiri təhlil olunur. İnsanın texnika ilə qarşılıqlı fəaliyyəti, təhlükəsizlik qaydalarının pozulması və psixoloji adaptasiya mexanizmləri xüsusi vurğulanır. Psixoloji risklərin azaldılması üçün profilaktik tədbirlər və psixi möhkəmlik resurslarının gücləndirilməsi vacib amil kimi göstərilir**.**
Açar sözlər: *fövqəladə vəziyyət, insan amili, psixoloji risklər, psixi möhkəmlik, ekstremal şərait*

Abstract. The article examines psychological risks in the dynamics of emergency situations. It analyzes the impact of unpredictability, duration, spread rate, and scale of disasters on human psychology. Special emphasis is placed on human–technology interaction, violations of safety regulations, and mechanisms of psychological adaptation. The importance of preventive measures and strengthening mental resilience is highlighted as a key factor in mitigating the negative consequences of emergencies and ensuring effective coping strategies in extreme conditions.
Keywords: *emergency situation, human factor, psychological risks, mental resilience, extreme conditions*

Аннотация. В статье рассматриваются психологические риски в динамике развития чрезвычайных ситуаций. Анализируется влияние факторов неожиданности, продолжительности, скорости распространения и масштаба катастроф на психику человека. Особое внимание уделено взаимодействию человека с техникой, нарушению правил безопасности и механизмам психологической адаптации. Подчеркивается важность профилактических мер и укрепления психической устойчивости для снижения негативных последствий чрезвычайных ситуаций.
Ключевые слова: *чрезвычайная ситуация, человеческий фактор, психологические риски, психическая устойчивость, экстремальные условия*

Bəşəriyyət özünün inkişafı boyu ətraf mühitlə sıx qarşılıqlı əlaqədə olmuşdur. XXI əsrdə yüksək sənayeləşmiş cəmiyyətin yaratdığı problemlər daha qabarıq şəkildə müşahidə olunmaq-

dadır. İnsanın təbiətə kəskin müdaxiləsi, bu müdaxilənin miqyasının genişliyi və müxtəlifliyi qlobal təhlükələrin yaranmasına səbəb olur. Planetin müxtəlif guşələrində hər an fövqəladə hadisələr baş verir və bunlar kütləvi informasiya vasitələri ilə faciə, təbii fəlakət, qəza, hərbi münaqişə və terror aktı kimi təqdim edilir. Fövqəladə halların sayı ildən-ilə artmaqda, qurbanların və yaralıların sayında, həmçinin maddi-mənəvi ziyanın miqyasında daima yüksəliş müşahidə olunmaqdadır. İnsan amili təhlükəsiz əməyin əsas determinantı hesab olunur (9, s. 115).

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, bədbəxt hadisələr nəticəsində ölüm faizi ürək-damar və onkoloji xəstəliklərdən sonra üçüncü yerdədir. Xüsusilə, bu hallar əsasən əmək qabiliyyətli gənc və orta yaşlı insanlar arasında müşahidə olunur ki, bu da cəmiyyət üçün böyük sosial-iqtisadi itkilərlə nəticələnir. Texnosferada baş verən böyük fəlakət və qəzaların əksəriyyəti insan amili ilə əlaqədardır. İnsanların məsuliyyətsizliyi və diqqətsizliyi, ehtimalı az olan, lakin baş verdikdə ağır nəticələr doğuran fövqəladə hallar şəraitində mühüm sosial problemə çevrilir (7, s. 37).

Sənaye müəssisələrində və nəqliyyatda baş verən qəzalar, eləcə də ekoloji bəlalar təhlükəli nəticələr doğurur. Onların sosial-ekoloji təsirləri bəzən hərbi münaqişələrin nəticələrinə bərabər olur. Bu tip qəzalar sərhəd tanımır, çoxsaylı insan tələfatı və siyasi gərginliklər yaradır. Dünyada istismar olunan minlərlə potensial təhlükəli obyektlər vardır. Bu obyektlərdə toplanmış radioaktiv, partlayıcı və zəhərli maddələr fövqəladə hal zamanı ətraf mühitə ciddi zərbə vuraraq, canlı həyat üçün ölümcül nəticələr doğura bilər (2, s. 79).

Fövqəladə hadisələr müəyyən proseslərin normadan kənara çıxması nəticəsində yaranır. Onların inkişaf xarakteri və nəticələri təbii, antropogen və sosial amillərlə müəyyən olunur. Əvvəllər ekstremal hallarda əsas narahatlıq ölüm və xəsarətlər idisə, indi psixososial və psixi sağlamlıq məsələləri də diqqət mərkəzindədir. Bədbəxt hadisələrin psixi nəticələri somatik nəticələrdən daha ağır ola bilər, həm fərdi, həm də ictimai səviyyədə sosial problemlərə səbəb ola bilər. Fövqəladə halların yaranmasının üç əsas səbəbi vardır:

1. Təhlükənin artım sürəti insanın müqavimət imkanlarını üstələyir.

2. Səhvlərin dəyəri müasir dövrdə daha ağır nəticələr doğurur.

3. İnsanların təhlükəyə adaptasiyası – texniki vasitələrin yaratdığı təhlükələri unudaraq qayda pozuntularını təkrar etmələri (1, s. 28).

İnsan amili insan–texniki sistem qarşılıqlı münasibətlərində ortaya çıxır və həm səmərəli, həm də səmərəsiz idarəetmə mənbəyi ola bilər. İnsan xüsusiyyətləri, zərərli vərdişlər və psixoloji gərginlik diqqətin ləng dəyişməsinə, çətin situasiyalarda düzgün qərar qəbulunun mümkün olmamasına gətirib çıxarır. Müasir texnologiyaların inkişafı insanın fiziki əməyini azaltdığı halda, onun psixikasına düşən yükü artırmışdır. Təcrübələr göstərir ki, bədbəxt hadisələrin əsas səbəbi çox zaman texniki nasazlıq deyil, təhlükəsizlik qaydalarına əməl etməyən insandır. Araşdırmalara görə, bədbəxt hadisələrin 60%-i əmək təhlükəsizliyi qaydalarının pozulması və əmək intizamının zəifliyi ilə bağlıdır. Əgər ibtidai insanın buraxdığı səhvlər məhdud nəticələr doğururdusa, müasir dövrdə eyni səhvlər ağır faciələrə səbəb olur. İnsan bəzən cari mənfəət üçün təhlükəsizlik qaydalarını pozur, cəzasızlıq halları isə bu davranışların təkrarına şərait yaradır (5, s. 49).

Profilaktik tədbirlər mühüm əhəmiyyət kəsb edir. Mobil qruplarda fəaliyyət göstərən şəxslərdə psixi möhkəmlik – iradə, dözüm, soyuqqanlılıq, qorxuya qalib gəlmək bacarığı tərbiyə edilməlidir. Əhali ilə maarifləndirmə işləri aparılaraq ekstremal situasiyalara düzgün reaksiya formalaşdırılmalıdır. Fövqəladə vəziyyətlər bioloji (insan, heyvan, əhali qrupları) və qeyri-bioloji (infrastruktur, texniki qurğular) obyektləri əhatə edə bilər. Onların nəticələri müsbət, mənfi və ya neytral ola bilər. Əsas məqam odur ki, insan faktoru daim bu sistemin mərkəzindədir (6, s. 126).

Gözlənilməzlik fövqəladə hallarda ən təhlükəli amildir. Qəfil baş verən hadisələrin qarşısını almaq çətin olur və onların nəticələri daha ağır olur. Əksinə, proqnozlaşdırılan hadisələr zamanı qabaqlayıcı tədbirlər görmək mümkündür. Təbii fəlakətlər tam qarşısı alına bilməsə də, onların nəticələri azaldıla bilər. Ekstremal amillərin təsiri dayandıqdan sonra insanların məruz qaldığı psixi pozuntuların qarşısını almaq üçün reabilitasiya tədbirləri görülməlidir. Burada yayılma sürəti və miqyası mühüm rol oynayır: partlayış saniyələrlə, yanğın küləyin sürəti ilə, daşqın isə suyun hərəkət trayektoriyası ilə ölçülür. Məsələn, Hirosima və Naqasaki şəhərlərində atom bombası partlayışının dağıdıcı qüvvəsi bir neçə saniyədən çox çəkməmişdi. Lakin

partlayış nəticəsində yaranan yanğının nəticələri bir sutkadan artıq davam etmiş və minlərlə insanın həyatına son qoymuşdu. Yəni, bombanın birbaşa partlaması ilə yaranan radioaktiv təsirin müddəti milli saniyələrlə ölçülsə də, radioaktiv çirklənmənin nəticələrini Yaponiya sakinləri bu günə qədər hiss edirlər. Bu, dağıdıcı amilin gücü və keyfiyyəti ilə sıx bağlıdır (8, s. 767).

Davamlılıq amili dağıdıcı amilin gücü (amplitudası) və keyfiyyət xüsusiyyətləri ilə sıx əlaqəlidir. Bu amillərin qarşılıqlı təsiri, tək bir amildən fərqli olaraq, ekstremal vəziyyət zonasında insanların və obyektlərin daha geniş miqyasda zədələnməsinə səbəb ola bilər. Bu amillər təbii mənşəli (qasırğalar, zəlzələlər, yanğınlar, daşqınlar, quraqlıq və s.) və ya antropogen, yəni insan fəaliyyəti nəticəsində yaranan xarakter daşıyır. Sonuncu halda, biz texnogen fəlakətlər və fövqəladə hallar haqqında danışırıq. Ekstremal situasiyalarda panika, şayiələrin yayılması və insanların passivliyi əlavə risk yaradır. Kütləvi panika nəzarət olunmayan qorxulardan qaynaqlana bilər. Bunun qarşısını almaq üçün dəqiq informasiya verilməli, ictimai nəzarət gücləndirilməli və insanların enerjisi xilasetmə işlərinə yönəldilməlidir (4, s. 876). Həmçinin, insanların bu cür vəziyyətlərdəki psixoloji passivliyi və faciə ilə mübarizəyə hazırlıqsızlığı da diqqətdən kənarda qalmamalıdır.

Nəticə. Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, fövqəladə vəziyyətlərin inkişaf dinamikasında insan amili həlledici rol oynayır. Əsas elmi yenilik ondan ibarətdir ki, insanın psixoloji adaptasiya mexanizmləri, təhlükəyə münasibət formaları və qayda pozuntularına meyl fövqəladə vəziyyətlərin yaranma və inkişaf mexanizmlərində xüsusi əhəmiyyət kəsb edir. Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, fövqəladə vəziyyətlərin inkişaf dinamikasında insan amili həlledici rol oynayır. Hadisələrin miqyası, yayılma sürəti və gözlənilməzliyi insanın psixoloji dayanıqlığı ilə sıx bağlıdır. Əsas elmi yenilik ondan ibarətdir ki, insanın psixoloji adaptasiya mexanizmləri, təhlükəyə münasibət formaları və qayda pozuntularına meyl fövqəladə vəziyyətlərin yaranma və inkişaf mexanizmlərində xüsusi əhəmiyyət kəsb edir. Ekstremal şəraitdə insanların davranış modelləri yalnız bioloji və texniki faktorlarla deyil, həm də psixososial və mədəni amillərlə formalaşır. Bu isə fövqəladə halların idarə olunmasında psixoloji risklərin nəzərə alınmasını zəruri edir.

Problemin aktuallığı. Müasir dövrdə fövqəladə vəziyyətlərin artması onların psixoloji və psixososial təsirlərinin öyrənilməsini zəruri edir. Təhlükələrin gözlənilməzliyi və davamlılığı insan psixikasında gərginlik yaradır. Bu səbəbdən psixoloji risklərin tədqiqi nəzəri baxımdan vacib olmaqla yanaşı, praktiki təhlükəsizlik tədbirləri üçün də xüsusi aktuallıq kəsb edir.

Problemin yeniliyi. Psixoloji risklərin müxtəlif peşə qruplarında müqayisəli öyrənilməsi, reabilitasiya metodlarının təkmilləşdirilməsi və süni intellekt texnologiyalarının ekstremal vəziyyətlərin proqnozlaşdırılmasında tətbiqi perspektiv istiqamətlər kimi nəzərdə tutulur.

Problemin praktik əhəmiyyəti. Məqalənin nəticələri fövqəladə halların qarşısının alınması, profilaktik tədbirlərin təşkili, mobil qruplarda psixi möhkəmliyin gücləndirilməsi və əhalinin maarifləndirilməsi üçün istifadə oluna bilər.

Ədəbiyyat

1. Абдурахманов, Р. А. Психология экстремальных ситуаций. –Москва: Юрайт, –2019. – s. 15–48.
2. Əliyev, R. Ekstremal hallarda insan amili və təhlükəsizlik. –Bakı: Təhsil Nəşriyyatı, –2020. – s. 61–89
3. Everly, G. S., & Lating, J. M. (2017). The Johns Hopkins Guide to Psychological First Aid. Baltimore: Johns Hopkins University Press. – pp. 25–67.
4. Hobfoll, S. E. (2018). Stress, social support, and resilience in extreme situations. American Psychologist, *73*(7), 871–884. – pp. 873–880.
5. Smith, E., & Freedman, L. (2021). Human factor and disaster psychology. Journal of Emergency Psychology, *12*(3), 45–60. – pp. 46–55.
6. Холодная, М. А. Психология устойчивости личности в экстремальных условиях. -Санкт-Петербург: Питер, -2016. – s. 112–136.
7. World Health Organization. (2022). Disaster risk management and human health. Geneva: WHO Press. – pp. 29–57.
8. Zautra, A., Hall, J., & Murray, K. (2019). Resilience in context of disasters. Journal of Community Psychology, 47(4), 760–774. – pp. 762–770.
9. Bonanno, G. A. (2021). Psychological resilience and adaptation to loss. Annual Review of Clinical Psychology, *17*, 109–138. – pp. 111–125.

Redaksiyaya daxil olub: 26.09.2025

UOT 159.9.

Aynur Firuz qızı Əlimuradova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi pedaqoji kadrların hazırlanması şöbəsinin baş mütəxəssisi
https://orcid.org/0000-0001-6444-84619
E-mail:a.elimuradova@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(6).351-354

MÜƏLLİMİN DAVRANIŞ ÜSLUBUNUN ŞAGİRDLƏRİN AKADEMİK ÖZÜNƏİNAM SƏVİYYƏSİNƏ TƏSİRİ

Aynur Firuz Alimuradova
senior specialist of the department of Scientific and pedagogical personnel training at the Institute of Education of the Republic of Azerbaijan

THE IMPACT OF TEACHERS' BEHAVIORAL STYLE ON STUDENTS' ACADEMIC SELF-CONFIDENCE

Айнур Фируз гызы Алимурадова
старший специалист отдела Подготовки научно-педагогических кадров Института Образования Азербайджанской Республики

ВЛИЯНИЕ СТИЛЯ ПОВЕДЕНИЯ УЧИТЕЛЯ НА УРОВЕНЬ АКАДЕМИЧЕСКОЙ САМООЦЕНКИ УЧАЩИХСЯ

Xülasə. Məqalədə müəllim davranış üslubunun şagirdlərin akademik özünəinam səviyyəsinə təsiri araşdırılır. Müasir təhsil sistemində müəllim–şagird münasibətləri yalnız bilik vermə prosesi ilə məhdudlaşmır, həm də şagirdlərin şəxsi inkişafına birbaşa təsir göstərən psixoloji amil kimi çıxış edir. Tədqiqatlar göstərir ki, müəllimin dəstəkləyici, motivasiyaedici və hörmətə əsaslanan ünsiyyət tərzi şagirdlərin özünə inanmasını gücləndirir, onların dərsə marağını artırır və müvəffəqiyyətini yüksəldir. Əksinə, sərt, neqativ və tənqidə əsaslanan davranış modeli şagirdin özünüqiymətləndirməsini zəiflədir, inamsızlıq, qorxu və akademik geriləmə yaradır.

Məqalədə həmçinin müəllimlərin kommunikasiya bacarıqları, müsbət gücləndirmə, fərdi yanaşma və empatiya kimi pedaqoji ünsiyyət elementlərinin roluna diqqət yetirilir. Nəticədə vurğulanır ki, müəllim davranış üslubunun məqsədyönlü şəkildə düzgün qurulması şagirdlərin sosial-emosional inkişafına və akademik özünəinam səviyyəsinə mühüm təsir göstərir, buna görə də pedaqoji prosesdə psixoloji yanaşmaların tətbiqi zəruridir.

Açar sözlər: *Müəllim davranış üslubu, akademik özünəinam, pedaqoji kommunikasiya, müsbət motivasiya, şagird–müəllim münasibətləri, empatiya və fərdi yanaşma*

Abstract. The article examines the influence of teachers' behavioral styles on students' levels of academic self-confidence. In the context of modern education, teacher–student interactions extend beyond the mere transmission of knowledge and represent a significant psychological factor affecting learners' personal development. Research findings demonstrate that a supportive, motivating, and respectful communication style strengthens students' belief in their academic abilities, enhances learning motivation, and contributes to higher academic achievement. Conversely, an authoritarian, harsh, or overly critical behavioral approach weakens students' self-esteem, generates insecurity, reduces interest in learning, and may result in academic decline.

The study also emphasizes the role of pedagogical communication, positive reinforcement, individual approach, and empathy in the educational process. It concludes that the purposeful establishment of a constructive and psychologically safe teacher behavior style has a substantial impact on students' socio-emotional development and academic self-confidence. Therefore, integrating psychological principles into pedagogical practice is essential for effective and holistic education.

Keywords: *Teacher behavioral style, academic self-confidence, pedagogical communication, positive motivation, teacher–student relationship, empathy and individual approach, academic achievement*

Аннотация. В статье рассматривается влияние стиля педагогического поведения учителя на уровень академической самооценки учащихся. В условиях современной образовательной системы взаимоотношения между учителем и учеником выходят за рамки простого процесса передачи знаний и выступают важным психологическим фактором, влияющим на личностное развитие школьников. Исследования показывают, что поддерживающий, мотивирующий и уважительный стиль общения педагога способствует укреплению уверенности учащихся в собственных академических возможностях, повышает учебную мотивацию и ведет к успешности. Напротив, авторитарный, резкий и чрезмерно критичный стиль взаимодействия ослабляет самооценку школьников, формирует чувство неуверенности, снижает интерес к обучению и может привести к академическому регрессу.

В работе также подчеркивается значение педагогической коммуникации, методов позитивного подкрепления, индивидуального подхода и эмпатии в образовательном процессе. Сделан вывод о том, что целенаправленное формирование конструктивного и психологически комфортного стиля поведения педагога оказывает существенное влияние на социально-эмоциональное развитие учащихся и их академическую самооценку, что подтверждает необходимость интеграции психологических подходов в педагогическую практику.

Ключевые слова: *стиль педагогического поведения, академическая самооценка, педагогическая коммуникация, позитивная мотивация, отношения учителя и ученика, эмпатия и индивидуальный подход*

Təhsil sistemində baş verən islahatlar, innovativ pedaqoji texnologiyaların tətbiqi və humanist yanaşmaların güclənməsi müasir müəllim obrazının dəyişməsinə səbəb olmuşdur. Bugünkü məktəb təkcə bilik verən mühit deyil; düşünmə, özünüifadə, sosiallaşma, emosional sabitlik və şəxsiyyətin inkişaf etdiyi psixo-pedaqoji mühit kimi dəyərləndirilir. Bu mühitin keyfiyyətini müəyyən edən əsas komponent isə müəllim davranış üslubudur. Müəllimin şagirdə yanaşması yalnız bilik qavrama prosesinə deyil, eyni zamanda onun özünə inamının formalaşmasına, məktəbdə sosial varlıq kimi qəbul olunmasına və təlim motivasiyasına təsir edir. Şagirdin öz bacarıqlarına inanması və akademik fəaliyyətə münasibəti pedaqoji prosesin nəticələrini müəyyən edən həlledici faktor kimi çıxış edir.

Akademik özünəinam təkcə biliyə sahib olma ilə ölçülmür. Bu anlayış daha çox şagirdin tapşırıqları yerinə yetirmək gücünə olan inamını, uğursuzluqla üzləşdikdə mübarizə aparmaq bacarığını və öz potensialını dəyərləndirməsini ifadə edir. Əgər şagird özünü bacarıqlı hiss edirsə, o, çətinliklər qarşısında geri çəkilmir, öyrənməkdən zövq alır, yeni situasiyalarda risk etməyə hazır olur. Bu inamın formalaşmasında ən mühüm stimul xarici təsir olan müəllim münasibətidir. Şagird müəllimin ona necə yanaşdığına xüsusi həssaslıqla reaksiya verir. Onun nəyisə bilib-bilməməsi, cəsarətli olub-olmaması, dərsə marağı və ictimai fəallığı müəllim tərəfindən gördüyü dəstəyin nəticəsi kimi ortaya çıxır.

Tədris prosesində müəllim şagird üçün bilik mənbəyi olmaqla yanaşı, davranış modeli funksiyasını da daşıyır. Şagird müəllimin nitqini, emosiyalarını, reaksiya formalarını və sosial münasibətlərini müşahidə edərək daxili psixoloji sxemlər yaradır. Müsbət emosional mühitdə çalışan şagird özünü təhlükəsiz hiss edir, məktəbi onun üçün psixoloji rahatlıq məkanı kimi qəbul edir. Əgər müəllimin hər bir müraciəti şəfqət, hörmət və empatiya ilə müşayiət olunursa, şagirdlər təlim prosesini məcburiyyət yox, inkişaf imkanı kimi görürlər. Belə şəraitdə şagird öz fikrini bölüşməkdən çəkinmir, suallar verir, yanlış cavab verməkdən qorxmur və nitqində daha sərbəst olur.

Müəllimin davranış üslubunda sərtlik, ironik münasibət, tənqidi jestlər, istehza, səs tonunun kobudluğu və şagirdin şəxsiyyətinə toxunan ifadələr emosional travma yaradan faktor kimi çıxış edir. Bu cür yanaşma şagirdin özünüqiymətləndirməsini aşağı salır, utancaqlıq və sosial çəkilmə yaradır, zehni fəaliyyətin aktivliyini zəiflədir. Məsələn, şagirdin verdiyi cavab səhv olduqda müəllimin aqressiv yanaşması sinif qarşısında psixoloji gərginlik yaradır. Şagird gələcək suallarda cavab verməkdən qaçır, öz fikrinin qəbul olunmayacağından qorxur və dərs prosesinə passiv münasibət formalaşdırır. Bu addım xüsusi reaksiyası yaradır: özünəinamın sarsılması, motivasiyanın itməsi, tapşırıqlardan qaçma və nəticədə akademik nəticələrin düşməsi.

Akademik özünəinam psixologiyada insanın müəyyən fəaliyyət sahəsində uğur qazanacağına dair daxili əminlik kimi izah olunur. Bu anlayış yalnız hadisəni düşüncə ilə deyil, həm də emosional reaksiya ilə bağlıdır. Özünəinamlı

şagird təkcə bilik tətbiq etmir; o, çətinliklər qarşısında davamlılıq göstərir, uğursuzluqdan dərs çıxarır, yeni strategiyalar sınayır və özünə olan inamı zəifləmədən hədəfə doğru irəliləyir. Bandura özünəinamı insan fəaliyyətinin ən güclü predictorlarından biri hesab edir və göstərir ki, insan öz gücünə inanmadıqda real bacarığı olsa belə potensialını istifadə etmir. Məktəb mühitində isə bu proses daha həssasdır, çünki şagirdin şəxsiyyət modeli hələ formalaşma mərhələsindədir.

Müəllimin şagirdə göstərdiyi münasibət akademik özünəinamin yaranmasında əsas sosial gücləndirici mexanizm kimi çıxış edir. Uşağın ilk akademik uğuru çox vaxt müəllimin "sən bacararsan" mesajı ilə başlayır. Müəllim bu inamı fərdi yanaşma, izahlı dəstək, səmimi dialoq və motivasiyaedici nitqlə möhkəmləndirdikcə, şagird beyin səviyyəsində öyrənməyə aid müsbət emosional assosiasiyalar formalaşdırır. Bu assosiasiyalar təlimin yalnız məntiqi deyil, həm də emosional proses olduğunu göstərir. Elm təsdiqləyir ki, yaxşı emosional fonda öyrənilən bilik daha davamlı olur. Deməli, motivasiya və özünəinam təkcə psixoloji fenomen deyil, eyni zamanda təlimin akademik effektivliyini yüksəldən neyrofizioloji amildir.

Sinifdə davranış üslubu şagirdin özünə olan hörmət hissinin güclənməsində əsas elementdir. Bəzi müəllimlər şagirdin səhv cavabını dərhal düzəldir, onu "nəyi bilmədiyi" üzərindən qiymətləndirirlər. Bu yanaşma şagird üçün təhlükə siqnalı yaradır və repressiv mühit formalaşdırır. Digər müəllimlər isə səhvi şagirdlə birgə analiz edir, cavabı axtarmağa yönəldir, alternativ düşünmə üsulları göstərir. Bu zaman psixoloji təhlükəsizlik və öyrənmə motivasiyası artır. Uşağın səhv etməyə haqqı olduğunu hiss etməsi təlimin koqnitiv çevikliyini artırır, çünki beynin inkişafı məhz səhvlərin təhlili və korreksiya üzərində qurulur.

Müəllim davranışının ən vacib tərəfi sinifdə fərqlərin qəbul edilməsidir. Fərqli təlim tempi, fərqli xarakter, fərqli sosial fon və fərqli öyrənmə proseduru olan uşaqların eyni cür qiymətləndirilməsi onların özünəinamına ciddi zərbə vurur. Əgər müəllim hər bir uşağın inkişaf dinamikasını nəzərə alır, onu başqaları ilə deyil, öz əvvəlki nəticələri ilə müqayisə edirsə, bu halda şagird özünü potensialı olan şəxs kimi qəbul edir. Bu, psixologiyada daxili motivasiya və özünüqiymətləndirmənin ən güclü mexanizmlərindən biri hesab olunur.

Ünsiyyət tərzi müəllim davranışının ən incə, lakin ən təsirli hissəsidir. Müəllimin səs tonu, danışıq sürəti, seçdiyi ifadələr, şifahi rəylər və qeyri-verbal jestlər şagird psixikasına birbaşa təsir edir. Dəstək ifadə edən emosional ton şagirdi aktivləşdirir, sərt və kobud ton isə qorxu və çəkinmə yaradır. Bəzi müəllimlər motivasiyaedici sözlərdən istifadə edir və şagirdin güclü tərəflərini qabardırlar. Digərləri isə səhvləri ön plana çıxarır və şagirdin "daha yaxşı etməli idin" fikrini daim təkrarlayırlar. İkinci halın uzunmüddətli nəticəsi özünəinamın zəifləməsidir.

Psixoloji araşdırmalar sübut edir ki, müəllim tərəfindən şagirdin adının pozitiv kontekstdə çəkilməsi onun dəyər hissini artırır. Əksinə, adın rişxənd və ya tənqid məqsədilə səsləndirilməsi emosional təhqir kimi qavranılır. Bu cür incə detallar akademik özünəinamın formalaşmasında böyük rol oynayır. Şagirdin soruşduğu sualın lağa qoyulması məktəb həyatının ən ağır psixoloji zədələrindən biri hesab olunur. Uşağın zəkası, mədəniyyəti və şəxsiyyəti müəllim tərəfindən qəbul edilirsə, o, cəmiyyətin dəyərli üzvü olduğunu düşünür və inkişaf etməyə davam edir.

Qiymətləndirmə pedaqogikanın tək bilik yoxlayan deyil, həm də motivasiya yaradan komponentidir. Müasir təlim yanaşmalarında qiymətləndirmə formativ xarakter daşıdıqda – yəni müəllim şagirdə necə inkişaf edə biləcəyini izah etdikdə – şagird özünüqiymətləndirmə bacarığı formalaşdırır. Lakin yalnız summativ qiymətləndirmənin, yəni nəticəyə görə sərt sualların tətbiqi şagirdin psixoloji balansını pozur. Müəllimin işinə "sən səhv etmisən" deməsi ilə "gəlin bu nəticəni birlikdə düzəldək" yanaşması arasındakı fərq özünəinamın taleyini müəyyən edir. Biri öyrədici, digəri zədələyici təsir göstərir.

Ədalətsiz qiymətləndirmə şagirdlərdə ciddi mənfi emosional fon yaradır. Bu səbəbdən müəllimin obyektivliyi, şəffaf meyarlarla işləməsi, tapşırıqları fərdi potensiala uyğun verməsi şagirdin məktəbdə layiqli yerə sahib olmasına imkan yaradır. Əgər şagird öz zəhmətinin qiymətləndirildiyini hiss edirsə, öyrənmək üçün motivasiya daimi olur.

Müəllim-şagird münasibəti yalnız dərs prosesinə deyil, şagirdin sosial mənlik formalaşmasına da təsir edir. Özünəinamı yüksək olan şagird cəsarətli ünsiyyət qurur, fikirlərini sərbəst ifadə edir, sosial adaptasiyada çətinlik çəkmir. Özünəinamı zədələnən şagird isə sosial

passivlik nümayiş etdirir, dostluq münasibətlərində yaranan çətinliklərdən qaçır, özünü dəyərsiz və zəif hiss edir. Bu da zamanla psixoloji gərginlik, aqressiya və ya tam əksinə – sakit, qapanmış davranış forması ilə nəticələnə bilər. Beləliklə, müəllimin davranış üslubu uşağın gələcək şəxsiyyət modelini formalaşdırır.

Bütün elmi yanaşmalar və psixoloji faktlar göstərir ki, müəllim davranış üslubu şagirdlərin akademik özünəinamına birbaşa təsir göstərən ən mühüm amillərdən biridir. Şəfqətli, empatik və motivasiyaedici müəllim şagird üçün inkişaf məkanı yaradır. Belə mühitdə yetişən şagird özünə inanır, öyrənməkdən həzz alır, çətinliklərdən qorxmur və bilik axtarışına davam edir. Sərt, tənqidçi və aqressiv münasibət isə şagirdin daxili dəyər sistemini sarsıdır, özünəinamını zəiflədir və onun potensialını məhdudlaşdırır. Təhsil sisteminin uğuru yalnız proqramların müasirliyi ilə ölçülmür; əsas meyar tədris prosesində yaranan psixoloji atmosfer və müəllim-şagird münasibətinin humanist xarakteridir. Hər bir müəllim davranışının sadəcə dərs metodikası deyil, şagirdin gələcək şəxsiyyətinə təsir etdiyini dərk etdikdə, təhsil təkcə bilik vermə prosesi yox, insan yetişdirmə sənəti olur.

Problemin aktuallığı. Müasir təhsil sistemində şagirdlərin akademik nəticələrinin formalaşmasında yalnız tədris metodları deyil, həm də müəllimlərin davranış üslubu mühüm rol oynayır. Təlim prosesində müəllim–şagird münasibətinin psixoloji cəhətdən sağlam qurulmaması özünüqiymətləndirmənin zəifləməsinə, motivasiya itkisinə və akademik geriləməyə səbəb ola bilər. Bu baxımdan müəllimin etik, empatik, dəstəkləyici və motivasiyaedici davranış modeli şagirdlərin öz gücünə inamını artırmaqla onların uğur əldə etməsinə şərait yaradır. Tədqiqatların göstərdiyi kimi, şagirdlərin özünəinam səviyyəsi biliklərin mənimsənilməsi, yaradıcılıq potensialının açılması və uzunmüddətli təhsil marağının qorunmasında əsas psixoloji faktorlardan biridir. Buna görə də müəllim davranışının şagirdlərin akademik özünəinamına təsirinin araşdırılması həm pedaqogika, həm psixologiya, həm də təhsil strategiyalarının inkişafı baxımından böyük elmi və praktik əhəmiyyət daşıyır.

Problemin elmi yenilik. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, müəllim davranış üslubunun şagirdlərin akademik özünəinam səviyyəsinə təsiri pedaqoji kommunikasiya, psixoloji motivasiya və emosional dəstək kimi müxtəlif komponentlərin qarşılıqlı əlaqəsi kontekstində kompleks şəkildə təhlil olunur. Əvvəlki araşdırmalar əsasən şagird nailiyyəti və ümumi akademik nəticələr üzərində fokuslandığı halda, bu işdə müəllim davranışının sosial-emosional amillər vasitəsilə özünəinamın formalaşmasına təsiri empirik və nəzəri əsaslarla əsaslandırılır. Tədqiqat həmçinin göstərir ki, müəllimin empatiyaya əsaslanan fərdi yanaşması yalnız akademik motivasiyanı deyil, şagirdlərin şəxsi özünüdərk və özünəinam mexanizmlərini də gücləndirir. Bu yanaşma məktəb mühitində psixoloji təhlükəsizliyin artırılması və müsbət pedaqoji ünsiyyət modelinin qurulması baxımından yeni elmi nəticələr ortaya qoyur.

Problemin praktik əhəmiyyəti. Araşdırmanın praktik əhəmiyyəti ondan ibarətdir ki, müəllim davranış üslubunun şagirdlərin akademik özünəinamına təsir mexanizmlərinin müəyyənləşdirilməsi tədris prosesinin keyfiyyətinin artırılmasına real töhfə verir. Tədqiqat nəticələri müəllimlərə pedaqoji ünsiyyətdə daha konstruktiv, empatik və motivasiyaedici yanaşma istifadə etməyə imkan yaradır, beləliklə, şagirdlərdə öz gücünə inanmaq, sosial adaptasiya və təhsil fəaliyyətində aktivlik kimi mühüm bacarıqlar formalaşır. Bu nəticələr praktik olaraq məktəblərdə psixoloji mühitin yaxşılaşdırılması, müəllimlərin peşəkar hazırlıq proqramlarında kommunikativ bacarıqların gücləndirilməsi və şagird mərkəzli təlim strategiyalarının tətbiqi üçün metodik baza kimi istifadə oluna bilər. Beləliklə, müəllim davranış üslubunun düzgün seçilməsi həm akademik nailiyyətlərin yüksəlməsinə, həm də sağlam təlim mühitinin formalaşmasına xidmət edir.

Ədəbiyyat

1. Abdullayeva, Ş.Y. Kiçik yaşlı məktəblilərin həmyaşıdları ilə qarşılıqlı münasibətlərinin emosional xüsusiyyətləri: /psixol. elm. nam. dis. Avtoreferatı / –Bakı, 2004. –17 s.
2. Bağırlı, L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri / L.Ş. Bağırlı. –Bakı: Nərgiz, –2003. –s.116
3. Əliyev, R.İ. Uşağın məktəbə hazırlanmsının sosial-psixoloji əsasları // İbtidai məktəb və məktəbəqədər tərbiyə, –2005. №3.
4. Senemoğlu, N. Gelişim, Öğrenme ve Öğretim (21. Baskı). Ankara: Pegem Akademi, –2012. –s.3
5. Зайцев, Г. К. Школьная валеология : Педагогические основы обеспечения здоровья учащихся и учителей / Г. К. Зайцев. –СПб.: Акцидент, –1998. – 445 с.;
6. Леви, В. Л. Нестандартный ребенок / В.Л. Леви. –СПб.: Питер, –1993. –251 с.

7. Ahmadov H,H. The Strategy of Education Development in Azerbaijan. Saarbrücken, Deutschland / – Germany. LAP LAMBERT Academic Publishing, –2014. –245 p.

Redaksiyaya daxil olub: 06.11.2025

UOT 159.9.

Zülfiyyə Rufət qızı Rüstəmova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Pedaqoji psixologiya kafedrasının müəllimi,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0000-0002-2763-3671
E-mail: rustamovazulfiyya@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(6).355-359

YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ "MƏN OBRAZ"ININ TƏŞƏKKÜLÜ VƏ AQRESSİVLİYİN TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

Zulfiya Rufat Rustamova
lecturer of the department of Educational psychology at Azerbaijan State Pedagogical University,
Doctorial student in the program of doctor of philosophy of the
Institute of Education of the Republic of Azerbaijan

FORMATION OF THE "SELF-IMAGE" AND CHARACTERISTICS OF AGGRESSION IN ADOLESCENCE

Зульфия Руфат гызы Рустамова
преподаватель кафедры Педагогической психологии Азербайджанского Государственного Педагогического Университета,
диссертант по программе доктора философии Института Образования Азербайджанской Республики

ФОРМИРОВАНИЕ «ОБРАЗА Я» И ОСОБЕННОСТИ ПРОЯВЛЕНИЯ АГРЕССИИ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

Xülasə. Elmi məqalədə yeniyetməlik yaş dövründə "Mən obraz"ının təşəkkülü və aqressivliyin təzahür xüsusiyyətləri araşdırılır. Bu məqalədə əsas məqsəd yeniyetmələrdə aqressiyanın spesifik təzahürlərini və onların "Mən obraz"ı ilə əlaqəsini psixoloji təhlil etməkdir. Məqalədə qeyd edilir ki, aqressivlik aqressiyaya hazır olmaqda, başqalarının davranışını düşmənçilik kimi qəbul etmək və şərh etmək meylində ifadə olunan nisbətən sabit bir şəxsiyyət xüsusiyyətidir. Elmi məqalə həmçinin yeniyetməlik yaş dövründə aqressiyanı araşdıran sınaq tədqiqatı zamanı əldə edilən məlumatları sənədləşdirmək məqsədi daşıyır.
Açar sözlər: *yeniyetmə, aqressivlik, aqressivliyin formaları, "Mən obraz"ı, özünüqiymətləndirmə*

Abstract. The scientific article examines the formation of the "I-image" and the manifestations of aggression in adolescence. The main goal of this article is to psychologically analyze the specific manifestations of aggression in adolescents and their relationship with the "I-image". The article notes that aggression is a relatively stable personality trait expressed in the readiness for aggression, the tendency to perceive and interpret the behavior of others as hostility. The scientific article also aims to document the data obtained during an experimental study investigating aggression in adolescence.
Keywords: *teenager, aggression, forms of aggression, "I-image", self-esteem*

Аннотация. В научной статье рассматривается формирование образа «Я» и проявления агрессии в подростковом возрасте. Основная цель статьи психологический анализ особенностей проявления агрессии у подростков и её взаимосвязи с образом «Я». В статье отмечается, что агрессия – относительно устойчивая черта личности, выражающаяся в готовности к агрессии, склонности восприни-

мать и интерпретировать поведение окружающих как враждебное. В научной статье также рассматриваются данные, полученные в ходе экспериментального исследования агрессии в подростковом возрасте.

Ключевые слова: *подросток, агрессия, формы агрессии, «Я-образ», самооценка*

Biz hər gün aqressiyanın müxtəlif təzahürləri haqqında öyrənirik: müharibə- lər, terror hücumları, etnik münaqişələr, qətllər, güclülərin zəiflərə qarşı zorakılığı - biz bunlarla hər gün qarşılaşırıq. Hər bir yaş insanın həyatında həlledici mərhələdir və onun sonrakı taleyini müəyyən edir. Onların sosial vəziyyətinin və həyat təcrübələrinin spesifikliyi daxili ziddiyyətlərlə səciyyələnən psixikada özünü göstərir. Yeniyetmələr arasında aqressiv meyllərin artması getdikcə daha çox özünü göstərir və cəmiyyətin ən mühüm sosial problemlərindən birini əks etdirir: bu yaş qrupu çoxlu sayda münaqişələr, təcavüz və həmyaşıdlarına qarşı zorakılıqla xarakterizə olunur. Son vaxtlar yetkinlik yaşına çatmayanlar arasında cinayətlər daha da artmışdır. Cəmiyyətdəki iqtisadi qeyri-sabitlik və sosial gərginlik insanlar arasında zorakılığın və aqressiyanın artmasına səbəb olur. Aqressiya, ilk növbədə, uşaqlıq və yeniyetməlik dövründə erkən sosiallaşma zamanı inkişaf edir və bu yaş xüsusilə profilaktika və müdaxilə üçün əlverişlidir. Bu, aqressiyanın spesifik təzahürlərini və yeniyetmənin "Mən obraz"ı ilə əlaqəsini öyrənməyin aktuallığını göstərir. Yeniyetməlik yaş dövrünü "çətin" və "böhran" dövr hesab edirlər. Bu çətinliklər müəyyən xüsusiyyətlərlə təzahür edir:

- ***Birincisi,*** maraqlarda və sosial münasibətlərdə çoxsaylı keyfiyyət dəyişiklikləri nisbətən qısa müddət ərzində baş verir, inkişaf prosesinə qəfil, tələtümlü xarakter verir;

- ***İkincisi,*** bu dəyişikliklər tez-tez yeniyetmələrdə subyektiv çətinliklərin (onların tərbiyəsində çətinliklər) yaranması ilə müşayiət olunur;

- ***Üçüncüsü,*** yeniyetmələr böyüklərin təsirinə davamlı olub itaətsizlik, müqavimət və etirazın müxtəlif formalarını (inadkarlıq, kobudluq, neqativizm) nümayiş etdirirlər. Bu zaman şəxsiyyət xüsusiyyəti olan aqressivlik şübhəsiz ki, problemə çevrilir.

Fikrimizcə, aqressiya yeniyetmənin özü üçün qəbul etdiyi "Mən obraz"ın psixoloji xüsusiyyətlərinin nəticəsidir. Bu baxımdan insan psixikası və onun tərkib hissəsi kimi "Mən obraz"ın qorunması sualı ortaya çıxır. Müxtəlif müəlliflər aqressiyanın ədəbiyyatlarda çox sayda tərifləri təklif etmişlər, lakin biz "aqressiya fiziki və ya psixi zərər vurmağa yönəlmiş qəsdən (və ya istəmədən) hərəkətdir" fikrini əsas götürəcəyik.

Aqressivlik aqressiyaya hazır olmaqda, həmçinin başqalarının davranışını düşmənçilik kimi qəbul etmək və şərh etmək meylində ifadə olunan nisbətən sabit bir şəxsiyyət xüsusiyyətidir. Şəxsiyyət strukturunun davamlı, ayrılmaz hissəsi olan aqressivlik yeniyetməlik yaş dövründə şagirdlərin "Mən obraz"ının inkişafına təsir göstərən amilləri və ümumi davranış nümunələrini əvvəlcədən müəyyən edə bilir.

Aqressiv yeniyetmə, ilk növbədə, adi uşaqdır. Onlar aqressiv xüsusiyyətləri və keyfiyyətləri tərbiyədəki səhvlərin, nöqsanların, ətraf mühitdə anlaşılmazlıqların təsiri nəticəsində əldə edirlər. Müxtəlif şəxsiyyət xüsusiyyətlərinə və davranış nümunələrinə baxmayaraq aqressiv yeniyetmələr müəyyən ümumi xüsusiyyətlərə malikdirlər. Bu psixoloji xüsusiyyətlərə dəyər oriyentasiyalarının azlığı, hobbilərin olmaması, qeyri-sabit maraqlar və s. daxildir. Belə yeniyetmələr adətən aşağı səviyyədə intellektual inkişaf, təqlidçilik və inkişaf etməmiş əxlaqi davranışlar nümayiş etdirirlər.

Onlar həm həmyaşıdlarına, həm də ətrafındakı böyüklərə qarşı emosional kobud davranışları ilə xarakterizə olunurlar. Belə yeniyetmələr həddindən artıq hissiyyatlı (müsbət və ya son dərəcə mənfi), həyəcanlı, eqoist, çətin vəziyyətlərdən çıxış yolu tapa bilməmək xüsusiyyətləri ilə fərqlənirlər. Özlərinin müdafiə mexanizmlərinin digərlərinin davranış mexanizmlərindən üstün olmasını nümayiş etdirirlər. Eyni zamanda, aqressiv yeniyetmələr arasında intellektual və sosial cəhətdən yaxşı inkişaf etmiş uşaqlar da var. Onlar üçün aqressivlik nüfuzu artırmaq, müstəqilliklərini və yetkinliklərini nümayiş etdirmək vasitəsi kimi təzahür edir. L.M. Semenyukun bu problemin geniş təhlilinə və uzun illər araşdırmasına əsaslanaraq onun dörd qrupunu müəyyənləşdirmişdir:

1) *Davamlı, anomal, kobud və sadə tələbatlar kompleksi, təhrif olunmuş dəyərlər və münasibətlər, istehlakçı əyləncələr istəyi olan yeniyetmələr*. Onlar eqoizm, başqalarının hisslərinə laqeydlik, başqaları ilə yola gedə bilmə-

mək, səlahiyyətsiz, kinsiz, kobud, əsəbi, həyasız və laqeyd kimi xüsusiyyətlərlə xarakterizə olunurlar. Onların davranışlarında fiziki aqressiya üstünlük təşkil edir.

2) *Təhrif edilmiş tələbat və dəyərlərə malik olan yeniyetmələr*. Onlar maraqların az və ya çox dərəcədə geniş diapazonu və yüksək fərdiyyətçilik ilə xarakterizə olunurlar, zəifləri və imkansızları sıxışdırmaqla imtiyazlı mövqe əldə etmək istəyi onlarda özünü qabarıq şəkildə göstərir. Onların fiziki güc tətbiq etmək istəyi situativ olub yalnız zəif olanlara qarşı olması tez-tez müşahidə olunur.

3) *Deformasiyaya uğramış və müsbət tələbatlar arasında ziddiyyətli yeniyetmələr*. Onlar maraqların birtərəfliliyi, fürsətçilik, iddia və hiylə ilə xarakterizə olunurlar. Onların davranışlarında dolayı və şifahi aqressiya üstünlük təşkil edir.

4) *İradə zəifliyi, şübhəlilik, qorxaqlıq və qisasçılıqla səciyyələnən, ehtiyacları yüngül deformasiyaya uğramış, spesifik maraqları olmayan, sosial dairəsi çox məhdud olan yeniyetmələr*. Onlar yaşlı və güclü həmyaşıdlarına qarşı həvəslən - dirici davranışlarla xarakterizə olunurlar. Onların davranışlarında şifahi aqressivlik və neqativlik üstünlük təşkil edir. Bundan əlavə, böyüyən bir yeniyetmənin mübarizədən başqa çıxış yolu görmədiyi bir vəziyyətdə özünümüdafiə və ya ehtiyaclarını ödəmək aqressiyaya səbəb ola bilər. Yeniyetməlik yaş dövründə fərdlərin mürəkkəb və ziddiyyətli xarakteri onların inkişafının daxili və xarici şəraiti ilə əlaqədar şəxsi inkişafın normal gedişini pozan, aqressiyanın yaranması və təzahürü üçün ilkin şərait yaradan vəziyyətlər yarana bilər.

A.A. Xvan yeniyetmələrdə aqressiv davranışın səbəblərini insanlar üzərində hökmranlıq etmək və onlardan öz məqsədləri üçün istifadə etmək istəyi, məhv etməyə və başqalarına zərər vurmağa meyl kimi təhlil edir (1, s. 35).

Şəxsiyyət böhranı yeniyetmənin başqaları tərəfindən özünü dərk etməsinə, tənhalığa və ətrafdakılardan təcrid olunmasına, habelə öz mənliyi ilə müəyyən ideallar arasında uyğunsuzluğa, daxili bütövlüyün itirilməsinə qarşı narahatçılığa gətirib çıxarır. Bu davranış forması davranış pozuntuları, səbəbsiz əhval dəyişikliklərinin olması, əlverişli şəraitdə kompensasiya etmək qabiliyyəti və affektiv reaksiyaların yüngül somatovegetativ komponenti ilə xarakterizə olunur.

Yeniyetmələrdə aqressiv davranış etirazla səciyyələnir və epizodik şəkildə baş verir. Ümumiyyətlə yeniyetmələrin başqaları ilə münasibətlərini pozmur. Bu şəxsiyyətin yüksək sosial-psixoloji keyfiyyətlərindəki kəmiyyət çatışmazlığının, düzgün olmayan davranış münasibətlərinin, hüquqi şüurun zəif olmasının, dəyər yönümləri sistemindəki təhriflərin nəticəsidir. M.İ. Stankin aqressiv davranışın inkişafına təsir edən xarici amilləri öyrənir. Ən çox müzakirə olunan məsələlərdən biri də yeniyetmələrin aqressiv davranışlarına medianın təsiridir (2).

Yetkinləşmənin mühüm mərhələsi özünüdərketmə prosesidir. Yeniyetmələrdə "mən"in subyektiv obrazı əsasən başqalarının fikirləri ilə formalaşır. Özünüqiymətləndirmə özünüdərketmənin vacib komponentidir. Çox vaxt yeniyetmələrin özünüqiymətləndirmələri qeyri-adekvat olur, ya artmağa meyllidir, ya da özünüqiymətləndirmə əhəmiyyətli dərəcədə azalır. Yeniyetmənin əsas xüsusiyyəti şəxsi qeyri-sabitlikdir.

L.S. Vıgotskiyə görə, "yeniyetmə şəxsiyyətinin strukturunda sabit, son və ya hərəkətsiz heç bir şey yoxdur". Bir-birinə zidd olan istəklər və hərəkətlər məhz şəxsi qeyri-sabitlik nəticəsində yaranır. Təxminən 11-12 yaşlarında insanın daxili aləminə maraq təzahür edir, tədricən mürəkkəbləşir və özünütanıma dərinləşir. Yeniyetmə öz daxili dünyasını kəşf edir. O, yeni münasibətlərlə bağlı şəxsi xüsusiyyətlərini, təəssüratlarını və ehtiraslı hərəkətlərini qərəzli şəkildə təhlil edir.

Yeniyetmələr həqiqətən kim olduqlarını başa düşmək və nə olmaq istədiklərini təsəvvür etmək istəyirlər. Güzgü kimi baxdıqları oxşarlıqlar axtardıqları dostlar və müəyyən dərəcədə yaxın böyüklər onlara özlərini anlamağa kömək edir. Yeniyetmənin refleksiyası və özünü dərk etmək ehtiyacı onun "Mən obraz"ının inkişafına səbəb olur. Bu yaş dövrünün sonunda müxtəlif mənlik təsəvvürləri yaranır, yeniyetmə xarici təsirlərə həssas olur. Yeniyetməlik yaş mərhələsinin sonunda onlar vahid halda birləşir və erkən gənclik yaş sərhədində Mən konsepsiyası formalaşır.

Özünüdərk və "Mən obraz"ı yeniyetməlik yaş dövrünün ən mühüm psixoloji inkişafına çevrilir. Öz davranışını anlamaq və onun xarici tələblərə uyğunluğunu qiymətləndirmək ehtiyacı yeniyetmələrdə özünütəhlil sayəsində həyata keçirilir. Bu, adətən, yeniyetmənin öz psixoloji xü-

susiyyətlərindən narazılığına reaksiya kimi yaranır. Mahiyyət etibarı ilə o, başqalarından fərqli subyekt kimi özünün vahid konsepsiyasına inteqrasiya yolu ilə hərəkətidir. "Mən obraz"ı sadəcə olaraq fərdin öz ideyası və ya konsepsiyası deyil, sosial yönəlişdir, fərdin özünə münasibətidir. Ona görə də, "Mən obraz"ında üç komponenti müəyyən etmək olar:

1) ***koqnitiv*** - özünütanıma, özünüdərketmə;

2) ***emosional-qiymətləndirici*** - özünə qarşı dəyərə əsaslanan münasibət;

3) ***davranış*** - davranışın tənzimlənməsinin xüsusiyyətləri.

Artıq qeyd edildiyi kimi, "Mən obraz"ı statik deyil, son dərəcə dinamik şəxsiyyət xüsusiyyətidir. "Mən obraz"ı təcrübə anında bir mənlik anlayışı kimi ortaya çıxa bilər, adətən psixologiyada ona real mən kimi istinad edilir. Kiçik məktəbli yaş dövründə formalaşmış nisbətən sabit şəxsiyyət xüsusiyyətləri yeniyetmənin davranışına təsir edir və bu xüsusiyyətlərin dərk edilməsi zərurəti yaranır. Bu ehtiyac yeniyetmənin fiziki və psixoloji quruluşunda davam edən dəyişikliklərlə daha da güclənir. Burada özünüdərketmə sistemi daha da mürəkkəbləşir. N.A. Dubenkonun apardığı araşdırmalar göstərir ki, yeniyetməlik və erkən gənclik sərhədində özünüdərketmənin yeni, daha yüksək səviyyəyə keçidini xarakterizə edən Mən konsepsiyasının idrak komponentinin inkişafında əhəmiyyətli dəyişikliklər baş verir (3).

Bir yeniyetmənin və ya gəncin özünün "Mən obraz"ı həmişə eyni cinsdən olan tipik həmyaşıdın "Biz obraz"ı ilə əlaqələndirilir, lakin heç vaxt bu "biz"lə tam üst-üstə düşmür. Orta məktəb şagirdləri öz obrazlarını "biz" qrupundan daha incə və zərif qiymətləndirirlər. N.İ. Korıtçenkova davranış tənzimlənməsinin təbiətindən və məlumatların işlənməsi üsullarından asılı olaraq yeniyetmələrin aqressiya səviyyələrinin modelini işləyib hazırlamışdır (4, s.32).

A.Y. Drozdovun nəzəri araşdırmasında özünüdərketmənin iki səviyyəsinin mövcudluğu göstərilir: aşağı "Mən və başqa bir insan" və daha yüksək "Mən və mən". İkincinin spesifikliyi özünün davranışını bir insanın dərk etdiyi və onu müəyyən edən motivasiya ilə əlaqələndirmək cəhdində ifadə olunur (5).

Yeniyetməlik yaş dövründə gənclər özlərini dərk edir, öz müstəqil özünüqiymətləndirmə və özünəmünasibət sisteminin standartlarını, öz daxili dünyalarına nüfuz etmək qabiliyyətlərini getdikcə daha da inkişaf etdirirlər. Bu yaşda yeniyetmə öz unikallığını və fərdiliyini dərk etməyə başlayır və onun şüuru tədricən xarici qiymətləndirmələrdən (ilk növbədə valideynlərin) daxili qiymətləndirmələrə keçir. Yeniyetmə tədricən öz Mən konsepsiyasını inkişaf etdirir, bu da davranışların sonralar şüurlu və ya şüursuz inkişafına kömək edir.

Beləliklə, məhz bu yaş dövründə, orqanizmdə mühüm dəyişikliklərin baş verdiyi, xarici görünüşü və fiziki xüsusiyyətlərinin onları çox narahat etməyə başladığı bir dövrdə yeniyetmənin fiziki inkişafının həmyaşıdları qrupu tərəfindən qəbul edilmiş standartlara uyğun olması onların sosial baxımından tanınmasında və qrup daxilində mövqeyində müəyyənedici amil olur.

Yeniyetmələrdə aqressiyanın spesifik təzahürləri və "Mən obraz"ı ilə bağlı psixoloji ədəbiyyatın təhlili, eləcə də yeniyetmələr arasında aqressiyanın müəyyənləşdirilməsinə yönəlmiş araşdırmalar bizə aşağıdakı nəticələri çıxarmağa imkan vermişdir:

1. Problemlərin həllinin özünəməxsus yolu kimi aqressivliyin ən bariz əlamətləri məhz yeniyetməlik yaş dövründə özünü büruzə verir.

2. Məhz yeniyetməlik yaş dövründə özünüdərk, müstəqil özünüqiymətləndirmə, özünəmünasibət standartları sistemi şəkildə formalaşır, yeniyetmənin öz daxili dünyasına nüfuz etmək qabiliyyəti getdikcə daha da inkişaf edir.

3. Bu yaş dövründə yeniyetmənin fiziki inkişafı həmyaşıdları qrupu tərəfindən qəbul edilmiş standartlara uyğunlaşır, onların sosial mühitdə mövqe tutmasında və qrup daxilində sosial rolu icra etməsində mühüm amilə çevrilir.

4. Yeniyetmələrin 56,5%-nin aqressivlik indeksi yüksəkdir.

5. Yeniyetmələrdə aqressiyanın daha iki formasının ifadə edildiyi aşkar edilmişdir: əsəbilik və şübhəlilik. Belə ki, sınanılanlardan 17 nəfər (73,9%) yeniyetmə aqressiyanın dominant formalarını nümayiş etdirmişlər.

Статья предлагает практические рекомендации по созданию эффективной, интерактивной и ориентированной на студента учебной среды на занятиях по психологии.

Ключевые слова: *технологии обучения, Преподавание дисциплины Психология, творческое мышление, креативность, синектика, метод изобретательства, мозговой штурм*

Qloballaşma və sürətli elmi-texniki inkişaf dövründə biliklərin sürətlə dəyişdiyi müasir dövrdə insanın intellektual səviyyəsini şərtləndirən əsas keyfiyyət onun düşünmək və informasiya axınında cəld hərəkət etmək qabiliyyətidir. Bu baxımdan təlim prosesində metodik innovasiyaların əhəmiyyəti ön plandadır, çünki dövlət normativ sənədlərində ölkəmizin təhsil sisteminin inkişafı üçün müəyyən edilmiş vəzifələr ilk növbədə keyfiyyətli təhsilin həyata keçirilməsinə yönəlmişdir. Müasir pedaqoji yanaşmalar göstərir ki, kreativ düşünmə bacarıqları formalaşdırılmadan şəxsiyyətin intellektual potensialının tam inkişafı mümkün deyil. Psixologiya bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir, çünki o, yalnız tələbələrin psixi və emosional prosesləri öyrətmir, eyni zamanda tələbələrdə problemə fərqli baxış, alternativ həll yolları tapmaq və öz ideyalarını sərbəst ifadə etmək bacarıqlarını da inkişaf etdirir. Kreativliyin tədris prosesinə inteqrasiyası yalnız fənnin maraqlı keçirilməsi deyil, həm də tələbələrin şəxsi təcrübə və tənqidi təfəkkür əsasında öyrənmələrinə şərait yaratmaq məqsədi daşıyır. Təlim prosesində kreativ təlim texnologiyalarının tətbiqində əsas məqsədlər aşağıdakılardan ibarətdir.

1. Tələbələrdə problemlərin psixoloji əsaslarını dərindən anlamaq bacarığını formalaşdırmaq;

2. Məlumatları innovativ üsullarla tətbiq etməyi və fərqli yanaşmalar irəli sürməyi formalaşdırmaq.

3. Fikirlərin sərbəst ifadəsinə və fərdi tədqiqat aparmağa imkan yaratmaq. [1, s.80]

Hal-hazırda insan şüurunun kompüterlər tərəfindən hələ də ələ keçirilməmiş bir sahəsi yaradıcı təfəkkürdür. Müasir psixologiyada təfəkkür dedikdə şüurda tam şəkildə təmsil olunmayan hissi prosesləri, obrazlar və praktiki yollarla, nitq və keçmiş təcrübə ilə əlaqələri olan mürəkkəb strukturlaşdırılmış psixi fəaliyyət kimi başa düşülür. Tarixən yaradıcı təfəkkürün məhsuldar bir proses kimi xüsusiyyətləri Geştalt psixoloqlar tərəfindən ətraflı şəkildə öyrənilmişdir. Geştalt psixologiyada göstərilmişdir ki, problemin kreativ həlli subyektin əvvəllər təhlil edilməmiş tanış vəziyyətdə yeni xassələri və münasibətləri müəyyən etmək bacarığı ilə müəyyən olunur. Alman psixoloqu Otto Seltz yaradıcı təfəkkür mexanizmləri probleminə fərqli aspektdən yanaşmışdır. Onun nöqteyi nəzərindən yaradıcı təfəkkürün mahiyyəti artıq məlum əməliyyatları birləşdirən yeni üsuldur. Eyni zamanda o, təfəkkürdə həm məhsuldar, həm də reproduktiv məqamların mövcudluğunu vurğulamışdır. [2, s.432]

Yaradıcı təfəkkür psixologiyasının digər istiqaməti kreativliyin öyrənilməsidir. Kreativlik XX əsrin 50-60-cı illərində meydana çıxan psixoloji və pedaqoji anlayışdır. Bu anlayış Amerika psixoloqlarının tədqiqatlarında yeni ideyaların qurulması ilə əlaqəli olan insan qabiliyyəti kimi nəzərdən keçirilmişdir. Xarici ədəbiyyatlarda kreativlik dörd əsas istiqamətə uyğun olaraq öyrənilir.

Birinci istiqamət məhsul haqqında yaradıcı təfəkkürü öyrənir. Burada kreativlik meyarları məhsulun kəmiyyəti, keyfiyyəti və əhəmiyyətidir.

İkinci istiqamətin nümayəndələri kreativliyi birinci növbədə şəxsiyyətin strukturu və ya onun xüsusiyyətlərindən biri hesab edirlər. Onlara görə məhsuldarlığın mənşəyi subyektin həyat mövqeyindədir. Bu istiqamət daha çox şəxsi xüsusiyyətlərin nəzərə alınmasına yönəldilmişdir. Onun nümayəndələri K. Rocers, N. Rogers, A. Maslou və başqaları kreativlik prosesini ilk növbədə şəxsiyyətin özünü aktuallaşdırması ilə əlaqələndirirdilər.

Üçüncü istiqamətin nümayəndələri yaradıcı təfəkkürü psixi proses kimi öyrənirlər. Bu istiqamətə uyğun olaraq yaradıcı təfəkkürün müxtəlif növləri, mərhələləri və səviyyələri fərqləndirilir. Onun tədqiqi dörd mərhələdən ibarət bir sxemə uyğun olaraq həyata keçirilir: hazırlıq, yetkinlik, ilham və həqiqətin yoxlanılması.

Dördüncü istiqamətin nümayəndələri kreativliyi anadangəlmə qabiliyyət hesab edirlər. E. From kreativliyi təəccübləndirmək, öyrənmək, qeyri-adi situasiyalarda həll yolu tapmaq və öz təcrübəsini dərindən dərk etmək bacarığı kimi dəyərləndirmişdir. [3, s.241] Yaradıcı təfəkkür, mövcud biliklər sistemindən kənara çıxan, prinsipial olaraq yeni bir şey yaradan məhsuldar düşüncə kimi qəbul edilir. Müasir dövrdə təlim prosesi zamanı tələbələrin kreativliyinin və yaradıcı təfəkkürünün inkişafına

xüsusi diqqət yetirilir. Mühazirə və praktik məşğələlərdə kreativliyin inkişafı aşağıdakı problemləri həll etməyə kömək edir.

1. Tələbələrə müxtəlif istiqamətlərdə düşünməyi öyrətmək.

2. Qeyri-standart vəziyyətlərdə həll yolları tapmağı öyrətmək.

3. Zehni fəaliyyətin orijinallığını inkişaf etdirmək.

4. Tələbələrə mövcud problem vəziyyətini müxtəlif aspektlərdən təhlil etməyi öyrətmək

5. Sürətlə dəyişən dünyada gələcək səmərəli həyat və uyğunlaşma üçün lazım olan düşünmə bacarıqlarını inkişaf etdirmək.

Yaradıcı təfəkkürün inkişafı üçün ali məktəblərdə təlim məşğələləri keçirərkən aşağıdakı prinsiplərə əməl etmək lazımdır.

1. Koqnitiv məkanın müxtəlif obyektlər və stimullarla zənginləşdirmək.

2. Tələbələrə aktiv sual vermək imkanının, ümumilikdə idrak fəaliyyətinin təmin etmək.

3. Tələbələrə öz fikirlərini ifadə etməyə kömək etmək.

4. Müzakirə iştirakçılarının ideyalarına hörmət etmək.

5. Sağlam psixoloji mühit yaratmaq.

6. Tələbələrin yaradıcı ideyalarını bəyənməyən qiymətləndirmədən çəkinmək.

7. Şəxsi nümunədən istifadə etmək və problemlərin həllinə kreativ yanaşmaq.

8. Həll yollarını müstəqil axtarmaq bacarığı formalaşdırmaq. [4, s. 54-60]

Tələbələrin yaradıcı təfəkkürünün inkişafında əsas vəzifə onların intellektual fəaliyyətinin inkişafıdır. Həmçinin diqqəti tələbələrin artıq malik olduqları inkişaf səviyyəsinə deyil, proksimal inkişaf zonasına yönəltmək lazımdır. Təlim prosesində maksimum şəkildə tələbələrin düşüncələrini oyatmaq, fəal, müstəqil və yaradıcı təfəkkürü ən yüksək səviyyədə inkişaf etdirmək lazımdır.

Tələbə mərkəzli təlimdə təlim metodlarının seçilməsində əsas amil məhsuldar fəaliyyətin təşkili vəzifəsidir. Koqnitiv və kreativ təlim metodları tələbələr tərəfindən nəticə üçün subyektiv, yeni olan təhsil məhsulunun yaradılmasına yönəldilmişdir. Eyni zamanda öyrənmə tələbələrin kreativ fəaliyyəti zamanı baş verir. Kreativ üsullara beyin həmləsi metodu, ixtira üsulu, obrazlı şəkil metodu, hiperbolizasiya metodu, morfoloji qutu metodu, sinektika və inversiya metodu kimi üsullar daxildir.

Təlim prosesində hər hansı bir fəaliyyətin başlanğıcı ənənəvi olaraq bir motivdir. Motivasiya komponenti ilk növbədə diqqəti özünü inkişafa, özünü təhsilə və özünü ifadə etməyə yönəldir. Kreativliyin inkişafına şəxsiyyətin fərdi xüsusiyyətləri, emosional və motivasiya amilləri böyük təsir göstərir. Qeyd olunan bu halları nəzərə alaraq müəllimlər, inkişaf məqsədi ilə təlim prosesində kreativ düşünən ali məktəb tələbələri psixoloji maneələri aradan qaldırmağa və ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edən müxtəlif təlim metodlarından istifadə edirlər. Psixologiya fənnin tədrisinə kreativ yanaşma texnologiyaları, tələbələrin fəal iştirakı, yaradıcılıq bacarıqlarının inkişafı, həmçinin dərsin maraqlı və funksional şəkildə qurulmasını təmin edir. Bu texnologiyalar psixoloji biliklərin daha dərindən mənimsənilməsinə, analitik və tənqidi düşüncənin formalaşmasına kömək edir. Bu texnologiyalar aşağıdakılardan ibarətdir.

Ali məktəblərdə psixologiya fənninin tədrisi zamanı “beyin həmləsi” və ya “əqli hücum” metoduna böyük əhəmiyyət verilir. A.F. Osborne tərəfindən istifadə olunan bu üsul innovativ metod hesab olunur. Bu metodun əsas məqsədi nəzərdən keçirilən problemlə bağlı mümkün qədər çox məlumat toplamaqdır. Beyin həmləsi hazırlıq mərhələsi ilə başlayır, məşq xarakterli suallara cəld cavab axtarır, daha sonra qoyulan sual bir daha aydınlaşdırılır, müzakirə qaydaları xatırladılır və hücuma start verilir. Hər kəs öz fikrini ifadə edə, tamamlaya, aydınlaşdıra bilər. Qruplara ekspert təyin olunur, onların vəzifəsi ən yaxşı ideyaları seçmək üçün irəli sürülmüş fikirləri kağız üzərində qeyd etməkdir. "Hücum" 10-15 dəqiqə çəkir. Sonda ekspert qrupun işinin nəticələri haqqında hesabatla çıxış edir, ən yaxşı ideyaları qiymətləndirir və onları açıq şəkildə müdafiə etməyi təklif edir. Qruplarda iş aşağıdakı plana uyğun aparılmalıdır:

-ideyaların yaradılması;

- problemli vəziyyətin təhlili;

- ideyaların qiymətləndirilməsi;

- əks ideyaların yaradılması.

İdeyanın formalaşma mərhələsində istənilən tənqid qadağandır. Qeydlər, zarafatlar və rahat iş mühiti hər cür şəkildə təmin edilir. Sonra alınan ideyalar ümumi yanaşma və prinsiplər əsasında sistemləşdirilir, birləşdirilir və seçilmiş

ideyaların həyata keçirilməsinə müxtəlif maneələr nəzərdən keçirilir. Müzakirə zamanı səslənən tənqidi fikirlər qiymətləndirilir. Yalnız tənqid və əks fikirlər tərəfindən rədd edilməmiş ideyalar seçilir. Bu metod əsasında ayrıca dərslər qurmaq olar. Gördüyümüz kimi, "Beyin həmləsi" metodunun proseduru özü, bir tərəfdən, tələbələrin tədris fəaliyyətinin təşkili və həyata keçirilməsini nəzərdə tutur, digər tərəfdən, qrup və fərdi ənənəvi təlim formalarından praktik istifadə situasiyalarını təmsil edir, üçüncü tərəfdən, hər bir tələbəyə öz nöqteyi-nəzərini arqumentlərlə müdafiə etməyi və başqalarının ifadələrini tənqidi təhlil etməyə kömək edir. [5, s.97]

Müasir təhsil sisteminin əsas məqsədlərindən biri ali məktəblərdə yalnız nəzəri biliklərin öyrədilməsi deyil, tələbələrin yaradıcı potensialının inkişaf etdirilməsidir. Xüsusilə psixologiya kimi sosial və humanitar bir fənnin tədrisində tələbələrə problemə çoxşaxəli yanaşma, alternativ düşüncə və innovativ həll yolları tapmaq bacarığının aşılanması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan ixtira üsulu, yəni yaradıcı problem həll etməyə əsaslanan təlim metodları, təlim prosesinə yeni nəfəs gətirir. İxtira üsulu tələbələrin mövcud bilik və bacarıqları əsasında fərqli və innovativ yanaşmalar tapmasını stimullaşdıran təlim texnologiyasıdır. Bu üsulun elmi əsasını sovet mühəndisi və psixoloqu Genrix Altşullerin inkişaf etdirdiyi TRIZ (Təlimdə ixtira problemlərinin həlli teoriyası) təşkil edir.

İxtira üsulu tələbələrin müəyyən zehni hərəkətləri nəticəsində əvvəllər onlara məlum olmayan məhsulun yaradılması üsuludur. Bu üsul aşağıdakı üsullardan istifadə etməklə həyata keçirilir:

- yeni obyekt yaratmaq üçün bir obyektin keyfiyyətlərini digərinin keyfiyyətləri ilə əvəz etmək;
- başqa mühitdə obyektin xüsusiyyətlərini tapmaq, öyrənilən obyektin elementini dəyişdirmək;
- yeni, dəyişdirilmiş obyektin xüsusiyyətlərini təsvir etmək. [6, s.17]

Bu üsullar yaradıcı tapşırıqların istifadəsi kimi tədris üsulları vasitəsilə həyata keçirilir. Müəllim dərs zamanı adi psixoloji konsepsiyaları deyil, onunla bağlı real həyat problemini təqdim edir və tələbələrdən bu problemi fərqli yollarla həll etməyi istəyir. Bu zaman tələbələr yalnız nəzəri bilikləri tətbiq etməklə kifayətlənmirlər. Onlardan həmin bilikləri yeni şəraitə uyğunlaşdırmaq, transformasiya etmək və alternativ həll yolları tapmaq tələb olunur. Psixologiya fənninin tədrisi prosesində kreativliyin inkişafı üçün sinektika üsulundan istifadə tələbələrin yaradıcı təfəkkürünü inkişaf etdirmək və psixoloji bilikləri daha dərindən mənimsəmək üçün olduqca effektivdir. Sinektika, problemə yaradıcı və metaforik yanaşma ilə yeni ideyaların ortaya çıxmasını stimullaşdıran təlim metodudur. "Sinektika" sözü yunanca "synectikos" birləşdirici, əlaqələndirici deməkdir. Bu üsul 1950-ci illərdə amerikalı elm adamı J.J. Gordon tərəfindən yaradılmışdır. Sinektika üsulunun əsas məqsədi tələbələri onların vərdiş etdikləri düşüncə tərzindən ayıraraq analoji və metaforik təfəkkür vasitəsilə problemi daha yaradıcı və kreativ yollarla həll etməyə sövq etməkdir.

Sinektika metodu beyin həmləsi metoduna, müxtəlif növ analogiyalara, inversiyaya və assosiasiyalara əsaslanır. Əvvəlcə problemin ümumi xüsusiyyətləri müzakirə edilir, ilk həll yolları irəli sürülür və aradan qaldırılır, analogiyalar yaradılır və inkişaf etdirilir. Problemi başa düşmək üçün analogiyalardan istifadə edilir, alternativlər seçilir, yeni analogiyalar axtarılır və problemə qaytarılır. Psixologiya fənninin tədrisi zamanı tələbələrin yaradıcı və assosiativ düşüncəsini inkişaf etdirmək üçün sinektika üsulu imkan verir ki, tələbələr:

- psixoloji problemləri metaforalarla izah etsinlər;
- psixoloji hadisələri və anlayışları qeyri-ənənəvi kontekstdə dərk etsinlər;
- müxtəlif fenomenlər arasında gözlənilməz əlaqələr qursunlar;
- empatik və simvolik təfəkkürlərini gücləndirsinlər.

Psixologiya fənninin tədrisində sinektika üsulunun tətbiqi tələblərə uyğun yaradıcı mühitin formalaşdırılmasında mühüm yer tutur. Sinektika üsulu sayəsində tələbələr abstrakt və mürəkkəb psixoloji anlayışları daha dərindən və mənalı şəkildə qavramağa başlayır. Metaforik təfəkkür və analoji yanaşmaların tətbiqi, tələbələrə həm fərdi təcrübələrini dərsə inteqrasiya etmək, həm də psixoloji mövzulara daha empatik və simvolik baxış bucağından yanaşmaq imkanı verir. Bu isə onların emosional zəkasının və təhliletmə bacarığının inkişafına birbaşa təsir göstərir.

Tədris prosesində sinektikanın istifadəsi:

- Tələbələrdə yaradıcı və assosiativ düşünmə vərdişlərini inkişaf etdirir;
- Psixoloji problemlərə fərqli və effektiv həll yolları təklif etməyə sövq edir;
- Motivasiya və marağı artırır, dərsin monotonluğunu aradan qaldırır;
- Tədrisi tələbəyönlü və şəxsi təcrübəyə əsaslanan hala gətirir;
- Mücərrəd anlayışların praktik dərkini və tətbiqini asanlaşdırır.

Bundan əlavə, sinektika üsulu psixologiyanın müxtəlif sahələrində təhsil psixologiyası, klinik psixologiya, sosial psixologiya və s. müasir tələblərə uyğun yaradıcı pedaqoji modellərin qurulmasına şərait yaradır. Sinektika üsulunun psixologiya dərslərinə inteqrasiyası tələbələrin həm elmi-idraki, həm də yaradıcı-emotiv bacarıqlarını inkişaf etdirən kompleks və effektiv bir təlim texnologiyası kimi qiymətləndirilə bilər. Belə yanaşmalar, XXI əsrin tələblərinə cavab verən kreativ, çevik düşüncəli və psixoloji baxımdan həssas mütəxəssislərin hazırlanmasına mühüm töhfə verir. [7, s.5-14]

Aparılan araşdırmalar göstərir ki, psixologiya fənninin tədrisi prosesində kreativliyin tətbiqi müasir təhsil sisteminin qarşıya qoyduğu əsas tələblərdən biridir. Kreativ təlim texnologiyaları beyin həmləsi, ixtira üsulu, sinektika və digər metodlar tələbələrin koqnitiv, emosional və təcrübi bacarıqlarının inkişafına xidmət edir, onların yaradıcı potensialını üzə çıxarır, dərs prosesini daha interaktiv və tələbəyönlü edir. Beləliklə, kreativ təlim texnologiyaları psixologiya dərslərində yaradıcı və analitik təfəkkürün inkişafı üçün mühüm metodoloji baza rolunu oynayır. Onların tətbiqi ali məktəblərdə müasir tələbələrə cavab verən, çevik düşüncəli və yaradıcı mütəxəssislərin hazırlanmasına mühüm töhfə verir.

Problemin aktuallığı. Müasir təhsil sistemi sürətlə inkişaf edən və dəyişən cəmiyyətin tələblərinə cavab vermək üçün tələbələrin kreativ və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyi əsas məqsəd kimi qarşıya qoyur. Bu baxımdan ali məktəblərdə psixologiya fənninin tədrisi yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənməməli, həmçinin tələbələrin fərdi potensialının, yaradıcı təfəkkürünün və praktik bacarıqlarının formalaşmasına da xidmət etməlidir. Psixologiya dərslərində kreativliyin həyata keçirilməsinə yönəlmiş təlim texnologiyalarının tətbiqi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Problemin elmi yeniliyi ondan ibarətdir ki, psixologiya dərslərində yaradıcı mühitin təşkili üçün müəllim, tələbə münasibətlərinin strukturuna, təlim motivasiyasına və interaktiv fəaliyyətə yönəlmiş praktik təkliflər irəli sürülür.

Problemin praktik əhəmiyyəti. Tədqiq olunan problemin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, psixologiya fənninin tədrisi prosesində kreativliyin həyata keçirilməsi məsələsi elmi-pedaqoji yanaşmalar baxımından sistemləşdirilir və müasir təhsil nəzəriyyələri ilə uzlaşdırılır. Problemin praktik əhəmiyyəti isə ondan ibarətdir ki, məqalədə təqdim olunan metodoloji yanaşmalar və konkret təlim texnologiyaları ali məktəblərdə psixologiya dərslərinin təşkili və həyata keçirilməsində müəllimlər üçün tətbiq edilə biləcək real və effektiv vasitələr təqdim edir.

Ədəbiyyat

1. Davies D., Jindal-Snape D., Collier C., Digby R., Hay P., Howe A. Creative learning environments in education – A systematic literature review // Thinking Skills and Creativity. – 2013. – №8. – P. 80–91.
2. Подласый, И. П. Педагогика / И. П. Подласый, – М.: Просвещение – ВЛАДОС, –1999. – 432 с.
3. Подласый, П. И. Педагогика / И. П. Подласый, – М., 1998. – С. 241.
4. Трушкина Н. В. Развитие творческого мышления студентов в образовательной среде вуза // Педагогика и психология образования. – 2021. – №3. – С. 54–60.
5. Оспанова, Б. А. Технология формирования креативности будущего специалиста в условиях университетского образования. – Туркестан, 2006. -97 s.
6. Altshuller G. Creativity as an Exact Science: The Theory of the Solution of Inventive Problems. – New York: Gordon and Breach, 1984. – P. 17.
7. Gordon W. J. J. Synectics: The Development of Creative Capacity. – New York: Harper & Row, 1961. – P. 5–14.

Redaksiyaya daxil olub: 08.10.2025

UOT 159.9.

Расиф Рафаел оглы Музаффаров
диссертант по программе доктора философии
Университета Одлар Юрду
https://orcid.org/ 0009-0001-5920-5225
E-mail: rasif.muzefferov@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(6).376-380

ИНДИВИДУАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ АДАПТАЦИИ КУРСАНТОВ К УСЛОВИЯМ ОБУЧЕНИЯ В ПОЛИЦЕЙСКОЙ АКАДЕМИИ

Rasif Rəfayel oğlu Müzəffərov
Odlar Yurdu Universitetinin
fəlsəfə doktoru proqramı üzrə dissertantı

POLİS AKADEMİYASINDA KURSANTLARIN TƏLİM ŞƏRAİTİNƏ UYĞUNLAŞMASININ FƏRDİ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Rasif Rafael Muzaffarov
doctorial student in the program of doctor of philosophy of
Odlar Yurdu University

INDIVIDUAL-PSYCHOLOGICAL CHARACTERISTICS OF CADETS' ADAPTATION TO THE CONDITIONS OF TRAINING AT THE POLICE ACADEMY

Аннотация. В статье рассматриваются факторы, влияющие на адаптацию личности к изменяющимся условиям. Отмечается, что морально - психологический климат в коллективе академии является одним из важнейших условий адаптации курсантов к изменяющимся условиям. Исходя из всего этого, следует учитывать и развивать личностные качества курсантов в период подготовки к полицейской академии. В результате курсанты, обладающие этими возможностями, смогут адаптироваться к изменяющимся новым условиям, успешно преодолевая адаптационные барьеры.
Ключевые слова: *темперамент, характер, мотивация, адаптация, курсанты, психология личности, психологический климат в коллективе*

Xülasə. Məqalədə şəxsiyyətin dəyişən şəraitə adaptasiyasına təsir edən amillər nəzərdən keçirilir. Akademiya kollektivindəki mənəvi-psixoloji iqlimin kursantların dəyişən şəraitə uyğunlaşmasının ən mühüm şərtlərindən biri olduğu qeyd olunur. Bütün bunlardan çıxış edərək, polis akademiyasına hazırlıq dövründə kursantların şəxsi keyfiyyətlərinin nəzərə alınması və inkişaf etdirilməsi zəruridir. Nəticədə, bu imkanlara malik olan kursantlar dəyişən yeni şəraitə uğurla adaptasiya ola və adaptasiya baryerlərini asanlıqla dəf edə biləcəklər.
Açar sözlər: *temperament, xarakter, motivasiya, uyğunlaşma, kursantlar, şəxsiyyət psixologiyası, kollektivdə psixoloji mühit*

Abstract. The article examines the factors influencing an individual's adaptation to changing conditions. The moral and psychological climate within the academy's collective is identified as one of the most important conditions for cadets' adaptation to changing circumstances. Based on all these considerations, it is necessary to take into account and develop the personal qualities of cadets during their preparation for the police academy. As a result, cadets who possess these abilities will be able to successfully adapt to the new changing environment and easily overcome adaptation barriers.
Key words: *temperament, character, motivation, adaptation, cadets, personality psychology, psychological climate in the team*

Современные социально-экономические и образовательные изменения предъявляют высокие требования к уровню психологической готовности и адаптационным воз-

можностям личности, особенно в профессиональной среде, где дисциплина, самоконтроль и эмоциональная устойчивость имеют решающее значение. Известно, что успешность адаптации во многом определяется индивидуально-психологическими особенностями личности, в частности – темпераментом, характером, мотивацией и волевой сферой. Именно эти компоненты обуславливают эмоциональные реакции, стиль поведения, отношение к деятельности и способность справляться с трудностями. Изучение данных факторов представляет особую важность для понимания причин трудностей, возникающих у курсантов в период адаптации к новым условиям, а также для разработки психолого-педагогических мер, направленных на формирование профессионально зрелой личности будущего сотрудника полиции. Таким образом, актуальность исследования заключается в необходимости всестороннего анализа психологических особенностей курсантов, определяющих их способность адаптироваться к меняющимся условиям учебной и служебной деятельности, а также в разработке эффективных подходов к повышению уровня их психологической устойчивости и профессиональной мотивации. В настоящее время в психологии изучение индивидуальности по темпераменту включает использование наблюдение, опрос, тестирование и другие методы. В результате выясняются ригидность и пластичность, экстраверсия и интроверсия, активность и пассивность, чувствительность, бдительность индивидуальности. Помимо этого, можно определить эмоциональные состояния испытуемых по их нервным свойствам. Здесь в качестве основных характеристик рассматриваются эмоционально возбужденные, спокойные, неустойчивые, оптимистичные, пессимистичные, сентиментальные, застенчивые, закрытые, чуткие, спокойные, агрессивные, негативные типы и т.д.

Другая область изучения темперамента, которая позволяет нам получать информацию – это мотивация личности. Индивидуальные особенности мотивации проявляются в стремлении к успеху или избегании его, уровне самооценки и притязаний, стремлении, заинтересованности и незаинтересованности в решении поставленных задач. Другая информация, которую мы можем получить при изучении индивидуальности, связана с силой воли. К таким свойствам можно отнести такие качества, как слабость и сила, сдержанность и нетерпение, терпимость и застенчивость, покорность и упрямство.

Таблица 1.

Выдающиеся психологические характеристики типов темперамента

Психологические особенности	**тип**
Экстравертный. Ему присуща высокая реактивность. Их чувства, настроение, интересы и желания непостоянны. Быстро находит общий язык и хорошо ладит с новыми людьми. Он быстро усваивает привычки, реорганизует их. Он может испытывать чувство радости или печали из-за незначительного вопроса. Факт, который на самом деле недействителен, может сильно его раздражать. На все, что привлекает его внимание, он реагирует с воодушевлением и большим энтузиазмом. Обладает выразительной мимикой и движениями. По выражению лица становится возможным легко определить его настроение, отношение к человеку или предмету. Он быстро собирает свое внимание. Его чувствительность находится на высоком уровне. Поскольку его сенситивность плохая, он не может слышать слабые звуки и световые лучи, а также другие сенсорные эффекты. Пластичность высокая. Обладает высокой активностью, энергией, работоспособностью. Он сметливый и сообразительный. Включается в новую работу с энергией, быстро присоединяется, скорейшим образом осваивает новые правила. Легко привыкает к новым требованиям и условиям. Он может работать без устали в течение длительного времени. Быстро переходит с одной работы на другую, легко устраивается. Он может хорошо предотвращать свои чувства и непроизвольные реакции. Для него характерны быстрые движения, быстрый темп речи.	**Сангвиник**

Экстравертный. Как и сангвиник, он отличается низкой сенситивностью, высокой реактивностью и активностью, но реактивность превосходит активность. По этой причине он отличается неудержимым буйством в общении. Он неусидчивый, нетерпелив, быстро выходит из себя. Он менее пластичны и более ригидны. Это генератор непоколебимых усилий и интересов. Хотя он настойчив в некоторой работе, ему трудно сконцентрироваться на каком-то конкретном виде деятельности. Его психический темп быстрый. Когда его критикуют, он быстро раздражается, выходит из себя. Преподаватели не должны упускать из виду упомянутые особенности таких курсантов. С такими курсантами нужно действовать осторожно, не давая им быстро принимать решения и совершать неправильные действия.	**Холерик**
Интровертный, мало сенситивен и менее эмоциональен. Его трудно рассмешить, рассердить и расстроить. Он не теряет хладнокровия, становится сдержанным, даже когда все по какой-то причине смеются вслух. Он терпеливо относится к проявленному к нему негативному отношению. Его выражение лица кажется спокойным, а движения-нерешительными. Однако он отличается энергичностью и высокой работоспособностью. Организует свою деятельность терпеливо, выносливо. Его речь и движения медлительны. Он постепенно концентрирует свой ум. С трудностью переключает свое внимание с одного места на другое. К новым условиям приноравливается с трудом. Он не склонен менять нравы и привычки, поздно приобретает новые привычки. Он с трудом находит общий язык с новыми людьми, не так легко выражает свои впечатления.	**Флегматик**
Интровертный. Его сенситивность высока. Он мучительно чувствителен и мало реагирует. Психический темп, работоспособность низкая. Он может нервничать по незначительной причине. Он слишком обидчивый. Его мимика и движения невыразительны, а голос медленный. В его поступках выражается жалость. Даже когда он смеется, его голос слышен слабо. Активность низкая. Несмелый и неуверенный в себе. Небольшая трудность приводит его в разочарование и уныние. Он неустойчив в своей деятельности и быстро устает. Его мысли переменчивы, легко отвлекается. Не раскрывают окружающим свои секреты, чувства. Практика показывает, что такой подход к меланхоличному курсанту обычно дает нежелательный результат. Под влиянием угроз и страха он предпочитает быть еще более замкнутым, погруженным в свой обиженный мир. Поскольку меланхолики не уверены в своих силах, трудности, с которыми они сталкиваются, вызывают у них чувство неумение, некомпетентности, они не могут проявить инициативу, решительность. Поэтому для повышения уверенности в собственных силах у курсантов меланхолического типа возникает необходимость более индивидуального подхода к ним, чем к курсантам с другим типам темперамента. Для этого это эффективный способ положительно оценить результаты, объяснить ему свои превосходные способности, дав ему задание, в котором он может добиться успеха.	**Меланхолик**

Другой показатель индивидуальности – характер. Характер - это фенотипические черты, которые сочетают в себе как врожденные, так и приобретенные характеристики человека. Здесь речь идет об отношении человека к себе, другим, деятельности, окружающей среде и ее элементам. В то время как у кого-то они соответствуют социальным нормам, моральным ценностям, нравственным традициям, у кого-то они могут не быть такими. Это также может быть вызвано акцентуацией характера. Трудно сказать, какие из них наиболее часто проявляется у конкретного человека. А в целом сложность характера группируется по шкалам [3, с. 427].

Таблица 2.

Акцентуированные свойства характера

Шкалы	*Типы характера*	*основные свойства*
Шкала I	*Q-1. Гипертим*	личность с высокой жизненной активностью
2-я шкала	*Q-2. Бдительный*	уровень бдительности
3-я шкала	*Q-3. Эмотивный*	глубины эмоциональной жизни испытуемого

4-я шкала	*Q-4. Педантичный*	склонность испытуемого к педантизму (дотошности, мелочности)
5-я шкала	*Q-5. Тревожный*	повышенная тревожность
6-я шкала	*Q-6. Циклотив*	склонность к перепадам настроения
7-я шкала	*Q-7.Демонстративный*	демонстративность, театральное поведение, эгоцентризм
8-я шкала	*Q-8. непостоянный*	нестабильность поведения
19-я шкала	*Q-9. Дистимный*	степень утомляемости
10-я шкала	*Q-10. Буйный*	сила и выразительность эмоциональной регуляции

Нельзя сказать, что между нитью темперамента личности и характером существует зависимость. Он может быть холериком или сангвиником, равнодушным к самому себе, но в то же время добрым к другим. Или кто-то с флегматичным темпераментом проявляет себя спокойным и сдержанным по отношению к своим внутренним чувствам, но нетерпеливым по отношению к вмешательству других в его дела. Также возможны конфликты внутри, казалось бы, спокойного, быстро приноравливающегося человека.

Все это свидетельствует о том, что причины проявления агрессивности, неадекватного поведения, отсутствия интереса к обучению и ослабления мотивации у курсантов, поступивших в полицейскую академию, могут быть связаны с различными факторами. Все это различные формы возникновения дезадаптации, то есть нарушения процесса приноравливания к новым условиям. Когда курсант не может найти себе места в новых социальных условиях, не желает принимать правила, он испытывает внутренний дискомфорт, стресс, замыкается в своем внутреннем мире, сравнивая себя с другими, создает ряд проблем для окружающих, а также для родителей. Непонимание возложенных на него обязанностей, функций, поиск причин своих неудач в других и обвинение их затрудняет адаптацию курсанта к внутренней жизни Академии.

Влияние членов коллектива как друг на друга, так и на курсантов неизбежно. Поэтому это является одним из важных условий морально-психологического климата в коллективе академии при адаптации курсантов к изменяющимся условиям. При благоприятном климате создается благоприятная основа для физической и психологической подготовки каждого курсанта. В то же время необходимо учитывать влияние каждого курсанта на новые условия. Поэтому необходимо изучить факторы, стоящие на переднем крае их адаптации к изменяющимся условиям, предотвратить их вредное воздействие.

В период адаптации определяется уровень приноравливания курсантов полицейской академии к изменяющимся условиям жизни. Успешная адаптация курсанта I курса к новой жизни и профессиональному образованию создает основу для формирования в каждом из них профессиональной личности будущего специалиста. Поскольку во взаимоотношении каждого молодого человека (здесь мальчиков) в новых условиях также существуют определенные стандарты с точки зрения квалификации, адаптация также происходит по-разному. Наряду с их эмоциональной сферой, их поведение начинает меняться, отличаться от прежнего.

Перед проведением мероприятий по ускорению психологической адаптации курсантов к изменяющимся условиям жизни возникает необходимость не только изучить характерные особенности каждой группы, но и разработать индивидуальные психологические карты курсантов, входящих в обе группы. Эти карты важны для сравнения изменений, происходящих у курсантов.

Адаптация курсантов I курса к меняющимся условиям происходила по-разному. Несмотря на то, что некоторые проходили этот этап практически без проблем, быстро и легко достигали хороших результатов, но их настроение не сильно изменалось. В то время как другие не испытывали серьезных трудностей в учебной деятельности, меняющиеся условия казались им неподходящими. Были также курсанты, у которых период адаптации был более длительным и очень тяжелым. Изменение жизненного благополучия, лишение родительской (особенно материнской) ласки и заботы, требования по-

вышения физических и психологических показателей сопровождались ухудшением эмоциональной сферы, а в целом-поведения и отношений Психологические проблемы, расстройства, которые возникли в период адаптации создавали аналогичные ситуации и в других сферах личности

Важным аспектом этапа адаптации является то, что в меняющихся условиях Академии это создало возможность курсантам этой специальности более точно сделать свой выбор. Это также позволяло руководству определять степень освоения курсантами профессиональных компетенций. Также в период адаптации курсант должен актуализировать свои внутренние возможности для приобретения профессиональных компетенций, он также способен определить свою эмоционально-волевую силу. В результате курсанты, которые имеют эти возможности, успешно преодолевая адаптационные препятствия адаптировались к изменяющимся новым условиям.

На основании всего этого, в процессе подготовки к полицейской академии необходимо учитывать и развивать их личные качества, выносливость, мотивацию. Важнейшим вопросом на этом этапе является также физическая и морально-психологическая подготовка. В таком случае процесс адаптации курсанта к меняющимся условиям пройдет успешно.

Научная новизна проблемы. Вопрос рассматривается на примере Полицейской академии МВД Азербайджанской Республики, где подчеркивается важность множества психологических факторов, влияющих на процесс адаптации, таких как темперамент, характер, семейное воспитание, социальная среда и мотивация. Анализируются результаты различных исследований, проведённых в этом направлении.

Актуальность проблемы. Изучение факторов, влияющих на адаптацию личности к изменяющимся условиям, играет критическую роль в современный период в формировании психологической устойчивости, профессиональной социализации и индивидуального потенциала развития молодежи – особенно курсантов, обучающихся в учебных заведениях с особым режимом, включая Полицейскую академию.

Практическая значимость проблемы. Полученные результаты побуждают учитывать индивидуальные особенности курсантов, эффективно управлять процессом их адаптации и разрабатывать программы психологической поддержки.

Литература

1. Байрамов А.С., Ализаде А.А. Психология: –Баку, 2003. - 540 с.
2. Адлер, А., Юнг К. Г. Результаты пересмотра динамического направления // Теории личности. – М.-СПб: Питер, –1997, –с.161-213
3. Вольвич, Ю.К. Психологические ресурсы устойчивости личности к стрессу в организациях разных сфер и видов деятельности: / дисс… канд. наук психол./ –Краснодар: –2018. –266 с.
4. Ильин, Е.М. Психология индивидуальных различий / Е.П. Ильин. –СПб: Питер, –2011. –701 с.
5. Мерлин В.С. Собрание сочинений. Том 3: Очерк теории темперамента / В.С. Мерлин. –Пермь: ПСИ, –2007. –276 с.

Redaksiyaya daxil olub: 20.11.2025

UOT 37.1

AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİNDƏ YENİ MƏNBƏ KİMİ "ÜZEYİR HACIBƏYLİ SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ" KİTABININ ELMİ-NƏZƏRİ DƏYƏRİ

Azərbaycan klassik musiqisinin banisi hesab olunan Üzeyir bəy Hacıbəyli həm də pedaqoji sahədə göstərdiyi mühüm xidmətləri ilə də müasir milli təhsilimizin əsasını qoymuş qabaqcıl maarifçi ziyalılarımızdandır.

Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlər göstərmiş bu dahi şəxsiyyət ölkəmizdə müasir musiqi təhsilinin də təməlini qoymuşdur.

Azərbaycan mədəniyyətinin və ictimai fikir tarixinin parlaq simalarından biri olan Üzeyir Hacıbəyli XX əsrin əvvəllərində yalnız milli musiqi sənətində deyil, eyni zamanda maarifçilik və pedaqoji fikir sahəsində də dərin iz qoymuş şəxsiyyətlərdəndir. Publisistik məqalələri, satirik yazıları və maarifçilikyönlü çıxışları göstərir ki, o, təhsili yalnız fərdi inkişaf vasitəsi kimi deyil, həm də cəmiyyətin tərəqqisinin əsas şərti kimi qəbul edirdi. Buna görə də, 2025-ci ildə işıq üzü görən "Üzeyir Hacıbəyli. Seçilmiş pedaqoji əsərləri" adlı kitabın nəşri, milli pedaqoji irsin öyrənilməsi baxımından son dərəcə mühüm elmi və ictimai hadisədir. Kitabın hazırlanması peşəkar elmi yanaşma ilə həyata keçirilmişdir.

Nəşrin elmi redaktoru və əsas tərtibçisi pedaqogika elmləri doktoru, professor **Akif Nurağa oğlu Abbasov**, digər tərtibçiləri isə pedaqogika üzrə fəlsəfə doktorları **İradə Əmirəliyeva** və **Lalə Məmmədlidir**.

Kitabın incələnməsi göstərir ki, əsərlərin sistemləşdirilməsi ciddi elmi prinsiplər əsasında aparılmış və müəllifin pedaqoji baxışlarının bütöv mənzərəsini təqdim etmək məqsədi güdülmüşdür. "Seçilmiş pedaqoji əsərlər" kitabında Üzeyir Hacıbəylinin müxtəlif illərdə qələmə aldığı məqalələr, satirik hekayələr və publisistik yazılar toplanmışdır. Burada diqqəti cəlb edən əsas məqam ondadır ki, müəllifin pedaqoji görüşləri müxtəlif janrlarda ifadə olunmasına baxmayaraq, onlar vahid maarifçilik konsepsiyasına xidmət edir. Mənbə bazası kimi 1985-ci ildə "Yazıçı" nəşriyyatında və 2005-ci ildə "Şərq-Qərb" nəşriyyatında çap olunmuş toplular əsas götürülmüşdür. Lakin yeni nəşr həmin materialların içindən yalnız pedaqoji məzmun daşıyanları seçərək ayrıca təqdim etmişdir. Bununla da Hacıbəylinin pedaqoji irsi ilk dəfə sistemli və məqsədyönlü şəkildə bir araya gətirilmişdir.

Struktur baxımından kitab məzmun etibarilə üç əsas istiqaməti əhatə edir. Birinci istiqamət maarifçilik və təhsil məsələlərinə həsr olunmuşdur ki, burada təhsil siyasəti, məktəbin rolu, müəllim nüfuzu və xalqın tərəqqisi üçün maarifin vacibliyi geniş şəkildə işıqlandırılır. İkinci istiqamət tərbiyə və əxlaq mövzularına həsr edilmiş, gənclərin milli-mənəvi dəyərlər əsasında formalaşdırılması, vətənpərvərlik və əxlaqi saflaşma ideyaları qabardılmışdır. Üçüncü istiqamət isə bədii-satirik yanaşmalardan ibarətdir və burada müəllifin hekayələrində və publisistik yazılarında cəmiyyətin naqisliklərinin tənqidi, savadsızlıq və cəhalətə qarşı mübarizə ideyaları öz əksini tapmışdır.

Üzeyir Hacıbəylinin pedaqoji baxışları yalnız nəzəri fikir olaraq deyil, həm də praktik mahiyyət kəsb edir. Onun fikirlərini ümumiləşdirərək bir neçə istiqamətdə şərh etmək mümkündür. Əvvəla, Hacıbəyli savadsızlığı cəmiyyətin ən böyük bəlası hesab edir və xalqın tərəqqisinin yeganə yolunu maarifin geniş yayılmasında görürdü. O, maarifçiliyi sadəcə elm öyrənmək prosesi kimi deyil, həm də ictimai şüurun dəyişdirilməsi vasitəsi kimi təqdim edirdi. Bu ideyalar dövrün digər böyük maarifçiləri ilə səsləşir, lakin Üzeyir Hacıbəylinin fərqi ondadır ki, o, maarifi həm də milli mədəniyyətin inkişafı ilə bilavasitə əlaqələndirirdi. Digər tərəfdən, onun əsərlərində gənc nəslin əxlaqi keyfiyyətlərinin formalaşdırılması xüsusi yer tutur. Vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik, insanpərvərlik və məsuliyyət anlayışları pedaqoji sistemin ayrılmaz tərkib hissəsi kimi göstərilir. Bu

yanaşma həm klassik Şərq pedaqoji ənənələri ilə bağlıdır, həm də müasir dövr üçün aktualdır.

Eyni zamanda, Üzeyir Hacıbəyli müəllimi cəmiyyətin mənəvi dayağı, ictimai inkişafın əsas hərəkətverici qüvvəsi hesab edirdi. O, müəllimin yalnız bilik ötürən deyil, həm də şəxsiyyət formalaşdıran bir fiqur olduğunu vurğulayırdı. Bu baxış müasir pedaqoji nəzəriyyələrlə səsləşərək, müəllimin sosial missiyasını daha geniş müstəvidə təqdim edir.

Bütün bunlarla yanaşı, Üzeyir Hacıbəylinin pedaqoji ideyaları yalnız məktəb və müəllimlə məhdudlaşmır. Belə ki o, təhsili ümumi mədəni tərəqqinin əsası kimi dəyərləndirirdi. Onun satirik hekayələrində və publisistik yazılarında savadsızlığın və cəhalətin tənqidi göstərir ki, pedaqoji proses ictimai həyatın bütün sahələri ilə bağlıdır.

Bu kitab tədqiqatçılar, doktorantlar və magistrantlar üçün mühüm elmi mənbədir. Onun əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. Sözügedən kitab tarixi mənbə kimi XX əsrin əvvəllərində Azərbaycan təhsil tarixinin və maarifçilik hərəkatının öyrənilməsi üçün zəngin material təqdim edir. Bundan əlavə, toplu pedaqoji nəzəriyyələrin inkişafını öyrənmək üçün nəzəri baza funksiyasını yerinə yetirir və metodoloji baxımdan müasir pedaqoji tədqiqatlarda millimədəni kontekstdə istinad mənbəyi rolunu oynaya bilir.

Üzeyir Hacıbəylinin pedaqoji ideyalarını dövrün digər maarifçiləri ilə müqayisə etdikdə, bəzi oxşar və fərqli cəhətlər üzə çıxır. Məsələn, Mirzə Fətəli Axundzadə və Cəlil Məmmədquluzadə də maarifi tərəqqinin əsası hesab etmişdilər. Lakin Üzeyir Hacıbəyli bu ideyanı musiqi və mədəniyyət vasitəsilə dəstəkləmiş, pedaqoji fikri bədii yaradıcılıqla birləşdirərək, yeni sintez yaratmışdır. Bu, onun pedaqoji irsinin unikallığını təmin edir.

"Üzeyir Hacıbəyli. Seçilmiş pedaqoji əsərlər" kitabı bir neçə mühüm xüsusiyyəti ilə seçilir. Əsərin elmi yeniliyi ondadır ki, Hacıbəylinin pedaqoji irsi ilk dəfə ayrıca toplu şəklində sistemləşdirilmişdir. Digər tərəfdən, nəşr milli pedaqoji tarixdə mühüm boşluğu doldurur və bu mənada böyük əhəmiyyət daşıyır. Bundan başqa, əsərlərdəki ideyalar bu gün də təhsil islahatları və pedaqoji nəzəriyyələr üçün praktik əhəmiyyət kəsb edir. Kitab eyni zamanda elmi işlərdə etibarlı istinad mənbəyi rolunu oynayaraq pedaqoji nəzəriyyələrin inkişafına xidmət edir.

Bu əsər, Üzeyir Hacıbəyli yaradıcılığının pedaqoji tərəfini sistemli şəkildə təqdim etməklə, müasir təhsil nəzəriyyəsi və praktikası üçün mühüm elmi mənbə hesab oluna bilər. Müəllifin pedaqoji düşüncələri, təhsil və tərbiyə proseslərinin idarə olunması, müəllim və şagird münasibətlərinin təşkili sahəsində konkret konseptual yanaşmalar təqdim edir. Kitabın redaktə və tərtibat prosesi əsərin elmi səviyyəsini artırır, həmçinin oxucuya təhlil edilən materialları istifadəyə hazırlayır. Kitabın tərtibatçılarının sistemli işləri, materialların mənbələrlə uyğunluğunu və təhlil imkanlarını artırır, elmi əsaslandırma və məlumatların dəqiqliyini təmin edir.

Kitab, həmçinin pedaqoji fikir tarixinin öyrənilməsi və müasir təhsil metodlarının formalaşdırılması baxımından qiymətli elmi töhfədir. Müəllifin pedaqoji prinsipləri, tərbiyə və tədris strategiyaları, eləcə də müəllim və şagirdlər arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi sahəsində təcrübə və nəzəri bilikləri əhatə edir. Bu yanaşma əsərin yalnız akademik dairələrdə deyil, həm də təhsil praktikasında tətbiqinə imkan yaradır.

Ümumilikdə, "Üzeyir Hacıbəyli . Seçilmiş pedaqoji əsərlər" oxucuya geniş elmi kontekst təqdim etməklə, pedaqoji nəzəriyyənin inkişafına töhfə verir, müəllim və tədqiqatçılar üçün istifadə edilə biləcək metodik resurs rolunu oynayır. Kitabın strukturu, redaktə prosesi və təqdim etdiyi konseptual yanaşmalar əsərin elmi dəyərini artırır və onu müasir təhsil sahəsində etibarlı mənbə kimi qiymətləndirməyə imkan yaradır.

Nəticə olaraq, bu nəşr Üzeyir Hacıbəylinin çoxşaxəli irsinin mühüm bir hissəsini – pedaqoji görüşlərini müasir oxucuya təqdim edir. O, həm milli-mədəni dəyərlərin qorunmasına, həm də pedaqoji elmin inkişafına xidmət edən dəyərli elmi-bədii topludur. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 3 fevral 2025-ci il tarixli sərəncamı ilə Üzeyir Hacıbəylinin 140-illik yubileyinin böyük təmtəraqla keçirilməsi üçün geniş-miqyaslı tədbirlər planı hazırlanmasını və icrasını təmin etmişdir; bu plan çərçivəsində Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi ilə birgə müxtəlif elmi, mədəni və musiqi tədbirlərin təşkili tapşırılmışdır. Prezidentin bu təşəbbüsü

həm Azərbaycanda, həm də xaricdə keçirilən musiqi konsertləri və təbliğat kampaniyaları vasitəsilə Üzeyir Hacıbəyli irsinin beynəlxalq səviyyədə qiymətləndirilməsinə və geniş ictimaiyyətə çatdırılmasına mühüm stimul vermişdir. Bu tədbirlər Azərbaycanın mədəni diplomatiyasına töhfə verərək, Üzeyir Hacıbəylinin milli musiqi və pedaqoji irsinin yaşadılmasına və növbəti nəsillərə ötürülməsinə xidmət etmişdir. Bu kontekstdə "Üzeyir Hacıbəyli. Seçilmiş pedaqoji əsərləri" kitabının nəşri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ildə bəstəkarın 140 illik yubileyinin keçirilməsi haqqında imzaladığı müvafiq sərəncamın ideya-məzmun istiqamətinə uyğun mühüm elmi və mədəni töhfə kimi dəyərləndirilə bilər. Belə ki, nəşr yalnız yubiley tədbirlərinin elmi məzmununu zənginləşdirmir, həm də Üzeyir Hacıbəylinin pedaqoji irsini sistemləşdirərək, milli-mədəni yaddaşın qorunmasına xidmət edir.

Düşünürəm ki, bu kitab yubiley tədbirlərinin tərkib hissəsi olaraq dövlətin mədəniyyət və təhsil siyasətinə nəzəri dəstək verib və Üzeyir Hacıbəylinin irsinin gələcək nəsillərə çatdırılmasında strateji əhəmiyyət kəsb edəcək.

Bu dəyərli kitabın tərtibçilərini ***(Akif Abbasov, İradə Əmirəliyeva, Lalə Məmmədli***) Azərbaycan elminin inkişafına verdiyi növbəti töhfə ilə təbrik edirəm! Əziz dostum, qələm yoldaşım, əməkdar müəllim, professor Akif Abbasov başda olmaqla, kitabın meydana gəlməsində əməyi olan pedaqogika üzrə fəlsəfə doktorları İradə Əmirəliyeva və Lalə Məmmədliyə elmi fəaliyyətlərində yeni yaradıcılıq uğurları arzulayıram.

Hümeyir Hüseyn oğlu Əhmədov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin müdiri,
pedaqogika elmləri doktoru, professor,
Qazaxıstan Pedaqoji Elmlər Akademiyasının xarici üzvü,
Rusiya Təhsil Akademiyasının xarici üzvü,
Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü,
RTA-nın Əməkdar elm və təhsil xadimi

Redaksiyaya daxil olub: 15.09.2025

MÜNDƏRİCAT
ОГЛАВЛЕНИЕ
CONTENTS

BAŞ REDAKTORDAN
FROM THE EDITOR IN CHIEF
ОТ ГЛАВНОГО РЕДАКТОРА

Akif Abbasov
Azərbaycan dili – dövlət dilidir, onun saflığını qorumalıylq
The Azerbaijani language is the state language, its purity must be preserved 5
